Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondunun qrant layihəsi
çərçivəsində çap olunmuşdur

ŞƏFA ƏLİYEV

# XÜSUSİ İQTİSADİ ZONALARIN TƏTBİQİ PROBLEMLƏRİ

Bakı, Elmin İnkişafı Fondu - 2012

Elmi redaktor:

Əvəz Bayramov

***Azərbaycan Dövlət İqtisad Universitetinin Elm və informasiya texnologiyaları üzrə prorektoru, iqtisad elmləri doktoru, professor***

Rəyçilər:

Fərman Qasımov

***Azərbaycan Milli Elmlər Akademiyasının Elmi İnnovasiyalar Mərkəzinin direktoru, iqtisad elmləri doktoru, professor***

Rasim Həsənov

***Azərbaycan Dövlət İqti.sad Universiteti yanında İqtisadi Araşdırmalar Elmi-Tədqiqat institutunun direktoru, iqtisad elmləri doktoru, professor***

Albert Tağıycv

***Sumqayıt Dövlət Universitetinin "Menecment" kafedrasının dosenti, iqti.sad elmləri namizədi***

Ş.T.Əliyev. Xüsusi iqtisadi zonaların tətbiqi problemləri. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2012. - 360 s.

***Monoqrafiyada xüsusi iqtisadi zonaların tətbiqi problemləri araşdırılmışdır. Bu məq.sədlə iqtisadiyyat elmində və dünya iqtisadiyyatı proseslərində xüsusi iqtisadi zonalara dair elmi-nəzəri baxışlar, onların konseptual mahiyyəti, hu kimi zonaların təşkilinin metodoloji cəhətləri, dünya iqtisadiyyatında rolu, milli iqtisadiyyatlarının inkişafında təsiri imkanları verilmişdir.***

***Monoqrafiya elmi işçilər, xüsu.si iqtisadi zonaların yaradılma.sı*** IVT ***fəaliyyəti, tətbiqi ilə məşğul olan miitə.\ə.ssislər. həmçinin geniş o.vucu kütləsi üçün nəzərdə tutulmuşdur. Bu tədqiqat işində yer almış elmi nəticələrdən və materiallardan .xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyəti üzrə milli konsepsiyasının formalaşmasında, dövlət proqramlarının və hu kimi zonalarla bağlı digər mühüm dövlət qərarlarının hazırlanmasında istifadə oluna hilər.***

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində çap olunmuşdur: Qrant .VÜEİF-201 1-İ(3)-82/80/5**

**FIF-201M(3)-8:.'80;S**

**ISBN 978-9952-8180-5-5**

**'Q Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu**

**Bu əsər 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən Azərbaycan Respublikası .Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 6641 nömrəli şəhadətnamə verilmişdir.**

# MUXDƏRICAT

GIRIŞ,

I FƏSİL. XÜSUSİ İQTİSADİ ZONALARIN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI....................................................10

1.1. iqtisadiyyat elmindo və dünya iqtisadiyyatı proseslərində XİZ-rə dair elmi-nəzəri baxışlar və onların konseptual mahi>'yəti ....... 10

1.2. XİZ-in fəaliyyətinin və təşkilinin metodoloji cəhətləri ..... 25

1.3. XİZ-in dünya iqtisadiyyatında rolu .................................. 45

II FƏSİL. İQTİSADİ İNKİŞAF PROSESLƏRİNDƏ XİZ-in TƏTBİQİNİN QİYMƏTLƏNDİRİLMƏSİ.............................. 64

2.1. İqtisadi inkişaf proseslərində XİZ-dən istifadənin səmərəliliyi 64

2.2. XİZ-dən cffcktivli istifadə edilməsində dünya təcrübəsi .. 95

2.3. Qloballaşma və iqtisadi transformasiyalar şəraitində XİZ-in tətbiqini şərtləndirən amillər .................................................. 127

III FƏSİL. İNNOVASİYA İQTİSADİYYATININ GENİŞLƏNDİRİLMƏSİNDƏ XÜSUSİ İQTİSADİ ZONALARIN ƏHƏMİYYƏTİ.......................................................................... 142

3.1. XİZ-in innovasiya fəaliyyətinin sürətləndirilməsinə təsiri142

3.2. Elmi-texniki yeniliklərin işlənməsi və reallaşdırılmasında XİZ amili ........................................................................................ 152

3.3. İnnovasiya funksiyalarının tətbiqində XLZ-dən istifadənin üstünlükləri ............................................................................ 160

IV FƏSİL. AZƏRBAYCANININ DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYASI PROSESLƏRİ ......................................... 173

4.1. Keçid iqtisadiyyatının sonu və milli iqtisadiyyatın beynəlmilləşməsi proseslərində yeni iqtisadi alətlərdən istifadənin effektivliyi .. 173

4.2. Azərbaycanın milli iqtisadiyyatının rəqabət qabiliyyətinin gücləndirilməsində XİZ-in tətbiqinin zəaıriliyi ....................... 200

4.3. Azərbaycanın dünya iqtisadiyyatı məkanına inteqrasiyasında XİZ

V FƏSİL. AZƏRBAYCANDA XÜSUSİ İQTİSADİ ZONALARIN TƏTBİQİ PROBLEMLƏRİ VƏ PRİORİTET İSTİQAMƏTLƏRİ ........................................................... 252
5.1. Azərbaycanda XİZ-in yaradılmasının elmi-nəzəri və praktiki aspektləri ........................................................... 252
5.2. Azərbaycanda XİZ-in təşəkkülü və hüquqi bazanın formalaşması
proseslərinin müasir vəziyyəti ............................................... ...272
5.3. Azərbaycanda XİZ-in tətbiqinin əsas problemləri və prioritet istiqamətləri........................................................... 283
NƏTİCƏ........................................................... 333
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ..................................... 339

# GİRİŞ

Son 100 ildə dünya iqtisadiyyatı bir tərəfdən çətin və kəşmə-keşli iqtisadi proseslərdən keçmiş, digər tərəfdən isə sürətli iqtisadi inkişaf dövrünü yaşamışdır. Bu proseslərdə çoxsaylı iqtisadi böhranlar, o cümlədən iqtisadi tənəzzül, maliyyə böhranı, valyuta, neft və enerji böhranlan və sairlər daha çox yadda qalan olmuşdur. Bunlarla belə, bu dövrün son 50 ilində ən çox yadda qalan iqtisadi proseslərə elm və texniki yeniliklərin sürətli tətbiqi, yeni iqtisadi vasitələrin və bu kimi innovatik instrumentlərin real iqtisadi həyata daha tez daxil olması ilə diqqəti cəlb edir. Dünya iqtisadi proseslərinin praktiki tətbiqinin təhlili göstərir ki, hər hansı iqtisadi konsepsiyalann işlənib hazırlanması, onların effektivliyinin əsas-landınlmasi nə qədər mürəkkəb proses olsa da, onlann real həyata tətbiqi daha çətin və uzun vaxt apanr. Bəzən real həyatda da bu hallara rast gəlinir. Çox maraqlı və cəlbedici görünən dəyərli bir ideya, bir sıra mərhələləri keçən maraqlı ixtira (kəşf) uzun illər ərzində real həyatda və iqtisadiyyatda tətbiqini tapa bilmir. Hələ XX əsrin 30-cu illərinin ortalannda Xüsusi İqtisadi Zonalann (XİZ-in) dünyanın apancı iqtisadiyyata malik ölkələrində tətbiqinə başlanılsa da, bu tip zonalann daha geniş və səmərəli tətbiqi yalnız 30-40 ildən sonra mümkün olmuşdur. Bu zonalar hazırda dünyanın ən iri iqtisadiyyata malik ölkəsi olan ABŞ-m iqtisadi inkişaf proseslərində önəmli rol oynaya bilmişdir. Dünya iqtisadiyyatına iri və çoxşaxəli milli iqtisadiyyatı ilə liderlik edən ABŞ-da bu zonalar sahibkarlığın inkişafına xüsusi töhfələr vermişdir. Burada elm və texnikanın vəhdətini, zəka və praktikanın sintezini özündə birləşdirən texnoparklann təşkili yüksək eimtutumlu tex- nologiyalann işlənib-hazırlanmasına və həyata keçirilməsinə əlverişli şərait yaratmışdır. Maraqlı burasıdır ki, həmin dövrlərdən 50- 70 il keçməsinə baxmayaraq, ABŞ kimi güclü iqtisadiyyata malik ölkə bu gün də XİZ-lərin daha effektivli modellərindən yararlanmaqda davam edir. Digər bir güclü iqtisadiyyata malik ölkə - Yaponiyada XİZ institutundan yeni ixtira və kəşflərin əldə edilmə

sində, yaradıcı və elm adamlarının təxəyyüllərinin real işlərə çevrilməsində məhsuldar istifadə olunur.

Bunlarla belə, XİZ-lərin tətbiqindən danışarkən, müasir dövrümüzdə iqtisadi inkişaf tempinə görə dünyanın ən güclü ölkəsi olan - Çində bu sahədə əldə edilən real nəticələr daha çox diqqəti cəlb edir. Sual olunur "nəyə görə?" - məhz Çində XİZ-lərin tətbiqində daha məhsuldar nəticələr əldə edilmişdir. Mələ XX əsrin 60-70-ci illərində bu ölkədə güclü insan resurslarının məhsuldar yerləşdirilməsi, məşğulluğun təminatı, ölkə iqtisadiyyatının inkişafının sürətləndirilməsi, yeni texnologiyalann işlənməsi və istehsalata tətbiqinin təşkili, geri qalmış ərazilərin və regionlarının inkişafı, ixrac təyinatlı məhsullann istehsalının geniş şəbəkəsinin yaradılması və sair bu kimi mühüm vəzifələrin həyata keçirilməsi üçün XİZ-lər effektivli iqtisadi alət kimi özünü doğrultmuşdur. Məsələ burasındadır ki, Çində XİZ-lərin tətbiqi ilə bağlı problemlər milli iqtisadi inkişafın əsas prioritetləri prizmasından baxıla bilinmiş, onlann ölkə iqtisadiyyatına və ərazilərinə modifikasiyası uğurla həll edilmiş və tətbiqi ilə bağlı bütün məsələlər strateji vəzifələr səviyyəsində qəbul olunmuşdur. Bəlkə elə buna görə XİZ-lər bu gün də güclü və dinamik Çin iqtisadiyyatının əsas fəal iqtisadi nçaqlanndan biri kimi diqqət mərkəzindədir.

Qeyd etmək lazımdır ki, dünyada müxtəlif tipli və modifıkasiyalı 4 minə yaxın iqtisadi zonalar fəaliyyət göstərirlər, bunlardan minə yaxmı inkişaf etmiş ölkələrin payına düşür. Təkcə son 30 il ərzində dünya XİZ-lərinin sayı 12 dəfə artmışdır və dünya ticarətinin 30 %-ə gədəri bu kimi zonalann payına düşür. Azərbaycanla sıx dostluq və iqtisadi əməkdaşlığa malik olan Türkiyədə də XİZ institutundan praktikada fəal istifadə olunur. Bir sıra ərəb ölkələrində XİZ-lər effektivli iqtisadi mexanizm kimi diqqət mərkəzindədir. Birləşmiş Ərəb Əmirliklərində - Dubayda fəaliyyət göstərən Cəbəl-Əli XİZ-ində 2500-ə yaxın şirkət və kompaniya məhsuldar iqtisadi fəaliyyətlə məşğuldurlar. Bu kimi misallan davam etdirmək mümkündür, amma bizim əsas məqsədimiz tədqiqat işi kimi götürdüyümüz XİZ-lərin tətbiqi problemlərinin daha dərindən araşdırılması, bu problemləri doğuran səbəblərin mahiyyətinin

göstərilməsi və bu istiqamətlərdə prioritetlərin müəyyənləşdiril-məsidir.

XİZ-lərin tətbiqi problemləri hazırda iqtisadi inkişafa can atan bir çox dövlətlər üçün xüsusi önəm kəsb edir. Hələ XX əsrin son-lannda dünya sosializm sisteminin süqutu və SSRİ-nin dağılması ilə bir çox yeni dövlətlərin yaranması, bazar iqtisadiyyatı coğrafiyasının sürətlə genişlənməsi, dünya təsərrüfat sistemində yeni iqtisadi güc mərkəzlərinin və iqtisadi birliklərin formalaşması, şübhəsiz, yeni iqtisadi vasitələrin cffektivli tətbiqini zəruri edirdi. Məhz bu baxımdan onlarla belə ölkədə XİZ-lər haqqında müvafiq qanunlar qəbul edilmiş, milli konsepsiyalar işlənib hazırlanmış, XİZ institutlan yaradılmış və bu tip zonalann müxtəlif optimal modelləri müvafiq ölkələrinin iqtisadi sistemlərinə uyğunlaşdırılmışdır. Bunlarla belə, son 20 il ərzində yaradılmış və yaxud son 20-30 il ərzində bazar iqtisadiyyatına keçmiş ölkələrin yalnız bir qrupu XİZ modellərindən faydalana bilmişlər. Məsələn, Polşa və Maca- nstan bazar iqtisadiyyatı formalaşdırarkən XİZ-lərdən investisiya- lann cəlbi, müasir texnologiyalann ölkə iqtisadiyyatına gətirilməsi, iri sənaye və iqtisadiyyat sektorlannın reabilitasiyası və yenidənqurulması, iş yerlərinin yaradılması və sair strateji məqsədlər üçün istifadə etmişdir. Maraqlı burasıdır ki, hər iki ölkədə XİZ-lərin tətbiqi problemlərinə milli iqtisadi maraq səviyyəsində baxıla bilinmişdir. Təəssüf ki, elə ölkələr, xüsusilə yeni yaranmış müstəqil dövlətlər vardır ki, uzun dövr ərzində XİZ-lərin qanunvericilik bazasını formalaşdırsa da, bu tip zonalardan yetərincə faydalana bilməmişlər. Bunun əsas səbəblərindən biri kimi XİZ-lərin tətbiqi problemlərinin dərindən öyrənilməməsi, bu proseslərdə prioritet istiqamətlərin ardıcılığının qorunmaması, sabit iqtisadi-maliyyə siyasətinin olmaması, və XİZ əleyhdarlarının fəallığı, onlara qarşı əsaslandirilmiş iqtisadi arqumentlərin azlığı göstərilə bilər. Belə dövlətlərin sırasında ən çox yer almış ölkələr - postsovet respubli- kalandır. Rusiya, Ukrayna, Belorus kimi güclü sənaye potensialına malik olan ölkələrdə XİZ institutunun tətbiqinə hələ 1990-cı illərin əwələrindən başlanılsa da, bu ölkələrdə XİZ-lər milli iqtisadiyyatın daha məhsuldar iqtisadi vasitəsinə çevrilə bilməmişdir.

Düzdür^ Ukraynada regionlann və iqtisadi ərazilərin inkişaf etdirilməsində XİZ-lərin müxtəlif modifikasiyalanndan səmərəli istifadəyə müəyyən dövrlərdə nail olunmuşdur. Amma bu proseslər ölkənin iqtisadi sisteminin sabit elementinə çevrilməmiş, çoxsaylı deformasiyalara məruz qalmış, süni baryerlərin və müdaxilələrin təsiri nəticəsində Ukraynada XİZ-lər hələ də effektivli iqtisadi instrument statusunu əldə edə bilməmişlər. Bu onu göstərir ki, XİZ kimi mürəkkəb və məhsuldar iqtisadi instrumentin tətbiqi prosesləri ardıcıllığı, toxunulmamazlığı və sabitliyi ilə fərqlənməlidir. Milli iqtisadiyyatı əsasən inzibati resurslarla idarə olunan Belorusda isə fəaliyyət göstərən XİZ-lərdə bir çox ixrac təyinatlı rəqabətqabiliyyətli məhsullann istehsalına nail olunsa da, ölkə iqtisadiyyatının liberallaşdınlmasındakı məhdudiyyətlər və inzibati müdaxilələr səbəbindən bu tip zonalann ardıcıl və dinamik inkişafı mümkün olmamışdır, hətta ayn-ayn hallarda ölkə rəhbərliyinin bu kateqoriyadan olan iqtisadi zonaların ləğv ediləcəyi barədə verdiyi bəyanatlar da XİZ-lərə və onlann tətbiqi proseslərinə daha diqqətli yanaşmağı zəruri edir. Rusiya kimi iri təbii ehtiyatlara və geniş əraziyə malik ölkədə XİZ modellərindən effektivli istifadə problemləri fıkrimizcə daha fimdamental araşdırmanı şərtləndirir. Düzdür, bu ölkədə elm və texnikanın inkişafı o qədər də pis deyildir. Bununla belə, ölkənin iqtisadi sistemində XİZ-lər pozitiv bir mövqe əldə edə bilməmiş və sabitliyi ilə seçilmirlər, hətta bir müddət ərzində XİZ-lər neqativ vergi yayındıncılannın “fəaliyyət dairəsi” kimi səciyyələnmişdir. Bəs bu problemlərin kökündə nələrin dayandığını necə müəyyənləşdirmək mümkündür? Belə ki, Rusiyada XİZ-lər haqqında qanun mövcuddur və təkmilləşdirilmişdir, hər bir XİZ yaradılarkən, müəyyən vergi və gömrük güzəştləri müəyyənləşdirmişdir. İnvestisiyalann XİZ-lərə gətirilməsi və infrastruktur obyektlərinin yaradılması bu proseslərdə xeyli güzəştlərlə müşayiət olunur və s. Belə olan halda XİZ-lərin daha səmərəli tətbiqi və onlann effektivli fəaliyyətinin təşkilinin problemlərdən yan keçə bilməməsi hələ də ciddi tədqiqat obyekti olaraq qalmaqdadır. Rusiyada son 10-15 il ərzində XİZ-in tədqiqatı üzrə xeyli sayda namizədlik və bir neçə doktorluq dissertasiya-

lannın yerinə yetirilməsinə baxmayaraq, bu işlərin içərisində XİZ-lərin tətbiqi problemlərinin fundamental öyrənilməsinə tam nail olunmamışdır. Fikrimizcə, bu gün də Rusiyada XİZ-lərin daha uğurlu tətbiqinin baş tutmamasının səbəblərindən biri də bu sahənin elmi fundamental tədqiqatının yetərli olmamasındadır. Bir çox görkəmli rusiya iqtisadçı-alimlərinə görə XİZ-lərin yaradılması və tətbiqi problemləri dərindən öyrənilərsə, bu proseslərin yerinə yetirilməsində ardıcıl və sabit iqtisadi siyasət olarsa, bu tip zonalar ölkənin iqtisadi sisteminə uğurla daxil ola bilər və iqtisadi inkişaf proseslərinə əlavə stimullar verə bilərdi. Bu problemlər barədə əldə edilmiş elmi nəticələrdən nümunələr irəlidə veriləcəkdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra əsas iqtisadi isla-hatlan başa çatdırmış və makroiqtisadi sabitliyə nail olumnuşdur [1]. Son illərdə isə regionun lider dövlətinə çevrilmiş ölkəmizin iqtisadiyyatı ildən ilə güclənməkdədir və iqtisadi inkişaf prioritetlərimiz diversihkasiyalaşır, Azərbaycanın iqtisadi inkişaf modeli uğurlan ilə bütün dünyada diqqəti cəlb etməkdədir [2]. Bunlarla belə, Azərbaycanın maliyyə gücü artıqca daha mütərəqqi və yüksək standartlar səviyyəsində iqtisadiyyat sektorlannm inkişafına zərurət aktuallığı ilə seçilir. Belə ki, ölkəmiz inkişaf etmiş dünya dövlətləri sırasında yer almaq üçün strateji və tarixi vəzifələr qarşısına qoymuşdur. Bu baxımdan, ölkənin neft-qaz sənayesi ilə yanaşı, digər iqtisadiyyat sektorlannm da intensiv inkişafının təmin edilməsinə ən mütərəqqi texnologiyalann, iqtisadi mexanizmlərin və müasir idarəetmə metodlannın gətirilməsi vacibdir. Dünya təcrübəsində XİZ-lər bu kimi fıınksiyalann reallaşdınlmasmda effektivliyi ilə seçilirlər. Bütün bunlar nəzərə alınmaqla, təqdim olunan tədqiqat işində XİZ-lərin nəzəri əsaslan, mahiyyəti, dünya iqtisadiyyatında və milli iqtisadiyyatlann inkişafında rolu, dünya təcrübəsindən nümunələr verilməklə yanaşı, əsas vəzifə kimi zonalann tətbiqi problemlərinin araşdınıması qarşıya goyulmuşdur. Bu zərurət yaxın gələcəkdə Azərbaycanda XİZ-lərin ölkənin iqtisadi sisteminə tətbiqi proseslərinin reallaşdınıması perspektivləri ilə bilavasitə bağlıdır.

# I FƏSİL. XÜSUSİ İQTİSADİ ZONALARIN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

## 1.1. iqtisadiyyat elmində və dünya iqtisadiyyatı proseslərində XİZ-rə dair elmi-nəzəri baxışlar və onların konseptual mahiyyəti

Hələ qədim sivilizasiyanın ilk dövrlərindən başlayaraq, əmək və ticarət münasibətləri bütün hallarda sərbəst mühiti, azadlığı və maneəsiz prosesləri daha çox azruolunan hesab etmişdir. Əmək münasibətləri o zaman məhsuldar olur ki, bu münasibətlərin praktiki əmək və istehsal proseslərində reallaşdınıması, həmçinin bu mühütin yaradıcılığa stimul verməsi mümkün olsun. Əlbəttə, bizim əsas məqsədimiz əmək və ticarət münasibətlərinin azadlığı və sərbəstliyi fəlsəfəsinin köklərini araşdırmaq deyildir. Bununla belə, bu münasibətlərin mahiyyəti və baxacağımız problemlərlə bağlı uyğun xüsusiyyətlərinə çox diqqət yetimıəli olacağıq. Rusiyalı professor A.V.Noviçkov əməyin stimullaşdınıması üzrə araş- dımıalannda üç əsas prinsipi - əməyin yaradıcı olması və insanın daxili potensialının açılmasına imkan yaratması, müəyyən standartlara və real həyatı tələblərə cavab verməsi, başqa sözlə əzabdan və məcburiyyətdən uzaq əməyin fonnalaşması və nəhayət, ictimai münasibətlər sistemində layiqli, həmçinin bacardığı yerin tutmasını xüsusilə qeyd etmişdir [128]. Bu baxımdan əməyin real iqtisadi həyatda layiqincə gerçəkləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Əməyin reallaşdırılması isə xalqlann çiçəklənməsinə səbəb olur və əhalinin yaşayış səviyyəsinin xeyli yüksəlməsini təmin edir. Məsələn, inkişaf etmiş Avropanın qərb ölkələrində, ABŞ, Kanada və Yaponiyada, həmçinin bir qrup ölkələrdə - Cənubi Koreyada, Tayvan və Sinqapurda sənaye baxımından güclü inkişaf prosesləri getdiyindən, bu ölkələrdə əməyin çoxşaxəli tətbiq sahələrinə yol tapa bilməsi, həmin ölkələrin həyat səviyyəsinin yüksəlməsinə və insanlann yaşayış standartlannm əhəmiyyətli artmasına imkan vermişdir.

Məlumdur ki, məhsuldar və yaradıcı əmək münasibətləri hələ uzun əsrlər bundan əvvəl ticarətin inkişafı və sərbəstliyi ilə daha çox bağlı olmuşdur. Başqa sözlə, əmək münasibətlərinin maddi-istehsal sahələrində reallaşdırılması proseslərindən əldə edilən mal və məhsullann daha yaxşı qiymətlərə satılması, geniş alıcı bazan əldə etməsi, regiona və digər ölkələrə çıxışının asanlaşdırılması problemləri bütün dövrlərdə optimal həll variantlarının axtanşı ilə yadda qalmışdır. Belə ki, çox hallarda sərbəst ticarət proseslərinə dövlət tərəfindən edilən müdaxilələr, məhdudiyyətlər, alqı-satqı əməliyyatlannın məhdudlaşdınimasına səbəb olmuşdur. Klassik iqtisadçı Adam Smitin ‘'Gözəgörünməz əl” nəzəriyyəsində hələ
XVI əsrdə iqtisadiyyata dövlət müdaxiləsinin iqtisadi inkişaf üçün mane olduğu bildirilmişdir [26j. A.Smitə görə, vergilər qazanca uyğun gəlməli, bu vergilər biznesə mane olmamalıdır. O, “Xalqla-nn sərvəti” adlı əsərində müxtəlif mallarla ixtisaslaşmanın üstünlüklərini əsaslandınnaqla, bildimıişdir ki, ticarətin tənzimlənməsi nöqsanlıdır və təsirsizdir, yerli sənaye sahələrinin inkişafı isə vergilər, ixrac tarifləri və imtiyazlarla təhlükəli vəziyyətə gətirilib [153]. Digər bir klassik iqtisadçı D.Rikardo isə İngiltərə ilə Portuqaliyanın xarici ticarət əlaqələrinin təhlili əsasında belə bir nəzəriyyə irəli sürmüşdür ki, azad ticarət nisbi üstünlük prinsipi əsasında daha çox fayda verə bilər. Məhz bu dövrlərdə artıq o zamanlar üçün nisbətən inkişaf etmiş ölkələrin limanlarında azad liman- lann yaradılması ideyası fonnalaşmış və ilk XİZ modifikasiyalan- nm real həyatda gerçəkləşdirilməsi prosesləri başlamışdır. XVI-
XVII əsrlərdə liman-franko tipli sərbəst ticarət zonalan Hamburq (Almaniya), Livomo, Genuya, Venetsiya (İtaliya), Marsel (Fransa), Vladivostok, Odessa, Batumi (Rusiya imperiyası) limanlarında fəaliyyət göstərirdi [s.6, 99).

Qeyd etmək lazımdır ki, bu kimi zonalann sistemli formada nəzəri əsaslan ingilis alimləri P.Hall və S.Houv, amerikalı C.But- ler tərəfindən verilmişdir Bu klassik nəzəriyyəçilərə görə, iqtisadi tənəzzüllərin qarşısını dövlət ala bilmədikdə, iqtisadiyyatın ənənəvi idarəetmə nçaqlan artıq təsirsizdir və onlann yeniləşdirilməsin- də, yəni bizneslə (ticarətlə) məşğul olanlar üçün daha münbit şəra

itin yaradılması, gömrük şərtlərinin yumşaldılması və vergilərin azaldılması, digər maneələrin aradan qaldmlması zərurəti yaranır. Əslində bu fikirləri XİZ-lərin nəzəri əsaslan kimi qiymətlən- dinnək olar.

Rusiyalı mütəxəssis V.V.Komarov ölkələr arasında iqtisadi əməkdaşlığın əsas indikatorlanndan birini qarşılıqlı ticarətin genişləndirilməsində və ticarətin sərbəstləşdirilməsində görür [1091. Hələ 130 il bundan əvvəl Böyük Britaniyanın Baş naziri işləmiş qraf Bikonsfildin “Sərbəst ticarət prinsip deyil, məqsədə çatmaq üçün vasitədir” fikrini ticarətin genişləndirilməsi və sərbəstləşdirilməsi filosofiyası kimi qəbul edən müəllif hesab edir ki, sərbəst zonalann yaradılması və fəaliyyəti mal və xidmətlərin regional ərazilər və birliklər arasında sərbəst yer dəyişməsinə imkan verər, ticarətin inkişafı infrastrukturunun formalaşmasına, qarşılıqlı ticarətə mane olan baryerlərin aradan qaldınimasma, daxili bazann zəruri səviyyədə qorunması nəzərə alınmaqla, təsərrüfat subyektlərinin fəaliyyət rejimlərinin bərabərləşdirilməsinə imkan verər. Sərbəst zonalar milli təsərrüfat sistemində iqtisadi islahatlann aparılması şəraitində xarici iqtisadi fəaliyyətin liberallaşdınıması və ticarət sahəsində əməkdaşlığa yeni imkanlar vermək iqtidanndadır.

Bir məsələni əvvəlcədən qeyd etmək lazım gəlir ki, bizim qarşımıza qoyduğumuz tədqiqat problemlərinin əsasında XİZ-lərin praktiki tətbiqi məsələləri durduğundan bu kimi zonalann nəzəri-konseptual istiqamətlərinə daha dərindən baxmaq imkanımız məhduddur, amma bir neçə məsələlərə əvvəlcədən aydınlıq gətirmək istərdik.

Birincisi, nəyə görə biz tarixən müxtəlif cür adlandınlan azad, yaxud sərbəst ticarət (iqtisadi) zonal an XİZ adı altında birləşdirməyə üstünlük vermişik? Bu ilk növbədə onunla bağlıdır ki, keçmiş SSRİ-nin süqutundan sonra müstəqil iqtisadi inkiaşaf modelini formalaşdıran Azərbaycanda yaxın perspektivdə fərqli iqtisadi instrument kimi XİZ variantından bəhrələnmək daha məqsədəuyğun hesab edilmişdir;

İkincisi, qarşılannda duran məqsəd və fimksiyalanndan asılı olmayaraq, bu kimi iqtisadi zonalann əksər elementləri oxşardırlar

və onlann əsas fəlsəfəsi ənənəvi iqtisadi rejimlərə yeni stimul vermək, hər hansı bir iqtisadİзо^at sahəsinin, yaxud ticarətin sürətləndirilməsinə şərait yaratmaq, sosial-iqtisadi problemlərin həllinə kömək etmək, yeni mütərəqqi istehsal və idarəetmə metodlannın tətbiqini asanlaşdırmaq və sairlərdən ibarətdir;

Üçüncüsü, bu kimi zonalann vasitəsilə dövlət fərqli iqtisadi mexanizm və fəal iqtisadi mühit əldə edir. Nəticədə, hər hansı bir strateji iqtisadi istiqamət üzrə yüksək nəticələr əldə etmək üçün effektivli iqtisadi mexanizm praktiki baxımdan real iqtisadi proseslərdə yer alır;

Dördüncüsü, belə zonalar fəal iqtisadi mühit yaratmaqla, istehsal və xidmətlərin həcmini artınr, yerləşdiyi ərazinin inkişafını sürətləndirir, buraya sərmayələrin qoyulmasını maraqlı edir və s.

Bir qrup digər iqtisadi nəzəriyyəçilər, məsələn, E.Hekşer və B.Olin özlərinin "İstehsal amillərinin nisbi nəzəriyyəsi"ndə ayrı-ayn ölkələrin hansı əmtəələr üzrə ixtisaslaşmalı olduqlanndan və ölkənin hansı əmtəələrinin ixracından daha çox fayda götürə bilməsini əsaslandmblar. Bu baxımdan XİZ-lərə ixrac potensialının artırılması, rəqabət qabiliyyətli məhsullann istehsalının təşkili vasitəsi kimi baxıldıqda, bu nəzəriyyənin mahiyyəti ilə üst-üstə düşdüyünü görürük . Rus əsilli ABŞ iqtisadçısı V.Leontyevə məxsus - "Leontyev effekti" nəzəriyyəsində ixracdan səmərəli istifadə üzrə yer tutmuş iddiaların əksəriyyəti XİZ fəlsəfəsi və elementləri ilə uzlaşır. Belə ki, bu nəzəriyyənin əsas müddəalan dünyada fəaliyyət göstərən müxtəlif tipli iqtisadi zonaların əksəriyyəti üçün xarakterikdir. Çünki XİZ-lər bir tərəfdən yüksək standartlara cavab verən mallar ixrac etməklə yanaşı, mənsub olduqları ölkənin tələbatına uyğun istehlak mallarını və investisiyaları, həmçinin yüksək texnologiyalan idxal edirlər. Amerikalı iqtisadçı E.Toffler XIZ-ləri müxtəlif konfiqurasiyalarda beynəlxalq iqtisadi əməkdaşlıq və inteqrasiya proseslərinin yeni iqtisadi mexanizmi kimi əsaslandırmışdır. Onun fikrincə, XİZ-lər mütərəqqi iqtisadi idarəetmə proseslərində "Üçüncü dalğa" effekti rolunu oynamaqla, real iqtisadi proseslərdə məhsuldar nəticələr əldə etməyə imkan vermişdir [141].

Biz XİZ-lərin klassik iqtisadi nəzəri baxışlarla bağlılığına aid bir qrup nümunələrlə kifayətlənməyə üstünlük verərək, bu kimi zonalann əsasən II Dünya Müharibəsindən sonra sürətli inkişaf proseslərini nəzərə alaraq, son 50-70 ilin elmi və nəzəri baxışlan- na daha çox diqqət ayırmağı məqsədəuyğun hesab etmişik. XİZ- lər milli iqtisadiyyatın inkişafında, onun dünya təsərrüfat sisteminə inteqrasiyasında, biznes və sahibkarlığın inkişafında, xarici ticarət əlaqələrinin genişləndirilməsində, bir sözlə, bu kimi zonaların milli iqtisadi subyektlərin davamlı inkişafinda və onlann beynəlxalq imicinin, rəqabət qabiliyyətinin artmlmasındakı rolu və funksiyalarından asılı olaraq, dünyanın bir çox alim və tədqiqatçıları belə zonaları müxtəlif cür xarakterizə etmişlər. Məlumdur ki, XİZ-lər dünya praktikasında ən uğurlu tətbiq proseslərini Çində tapa bilmişlər. Bu baxımdan Çinin dövlət xadimi və görkəmli mütəxəssisi Den Syaopin özünün “Müasir Çinin problemləri” əsərində yazır: “XİZ - bu “pəncərədir”, hansı ki, oradan texniki nailiyyətlərin əldə edilməsi, idarəetmə metodlan, biliklər, xarici əlaqələrin reallaşdıniması siyasəti gəlir. Bu zona vasitəsi ilə xarici texniki nailiyyətlər əldə etmək, biliklər almaq və idarəetməni öyrənmək olar” [139]. Digər çinli alim Sun Yuysuya görə, bu tip zonalar dünyanın müxtəlif ölkələrində müxtəlif cür adlandınlır: Çində “xüsusi iqtisadi zona”, “iqtisadi və texniki inkişaf zonası”, “yeni yüksək texnologiyalı sənaye zonası”, “sərbəst iqtisadi əməkdaşlıq zonası”, “rüsumsuz zona” və digərlərinə rast gəlinir [151]. Biz bu elmi baxışlara və fikirlərə nəzər salarkən, Çinin XİZ-lərlə bağlı tarixi uğurlannm təsadüfi olmadığına bir daha əmin olduq və irəlidə biz bu ölkənin XİZ təcrübəsi ilə bağlı praktiki proseslərin mühüm aspektlərini vennək niyyətindəyik.

XİZ-lərlə bağlı iqtisadi ədəbiyyatlarla tanış olarkən, diqqətimizi cəlb edən məsələlərdən biri də XİZ-lərin real iqtisadi fəali)^ət-lərində mühüm rol oynayan sahibkarlıq və sahibkarlıq subyektləri ilə bağlı olan nəzəri baxışlar və mülahizələr olmuşdur. XX əsrin sonlannda dünya iqtisadçılan arasında bazar iqtisadi münasibətlərinin formalaşması və daha da dərinləşməsi proseslərinin əsas elementlərinin nizamlanması və bu proseslərdə dövlətlə sahibkarlığın

qarşılıqlı münasibəti ciddi mübahisələrlə yadda qalmışdır. Avstriya iqtisadi məktəbinin tendensiyalannı araşdıran bir qrup alimlərin bu barədə fikirləri maraqlı görünür. Məsələn, Xonnan P.Berri hesab edir ki, cəmiyyətin anonim üzvlərinin tələbatının ödənilməsi məqsədilə resurslardan istifadədə ən yaxşı variant kimi maneəsiz və müdaxiləsiz bazar prosesləri götürülə bilər [s. 100, 131]. Bu halda digər bir qrup alimlər hesab edirlər ki, onlar sahibkarları dövlət idarəçiləri ilə mərkəzləşdirilmiş nonuativlər əsasında dəyişməklə daha optimal bazar münasibətləri fomıalaşdıra bilərlər. Daha sonra belə hesab edilir ki, yüksək sürətli kompüterlər bütün hesablamaları apara bilər və dövlət bazar mexanizmlərinin nəticələrinə nəzarəti təmin etmək imkanına yiyələnər. Amma təbii ehtiyatların və resurslann istifadəsi və emalı daha geniş imkanlar açdığından, bu proseslərdə sahibkarların əldə etdikləri gəlir və fəaliyyətləri cəmiyyətdə onların ictimai-zəruri fəaliyyəti kimi qəbul edilir və bazar münasibətləri daimi nizamlama proseslərini yaşadığından bu proseslərdə sahibkarlann rolu yüksək qiymətləndirilir. Digər bir model kimi Çikaqo pozitiv modelinə əsasən sosial münasibətlərin və sistemin effektivli koordinasiyası kimi bazar münasibətləri əsas götürülür. London iqtisadi məktəbinin bu sahədə əsas istiqaməti bazar iqtisadi münasibətlərində faktiki proseslərin özünün zəruri və optimal tendensiyalannı ortaya qoyacağı hesab olunur. Bu məktəbdə Amerika ekonometrik modelinin yaradı- cılannın üstünlük verdiyi praktiki proseslərlə müqayisədə əsasən nəzəri baxışlara üstünlük verilir. Digər bir mülahizələr isə ticarətin liberallaşdırılması ilə bağlı olmuşdur. V.X. Balasubramaniam və Ə.A.Makbin iqtisadi inkişafın beynəlxalq aspektlərini araşdırarkən, son 30-40 il ərzində milli iqtisadiyyatlann strukturlaşdınlma- sı hesabına ticarətin sərbəstləşdirilməsini gcnişləındirməklə, dünyanın başqa ölkələrinə nisbətən daha çox üstünlük əldə etməsinin az inandıncı olduğunu bildirirlər |s. 449, 131]. Bu halda belə hesab edilir ki, hələ idxal əvəzedici istehsal sahələrinin genişləndirilməsi, ölkənin digər dünya ölkələri arasında daha üstün mövqe qazanmasını təmin etmək iqtidannda deyildir. Digər tərəfdən, Robert M.Solounun fikrincə, innovasiya proseslərində daha çox fəal gö

rünən subyektlərin real gəlirləri yüksək renta ilə ölçülə bilər. Bütün bu mülahizələrin əsasında duran elementlərin və tendensiyaların real praktiki proseslərdə sintezi və fəaliyyət sxemini təsvir etsək, görərik ki, bu sxemə daxil olmaq iqtidannda olan iqtisadi fəaliyyət proseslərinin əksəriyyətinə XİZ-in iqtisadi fəaliyyət parametrləri cavab verir. Başqa sözlə, baxılan nəzəri iqtisadi baxışların ən qısa zamanda və real şəraitdə iqtisadi fəaliyyət sahəsinə çevrilməsində XİZ çoxfunksiyalı iqtisadi instrument kimi çıxış etmək iqtidarındadır. Haqqında söhbət gedən sahibkar və sahibkarlıq fəaliyyəti üçün XİZ təyinatlı məkanlar qeyd etdiyimiz bazar münasibətlərinin optimal və effektivli fonnalaşması, iqtisadi fəaliyyəti qarşısında duran vəzifələrin yerinə yetirilməsi, cəmiyyət üzvlərinin maddi-istehsala və xidmətlərə olan tələbatının yüksək səviyyədə yerinə yetirilməsi məkanı kimi çıxış edir. Eyni zamanda, ticarət və bununla bağlı proseslərin sərbəst reallaşdınlması, mal və xidmətlərin istehsalının və hərəkətlərinin genişləndirilməsi proseslərində XİZ-in pozitiv rolu və praktiki nəticələri dünya təcrübəsində artıq çoxdan sınaqdan çıxmışdır və bu gün də uğurla davam etməkdədir.

Bir qrup alim-tədqiqatçıların iqtisadiyyat elmində və dünya iqtisadi proseslərində XİZ-lərin tutduğu mövqeyi və yerini araşdırarkən, əldə etdikləri nəticələrə diqqət yetirsək, görərik ki, əksər hallarda XİZ-lər milli iqtisadi subyektlərin inkişafına əsasən pozitiv təsir edən fərqli və effektivli iqtisadi mexanizm kimi təqdim olunur. XİZ-lərin tədqiqatı üzrə yetərincə araşdmnalar aparan akademik F.Avdokuşinə görə iqtisadi zonalan “azad iqtisadi zonalar” yox, “xüsusi iqtisadi zonalar” adlandırmaq daha düzgün olardı [68]. Bu fikri qabartmaqda əsas məqsədimiz Azərbaycanda da XİZ modelinin seçilməsinə adekvat münasibəti bildirməkdir. Belə ki, bu statuslu XİZ modelinin ölkəmizin iqtisadi inkişaf sisteminə daxil olması perspektivləri daha çoxdur. Artıq sürətlə iqtisadi inkişaf tempi yığan Azərbaycanda XİZ modelinin ölkənin qeyri-neft sektoru iqtisadiyyat sahələri üzrə ixrac potensialının artınimasmda və rəqabət qabiliyyətli məhsullann istehsal şəbəkəsinin genişləndirilməsində istifadə edilməsi daha məqsədəuyğun görünür və bu

sahodo prioritet istiqamətləri əvvəldə təqdim edəcəyik. Digər rusiyalı alim, professor V.E.Rıbalkinə görə, XİZ - dünya təsərrüfatının mühüm institutu və beynəlxalq iqtisadi inteqrasiyasının xüsusi fonnasıdır. Adətən bu tip zonalar xarici-ticarət, gömrük, investisiya, valyuta-maliyyə və vergi rejimləri üzrə xüsusi güzəştləri olan milli ərazinin bir hissəsi kimi çıxış edir. Və burada təsərrüfat fəaliyyəti, xarici iştirakçılann fəaliyyəti, xarici investisiyalarının və qabaqçıl xarici texnologiyalarının bu zonaya cəlb edilməsi mükafatlandırılır 1121]. Bir qrup başqa rusiyalı alimlər də XİZ-lərin konseptual mahiyyətini araşdınmş və müxtəlif fikirlər söyləmişlər. V.D.Andrianov qeyd edir ki, XİZ-lər - təsərrüfat məsələlərinin həllində geniş sərbəstliyə malik milli ərazinin bir hissəsidir» [84]. Tədqiqatçı-alim N.V.İqoşin yazır; Bu kimi zonalar - milli-iqtisadi məkanın bir hissəsi olmaqla yanaşı, burada ölkənin başqa ərazilərində tətbiq edilməyən xüsusi güzəşt və stimullar sistemindən istifadə olunur və bunların əsas mahiyyəti gömrük və vergi rejimləri üzrə güzəştlərdə öz əksini tapır [lOlj. Rusiya alimləri K.X. Yusu- pov, A.V.Yangirov və A.R.Taymusov milli iqtisadiyyatı fonnalaş- dıran sistemin mühüm amillərini təhlil edərkən, XİZ-in hər hansı bir növünü - xüsusi-təsərrüfat və inzibati-ərazi quruluşuna bərabər tutmuşdur. Onların fikrincə, bu tip ərazilərdə təkcə sahibkarların mükafatlandırılması yox, həm də milli iqtisadi sistemin tarixi, sosial və digər amilləri yer alır. Bir tərəfdə iqtisadi zonanın milli iqtisadiyyata verdiyi töhfə durursa, digər tərəfdə bu zonalarda regionunun məhsuldar qüvvələrinin səmərəli yerləşdirilməsi və bazar istehsalı münasibətlərinin yüksəldilməsi baş verir. XİZ-isə konkret olaraq, hər hansı ölkənin ərazisinin bir hissəsi olmaqla, bu ərazidə sahibkarlıq fəaliyyətinin xüsusi rejim çərçivəsində fəaliyyət göstərir [152j. Uzun müddət XIZ-in spesifik xüsusiyyətlərini araşdınmş və bu sahədə bir çox dünya ölkələrinin təcrübəsini öyrənmiş professor R.İ.Zimenkov XİZ-ri milli iqtisadi məkanın bir hissəsi hesab etməklə yanaşı bildirir ki, bu zonalarda ölkənin başqa ərazilərində mövcud olmayan milli və xarici sahibkarlar üçün xüsusi güzəştli təsərrüfat rejimi fəaliyyətdədir və bu amillər müxtəlif sosial-iqtisadi, elmi-texniki '^əzifələrin yerinə yetirilməsinə

təsir göstərir. (s.l2, 99]. Ukraynalı alim N. Şvidaka görə «XİZ - bu və ya digər ölkənin ərazisi olmaqla, burada xüsusi iqtisadi rejimi müəyyənləşdirilir və qüvvədə olur. Bu halda mütləq xüsusiyyət kimi güzəştli gömrük rejiminin olması götürülür və bununla belə əməli təcrübədə digər güzəştlərin, o cümlədən vergi, maliyyə- kredit güzəştlərinin verilməsi ilə müşahidə olunur» [146].

Rusiyalı alim Q.N.Smimov XİZ-lərin təşkili zamanı dövlətin əsas məqsədlərini araşdırarkən belə qənaətə gəlmişdir ki, iqtisadi sahədə bunlara xüsusi güzəştlər vasitələri ilə xarici və milli kapitalın cəlb edilməsi, ixracın genişləndirilməsi, idxalın səmərəliləşdirilməsi və bu məqsədlə idxal əvəzedici istehsal sahələrinin yaradılmasında xarici investisiyalardan istifadənin təşkili, XlZ-lərdə rezident-subyektlərə xarici iqtisadi fəaliyyətin müxtəlif formalarından istifadə etməyə şərait yaratmaq və ölkənin regionlarının inkişafı və ölkə xəzinəsinə kifayət qədər valyuta ehtiyatlannm daxil olmasını təmin etmək, sosial sahədə isə davamlı inkişaf məqsədilə burada toplanmış milli resurslardan səmərəli istifadənin təşkili, yeni iş yerlərinin yaradılması və əhalinin məşğulluğunun gücləndirilməsi, dünyanın mütərəqqi idarəetmə təcrübəsindən bəhrələnməklə, yüksək ixtisaslı heyyətin hazırlanması, ölkənin daxili bazarlarının tələbinin ödənilməsi məqsədilə yüksək keyfiyyətli malların istehsalı və elmi-texniki sahədə isə qabaqçıl texnologiyalann ölkə iqtisadiyyatına gətirilməsi, infrastruktura və güclü imkanlara malik istehsal sahələrindən effektivli istifadənin təmin edilməsi kimi prioritetləri fərqləndirmişdir [s.42, 90]. Digər rusiyalı tədqiqatçı-alim V.M.İvanov dünya təcrübəsində daha çox rast gəlinən XİZ modelinin dünya təsərrüfat sistemində rolu, müxtəlif formala- n, onlann təsərrüfat sistemində spesifik xüsusiyyətləri və milli iqtisadiyyatlann inkişafında göstərə biləcəyi təsir dairələri barədə bir sıra nəticələrə gələ bilmişdir. Müəllif qeyd edir ki, XİZ-in təşkilində əsas məqsədlər sırasına milli iqtisadiyyatın və onun ayrı- ayrı regionlannın xarici ticarət fəaliyyətinin genişləndirilməsi və beynəlxalq inteqrasiya prosesinə çıxışının sürətləndirilməsi, elmi-sənaye innovasiyalannın yüksək keyfiyyətli elm tutumlu məhsullar

məsi, regionun və milli subyektin təbii resurslanndan istifadənin qənaətcil və səmərəli modellərinin praktiki proseslərdə reallaşdırılması, yeni idarəetmə mexanizminin və bu sahədə dünya təcrübəsinin regionda adaptasiyalaşdırılması və sairlər daxildirlər (90). Bundan əlavə, XİZ-lər bütövlükdə özlərinin mütərəqqi iqtisadi fəaliyyət prinsipləri vasitəsi ilə milli subyektin sosial-iqtisadi, elmi-texniki, texniki-texnoloji, təşkilati proseslərinin sürətləndirilməsinə ciddi stimullar vennək iqtidarındadırlar. Bu proseslərdə XİZ-lər geniş imkanlara malik istehsal şəbəkələrini yaratmaqla, ölkənin daxili bazar hüdudlarını yüksək keyfiyyətli mal və xidmətlərlə təmin etməklə yanaşı, bazar iqtisadiyyatı münasibətlərinin regionda dərinləşdirilməsinə əlavə stimullar verir, yeni iqtisadi təfəkkürü fonnalaşdırır, insanlar arasında sosial-psixoloji durumu sabitləşdirir, əhalinin iqtisadi fəalliğmı artırır, yerli maliyyə, material, əmək və təbii resursların kompleks fonnada istehsal və təsərrüfat dövriyyəsinə daxil edilməsinə şərait yaradır, regionun və milli subyektin iqtisadi gücünü artırır, ölkənin imicini və rəqabət qabiliyyətini yüksəldir və sair.

Qeyd etmək lazımdır ki, XİZ-lərin mahiyyəti və onlann milli iqtisadi subyektlərdə və dünya iqtisadiyyatı proseslərində mövqeyi barədə bu sahə üzrə doktorluq işi yekunlaşdınımış və müdafiə etmiş tədqiqatçı-alimlərin də elmi-nəzəri baxışları maraq doğurur. Məsələn, i.e.d. A.M.Bascnko hesab edir ki, XİZ-lər iqtisadi ərazi qurumu baxımından bazar münasibətləri kritcriyası üzrə inkişaf etmiş mexanizm kimi diqqəti cəlb edir. Burada sahibkarlıq fəaliyyətinin nizamlanması üçün xüsusi mexanizm qüvvədədir və bunlara iqtisadi alətlər və texnologiyalar, güzəştli vergi-gömrük və valyuta-maliyyə rejimləri daxildirlər. Bu kimi zonalann köməyi ilə depressiv ərazilərin iqtisadi reabilitasiyası həyata keçirilir, buraya xarici kapital cəlb edilir, ixrac məhsulunun istehsalı yaradılır, istehsal və sosial infrastruktur fomıalaşdınhr, elmi-tədqiqat və mühəndis-konstruksiya işləri stimullaşdınhr və s. XİZ-lər iqtisadi sahədə sahibkarlığın inkişafı ilə milli iqtisadiyyatın artımına əlavə impuls verir, mal dövriyyəsini fəallaşdırır, innovasiya texnologiyalarının gəlməsinə şərait yaradır, milli iqtisadiyyatın rəqabət qa

biliyyətinin artmasını sürətləndirir. [87]. İ.c.d. RV.Pavlov qeyd edir ki, XİZ-in fəaliyyətində mühüm aspektlərdən biri - makroiqtisadi səviyyədə ölkə iqtisadiyyatının vahid istehsal prosesi kimi təmin edilməsidir. Belə ki, XİZ böyük və kiçikliyindən asılı olmayaraq, milli ərazinin bir hissəsi kimi konkret olaraq, hər hansı bir qrup iqtisadi və sosial problemlərin həllinə istiqamətlənmişdir. Bunlara ayn-ayrı müəssisələr, liman və aeroportlar da daxil ola bilər. Makroiqtisadi səviyyədə XİZ-lər istehsal güclərinin və potensialının optimal yerləşdirilməsi və iqtisadi fəallığın artırılması nəticəsində ölkənin dünya təsərrüfatına inteqrasiya problemlərinin həllinə əhəmiyyətli töhfələr verə bilər. Başqa sözlə, XİZ-lər ölkənin iqtisadi sistemində əhəmiyyətli yer tutmaqla, burada pozitiv iqtisadi və sosial mühit yaratmağa və iqtisadi sistemin ierarxiya- smın müxtəlif səviyyələrində özünü müsbət tərəfdən göstənnəyə qadirdir. [130]. İ.e.d A.N.Brintsev XİZ-ləri xarakterizə edərkən, qarşısında duran məqsəd və funksiyalardan asılı olaraq onları, şərti olaraq 4 əsas tipə bölməklə, bu kimi zonalann başlıca xüsusiyyətlərinə xarici iqtisadi əlaqələrin genişləndirilməsi, xarici in- vestisiyalann cəlbinin sürətləndirilməsi, depressiv və geri qalmış rayonlann (ərazilərin) sənaye və sosial infrastrukturun yaradılmasında iri kapital qoyuluşunun stimullaşdınlmasım, müasir elmi- texniki yeniliklərin praktiki tətbiqinin asanlaşdırılması və elmtu- tumlu məhsulların istehsalının təşkili məqsədilə texnoparklann və texnopolislərin yaradılmasını, bank və sığorta üzrə ixtisaslaşdınl- mış xidmətlərin göstərilməsini daxil etmişdir. Alimin fikrincə, XİZ-lər gömrük tariflərinin və ticarət baryerlərinin bir hissəsini asanlaşdmnaqla, ayn-ayn iqtisadiyyat sahələrində innovasiyanın sürətli artımına imkan vermişdir [89].

Qeyd etmək lazımdır ki, Azərbaycanda da XİZ-lərin nəzəri-konscptual əsasları və mahiyyəti barədə son 5-7 ildə xeyli fikirlər irəli sünnüşdür. Biz bunlann bir çoxu barəsində irəlidə daha geniş qeydlər verəcəyik və bu fikirlərin Azərbaycanda XİZ-lərin tətbiqi ilə bağlı problemlərlə nə qədər üst-üstə düşdüyünü açıqlamağa ça-hşacağık. Bununla belə, qeyd etmək lazımdır ki, Azərbaycanda XİZ-lərin nəzəri-konseptual problemlərinə həsr edilmiş flında-

mcntal elmi-lodqiqat işləri olduqca azdır. Amma, bir qrup azərbaycan alimləri XİZ-lərin dünya təcrübəsini öyrənərək, onlann ölkəmizin iqtisadi sistemində yer tuta bilməsi perspektivlərini araşdıraraq, müxtəlif elmi nəticələr əldə etmişlər. XİZ-lərin yaradılması və fəaliyyəti proseslərində ən uğurlu dünya təcrübəsinə malik Çinin bu sahədəki nailiyyətlərini araşdıran akademik Z.Səmədzadə qeyd edir ki, bu kimi zonalann yaradılması tarixi bir neçə əsr bundan əvvəl başlamışdır. Amma XX əsrdə, xüsusilə, onun 30-cu illərindən sonra dünyanın bir çox ölkələrində belə zonalar ön plana çəkilmişdir. Bu gün elə ölkələr var ki, ixrac potensialının 50 %- ni iqtisadi zonaların hesabına təmin edir...İqtisadi ədəbiyyatda iqtisadi zonalar, xüsusi iqtisadi zonaların mahiyyəti, növləri barədə müxtəlif fikirlər mövcuddur. Dünyada fəaliyyət göstərən azad iqtisadi zonalann strukturu da xeyli dərəcədə fərqlidir. Bu da maraqlıdır ki, indiyə kimi azad iqtisadi zonalar, xüsusi iqtisadi zonalann vahid təsnifatı yoxdur. Lakin bu heç də iqtisadi zonaların inkişafına, fornıal aşması na, dünya iqtisadiyyatında oynadığı rolun artmasına maneçilik törətmir [s.6-8, 49). Professor A.Musayev qeyd edir ki, XİZ-lərin yaradılma məqsədi onlan təşkil edən dövlətlərin sosial-iqtisadi inkişaf səviyyəsindən, onların strateji və inkişaf prioritetləri və planlanndan asılıdır...Bəzi ölkələr XİZ-lərdən iqtisadi inteqrasiya mexanizmi kimi, digərləri isə xarici texnologiyaların cəlb edilməsi vasitəsi kimi istifadə edirlər... XİZ-lərin yaradılmasının müxtəlifliyinə baxmayaraq, onlar müəyyən ümumiliyə də malikdirlər ki, bunların da arasında iqtisadi, sosial və elmi-texniki məqsədləri göstənnək olar [s.49-50, 49]. Daha sonra professor bildirir ki, keçən əsrin 90-cı illərindən başlayaraq, XİZ-lərin təşkilində iki müxtəlif konseptual yanaşmadan istifadə edilir: ərazi və funksional. Birinci halda zona, bütün rezident müəssisələrin öz təsərrüfat fəaliyyətlərində güzəştli rejimdən istifadə etdikləri xüsusiləşmiş ərazi kimi baxılır, ikinci yanaşmaya əsasən, zona fınnanm ölkə ərazisində yerləşdiyi yerdən asılı olmayaraq, müəyyən növ sahibkarlıq fəaliyyətinə tətbiq edilən güzəşt rejimi kimi başa düşülür [s.52-53, 49]. Professor Ə.X.Xuriyevə görə XİZ-lər çox müxtəlifdir, onların qarşısında duran vəzifələr, ayrı-ayn növ

lərinə görə verilən güzəştlər və istifadə olan tənzimləmə vasitələri komplekslik cəhətdən bir-birindən xeyli fərqlənir. Elmi ədəbiyyatda onlar, azad iqtisadi zonalar, xüsusi iqtisadi zonalar və bunların daxili tərkib hissələri fonnasmda verilir 1631.

.Müasir dövrdə klassik iqtisadi nəzəriyyələrlə real praktiki iqtisadi proseslərin zaman kontekstində təbiili və dövrün spesifik xüsusiyyətlərinin, dünya iqtisadiyyatının inkişaf proseslərindən qaynaqlanan transformasiyaların nəzərə alınması problemləri aktuallığı ilə dünya elmi ictimayətində ciddi mübahisə predmetinə çevrilməkdədir. Əlbəttə, bizim qarşımızda əsas məqsəd baxdığımız XİZ probleminin praktiki məsələsidir. Amma hələ bir çox klassik iqtisadi nəzəriyyəçilərin fundamental baxışlarında iqtisad elminin praktiki dəyərlərinə >üksək önəm verilməsi diqqəti cəlb edir. Bu problemləri araşdıran Q.S.Əlləzov qeyd edir ki, hələ Kcmbric məktəbinin yaradıcısı A..Marşall iqtisadi nəzəriyyənin xalis müddəalannın özlüyündə az əhəmiyyət kəsb etdiyini bildirmiş və ona görə də o, israrla “konkret həqiqətlər” axtannış, insanların xoşbəxtliyini daha çox şərtləndirən gündəlik təsərrüfat həyatının forma və prinsiplərini obyektiv zərurət saymışdır. A.Marşall yazır: “İqtisad elmi konkret həqiqətlərin məcmusu deyil, yalnız konkret həqiqətlərin kəşfi üçün alətdir”. A..Marşall pozitivist iqtisadçı olduğundan o real faktların dərindən öyrənilməsinin tərəfdarı olmuşdur...Onun fikrinə görə, XIX əsrin əvvəlinin ingilis iqtisadçılarının əsas səhfi onlann tarixi və statistikanı nəzərə almamaqdan ibarət olmamışdır, məhz onlar insana, necə deyərlər, nə isə bir daimi kəmiyyət siması kimi baxmışlar və özlərinə onun dəyişməsini öyrənmək zəhmətini vennəmişlər. O göstərir ki, onların ən mühüm səhfi ondan ibarətdir ki, onlar sənayenin davranışı və strukturunun nə qədər güclü dəyişikliyə meylli olduğunu görməmişlər [s.264-265, 28]. Biz nəyə görə çoxsaylı iqtisadi nəzəriyyə və onlann nəticələrindən az sayda məqamlara diqqət yetirərkən, A.Mar- şallm gəldiyi bu nəticələrə üstünlük vennişik? Belə ki, biz XİZ-lə- rin nəzəri əsaslarından çox, onlann praktiki dəyərlərinin axtanşm- dayıq. Başqa sözlə, müasir dünya iqtisadi proseslərində daha dayanıqlı və işlək mexanizmlər üzərində hərəkət edə biləcək və

uğurlu iqtisadi noticDİorin əldə edilməsinə imkan yaratmaq iqtidarında olan XİZ modelinin doğma Azərbaycanımızın iqtisadi sisteminə adaptasiyası problemi və bu istiqamətdə ən perspektivli optimal variantlarının işlənib hazırlanması bu araşdınnalarımızm əsas hədəfidir. Məhz bu baxımdan A.Marşallın hələ 100 ilə yaxın bundan əvvəl gəldiyi clmi-iqtisadi qənaətlərdə iqtisad elminin praktiki alətlərinə ciddi önəm verilməsi müasirliyi ilə bu gün də diqqəti cəlb etməkdədir. Belə ki, iqtisadi mexanizmlərin təhlili prosesində onlann söykəndikləri iqtisadi nəzəriyyələrin hansı səviyyədə bu günə kimi tranfomıasiyasız və deformasiyasız qalmasından asılı olmayaraq, onların müasir dövrdə dəyərləri bu günki praktiki-iqtisadi proseslərdə əhəmiyyətli artıma və iqtisadi inkişafa imkan verə biləcək instrumentlərlə, hazırkı iqtisadi sistemə adaptasiya edə bilmək imkanları ilə qiymətləndirilir. Fikrimizcə, elm və texnikanın intensiv inkişafı prizmasından baxmaqla, iqtisadi inkişaf proseslərinin milli subyektlərin sərhədləri üzərində az qala bütün dünya hüdudlarının qara bulud kölgəsi kimi qloballaşma kabusunun kəskin təsiri altında olduğu bir şəraitdə, real iqtisadi proseslərin icrasını effektivli təmin edə biləcək intensiv iqtisadi alətlərin tətbiqi məsələləri yaxın perspektivdə iqtisadi inkişaf prioritetlərinin müəʒ^ənləşdirilməsində ciddi önəm təşkil edəcəkdir. Bu proseslərdə XİZ institutunun yer almasına isə şübhəmiz olmadığından, bu mütərrəqi iqtisadi mexanizmin tezliklə Azərbaycanın iqtisadi inkişaf modelinə və iqtisadi sisteminə daxil olacağına böyük ümid bəsləyirik və bu proseslərin reallaşdınimasının ən münbit zamanının gəlib çatdığı qənaətindəyik.

Qeyd etmək lazımdır ki, XİZ-lərin elmi-nəzəri əsasları və onların konseptual mahiyyəti aynca bir elm sahəsi kimi formalaşmasa da, bunlar müasir dövrdə klassik nəzəriyyələrin real dünya iqtisadi prosesləri ilə qarşılıqlı prizmasından ən aktiv müraciət olunan beynəlxalq iqtisadi inteqrasiya və beynəlxalq iqtisadi münasibətlərin effektivli bir sahəsi kimi aktuallığı ilə diqqəti cəlb edir. Baxdığımız müxtəlif prizmalı elmi-nəzəri fikirləri və XİZ-lərin konseptual mahiyyəti barədə baxışlan ümumləşdirərək, bir qrup nəticəni qeyd etmək olar:

XİZ-brin və bunlara oxşar digər iqtisadi zonalann əsas mahiyyəti ənənəvi iqtisadi rejimin və iqtisadi mexanizmlərin yenilənməsi, iqtisadi sistemin kəsərli alətlərlə təzələnməsi, səmərəli iqtisadi rıçaqm və iqtisadi mexanizmin vasitəsi ilə dövlətin iqtisadi siyasətinin bu və ya digər strateji prioritetlərinin real iqtisadi proseslərdə həyata keçirilməsidir;
XIZ-br fəaliyyət göstərdikləri əraziyə və iqtisadi mühitə yeni effektivli və fərqli iqtisadi mexanizm kimi daxil olaraq, regionun, bütövlükdə milli subyektin iqtisadiyyatı ilə dünya iqtisadiyyatı arasında inteqrasiya kanalı kimi eəlbedicidir;
XIZ-lər qısa zaman kəsiyində müasir istehsal sahələrinin yaradılması, bu sahələrə yüksək standartlara cavab verən idarəetmə metodlannm tətbiq edilməsi və iqtisadi fəaliyyət sahəsinə innovasiyaların, yeni texnologiyaların gətirilməsi yolu ilə regionun və milli iqtisadiyyatın inkişafında önəmli yer tutmaq imkanına malikdir;
XIZ-lər yerli və xarici investorlann fəallığını konsolidasiya etməklə, regiona iri kapitalın gətirilməsini və onlardan region iqtisadiyyatının sürətli inkişafının təmin edilməsini, burada rəqabət qabiliyyətli istehsal sahələrinin və müəssisələrinin yaradılmasının stimullaşdırılmasını, regionun sosial-iqtisadi problemlərinin həlli üçün fəal iqtisadi mühitin təşkilini, sahibkarlığın və biznesin inkişafına səmərəli iqtisadi alətlərin cəlb olunmasını sürətləndirir;
XİZ-lər, nəhayət, fərqli və məqsədli iqtisadi mexanizm kimi region və ölkədə iqtisadi fəallığının artmasına, haqlı və ədalətli biznes-rəqabət mühitinin formalaşmasına, yüksək standartlara malik mal və xidmətlərin çeşidinin genişləndirilməsinə, regionda xarici ticarət fəaliyyətinin təşkilinin yeni standartlar səviyyəsinə qaldırılmasına, ölkənin ixrac potensialının əhəmiyyətli şəkildə artırılmasına imkan verir və s.

## 1.2. XİZ-in fəaliyyətinin və təşkilinin metodoloji cəhətləri

XİZ-brin praktiki tətbiqi proseslərində bu kimi zonaların fəaliyyətinin və təşkilinin metodoloji cəhətlərinin düzgün qiymətləndirilməsi, onlann hər bir milli iqtisadi subyektlərin prioritetləri prizmasından adaptativ fonnasınm modelləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu onunla bağlıdır ki, əgər göstərilən kriteriya- lar optimal müəyyənləşdirilməsə, XİZ-brin tətbiqindən gözlənilən iqtisadi effekt və məhsuldar nəticələr əldə edilməyə bilər və bu halda belə zonalar, şübhəsiz, milli subyektlərin iqtisadi sistemlərində möhkəmlənə bilmir, ölkənin iqtisadi inkişaf proseslərində əhəmiyyətli yer tutmur və onların praktiki proseslərinin genişləndirilməsi ciddi maraq doğunnur və s.. Dünya təcrübəsində bir çox ölkələrdə buna aid xeyli misallar vardır və biz, yeri gəldikcə, onları diqqətə çatdıracağıq.

Qeyd etmək lazımdır ki, XİZ-brin 30-a yaxın müxtəlif fornıa- lan dünya təcrübəsində milli iqtisadi sistemlərdə yer tutmuşdur. Belə zonalar məqsəd və vəzifələrindən, fəaliyyət sahələrindən və xüsusiyyətlərindən, statuslanndan və digər spesifik cəhətlərindən asılı olaraq, 5 əsas qrupa bölünürlər. Bunlara ticarət-anbar təyinatlı, ixrac yönümlü, istchsal-tcxniki yönümlü, iqtisadi-maliyyə və xidmət təyinatlı, kompleks və beynəlxalq XİZ-lər daxildirlər (Şəkil 1). XİZ-brin təşkili və onların təsnifatlaşdırılması zamanı əsasən ərazi və ərazinin miqyası, xammal və istehsal resurslannın kəmiyyət və keyfiyyət parametrləri, bu kimi zonalann məqsəd və vəzifələri, təşkili üzrə modelbşdimıə imkanları vacib meyarlar kimi nəzərə alınır. XİZ-brin fəaliyyəti və təşkili uzun və mürəkkəb bir prosesdir. Bu işlərin təşkili üçün ilk növbədə mükəmməl texniki-iqtisadi əsaslandınnaların baxılıb-hazırlanması və fəaliyyəti nəzərdə tutulan XİZ-brin başlıca kriteriyalannm müəyyənbş- dirilməsidir. Digər tərəfdən, bu kimi zonaların təşkili üçün beynəlxalq standartlara cavab verən və milli maraqlan qorumaq iqtida- nnda olan qanunvericilik bazasının işlənib hazırlanması, qəbul edilməsi və XİZ-brin təşkili ilə bağlı normativ sənədlərin baxılıb təsdiq edilməsi mühüm əhəmiyyət kəsb edir.




* Qeyd. Bu zonaların yaradılması hələ reallaşdırılmayıb.

**Şəkil 1. Dünya XİZ-nin (azad və yaxud sərbəst iqtisadi zonaların) məqsəd və vəzifələrinə, təyinat və əsas fəaliyyət növlərinə görə təsnifat sxemi**

Dünya təcrübəsi göstərir ki, XİZ-lərin fəaliyyətinin və təşkilinin kompleks baxılması, bu kimi zonaların tətbiqi zamanı optimal modellərin müəyyənləşdirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Belə ki, XİZ modellərinin heç də az olmaması bəzən onların milli iqtisadi sistemlərin prioritetlərinə adaptasiya olunmaqda çətinlik çəkən modellərinin iqtisadi sistemlərə yol tapa bilməsinə rəvac verir. Məsələn, təkcə ticarət-anbar təyinatlı XİZ-lərin 1 O-dan çox müxtəlif modifıkasiyallan mövcuddur. Ümumilikdə, ticarət-anbar təyinatlı XİZ-lərə əsasən sərbəst ticarət, ticarət-anbar, sərbəst gömrük, xüsusi gömrük zonalan, sərbəst liman və açıq şəhərlər, həmçinin sərhədyanı zonalar daxildirlər. İxrac-yönümlü XİZ- lərə ixrac-istehsal və ixrac-sənaye zonaları aiddirlər. Təyinatına uyğun olaraq, bu kimi zonalarda əsasən ixrac təyinatlı istehsal sahələrinin şəbəkəsi yaradılır və burada yüksək standartlara malik rəqabətqabiliyyətli ixrac məhsulları istehsal edilirlər. Son 20-30 il ərzində dünyada istchsal-tcxnoloji təyinatlı XİZ-lərin sayı və onların əhəmiyyəti xeyli artmaqdadır. Bu kimi XİZ-lərə əsasən elmi- texniki, sərbəst elmi-texniki zonalar, elmi park və elmi-texniki parklar, texnoparklar və texnopolislər, innovasiya mərkəzləri və innovasiya zonaları, kommersiya və sənaye parkları, biznes-inkubatorlar daxildirlər. Belə təyinatlı XİZ-lərdə əsasən elm və yüksək texnologiyalar tutumlu mal və məhsullar istehsal edilir, ixtira və kəşflərin işlənməsi, hazırlanması və tətbiqi prosesləri həyata keçirilir. iqtisadi, maliyyə və xidmət yönümlü XİZ-lərdə əsasən xarici kapitalın geniş həcmini cəlb etməklə yanaşı, güzəştlər və xüsusi hüquqi statuslara malik iqtisadi rejimlər fəaliyyət göstərirlər. Bu kimi XİZ-lərə iqtisadi istehsal rejimi, xüsusi, azad, sərbəst statuslu iqtisadi zonalar, bank və sığorta zonalan, həmçinin offşor zonalan daxildirlər. Qeyd edim ki, son 10-20 il ərzində kompleks və beynəlxalq XİZ-lərə dünyanın əsas iqtisadi güc regionlannda maraq xeyli artmaqdadır. Bu kimi XİZ-lərə kompleks zonalar və beynəlxalq XİZ-lər daxildilər. Amma dünya iqtisadiyyatında önəmli nəticələri ilə fərqlənən beynəlxalq XİZ-lərdən yalnız XAFTA-nı qeyd etmək olar. Bu XİZ sözün əsl mənasında ABŞ, Kanada və Meksika arasında gömrük və pasport baryerlərinin aradan qaldırılmasın

da, sərbəst ticarət mühitinin yaxşılaşdırılmasında, investisiyaların cəlb edilməsində, rəqabət qabiliyyətli istehsal sahələrinin yaradılmasında və sosial-iqtisadi problemlərin həllində əhəmiyyətli rol oynaya bilmişdir. Yaxın perspektivdə “Tumanqan” və “Çin-ASEAX” azad ticarət zonası kimi iri həcmli beynəlxalq XİZ-lərin yaradılması perspektivləri geniş müzakirə dövmndədir.

XİZ-lərin tətbiqi proseslərinə başlamamışdan əvvəl, onların fəali)0'3ti və milli sistemə uğurlu adaptasiyası amilləri ciddi nəzərə alınmalı və bu proseslərin bütün mərhələlərində risklərin proq-nozlaşdmlması mühüm amillər sırasına daxil edilməlidir. Dünya təcrübəsində uzun illər ərzində qeydə alınan, araşdınlan və müvafiq nəticələr əldə edilən XİZ nümunələrinə əsasən bu kimi zonaların layihələşdirilməsi mərhələlərində XİZ subyektlərinin məqsəd və strateji maraqlarının qeyri-müəyyənliyi, onlann maliyyə vəziyyəti və resurslarının etibarlılığı, təşkil edilən zonaya rezidentlərin və iri investorlann gəlmə ehtimalları, yerli, regional və mərkəzi hökümət struklurlannm bu kimi zonalara münasibəti, həmçinin xarici bazann təsiri imkanları fundamental araşdırılmalı və nəzərə alınmalıdır. Digər bir sahədə - XİZ-lərin təşkili proseslərində əsasən podratçı təşkilatların maddi-texniki bazasının olması, layihə- kəşfiyyat işlərinin səthi apanlmaması, xərclər smetasının tam əsaslandırılmaması, yerli xammal ehtiyatlannin yaxşı öyrənilmə-məsi, əmək ehtiyatlan və kadr potensialı ciddi araşdırılmalıdır. Və nəhayət, XİZ-lərin fəaliyyəti proseslərində isə sabit iqtisadi rejimin və güzəştlər sisteminin mövcudluğu, hazır məhsulun əmtəə bazarlanna sərfəli qiymətlərlə çıxışının təmin edilməsi, istehlakçıların və zonada istehsal olunan məhsullann əsas alıcılannm ödəmə qabiliyyətlərinin öyrənilməsi regionda sağlam iqtisadi rəqabət mühitinin fonnalaşması və sair məsələlər dərindən nəzərə alınmalıdır.

XIZ-lərdə təyinat və fəaliyyət istiqamətlərindən asılı olmayaraq, bu kimi zonalar yaradıldığı ölkələrin strateji, regional, beynəlxalq və digər yüksək səviyyələrə hesablanmış iqtisadi siyasətinin tərkib hissəsi kimi çıxış edir. Bu zonaların fəaliyyətində ən vacib prinsiplərə regionun və milli subyektin iqtisadi dirçəlişi və ticarət-

iqtisadi əlaqələri aiddirlər [s.l8, 29]. Bu baxımdan XİZ-lərin fəaliyyəti və təşkili ilə bağlı bütün spesifik xüsusiyyətlərə və şərtlərə fundamental yanaşma daha məqsədəuyğun hesab olunur. Rusiyalı alimlər A.V. Puşkin və İ.Q.Boqdanov XİZ-lərin yaradılması və gələcək fəaliyyətinin uğurlu olması üçün fundamental şərtlərə inkişaf etmiş nəqliyyat qovşaqlarının olmasını, ərazinin nəqliyyat-coğrafi vəziyyətini, güclü istehsal və sosial infrastrukturun mövcudluğunu, əmək ehtiyatları və kadr potensialını, beynəlxalq sistemə daxil olan bank və maliyyə xidmətlərinin təşkilini, zonanın ərazisində inzibatı-bürokratik baryerlərin minimuma endirilməsini, investisiya mühitinin həvəsləndirilməsini, sabit hüquqi rejimin olmasını, xüsusi güzəştlər sisteminin biznes və sahibkarlığın inkişafına əlverişli şərait yaratmasını, zonanın idarəetmə strukturunun mükəmməlliyini vacib hesab etmişlər [134].

Digər tədqiqatçı-alim R.İ.Zimenkov XİZ-lərin fəaliyyəti və təşkilinin spesifik xüsusiyyətlərini araşdırarkən, onlara bu kimi zonalann yaradılması yerinin optimal seçilməsinin vacibliyini, burada istehsal resurslannm olması və keyfiyyət göstəricilərinin yüksəkliyini, təbii, iqtisadi və sair mühüm şərtlərin nəzərə alınmasını, zona ilə dövlət strukturlan arasında qarşılıqlı fəaliyyət prinsiplərinin mükəmməl fonuasmın müəyyən-ləşdirilməsi kimi mühüm amilləri aid etmişdir [s. 23, 99].

Qeyd edim ki, müasir dünya iqtisadiyyatında Çinin əldə etdiyi uğurlar bir çox düşüncələrə yol açır. Bu ölkənin əldə etdiyi tarixi iqtisadi uğurlann əsasında nəzəriyyədən praktikaya keçidin çevik və məhsuldar olmasını gömıək mümkündür. Şübhəsiz, hər bir tarixi iqtisadi nəzəriyyə bu və ya digər formada öz nəticələrini real iqtisadi həyatda göstərmişdir. Amma Çindəki iqtisadi proseslərin araşdırması bu qənaətə gəlməyə imkan verir ki, buradakı uğurlann əksəriyyəti reallıqlar nəzərə alınmaqla, praktiki iqtisadi proseslərin düzgün təşkili, düşünülmüş strategiyası, dəqiq seçilmiş ərazisi, sosial-iqtisadi problemlərin həllini nəzərə alan prioritetlərin seçilməsi və sairlərlə birbaşa bağlıdır. XX əsrin 60-70-ci illərindəki dövrdə ayn-ayn ərazilərin ümumi iqtisadi inkişafdan olduqca geri qalması və məhsuldar əmək ehtiyatlarından istifadə etməkdə o qə

dər do uğurları olmayan Çində son 30 il ərzində bir sıra effektivli iqtisadi alətlərdən səmərəli istifadə nəticəsində ölkənin sosial-iqtisadi siması tamamilə dəyişdirilmişdir. Bunlar barədə çoxlu sayda elmi araşdımıalar və monoqrafiyalarla tanışlıq bir daha bu ölkədə aparılan iqtisadi islahatlar və məhsuldar iqtisadi alətlərdən səmərəli istifadə edilməsində toplanmış təcrübəyə müraciət etməyə sövq edir. Çin iqtisadçı alimləri və texniki iqtisadi zonalann yaradılmasında bilavasitə iştirak etmiş Pi Tsyanşen və Van Kay öz təd- qiqatlannda Çinin 20 illik iqtisadi inkişaf proseslərini araşdınnış- lar [145]. Bu iqtisadi proseslərin əsasında müxtəlif iqtisadi islahat- lann və iqtisadi prioritetlərin çoxluğu xüsusilə diqqəti cəlb edir. Bunlardan biri də - texniki-iqtisadi inkişaf zonalarının (TİİZ) məhsuldar iqtisadi alət kimi Çinin tarixi iqtisadi inkişafına əsaslı töhfələrin verə bilməsidir. Qeyd etmək lazımdır ki, artıq XX əsrin əvvəllərində Çində 50-dən çox belə zona fəaliyyət göstərirdi. Bu kimi zonaların ümumi ərazisi 1000 kv. km olmuşdur. Maraqlıdır ki, 'fİİZ-lər Çinin COM-də 5 %-lıq göstəriciyə malik olmuş və bu göstərici ölkənin sənaye istehsalında 6,7 %, ixracında - 10,1 % və xarici investisiyalann cəlb edilməsində - 18 % təşkil etmişdir. l1İZ-lər və onlarla bağlı yüzlərlə istehsal sahələri əsasən xarici ticarətə yönəldilsə də, bu kimi zonaların kompleks inkişafı, onlann yerləşdiyi ərazilərin sürətli inkişafına, regionda sahibkarlığın sti- mullaşdınlmasma və bütövlükdə sosial-iqtisadi problemlərin həllinin sürətləndirilməsində əsaslı təkanlar verə bilmişdir. TİİZ-lərin tarixi və strateji missiyalarına yeni müasir texnologiyalann inkişafının sürətləndirilməsi, sənaye-ixrac istehsal sahələrinin yaradılması, ayrı-ayrı ərazilərdə və rayonlarda iqtisadi inkişafı stimullaş- dınnası, xarici investisiyaların maneəsiz cəlb edilməsinə münbit şəraitin yaradılması və bütövlükdə ölkənin iqtisadi inkişafına sam- ballı töhfələrin verməsidir. Məsələn, 2003-cü ildə Çinin 49 TIİZ- ində ixrac 38,7 mlrd, dollar təşkil etmişdir. Bu kimi zonalardan yığılan vergilər qısa müddət ərzində 10 dəfələrlə artmışdır. Əgər 1980-cı ilin sonuna Çində adambaşına gəlir 260-270 dollar səviyyəsində idisə, qısa müddət ərzində bu göstərici əhəmiyyətli şəkildə arta bilmişdir. Təkcə 1992-1996-cı

ra olunan investisiya layihəbrinin ümumi dəyəri 31 mlrd. ABŞ dollanndan çox olmuş və bu zonalara yatırılmış xarici investisiyalann ümumi dəyəri 22 mlrd, dollar təşkil etmişdir. Məhşur “Motorolla” şirkəti bu dövrlərdə Tyantszin TİİZ-nə 1,1 mlrd, dollar birbaşa sərmayə qoymuşdur. Araşdırılan dövr ərzində TİİZ-brdə sənaye məhsulu 8,6 dəfə artmışdır. Maraqlıdır ki, bir çox TİİZ-lər yerləşdikləri iqtisadi rayonlann həyatında qısa müddət ərzində önəmli yer tuta bilmişlər. .Məsələn, Quançjoy TİİZ-i yerləşdiyi iqtisadi rayonun ümumi sənaye istehsalında 12 %-ə yaxın, Tyantszində isə bu göstərici 18 % təşkil etmişdir. Bəs Çin TİİZ-lərinin bu cür fenomal müvəffəqiyyətləri nə ilə bağlıdır? Doğrudanmı ölkədə olan investisiya mühitinin əK^erişli olması ilə bu qədər uğurlu nəticələr əldə etmək mümkündür? Bəlkə ölkədəki iqtisadi sistemdəki dəmir intizam bu məhsuldar nəticələrin əsasında durur? Fikrimizcə, bu göstərilən iddiaların hər birində xeyli həqiqət yer almışdır. Amma biz Çin TİİZ-lərinin ən böyük məhsuldarlıq uğurunu onlann tətbiqi proseslərinin yüksək peşəkarlıq, operativlik, ərazi və milli maraqlann əhəmiyyətli səviyyədə qorunması, bu proselərdə süni baryerlərin xeyli az olması, zonalann yarandığı ərazilərdə sosial-iqtisadi problemlərin həllinə cəmiyyətin bütün üzvlərinin, yerli icra orqanlarının, məmurların və investorlann ümumi baxışlannm strateji baxımdan bir nöqtəyə istiqamətlənə bilməsi ilə bilavasitə bağlılığı qənaətindəyik. Bu baxımdan Azərbaycanda bu kimi zonaların tətbiqi proseslərinin təşkili zamanı, əlbəttə çoxsaylı amillər nəzərə alınmaqla yanaşı, Çində toplanmış təcrübənin ayn-ayrı məqamlarına xüsusi diqqət göstərilməlidir və önəm verilməlidir.

Qeyd etmək lazımdır ki, istehsal sahələrinin yaradılmasına və genişləndirilməsinə Çində münasibət digər ölkələrə nisbətən xeyli fərqlənir. Bu onunla bağlıdır ki, Çində kiçik bir düymədən tutmuş iri bir avtomobilə kimi hər hansı bir istehsal sahələrinin inkişafına və maliyyələşdirilməsinə kompleks münasibət sistemi mövcuddur. Başqa sözlə, bu ölkədə hər bir sahə üzrə spesifik modellərin formalaşması sürətlə baş verir. Təsadüfi deyildir ki, Çin onlarla məhsulun ixracı üzrə dünya lideridir. Çində istehsal sahələrinin yaran

ması və inkişafının modelləşdirilməsinə xüsusi münasibəti bu misalla göstənnək olar. Məsələn, əgər hazır avtomobil və onlann komplcktləşdirici detallanm istehsal edən müəssisələrin maliyyə sistemində Avropada sərbəst model, Amerikada bir istehsalçının əmlak münasibətləri modeli, Yaponiyada isə bir neçə istehsalçının müəssisəyə kapital yatırılması modeli üstünlük təşkil edirsə, Çində bu proseslərdə investisiya sisteminin diversifıkasiyalaşdırılmış modeli üstünlük təşkil edir. Beləliklə, Çində istehsala və yaxud regiona yatınlmış investisiya çoxşaxəli təsir güwəsinə malik olduğundan, bu cür yatırımlann sosial və iqtisadi nəıticələri də xeyli uğurlar gətirə bilmişdir. Çin TİİZ-lərinin ən böyük tarixi uğurla-nndan biri də, ölkəyə iri həcmdə müasir texnologiyalann gətirilməsinə münbit şəraitin yaradılması olmuşdur. Məsələn, təkcə Tyantszin 'fİİZ-ndə dünyanın 50 məhşur transmilli kompaniyası tərəfindən 100-dən çox elmi-texniki lahiyələr həyata keçirilmişdir. Bu lahiyələrdən bir hissəsi yüksək texnologiyalara əsaslanmış elektronika və infonnasiya sistemlərinin işlənib hazırlanması və istehsalı ilə birbaşa bağlı olmuşdur. Lahiyələrin iştirakçılan sırasında “Samsunq”, “Panasonic”, “Toyoto”, “Motorolla”, “Mitsui” və digər iri kompaniyalar yer almışdır. Yeni texnologiyalann iqtisadi zonalara gətirilməsi, burada elmi-texniki mühitin yüksək səviyyədə təşkil edilməsi yalnız bu işləri əhatə edən tədbirlərə kompleks sistemli baxışın nəticəsində mümkün olmuşdur. Yüksək texnologiyaların ölkəyə gətirilməsinin stimullaşdınlması üçün kompleks güzəştlər sisteminin mövcudluğu və bu sahədə Çin hökümətinin sabit iqitsadi siyasəti ölkə TİİZ-lərini müasir texnologiyalann gətirilməsi və investisiyaların yatınıması üçün optimal əlverişli iqtisadi fəaliyyət zonasına çevirməyə imkan vennişdir. Güzəştlər sisteminə daxil olan əsas maddələr sırasına yüksək texnologiyalı istehsal sahələrinə büdcə dotasiyaları, mühəndis-texniki mərkəzlərin yaradılmasına subsidiyalar, yeni yaradılan və elmi-texniki işləmələrlə məşğul olan kiçik və orta müəssisələrin güclənməsinə ayrılan subsidiyalar, yüksək texnologiyalı müəssisələrin yaradılmasının maliyyələşdirilməsinə əsaslı maliyyə köməyinin göstərilməsi, elmi-texniki mərkəzlərin Universitetlərdə və digər müəssisələrdə

yaradılması üçün maddi-texniki bazanın təşkilinə, icarə və digər xərclərə ilkin kapitalın fonnalaşmasına yardımlann ayrılması, ümumi elmi-texniki laboratoriyaların yaradılması və burada yüksək ixtisaslı mütəxəssislərin işləməsinə imkan verilməsi, onlann mənzil problemlərinin həll edilməsi və sair problemlərinin aradan qaldırılmasına vəsaitlərin ayniması xüsusilə diqqəti cəlb edir. Şübhəsiz, bu cür geniş çeşidli güzəştlər və stimullaşdırıcı sistemin mövcudluğu yüksək nəticələrin əldə cdilmıəsinə imkan vennişdir. Bəs nəyə görə }diksək texnologiyaların işlənib hazırlanması və tətbiqi ixtisaslaşdınimış və lisenziyalaşdırılmış xüsusi müəssisələrdə TİİZ-lərdə olduğu kimi, daha qısa zaman kəsiyində və məhsuldarlıqla əldə olunmur? Bu sualın cavabını TİİZ-lərin idarəedilməsin- də, fəaliyyətində, onların sadəliyində, bürokratiyadan uzaqlığında, çoxsaylı güzəştlərinin mövcudluğunda, əmək haqqı sisteminin müxtəlifliyində və bütün hallarda stimullaşdıncı olmasında, sosial-iqtisadi problemlərin həllinə az vaxtın tələb edilməsində və nəhayət, işlənmiş kəşflərin, ixtiralann tətbiqindəki operativlikdə axtannaq daha düzgün olardı. Ümumiyyətlə, xüsusi (azad, sərbəst) iqtisadi zonalann opponentlərinin bir çoxlan bu zonalann mövcudluğunda güya ki, vergi tutmalarının əhəmiyyətli azalmasını xüsusi qeyd etməklə, həmin zonaların tətbiqini məqsədəuyğun hesab etmirlər. Amma, fikrimizcə, bu məsələlərdə daha dərin araş- dınnaya zərurət vardır. Məsələn, 2000-ci illərin əvvələrində Çinin əsas TİİZ-lərində istehsaldan vergilər və burada istehsal olunan ÜDM-də vergilərin ümumi çəkisi heç də az olmamışdır və bu vergilər həmin TİİZ-lərin çox məhsuldar maliyyə-təsərrüfat fəaliyyətinə və ölkənin ixrac potensialının əhəmiyyətli dərəcədə artmasına maneəçilik edə bilməmişdir. Belə ki, Tyatszin TİİZ-ndə istehsaldan vergilər 8 %, Quançjou - 11%, Kunşan - 3 %, Dalyan - 6 % və Tsindao - 5 %, ÜDM-də vergilərin çəkisi isə müvafiq olaraq bu TİİZ-lərdə belə təşkil etmişdir: 21 %, 25 %, 10 %, 12 % və 10 %. Biz Çin TİİZ-lərinin praktiki əhəmiyyətindən və məhsuldar fəaliyyətindən nümunələr verərkən, nəyə görə Pi Tsyanşen və Van Kayın araşdırmalanna müraciət etdik? Sualının məntiqi cavabı - həmin mütəxəssislərin bu kimi zonaların yaradılmasında və idarə-

edilməsində bilavasitə iştirakı ilə bağlı olmuşdur. Çinin Nankay Universitetinin məzunu və iqtisadiyyat elmləri doktoru Pi Tsyan-şen Tyantszin TİİZ-nin yaradıcılarından biri olmuş və onun idarə-edilməsinə rəhbərlik etmişdir. Çinin Xeyluntstzyan Universitetinin məzunu iqtisadçı-tədqiqatçı Van Kay Tyantszin TİİZ-də araş-dınnalar mərkəzinə rəhbərlik edir. Göründüyü kimi bu sahənin bilavasitə araşdırıcılan olan elm adamlarının bu tip zonalann tətbiqində və fəaliyyətinin təşkilində birbaşa iştirak etməsi nəzəriyyə və praktikanın vəhdətinə münbit şərait yaratmaqla yanaşı, real iqtisadi şəraitdə effektivli nəticələrin əldə edilməsinə, regionun və ölkənin iqtisadi inkişafına ciddi töhfələrin vennəsinə gətirib çıxa-nb. Fikrimcə, Azərbaycanda XİZ-in tətbiqi proseslərində bu amillər nəzərə alınmalı və həmin zonaların effektivli fəaliyyəti üçün prioritet məsələlərə kompleks və sistemli münasibət olmalıdır.

Xəzərə almaq lazımdır ki, dünya təsərrüfat sistemi proseslərində son 30-50 il ərzində beynəlxalq əmək bölgüsü prinsiplərinin transfonnasiyası tədricən dəyişilsə də, son 20-30 il ərzində bu proseslər nisbətən güclənmişdir. Şübhəsiz, bunlar ilk növbədə keçən əsrin 80-ci illərindən başlayaraq, dünya iqtisadi proseslərində yeni inteqrasiya məkanlannın artması və bir az sonrakı 10 illiklərdə yeni dövlətlərin yaranması ilə bilavasitə bağlıdır. Əlbəttə, dünya iqtisadiyyatında möhkəmlənmək istəyən inkişaf etməkdə olan ölkələr və yenicə yaranmış, eyni zamanda dünya iqtisadi proseslərinə tezliklə geniş həcmdə qoşulmaq imkanlan axtaran dövlətlərin inteqrasiya imkanlan eyni ola bilməz. Bu nəzəri baxımdan belədir, amma dünya ölkələrinin iqtisadi inkişaf prosesləri göstərir ki, milli iqtisadiyyatlann praktiki inkişaf mərhələlərinin balanslaşdınl- mış və çevik iqtisadi dövlət siyasəti, bu siyasətin nəticəsində təşkil edilən effektivli dövlət və iqtisadi mexanizmlərini işləyib hazırlayan ölkələr qısa dövr ərzində öz milli iqtisadiyyatlannın dünya təsərrüfat sisteminə uğurlu inteqrasiyasını əsasən təmin edə bilirlər. Bu qrup ölkələr sırasında bir sıra postsosialist respublikalan da vardır. Dünya təsərrüfat sisteminə integerasiya modellərinin təsnifatında çoxlu sayda prioritet istiqamətlər olsa da, onların heç də praktikada hamısından uğurla istifadə etmək olmur. Bu ilk növbə

də bir çox ölkələrin öz milli iqtisadiyyatlarının rəqabət qabiliyyətinin qaldınlmasındakı məhdudiyyətlərlə birbaşa bağlıdır. Məsələn, iqtisadi inkişaf prioritetlərinə və iqtisadi inkişaf modelinə hörmət və rəğbətimizi bildinnəklə yanaşı, Qırğızıstan və Tacikistan kimi ölkələrin milli subyektləri dünya ölkələri arasında rəqabət prinsipi baxımından hələ uzun bir dövr ərzində iqtisadi inkişaf mərhələləri keçməlidir və yaxud Avropada yerləşən Albaniya kimi aqrar bir ölkənin digər Avropa ölkələri ilə iqtisadi rəqabət apannası və iri həcmli inteqrasiya proseslərinə qoşulması inandırıcı görünmür. Bir qrup yeni Balkan ölkələrinin (Makedoniya, Bosniya və Herso-qovina, Çernoqoriya və sair) iqtisadi inkişaf səviyyələri bir qədər fərqli olsa da, bu ölkələrin demək olar ki, heç biri nisbətən inkişaf etmiş və inkişaf etməkdə olan Avropa ölkələri ilə rəqabət və inteqrasiya proseslərində, şübhəsiz, onlarla bir cərgədə dayana bilməz. Azərbaycanın yerləşdiyi regionda ən iri iqtisadiyyata malik olmasına və iqtisadi islahatların əsas fazasının başa çatdınimasına baxmayaraq, Xəzər dənizi sektorunda iri neft-qaz ehtiyatlannm olması hesabına ölkəmizin aparıcı Avropa ölkələrinin enerji təhlükəsizliyi problemlərində mühüm partnyorlardan birinə belə çevrilməsi, hələ o demək deyildir ki, Azərbaycan artıq bu gün Avropa standartları ilə yaşayır və Avropa ölkələri içərisində özünə layiq yerini tutub. Təsadüfi deyildir ki, zəngin iri təbii ehtiyatlanndan, insan resurslanndan, inkişaf etmiş hasilat və sənaye sektorlarından asılı olmayaraq, MDB ölkələrinin heç biri, o cümlədən də Azərbaycan dünyanın ilk 50 rəqabətqabiliyyətli ölkələri sırasına düşə bilməyib. Sevindirici haldır ki, MDB ölkələri arasında Azərbaycan bu göstərici üzrə ən yaxşı nəticəyə malikdir və ölkəmizdəki hazırkı iqtisadi inkişaf modelinin uğurlu icrası yaxın gələcəkdə Azərbaycanın dünya təsərrüfat sistemində ən güclü ölkələr arasında yer tutacağı- na əminliklə inanmağa imkan verir. Bəs dünya iqtisadiyyatına və təsərrüfat sisteminə çoxşaxəli inteqrasiyanın təmin edilməsində əsas prioritetlər nədən ibarətdir və bu prioritetlərin praktikada gerçəkləşdirilməsi üçün nələri etmək lazımdır? Bu problemlər üzərində araşdırmalar aparan i.e.d. A.M.Basenko milli iqtisadiyyatlann dünya təsərrüfat sisteminə sürətlə daxil olmasında XİZ-lərin rolu

na xüsusi önəm vermişdir (87j. Alimin fikrincə, XİZ-lər işlək mexanizmlərə malik bir iqtisadi mühit kimi milli və xarici innovatik sahibkarlıq subyektlərini buraya toplayıb, investisiya resurslarının və kapitalın gətirilməsini təmin edir, iqtisadi və təsərrüfat potensialının milli iqtisadiyyatın digər regionlan ilə qarşılıqlı inkişafına güclü impuls verir. Bundan əlavə, XİZ-lər kommutativ mexanizm kimi milli iqtisadiyyatı, xarici ticarət və bazar infrastrukturu, nəqliyyat koridorları, kapitalın transmilli kanallarla hərəkəti və yeni texnologiyaların köməyi nəticəsində dünya iqtisadi məkanı ilə bir- ləşdinnəklə, onlann dünya təsərrüfat sisteminə daxil edilməsini təmin edir. XİZ-lər təşkilati-iqtisadi mexanizm kimi institusional- hüquqi əsaslarla və digər mühüm dövlət instrumentləri ilə silahlanaraq, öz ərazilərinə və regiona yeni iqtisadi abı-hava, münbit və eəlbediei investisiya məkanı, ayrı-ayrı iqtisadiyyat sahələrinin sürətli inkişafına yeni inkişaf stimulları verir. XİZ-lər öz modifikasi- yalarından asılı olaraq, milli iqtisadiyyatın inkişafı proseslərinə müxtəlif eür təsirlər göstərirlər. Məsələn, sənaye təyinatlı iqtisadi zonalar, şübhəsiz, bu sektorun müxtəlif sahələrinə təsir göstərdiyi halda, ticarət-anbar tipli zonalar xarici ticarət-nəqli)^at kommunikasiyası sistemində qlobal yükdaşımalann (logistikanın) ötürücü marşrut funksiyasını yerinə yetirir və yaxud sərhədyanı təyinatlı zonaların fəaliyyətində beynəlxalq alqı-satqı əməliyyatlannm hesablaşması təşkili və ticarətin genişləndirilməsi üçün müvafiq bank, sığorta, kommersiya infrastrukturu qurulur. Daha mürəkkəb texniki və iqtisadi inkişaf prioritetlərinin yerinə yetirilməsi və praktikada təşkili üçün ixrac-istehsal təyinatlı zonalar, innovasiya texnologiyalannın və elmi-texniki yeniliklərin tətbiqi zonalan, texnoparklar və texnopolislər fəaliyyət göstərirlər. Bir çox hallarda isə bank-maliyyə əməliyyatlarının mümkün qədər vergi yükündən uzaq 1 aşdınnaq məqsədilə offşor biznes mühitinin təşkili üçün XİZ modifikasıyalarından praktiki istifadə olunur. Amma dünya XİZ-lərinin əksəriyyəinin fəaliyyət prioritetləri milli iqtisadiyyat- lann inkişaf prioritetləri ilə üst-üstə düşür. Bu prioritetlərin içərisində mühüm yerlərdən birini milli iqtisadiyyatın bütün sektorlan- nm, həmçinin biznes mühitinin inkişafı problemləri

öz praktiki və çevik iqtisadi riçaqlan ilə müəyyən bir ərazinin və regionun kompleks güzəştlər sistemi vasitəsi ilə tiearətin genişləndirilməsinə, xidmətlərin çeşidinin artınlmasına, istehsal və kommersiya strukturlarının qurulmasına, regionun təbii ehtiyatlarının yerin təkindən işlənməsinə, emalına və rəqabət qabiliyyətli məhsulların istehsalına, daxili istehlakm tələblərinin yüksək standartlara malik mal və məhsullarla təmin edilməsinə, ixrae malları hesabına dünya bazarına çıxmasına geniş imkanlar açır. Bundan əlavə, XİZ-lər regionda sahibkarlıq subyektlərinin artması hesabına iqtisadi fəallığı nisbətən artımıağa nail olurlar. XİZ-lərdə ixrae-is- tehsal təyinatlı sahibkarlıq fəaliyyətinin investorlar arasında ciddi marağa səbəb olması, rəqabət mühitinin sağlam olması və biznes qaydalannm əsasən qorunmasına zəmanətin mümkünlüyüdür. Bir çox ölkələr XİZ-lərin bu modifikasiyasından yüksək potensiallı ixrac təyinatlı məhsullann istehsal şəbəkəsinin genişləndirilməsində istifadə edirlər. Məsələn, Cənubi Koreya, Tayvan və Sinqapur kimi yüksək iqtisadi inkişaf tempinə malik ölkələrdə elektron sənaye məhsullan istehsalının 60 %-dən çoxu ixrac istehsal zonala- nnm payına düşür. Eyni zamanda, XİZ-lər milli iqtisadiyyatın davamlı inkişafında mühüm subyekt kimi çıxış edən ayn-ayrı region və ərazilərin kompleks inkişafına təkan vermək iqtidarındadır. XİZ-lərin dünya təcrübəsində ABŞ və Qərbi Avropa ölkələri azad sahibkarlıq zonalan yaratmaqla, Çində müxtəlif təyinatlı XİZ-lər təşkil etməklə, Braziliya və Argentinada isə xüsusi rejimli ərazilər müəyyənləşdirməklə, bu ərazilərdə depressiv durumun dəyişdirilməsi, istehsal və kommersiya fəaliyyətinin gücləndirilməsi, regionun ölkə iqtisadiyyatına və beynəlxalq inteqrasiya kanallarına çıxışının təmin edilməsinə nail olunmuşdur. .Məsələn, Braziliyada Amazoniyanın depressiv ərazilərinin reabilitasiyası bu ölkənin iqtisadi inkişaf proseslərində XİZ-dən səmərəli istifadənin ən yaxşı nümunələrindən hesab edilə bilər. Bir qrup tədqiqatçılar XİZ-lərin yaradılması və fəaliyyəti proseslərini araşdırarkən belə nəticəyə gəlmişlər ki, bu proseslər nə qədər mürəkkəb olsa da, ABŞ, Çin, Avropa dövlətləri və Cənub-Şərqi Asiya dövlətləri bu effektivli iqtisadi qurumdan öz ölkələrinin regional inkişafının sürətləndiril

məsində, xarici ticarət dövriyyəsinin artırılmasında və investisiyaların cəlbinin genişləndirilməsində fəal istifadə edirlər [115J.

Biz XİZ-lərin fəaliyyəti və təşkilinin metodoloji cəhətlərini araşdırarkən, hələ 60 il bundan əvvəl İrlandiyanın Şennon aeroportunda fəaliyyətini fonnalaşdıran eyni adlı XİZ-də transatlantik aviasiya reyslərinin tranzit funksiyasını və bu uçuşlara texniki dəstəyi təmin edən xidmətlər kompleksinin uğurlu təşkili diqqətimizi eəlb etmişdir. 1984-cü illərin ortalannda bu zonada yeni prioritet istiqamətlər kimi yüksək texnologiyalann yaradılması və biznesinin təşkili məqsədilə milli texnoloji parklar fəaliyyətə başlamışdır. Müasir dövrün ən davamlı uğurlu iqtisadi inkişaf proseslərini yaşamış bu yüksək inkişaf etmiş sənaye parkında hazırda 130-a yaxın xarici kompaniya və şirkətlər məhsuldar fəaliyyət göstərirlər. Bu iqtisadi və fəal elmi-texniki inkişaf zonasında 6200 nəfərə yaxın insan işləyir və illik ixracın həcmi orta hesabla 1,0-1,1 mlrd, dollar təşkil edir. Qeyd etmək lazımdır ki, Şennon XİZ-inin kompleks sistemli və çoxflınksiyalı istiqamətlərdə inkişafı İrlandiyanın milli iqtisadiyyatının Avropanın ən inkişaf etmiş ölkələri sırasına daxil olmasına birbaşa təsir etmişdir. XİZ-lərinin ən mühüm funksiyalanndan biri də bu zonalarda fəaliyyət göstərən çoxsaylı təsərrüfat və kommersiya subyektlərinin idarəetmə formalarına beynəlxalq təcrübənin qısa zaman ərzində gətirilməsidir. Belə ki, onlar öz gündəlik fəaliyyətində və xarici iqtisadi fəaliyyətin iştirakçılan kimi xarici ölkələrdən olan partnyorlan ilə əlaqələrində beynəlxalq təcrübəyə birbaşa çıxırlar və fəaliyyət proseslərində eyni vaxtda idarəetmə funksiyalanmn ən müasir metodlannm elementlərini mənimsəmiş olurlar. Məsələn, bir çox geri qalmış Asiya ölkələrində XİZ insti- tutlannm tətbiqi ilə qısa dövr ərzində bu ölkələrin milli iqtisadiyyat sahələrinə yüksək texnologiyalar və müasir idarəetmə modelləri daxil ola bilmişdir. Sonradan belə ölkələrdə XİZ-lər daha mürəkkəb strateji vəzifələrin yerinə yetirilməsində iqtisadi mexanizm kimi praktikada istifadə olunmuşdur. Ərazi və təbii ehtiyatlar baxımından çox kiçik bir ölkədə - Sinqapurda elmi-istehsal parkı yaranması ilə burada 5 elmi-tədqiqat institutlannın, Sinqapur Universitetinin və 45 sənaye

təşkili imkanı yaranmış və əldə edilən yüksək iqtisadi nəticələr ölkənin rəqabət qabiliyyətinin və iqtisadi gücünün artmasına ciddi təkan vermişdir. Çində Şcnyanda Kanxu texnoparkmda 30 elmi-tədqiqat institutunun, 12 ali təhsil müəssisəsinin, 210 elmi-tədqiqat laboratoriyalannın və 230-a yaxın yeni və yüksək texnologiyalar əsasında qurulmuş müasir müəssisələrin innovatik-klaster yönüm- lü fəaliyyəti uğurlu nəticələrin əldə edilməsini təmin etmişdir. Əgər XİZ-lərin müxtəlif modifıkasiyalarınm ABŞ, Böyük Britaniya, Yaponiya və Almaniya kimi iqtisadi cəhətdən güclü inkişaf etmiş ölkələrdə əsasən el m i-texnoloji istiqamətlərdə olduğunu nəzərə alsaq, sənayecə güclü inkişaf etmiş Asiya ölkələrində isə (Cənubi Koreya, Honkonq, Tayland, Malayziya, Filippin və Sinqapur) XİZ-lərin əksər modifikasiyalanndan (o cümlədən Çində də) effektivli istifadə edilməsi nəticəsində, bu ölkələr dünya iqtisadiyyatında önəmli yerlər tula bilmişlər. Bəzən iri regional inteqrasiya qurumlarının və birliklərinin (məsələn, Avropa İttifaqı, Sərbəst ticarət üzrə Avropa Assosiyasiyası, NAFTA, ASEAN və sair) fəaliyyət dairələrinin daha da genişlənəcəyi təqdirdə XİZ modifıkasiya- larına tələbatın azalacağını iddia edirlər. Başqa sözlə, ehtimal olunur ki, geniş və sərbəst inteqrasiyaya malik olan regional ərazilərdə milli iqtisadiyyatların sürətli inkişafı və inteqrasiya kanallanna asan çıxışı üçün bütün şəraitin mövcudluğu XİZ-rə tələbatı məhdudlaşdıra bilər. Amma müşahidələrimizə və apardığımız müqayisələrə əsaslansaq, həmçinin dünya iqtisadiyyatındaki son illərdəki defonnasiyaları nəzərə alsaq, ayrı-ayn milli subyektlərin rəqabət qabiliyyətlilik immuniteti iri qurumlar çərçivəsində heç də həmişə güclü qala bilməz və, yeri gəldikdə, ölkə iqtisadiyyatında ciddi problemlər yaşana bilər (məsələn, Avropa İttifaqına daxil olan Yunanıstanda, İtaliya, Portuqaliyada borc problemləri və sair). Bu baxımdan, dünya iqtisadi proseslərində müxtəlif dövrlərdə praktiki baxımdan çoxsaylı problemlərə və iqtisadi böhranlara adekvat immunitet nümayiş etdirən XİZ-lərdən müasir dövrdə də fəal istifadə edilməsi əksər dövlətlərin strateji iqtisadi maraq dairəsindədir. Başqa bir misalla, əvvəldə qeyd etdiyimiz və iqtisadi sistemlərin liberallığı ilə xeyli fərqlənən, həmçinin iqtisadi cəhətdən inkişaf

etmiş ölkələrin də daxil olduğu Şimali Amerika sərbəst ticarət zonasım göstənnək olar (XAFTA). Bu quruma daxil olan ABŞ, Kanada və Meksikanın sərhəd baryerlərinin əsasən aradan qaldmlma- sı bu ölkələrin sərhədyanı zonalarda və müxtəlif milli iqtisadiyyat sektorlannda tarixi iqtisadi inkişaf sıçrayışına imkan vennişdir. Bu zonada illik ticarət dövriyyəsinin həcmi 2,5 trln. dollara yaxındır. Və buradan ixrac edilən xidmətlərin həcmi dünya ixracının 24 %-ə qədərini təşkil edir. Digər bir misal, ABŞ-la Meksikanın sərhədbo- yunca yaradılan “Makilador” tipli zonalarla bağlıdır. Bu zonalarda əsasən ölkənin milli iqtisadiyyatının inkişafında mühüm sənaye sahələri olan elektrotexniki, elektron, avtomobil, tekstil və digər bir sıra sahələr üzrə geniş şəbəkəli istehsal və emal müəssisələri fəaliyyət göstərirlər, 'fəkcə ABŞ-m “General Motors” kompaniyasının 15 zavodunda 22 mindən çox insan işləyir və burada Meksika üzrə avtomobillərin istehsalı, detal və komplektləşdirici məmulatların hazırlanmasının 6 %-i təmin olunur. Buradakı avtomobil müəssisələri ölkənin avtomobil sənayesinin əlavə dəyər məhsulunun 15 %-ni təmin edir. Meksika “Makilador”lannda tekstil və tikiş sənayesinin payı ölkə üzrə ümumi məhsulun 28 %-dən çox, elektron və elektrotexniki məmulatlarda 18 %-dən çox, mebel sənayesində 11 %-dən çox təşkil edir. “Makilador” XİZ-lərinin uğurlu fəaliyyəti bir də onunla izah olunur ki, burada istehsal olunan məhsullann əksəriyyətinin sifarişçisi və alıcısı kifayət qədər maliyyə resurslarına malik ABŞ kompaniyalarıdır. Bir daha qeyd etmək yerinə düşərdi ki, əvvəldə bildirdiyimiz kimi, son illərdə beynəlxalq XİZ-lərin yaradılması və onlardan milli iqtisadiyyatla- nn dünya təsərrüfatına daha geniş inteqrasiyasının təşkili üçün istifadə olunması təklifləri artmaqdadır (“Tumanqan” beynəlxalq XİZ-i və sair), amma praktikada XAFTA-dan başqa nisbətən uğurlu alınan digər beynəlxalq XİZ-lər olduqca azdır. Dünya bankı mütəxəssislərinin fikrincə, NAFTA ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi, fəaliyyət rejiminin müasirləşdirilməsi bu qurumun ticarət əməliyyatlarının genişləndirilməsində və bu sahələrə investisiyaların gətirilməsinə daha çevik iqtisadi mexanizm kimi çıxış etməsinə əlavə stimullar vermişdir (157]. Belə beynəl

xalq statuslu XİZ-in aşkar üstün cəhətlərinə baxmayaraq, iqtisadi zonalann tətbiqi proseslərində ayrı-aynlıqda tarixi yüksək nəticələr əldə etmiş Çin, Yaponiya və Cənubi Koreyanın birgə iştirakı ilə Cənub-Şərqi azad ticarət zonasının, həmçinin “Tumanqan” beynəlxalq XİZ-nin reallaşdırılması hələ də baş tutmamışdır. 15 ildən çox MDB ölkələrinin birgə sərbəst ticarət zonaları yaratmaq barədə bəyannamələri və qəbul eldikləri qərarlan hələ də deklarasiya olaraq qalır. Yalnız 2011-ci ildə MDB ölkələrinin bir qrup dövlət başçılarının iştirakı ilə ilkin razılığa gəlməsi baş tutmuşdur, amma belə mürəkkəb iqtisadi zonanın praktikada rcallaşdınlacağı perspektivləri hələlik tam görünmür. Bu qənaətdə olmağımız MDB-nin əsas apancı ölkəsi olan Rusiyada XİZ institutunun hələlik bu ölkənin iqtisadi sistemində güclü yer tuta bilməməsi ilə bağlıdır. Düzdür, Rusiyada son illərdə sənaye-istehsal və eimtutumlu XİZ-lərin yaradılmasına maraq artmaqdadır. Amma bu kimi zonalann tətbiqi proseslərində sənaye-istehsal təyinatlı zonalarda mürəkkəb strukturlu istehsal sahələrinin və komplekslərinin təşkili və idarəedilməsi bir sra mühüm strateji prioritetləri şərtləndirir. Bunlara əsasən XİZ-də istehsalçı kompaniyaların arasında sağlam rəqabətin yaradılması və sənaye-istehsal kompaniyalanmn optimal idarə-edilməsinin təmin olunmasına münbit şəraitin təşkili, kompaniya-lann praktiki fəaliyyət proseslərinə XİZ-in verə biləcəyi strateji stimulların və göstərəcəyi təsir amillərinin işlək mexanizminin müəyyənləşdirilməsi, həmin prioritetlərin praktiki həyata keçirilməsi ilə bağlı normativ sənədlərin və iqtisadi rejimlərin mükəmməlliyi (effektivliyi) daxildirlər. Bu proseslərdə XİZ-in subyektləri kimi qeydə alınmış rezident-kompaniyalann mühüm infrastruktur obyektləri və maddi - texniki bazaları ilə təminatı problemləri isə isə dövlət tərəfindən ciddi dəstəklənməli və əsasən dövlət vəsaiti hesabına başa gəlməlidir. Bundan əlavə, XİZ-də daxili kooperasiya proseslərində və zonadankənar inteqrasiya məkanında rezident- kompaniyaların qarşılıqlı fəaliyyət prinsiplərinin effektivli işgüzar münasibət mühitinin nizamlanması və idarəedilməsi strategiyalan- nm da işlənib hazırlanması problemləri diqqətdən yayınmamalıdır. Bu strategiyanın əsas prinsiplərinə kompaniyanın məqsədli priori

tellərinin dinamikliyi, qəbul edilən strateji qərarların səviyyəsi, kompaniyanın idarə sisteminin üstün aspektləri, rəqabət mühitində immunitetlik dərəcəsi, risklərin təhlükəsizlik səviyyəsi və perspektivlərin əsaslandınimış proqnozlaşdırılması aid oluna bilər. Şübhəsiz, bu elementlərin XİZ-də fonnalaşması, adaptasiyası və təyinatı üzrə praktiki proseslərdə özünü reallaşdırılması problemlərinin XİZ-in təşkili və fəaliyyəti proseslərində ciddi öyrənilməsi məqsədəuyğun hesab olunur. Bu kimi problemlərin araşdırılması və bir qrup nəticələrin verilməsi Rusiyalı iqtisadçı-alim K.A.Prisekinanın tədqiqat işində diqqətimizi cəlb etmişdir [132]. Tədqiqatçıya görə, XİZ-də rezident-kompaniyalann məhsuldar və effektivli fəaliyyətinin təşkili üçün yetərincə strateji qərarların işlənib hazırlanması və qəbuledilməsi vacibdir. Bu qərarların səviyyələri korporativ (inkişafın müxtəlif modelləri, diversifıkasiyalaşma və s.), işgüzar (diferensiallaşdırma və xərclərin optimallaşdırılması) və işgüzar proseslərin təkmilləşdirilməsi (marketinq, maliyyə və kadr təminatı, maddi-texniki baza, elmi araşdırmalar və istehsal fəaliyyəti) fonnalannda ola bilər. Bu proseslərdə SWOT-təhl i İlərdən də istifadə edilməsi təqdirəlayiqdir. Yeri gəlmişkən, bu formada təhlilin XİZ-in fəaliyyətinin effektivlik səviyyəsinin müəyyənləşdirilməsi bir çox dünya ölkələrində praktiki təcrübədə özünü müsbət göstərə bilmişdir. SWOT-təhlilin ayrı-ayn XİZ parametrlərinə, o cümlədən konkret olaraq, rezident-kompaniyalann idarəetmə sistemlərinin təkmilləşdirilməsinə və onların modelləşdirilməsinə də tətbiqi effektivli nəticələrin əldə edilməsinə əlavə imkanlar yarada bilər. Bu baxımdan XİZ-in tətbiqi ilə dövlət gömrük və vergi güzəştləri sistemi yaratmaqla, infrastruktur şəbəkəsi qurmaqla və işgüzar maliyyə-təsərrüfat, kommersiya, sahibkarlıq-biznes mühiti formalaş- dımıaqla, rezident-kompaniyalann ən effektivli iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirməyə və optimal idarəetmə modellərinin praktiki tətbiqinin asanlaşdırılmasına əlavə stimullar verir. Rezident-kompaniyalar XİZ-dəki əsas güzəştlər sistemindən bəhrələnməklə, bu kimi zonalara və onlann yerləşdiyi regionlara investisiya resurslarının cəlbində, rəqabət qabiliyyətli xidmətlərinin göstərilməsində, mal və məhsullann istehsalında, depressiv rayon

larin sosial-iqtisadi problemlərinin sistemli və davamlı həllində uğurlu nəticələr əldə etmək imkanı qazanırlar. Amma təəssüf ki, praktiki proseslərdə bir çox hallarda rezident-kompaniyaların idarəetmə strategiyalannın az öyrənilməsi, əsaslandırılmamış iri həcmli prioritetlərin məqsəd kimi qarşıya qoyulması, praktikada istifadə üçün əsas götürülən iqtisadi mexanizmlərin effektivli modellərinin müəyyənləşdirilməməsi, bu kimi XİZ subyektlərinin məhsuldar praktiki nəticələr əldə etməsinə maneçilik edir və bu səbəbdən bir sıra ölkələrdə XİZ-in ümumi praktiki tətbiq proseslərində ciddi problemlər qalmaqdadır və yaxud bu effektivli iqtisadi alətin tətbiqinə milli subyektlər, onları idarə edən dövlət struktur- lan tərəfindən inam azalır və s. Son 5-7 il ərzində Rusiya hökümətində innovatik və elmi-texniki və texniki-tətbiq təyinatlı XİZ-in prioritetliyi və bu zonalarda rezident-kompaniyaların, elm, texnika müəssisələrinin qarşılıqlı kooperasiyası, fəaliyyəti, məhsuldar tətbiq prosesləri sayəsində strateji vəzifələrin qarşıya qoyulması reallaşmaqdadır. Məsələn, Rusiyanın Lipetsk vilayətində və Yelabuqa şəhərindəki texniki-tətbiq zonalanndan 20 ildə gözlənilən büdcə daxil olmalannın həcmi 6,2 mlrd. ABŞ dolları, investisiyalann məbləği - 1,7 mlrd.ABŞ dollan və yaradılacaq daimi iş terlərinin sayı isə 52 min vahid olacağı proqnozlaşdırılır. Təkcə Lipetsk vilayətində 2008-ci ilin sonu 2009-cu illərin əvvəlinə xarici kapitala malik 250-260 təsərrüfat subyektləri fəaliyyət göstərmiş və regiona yatırılmış investisiyalann həcmi 10 mlrd. ABŞ dolları səviyyəsində olmuşdur. Bu investisiya resurslarının demək olar ki, hamısı emal sənayesinin payına düşmüşdür. Mütəxəssislərin hesablamalarına görə, XİZ-də rezident-kompaniyalann xərclərinin nisbətən 3-5 faiz azalması, gəlirlərinin isə çoxalması bu kompaniyalann XİZ vasitəsilə daha uğurlu maliyyə-təsərrüfat nəticələri əldə etməsinə şərait yaradır və bu amillər investorlann regiona gəlməsində prinsipial əhəmiyyət kəsb edirlər. Lakin bütün bunlara baxmayaraq, hələlik nə Rusiyanın, nə də digər MDB ölkələrinin XİZ modi- fıkasiyalarının praktiki proseslərdə ciddi uğurlar qazana bilməməsi bu quruma daxil olan ölkələrin iştirakı ilə Azad Ticarət Zonası kimi iri həcmli inteqrasiya zonasının uğurlu təşkil olunacağına ehti

yatla yanaşmanı şərtləndirir. Bu baxımdan qeyd etmək lazımdır ki, son dövrlərdə bir çox mütəxəssislər Azərbaycanın MDB ölkələrinin azad ticarət zonasının yaradılması üzrə Sazişə qoşulması barədə fikir və mülahizələr yürütməkdədir və diskussiyalar rəsmi mənbələrdə yer almaqdadır. Pikrimizcə, bu məsələ Azərbaycan üçün müasir dövrdə iqtisadi prioritetdən çox siyasi motivlərlə daha çox əhatələnib. Əlbəttə, bu sahədə tələsik qərar verməyə lüzumun olmadığını qeyd etməklə yanaşı, Azərbaycanda maliyyə və iqtisadi imkanlann əhəmiyyətli dərəcədə artdığı bir şəraitdə, əvvəlcə ölkə ərazisində daha efifcktivli və pozitiv XİZ modifİkasiyalanndan bir neçəsinin praktiki təşkili məqsədəuyğun hesab edilir və ölkəmizin iqtisadi maraqlarına cavab verərdi. Şübhəsiz, bu istiqamətdə müəyyən təcrübə və uğurlu praktiki nəticələr əldə etdikdən sonra, regional və beynəlxalq XİZ layihələrinə qoşulmaq perspektivləri yarana bilərdi.

Dünya ölkələrində artıq praktiki proseslərdən son 50-70 ildə uğurla keçmiş XİZ modifikasiyalarının fəaliyyət prinsiplərinin və təşkilinin metodoloji cəhətlərinin öyrənilməsini və onlann Azərbaycanda bu kimi zonaların yaxın perspektivdə tətbiqi proseslərində ciddi nəzərə alınmasının aktuallığı artmaqdadır. Bu baxımdan XİZ-lərin fəaliyyəti və təşkili ilə bağlı- mühüm xüsusiyyətlərə, fık- rimizcə, XİZ layihələrinin prioritetliyi və Azərbaycanın müasir iqtisadi inkişaf modeli ilə uyğunlaşması, ölkənin iqtisadi sisteminə daxil edilməsi nəzərdə tutulan XİZ modelinin nəzəri-konseptual əsaslannın və praktiki problemlərinin dərindən öyrənilməsi, XİZ- lərin təşkil ediləcəyi prioritet iqtisadiyyat sektorlarının elmi-iqtisa- di və elmi-texniki əsaslarla mümkün potensialının obyektiv qiymətləndirilməsi və Azərbaycanda XİZ-lərin əsas tətbiq sahəsi kimi qeyri-neft sektoru sahələrinin, ixrac təyinatlı rəqabət qabiliyyətli məhsullar istehsal etmək imkanlanmn dərindən araşdınıması, elm və yeni texnologiyalar əsasında dünya standartlanna cavab verən istehsal şəbəkəsinin və müəssisələrin yaradılması məsələləri daxildirlər.

## 1.3. XİZ-in dünya iqtisadiyyatında rolu

Dünya iqtisadiyyatının əsasını təşkil edən müxtəlif təsərrüfat və iqtisadi sistemlərin spesifik xüsusiyyətlərini araşdırarkən, bu proseslərin tarixi fonnalaşması xüsusiyyətləri diqqəti cəlb edir. Dövlətin iqtisadiyyat sahəsində siyasəti və konsepsiyaları müxtəlif iqtisadi fikir və mülahizələrdən ibarət olsa da, əslində qəbul edilmiş prioritet sahələrin əksəriyyəti bu dövlətin dövlətçilik ənənələri və burada yaşayan millət və xalqların mentalitetləri ilə də bağlıdır. Əgər cəmiyyətdə və iqtisadi proseslərdə ancaq əsas tendensiyalar nəsə təbiətdən və iqtisadi fəaliyyətdən almaq və qaytarmamaq prinsipi əsasında baş verirsə, şübhəsiz, belə bir iqtisadi tsiklin və sistemin uzun müddətli perspektivləri ola bilməz. Başqa sözlə, dünya iqtisadiyyatının inkişaf mərhələlərində əgər fərqli və yaradıcı iqtisadi mexanizmlərə, yeni dəyər və maddi məhsullann artımına stimullar verən və şərait yaradan təsərrüfat fəaliyyəti sahələrinin təşkilinə, yaradıcı və işgüzar iqtisadi fəaliyyət sahələrinin davamlı olaraq, milli nemətlərin səmərəli istifadə edilməsi, onların yaradıcı iqtisadi proseslərdə əsas rol oynamasını, təbii proseslərin və nemətlərin qorunması və bərpasını, bütövlükdə, cəmiyyətin və iqtisadiyyatın əsasım təşkil edən sosial və iqtisadi sistemlərin effektivliyi təmin edilmirsə, dünyada iqtisadi inkişaf templəri aşağı düşməli, maddi nemətlər və məhsullar bolluğunda məhdudiyyətlər yaranmalı, iqtisadi proseslərdə və dünya təsərrüfat sistemində defonnasiyalar, böhranlar baş vennəlidir. Digər tərəfdən, dünya iqtisadiyyatının davamlı inkişafı və yenilənməsi insan amili və insan əməli ilə bilavasitə bağlıdır. Belə ki, əslində iqtisadiyyat özü insan əməyinin praktiki nəticəsidir. Bir qrup rusiyalı alimin araşdırmalanna görə müxtəlif millətlərin iqtisadiyyatlarının inkişaf tempi onların təsərrüfatı hansı səviyyədə iqtisadi məhsuldarlıqla təşkil etməsindən birbaşa asılılığı vardır [1041. XVIII əsrin axırı və XIX əsrin əvvəlində yaşamış və istehsal amillərinin nəzəriyyəsinin əsasını qoymuş fransız alimi J.B.Seyin qənaətinə görə məhsulun dəyərinin yaradılmasında əmək, torpaq və kapital iştirak edirlər. Sonralar, xüsusilə, XX əsrin 50-80-ci illərində bu nəzəriy

yənin əsas nəticələrinə təsərrüfat mexanizmi və istehsal proseslərinə rəhbərlik edənlərin sahibkarlıq bacarığı əlavə olunmuşdur. Bu, xüsusilə Yaponiya və Qərbi Avropada dünya iqtisadiyyatı proseslərinə ciddi təsir edən ekstensiv və intensiv elmi-texniki yenilənmə və iqtisadi inkişaf modifikasiyalarının praktikada uğurlu adaptasiyasından sonra mümkün olmuşdur. Məhz həmin dövrlərdən başlayarq, dünyanın 3 mühüm mərkəzində - ABŞ, Qərbi Avropa və Yaponiyada dünya iqtisadiyyatının ən yüksək məhsuldar nəticələrinin əldə edilməsi istiqamətində tarixi-iqtisadi fəallıq və iqtisadi inkişaf prosesləri həyata keçirilmişdir. Bu ölkələrin dünya əhalisi sayında payı cəmisi 13-14 % səviyyəsində olsa da, CDM- ün dünya çəkisində payı təxminən 53 %-ə yaxındır. Qeyd etmək lazımdır ki, bu ölkələrdə fərqli və effektivli, həm də mürəkkəb iqtisadi mexanizmlərinin işlənib-hazırlanması və praktikada tətbiqi xüsusi önəm kəsb etmişdir. Bizim tədqiq etdiyimiz XİZ sahəsində bu ölkələrdə belə zonaların modifıkasiyalannm ilkin elementlərindən ən mürəkkəb modellərinin tətbiqi istiqamətində yüksək məhsuldarlıqla müşahidə olunan praktiki nəticələr əldə edilmişdir. Hətta hazırda belə bu ölkələrin yüksək texnologiyalar təyinatlı və elm tutumlu innovasiya funksiyalarının və nanotexnologiyalann tətbiqi problemlərinin həlli istiqamətində XİZ-lərin ən məhsuldar və mürəkkəb fonnalanndan fəal istifadə edilməkdədir (texnopark- lar, texnopolislər və s.). Dünya iqtisadiyyatının tarixi proseslərinin təhlili göstərir ki, iqtisadi inkişaf mərhələlərində dəqiq iqtisadi mexanizmə söykənmiş, elm tutumlu, praktiki iqtisadi proseslərin təşkili instrumentləri olmayan və yaxud bu instrumentlərlə zəif silahlanmış iqtisadi sistem gec-tez iflasa uğrayacaqdır. Çox təəssüf ki, keçmiş SSRİ kimi iri təbii və insan resurslanm özündə cəmləşdirən super bir imperiyanın iqtisadi sistemi bazislərinin kəsərli iqtisadi mexanizm və instrumentlər baxımından məhdud olması artıq keçən əsrin 1980-ci illərinin ortasından başlayaraq, özünü neqativ olaraq göstərməyə başladı və 1990-cı illərin əvvəllərində bu imperiyanın süqutu ilə nəticələndi. Əgər SSRİ-də 1966-1970-ci illərdə əsas istehsal fondları il ərzində 8,1 dəfə artmışdırsa, 1981- 1985-ci illərdə bu göstərici aşağı düşərək 6,4 % təşkil etmişdir.

Həmin dövr ərzində illik artım tempi əsaslı kapital qoyuluşu üzrə 7,6 %-dən 3,3 %-ə, milli gəlir 7,6 %-dən 3,2 %-ə, sənaye məhsulu istehsalı 8,5 %-dən 3,1 %-ə, xalq təsərrüfatının müxtəlif sektorla- nnda çahşanlann sayı 3,2 %-dən 0,2 %-ə, əmək məhsuldarlığı isə 5,2 %-dən 3 %-ə qədər aşağı düşmüşdür. Əgər 1960-cı ildə keçmiş SSRİ-nin milli sərvətləri 11,9 trln. ABŞ dolları dəyərində qiymətləndirilirdisə, bu rəqəm 1980-ci ildə 9 trln. ABŞ dollan səviyyəsinə qədər azalmışdır. Biz bu fikirdə deyilik ki, keçmiş SSRİ- nin tarixi-iqtisadi uğursuzluğunun və fəaliyyət göstərdiyi son bir neçə 10 illiyində iqtisadi geriliyini yalnız təkcə XİZ kimi fərqli cffektivli iqtisadi mexanizmlərdən iqtifadə etməməkdə görək. Məsələ təkcə XİZ-in tətbiqinin milli iqtisadiyyatın davamlı və sürətli inkişafının məhsuldar bir nçaqı kimi təqdim etmək yox, bu modi- fikasiyah iqtisadi alətlərin milli iqtisadi inkişaf proseslərinə verə biləcəyi əlavə stimullardan və praktiki proseslərdən əldə olunacaq pozitiv təsirlərdən gedir. Belə ki, təkcə bir çox az funksiyalı XİZ- in tətbiqi hər hansı bir regionda baş tutarsa belə, eyni zamanda çoxsaylı stimul elementlərinin eyni vaxta siyasi, ictimai, iqtisadi, təsərrüfat, maliyyə, valyuta-pul münasibətləri, istehsal-kommersiya proseslərinə daxil olması tamamilə başqa bir mütərəqqi iqtisadi fəaliyyət mühitini yaratmağa imkan verir. Şübhəsiz, müasir dövrdə qloballaşma elementlərinin gücləndiyi bir şəraitdə XİZ-lər kompakt, avtonom, qorunan və müdafiə olunan, inkişaf və tərəqqi edən fəal iqtisadi məkan kimi qloballaşma elementlərinin təsirindən sığortalanma immunitetlərini yaratmağa qadir bir iqtisadi mexanizm kimi hələ yaxın perspektivdə müxtəlif milli iqtisadiyyatların iqtisadi inkişaf modellərinin prioritet tərkib elementi kimi diqqət mərkəzində olacaqdır.

Qeyd etmək lazımdır ki, dünya iqtisadiyyatında və beynəlxalq iqtisadi sistemində XİZ-lər 80 ilə yaxındır ki, əhəmiyyətli rol oynaya bilmişdir. Bu proseslər ən fəal fonnada XX əsrin 30-ci illərin ortalanndan başlamışdır. Dünya iqtisadi proseslərində XİZ-lərin əsas təsir dairələrinə onların uğurlu və geniş coğrafiyaya malik iqtisadi inteqrasiya instrumenti olması, bu kimi zonalann beynəlxalq ticarət iqtisadi əməkdaşlığın gücləndərilməsinə və xarici tica-

rot dövriyyəsini əhəmiyyətli səviyyədə artırılmasına təsir imkanla-n, iri kapitalın, daxili və yerli investisiyaların eəlbinə şərait yaradan əlverişli iqtisadi məkanın təmin edilməsi, ayn-ayn strateji iqtisadi siyasət prioritetlərinin real iqtisadi proseslərdə həyata keçirilməsində effektivli mexanizm kimi özünü dünya təerübəsində doğrultması, sahibkarlıq və biznesin davamlı inkişafına eiddi töhfələrin verə bilməsi, istehlak və xariei bazara yönəlmiş yüksək rəqabətqabiliyyətli mal və məhsulların istehsalının təşkili, xidmətlərin göstərilməsi, regional və beynəlxalq əhəmiyyətli iqtisadi lahiyələrin reallaşdınimasmda fərqli və məhsuldar iqtisadi mexanizm kimi çixiş etməsi və sairlər daxildirlər. Bundan əlavə, milli iqtisadi yyatlann davamlı inkişafı proseslərində və onların dünya təsərrüfat sistemində möhkəmlənməsində XİZ-lər geniş diapazona malik inteqrasiya vasitəsi kimi xüsusi önəm kəsb edir. Dünya iqtisadiyyatının ayrı-ayrı mərhələlərində XİZ institutundan bəhrələnmiş ölkələrin təerübəsi göstərmişdir ki, məhz bu iqtisadi mexanizmə müraeiətin nətieəsində bir sıra mühüm iqtisadi prioritetlər üzrə tarixi vəzifələrin yerinə yetirilməsi mümkün olmuşdur. Hətta, ABŞ kimi super iqtisadi güeə malik bir ölkədə belə XİZ - sahibkarlığın inkişafının tarixi mərhələlərində zəruri instrument kimi daha faydalı hesab edilmişdir.

Qeyd etmək lazımdır ki, son 100 il ərzində dünyada 3 mindən bir az çox müxtəlif modifikasiyah XİZ-lər təşkil edilmişdir. Və bu XİZ-lərin minə yaxmı inkişaf etmiş ölkələrin payına düşür. Təhlillər göstərir ki, XİZ-lərin əksəriyyəti bu və ya digər fonnada istehsal və tiearət prosesləri ilə daha çox bağlı olmuşlar. Təsadüfi deyildir ki, son 5 il ərzində sabit olaraq, illik orta dünya ixraemm 10 %-nə qədəri məhz XİZ-lər tərəfindən həyata keçirilmişdir. Hazırda dünyanın təxminən 130-135 ölkəsində XİZ-lərdən bəhrələnirlər. Müxtəlif mənbələrə əsaslansaq, bu XİZ-lərdə çalışan insanların ümumi sayı 70 mln nəfərə yaxın olmuşdur. Bu qədər işlə təmin olunan və məşğulluq problemləri həll edilən insanlann 62 mln.nəfərə yaxmı Asiya və Fars körfəzi boyunea yerləşən ölkələrin, xüsusilə son 20-30 ildə sürətlə inkişaf edən yeni sənaye ölkələrində fəaliyyət göstərən XİZ-lərin payına düşür. Məhz bu regi

onda yerləşən XİZ-lərdən ixracın orla illik həcmi son 4-5 il ərzində 500-520 mlrd. ABŞ dolları səviyyəsində olmuşdur. Dünya XIZ-lori arasında xüsusi uğurları ilə fərqlənən Çin XİZ-lərindən orta illik ixracın məbləği 140-150 mlrd. ABŞ dollan təşkil etmişdir. Dünya XİZ-lərinin coğrafi yerləşməsinə nəzər salsaq, bunlardan 270-ə qədəri ABŞ-da və 190-a qədəri isə Çində fəaliyyət göstərirlər. XİZ-lərin praktiki fəaliyyətində nisbətən ciddi uğurlar əldə etmiş İndoneziya, Filippin, Tayland, Hindistan, Tayvan və Cənubi Koreyada birlikdə 280-a yaxın XİZ fəaliyyət göstərirlər və burada çalışanlann sayı 1,5 mln. nəfər təşkil etmişdir. Dünya regionları üzrə baxsaq, Şimali Amerikada 380-ə yaxın. Mərkəzi Amerikada 230, Cənubi Amerikada 44, Avropada 168, Yaxın Şərqdə 47, Asiyada 304, Afrikada 72 və Fars körfəzində 17 XİZ fəaliyyətdədirlər. Bu kimi zonaların yaradılması və fəaliyyəti ten- dcnsiyalannm yaxın perspektivdə daha da intensivləşəcəyi gözlənilir. XİZ-lər ayrı-ayrı ölkələrin iqtisadiyyatlanna da əsaslı təsir göstənnək imkanına malikdirlər. Məsələn, Vyetnam kimi yalnız son 10-15 ildə makroiqtisadi səviyyədə sabitliyə nail olmuş ölkədə 190-a yaxın XİZ real praktiki proseslərdə öz tətbiqini tapmışdır və bu zonalarda işləyənlərin sayı 950 min nəfər olmuşdur. Əhalinin yaşayış səviyyəsinin region ölkələrindəki həddə çatdırılması və ölkə iqtisadiyyatının davamlı inkişafının təmin edilməsində XİZ institutuna fəal müraciət edən Meksikada bir çox iqtisadiyyat sahələri üzrə rəqabətqabiliyyətli məhsulların buraxılmasında sabit iqtisadi siyasət diqqəti cəlb edir və bu zonalarda 1,3 mln. min nəfər insanın işlə təminatı həll edilmişdir. Malayziyada XİZ-lərdən illik ixracın həcmi orta hesabla 110-120 mlrd, dollar təşkil etməklə, bu ölkənin iqtisadi zonalarında 380 min nəfər insan işlə təmin olunmuşdur. Kiçik ölkə olmasına baxmayaraq, Sinqapur dünya ixracında XİZ-lər vasitəsilə önəmli yer tutmağa nail olmuş və bu kimi XİZ-lərdə illik ixracın həcmi orta hesabla 100-105 mlrd. Dollar təşkil etmişdir. İran kimi qapalı iqtisadiyyata malik dövlətdə XİZ-lərdən ixracın orta illik məbləği 85-90 mlrd. ABŞ dolları səviyyəsindədir. Yaxın Şərqdə ən uğurlu XİZ modellərinin reallaş-dınldığı Birləşmiş Ərəb Əmirliklərində (xüsusilə, Dubayda) 30-a

yaxın XİZ-də 560 minə yaxın insanın məşğulluq problemləri həll edilmişdir və bu zonalarda yüksək rəqabət qabiliyyətli müxtəlif sənaye malları istehsal edilir, xidmətlər göstərilir. Tayland kimi təbii resurslan məhdud olan bir ölkədə 31 XİZ-də 454 min nəfər insan işlə təmin olunmuşdur və bu zonalarda ixracın həcmi milyardlarla dollar səviyyəsindədir. Son 10 ildə sabit iqtisadi inkişaf tempinə nail olmuş Türkiyə XİZ-lərində təxminən 3 570 fınna və müəssisələr fəaliyyətdədirlər və onların ölkənin ümumi xarici ticarət dövriyyəsində payı orta illik 15 % həcmindədir, başqa sözlə, bu zonalarda ildə 20 mlrd, dollaradək məhsul istehsal ixrac olunur [371.

XİZ-lərin milli iqtisadiyyat sektorlarına və xüsusilə milli ərazilərdən nisbətən kənarda yerləşən xüsusi ərazilərə təsiri barədə iqtisadi ədəbiyyatlarda qarşılaşdığımız mənbələrin təhlilini ayrıca vurğulamaq istərdik. Belə ki, bu kimi ərazilərin iqtisadi inkişafının fəallaşdırılması, milli iqtisadiyyatın digər sahələri ilə onlann əlaqəsinin uzlaşdınıması, qarşılıqlı kooperasiyanın və təsərrüfat əlaqələrinin təmin edilməsi, xüsusi ərazinin region ölkələri ilə iqtisadi əməkdaşlığının genişləndirilməsi və dünya təsərrüfat sisteminə inteqrasiyasının təşkili mühüm əhəmiyyət kəsb edir. XİZ-lər dövlətin davamlı və təsirli iqtisadi mexanizmi kimi hər hansı bir iqtisadiyyat sahəsinin və xüsusi ərazinin depressiv problemlərinin həllində, sosial-iqtisadi problemlərin sistemli şəkildə azaldılmasında, ərazidə sahibkarlıq və biznes mühitinin yaxşılaşdınlmasm- da, buraya invcstorlann marağının artırılmasında cəlbedici məkan kimi praktikada effektivliyi ilə fərqlənirlər. Bir çox ölkələr öz xüsusi və depressiv ərazilərinin iqtisadi inkişaf fəallığını artırmaq üçün XİZ-lərdən məharətlə istifadə edə bilmişlər. Məsələn, Çinin bir sıra əyalətləri və geri qalmış əraziləri investorlar üçün cəlbedici iqtisadi fəaliyyət zonası olduğundan qısa müddət ərzində bu yerlərə iqtisadi fəallıqla yanaşı, müasir texnologiyalar və idarəetmə metodları da gətirilmişdir. Son 10 ildə qloballaşma elementlərinin kəskin genişləndiyi və onun fəsadlarının dünyanın müxtəlif coğrafi məntəqələrinin demək olar ki, hər yerində hiss edildiyi bir şəraitdə, həmçinin dünya təsərrüfat sisteminin nisbətən regionalhq

prinsipbrinin artdığı bir dövrdə milli subyektlərin və onun ayrı- ayn ərazilələrin iqtisadi inkişaf fəallığının yüksəlməsində XİZ-lə- rə müraciətin əsas səbəblərindən biri kimi bu zonadakı fəallıq və işgüzarlıq mühiti hesabına göstərilən istiqamətlərdə olan problemlərin bu və ya digər effektivli iqtisadi mexanizmlər hesabına həll edilməsidir. Məsələn, vaxtı ilə Meksika öz iqtisadiyyatının strukturunda ixrac istehsal imkanlarını artırmaq üçün bu təyinatlı XİZ- lərin hesabına 600 minə yaxın insanın məşğulluğunu təmin etməklə yanaşı, ildə orta hesabla 4,5 mlrd, məhsul ixracını artıra bilmişdir. Meksika iqtisadiyyatının nisbətən fəallaşmasmda və onun ABŞ-la sərhədyanı ərazilərinin sürətli inkişafında bu kimi zonalarda fəaliyyət göstərən fintıa və kompaniyaların sayı 2500-ə çatmışdır. Filippin kimi o qədər güclü maddi və təbii resurslan olmayan ölkədə ayn-ayn istehsal-ixrac təyinatlı 4 XİZ-in hesabına ölkənin ixrac potensialının 1 mlrd. ABŞ dollarına yaxın artınlması və 93 min nəfərin işlə təminatı mümkün olmuşdur. Dünya iqtisadiyyatında o qədər də uğurlan olmayan və daim ciddi sosial-iqtisadi problemlərlə üz-üzə qalan Şri-Lankada XİZ-lər hesabına ölkənin ixrac potensialı 500 mln. ABŞ dolları qədər artınimış və 65 minə yaxın insan daimi işlə təmin olunmuşdur. Məlumdur ki, hər bir ölkənin ixrac potensialının artması onun iqtisadiyyatının digər sahələrinə də müsbət təsir göstərir. Belə ki, son məhsulun, mal və xidmətin xarici bazar təyinatlı olması bu sahələrdə mövcüd standart- lann dünya səviyyəsinə qaldırılmasını, mal və xidmətlərin, məhsulların, rəqabət qabiliyyətinin əhəmiyyətli səviyyədə artınlmasmı şərtləndirir. Bir qrup ölkələrdə 2000-ci illərin əvvəllərində ixrac potensialının hər il XİZ-lər hesabına 10-17 % səviyyəsində artması bu ölkələrin ixrac potensialının güclənməsinə, ölkənin valyuta ehtiyatlarının artmasına, iqtisadiyyatın diversifikasiyasına, mal və xidmətlərin çeşidinin artmasına güclü təsir göstərmişdir. Məsələn, Dominikan Respublikasında XİZ-lər vasitəsi ilə ixrac, ölkə ixracının ümumi səviyyəsinin 80-83 %-ni təşkil etmiş və ölkə XİZ-lə- rindən illik ixracın orta məbləği təxminən 4,3-4,5 mlrd, dollar olmuşdur. Digər bir misal yenə Çinlə bağlıdır. Bu ölkənin ixracında XİZ-lərin rolu daim artmaqdadır və onların həcmi 100 mlrd-la öl-

çülür. XİZ-lərin dünya təcrübəsində milli iqtisadiyyatlann inkişafına və onların ayrı-ayrı ərazilərin iqtisadi fəallığına təsiri problemlərini araşdıran rusiyalı tədqiqatçı-alim K.V.Levitskiy qeyd edir ki, XİZ-lərin yaradılması təkcə xarici kompaniyalar üçün yox, həmçinin investisiya qoyulan dövlətin təsərrüfat subyektləri üçün də əlverişlidir. Belə ki, bu halda yerli fırmalann və kompaniyaların öz xarici partnyorlarla əməkdaşlığa marağı bütün hallarda qalmaqdadır [1141. Biz qeyd etdik ki, XİZ-lər hər bir milli subyektin ayrı-ayrı xüsusi ərazilərinin iqtisadi inkişaf fəallığını əhəmiyyətli səviyyədə artırmaq iqtidanndadır. Məsələn, ayrı-ayn limanlar, aeroportlar, sərhədyanı ərazilərə və sairlərdə XİZ-lərin fəaliyyətinin praktiki proseslərdə uğurlu təşkili bu kateqoriyadan olan ərazilərin iqtisadi fəallığını, şübhəsiz, xeyli artırar, həmçinin ərazinin (regionun) iqtisadi inteqrasiya proseslərinə qoşulmasını şərtləndirər. Qeyd etmək lazımdır ki, bir çox ölkələrdə eksklav tipli ərazilər vardır və bu ərazilər əsasən digər ölkələrin əhatəsində yerləşir. Biz nəyə görə bu məsələyə xüsusi diqqət yönəltməyi məqsədəuyğun hesab etdik? Məsələ burasındadır ki, uzun illərdir ki, torpaqlarımızın 20 %-i Ennənistan tərəfindən işğal altında qalan doğma Azərbaycanımızın barlı-bərəkətli, təbii ehtiyatlarla zəngin, işgüzar insan resurslanna, kənd təsərrüfatı və sənaye potensialına, turizm- rekreasiya imkanlarına, geniş şəbəkədə kommersiya-ticarət fəaliyyətinə malik olan Naxçıvan da xüsusi ərazi kimi özgə dövlətlərin əhatəsində yerləşir. Düzdür, Azərbaycan hököməti Naxçıvanın inkişafı üçün daimi ardıcıl sabit iqtisadi siyasət yürüdür, bu ərazinin iqtisadi inkişafının güclənməsinə resurslar ayrılır və sair. Lakin dünya təcrübəsində belə ərazilərin daha sürətli iqtisadi inkişafının təmin edilməsi və iqtisadi fəallığının artınlması üçün XİZ alətlərindən praktiki istifadə də nəzərdən yayınmamalıdır. Qeyd etmək lazımdır ki, dünyada Naxçıvan kimi eksklav ərazilərin siyahısı o qədər də geniş deyildir. K.V. Levitskiy Naxçıvanla yanaşı Kalinin- qrad vilayətini, ABŞ-m Alyaska, Anqolanın Kabinda əyalətini, Xorvatiyanın Dubrovnik və Omanın Musandan eksklavlanni (an- klavlannı) qeyd etmişdir. Məsələ burasındadır ki, göstərilən dövlətlərlə yanaşı digər anklav tipli dövlətlərdə də (San-.Marino,

kan, Lesoto, Monako vo sair) XİZ institutlanndan geniş istifadə nümunələri yoxdur. Yalnız yarımanklav kimi xarakterizə olunan Kalininqrad vilayətində XİZ-lərdən praktiki istifadə nümunələrinə rast gəlinir. Rusiya höküməti uzun bir dövr ərzində Kalininqrad vilayətinin iqtisadi inkişafı, onun ixrae potensialının artınıması və idxal əvəzedici istehsal şəbəkəsinin qurulması üçün kompleks tədbirlər və iqtisadi mexanizmlər axtarışındadır. Hələ 1990-cı illərin əvvəlində bu regionda XIZ institutuna müraciət olunmuşdur və əsas istiqamət kimi sərbəst gömrük rejimi yaratmaqla, Rusiyanın digər regionlarına mal və məhsulların göndərilməsi üçün buraya xaricdən gətirilən xammal və yarımfabrikatların emalı təşkil olunmuşdur. Güzəştlər sistemi qismində isə gömrük rüsumlanndan azadedilmə əsas yer tutmuşdur. Bu kimi zonanın yaradılmasında əsas məqsədlərdən biri də regionun xarici ölkələrlə ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığının gücləndirilməsi, regiona xarici iri kapitalın gətirilməsi üçün münbit şəraitin yaradılması və XİZ vasitəsi ilə tranzit idxal-ixrac əməliyyatlannm inkişafı olmuşdur. Zonanın fəaliyyət göstərdiyi ilk 8 ildə burada 1400-ə qədər rezidentlər qeydiyyatda olmuşlar. Bu regionda həm də turizmin inkişafı prioritetliyi ilə seçilir. 1990-1995-ci illərdə regiona gələn turistlərin sayı cəmisi 2-5 min nəfər idisə, artıq 2000-ci illərin ortalarında Kalininqrad vilayətində turistlərin illik sayı 70-75 min nəfər təşkil etmişdir. Amma təəssüf ki, Rusiya XİZ-lərinin tətbiqi proseslərində 1990-2000-ci illərdə müşahidə olunmuş bir qrup problemlər və neqativ hallar burada da özünə yer tapmışdır. Belə ki, yaradılmasında qarşısına regionun sosial-iqtisadi problemlərinin həllinin kompleks baxılması və iqtisadi fəallığın artınıması kimi strateji vəzifələr qoyulan Kalininqrad XİZ-i bu regionda “kölgə iqtisadiy- yatf’nm subyektləri üçün tranzit bir zonaya çevrilmişdir. Digər tərəfdən zona əsasən idxal əvəzedici malların qəbulu funksiyasını yerinə yetinnişdir və burada ixrac təyinatlı ishehsal sahələrinin stimullaşdınıması üçün işlək mexanizmlər qurulmamışdır. Başqa sözlə, bu XİZ-də rəqabət qabiliyyətli ixrac məhsullannm istehsal şəbəkəsinin qurulmasına marağın Rusiya hökümətl və yerli hökümət strukturlan tərəfindən balanslaşdırılmış iqtisadi siyasət sərgi

vDsində təmin edilməməsi bu bölgəyə investorlann fəal gəlməsinə və iri kapital yatırılmasına imkan vennəmişdir. Düzdür, son illərdə hökümət subyektləri Kalininqrad vilayətində XİZ-lərdən istifadə mexanizmlərinin hüquqi və institusional aspektlərinin təkmilləşdirilməsinə səy göstərirlər. Nəzərdə tutulub ki, regionda fəaliyyət göstərən XİZ-lərdə gəlir və əmlak vergisi XİZ subyektlərinin həyata keçirdikləri lahiyələrinin öz dəyərini qaytardığı dövrlərdə tutulmasın, həmçinin istehsal olunan məhsullann ümumi payının 80 %-indən çoxu ixrac təyinatlı olarsa, bu məhsullan istehsal edən rezident kompaniyalar güzəştlər ala bilərlər. Bundan əlavə, regiona iri investisiya resurslan yatıran investorlara 3 İldən 5 ilədək güzəştlər sistemi nəzərdə tutulur. Fikrimizcə, Naxçıvanda da XİZ-lərin bir qrup modifikasiyasmdan istifadə etməklə, onların praktiki tətbiqinin zamanı artıq yetişibdir. Məsələn, Naxçıvanda tckstil sənayesinin genişləndirilməsi və bunlarla bərabər, rəqabət qabiliyyətli digər məhsulların ixracının təmin edilməsi ilə bağlı XİZ mo- difikasiyalarından birinin bu regionda adaptasiyasına nail olmaq imkanı diqqəti cəlb edir. Və yaxud, regionun turizm-rekreasiya potensialından istifadəni qısa müddət ərzində daha geniş həcmdə stimullaşdınnaq üçün XİZ-lərin tətbiqi məqsədəuyğun hesab olunur. Digər tərəfdən, Naxçıvanın İran və Türkiyə ilə sərhədyanı ərazilərində gömrük-ticarət zonalarının təşkili və tətbiqi perspektivləri mövcuddur.

Bir qrup Rusiya alimlərinin qloballaşma şəraitində beynəlxalq münasibətlərin və dünya təsərrüfatı əlaqələrinin inkişafı, onların təkmilləşdirilməsi problemlərinə həsr olunmuş tədqiqat işlərində XİZ-lər dünya təsərrüfat sistemində effektivli iqtisadi və təşkilati-hüquqi instrument kimi xarakterizə edilmişdir. Professor V.E.Rıbalkinin fikrincə, XİZ-lər dünya təsərrüfat sisteminin mühüm institutlanndan biridir (121). Bir çox ölkələrdə təbii resursların və maliyyə imkanlannm defisit olduğu şəraitdə XİZ-lər real və nisbətən effektivli iqtisadi instrument kimi milli iqtisadiyyatların dünya təsərrüfatına qoşulması mexanizmi kimi çıxış edir. Onlar əsasən xarici-iqtisadi fəaliyyətin güclənməsinə, məqsədli istehsal sahələrinin yaradılmasına, müasir texnika və texnologiyaların gətirilmə

sinə, müvafiq infrastrukturun təşkilinə istiqamətləniblər. XİZ-lərin üstünlüyü - onlann ərazi və nəqliyyat baxımından əlverişli məkanda yerləşməsi, istehsal, elmi-texniki və innovasiya yönümlü sahələrin təşkili və digər mütərəqqi iqtisadi-fəaliyyət sahələrinin yaradılmasında çevik instrument kimi iştirak etmək imkanında olmasıdır. Ixrae-istehsal təyinatlı sərbəst zonalann rolunu xüsusi vurğulayan V.E.Rıbalkinin fıkirincə, bu kimi zonaların üstünlükləri əsasən onların mal və xidmətlərin beynəlxalq hərəkətinin asan-laşdınlmasında, davamlı iqtisadi əlaqələrin qurulmasında, zonaların tətbiqi ilə investorlar üçün əlverişli xarici ticarət, gömrük, vergi-maliyyə rejimləri üzrə iqtisadi fəallığı kifayət qədər təmin edən güzəştlər sisteminin olmasında, inzibati məsələlərin həllinin asan- laşdırılmasında, istehsal və kommersiya fəaliyyətinə ucuz işçi resurslarının cəlb edilməsində özünü göstərirlər. Dünyada əsasən yığma və komplektləşdinnə funksiyaları ilə, məsələn, radioelck-tronika, dəqiq mexanika, kompüter texnikası istehsalı ilə ixtisaslaşan XİZ-lərdə, həmçinin tekstil yönümlü iqtisadi zonalarda və bir qrup hasilat sahələri və emal təyinatlı XİZ-lərdə əmək tutumlu sahələrin çox olması bu kimi zonaların yerləşdiyi regionlann sosial-iqtisadi problemlərinin həllində ciddi rol oynamaqla yanaşı, həssas bir sosial problem olan məşğulluğun təminatına da pozitiv təsir edirlər. Dünyanın bir çox ölkələrində bu kateqoriyadan olan problemlərin həllində XİZ institutundan balanslaşdınimış istifadə nümunələri mövcuddur (Meksika, Malayziya, bir qrup Latın Amerika və Asiya ölkələri və sair). Məsələn, Cənubi Koreyada “Masan” ixrac-istehsal zonasında öz fəali^^əti proseslərində ixrac kommunikasiyalarının olması və zəruri işçi heyətinin mümkünlüyü, buraya Yaponiyanın, o cümlədən dünyanın müxtəlif inkişaf etmiş ölkələrinin ən iri kapitala və imkanlara malik transmilli kompaniyalarının gəlməsini stimullaşdırmışdır. Yarandığı dövrdən 25 il keçdikdən sonra, artıq 1995-ci ilin ortalannda bu XİZ-də fəaliyyət göstərən 70-dən çox ixrac təyintalı müəssisələrdə 15 mindən çox insan işləmiş, ixracın həcmi orta illik 2,4 mlrd. ABŞ dolları səviyyəsinə çatmış və bu zonanın fəaliyyəti ölkənin milli iqtisadiyyatının inkişafına ciddi töhfələr vemıişdir. Digər rusiyalı pro

fessor Y.A.Şerbanin beynəlxalq iqtisadi inteqrasiyalarda müasir nəzəriyyə və praktiki baxımdan inteqrasiya proseslərinin ardıcıllıq mərhələlərini verərkən, bunları sərbəst ticarət zonalan, gömrük ittifaqları, vahid və yaxud ümumi bazarlar, iqtisadi və valyuta ittifaqlan kimi vennişdir 1121]. Əgər dünya iqtisadiyyatında ən iri inteqrasiya qruplarının və qurumlarının fəaliyyətinə nəzər salsaq, onların keçdiyi tarixi-iqtisadi inkişaf proseslərini təhlil etsək, görərik ki, professorun qeyd etdiyi bu inteqrasiya prosesləri ardıeıllı- ğına əməl edən qurum kimi yalnız Avropa İttifaqı səciyyələndirilə bilər və bəlkə də, çoxsaylı ziddiyətlar olmasına baxmayaraq, Avropa İttifaqının iqtisadi gücünün və inteqrasiya proseslərindəki effektivliyinin bir siiTİ də XİZ elementli və modifıkasiyalı inteqrasiya mərhələlərinin hamsmı keçə bilməsidir. Düzdür, bu gün Avropa ölkələrinin bir qrupunda iqtisadi sistemlər çat vetmiş və böhranlar dərinləşməkdədir. Amma diqqətlə baxsaq, görərik ki, müasir dövrdə Avropada borc böhranı yaşayan və iqtisadi çətinlik çəkən ölkələrin heç birində (Yunanıstan, İtaliya, Portuqaliya və s.) XİZ mo- difıkasiyalan və elementləri bu ölkələrin iqtisadi sistemində önəmli yer almayıblar. Hətta qədim XİZ ənənələri olan İtaliya son 10-20 il ərzində bu effektivli iqtisadi mexanizmin müasir modifı- kasiyalarına az müraeiət etmişdir. Digər tərəfdən, ticarətin genişləndirilməsi nümunəsi üzrə praktiki baxımdan xüsusi maraq doğuran XAFTA-nm fəaliyyəti kontinental sərbəst tiearət bazarının formalaşmasına, mal və xidmətlərin, kapitalın, əmək qüvvələrinin sərbəst hərəkətinə imkan vermişdir. Prinsipcə, bu kontinetal XİZ konfiqurasiyası, əslində ABŞ-a lazım olmaya da bilərdi. Amma ABŞ höküməti öz milli maraqlarını nəzərə almaqla, region ölkələrinin iqtisadi inkişafını yüksək standartlar səviyyəsinə qaldırmaq üçün və region ölkələri arasında qarşılıqlı iqtisadi əməkdaşlığın genişləndirilməsi, öz sərhədlərinə yaxın ərazilərdə sosial-iqtisadi, həmçinin, siyasi gərginliyin nisbətən tarazlaşdınıması məqsədilə, belə bir iri həcmli inteqrasiya zonasının yaradılmasında maraqlı olmuşdur. 2000-ci illərin ortalanndan başlayaraq, burada illik ticarətin həcmi 1,9 trln. ABŞ dollan səviyyəsinə qədər yüksəlmişdir. İdxal isə 2,7 trln-dan çox olmuşdur, idxalın həcminin ixraca nisbə

tən xeyli artımı ilk növbədə ABŞ və Kanadada istehlak bazarının ən müasir mal və xidmətlərə olan tələbatının daim atması ilə izah olunur. Başqa bir iri XİZ konfiqurasiyalı beynəlxalq inteqrasiya qurumu olan ASEAN-m bu quruma daxil olan ölkələrin iqtisadi inkişaflarının sürətləndililməsində, regionda fəal iqtisadi mühitin yaradılmasında, ixrac təyinatlı yüksək rəqabət qabiliyyətli istehsal müəssisələri şəbəkəsinin rolu barədə çoxlu nümunələr vardır. Hazırda bu inteqrasiya zonasından illik ixracın həcmi ildə orta hesabla 870-880 mlrd. ABŞ dolları, idxalın həcmi isə 770-780 mlrd. ABŞ dolları səviyyəsində qiymətləndirilir. Bu quruma daxil olan ölkələrin strateji məqsədlərinə, konkret olaraq, 2010-2011-ci illər ərzində inkişaf etmiş ölkələrin əldə etdiyi iqtisadi nəticələrə çatmaq olmuşdur. Latın Amerikası ölkələrinin inteqrasiya proseslərində mühüm rol oynayan MERKOSL'R-da bir çox XİZ elementlərinin hələ tam fonnalaşmamasına baxmayaraq, 1990-cı ildən müasir dövrə kimi bu zonanın əhatə etdiyi regionda ixracın həcmi 8 dəfə artmış və Latın Amerikası və Karib dənizi hövzəsi ölkələrinin ixracında bu quruma daxil olan ölkələrin payı 50 %-ə çatmışdır. MERKOSUR-da orta illik ixracın həcmi orta hesabla 230 mlrd. ABŞ dolları, idxalın həcmi isə 190 mlrd. ABŞ dolları səviyyəsindədir. Qeyd etmək lazımdır ki, bu kimi mürəkkəb funk-siyalı inteqrasiya qurumlannm yaradılmasına cəhd göstərən Avropanın bir qrup postsoialist ölkələri və postsovet respublikalan bu sahələrdə hələlik praktiki baxımdan optimalhğı və effektivliyi ilə seçilən inteqrasiya zonalannın yaradılmasına müvəffəq ola bilməmişlər.

Məlumdur ki, müasir dünya iqtisadiyyatı proseslərində rəqabət qabiliyyətli məhsulların istehsalına və xidmətlərin göstərilməsinə ciddi önəm verilir. Belə ki, qloballaşma mühitində yüksək standartlara cavab verə bilməyən mal və məhsullar ixrac yönümlü kimi əhəmiyyət kəsb etməməklə yanaşı, eyni zamanda yerli istehlak bazarında da rəqabətə davam gətirmək iqtidannda deyildirlər. Biz dünya iqtisadi sistemində önəmli yer tutmağa çalışan ölkələrin yaratdıqlan və fəaliyyət göstərdikləri XİZ-lərin tətbiqi ilə bağlı araşdırdığımız mənbələrdə, əksər hallarda bu zonalarda ixrac təyi

natlı məhsulların istehsalının təşkili mühüm prioritetlərdən biri kimi diqqəti eəlb etmişdir. Bu isə təsadüfi deyildir. Dünya iqtisadiyyatının inkişaf mərhələləri göstərir ki, çoxsahəli iqtisadi inkişaf modelinə və burada ixrae prioritetlərinə üstünlük verən ölkələr yüksək iqtisadi nəticələr əldə edə bilmişlər. Bu problemlərə diqqət yetirən bir qrup rusiya alimlərinin qənaətinə görə ixrac təyinatlı istehsal sahələrinin yaradılması xarici kapitalın axınına əlavə stimullar verir və rəqabət qabiliyyətinin güclənməsini təmin edir. Amma bir çox ölkələrdə ixrac və idxal rüsumlarının həddindən çox yüksək olması bu istiqamətlərdə real istehsal sahələri şəbəkəsinin yaradılması üçün prosesləri ləngidir və iri kapitalın cəlbinə maneçilik törədir [s.llO, 119]. Dünya təcrübəsində birincilər sırasında Yaponiya, sonralar Cənubi Koreya və Çin kimi ölkələr ixrac təyinatlı yüksək rəqabət qabiliyyətli məhsulların istehsalına və xidmətlərin göstərilməsinə üstünlük vemıəklə, öz ölkələrinin güclü iqtisadi potensialını yarada bilmişlər. Hətta kiçik ölkələr olan Sinqapur və Honkonq belə ixrac təyinatlı iqtisadi inkişaf modelinə söykənməklə, iqtisadi inkişafın çox yüksək artım tempinə nail ola bilmişlər. Digər tərəfdən, bu proseslərdə milli subyektlərdə (ölkələrdə) sahibkarlıq və biznes mühitinin davamlı və əsaslı inkişafına əlavə stimullar vermək mümkün olur. Biz nəyə görə bu məqamlara diqqət yönəltməyi məqsədəuyğun hesab etdik? Məsələ burasındadır ki, dünyanın bir çox yüksək iqtisadi inkişaf tempinə və davamlı iqtisadi inkişafa nail olmuş ölkələrində göstərilən prioritet istiqamətlər üzrə praktikada XİZ modellərindən yerində, zamanında və ən effektivli nəticələr verə biləcək sahəsində uğurlu istifadələr bu təcrübə nümunələrinə diqqətlə yanaşmağı şərtləndirir. Başqa bir amil elm tutumlu istehsal sahələrinin yaradılması və yüksək dəyərlərə malik innovatik və nanotexnologiyalann ixrac məhsulla-nnın çeşidinin son 10-20 ildə artırılması ilə bağlıdır. Əgər diqqətlə dünya ölkələrində yüksək iqtisadi nəticələr əldə etmiş ölkələrin elm tutumlu sahələrə və elmi-tədqiqat layihə-konsrtuktor işlərinə münasibətinə baxsaq, görərik ki, ABŞ-da iqtisadiyyatda məşğul olan hər 10 min nəfərə 93 nəfər, Yaponiya 104 nəfər. Cənubi Koreyada isə - 68 nəfər təmiz tədqiqatçı düşür. Bu ölkələrdə ixrac tə

yinatlı yüksək rəqabət qabiliyyətli məhsullann xüsusi çəkisinin, ölkənin ümumi ixracında əhəmİ3^əli yer tutması da bununla izah edilir. Məsələn, ABŞ-da bu gösətrici 30-32 %, Yaponiyada 24- 25 % və Cənubi Koreyada 31-32 % təşkil edir. Son illərdə Çin, Hindistan və nisbətən Rusiya kimi iri inkişaf etməkdə olan ölkələrdə də bu sahələrə külli məbləğdə maliyyə resursları ayrılmaqdadır. Bir çox dünya səviyyəli transmilli kompaniyalann bu istiqamətlərdə illik xərcləri 5-7 mlrd. ABŞ dolları səviyyəsindədir ("General Motors", "Ford Motors", "İBM", "Simens", "Daimler Krais- ler" və s.). Bu iri kapital resurslarının çox hissəsini ABŞ, Yaponiya, Cənubi Koreya, Çin, və, nisbətən, Hindistan kimi ölkələrdə elmi-texniki təyinatlı texnoparklar və texnopolislərdən, texniki-tət- biq zonalanndan keçməsi faktı müasir dövrdə və yaxın perspektivdə XİZ-lərin daha geniş innovasiya və nanotexnologiyalar təyinatlı iqtisadi fəaliyyət mühitinə çevirəcəyini bir daha əyani sübüt edir və proqnozlaşdınr. Rusiyalı tədqiqatçılar V.V.Vinoqradov və A.N.Zaxarov bu qənaətə gəlmişlər ki, tədricən inkişaf etmiş ölkələrin emal sənayesinin kapital və material tutumlu sahələrində elm tutumlu sahələrə transferlər daha da güclənəcəkdir [s.212, 119). Bu baxımdan inkişaf etməkdə olan ölkələr dünya iqtisadiyyatının önündə gedən inkişaf etmiş ölkələrlə iqtisadi artım münasibətlərində, iqtisadi artım tempində geriliyi daha tez aradan qaldınnaq üçün, şübhəsiz, bu məqama ciddi diqqət yetirilməli və eimtutumlu sahələrin ölkə iqtisadiyyatında daha geniş yer almasını stimullaşdıran fərqli iqtisadi mexanizmlərin tətbiqini sürətləndimıəlidirlər. Professor A.S.Bulatov iqtisadi islahatların aparıldığı və tam statuslu bazar iqtisadiyyatı mühitinin formalaşdığı ölkələrdə əsas istiqamətlər kimi ölkənin təsərrüfat sisteminin liberallaşdırılması, iqtisadi fəaliyyət sahələrinin nizamlanmasında dövlətin rolunun azaldılması və əsasən bu sahədə dövlətin iqtisadi siyasət prioritetləri və nizamlama mexanizmləri ilə çıxış etməsi, iqtisadiyyatın müxtəlif sektorları və sahələrində monopoliyanın ləğvi və yaxud minimuma endirilməsi, qiymət sərbəstliyi, rəqabət mühitinin təmin edilməsi, kiçik və orta biznesin stimullaşdırılması, iqtisadiyyatın sistemli inkiaşfımn institusional transfonnasiyasmm təmin

edilməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi, yeni iqtisadiyyat strukturlarının və açıq iqtisadiyyat prinsiplərinin formalaşdınl- ması, bazar iqtisadiyyatı şəraitində sosial iqtisadi problemlərin həlli mexanizminin işlənib hazırlanması və sairləri xüsusi qeyd etmişdir [s.701, 1191. Maraqlı burasıdır ki, professor bu mürəkkəb proseslərin və iqtisadi islahatların davamlı və effektivli həyata keçirilməsində milli subyektlərin strategiya və konsepsiyaların mükəmməl modellərinin olmasına, siyasi və biznes elitanın keyfiyyət səviyyəsinin yüksəldilməsinə və islahatlar prosesində eəmiyyətin və iqtisadi sistemin bütün təbəqədən olan üzvlərinə (subyektlərinə) sistemli münasibəti vacib hesab edir. Məsələn, professor nümunə kimi Çin və Vyetnamda iqtisadi islahatları aparan siyasi elitanın və onların iqtisadi siyasətini nümunə kimi qeyd edir. Doğurdan da, bu ölkələrdə vahid milli konsepsiyanın və əksər inkişaf prioritetlərinin davamlı və məhsuldar tətbiq edilməsi, praktiki proseslərdə uğurlu təşkili son 10-20 ərzində həmin ölkələrin güclü iqtisadi inkişaf tempinə nail olmasına imkan vermişdir. Bir amilə də diqqət yetirməyi zəruri hesab edirik. Məhz Çində və Vyetnamda göstərilən dövr ərzində XİZ institutundan və onun praktikada tətbiqindən çox məhsuldar,.effektivli iqtisadi mexanizm kimi istifadə edilmişdir. Və yaxud Honkonqun avtonom iqtisadi region kimi əldə etdiyi eiddi uğurların əsasında XİZ institutu mühüm əhəmiyyət kəsb etmişdir. 150 illik bir dövrdə Böyük Britaniyanın ərazisi statusuna malik olan bu region hazırda Çinlə birləşdikdən sonrakı dövrdə də öz yüksək statusunu və iqtisadi inkişaf tempini saxlamaqla, bütövlükdə Çinin dünya iqtisadiyyatında ön cərgəyə çıxması proseslərində geniş həcmli pay sahibi olmaq imkanını artırmaqdadır. Honkonqda bütün iqtisadiyyat sahələrində iri xarici kapitaldan geniş istifadə edilməsində XİZ-lərin effektivli mexanizm kimi praktikada fəaliyyəti də diqqətdən yayınmamalıdır.

Qeyd etmək lazımdır ki, XİZ-lər dünya iqtisadiyyatının müxtəlif prioritet istiqamətləri üzrə aparıcı mövqe tutmalan sayəsində son 10-20 il ərzində əsasən inkişaf etmiş ölkələrdə bu kimi zonalarda eimtutumlu və yüksək texnologiyalar təyinatlı XİZ modifi kasiyalarına üstünlük verilməsi tendensiyası

Dünyanın ən güclü iqtisadiyyata malik olan ölkəsində - ABŞ-da elmi-texniki və innovasiya yönümlü iqtisadi zonalarda 200 min nəfər işləyir və bunlardan 50 minə yaxını alimlərdir. Almaniyada fəaliyyət göstərən texnoparklarda əsasən rəqabət qabiliyyətli məhsulların istehsalı həyata keçirilir. Fransada fəaliyyət göstərən 40- dan çox XİZ-də deprcssiv rayonların iqtisadi fəallığının artınlması üçün geniş həcmli işlər aparılır. Əvvəldə bildirildiyi kimi, Braziliyada Daxili Amazoniyanın iqtisadi inkişafının sürətləndirilməsində XİZ-dən geniş istifadə özünü doğrultmuşdur. Bir sıra postsosialist ölkələrində, o cümlədən Polşa və Macanstanda, həmçinin Bal- tikyanı dövlətlərdə XİZ-lərdən səmərəli istifadə bu ölkələrin dünya iqtisadi proseslərində rəqabət qabiliyyətlərini xeyli artınnağa imkan vermişdir. Məsələn Polşada 24-ə yaxın müxtəlif modifıka- siyalı XİZ-lərə yatırılan investisiyaların həcmi 2,3 mlrd, dollardan çox olmuşdur və burada işləyənlərin sayı 115 min nəfər təşkil etmişdir. 90-dan çox Çexiya XİZ-ndə ildə orta hesabla 67-69 mlrd. ABŞ dollan həcmində məhsul istehsal edilir. Bu ölkədə XİZ-lərin effektivli fəaliyyəti nəticəsində Avropa standartlan səviyyəsində istehsal və sənaye müəssisələrinin geniş şəbəkəsi yaradılmışdır. Macanstanda XİZ-lərdən səmərəli istifadə olunması əsasən 1990- cı illərin ortalannda daha intensiv forma almışdır. Bu ölkədəki sənaye parklarının sayı 165-ə yaxın olmuş, burada 2500-ə yaxın müəssisə və fınnalar fəaliyyət göstənniş və 130 minə yaxın insan işlə təmin edilmişdir. Macarıstan XİZ-lərinə cəlb edilən investisiyala- nn məbləği 3 mlrd. ABŞ dollan səviyyəsində olmuşdur və bu ölkədə XİZ-lər vasitəsilə sosializm iqtisadi sistemindən qalmış iri müəssisələrin reabilitasiyası və modemizasiyası proseslərində uğurla istifadə edilmişdir. Slovakiyada XİZ-lərin sənaye parklan modelindən daha çox istifadə edilmişdir və bu zonalar vasitəsi ilə kimya, maşınqayımıa və metallurgiya müəssisələrinin yenidənqurulması və yüksək məhsuldarlıqla işləməsinin təmin edilməsi mümkün olmuşdur. Bir sıra Balkan ölkələrində, o cümlədən, Serbiya, Xorvatiya, Sloveniya kimi ölkələrdə də XIZ modellərindən praktiki istifadə genişlənməkdədir. Sloveniyada XİZ-lərdə istehsal olunan məhsullann 51 %-dən çoxunun mütləq ixrac təyinatlı ol

ması da diqqəti cəlb edir. Əvvəldə qeyd etdiyimiz kimi, Baltikyanı ölkələrdə də XİZ institutundan effektivli nəticələr əldə edilməsi üçün bu kimi zonaların tətbiqi proseslərinə geniş önəm verilir. Məsələn, Latviyada 4 XİZ, o cümlədən, 3-ü limanlarda məhsuldar nəticələr əldə edə bilmişlər. Litvada Şaulay, Klaypeda və Kaunas-da təşkil olunmuş XİZ-lərdə illik orta ixracın həcmi 11,0-11,5 mlrd. ABŞ dollan səviyyəsindədir və bu Litva ixracının 47-48 %- ni təşkil edir. Bu ölkənin XİZ-lərində işləyənlərin sayı 370 min nəfərdir. Estoniyada əsas XİZ modeli kimi sərbəst ixrac sənaye zonalanndan fəal istifadə olunur və bu zonalarda rəqabət qabiliyyətli məhsulların istehsalının təşkili və ixracı həyata keçirilir.

Biz ayrı-ayrı hallarda postsovet respublikalarının XİZ təcrübəsinə və bu kimi zonaların həmin respublikalarının dünya iqtisadiyyatında layiqli yer tutmasına verdiyi töhfələrə dair nümunələrə müraciət edəcəyik. Amma bununla belə, qeyd etmək lazımdır ki, 2005-ci ildən başlayaraq, Rusiyada daha mütərəqqi XİZ modellərinin tətbiqinə üstünlük verilməsi diqqəti cəlb etməyə bilməz. 2005-2007-ci illər ərzində 6 müxtəlif sənaye-istehsal və texniki tətbiqetmə XİZ-lərinin, həmçinin 7 müxtəlif turizm-rekreasiya XİZ-lərinin yaradılması barədə qərarlar qəbul edilmişdir. Rusiya hökuməti 2015-ci ilədək XİZ institutunun daha geniş tətbiqinə nail olmaq üçün 6 mlrd. ABŞ dollanna yaxın investisiya resurslan- nm aynlmasmı və XİZ-lərin sayını 20-yə çatdınimasını nəzərdə tutmuşdur. Təkcə “Zclenoqrad” XİZ-də əldə ediləcək gəlirin 1,3 mlrd. ABŞ dolları və “Tomsk” XİZ-indən əldə ediləcək gəlirin 2-3 mlrd. ABŞ dolları və “Dubna” XİZ-dən əldə ediləcək gəlirin həcmi isə 1,4 mlrd. ABŞ dollar səviyyəsində gözlənilir. Bu üç XİZ-də işlə təmin ediləcək insanlann sayı isə 40 min nəfərə yaxın proq- nozlaşdınlır. Ukraynada müxtəlif XİZ modifıkasiyalanna yatırılan investisiyaların həcmi 2,3 mlrd. ABŞ dolları olmuş, bu zonalarda 500-dən çox prioritet lahiyələr reallaşdırılmış və 60 minə yaxın iş yerlərinin qorunub saxlanması mümkün olmuşdur. Hazırda Ukraynada XİZ-lərin fəaliyyəti və xüsusi ilə onlann optimal modellərinin tətbiqi istiqamətində təkmilləşdirmələr aparılmaqdadır. Belo- rusda iqtisadi proseslərə dövlət müdaxiləsinin qeyri-sabit olması

na baxmayaraq, bu ölkəbrdo XİZ-lərdən osas etiban ilə elmi-tcx-noloji, ixrac təyinatlı istehsal sahələrinin yaradılmasında və rəqabət qabiliyyətli məhsulların istehsalının təşkilində istifadə edilir. Qazaxıstanda XİZ-lər investisiyaların cəlbi, müasir texnologiyala-nn və innovasiyalann tətbiqi proseslərində prioritetliyi ilə seçilir. Son illərdə Tacikistan və Gürcüstan kimi milli iqtisadiyyat sahələrini inkişaf etdirmək istəyən iqtisadi-maliyyə baxımdan çətinlik çəkən bir qrup postsovet respublikaları da XİZ-lərin praktiki tətbiqi proseslərində müəyyən irəliləyişə nail olmuşlar. Əsasən neft-qaz ölkəsi kimi xarakterizə edilən Türkmənistanda qeyri-neft sektorunun inkişafı məqsədilə 1 O-dan çox XİZ modelləri tətbiq edilmişdir. Xəzər dənizinin sahilində - Türkmənbaşı şəhərində “Avaz” beynəlxalq səviyyəli turizm-istirahət XİZ-nin təsis edilməsi yaxın perspektivdə effektivli nəticələrin verəcəyini proqnozlaşdınr.

XİZ-lərin dünya iqtisadiyyatında rolu və əhəmiyyəti barədə verə bildiyimiz nəzəri baxışların və praktiki nümunələrin təhlilinə əsaslansaq, qeyd etmək olar ki, regional və beynəlxalq inteqrasiya proseslərində bu kimi zonaların effektivli təsiri, iqtisadi inkişaf prioritetlərinin daha işlək mexanizmlər vasitəsilə yerinə yetirilməsi imkanlan ilə fərqlənən məhsuldar iqtisadi alət kimi mühüm əhəmiyyət kəsb edir. XİZ-lər milli iqtisadi sektorların və təsərrüfat subyektlərinin fəallığını artınnaqla, onlann beynəlmiləşmə mühitinə daha tez və rəqabətlilik immuniteti əldə etmiş vəziyyətdə daxil olmasına əlavə stimullar verir. Bundan əlavə, XİZ-lər ölkənin ixrac potensialını və rəqabət qabiliyyətini gücləndirməklə, bütövlükdə dünya təsərrüfat sisteminə daxil olan milli subyektlər arasında sağlam iqtisadi rəqabətə geniş yol açmaqla, milli iqtisadiyyatların sürətli və davamlı artımına layiqli töhfələr verməklə yanaşı, dünya iqtisadi proseslərinin daha effektivli və məhsuldar olmasına şərait yaradır.

# II FƏSİL. İQTİSADİ İNKİŞAF PROSESLƏRİNDƏ XİZ-in TƏTBİQİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. İqtisadi inkişaf proseslərində XİZ-dən istifadənin səmərəliliyi.

Hor bir dövlətin öz milli iqtisadiyyatının daimi inkişafında və milli maraqlar çərçivəsində dirçəlişində maraqlı olduğu tarixi proseslərdə kifayət qədər yer almışdır və şübhə altına alına bilməz. Ilk növbədə dövlətin iqtisadiyyat sahəsindəki siyasətinin və burada istifadə olunan iqtisadi nçaqların təkmilləşdirilməsi, yeni standartlar səviyyəsinə qaldırılması nəzərdə tutulur. Məlumdur ki, hər bir ölkədə iqtisadi islahatlar aparılarkən, bu proseslərin bazar iqtisadiyyatı elementləri (prinsipləri) ilə uzlaşdınlması müəyyən sosial-iqtisadi problemlərin artmasına, sosial narazılığa, işsizliyə, iş yerlərinin ixtisarına, bir qrup ənənəvi təsəırüfat subyektlərinin işinin pisləşməsinə, müəssisələrin iflasına və sair fəsadlara səbəb olur. Bunlar təbiidir və bu proseslərdə əsas prioritet dövlətin iqtisadi siyasətinin ardıcıllığı, sosial-iqtisadi problemlərin həllini təmin edə biləcək işlək iqtisadi mexanizminin və iqtisadi islahatlar konsepsiyasının olması zəruridir. Digər tərəfdən iqtisadi islahatlar dərinləşdikcə, iqtisadi inkişaf mexanizminin və onun elementlərinin daimi olaraq təkmilləşdirilməsi, modernləşdirilməsi və müasir dövrdə innovasiyalaşdınlması xüsusilə diqqəti cəlb edir. Bizim XİZ-in tətbiqi ilə bağlı araşdınualanmızda iqtisadiyyatın dövlət sektorunun təkmilləşdirilməsində prioritet vəzifələrinin dərindən öyrənilməsi qarşımızda bir məqsəd kimi dunnasa da, fıkrimizcə bu proseslərdə XİZ-in praktikada təsir edə biləcək amillərinə diqqət çəkmək məqsədəuyğun olardı. Çünki XİZ-in bir qrup oppo- ncntləri bütün dövrlərdə bu effektivli iqtisadi instrumentin milli iqtisadi sistemlərdə rolunu azaltmağa çalışarkən, bu kimi zonala- nn dövlətin iqtisadi siyasətində effektivli element kimi verə biləcəyi faydanı da unutmamalıdırlar. Rusiyalı tədqiqatçı V.S.Osipov bu sahədə apardığı araşdırmalıda bildirmişdir ki, XİZ-lər dünyanın bir çox iqtisadi inkişaf etmiş ölkələrində milli iqtisadiyyatların açıqlıq dərəcəsinin yüksəldilməsinə, iqtisadi təhlükəsizliyinin qo-

runmasına ciddi stimullar vemıişdir 1129]. Dövlətin hər hansı bir sahəyə inzibati müdaxiləsindən bəhş edən müəllif qeyd edir ki, keçmiş SSRİ-də 1985-1990-cı illər ərzində M.S.Qorbaçovun rəhbərliyi altında apanlan antialkoqol kompaniyası dövrü müxtəlif mənbələrə əsasən dövlət büdcəsi 37-200 mlrd, rubldan mərhum olmuşdur. Məlumdur ki, həmin dövrdə Azərbaycanın üzümçülük və şərabçılıq sektoruna vurulan sarsıdıcı zərbələrin fəsadlannı aradan qaldırmaq bu vaxta kimi mümkün olmamışdır. Bu cür neqativ inzibati tənzimləmələr və müdaxilərlə bərabər, dövlət öz iqtisadi siyasətində daha effektivli iqtisadi mexanizmləri işə salmaqla v^ə yaxud dəstək göstənnəklə iqtisadi inkişaf proseslərində yüksək nəticələrin qazanılmasına şərait yarada bilər. Bu konsepsiyanın əsasında qarşıda duran vəzifələrin və prioritetlərin dəqiq müəyyənləşdirilməsi, idarəetmə mexanizminin işlək fonnada təmin olunması, qəbul edilmiş qərarların və nonuativ sənədlərin sistemli xarakter daşıması olduqca zəruridir. Çünki, strateji məqsədlərin qeyri-effektiv yerinə yetirilməsi və yaxud zəruri nəticələrin əldə edilməməsi bu kimi prioritet istiqamətlərdə uzun müddətli dur-ğunluğa səbəb ola bilər, səslənən ideyalar, təkliflər diqqətdən yayınar və yeni mütərəqqi qərarlann qəbul edilməsinə maneçilik törədər və s. Ümumiyyətlə, XİZ-rin tarixi inkişafı ilə bağlı proseslərdə bir çox dövlətlər bu kimi zonalann praktiki fəaliyyəti ilə bağlı siyasətlərində və qəbul edilmiş strateji qərarlann icrasında ardıcıl və sabt olmadıqlanndan, XİZ-in praktiki fəaliyyətindən daha məhsuldar nəticələr əldə edə bilməmişlər. Xüsusilə MDB ölkələrində (Rusiya, Ukrayna, Belorus, Moldova, Qırğızıstan və s.) bir müddət uğur qazanmış XİZ-in fəaliyyətlərində dövlət orqanla-nnın müdaxiləsi və iqtisadi siyasət prioritetləmin qeyri-sabitliyi nəticəsində ciddi problemlər baş venniş, investorların bu zonalardan getməsi, istehsal sahələrinin bağlanması, kommersiya əməliy-yatlannm xeyli azalması, zonalarda fəaliyyətin zərərli olması hallan baş venuişdir. Digər tərəfdən, hətta XİZ-lər olmadan belə, dövlətin iqtisadi proseslərdə ləngliyi, baş verən hallara çevik ins- trumentlərlə müdaxilə etmədiyi təqdirdə ölkə ümumi iqtisadi inkişaf proseslərindən geri qalmaqda davam edəcəkdir. Məsələn, iri

resurslara və texniki-istehsal potensialına malik Rusiyada bizneslə məşğul olan 50 apancı beynəlxalq kompaniya arasında keçirilmiş sorğuda məlum olmuşdur ki, intellektual mülkiyyət hüququnun bu ölkədə dövlət tərəfindən qeyri-effektiv qorunması nəticəsində itirilən məbləğin həcmi 1 mlrd. ABŞ dollarından az deyildir. Bu kimi amillərin sayəsində Rusiya yüksək texnologiyalann istehsalı və satışı üzrə dünya bazarındakı payına görə ABŞ-dan 400 dəfədən azdır, hətta bu sahədə Macanstan kimi ölkədən belə geri qalır və s. Məhz bu amilləri nəzərə alan Rusiya hökuməti son illərdə XİZ- dən praktikada yüksək texnologiyalann kəşfi, işlənməsi və tətbiqi istiqamətində sabit iqtisadi siyasət yürütməyə və bu kimi zonaların effektivli fəaliyyətlərinin təşkilinə dair ardıcıl tədbirlər görməkdədir. Bu proseslərdə dünya təcrübəsinin dərindən öyrənilməsi və XİZ-in dünya iqtisadi təsərrüfat sistemində oynadığı əhəmiyyətli rola önəm verilməsi mühüm əhəmiyyət daşımışdır. Məsələn, güclü elmi-texniki potensiala malik olmayan bır sıra Asiya ölkələri XİZ-lər vasitəsilə, qısa zaman kəsiyində ciddi elmi-texnoloji sıçrayışlara nail olmuş və tezliklə inkişaf etməkdə olan ölkələrin sırasında önəmli yer almışlar. Hətta bir çox göstəricilər üzrə inkişaf etmiş ölkələrlə inamlı rəqabət apannağa müvəffəq olmuşlar. Son 10 ildə inkişaf etməkdə olan ölkələrdə yüksək texnologiyalar əsasında ən müasir rəqabət qabiliyyətli məhsullann istehsalı təşkil olunmuş və bu məhsullar həmin ölkələrin ixrac potensialının əsaslı artımına imkan venmişdir. .Müxtəlif mənbələrə görə, təkcə Asiya ölkələrində bu kimi yüksək texnologiyaların kəşfi, işlənməsi və tətbiqi proseslərini həyata keçirən XİZ-də çalışan yüksək ixtisaslı mühəndis-alim və işçilərin sayı 2,5-3,0 milyon nəfərə yaxındır. Çin, Sinqapur, Malayziya, Cənubi Koreya və Honkonqda fəaliyyət göstərən innovatik texniki-tətbiq XİZ-də inkişaf etməkdə olan ölkələrin ixrac potensialının 80-90 %-i cəmləşmişdir. Çində XİZ-in mühüm dövlət idtisadi instrumenti olması bütün dünyaya bəllidir. Belə ki, Çin XİZ-də artıq uzun illərdir ki, orta illik mənfəət dərəcəsi 14-15 % səviyyəsindədir və bu ölkənin büdcə gəlirlərinin 15- 17 %-i XİZ-in payına düşür. Çin hökuməti XİZ-ri dövlətin kəsərli iqtisadi mexanizmi kimi qəbul etməklə, bu alətdən ölkə iqtisadiy

yatının müxtəlif sektorlarının modembşdirilməsində, iqtisadiyyatın açıqlıq dərəcəsinin yüksəldilməsində, ixrac potensialının artırılmasında elfektiv formada istifadə edir. Bu məqsədlə Çində yaradılan elmi-texniki inkişaf zonalarında elmi tədqiqatların aparılması və elmi-texniki nəticələrin əldə edilməsi prosesləri təşkil olunur. Əsas prioritet sahələrə infonuasiya texnologiyalarının işlənməsi, kosmik tədqiqat və aerokosmik texnologiyalar, mikroelek- tronika və elektronika, energetika, biotexnologiyalar və digər in- novatik sahələr aiddirlər. 10 il müddətinə təşkil olunan bu tip zonalar birinci 2 ildə vergilərdən azaddırlar, növbəti 3 ildə isə verginin 50 %-ni ödəyirlər. Son 10 ildə Çinin bu kimi texniki-inkişaf zonalarına yatınlan xarici investisiylann həcmi 50 mlrd. ABŞ dollarından çox olmuşdur və əsas investorlar kimi ABŞ, Yaponiya, Cənubi Koreya kompaniyaları çıxış edirlər. Çinin bu sahədəki uğurlarını diqqətlə izləyən Rusiyada da son illərdə XİZ-in fəaliyyət prinsiplərində dövlət dəstəyinin sabitliyinə və onların işlək mexanizm əldə etməsinə önəm artmaqdadır. Bu ölkədə yüksək texnologiyaların kəşfi, işlənməsi və istehsalı, elmi-tədqiqat və təc-rübə-konstruktor işlərinin təşkili, texnologiyalann ixracı proseslərinin genişləndidlməsi məqsədilə, XİZ-in elmi-texniki parklar modelindən daha effektivli istifadə olunmasına səy göstərilir. Göründüyü kimi, XİZ-in təşkili prosesinə, daha dəqiq onların müxtəlif modifıkasiyalannm bu və ya digər prioritet sahənin inkişafı proseslərində tətbiqi işinin dövlət tərəfindən dəstəklənməsi və zəruri tədbirərin görülməsi praktikada çox yüksək nəticələrin əldə edilməsinə imkan verərdi. Bu baxımdan Azərbaycanda da artıq əsas iqtisadi islahatlar prosesi başa çatdığından və ölkəmizin inkişaf etməkdə olan ölkə statusu almağa iddialı olduğundan XİZ-dən bu proseslərdə mühüm dövlət iqtisadi instumenti kimi istithdə edilməsi problemləri hələ ki qalmaqdadır. Ölkəmizin iqtisadu gücünün əhəmiyyətli dərəcədə artdığı bir dövrdə, XİZ-dən Azərbaycanın elmi-texniki potensialından praktiki istifadə olunmasında, yüksək texnologiyalı innovatik texniki-iqtisadi fəaliyyət sahələrinin yaradılmasında və inkişafında fəal istifadə olunmasının tarixi və münbit şəraitinin çatdığı qənaətindəyik və bu sahədə Azərbay

can hökümətinin kompleks iqtisadi mexanizmləri özündə əks etdirən milli konsepsiyası işlənib hazırlanması və həyata keçirilməsi aktuallığı ilə diqqəti cəlb edir.

Qeyd etmək lazımdır ki, son 30 il ərzində sənaye baxımdan sürətli inkişaf yolu keçmiş bir sıra ölkələrin inkişaf proseslərində XİZ-lərdən istifadənin səmərəliliyinə ciddi önəm verilmişdir. Məsələn, Cənubi Koreya, Sinqapur kimi ölkələrdə bu zonalar vasitəsilə həmin ölkələrin rəqabət qabiliyyətinin gücləndirilməsində mühüm rolu olan ayrı-ayrı istehsal sahələrinin və iqtisadiyyat sektorlarının təşkili mümkün olmuşdur. Belə ki, XX əsrin 90-cı illərin əvvəllərində əgər Şərqi və Cənubi Asiya ölkələrinin dünya iqtisadiyyatında ÜDM-m formalaşmasında xüsusi çəkisi cəmi 1 %-lə ölçülürdüsə, 10 il sonrakı dövr üçün bu rəqəm 14 % səviyyəsində olmuşdur. Təsadüfi deyildir ki, məhz 1990-2000-ci illərdə XİZ institutundan fəal və səmərəli bəhrələnmək üçün tarixi işlər görmüş Çin, Hindistan və Braziliya dünyanın iqtisadi cəhətdən 10 iri dövlətləri sırasında yer almışlar. Fikrimizcə, məhz həmin dövrlərdən sürətli və sabit iqtisadi inkişaf tempi yığmış Çinin 2010-ci ilin yekunlanna görə ABŞ-dan sonra iqtisadi gücünə görə dünyada 2- ci yerdə qərar tutmasına imkan vermişdir. Milli subyektlərin iqtisadi inkişaf prioritetlərinin davamlı və sabit gerçəkləşdirilməsində, həmçinin iqtisadi artım tempinin saxlanılmasında XİZ-lər əlavə stimullar vennəklə yanaşı, bu ölkələrdə müasir və modernləşdirilmiş iqtisadiyyat sektorlannm foımalaşmasına, istehlak səviyyəsinin artmasına, əmək məhsuldarlığının və istehsal şəbəkəsinin effektivliyinin yüksəldilməsinə, istehsal fondlannın yeniləşməsinə, innovasiyalara mane olan amillərin aradan qaldınimasma, iqtisadi fəallığın artmasına, biznes və sahibkarlığın, iqtisadiyyat sektorlarının səmərəli idarəedilməsinə, regionun və ölkənin milli maraqla- n çərçivəsində tənzimlənməsinə, elm və texnologiyaların praktiki istehsal və xidmət sahələrinə tətbiqinin sürətləndirilməsinə, rəqabət qabiliyyətli məhsullann çeşidinin artırılmasına, regionun və ölkənin dünya təsərrüfat sisteminə inteqrasiya kanallannm çoxşa- xələndirilməsinə, beynəlxalq əmək bölgüsü prinsiplərindən daha məhsuldar faydalanmasına, ölkənin rəqabət qabiliyyətinin və imi

cinin artın İmasına fərqli iqtisadi mexanizm kimi güclü stimullar verə bilmişdir.

Müasir dövrdə XİZ-lərin iqtisadi inkişaf prioritetlərinin praktiki perspektivləri istiqamətində mülahizələr yürüdərkən, dünyada çoxlu sayda XIZ elementlərini özündə birləşdirən və əvvəldə qeyd edildiyi kimi, iri beynəlxalq inteqrasiya zonalan barədə mülahizələr ciddi diskussiyalara səbəb olur. Məsələ burasındadır ki, iri beynəlxalq inteqrasiya zonaları ayrı-ayrı milli subyektlərdə hansısa bir iqtisadiyyat sektorunun və yaxud geri qalmış ərazinin iqtisadi inkişafını təmin etmək məqsədilə XİZ institutunun tətbiqinə zərurəti azaldır. Bununla belə, inkişaf etmiş ölkələrinin əksəriyyətinin cəmləşdiyi Qərbi Avropa ölkələrində vizanın götürülməsi, kapitalın sərbəst hərəkəti üçün münbit şəraitin yaradılması və sair XİZ- lərə xas olan iqtisadi rejimin fonualaşdırılması bu ölkələrin iqtisadiyyatının gücləndirilməsinə və ixrac potensialının əhəmiyyətli şəkildə artmasına ciddi təsir göstənuişdir. Qeyd etdiyimiz kimi, dünyanın ən güclü iqtisadi güc mərkəzlərindən olan Avropa İttifaqının rolu və imkanlan barəsində araşdımıalar aparmış rusiyalı alim N.V.Zaxarovamn bu qurumla bağlı və quruma daxil olan ölkələrin iqtisadi inkişaf prioritetləri barəsində təhlilləri diqqətimizi cəlb etmişdir [98]. Bu quruma daxil olan ölkələrin iqtisadi inkişaf tarixlərindən məlumdur ki, əldə edilmiş yüksək makroistisadi göstəricilərin və iqtisadi inkişaf səviyyəsinin əsasında elm və texnologiyaların tətbiqi sahələrinin genişləndirilməsi xüsusi əhəmiyyət kəsb etmişdir. Amma heç də bu quruma daxil olan ölkələrin hamısında elm və texnikanın inkişafına, konstruktor-təcrübə və lahiyə işlərinə, innovasiyalann və nanotexnologiyalarm işlənib hazırlanması və tətbiqinə eyni münasibət və maliyyələşdinnə prinsipləri mövcud deyildir. O ölkələr ki, bu sahəyə xüsusi diqqət yetirməklə yanaşı, strateji prioritetləri dəqiqləşdirərək, onlann praktiki real- laşdınlmasını təmin etmişlər, məhz bu ölkələrdə texnoloji yenilənmə, iqtisadi inkişafın artım səviyyəsi, həyat və yaşayış səviyyəsi, digər ölkələrlə müqayisədə üstünlüyü ilə fərqlənir. Məsələn, İsveçdə elm və texnikanın, konstruktor-təcrübə işlərinin maliyyələşdirilməsinə ÜDM-ın 4,3 %-i səviyyəsində, Finlandiyada - 3,5 %

Almaniyada - 2,5 %, Danimarkada - 2,6 %, Avstriyada - 2,2 % səviyyəsində maliyyə resursları aynlır. Bu ölkələrdəki iqtisadi inkişaf və yaşayış səviyyəsinin uzun dövr ərzində sabitliyi və rəqabət qabiliyyətinin güclü olmasının səbəblərindən biri kimi qeyd etdiklərimizi göstərmək olar. Müqayisə üçün bu göstəricilər İtaliyada 1,1 %, Yunanıstanda 0,64 %, Portuqaliyada isə 0,80 % təşkil etmişdir. Başqa bir misal Niderlandla bağlıdır. Bu ölkə adambaşına düşən milli gəlirə görə regionda 4-cü, dünyada isə 5-ci yerdədir, ixracın adambaşına həcminə görə isə dünyanın ilk 10 ölkəsi sırasındadır və, nəhayət, xarici investisiyaların toplanmasında dünyada ilk 5-likdədir. Bunun əsas səbəblərindən biri - ölkə iqtisadiyyatının sənaye sahələrinin və rəqabət qabiliyyətli iqtisadiyyat sektor- lannın prioritetliyinin optimallaşdınimasındakı uğurlardır. Təkcə ölkənin Rotterdam limanında qərbi Avropa idxalının 20 % reallaşdırılır. XİZ institutundan konkret bəhrələnən Niderland dünyanın bütün ölkələrindən gülçülük məhsullarını buraya toplayaraq, yüzlərlə ölkəyə bu sahənin məhsullanm ixrac etməklə külli miqdarda valyuta vəsaitləri əldə edir və s.

Rusiyalı alimlər A.V. Puşkin və İ.Q.Boqdanov XİZ-lərin praktiki proseslərdə səmərəli istifadəsi üzrə və əsasən, onlann hüquqi nizamlanması istiqamətində tədqiqat işləri aparmışlar. Onlar bu zərurəti onunla əsaslandırmışlar ki, Rusiyada və digər MDB dövlətlərində XİZ-lərin tətbiqi proseslərində, o cümlədən, xüsusilə elm tutumlu texnologiyalann, sənaye müəssisələrinin və turizm obyektlərinin üstünlük təşkil etdiyi XİZ-lərdə belə zonalann daha savadlı və effektivli təşkili problemləri diqqət çəkməkdədir. Alimlər XİZ-ə olan marağın əsasında bu kimi zonalann artıq dünya iqtisadiyyatında əhəmiyyətli rolu və düriya ticarət dövriyyəsinin təxminən 30 %-nin bu zonalar vasitəsilə həyata keçirilməsi ilə əsaslandırırlar **[s.23, 134].** Bu alimlərin əldə etdiyi nəticələr içərisində bizim xüsusi marağımıza səbəb olan məqamlardan biri - XIZ-lə- rin təşkili və fəaliyyəti prosesdurlannm hansı dərəcədə uğurlu nəticələr verə biləcək səviyyədə praktiki proseslərdə həyata keçirilməsi problemlərinin nəzərə alınması məsələsidir. Ilk növbədə XİZ-lər yaradılarkən, bu sahədə dünya təcrübəsində olan neqativ

praktiki təcrübənin və iflasa uğramış lahiyələrin dərindən öyrənilməsi məqsədəuyğun hesab edilir. Digər tərəfdən, zonalann gələcəkdə uğurlu fəaliyyəti və məhsuldar iqtisadi mühitə çevrilməsi proseslərinə ciddi təsir edən infrastruktur və yerli resurs imkanlannın obyektiv qiymətləndirilməsi problemlərinə xüsusi diqqət yetirilməsinin zəruriliyi göstərilir. Eyni zamanda, XİZ lahiyələrinin müsbət nəticələrinin ən azı 3 ildən tez gözlənilməsi kimi utopik proqnoz göstəricilərinin qəbul edilməməsi və gələcəkdə bu kimi lahiyələrin imicinə və perspektivlərinə ciddi zərbələrin vurulmaması məqsədilə, əvvəlcədən belə zonalara yatınlacaq investisiyalar müqabilində gəlir və xərclərin uyğunlaşması hesabatlarının, gəlirlərin əldə edilməsi proqnozlannm optimal variantlannm işlənib hazırlanması və XIZ subyektinin maliyyə-təsərrüfat fəaliyyətinin iqtisadi baxımdan effektivli olmasının növbəti 3-5 ildən başlayaraq, daha uzaq perspektivə hesablanması amillərinin mütləq nəzərə alınması belə lahiyələrə ölkə daxili və xarici investorlann marağının birə beş artıra bilər və XİZ subyektlərinin yerləşdiyi regionda bu kimi zonalann imici xeyli yüksələrdi. Gələcəkdə Azərbaycanda XİZ-lərin yaradılacağı məkanlardan ən perspektivli yerlərdən biri sayılan Xəzər dənizi sahili boyunca ərazilərin olması və burada liman təyinatlı XİZ-lərin təşkili perspektivlərinin mövcudluğunu nəzərə alaraq, bu sahədə XİZ fəaliyyətinin bəzi mə- qamlanna toxunmaq istərdik. A.V. Puşkin və İ.Q.Boqdanov Rusiyada liman təyinatlı XİZ-lərin rezidentlərinin hüquq və vəzifələri və xüsusi statuslannı bu ölkənin müvafiq qanunlarına uyğun olaraq, spesifik xüsusiyyətlərini və öhdəliklərini vermişlər. Rusiyada liman XİZ-lərinin rezidentləri fərdi sahibkarlar ola bilməzlər və əgər rezidentlər dəniz sahili boyunca olan XİZ-lərdə fəaliyyət göstərmək istəyirlərsə, ən azı 100 mln. avro dəyərində əsaslı vəsait və investisiya resursu ayırmalıdırlar (bu vəsaitlər əsasən yaradılacaq sərbəst limanının infi-astruktur obyektlərinə yönəldilir). Çay sahili boyunca yerləşən ərazilərdə və yaxud yeni aeroportlann yaradılması ilə bağlı infrastrukturun təşkilinə XİZ rezidentlərindən tələb edilən investisiya resurslannm məbləği 50 mln. avrodan az olmamalıdır. Digər bir spesifik xüsusiyyət isə XİZ-lərdə - liman təyi

natlı zonalarda infrastrukturun yenidənqururalması ilə bağlı lahiyolərdə rezidentlər üçün lahiyələrin ən minimum məbləği 3 mln. Avro səviyyəsindədir.

Tədqiqatçı-alimlər Rusiyada XİZ-lərin perspektiv inkişaf prioritetlərinə və onlardan səmərəli istifadə edilməsi məsələlərinə toxunarkən, bildirilmişlər ki, ilk növbədə belə zonalann normativ hüququ bazasının fonnalaşması problemləri müasir dövrün məhkəmə praktikası ilə uyğunlaşdınlması olduqca mühüm əhəmiyyət kəsb edir **[s.221, 134].** Digər tərəfdən, müəlliflər belə hesab edirlər ki, Rusiyada istehsal-sənaye XİZ-lərinin rezidentləri üçün minimum investisiya lahiyəsinin həcmi 10 mln. avrodan 3 mln avroyadək azaltmaq məqsədəuyğundur. Belə olduğu halda kiçik və orta kompaniyaların XİZ-lərdə daha geniş iqtisadi fəallığına şərait yaratmaq mümkün olardı. Əvvəldə qeyd edildiyi kimi, Rusiyada 2015-ci ildə XİZ-ləri sayının 20-yədək çatdırılması gözlənilir və həmin dövrədək bu XİZ-lərdə mühəndis və infrastruktur obyektlərinin yaradılmasına 6 mlrd. ABŞ dollanna yaxın vəsaitin xərclənməsi proqnozlaşdırılır. Bundan əlavə, digər bir perspektiv proq- nozlaşdırmada 2025-ci ilədək olan dövrdə Rusiya XİZ-lərinə cəlb ediləcək xüsusi investisiyaların həcminin 26 mlrd. ABŞ dollarına qədər artacağı və həmin dövrədək Rusiya hökümətinin büdcəsindən XİZ institutunun və infrastrukturunun inkişafına 8 mlrd. ABŞ dollanna yaxın əlavə vəsaitin xərclənəcəyi gözlənilir. Başqa maraqlı bir məqam məhz artıq 2025-ci ildə bütün Rusiya XİZ-lərin- dən ümumilikdə yığılacaq vergi daxilolmalannın həcmi ilə bağlıdır. Belə ki, artıq həmin dövrədək Rusiya XİZ-lərinin fəaliyyətindən dolayı və birbaşa vergi daxil olmalarından məbləğin həcmi 34-35 mlrd. ABŞ dollan səviyyəsində proqnozlaşdınlır. Bütün bunlara nail olmaq üçün Rusiyada XİZ-lərin fəaliyyəti və yaradılması proseslərinin hüquqi nizamlanmasının, bu zonalar üzrə normativ sənədlərin təkmilləşdirilməsi və yeniləşdirilməsi proseslərinin həmin XİZ-lərin iqtisadi fəallığının artınıması prizmasından baxılması mühüm və prinsipial strateji vəzifə kimi baxılması vacibdir. Bundan əlavə, XİZ-lərlə bağlı proseslərin dövlət nizamlanması proseslərində korrupsiya və lobbizm tendensiyalarına və

əsassız müdaxilələrə yol verilməmlidir. XİZ-lərin praktiki fəaliyyəti proseslərində və iqtisadi mühitin genişləndirilməsi istiqamətlərində yerli və mərkəzi orqanların qarşılıqlı münasibəti ilk növbədə bu zonalarda iqtisadi fəaliyyət qaydalarının və rejimlərin sabitliyinin qorunması amilindən əlaqələndirilməlidir. Digər tərəfdən, zəruri hallarda XİZ-lərin əlavə maliyyələşdirilməsi problemlərinə dövlət tərəfindən operativ baxılması bu kimi zonalardan istifadə də yaxşı nəticələr əldə etməyə imkan yaradır. Məsələn, vaxtilə Cənubi Koreyada dövlər tərəfindən infrastrukturun yaradılmasında cəmisi 28 mln. ABŞ dolları vəsait yatırılan "Masan" XİZ-də bir müddət sonra illik istehsalın həcmi 1,9-2 mlrd. ABŞ dollan təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, milli iqtisadiyyatların dünya iqtisadiyyatına inteqrasiyası və bcynəlmilləşməsi prosesləri mürəkkəb mərhələlərdən keçir. Hər bir milli iqtisadiyyatın balanslaşdırılmış prioritetlərində mühüm yerlərdən birini sənaye sektoru tutur. Hələ, bir neçə yüz il bundan əvvəl hazırda inkişaf etmiş ölkələrin bəzilərində bu sahənin mühümlüyünü nəzərə alaraq, onun inkişafı ilə bağlı prioritetlər ölkənin əsas strateji istiqaməti kimi dəyərləndirilmişdir. Tarixdə sənayeləşmə və onun fonnalaşması ilə bağlı çoxlu mərhələlər vardır və bizim məqsədimiz bunların geniş təhlilini vermək deyildir, amma bəzi məqamlara diqqət çəkmək yerinə düşərdi. iki fərqli iqtisadi sistemin - kapitalizm və sosializm sistemlərinin uzun bir dövr ərzində gərgin rəqabətində sənaye sektoru ilə bağlı çoxsaylı mürəkkəb zirvələrin fəth edilməsi elə də uzaq tarixi əhatə etmir. Ancaq bu nailiyyətlər necə əldə olunurdu? Əgər XX əsrin 30-cu illərində və xüsusilə 50-ci illərindən başlayaraq, inkişaf etmiş kapitalist ölkələrində bu proseslər bazar iqtisadiyyatı prinsipləri əsasında aparılırdısa, iri sosializm ölkələrində isə, ilk növbədə keçmiş SSRİ-də, ölkənin əsas maddi resurslarının mərkəzləşdirilməsi və əsaslı kapital qoyuluşlarının təmərküzləşdiril- məsi hesabına baş vennişdir. Kapitalist ölkələri sənaye sahələrinin maddi-texniki bazalanna daxili və xarici investorların vəsaitini artırmaqla, uzun müddətli toxunulmaz və dövlət tərəfindən qorunan sənaye-istehsal bazalarını fornıalaşdımıağa və inkişaf etdirməyə

nail olmuş və hazırda bu bazanın əsasında dünya iqtisadiyyatının ön cərgələrində gedirlər. Keçmiş SSRİ-nin dağılması və sosializmin süqutu ilə bağlı təəssüf ki, bu ölkələrdə olan iri şəhər və yaşayış məntəqələrinin infrastrukturunu və iqtisadi gücünün əsas parametrlərini öz üzərində daşıyan iri sənaye-istehsal müəssisələrinin bir-birinin ardınca fəaliyyətini dayandınnası, iflic olması, tamamilə sıradan çıxması prosesləri baş vermişdir. Bu qəbildən olan iri sənaye müəssisələrinin çox az bir hissəsi bu və ya digər formada transformasiyalara uğradıqdan sonra öz profillərini və yaxud onun bir hissəsini qoruyub saxlaya bilmiş və modemizasiya proseslərini həyata keçirməyə nail olmuşdur. Bu proseslərə müqayisəli təhlil prizmasından yanaşsaq, görərik ki, sənaye kimi iri elm və texnika tutumlu iqtisadi}^at sektorunun sabit və davamlı inkişafına külli miqdarda maliyyə resurslan lazım gəlir. Müasir dövrdə ən kiçik bir istehsal sahəsinin və sənaye müəssisənin yaradılmasına, burada müasir texnologiyalann tətbiq edilməsinə və rəqabət qabiliyyətli məhsullann buraxılmasına 10 mln. ABŞ dollarından 50 mln. ABŞ dollannadək və daha çox vəsait tələb olunur. Şübhəsiz, sənaye müəssisələrinin yaradılması və fəaliyyətinin təşkili təkcə dövlətin qayğısı və işi ola bilməz. Amma dövlətin əsas funksiyalanndan biri - bu sahədə işgüzar biznes mühitinin və investisiyalann cəlb edilməsi üçün çevik və sabit iqtisadi mexanizmi işləyib hazırlaması, qanunvericiliklə əhatə edilməsi və praktiki proseslərin sabit təşkil edilməsidir. Bu proseslərdə dövlət ənənəvi iqtisadi mexanizm- lərlə yanaşı, daha fərqli və effektivli iqtisadi alətlərdən istifadə edilməsini də önə çəkməklə investisiyalann və iri kapitalın axını proseslərini asanlaşdıraraq sənaye-istehsal zonaları, bizim baxdığımız halda - XİZ-lərin yaradılması ilə sənaye sektorunun müxtəlif sahələrinin sürətli inkişafına ciddi təkan verə bilər. XİZ-lərdən daha səmərəli istifadə edilməsi məqsədilə, bu kimi zonaların sənaye sektorunda əhəmiyyətini və sənaye sahələrinin inkişafı üçün investisiya mühitinin formalaşması problemlərini öyrənən i.e.d. A.N.Brıntsev investisiyaların sənaye sahələrinə gətirilməsinin əsas aspektlərini, bu sahədə dünya təcrübəsindən nümunələri və bir qrup ölkələrdə XİZ-lər vasitəsilə sənaye sektorunun inkişafı prob

lemlərini və perspektivlərini, ayrı-ayrı sənaye sahələrinə yatırılacaq investisiyalann effektivliyinin qiymətləndirilməsini vennişdir. Müəllifin fikrincə, ölkənin iqtisadi artımı kimi strateji vəzifənin yerinə yetirilməsi elmi-texniki yeniliklərə əsaslanmış və iri investisiya resurslan cəlb etməklə, güclü sənaye sektorunun yaradılması hesabına mümkündür [89]. Qeyd etmək lazımdır ki, sənaye sahələrinə iri kapitalın gətirilməsi üçün kompleks sənaye və investisiya siyasətinin fonnalaşması zəruridir. Bir çox dövlətlərdə bu məqsədlə müxtəlif iqtisadi rıçaqlardan, o cümlədən XİZ-lərdən istifadəyə yer verilmişdir. Belə ki, XİZ-lər dövlətin sənaye səhəsin-də iqtisadi prioritet kimi qarşıya qoyduğu mühüm vəzifələri - bu sahənin maddi-texniki bazasının gücləndirilməsi, istehsalın modernləşdirilməsi, istehsal proseslərinə yeni texnologiyalann tətbiqi, perspektivli konstruktor layihə və təcrübə işlərinin, həmçinin digər elmi-texniki yeniliklərin istehsala daimi tətbiqi imkanlannın öyrənilməsi və həyata keçirilməsinin təmin edilməsi üçün çox əlverişli investisiya mühiti olan iqtisadi fəaliyyət zonası kimi diqqəti cəlb edir. İnvestisiyaların sənaye təyinatlı XİZ-lərə gətirilməsi üçün ilk növbədə bu və ya digər sənaye-istehsal sahəsində uzun müddətli perspektivlərin elmi-texniki əsaslandınıması zəruridir. Yalnız region və ölkənin milli iqtisadi maraqlan, sənaye prioritetləri, yaradılacaq və inkişaf etdiriləcək sənaye sahəsinin regionun və ölkənin iqtisadiyyatına edə biləcəyi təsirləri, əldə ediləcək mal və məhsullann rəqabətlilik dərəcələri, daxili istehlak bazannda və xarici əmtəə bazarlannda onların hərəkət tsiklləri fundamental öyrənildikdən sonra hər hansı bir sənaye sahəsinə investisiya resurslarının cəlbinə kompleks və sistemli formada baxılmalıdır. Bunlarla bərabər, investisiya resurslarının və iri kapitalın XİZ-lər vasitəsi ilə sənaye sektoru sahələrinə gətirilməsinin prioritet kriteriyalarının və onlann qiymətləndirilməsinin optimal modelinin və praktiki proseslərdə tətbiqi zamanı işlək mexanizminin hazırlanması diqqətdən yayınmamalıdır. Başqa sözlə, XİZ-lərə cəlb edilən investisiya resurslan əslində bu zonanın aparıcı iqtisadi rıçaqına çevrilməklə, burada təşkil olunacaq müxtəlif sənaye sahələrinin və istehsal müəssisələrinin müasir standartlar səviyyəsində sürətli in

kişafına imkan verəcəkdir. Bir çox ölkələrdə investisiya resurslanmn cəlb edilməsinə və onlann sənaye sahələrinin inkişafında əhəmiyyətli rolunun təşkilinə balanslaşdınımış dövlət siyasətinin təmin edilə bilinməməsi, bu ölkələrdə ixrac təyinatlı məhsullann rəqabət qabiliyyətinin aşağı düşməsinə və, nəticədə, həmin ölkələrin iri məbləğdə valyuta vəsaitlərindən məhrum olmasına gətirib çıxanr. Müxtəlif ekspertlərin qənaətinə görə, Rusiyada hər il ixrac edilən məhsullardan bu və ya digər səbəbdən 4 mlrd. ABŞ dollanna yaxın vəsait itirilir. Bu baxımdan ölkədə ixrac təyinatlı sənaye məhsullannın rəqabət qabiliyyətinin artırılması, bu məqsədlərlə yüksək texnologiyalar əsasında yeni və müasir emal sahələrinin, sənaye müəssisələrinin yaradılması proseslərinə xarici investorlann cəlb edilməsində XİZ kimi əlverişli investisiya mühitinə malik iqtisadi mexanizmin ölkənin iqtisadi sistemində möhkəmlənməsi proseslərinin təkmilləşdirilməsinə ehtiyac duyulur. Müasir dövrdə Rusiya hökümərinin qarğısında duran ən mühüm vəzifələrdən biri də - ölkə sənayesinin elm tutumlu sahələrinin sürətli inkişafın, yüksək texnologiyaların sənaye sektoruna gətirilməsinin sürətləndirilməsi və rəqabət qabiliyyətli sənaye məhsullarının alınmasıdır. Bununla belə, Rusiyada XİZ-lər hələ də bu ölkənin iqtisadi sistemində müxtəlif sənaye sahələrinin sürətli inkişafı proseslərində çevik iqtisadi mexanizmə çevrilə bilməmiş və bu sahələrə investisiyaların gətiriməsində iri uğurlar əldə olunmamışdır. Bunlarla belə, XİZ-lər bir sıra keçmiş postsosialist və postsovet respublikalarında əvvəlki inzibati-təsərrüfat sistemindən qalmış iri sənaye müəssisələrinin reabilitasiyası və dirçəldilməsi proseslərində məhsuldar rol oynaya bilmişlər. Məsələn Macarıstanda keçmiş iri sənaye müəssisələrini yeniləşdirilməsi, iş yerlərin saxlanılması, perspektivli sahələrin yeni texnologiyalarla zənginləşdirilməsi, bir çox istehsal sahələrinin profillərinin təkmilləşdirilməsi və müasir standartlara cavab verən sənaye sektorunun qurulması üçün XİZ institutundan bu prioritet vəzifələrin yerinə yetirilməsinə külli miqdarda investisiya resursları cəlb edilə bilinmişdir. Polşada da analoji proseslər yaşanmış və bu ölkədə XİZ-lərin fəaliyyəti bir çox iri xarici investorların marağına səbəb olmuşdur. Bunlarla

belə, hətta böyük təbii resurslara və iqtisadi potensiala malik olmayan bir qrup keçmiş SSRİ ölkələrində, məsələn, Baltikyanı respublikalannda ölkənin sənaye sahələrinin inkişafı üçün zəruri investisiya resurslarının gətirilməsində XİZ-lərdən istifadə nümunələri diqqəti cəlb edir. Məsələn, Litvada Klaypeda XİZ-i 1996-cı ildən fəaliyyət göstərir və 205 hektar ərazini əhatə edir. Bu zonanın ən iri investoru Amerikanın “Baltic Fund ILP” investisiya fondudur və zonanın fonnalaşmasma ayrılan vəsait 2,2 mlrd, dollar təşkil etmişdir. Litva hökuməti isə bu iqtisadi zonanın infrastruktur obyektlərinin (su kəməri, elektrik xətti, qaz, magistral yol və s.) istismara verilməsini maliyyələşdinniş və təmin etmişdir. Bu XİZ-də vergi güzəştləri, o cümlədən əmlak və yol üzrə güzəştlər sistemi mövcuddur. Bundan əlavə, region ölkələri, xüsusilə Polşa və Almaniyadan olan investorlar da sənaye təyinatlı XİZ-də iri layihələrdə ciddi maraqlıdırlar. Bunun əsas səbəblərindən biri də zonada nəzərdə tutulan qanunvericilik prinsiplərinin və güzəştlər sisteminin Avropa İttifaqının tələblərinə uyğun olmaqla, 2045-ci ilədək olan dövrdə güwədə olmasıdır. Bu zonada fəaliyyətə başlayan müəssisələrdən kiçik bir misal göstənnək istərdik. Danimarkanın “Espersen” kompaniyasi 3 hektar ərazini icarəyə götürərək balıq emalı zavodu tikib və buraya investisiya yatınb. Bu tip müəssisələrin bir çoxunun profilləri yarımfabrikat və digər qida məhsullarının emalı üzrədir və onların bu zonada geniş şəbəkəsinin yaranacağı gözlənilir. Bu zonada kiçik, orta və nisbətən iri sənaye emal sahələrinin şəbəkəsinin yaranması Litvanın iqtisadi inkişafına yeni töhfələr verməklə yanaşı, bu sahədə rəqabət qabiliyyətli məhsullann istehsalına imkan verəcəkdir. Eyni zamanda xarici kapitalın və invcstorlann bu zonaya fəal gəlməsi ölkəyə müasir idarəetmə modelləri ilə yanaşı, yeni texnologiyalann daimi tətbiqinə əlavə stimullar yaradacaqdır. Ümumiyyətlə, dünya praktikasında sənaye baxımından inkişaf etmiş ölkələrdə sənaye məhsulunun istehsalının 30-50 %-i səviyyəsində artımı, məhz xarici investisiyalardan optimal modellər və mexanizm əsasında istifadə nəticəsində mümküm olmuşdur. Təsadüfi deyildir ki, XİZ-lərdən fəal istifadə etmiş bir çox postsosialist və postsovet rcspublikalannda mak

roiqtisadi göstəricilərin dinamikasında fərqlilik özünü göstərir. O ölkələrdə ki, XİZ institutu vasitəsi ilə investisiyalann cəlbi asanlaşdığından, burada iri kapitalın gəlişi hesabına sənaye və digər milli iqtisadiyyat sahələrinin sürətli inkişafı və əsaslı artımı mümkün olmuşdur. Əksinə, bu imkanlardan yetərincə yararlanmayan və XİZ institutundan investisiyalann cəlbində zəif istifadə edən ölkələrdə iqtisadi inkişaf prosesləri mühüm artım elementlərindən məhrum olurlar. Əgər biz eyni regionda və oxşar iqtisadi inkişaf prioritetlərinə malik bir qrup ölkənin (regionun) XİZ təcrübəsinə baxsaq, bu fərqi hiss etmiş olarıq. Məsələn, 1990-cı illərdən başlayaraq, XİZ-lərdən fəal bəhrələnməyə çalışan ölkələrdə adambaşına düşən milli məhsul 10,2 min dollardan növbəti 10-12 il ərzində 14 min dollaradək artmışdırsa, həmin dövr ərzində bu göstərici Estoniyada 8,2 min dollardan 12 min dollaradək, Latviyada 5,7 min dollardan 8,2 min dollaradək, Litvada 5,9 min dollardan 7,7 min dollaradək arım müqabilində, və, nəhayət, bu regionda yerləşən Rusiyanın Kalininqrad vilayətində 5,1 min dollardan 4,9 min dollara kimi azalma baş vermişdir. Göründüyü kimi, bu ölkələrdə XİZ-lərdən effektivli istifadə bu və ya digər formada həmin ölkələrin iqtisadi inkişaf tempinə və makroiqtisadi göstəricilərinə təsir etmək imkanına malikdir. Bundan əlavə, XİZ-lər vasitəsi ilə regionun investisiya mühitinin yaxşılaşdmlması və iri kapitalın gətirilməsinin sürətləndirilməsi, eyni zamanda bu regionun imicini və rəqabət qabiliyyətini artınr, sənaye və istehsal sahələri ilə yanaşı xidmət sektorunun inkişafına stimullar yaradır, sosial-məişət infrastrukturunun gücləndirilməsinə kömək edir, əhalinin iqtisadi fəallığını artınr və sosial-iqtisadi problemlərin kompleks həllinə imkan verir. Fikrimizcə, Azərbaycanda da yaxın perspektivdə XİZ- lərdən bəhrələnmək və onlardan real iqtisadi sahələrdə səmərəli istifadə etmək məqsədilə ölkəmizin sənaye sektorunun potensialı daha çox diqqəti cəlb edir və bu baxımdan burada XİZ institutundan bəhrələnməyin bir qrup modifikasiyasına baxmaq məqsədəuyğun olardı. Xüsusilə, Azərbaycan müstəqillik əldə etdikdən sonra, hələ də reabilitasiya prosesini keçməyən və modernləşdirilməyən bir sıra sənaye sahələrində dünya təcrübəsinə müvafiq XİZ-lərin

tətbiqi perspektivlərinə baxılması mümkündür (tekstil, cihazqayırma, məişət avadanlıqları, yuyucu vasitələr, metallurgiya və bir sıra kimya, neft-kimya sahələri və s.).

Hazırda dünyada böyük bir qrup ölkələr inkişaf etməkdə olan ölkə statusu daşıyırlar. Bu ölkələrin əsas iqtisadi inkişaf prioritetləri dünya ölkələri arasında öz rəqabət qabiliyyətinin möhkəmləndirilməsi, iqtisadiyyat sahələrinin innovasiyalaşdınlması, iqtisadiyyatın diversifikasiyalaşdınlması, ixrac potensialının artınıması və sairlərdən ibarətdir. Bu sahələrin və prioritet istiqamətlərin sürətli inkişafını təmin edə biləcək əsas milli iqtisadi sektor kimi - sənaye sektoru mühüm əhəmiyyət daşıyır. Düzdür, hazırda iqtisadi cəhətdən ən güclü ölkələrdə (inkişaf etmiş ölkələrdə) ÜDM-nın həcmində sənayenin xüsusi çəkisi heç də 20-25 %-dən çox deyildir. Lakin bu vəziyyət hazırkı dünya iqtisadi təlatümləri, maliyyə böhranlan prizmasından baxılarsa, çox ciddi və mübahisəli elmi araşdırmalara, müzakirələrə zərurət yaranacaqdır. Başqa sözlə, bu ölkələrdə istehlak səviyyəsinin həddindən çox qaldınlması, sadə dildə desək, qazandıqlarından çox yeməsi (istifadəsi), pul-kredit, kommersiya-birja, ipoteka sferalarında situasiyaların çox təhlükəli hala çatdırılması, daxili və xarici borclar hesabına etibarlı perspektivi olmayan iqtisadi sistemin qurulması (daha düzgün şişirdil məsi), dünya ölkələrinin qlobal elementlərdən qorunma immunitetinin məhdudluğu və sair amillər nəticəsində mütəmadi bu və ya digər formada dünya iqtisadi-maliyyə, valyuta problemləri (böhranları) yaşanır. Belə proseslərə davamlılığı ilə seçilən, nisbətən daha rəqabət qabiliyyətli sənaye sahələri əksər hallarda öz maddi- istehsal imkanlanna, ehtiyat mənbələrinə söykəndiyindən böhranlı iqtisadi proseslərdən daha az itkilərlə çıxmaq iqtidarındadır. Belə ki, rəqabət qabiliyyətli sənaye sahələri sabit işlədiyi halda, istehsal proseslərinin optimallaşdınlması, yeni tcxnologiyalann tətbiqi, idarəetmə metodlarının təkmilləşdirilməsi, əmək məhsuldarlığının və gəlirlərin artırılması imkanlan da çoxalmış olur və perspektivlərin geniş spektri yaranır. Bu baxımdan hazırda inkişaf etməkdə olan ölkələrin milli iqtisadi inkişaf modellərində müasir sənaye sahələrinin yaradılması, mövcud sənaye potensialının modernləş

dirilməsi və hazırkı istehsal güclərindən daha səmərəli istifadə edilməsi prioritetləri əhəmiyyətli yer almışdır. Şübhəsiz, bu mühüm iqtisadi prioritetlərin reallaşdırılması müxtəlif işlək mexanizmlərdən fəal istifadəni şərtləndirir. Məlum olduğu kimi, dünyanın bir çox ölkələri, o cümlədən inkişaf etməkdə olan ölkələr sənaye sektoru sahələrinin potensiallarının artınıması, yeni istehsal sahələrinin yaradılması, yüksək texnologiyalar əsasında elmtutumlu innovatik məhsullann istehsalının artınıması, daxili istehlak bazarının mal və məhsullara olan tələbatının ödənlməsi, ixrac təyinatlı yüksək standartlara malik məhsullann istehsalının təşkili məqsədilə, XİZ-dən praktikada fəal istifadə etmiş və bu proseslər hazırda daha sürətlə davam etməkdədir. ABŞ, Çin, Cənubi Koreya, Türkiyə, Sinqapur, Malayziya XİZ-nin bu sahədəki nailiyyətləri daha güclü olmuşdur. Bir qmp postsosialist ölkələri (Polşa, Macarıstan, Slovakiya, Vyetnam, Latviya, Litva, Estoniya, Çexiya, Rumıniya və s.) özlərinin inzibati-idarəetmə və vahid kooperasiya sistemindən qalmış iri sənaye müəssisələrinin reabilitasiyası, yenidənqurulması (modernləşdirilməsi), burada müasir texnologiyaların tətbiqinin sürətləndirilməsi, bu işlər üçün xarici investisiyaların cəlbinin genişləndirilməsi məqsədilə XİZ institutundan yararlana bilmişlər və bu ölkələrin əksəriyyətində həmin kateqoriyadan olan XİZ-lər indi də uğurlu fəaliyyət göstənnəkdədirlər. Bu istiqamətlərdə mövcud problemləri və perspektivləri araşdıran panamalı tədqiqatçı Pitti Katrin inkişaf etməkdə olan ölkələrdə XİZ-dən istifadənin dünya təcrilbəsinə müraciət etmiş və bir sıra spesifik xüsusiyyətlər üzrə elmi nəticələr verə bilmişdir [133]. Araşdırmalarda əsas obyektlər kimi sənaye sektorunun inkişaf etdiyi ölkələr, inkişaf etməkdə olan ölkələr və keçid iqtisadiyyatlı ölklələr götürülmüşdür. Bu ölkələrin XİZ institutundan istifadə səviyyələri, əlbəttə, xeyli fərqlənir. Praktikada sənaye yönümlü XİZ-nin bir çox formalanndan istifadə edilmişdir. Bunlara idxaləvəzedici, ixrac-istehsal zonaları, sənaye parklan, elmi-sənaye parklan və ixrac-idxal əvəzedici zonaları, texnoparklar, texnopolislər və innovasiya mərkəzləri daxildirlər (Şəkil 2).




**Şəkil 2. Sənaye yönümlü xüsusi (azad və yaxud) iqtisadi zonalar.**

XİZ-lərdən dünya ölkələrinin iqtisadi inkişaf proseslərində daha səmərəli istifadə edilməsi məqsədilə, sənaye zonalarının yaradılması və fəaliyyəti bir qrup ölkələrin ixrac strategiyasının əsas elementlərindən biri hesab olunur və bu strategiyanın praktikada gerçəkləşdirilməsi sənaye-istehsal müəssisələri şəbəkəsinin istismara verilməsi ilə təşkil olunur. Bu kimi zonalarda ixrac təyinatlı məhsulların geniş istehsalı milli subyektlərin (ölkələrin) ixrac potensialını gücləndirir və nəticədə ölkəyə gətirilən valyuta vəsaitlərinin həcmi əhəmiyyətli dərəcədə artır. Digər tərəfdən, idxaləvəze- dici mal və məhsullann istehsalının sənaye yönümlü XİZ-də uğurlu təşkili, ölkənin zərurətdən idxal etməli olduğu mal və məhsullara sərf etdiyi valyuta vəsaitlərinin sərbəstləşməsinə imkan verir. Xövbəti bir stimul isə, sənaye yönümlü XİZ-lərin dünyanın əksər investisiya kompaniyaları üçün cəlbedici olduğundan, onların bu zonalara gəlməsi prosesləri uzun çəkmir və investisiyalann yatırılması praktikada effektiv)i nəticələrin əldə edilməsinə münbit şəraiti təmir edir. Xüsusilə Şərqi və Cənubi Asiya, həmçinin bir qrup Latın Amerika ölkələri son 40 ildə sənaye yönümlü XİZ-in müxtəlif modifıkasiyalarmdan istifadə etməklə, sənaye sahələrinin inkişafında qısa zaman kəsiyində tarixi nəticələr əldə edə bilmişlər.

Bütövlükdə sənaye sahələrinin strukturunun genişləndirilməsi, mal və məhsullann çeşidlərinin artıniması, istehsal olunan mal və məhsulların keyfiyyət standartlarının yüksək olması dünyada ticarət əməliyyatlanmn daha sürətlə geniş ərazilərə yayılmasına əlavə stimullar verir. Məhz XİZ-dən fəal istifadə hesabına inkişaf etməkdə olan ölkələrin sənaye sahələrinə sabit investisiya axınının təmin edilməsi diqqəti cəlb edir. Məsələn, inkişaf etməkdə olan ölkələrin əsas sənaye sahələrinə yatırılan xarici investisiya resursları hesabına, bu ölkələrdə sənaye sektoru sahəsinin 40 %-də xarici kapitalın iştirakını təmin etmişdir. Sinqapurda elektrotexniki məhsulların istehsalının 80-85%-i xarici kapital tərəfindən formalaşmışdır. Belə halları, Honkonq, Tayvan, Tayland, Vyetnam, Cənubi Koreya, Polşa, Macarıstan, Braziliya XİZ-nə də aid etmək olar. Qeyd etmək lazımdır ki, sənaye mal və məhsulları dünya üzrə ticarət əməliyyatlanmn 90%-nə qədərini təşkil etdiyindən, bu sahənin sabit və sürətli inkişafı əksər milli subyektlərin prioritet istiqamətlərindəndir. Sənaye sektoruna daxil olan müəssisələrin və istehsal sahələrinin XİZ-lər vasitəsilə intensiv inkişafı və bu sahəyə modern texnologiyalann sürətli tətbiqi, son məhsullann xərclərini aşağı salmağa, onlann rəqabət qabiliyyətinin gücləndirilməsinə əlavə stimullar venniş olur. Cənub-Şərqi Asiyanın inkişaf etməkdə olan ölkələrində XIZ-in ən effektivli modifikasiyalanndan XX əsrin 70-80-cı illərindən başlayaraq, sabit və məhsuldar tətbiqi nəticəsində dünya üzrə sənaye məhsulunun istehsalında bu ölkələrin payı 46-48 % səviyyəsində formalaşmışdır. Son 20 ildə Hindistanda da müasir sənaye sahələrinin yaradılmasında XİZ-in tətbiqinə xüsusi önəm verilməkdədir. Bir qrup latın Amerikası ölkələrində (Kosta-Rika, Honduras, Dominikan və s.) ixrac təyinatlı emal müəssisələrinin təşkili şəbəkəsinin genişləndirilməsi məqsədilə, 100- ə yaxın sənaye yönümlü XİZ-lər fəaliyyət göstərirlər. Çində isə bu tip XİZ-in sayı 130-a yaxındır. .Malayziyada XİZ-lər vasitəsilə ölkədə yüksək məhsuldarlığa malik sənaye müəssisələrinin sayını xeyli artırmaq mümkün olmuş və burada çalışanların sayı 220-230 min nəfər təşkil etmişdir. Avropa ölkələrində XİZ-də 6 minə yaxın, bütövlükdə Asiya ölkələrində 480 minə yaxın, Şimali və Mərkəzi

Amerika ölkələrində 9 minə yaxın, Cənubi Amerikada 8 minə yaxın sənaye yönümlü müəssisələr fəaliyyət göstərirlər. Ümumiyyətlə, müxtəlif mənbələrə əsaslansaq, görərik ki, hazırda dünyada fəaliyyət göstərən sənaye yönümlü 1300-dək XİZ-də 530-540 minə yaxın müəssisələr (istehsal sahələri) fəaliyyətdədirlər və bu müəssisələrdə 50 mln. nəfərə yaxın insan işləyir. Beynəlxalq Əmək Təşkilatı mütəxəssislərinin fikrincə, sənaye sahələrində XİZ-in təşkili əsasən tekstil, elektrik cihazlannın yığma istehsal sahələrində olarsa, texnoloji proseslərin sadəliliyi və bu sahələrin əməktutumlu olması, bu kimi XİZ-ri həm yerli hökümət, həm də xarici investorlar üçün olduqca cəlbedicidir. Bundan əlavə XİZ-lər çevik iqtisadi mexanizm kimi yaradıldığı ərazilərdə sahibkarlığın və biznesin inkişafına əlavə stimullar vennəklə, sənaye yönümlü müəssisələrin təşkilini sürətləndirir və istismannı səmərəli edir. Məsələn, ABŞ-da 265-270-ə yaxın XİZ-də 2200-ə kimi finna və kompaniyalar fəaliyyət göstərirlər və onların istehsal etdikləri məhsulun həcmi ildə orta hesabla 240-250 mlrd, dollar təşkil eidr. Çinin “Tyanjin-Teda” sərbəst iqtisadi zonasına yatırılan investisiyaların həcmi 12 mlrd, dollara kimi təşkil etmişdir. Burada fəaliyyət göstərən müəssisələrin sayı 140-a yaxın olmuş və illik məhsul ixracının həcmi 1,4-1,5 mlrd. ABŞ dolları təşkil etmişdir. Yaponiyanın elm-texnika təyinatlı və sənaye yönümlü texnopolislərində eimtutumlu mühüm sənaye məhsullanmn ən yüksək standartlar səviyyəsində istehsalına şərait yaradılmışdır. Qonşu İranda fəaliyyət göstərən “Kəşm” XİZ-nə cəlb edilmiş 1,6-1,7 mlrd. ABŞ dolları həcmində investisiya rcsurslannm 50-52 %-i sənaye sahələrinin təşkilinə yönəldilmişdir. Birləşmiş Ərəb Əmirliklərinin XİZ- nə kimya, neftkimya və avtomobil kompaniyalarının külli miqdarda investisiyaların yatınnası, istehsal, emal və komplektləşdirici sahələrin yaradılması və məhsuldar istisman təmin olunmuşdur. Latın Amerikası ölkələrində sənaye yönümlü XİZ-də illik ixracın həcmi orta hesabla 18-20 mlrd. ABŞ dollan səviyyəsindədir. Bu ölkələrin XİZ-də təxminən 2 milyona yaxın insan işləyir. Panamada “Kolon” sərbəst iqtisadi zonasında son 5-7 il ərzində xarici ticarət dövriyyəsinin illik orta həcmi təxminən 12-13 mlrd. ABŞ

dolları səviyyəsində olmuşdur. Bu zona vasitəsilə əsasən avtomobillər və metal məmulatlannm idxalı və ixracı əməliyyatları aparılmışdır. Ümumiyyətlə, dünya XİZ-dən sənaye sahələrinin məhsuldar istismar problemlərinin həllində istifadə yaxın gələcəkdə inkişaf etməkdə olan ölkələr üçün ciddi əhəmiyyət daşıyacaq və bu baxımdan bu sahədə real tətbiq problemlərinin öyrənilməsi, optimal modellərin və səmərəli mexanizmlərin işlənib hazırlanması zərurəti diqqəti cəlb edir. Məlum olduğu kimi, Azərbaycanda da bir çox rəqabət qabiliyyətli qeyri-neft sektoruna daxil olan sənaye sahələri vardır (elektro-energetika, kimya və neftkimya, neftqaz və neftkimya maşınqayınnası, metallurgiya, tekstil, qida sənaye sahələri və s.). Amma heç də sirr deyil ki, bu sahələrin əksəriyyətində hələ də modemləşdinnə və müasir texnologiyaların gətirilməsi məsələləri həll edilməmiş qalır.

Məlum olduğu kimi, bazar iqtisadiyyatı şəraitində iqtisadi inkişaf modelini təkmilləşdirmək, bu modellərə müasir dövrün texnoloji yeniliklərini, innovatik funksiyalarını özündə birləşdirən ef- fektivli iqtisadi instrumentlərin daxil edilməsi bütün dövrlərdə milli iqtisadiyyatları idarə edən hökümətlərin ciddi problemlərindən biri kimi diqqəti cəlb edir. Bu onunla bağlıdır ki, işlənib hazırlanmış iqtisadi mexanizmlərin heç də hamısı praktiki tətbiq proseslərində uğurlu nəticələrlə özünü doğrultmur və ciddi maliyyə itkilərinə səbəb olur. Digər tərəfdən, milli subyektlərin iri həcmli iqtisadi prioritetlərinin gerçəkləşdirilməsinə istiqamətlənmiş, iqtisadi mexanizmlərin tətbiqi proseslərində çoxsaylı eksperimentlərin aparılması, adaptasiya dövrünün uzadılması, milli iqtisadiyyatın inkişafı proseslərini ləngidir və praktikada bu kimi iqtisadi mexanizmlərin özünə yer almasına imkan vernıir. Bu baxımdan dövlət hər hansı bir iqtisadi mexanizmi tətbiq edərkən, onun elmi-iqti- sadi və praktiki nəticələrini əvvəlcədən mükəmməl işlə>ab hazırlamalı, proqnozlaşdınnalı, çevik və effeklivli iqtisadi instrumentləri işləyib tətbiq üçün hazır vəziyyətə gətiriməli və bütün bu kimi proseslərin idarəedilməsi mexanizminin optimal variantlan müəyyənləşdirilməlidir. Bu problemləri öyrənən rusiyalı iqtisadçı-tədqiqatçı Y.A.Kantonistova ilk növbədə Rusiya hökümətinin XİZ-lərin

inkişafı ib bağlı proseslərin dövlət tərəfindən təşkilatı-iqisadi nizamlanması mexanizminin işlənib hazırlanması və onların praktikada təşkili məslələrinə toxunmuşdur. Alimin fikrincə, dövlət tərəfindən uğurlu təşkilatı iqtisadi mexanizmin işlənib hazırlanması XIZ-lərin təşkili zamanı onların ərazisində innovatik istehsal infrastrukturunun fonnalaşmasma, rəqabət qabiliyyətli istehsal layihələrinin gerçəkləşdirilməsinə, ticarət-kommersiya əməliyyatlarının genişləndirilməsinə, zonalann fəaliyyətindən bütövlükdə məhsuldar nəticələrin əldə edilməsinə imkan verə bilər llOSfi Bu kimi XIZ-lərin əsas instrumentləri dövlət tərəfindən infrastrukturun in- kişaflna yönəldilən vəsaitlər və subsidiyalar, burada tətbiq edilən xüsusi iqtisadi rejim və sistemli fonnada tətbiq olunan vergi və gömrük güzəştləridir. Bu kompleks instrumentlərin qarşılıqlı fəaliyyət elementləri zonalarda istehsal və kommersiya fəaliyyətlərinin sürətli inkişfma yeni güclü stimullar verməklə yanaşı, regionun iqtisadi inkişafına, sosial-iqtisadi problemlərinin həllinə, ictimaiyyətin və sahibkarlıq subyektlərinin fəallığına, bütövlükdə investisiya və biznes mühitinin yaxşılaşmasına imkan verir. Bununla belə, dövlətin XİZ-ləri yaradarkən ən mühüm funksiyalanndan biri, bu kimi zonalann yerləşməsi məkanının və onun əsas fəaliyyət prinsiplərinin dərindən öyrənilməsini və prioritet istiqamətlərinin maksimum dərəcədə proqnozlaşdırılan müəyyənləşdirilməsini, həmçinin kompleks fonnada onlardan səmərəli istifadə olunmasını təmin etməkdən ibarətdir. Bu amillər sırasına nəqliy>'at coğrafi baxımından əlverişli ərazinin seçilməsi, istehsal potensialının nəzərə alınması, əmək ehtiyatlarının dərindən öyrənilməsi, regionun iqtisadiyyatının inkişafına təsir edən ciddi problemlərin həll edilməsi imkanlarının araşdırılması, bu problemlərin sistemləşdirilməsi və zonalann tətbiqi proseslərində onlann həllinə kompleks baxılma mexanizminin işlənib hazırlanması, region iqtisadiyyatının şaxələndirilməsi, prioritret istiqamətlərin modernləşdirilməsi, regionun inteqrasiya elementləri ilə uzlaşmasının araşdırılması və rəqabət qabiliyyətli ixrac təyinatlı istehsal sahələrinin yaradılması, mal və məhsullann ixracının sabit təşkili və sairlər aiddir. XİZ-lə- rin yaradılması dövlət üçün açıq iqtisadiyyat siyasəti prinsipi baxı

mindan mühüm bir dövlət iqtisadi instrumenti kimi də baxıla bilər. Belə ki, bu yolla dövlət müəyyən ərazinin və regionun dünya iqtisadi təsərrüfat sisteminə birbaşa inteqrasiyasına şərait yaratmaqla, bu zonalara investorlann fəal gəlməsi və iri kapitalın axınının sti- mullaşdırılması proseslərinə geniş yol açmaqla, region iqtisadiyyatının əhəmiyyətli dərəcədə artımına və makroiqtisadi göstəricilərin yüksəlməsinə imkan yaradır. XİZ-lərin yaradılması və fəaliyyətində dövlətin əsas fünksiyalanna, eyni zamanda bu kimi XİZ- lərin mükəmməl qanunvericilik bazalannm işlənməsi, müasir in- frastruktunan qurulması, zonanın güzəştlər sisteminin optimal va- riantinin baxılması və qəbul edilməsi də daxildir. Digər tərəfdən, hər hansı bir XİZ-in yaradılması külli miqdarda dövlət vəsaitlərinin aynlmasım tələb edir. Məsələn, Çində XİZ-lərin yaradılması üçün ərazilərin hər kv.km-nə xərclənən vəsaitlərin orta məbləği - 70-72 mln. ABŞ dollan təşkil edir. Asiya - Sakit Okean hövzəsi boyu olan regionlarda bu xərclər 28-31 mln. ABŞ dollan təşkil edir. Göründüyü kimi, XİZ-lərin yaradılması üçün ilkin vəsaitlərin ayrılması dövlətin icra edici orqanlarında və rəhbərliyində siyasi iradə ilə yanaşı, həmçinin fundamental işlənmiş elmi-iqtisadi araşdınnalar və qərarlann qəbul edilməsini tələb edir. Şübhəsiz, bu proseslərin təşkili dövlətin ən mühüm strateji vəzifələrindən biri kimi baxıla bilər. Digər tərəfdən, ölkədə sabit siyasi vəziyyətin və iqtisadi siyasətin mövcudluğu XİZ kimi mütərəqqi iqtisadi fəaliyyət zonalarında xarici investorlann risklərdən mümkün qədər daha çox qorunmasını zəruri edir. Yuxanda göstərilən regionlarda vaxtilə XIZ institutunun uğurlu nəticələrini dərindən araşdıran və bazar iqtisadiyyatı prinsipləri əsasında müasir iqtisadi inkişaf kursu müəyyənləşdirən Vyetnam hökuməti bu institutu ölkədə tətbiq edərkən, dövlət rıçaqlanndan maksimum səmərəli istifadə edilməsi və bu kimi XİZ-lərin praktiki proseslərinin balanslaşdırılmış iqtisadi mexanizmlərlə müşaiyət olunması elə XİZ-in tətbiq edildiyi ilk dövrlərdə yüksək nəticələr əldə etməyə imkan vemıişdir. Məsələn, 1996-2000-ci illər ərzində XİZ-lər vasitəsi ilə istehsal olunan sənaye məhsulunun həcmi ölkə üzrə göstəricidə 10 %-dən 25 %-dək, öl

kənin ixracında 6 %-dən 16 %-dək artım qeydə alınmışdır. Əgər XİZ-lərdə 1996-cı ildə 635 mln. ABŞ dollan səviyyəsində ümumi daxili məhsul istehsal olunmuşsa, bu rəqəm artıq 2000-ci ildə 3 550 mln. dollar, ixrac həmin dövr üzrə - 400 mln. dollardan 2 170 mln. dollar və, nəhayət, XİZ-lərdə çalışan işçilərin sayı 60 min nəfərə qarşı 184 min nəfər təşkil etmişdir. Digər maraq doğuran bir misal Polşa ilə bağlıdır. Məlumdur ki, bu ölkədə sosializm quruculuğu sistemi hələ 1980-ci illərin ortalarında laxlamağa başlamış və nəhayət, bu ölkədə 1980-ci illərin axırlarından başlayaraq fərqli iqtisadi proseslərin inkişafına rəvac verilmişdir. 1990-cı illərin əvvəlində isə ölkənin dövlət quruluşu strukturu yenidən fornıa-laşdıqdan sonra. Polşa sürətlə bazar iqtisadiyyatı prinsiplərini həyata keçirməyə başladı. Amma bu ölkədə sosializm inzibati-ami- ranəlik sisteminin əsas məhsulları olan iri dövlət müəssisələrinin, fabrik və zavodların, infrastruktur obyektlərinin potensialından səmərəli istifadə edilməsi, onlann yenidən qurulması və yaxud profillərinin dəyişdirilməsi, iqtisadiyyat strukturlarının modernləşdirilməsi və bütövlükdə milli iqtisadiyyatın region və dünya iqtisadiyyatına, ilk növbədə Avropa Birliyi ölkələrinin iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi proseslərini həyata keçinuək üçün çoxlu sayda yeni dövlət instrumentləri işləyib hazırlamalı oldu. Bu alətlərin içərisində həmin proseslərdə ən uğurlu praktiki tətbiq dövrünü yaşayan iqtisadi mexanizmlərdən biri də XİZ-lər olmuşdur. Polşa XİZ-lərinin effektivliyi və uğurlan barəsində dünya iqtisadi ədəbiyyatında uzun illərdir davamlı mənbələrə rast gəlinir. Biz də vaxtaşın bu ölkənin XİZ təcrübəsinin müxtəlif elementlərinə müraciət etmişik. Buna görə bu ölkənin XİZ-lərinin 1990-cı illərdə effektivli fəaliyyətinin göstəricisi kimi yalnız bir qrup misallarla kifayətlənmək istərdik. 1995-1997-ci illərdə ölkədə yaradılmış 17 XİZ-in əhatə etdiyi ərazi 6482 hektar təşkil etmişdir və bu zonalarda 90 mindən çox insan işlə təmin olunmuşdur. 10 il ərzində vergilərdən azad edilmiş bu XİZ-lərə dünyanın müxtəlif ölkələrindən investorlann qısa müddətdə fəal gəlməsi və iri kapital yatırması, həmin dövrdə Polşada bazar iqtisadiyyatı islahatlannın sürətli təşkilinə, ölkənin iqtisadi rəqabət qabiliyyətinin əhəmiyyət

li fomıada güclənməsinə, keçmiş sosialist ölkələri içərisində daha güclü iqtisadi inkişaf modeli fonnalaşmasma, regionda ölkənin iqtisadi gücünün sürətlə artmasına və, nəhayət, bu ölkənin keçmiş sosialist ölkələri arasında birincilər sırasında Avropa İttifaqına qəbul edilməsinə imkan vemıişdir. Hətta Polşa öz milli iqtisadi maraqları çərçivəsində bir qrup keçmiş SSRİ-ölkələrinə (Baltikyanı ölkələr, Ukrayna və sair) siyasi və iqtisadi islahatlann təşkilində, bu ölkələrin dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsinə mühüm qonşuluq və strateji paıtnyor rolunu oynaya bilmişdir və bu gündə həmin proseslər daha da güclənməkdədir. Biz çox hallarda təəssüf hissi ilə qeyd etmişdik ki, Azərbaycan üçün siyasi və iqtisadi islahatların təşkili baxımından praktiki inkişaf mərhələləri və təcrübəsi mühüm əhəmiyyət kəsb edən MDB ölkələrində XİZ-lərin yaradılması və praktiki tətbiqi proseslərində dövlət instrumentlərinin qeyri-sabitliyi və mükəmməl işlənib hazırlanmaması bu kimi XİZ-lərdən daha effcktivli yararlanmağa və uğurlu nəticələr əldə etməyə imkan vennəmişdir. Məhz Polşa ilə eyni sərhəddə yerləşən və regional inkişaf baxımından xeyli oxşarlıq təşkil edən Ukraynada həmin dövrlərdə XİZ-lərdən effektiv- li dövlət instrumenti kimi istifadə edilməsi istiqamətində xeyli işlər aparılmışdır. Tarixi obyektivlik naminə qeyd etmək lazımdır ki, 1994-1996-ci illərdə bu ölkədə XİZ institutunun yaradılması üçün dövlət zəruri instrumentləri müəyyənləşdirə bilmiş və onların praktiki tətbiqinə başlamışdır. Bu ölkənin müxtəlif regionlannda prioritet ərazilərin inkişafı üçün qısa müddət ərzində XİZ institutundan istifadə mexanizmi xarici investorlann ciddi maraqına səbəb olmuş və ilk dövrlərdə bu kimi zonalarda müsbət nəticələr əldə edilmişdir. Lakin təəssüf ki, Ukrayna hökümətinin valyuta nizamlanması və vergi rejimi üzrə iqtisadi siyasətinin qeyri-sabitliyi və v'axtmdan xeyli əvvəl bu güzəştlər sisteminə yersiz müdaxilənin nəticəsində XIZ institutunun effektivliyi real iqtisadi proseslərdə zəifləməyə başladı və bu kimi zonalar ölkənin iqtisadi sistemində mühüm iqtisadi dövlət instrumentinə çevrilə bilmədi. Qeyri-sabit dövlət iqtisadi siyasətini təkmilləşdirmək cəhdləri hələ də bu ölkədə XİZ-lərin fəaliyyətinə xarici investorların onların yaran

dığı ilk dövrlərdəki cəlbediçilik inamını geri qaytara bilməmişdir. Müxtəlif ölkələrdə XİZ-lərin tətbiqi proselərini və inkişaf mərhələrlərini araşdırarkən, bu amillərin yaxın gələcəkdə Azərbaycanda tətbiqi gözlənilən bu kimi zonaların yaradılması və fəaliyyəti prinsiplərində dövlətin iqtisadi inkişaf instrumentlərinin daha dərindən öyrənilməklə, onların işlək mexanizminin müəyyənləşdirilməsi problemləri aktuallığı ilə diqqəti cəlb edir. Əlbəttə, bir tərəfdən artıq dünya təcrübəsində mövcud praktiki problemlərin və onların aradan qaldırılması üzrə təcrübə proseslərinin olması bu situasiyaları öyrənməklə, müəyyən optimal nəticələr əldə etməyə imkan verə bilər. Amma bu o demək deyildir ki, əldə edilmiş nəticələrin avtomatik və mexaniki tətbiqi mütləq uğurlu nəticələrin əsasını qoyacaqdır. Fikrimizcə, XİZ-lərin yaradılması və tətbiqi ilə bağlı dövlət instrumentlərinin və nizamlama nçaqlarınm işlənib hazırlanması zamanı, onlan optimal modelləri seçilərkən dünya təcrübəsi və praktiki proseslərlə yanaşı, hər bir ölkənin (milli subyektin) spesifik inkişaf prioritetləri, regional inkişaf istiqamətləri, coğrafi mövqeyi, təbii ehtiyatlan, insan resursları, bu kimi zonalardan milli iqtisadiyyatın inkişafına səmərəli təsir göstərilməsi məsələləri və nəhayət, komlpeks fonnada milli maraqları nəzərə alınmalıdır.

Professor R.İ.Zimenkov ümumiyyətlə XİZ-lərlə bağlı tədqiqatlarında onlardan səmərəli və effektivli istifadə etmək prioritetlərində ixrac-istehsal təyinatlı zonalann fəaliyyətinə və onların praktiki əhəmiyyətinə böyük üstünlük vermişdir. R.İ.Zimenkov Latın Amerika və Karib dənizi hövzəsi ölkələrində fəaliyyət göstərən istehsal-ixrac zonalarının bu regionda XİZ modifikasiyaları içərisində ən geniş yayılan fonnasımn olduğunu qeyd etmişdir [s. 123, 99]. Bu regionda göstərilən təyinatlı XİZ-lər praktiki proseslərdə iki istiqamətdə - dəqiq zonalar və ənənəvi ixrac-istehsal zonaları kimi fəaliyyət prosesləri ilə xarakterizə olunurlar. Şübhəsiz, regionda ən iri ixrac-istehsal təyinatlı zonalar Meksika ilə bağlıdır və bu ölkədə fəaliyyət göstərən “Makilodoras”lar barədə müxtəlif iqtisadi ədəbiyyatlarda dəfələrlə nümunələr verilib və bizim araş- dırmalarda da bu zonalar barədə məlumatlar yer almışdır. Təkcə

bir faktı qeyd etmək bəs edər ki, “Makilodoras”ların Meksikanın və regionun iqtisadi proseslərində tutduğu mövqeyi xarakterizə etmək mümkün olsun. Məsələn, əsasən ABŞ-dan cəlb edilən investisiyalann hesabina fomıalaşan və fəaliyyət gösətəm 110-a yaxın ixrac-istehsal zonalarında 900 minə yaxın insanın işlə təminatı həll edilmişdir. Dominikan respublikasında fəaliyyət göstərən və əsasən geyim, parça və elektron məmulatlar üzrə ixtisaslaşan 50-ə yaxın ixrac-istehsal zonalannda 180 minə yaxın insan işlə təmin olunmuşdur. Hondurasda ABŞ investorlarının kapitalı hesabına fəaliyyət göstərən 15 belə zonalarda geyim məhsullan istehsal edilir və 100 minə yaxın insan işləyir. Braziliyada kompleks flınksiyala- n özündə birləşdirən 1 ixrac-istehsal zonasında 310 min nəfər çalışır. Salvadorda ABŞ-dan cəlb edilən investisiya hesabına 6 belə zonanın fəaliyyəti təşkil edilmiş və 60 min nəfər üçün işləmək şəraiti yaradılmışdır və sair. Bu misalları artırmaq da olardı. Biz hansı səbəbdən ayrı-ayn ölkələrdən belə misalları gətirməyə üstünlük veririk? Məsələ burasındadır ki, bu ölkələrin heç də hamısı güclü maliyyə imkanlanna və təbii resurslara malik deyillər. Amma bir sıra ənənəvi istehsal sahələrinin ixrac potensialı hesabına (tekstil, elektron və s.) davamlı və sabit iqtisadi fəaliyyət mühiti yaratmaqla, əlavə dəyər əldə etməklə milli iqtisadiyyatın inkişafına, sosial-iqtisadi problemlərin həllinə, xüsusilə davamlı və ləyaqətli iş yerlərinin yaradılmasına nail olunmuşdur. Biz bu baxımdan bir sıra Afrika ölkələrinin təcrübəsinə də baxmağı lazım bildik. Məsələ burasındadır ki. Afrikanın Şimal ölkələri artıq dünya inteqrasiya proseslərində və demokratik iqtisadi inkişaf prioritetlərində xeyli fəaldırlar. Digər tərəfdən. Afrikanın başqa ölkələri də son 10-20 il ərzində iqtisadi inkişaf prioritetlərində unitar və monopolist baxışlardan daha açıq iqtisadiyyat tendensiyalanna və formalarına üstünlük verməkdədirlər. Eyni zamanda regiona güclü maliyyə resurslanna malik ölkələrin marağının artması faktını da nəzərdən qaçırmaq olmaz (ABŞ, Qərbi Avropa ölkələri, Çin, Türkiyə və s.). R.İ.Zimenkov inkişaf etmiş ölkələrin Afrika qitəsində olan dövlətlərə marağını son 10 illiklərdə bu ölkələrin bəzilərində iqtisadi inkişafın artım tempinin müşahidə edilməsində görür

(s.136, 99J. Qeyd etmək lazımdır ki, Afrika ölkələrinin əksəriyyəti üçün maliyyə resurslan məhdudluğu xarakterikdir. Bundan əlavə, bu ölkələrdə infrastruktur şəbəkəsi olduqca zəifdir və əksər ölkələrdə iqtisadi-siyasi sabitlik yoxdur, bir çox ölkələrdə isə millətlər və tayfalararası konfliktlər, korrupsioner dövlət rejimləri mövcuddur. Maraqlı budur ki, belə qeyri-sabit və subyektiv amillərlə zəngin olan Afrika qitəsində ayrı-ayrı ölkələrin valyuta ehtiyatlarının artınimasmda, iqtisadi fəallığının güclənməsində, sahibkarlıq subyektlərinin və xarici investorların stimullaşdırılmasmda XIZ-lərin praktiki tətbiqinə ümüdlə yanaşırlar və son dövrlərdə belə zonala- nn yardılması, fəaliyyəti prosesləri intensivləşmişdir. Təkcə istehsal-ixrac təyinatlı istiqamətdə bu qitədə 60-a yaxın XİZ fəaliyyət göstərir və burada işlə təmin edilənlərin sayı 230 min nəfərdən çoxdur. Geyim və dəri məmulatları istehsalı üzrə ixtisaslaşan 11 Misir ixrac-istehsal zonasında 70 minə yaxın, tekstil məmulatlan üzrə ixtisaslaşan 2 Tunis zonasında 30 min nəfərdən çox və geyim üzrə ixtisaslaşan Mavrikiy adasındakı XİZ-də 82-84 min nəfər insan işlə təmin edilmişdir. Bu XİZ-lərin əsas investorlan sırasında ABŞ, Almaniya, Fransa və Honkonq yer almışdır.

Milli iqtisadiyyatın fonnalaşması və fəaliyyət prinsipləri ayn-ayrı ölkələrin iqtisadi inkişaf modellərinin təkmilləşdirilməsində və zənginləşdirilməsində mühüm əhəmiyyət kəsb edir. Şübhəsiz, bu baxımdan milli iqtisadi prioritetlərin daha dərindən öyrənilməsi, bu istiqamətdə praktiki proseslərin spesifik xüsusiyyətlərinə diqqət yetirilməsi və, nəhayət, işlək iqtisadi mexanizmlərin ölkənin iqtisadi sisteminə daxil edilməsinin optimal variantlannın müəyyənləşdirilməsi müasir dövrdə milli subyektlər qarşısında strateji vəzifələr sırasındadır. Bu problemləri öyrənən bir qrup rusiyalı alimlərin fikirləri maraq doğurur. Məsələn, professor A.B.Tarxa- nov hesab edir ki, milli iqtisadiyyatın siyasi əhəmiyyəti və iqtisadi gücü ilk növbədə xarici fəaliyyətlə bağlı təsərrüfat sahələrinin formalaşması ilə bilavasitə bağlıdır. Yəni ölkədə sahibkarlığ fəaliyyətinin güclü inkişafı, milli subyektlərin müxtəlif ərazilərində iqtisadiyyat sahələrində təsərrüfat fomıalarınm təşkilati-hüquq prinsiplərinin formalaşması milli iqtisadiyyatın səviyyəsinə dəlalət edir.

[s.l8, 125). Bundan əlavə, bu proseslərdə yerli investorların cəlb edilməsində və xarici kapitalı gətinnəkdə marağı olan iri xarici investorlann hər hansı bir milli subyektin regiona gəlməsi bu regionda olan potensial və imkanlarla heç də birbaşa bağlı olmur. Burada əsasən investisiya mühitinin investorlann marağına cavab vemıəsi, aydın və qəbul edilmiş qaydalarla inkişaf edən və idarə olunan biznes mühitinin fonnalaşması, investisiya risklərinin minimum olması və sair bu kimi mühüm amillər xüsusi əhəmiyyət kəsb edirlər, istər-istəməz bu amillərin və mühitin tamamilə XİZ- lərdə olan iqtisadi fəaliyyət mühiti ilə üst-üstə düşdüyünü vurğula- maq lazım gəlir.

Qeyd etmək lazımdır ki, XİZ-lərin praktiki fəaliyyət proseslərində onlardan səmərəli istifadə edilməsi prioritetlərində xarici iqtisadi əlaqələr və xarici ticarətlə bağlı iqtisadi fəaliyyət sahələri önəmli yer tutmuşdur. Bu baxımdan XİZ-lərin təşkili zamanı xarici ticarətin fəaliyyət istiqamətlərinin çoxsaylı elementlərinin praktiki iqtisadi sahələrdə effektivli təşkil edilməsi və xarici ticarət əməliyytlannın intensivliyini artırmaqla, bu zonaların ərazisində olan xarici ticarət fəaliyyətindən daha yüksək gəliriin götürülməsi və ixrac potensialının gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu problemləri araşdıran rusiyalı alim Y.N.Qraçev qeyd edir ki, ticarətin sərbəstliyi o vaxt dünya ölkələri üçün cəlbedici olur ki, o halda ticarət tərəqqiyə şərait yarada bilir [97]. Daha sonra ticarətin sərbəstləşdirilməsi elementlərinin XİZ-lər vasitəsi ilə əhəmiyyətini qeyd edən müəllifin fikrincə, bu zonalar dövlətin suveren ərazisi olmaqla, ümumilli inteqrasiya və korporativ məqsədlərin əldə edilməsi üçün ictimai məhsulun istehsalı və bölünməsini təmin edən və bu halda xüsusi ictimai-iqtisadi istehsal münasibətlərini nizamlayan mexanizmlərdən istifadə edirlər. Qeyd etmək lazımdır ki, xarici ticarət təyinatlı zonalara, əsasən sərbəst ticarət zonaları, sərbəst gömrük zonaları və limanlar, ixrac-istehsal zonalan və tranzit zonalar daxildirlər. Bu zonaların tətbiqi proseslərinin sadəliyi və asanlığı onunla izah edilir ki, belə XİZ-lərin yaradılmasına iri məbləğdə investisiya resursları və uzun müddət lazım gəlmir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə milli iqtisadiyyatların

davamlı inkişafı və onlann rəqabətqabiliyyətinin gücləndirilməsi ilk növbədə ölkənin iqtisadi gücünün daim artmasını şərtləndirir. Bu mühüm strateji vəzifələrin real iqtisadi proseslərdə gerçəkləşdirilməsi üçün müxtəlif iqtisadi instrumentlərdən, o cümlədən XİZ-lərdən də səmərəli istifadə milli subyektlərin iqtisadi siyasətlərində xeyli yer almışdır. Bazar iqtisadiyyatı şəraitində iqtisadi islahatların dərinləşməsi və çoxlu sayda müxtəlif iqtisadiyyat sektorlarını əhatə etməsi iqtisadi artım üçün zəmin yaratmaqla, eyni zamanda bu sahələrin effektivli idarəedilməsini şərtləndirir. Ümumiyyətlə, iqtisadi artımın idarəedilməsi mürəkkəb iqtisadi və idarəetmə proseslərinin toplusu kimi də baxıla bilər. Bu proseslərdə modifikasiyalar əksər hallarda dövlətin prioritet iqtisadi-siyasət parametrləri nəzərə alınmaqla, bununla bərabər dünya təcrübəsində toplanmış praktiki nümunələrə və modellərə də əsaslana bilər. İqtisadi inkişafın və iqtisadi artımın idarəedilməsinin optimallaş- dınlması ilk növbədə buraya daxil olan iqtisadi mexanizmlərin təkmilləşdirilməsini və onların sırasına yeni, məhsuldar, milli subyektlərin iqtisadi prioritetlərinin fərqli inkişafına əlavə stimullar verə biləcək iqtisadi təsərrüfat mexanizminin və bunlann idarəedilməsini mümkünləşdirən optimal idarəetmə modellərinin işlənib hazırlanmasını və praktikada tətbiqini zəruri edir. Bu problemləri öyrənən rusiyalı alim-tədqiqatçı Z.N. Bosçayeva müasir iqtisadi proseslərdə iqtisadiyyatın daha effektivli idarəedilməsi məqsədilə istehsal və təsərrüfat amillərinin təsirlərini, bazar iqtisadiyyatı şəraitində qanunvericilik bazasının spesifik xüsusiyyətlərini, vergi və büdcə siyasətinin iqtisadi artım tempinin ləngiməsinə mane ola biləcək faktorlann proqnozlaşdırılmasını və nəhayət, yeni iqtisadi şəraitdə istehsalın təşkili və iqtisadiyyatın artımı ilə bağlı münasibətlərin idarəedilməsinin effektivli variantlarının modelləşdirilməsi problemlərini qeyd etmişdir (88]. Burada maraqlı bir müqayisə bizim diqqətimizi cəlb etmişdir. Müəllifin fikrincə, iqtisadi artım problemlərinə hər bir ölkənin milli gəlir səviyyəsi, büdcə siyasəti, iqtisadi inkişaf prioritetləri baxımından yanaşmaq daha məqsədəuyğundur. Məsələn, əgər Rusiyada iqtisadiyyatın ən aktual problemləri sırasına və prioritetlərinə ölkə büdcəsinə cəlb

edilən milli gəlirin artınlması və, digər tərəfdən, ölkə iqtisadiyyatının bütün sahələrində istehsal yığımlarının artımının təmin edil- məsidirsə, ABŞ-da aktual problem kimi milli istehsal sahələrində ümumi məhsul yığımının artması problemləri, ikinci bir problem isə Federal Büdcənin gəlir hissəsinin birbaşa daxil olmalar hesabına fonnalaşmasıdır. Nəticədə uzun bir dövr ərzində bu ölkələrdə milli iqtisadiyyatlann idarəedilməsində konkret olaraq, iqtisadi artımın idarəedilməsində qeyri-mükəmməllik ABŞ kimi güclü iqtisadiyyata malik ölkənin çox böyük miqdarda dövlət borcunun yaranmasına səbəb olmuş, Rusiyada isə dövlət büdcəsinin gəlir hissəsinin təmin edilməsi məqsədilə qijanətli xammal məhsullarının ölkədən emal olunmadan çıxarılması baş vermişdir. Qeyd etmək lazımdır ki, bu vəziyyət hər iki ölkə üçün müasir dövrdə də xarakterikdir. Fikrimizcə, iqtisadi artım və iqtisadiyyat sektorlannm ba- lanslaşdınlmış fəaliyyəti proseslərində fərqli iqtisadi mexanizmlə- rin, idarəetmə funksiyalarının, vergi bazalarının diversifıkasiyası- nın təşkili və milli gəlirin bölüşdürülməsi, büdcə siyasətinin formalaşması, regional və federal vergilərin və maliyyə resuslarının toplanması mexanizminin təkmilləşdirilməsi amilləri daha fərqli iqtisadi, maliyyə-təsərrüfat fəaliyyətinin praktiki tətbiqinə zərurətin olduğunu göstərir. Yaxın perspektivdə bu istiqamətlərdə XİZ elementli yeni təsir imkanlanna malik idarəetmə modellərinin formalaşacağı və real iqtisadi proseslərə, o cümlədən, iqtisadi artımın və iqtisadi inkişafın idarəedilməsi metodlanna ciddi təsir göstərəcəyi, milli iqtisadiyyatlann davamlı və sabit inkişafında əhəmiyyətli rol oynacağı gözlənilir. XİZ-lər bir çox əlverişli iqtisadi mühit şərtlərini bir yerə toplayaraq, çevik, mobil və əslində avtonom iqtisadiyyat məkanı fomıasında regionun və milli subyektlərin iqtisadi siyasətinin reallaşdınimasında məhsuldar bir mexanizm kimi diqqəti cəlb edir. Bundan əlavə belə zonalar təkcə iqtisadi inkişafa səmərəli təsir etməklə məhdudlaşmır, burada insanların sos- ail-iqtisadi problemlərinin həlli və belə zonalann yerləşdiyi ərazilərin inkişafının sürətləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edirlər.

## 2.2. XİZ-dən effcktivli istifadə edilməsində dünva təcrübəsi

XİZ-lərin tətbiqi problemləri üzrə əsas araşdınnalarda biz dünya təcrübəsi ilə bağlı xeyli nümunələrə, tədqiqat işlərinə və elmi nəticələrə isnad etsək də, bu məsələnin əsas mahiyyətinə və fəlsəfəsinə bir daha münasibətimizi bildinnəyi məqsədəuyğun hesab edirik. Belə ki, əgər son 50-70 ilin XİZ-lərlə bağlı dünya təcrübəsinin təhlilinə nəzər salsaq, bu gün Azərbaycanın iqtisadi inkişaf prioritetləri ilə uzlaşa bilən XİZ modellərinin seçilməsində əsas prioritetlərin müəyyənləşdirilməsi o qədər də asan olmayacaq. Bu onunla bağlıdır ki, bu vaxta kimi Azərbaycanda hələlik XİZ praktikası və təcrübəsi fonnalaşmayıb. Bəlkə elə ona görə də, ölkəmizdə XİZ-lərin praktiki modellərini müəyyənləşdirərkən, biz eyni zamanda XİZ-lərin Azərbaycanın iqtisadi sistemində yer tuta bilməsi prioritetlərini və bu sahədə vahid milli konsepsiyaya dair mülahizələrimizə də yer ayınnahyıq. Şübhəsiz, birbaşa dünyanın ən inkişaf etmiş və güclü iqtisadiyyata malik ölkəsi olan ABŞ-ın XİZ təcrübəsinə də isnad etmək olar. Burada nəzəri baxımdan problem görünmür. Amma məsələ burasındadır ki, ABŞ-da fəaliyyət göstərən yüksək elm və innovasiyalar tutumlu texniki tətbiq xarakterli texnoparkların və elmi-innovasiya zonalanmn analoqunun ölduğu kimi Azərbaycanda təşkili və fəaliyyəti yəqin ki, o qədər asan başa gəlməyə bilər. Və yaxud Yaponiyada texniki ixtiraların və kəşflərin işlənməsi, hazırlanması və istehsalat-tətbiqi tsik- lini özündə birləşdirən XİZ-lərin-texnopolislərin Azərbaycanda da praktiki gerçəkləşdirilməsi prosesləri də eyni aqibətlə üzləşə bilər. Fikrimizcə, Almaniya, Böyük Britaniya və Fransadakı elmi-texniki təyinatlı XİZ-lərin də ölkəmizdə eyni uğurlarla tətbiqi perspektivləri hələlik azdır. Bütün bu amillər nəzərə alınmaqla biz dünyanın inkişaf etmiş ölkələrinin XİZ təcrübələrini araşdırsaq da, Azərbaycanın iqtisadi inkişaf maraqlarına cavab verən XİZ konsepsiyasının formalaşdınimasmda əsas üstünlüyü Asiya ölkələrinin XİZ təcrübəsinə venrıişik və bu baxımdan bizim təqdim olunan tədqiqat işində bu ölkələrdə XİZ-lərin praktiki keçdiyi

mərhələləri və prosesləri, onlann öz ölkələrinin iqtisadi inkişafının sürətləndirilməsinə göstərdikləri təsirləri, XİZ-lərin fəaliyyəti proseslərində əldə edilən əsas nəticələri, bu kimi zonaların spesifik xüsusiyyətləri və mühüm aspektləri, belə zonaların yerləşdikləri ərazilərin, regionlann və, bütövlükdə, ölkə iqtisadiyyatına verdikləri önəmli töhfələri, sosial-iqtisadi problemlərin həllində XİZ- lərin rolu və sairlər barədə nümunələrin, təhlillərin verilməsinə daha çox yer ayınmşıq. Şübhəsiz, bu təhlillərdə Çinin XİZ təcrübəsi daha çox önəm daşıyır. Bunlarla belə, MDB dövlətlərində XİZ-lərin fonnalaşması və tətbiqi prosesləri də nəzərdən qaçmayıb. Azərbaycanda XİZ-lərin tətbiqi ilə bağlı bir çox opponentlər bu fikirdədirlər ki, ölkəmizdə XİZ-lərin reallaşdırılması üçün modellər seçilərkən, MDB ölkələrinin təcrübələrinə üstünlük verilməməlidir, çünki bu ölkələrdə XİZ-lər iqtisadi sistemlərə uğurlu inteqrasiya edə bilməyib. Amma, bu ölkələrin XİZ-lərlə bağlı pozitiv təcrübələrinin azlığına baxmayaraq, heç olması neqativ halla- nn yaranma səbəblərinin öyrənilməsi faydalı olardı.

Dünya iqtisadiyyatında rəqabət qabiliyyəti ilə seçilən Asiyanın sənaye ölkələrində XİZ-lərin uğurlu təşkili praktiki baxımdan daha cəlbediciliyi ilə seçilir. Məsələn, Çin, Koreya Respublikası, Sinqapur, Tayvan, Malayziya, Filippin və sair bu kimi ölkələrdə XİZ-lər onlarla rəqabətqabiliyyətli sənaye sahələrinin geniş istehsal şəbəkələrinin yaradılmasına imkan vemıiş və bu tipli müəssisələrdə, istehsal zonalannda yüksək standartlara cavab verən yüzlərlə ixrac təyinatlı məhsulların istehsalı reallaşdırılmışdır. Çində XİZ-lərin sabit fəaliyyəti və daha da inkişaf etdirilməsi məqsədilə 100-ə qədər müxtəlif nonnativ-hüquqi aktlar və sənədlər qəbul edilmişdir. Xüsusilə, bu ölkədə XİZ-lər yaradarkən, torpağın icarəsinə görə əsaslı güzəştlər müəyyənləşdirilir. Eyni situasiya Asiyanın digər ölkələri üçün də əsasən xarakterikdir. Çin XİZ-ləri ölkə iqtisadiyyatına ən azından 10 %-dən çox artmasına imkan vermişdir və bu ölkəyə yatırılan xarici investisiyalarda belə zonaların payı 1990-cı illərin ortalarında artıq 40-42 % səviyyəsinə çatmışdır. Digər tərəfdən, Çin XİZ-lərinin effektivli fəaliyyəti makroiqtisadi səviyyədə bu kimi XİZ-lərin bir-birinin inkişafına qarşılıqlı

əlavə stimullar vemıəsidir. Belə ki, tcxniki-tətbiq zonalarında yüksək innovasiyalı və rəqabətqabiliyyətli məhsulların istehsalına çalışırsa, sərbəst limanlar və sərbəst ticarət zonaları isə bu malların dünya bazarlarında əlverişli ixracını təmin edir. Cənubi Koreyada fəaliyyət göstərən XİZ-lərin əsas prioritet sahələrinə rəqabətqabiliyyətli sənaye-istehsal sahələrinin yaradılması və ixracın stimul- laşdırılmasıdır. Bu ölkənin təkcə sərbəst ticarət zonalarında 4 minə yaxın müəssisə fəaliyyət göstərir. Sənaye kompleksli XİZ-lərin sayı isə 40-a yaxındır və bu təyinatlı iqtisadi zonalarda 10 mindən çox yerli və xarici fınnalar fəaliyyət göstərir. Professor R.İ Zimen- kov Asiyada XİZ-lərdən uğurlu istifadədən qeydlər apararkən, bu regionda 180-dan çox ixrac-istehsal zonalarının fəaliyyət göstərdiyi və bu zonalarda 3 mln-dan çox insanın işlədiyini bildimıişdir [s. 108, 99j. Bu təyinatlı zonaların region ölkələrinin iqtisadiyyatında rolu onunla əlamətdardır ki, təkcə Cənubi Koreya, Malayziya, Sinqapur, Tayvan və Honkonq ixrac-istehsal təyinatlı XİZ-lərində istehsal edilən ixracın həcmi dünyanın bütün inkişaf etməkdə olan ölkələrinin ümumi ixracının 60 %-dən çoxunu təşkil edir. Honk- qonq özü sərbəst liman XİZ modeli kimi elektron məhsullann istehsalı üzrə ixtisaslaşmış \^ə əsas investorlar ABŞ, Böyük Britaniya və Çindir. Malayziya 15 ixrac-istehsal təyinatlı XİZ-lərdə əsasən Yaponiya, Sinqapur, ABŞ və Böyük Britaniyadan yatınlan investisiyaların hesabına elektron məhsulların geniş şəbəkəsini qura bilmişdir. Sinqapurda 25 və İndoneziyada isə 26 belə təyinatlı zonalarda həmin ölkələrin ixrac potensiallarının əksər hissəsi cəmlənmişdir. Filippində 60-a yaxın ixrac-istehsal təyinatlı XİZ-lərdə 700 mindən çox insan işləyir və burada ABŞ və Yaponiyadan cəlb edilən iri investisiyaların hesabına elektik avadanlıqları istehsalının geniş şəbəkəsi yaradılmışdır. Azərbaycan üçün daha çox ticarət iqtisadi əməkdaşlıq baxımından əhəmiyyət kəsb edən Türkiyədə 15-ə yaxın ixrac-istehsal zonasının fəaliyyət göstəmıəsi və bu zonalarda əsasən tikişçilik sənayesinin məhsul növləri üzrə ixrac məhsullanmn (tekstil məmulatlannın) istehsalı və həmçinin digər qonşu ölkə olan İranda eyni iqtisadi fəaliyyətin bu ölkənin 14 XİZ-də də təşkili diqqəti cəlb edir. Belə zonaların inkişaf etməkdə

olan ölkələrin xarici ticarət dövriyyəsinin artmasında rolunu qısa misallarla baxılmasini zəruri hesab etmişik. Məsələn, Tayvanda 2000-ci illərin sonlanna qədər 3 belə zonanın infrastrukturunun yaradılmasına, həmçinin verilmiş güzəştlər sistemi nəzərə alınmaqla 3 mlrd. ABŞ dollarının yatırılmasının müqabilində qısa müddət ərzində buraya yatınlan investisiyalann həcmi 2 mlrd. ABŞ dollanna yaxın olmuşdur və həmin zonaların hesabına illik ixracın həcmi orta hesabla 4 mlrd. ABŞ dollarından çox təşkil etmişdir. Artıq göstərilən dövrdə bu zonalarda qeydə alman 230-a yaxın müəssisədə 60 minə yaxın insanın işlə təminatı mümkün olmuşdur. Və Tayvan hökümətinin gəliri isə birbaşa və dolayı vergilər, ödəmələr, rüsumlar, kredit faizləri və sairlər hesabına, həmçinin əmək haqqından ayırmalar, nəqliyyat xərclərindən daxil olmalar və sairlər üzrə gəlir 10 mlrd. ABŞ dollarından çox təşkil etmişdir. Filippində isə bu kimi zonalardan hökümət büdcə çətinliklik- lərini və yüksək ixtisaslı fəhlələrə olan tələbat probleminin həll edilməsində praktiki proseslərdə uğurla istifadə edə bilmişdir. Belə ki, 1990-ci illərin ortalanndan başlayaraq, bu ölkədə yaradılan 40 ixrac-istehsal zonalarında 4 ildən 8 ilə kimi güzəştlər sistemi müəyyənləşdirilmiş və əvvəldə qeyd etdiyimiz kimi elektrik avadanlıqların yığılması və istehsalı müəssisələrinin geniş şəbəkəsi yaradılmışdır. Qısa bir zaman kəsiyində - 5-7 il ərzində bu zonalarda ixracın həcmi 7 dəfə artmış və ildə 2,7 mlrd. ABŞ dollann- dan 20 mlrd. ABŞ dollanna yüksəlmişdir.

Cənubi Koreyanın XIZ-lərlə bağlı və onların praktiki proseslərdə əldə etdiyi uğurlarının təkmilləşdirilməsi istiqamətində son 10 ildə yeni XİZ modifıkasiyasmm - çoxprofilli XİZ-in yaradılmasının perspektivləri diqqəti cəlb edir. Məsələn, bu ölkənin Çe- cudo adasında ixrac-istehsal təyinatı ilə yanaşı turizm, rekreasiya, valyuta-maliyyə əməliyyatları, dəniz gəmiçiliyi, konsaltinq, audit, rabitə və dizayn xidmətləri də daxil olmaqla yüksək standartlara malik dünya səvi}^əli xidmətlərin göstərilməsi məqsədilə çoxprofilli zonanın yaradılmasına hökümət 3,6 mlrd. ABŞ dollan ayırmışdır. Bu zonaya 173 ölkədən insanların gəlməyinə vizasız rejim yaradılması amilini də nəzərə alsaq, adada beynəlxalq turizm im

kanlannın genişləndirilməsi, buraya ildə 9 mln. insanın, o cümlədən 1 mln. xarici turistin gəlməsi gözlənilir. Bizim apardığımız adi hesablamalar imkan verir ki, təkcə buraya gələn insanların bir ildə otel, gündəlik, yemək, nəqliyyat, həmçinin xidmət, suvenir və digər ticarət əməliyyatları üzrə xərcləyəcəyi vəsaitin orta illik həcmi 18 mlrd. ABŞ dollan səviyyəsində olacağı proqnozlaşdırılsm və s.

Qeyd etdiyimiz kimi, təhlillər zamanı biz dünyanın bütün qitələrində yerləşən XİZ-lərlə bağlı müəyyən qədər geniş məlumat bazası və bir çox alim tədqiqatçıların əldə etdiyi elmi nəticələri toplaya bilmiş, araşdınmşıq. Biz bunların hamısına yer ayımıaq imkanına malik olmasaq da, şübhəsiz, əsas məqsədimiz XİZ-lərin tətbiqi problemləri ilə bağlı məsələlərə daha dərindən yanaşmaqla, Azərbaycanın iqtisadi sistemində yer tuta biləcək XİZ modellərinə və XİZ-lərdən səmərəli istifadə edilməsi nümunələrinə daha çox yer ayınnağa üstünlük vermişik. Bu baxımdan Çinin XİZ təcrübəsi və bu ölkənin alimlərinin tədqiqat işləri ilə yanaşı, Vyetnam və Türkiyədə, həmçinin postsovet respublikalarında bu kimi zonalardan səmərəli istifadənin problemlərinə və nümünələrinə diqqətimizi yönəltməyi daha məqsədəuyğun hesab etmişik. Məlum olduğu kimi, dünya təcrübəsində XİZ-lərdən səmərəli istifadə edilməsində ən effektivli təcrübə bazası Çində toplanmışdır. Belə ki, XİZ-in müxtəlif modifıkasiyalarmm tədqiqatı üzrə iqtisadi ədəbiyyatlarda, şübhəsiz, əsas pozitiv nümunələrin əksəriyyəti Çin XİZ- ri ilə bağlıdır. Bu ölkədə belə zonaların müxtəlif modelləri milli iqtisadi sistemdə artıq bir neçə on illərdir öz yerini tutub. Çində XİZ-in milli iqtisadiyyata və xarici-iqtisadi əlaqələrin təşkilinə təsiri məsələləri də, bu ölkədə XİZ-in tətbiqi proseslərinin də dərindən öyrənilməyə və zəruri praktiki nəticələrin çıxarılmasına səy göstərilmişdir. Çinli alim Sun Yuysu bu sahədəki tədqiqatlannda milli iqtisadiyyat sektorlarının bazar iqtisadiyyatına transformasiyası proseslərində XİZ-lər vasitəsilə bu iqtisadi inkişaf və islahatlar tsiklinə təsiri instrumentlərini və bu kimi zonalardan praktiki istifadə edilməklə xarici iqtisadi əlaqələrin işlək mexanizminin və fəal şəbəkəsinin qurulmasında verə biləcəyi əlavə stimulları araş- dınnağa cəhd göstənnişdir (İSlf Məlumdur ki, bu ölkədə XİZ-lər

əsasən XX əsrin 70-80-ci illərində yaradılmağa başlanılmışdır. Həmin dövrlərdə Çində XİZ-in tətbiqi proseslərinin təşkili zamanı bu tip zonaların ölkənin iqtisadi sisteminə daxil edilməsi problemləri istiqamətində ciddi müzakirələr aparılmış və mülahizələr irəli sürülmüşdür. Bununla belə, bu ölkədə XİZ-rə münasibət və onla- nn effektivliyinə inamı çox gözləmək lazım gəlməmişdir. Çində iqtisadi zonaların tam sərbəst olması fılosofiyası da, fıkrimizcə, şərq müdrikliyinin tarixi ənənələri baxımından fonnalaşıb. Belə ki, əslində sərbəst adlandırıla biləcək hər bir rejim və sistemdə məhdudiyyətlər mövcuddur, qadağalar vardır və yaxud tam sərbəst manevrlərə imkan yoxdur və s. Bunları nəzərə alan Çinin XİZ ideoloqları və mütəxəssisləri belə zonaların praktik baxımından əhəmiyyəti amillərinə və bunlarla bağlı modiAkasiyalara üstünlük vermişlər. Belə ki, Çində əsasən xüsusi iqtisadi zonalar, texniki-iqtisadi inkişaf zonaları, yeni texnologiyalar üzrə sənaye zonalan, sərhədyanı iqtisadi əməkdaşlıq zonaları modellərindən istifadə etməklə, bu tip zonalarda ölkədəki mövcud iqtisadi rejimdən bir az fərqli güzəştlər sistemi tətbiq edilir. Başqa sözlə, XİZ-lər əldə etdiyi daha əlverişli iqtisadi rejim vasitəsilə ölkəsinin milli iqtisadiyyatının ayrı-ayn sektorlarının iqtisadi inkişaf tempinin artınl- masma, bu sahələrə texnologiyalann asan və çevik gətirilməsinə, iqtisadiyyatın inkişaf prioritetlərinin maliyyələşdirilməsinə kapital axınının təşkilinə, bütövlükdə isə ölkə iqtisadiyyatının güclənməsinə əlavə stimullar verməmək imkanı qazanır. Digər tərəfdən, XİZ- də sahibkarlığın və biznesin sürətli inkişafına və əlverişli fəaliyyət imkanlarına malik olması, bu kimi zonalarda xarici iqtisadi fəaliyyət şəbəkəsinin genişləndirilməsinə və nəticədə xarici-iqtisadi əlaqələrin iştirakçılarının (subyektlərinin) sayının və xariei-ticarət dövriyyəsinin artmasına, ölkənin imieinin yüksəlməsinə, valyuta ehtiyatlarının güclənməsinə şərait yaranır. XİZ-in milli iqtisadiyyatın inkişaf proseslərinə və xariei iqtisadi əlaqələrin genişləndirilməsinə təsiri bunlarla bitmir. Bu kimi zonalann fəaliyyəti onla- nn yerləşdiyi regionunu (ərazinin) sosial-iqtisadi inkişafına kompleks təsir etməklə bərabər, regionun dünya iqtisadİʒ^atma inteqrasiyasına da geniş imkanlar açır. Çində XİZ-in tətbiqi proseslə

rində bu ölkənin müxtəlif iqtisadiyyat sektorlarına təkcə xarici investisiyaların (kapitalın) cəlbi əsas strateji məqsəd kimi qarşıya qoyulmayıb. Bu ölkədə XİZ-lər əsasən ölkənin milli iqtisadiyyat sektorlarının və ərazilərinin potensialının praktiki proseslərdə reallaşdırılması istiqamətində prioritetliyi ilə seçilir. Yəni, Çin XİZ-ri, əlbəttə, külli miqdarda xarici kapitala yol açırlar, ancaq bu resurslar milli iqtisadiyyatın öz milli istehsal subyektlərinin sürətli inkişafına ciddi xələr gətinnək iqtidarında deyildir. Bu əminlik onunla izah olunur ki, bol əmək ehtiyatlarına və enerji resurslarına malik Çində milli istehsalçılar və digər təsən*üfat subyektləri XİZ-dəki münbit rejimlərdən xarici investorlarla rəqabət şəraitində belə, daha səmərəli və çevik yararlanmaq üçün hər cür iqtisadi nçaqlara, stimullara və aktiv instrumentlərə malikdirlər. Çinin XİZ modifi-kasiyalannda yeni yüksək texnologiyalar əsasında sənaye zonasının praktiki təşkili də xüsusi maraq doğurur. Bu zonalar vasitəsilə yeni və yüksək texnologiyaların tədqiqat nəticələrinin istehsala tətbiqi əlavə olaraq stimullaşdınlır. Praktikada bu proseslərə, yeni və müasir texnologiyalann fundamental tədqiqatı, onların işlənməsi, istehsalata və real iqtisadi proseslərə tətbiqinin gerçəkləşdirilməsi, bütövlükdə insan (kadr) resursları ilə elmi-texniki potensialın praktiki sintezinin təşkil edilməsi daxildirlər. Çin XİZ-nin yeni texnologiyalannın real istehsalata tətbiqindəki əhəmiyyəti onunla izah edilir ki, istehsal və iqtisadiyyat sahələrinin modernləşdirilməsi, yenilənməsi yüksək rəqabət qabiliyyətli məhsullann istehsalını artırmağa, istehsal xərclərini aşağı salmağa, əmək məhsuldarlığını yüksəltməyə, XİZ subyektlərinin gəlirlərinin və ver- giödəmə bazislərinin xeyli artımına imkan yaradır. Bu ölkədə sərhədyanı ərazilərdə fəaliyyət göstərən XİZ-lər Çinin 13 şəhərini əhatə etmişdir. Bununla Çin hökümədi Rusiya, Monqolustan, Mərkəzi Asiya və Cənub-Şərqi Asiya ölkələri ilə sərhədyanı zonaları vasitəsilə bu ölkələrlə xarici-iqtisadi əlaqələrin genişlənməsinə, xarici-ticarət dövriyyəsinin nisbətən fərqli fəal iqtisadi rejim hesabına artması üçün əlavə imkanlann əldə edilməsinə prioritetlik venuişdir. Bu sərhədyanı ərazilrdə yaradılmış iqtisadi əməkdaşlıq zonalarının sayı 14-dür və onlar 78 kv. kilometrdən çox ərazini

təşkil edirlər. Belə zonalarda əsasən ixrac-emal sənaye sahələri, qonşu ölkələrin istehlak bazarına və tələbinə istiqamətlənmiş istehsal strukturları, idxal-ixrac əməliyyatlarının genişləndirilməsi və xarici kapitalın gətirilməsinə əlverişli şəraitin yaradılması prosesləri üstünlük təşkil edir. Çin XİZ-nin milli iqtisadiyyata və xa- rici-iqtisadi əlaqələrin inkişafına təsiri prosesləri bir çox sahələrdə özünü ciddi şəkildə göstərə bilmişdir. Belə sahələrdən biri də, həssas sosial-iqtisadi problem kimi diqqəti cəlb edən - əhalinin işlə təminatı problemidir. Bu ölkənin XİZ-lərinin hesabına buraya iri kapital yatıran xarici investorların iştirakı ilə fəaliyyət göstərən müəssisələrin sayı 2000-ci illərin əvvəlinə artıq, 150 minə yaxın olmuşdur və burada milyonlarla daimi iş yeri yaradılmışdır. XİZ- lər təkcə iş yerinin yaradılması baxımından yox, həm də yüksək ixtisaslı kadrların fonnalaşmasında və müasir idarəetmə modellərinin praktiki proseslərdə tətbiqinə imkan vermişdir. XİZ-in tətbiqi proseslərində bir mühüm amilin də nəzərə alınması vacibdir. Bu kimi zonalann tətbiqi əraziləri və coğrafi məkanları seçilərkən milli iqtisadiyyatın prioritet inkişaf sahələri, əmək resurslanmn yerləşməsi və hərəkəti tendensiyaları, regionların spesifikliyi və sairlər diqqətdən yayınmamalıdır. Digər tərəfdən, XİZ-in ölkənin iqtisadi sistemində uğurlu adaptasiyası və möhkəmlənməsi prosesləri nisbətən başa çatdıqdan sonra, dövlətin bu sahələr üzrə iqtisadi siyasətinin sabit saxlanılması olduqca mühüm əhəmiyyət kəsb edir. Sun Yuysu bu qənaətə gəlmişdir ki, əgər ölkə XİZ-də mövcud güzəştlər sisteminə nisbətən XİZ-dən kənar ərazilərdə müxtəlif güzəştlər sistemi tətbiq edilərsə (bəzən bu güzəşt sistemləri XİZ-dəki mövcud sistemdən üstün də ola bilər), bu halda XİZ-in məhsuldar və uğurlu fəaliyyətinə ciddi xələl gələ bilər.

Çinli tədqiqatçıların apardıqları araşdınualardan diqqətimizi cəlb edən məqamlardan biri də bu ölkənin Rusiya ilə müqayisəli şəkildə iqtisadi potensiallarından və XİZ institutundan səmərəli istifadə edilməsi problemləridir. Belə ki, XİZ-in praktiki tətbiqi problemlərini öyrənərkən dünya XİZ-in geniş coğrafiyası ilə tanış olmağımıza baxmayaraq, əsas müqayisələri və təhlilləri Azərbaycanla e>ni iqtisadi sistemin proseslərini yaşamış və yaxud bu sa

hədə daha effektivli nəticələr əldə etmiş ölkələrin təcrübələrinə müraciət etməyə üstünlük vemıişik. Bunun əsas səbəbləri XİZ-in tətbiqi proseslərində mühüm situasiyaların və fundamental problemlərin həlli yollannda Azərbaycanın müasir iqtisadi inkişaf prosesləri ilə uyğulaşan optimal modellərin və prioritet istiqamətlərin müəyyənləşdirilməsidir. Bu baxımdan Azərbaycanın qeyri-neft sektoru sahəsində ən iri xarici tərəfdaşı və strateji partnyoru olan Rusiya və XIZ-lərin praktiki tətbiqində mühüm tarixi nəticələr əldə etmiş Çinin təcrübəsinə tez-tez müraciət etməyimiz, göstərilən amillərlə bağlıdır. Çin hazırda dünya iqtisadiyyatında 2-ci yerdə möhkəmlənməkdədir və iqtisadi inkişaf parametrlərinə görə dünya lideridir. Rusiya Azərbaycanla hər cür nəqliyyat qovşaqları olan geniş sərhədə malikdir və ölkəmizlə iqtisadiyyatın bir çox sahələri üzrə iqtisadi əməkdaşlıq sazişlərini imzalayıb. Digər tərəfədən, Rusiyada XİZ-in tətbiqi ilə bağlı iri həcmdə neqativ təcrübələr müşahidə olunmuşdur və son 10 il ərzində Rusiya hökuməti XİZ- in tətbiqi proseslərinin təkmilləşdirilməsi istiqamətində xeyli iş apannışdır. Rusiya və Çində fəaliyyət göstərən XİZ-in müqayisəli təhlili çinli alim Qao Tyanminin 2010-cu ildə yekunlaşdırdığı “Dünya təsərrüfatında xüsusi iqtisad zonalar (Çin və Rusiyada onların müqayisəli təhlili)” tədqiqat işində geniş yer almışdır [1421. Təhlilin əsas məqsədi Rusiya və Çində fəaliyyət göstərən XİZ-lər- də praktiki baxımdan baş verən proseslərin öyrənilməsi, bu iqtisadi alətdən iqtisadi inkişaf prioritetlərində daha məhsuldar istifadənin təmin edilməsi olmuşdur. Məlum olmuşdur ki, Rusiyada XİZ- in az effektivli və qeyri-məhsuldar olmasının əsas səbəbi, bu kimi zonalann yaradılması və milli iqtisadi sistemdə uğurlu yer alması üçün strateji konsepsiyanın işlənib hazırlanması və XİZ üzrə ümumi dövlət siyasətində ardıcıl, davamlı və sabit iqtisadi siyasətin olmamasıdır. Məsələn, Rusiyalı tədqiqatçı-alim Y.V. Revyakin Kali- ninqradda yaradılmış XİZ-in az effektivli səbəblərini bu zonada gömrük güzəştlərinin qeyri-proporsional olmasında, güzəştlər sisteminin qeyri-sabitliyində, onlann tez-tez dəyişdirilməsində, investorlar üçün əsassız risklərin artınlmasmda, bu kimi zonalarda mühüm istehsal prioritetlərinin müəyyənləşdirilməməsində, priori

tet sənaye sahələrinin yaradılmasının və kapital yatırılmasının stimullaşdınlmamasmda, bu kimi zonalara verilən güzəştlərdən sui-istifadə edilməsində və sair subyektiv amillərdə olduğu qənaətinə gəlmişdir (135]. Digər bir misal "İnquşetiya" XİZ-in fəaliyyəti ilə bağlıdır. Qonşu Stavropol ölkəsinin 1 O-dan çox müəssisəsi vergidən yayınmaq və digər güzəştlərdən istifadə etmək məqsədilə bu XİZ-də qeydiyyata düşmüş, ancaq faktiki olaraq, öz yerləşdyi ünvanlarda fəaliyyətlərini davam etdinnişlər. Praktiki olaraq, "İnquşetiya" XİZ-i offşor zona rolunda çıxış etməklə yanaşı, XİZ rezidentlərinə zonanın ərazisində olmadan belə, istehsalla məşğul olmaq imkanı yaratmışdır. Nəticədə XİZ-in birbaşa fəaliyyəti və məqsədləri ilə bağlı prinsiplər kobud pozulmuş, investisiyaların cəlbi məsələləri arxa plana keçmiş və zonanın fəaliyyətindən əldə edilən gəlirlər simvolik xarakter daşımışdır. Rusiyada XİZ-in effektivli və məhsuldar iqtisadi alətə çevirilməsi prosesləri uzun bir dövr ərzində qeyri-sabit iqtisadi siyasətlə, riskli investisiya mühiti və bu kimi zonaların tətbiqi üzrə regional iqtisadi inkişaf prioritetlərinin elmi-iqtisadi əsaslandırılmasının zəif olması ilə yadda qalmışdır. Amma Çin XİZ-də əldə edilmiş məhsuldar nəticələrə heyrətlənməmək mümkün deyildir. Məsələn, 2008-2010-cu illərdə Çində XİZ-lər ölkə ÜDM-də və büdcəyə daxil olan vergi gəlirlərində 5 %-lik həcm təşkil etmişdir. XİZ-in fəaliyyəti nəticəsində əlverişli investisiya mühiti təmin olunmuş və xarici investisiyala- nn illik həcmi 20 mlrd, dollardan çox olmuşdur. Rusiyada isə bir çox hallarda yaradılan XİZ-lər "vergidən yayınma mağaralarına" çevrilmiş, investorlar tərəfindən yatırılmış vəsaitlərdən qeyri-effektiv istifadə olunmuş və dövlət tərəfindən infrastruktur, həmçinin bu kimi zonaların inkişafına yönəldilən vəsaitlərin təyinatı üzrə xərclənməsinə ciddi nəzarət təmin olunmamışdır. Məsələn, Rusiyada fəaliyyət göstərən "Naxodka" XİZ-də yoxlamalar nəticəsində məlum olmuşdur ki, 90 mln. rubl qeyri-təyinat üzrə xərclənmiş, zonanın federal büdcə bordan 315 mln. rubl olmuşdur. Zona tərəfindən 73 kompaniyanın nizamnamə kapitalına 41 mln. rubl yatırılmasına baxmayaraq, gəlir əldə edilməmişdir. Büdcə vəsaitləri hesabına yaradılmış 35 müəssisə isə fəaliyyətini vaxtından əv

vəl dayandınnışdır. Kalininqrad XİZ-də iso investisiya vergi kreditləri üzrə borclar 341 mln. rubl təşkil etmişdir. Altay ölkəsində yaradılmış “Altay” XİZ-də qeydiyyata alınmış 651 təsərrüfat və kommersiya subyektindən 621-i bu zonanın ərazisindən kənarda fəaliyyət göstənniş, XİZ-dən isə yalnız onun güzəştlər sistemindən istifadə etməkdə bəhrələnmişlər. Əvvəldə qeyd etdiyimiz İnquşetiya respublikasında fəaliyyət göstərən XİZ-də isə 2067 müəssisədən bu zonada yalnız 19-u faktiki fəaliyyətlə məşğul olmuşdur. Bu kimi faktlar 1991-2000-ci illərdə olan dövr ərzində Rusiyada XİZ-in sürətli inkişaf tempi toplamasına ciddi zərbələr vurmuş və Çində effektivliyi ilə bu ölkənin iqtisadi inkişafına əsaslı stimullar verən XİZ-lərlə müqayisədə Rusiyada fəaliyyət göstərən XİZ-lər yerində saymış, iqtisadi sistemdə möhkəmlənə bilməmiş və neqativ imiclərlə yadda qalmışlar. Çində isə XİZ-rə münasibətin əsas motivlərini ölkənin bu sahə üzrə dövlət siyasətində axtarmaq yerinə düşərdi. Çinin tarixi iqtisadi inkişaf proseslərində əhəmiyyətli rolu olmuş görkəmli dövlət xadimi Den Syaopin XİZ-rə dünyaya “açıq siyasətin” ilk addımı kimi baxırdı. Bu ölkədə iqtisadi islahatların sürətləndirilməsində və iqtisadi tərəqqi proseslərində XİZ-in tarixi rolu olmuşdur. Çin XİZ-də müəssisələr mənfəət aldıqları ilk üç il ərzində vergilər ödəmirlər, növbəti 2 ildə isə bu vergilərin ödəmə dərəcəsi 50 % həcmindədir. Bu kimi mütərrə- qi vergi siyasəti nəticəsində XİZ-də gəlirin səviyyəsi 30-40 % olur və yatırılmış əsaslı kapital vəsaitlərinin qaytanlması müddəti 2-3 dəfə qısaldılır. Çində XİZ-lər yaradılarkən dövlət səviyyəsində bu zonanın ümumi inkişaf prioritetlərinə ciddi önəm verilir və zonanın maddi-texniki bazasının gücləndirilməsinə, infrastruktur obyektlərinin yaradılmasına dövlət vəsait ayınnaqla yanaşı, onların nəzərdə tutulan vaxtda istismara verilməsinə, ayrılmış vəsaitlərdən təyinatı üzrə istifadə olunmasına nəzarəti həyata keçirir. Təsadüfi deyildir ki, Çində dövlət səviyyəsində birbaşa elmi-iqtisadi əsaslandırılmış və yaradılmış XİZ-in sayı 250-yə çatır. Bundan əlavə geniş əraziyə və məhsuldar əmək ehtiyatlarına malik olan Çində regionlann sürətli inkişafı, sosial-iqtisadi problemlərin həlli, rəqabət qabiliyyətli ixrac məhsullarının istehsalının təşkili və məşğul

luğun təminatı, yoxsulluğun aradan qaldınıması məqsədilə, ölkənin regionlarında 1350-yə qədər XİZ uğurlu fəaliyyət göstərirlər. Məsələ burasındadır ki, regional səviyyədə fəaliyyət göstərən XİZ-lərin yaradılması prosedurları regional hökümət subyektləri tərəfindən qəbul edilir və həyata keçirilir. Rusiyada isə məlum olduğu kimi, XİZ-in yaradılması və fəaliyyəti mexanizmi yalnız Federal səviyyədə baxılır. Elmi-texniki yeniliklərin işlənib hazırlanmasında və tətbiqində Çinə nisbətən daha çox dövr ərzində uğurlu təcrübəsi olan Rusiyada XİZ-də bu istiqamət üzrə məqsədli fəaliyyət prioritetləri yalnız son illərdə nisbətən yer almaqdadır. Çində isə çoxlu sayda elm və kapital tutumlu, yüksək texnologiyalı və innovasiyah sahələri özündə cəmləşdirən XİZ-lər fəaliyyət göstərirlər. Ölkədə 56 texniki-iqtisadi inkişaf zonalan və bir o qədər yüksək texnologiyalı sənayenin inkişafı zonalan öz məhsuldar nəticələri ilə diqqəti cəlb edirlər. Rusiyada isə 2010-cu ilin əvvəlinə fəaliyyət göstərən XİZ-in ümumi sayı cəmisi 15-ə yaxın olmuşdur. Çində fəaliyyət göstərən 56 texniki-iqtisadi inkişaf zonalannda xarici ticarət dövriyyəsi 2007-2010-cu illərdə orta illik səviyyə 320-330 mlrd. ABŞ dolları təşkil etmişdir və bunun 60 %-ə yaxını ixracdır. Çində son illərdə 11 mühüm elmi-texniki layihələrin gerçəkləşdirilməsi üzərində dövlət dəstəyi ilə geniş həcmdə işlər aparılır. Bunlara biotexnika, aviasiya-kosmik sənayesi, yeni dərman preparatları və digər sahələr üzrə mühüm layihələr daxildir. Ölkədə biosənaye, bioenergetika, biotibbi, bioaqronomiya və ətraf mühitin qorunması sahələrinə ən müasir yüksək texnologiyaların tətbiqi üzrə strateji planlar reallaşdınlır və bu proseslərdə XİZ-lər apancı mövqe tutublar.

Çinin XİZ təcrübəsi ilə bağlı araşdırmalanmızda milli subyektlərin müxtəlif ərazilərinin və bu ölkənin regionlarının müxtəlif təyinatlı XİZ-lərin vasitəsilə sürətli inkişafı daha çox maraq doğurmuşdur. Belə ki, dünya ölkələrinin iqtisadi inkişaf proseslərində ölkə ərazisinin ayn-ayrı regionlarının kompleks sosial-iqtisadi inkişaf problemləri bütün dövrlərdə aktuallığı ilə diqqəti cəlb etmişdir. Dövlət və hökümət rəhbərləri bu problemlərin həllində müxtəlif iqtisadi vasitələrdən istifadə etməklə, bu mürəkkəb məsə

lənin mahiyyəti üzrə həll edilməsinə çalışmışlar. Xüsusilə, inkişaf etmiş ölkələrdə regionların sosial-iqtisadi inkişafı prosesləri üzrə xeyli təcrübə toplanmışdır. Bunlarla belə, son 20-30 il ərzində sabit iqtisadi inkişaf tempinə nail olmuş onlarla yeni dövlətlətlər, bu problemin həlli istiqamətində müxtəlif dövlət proqramlarından, effektivli iqtisadi vasitələrdən, bir sözlə, hər hansı bir ölkənin iqtisadi inkişaf modelinə daha tez və uğurla adaptasiya edən iqtisadi alətlərdən istifadə etməyə cəhd göstərirlər. Məlumdur ki, zəif infrastruktura və istehsal potensialına malik regionların sosial-iqtisadi problemlərin həll edilməsi külli miqdarda maliyyə resurslan tələb edir. Reallıqda dünya ölkələrinin əksəriyyətində bu resurslar çatışmır və bu baxımdan həmin problemfərin həlli üçün daxili və xarici investisiyaların cəlbinin təşkili zərurəti qalmaqdadır. Adətən investorlar o ərazilərə gedirlər və investisiya resurslan yatınrlar ki, burada sağlam rəqabət prinsipi, azad ticarət qaydalan, sahibkarlığın və biznesin inkişafı üçün əlverişli vergi və gömrük sistemi, istehsal sahələrinin və xidmətlərin genişləndirilməsi üçün infrastruktur obyektləri, əlverişli bina və korpuslar və sairlər burada mövcud olsun. Dünya təcrübəsində bu kimi amillərin əksəriyyətini özündə səciyyələndirən effektivli iqtisadi alət kimi XİZ-lər investisiya resurslannın və investorlann sosial-iqitsadi inkişaf problemlərinin həlli üçün dünyanın müxtəlif ölkələrinin ən geri qalmış ərazilərinə belə cəlb edə bilmişdir. ABŞ-da müxtərlif ştatlarda sahibkarlığın inkişafı, Fransada ayrı-ayn rayonların sosial-iqtisadi tərəqqisi, Almaniyada limanlar və bir sıra torpaqlann iqtisadi prioritetləri, Çində tamamilə inkişafdan geri qalmış müxtəlif ərazilərin kompleks inkişafı, Cənubi Koreya, Türkiyə, Malayziya, Sinqapur kimi ölkələrdə ayn-ayn ərazilərdə rəqabət qabiliyyətli və ixrac təyinatlı istehsal sahələrinin və komplektləşdirici müəssisələrin yaradılması, Meksikada ABŞ-la sərhədyanı ərazilərin tarixi inkişaf prosesləri, postsosialist ölkələri olan Polşa və Macarıstanda keçmiş sosializm sistemindən miras qalmış iri sənaye müəssisələrinin yerləşdikləri ərazilərin (şəhər və regionlann) reabilitasiyası, Ukraynada ayrı-ayn vilayətlərin ərazilərinin prioritet inkişaf istiqamətləri ilə bağlı yaradılan və fəaliyyət göstərən XİZ-lər müxtə

lif dövrlərdə uğurlu və məhsuldar nəticələri ilə yadda qalmışdır. Çinli tədqiqatçı-alim Lo Fenxua 2007-ci ildə tamamladığı tədqiqat işində XİZ-lərin regionalnn sosial-iqtisadi problemlərinin həll edilməsində effektivli praktiki iqtisadi alət olması və onların vasitəsi ilə bu kimi regionlara zəruri investisiya resurslannm gətirilməsi problemlərini araşdırarkən bu nəticəyə gəlmişdir ki, regionlarda investisiya mühitinin əlverişli olması, XİZ institutu vasitəsi ilə müəyyən güzəştlər sistemi üstünlüyünün mövcudluğu, istehsal və kommersiya fəaliyyətinə birbaşa müdaxilələrin azlığı, rəqabət qabiliyyətli ixrac məhsulları şəbəkəsini yaratmaqla, ölkənin ixrac potensialının artınıması, məşğulluq kimi mürəkkəb və həssas sosial-iqtisadi problemlərin həllinə birbaşa və dolayısı təsir göstənnəsi, müasir texnologiyalann və idarəetmə metodlarının əraziyə gətirilməsi, bank, sığorta və digər xidmət sektorları şəbəkəsinin genişləndirilməsi praktiki proseslərdə daha tez reallaşır (91J. Bir sıra ölkələr var ki, onlann ərazilərində onlarla geniş regionlar fonna- laşmışdır və burada çoxlu sayda mürəkkəb sosial-iqtisadi problemlər həll edilməmiş qalmaqdadır. Belə ölkələrə misal olaraq, Çin və Rusiyanı göstərmək olar. Şübhəsiz, son 20 il ərzində, yəni, Rusiyanın müstəqil dövlət kimi fəaliyyət göstərdiyi dövrdə bu ölkədə regionlarının inkişafı üzrə bir sıra milli proqramlar işlənib hazırlanmış, hətta ayn-ayrı regionlann bütöv ərazisini əhatə edən XIZ-lər yaradılmış, bir sözlə, regionlarda investisiya mühitinin yaxşılaşdırılması üçün cəhdlər göstətrilmişdir. Məlum olmuşdur ki, milli proqramlar çərçivəsində regionlara yatınlan investisiyalann və büdcə vəsaitlərinin xeyli hissəsi təyinatı üzrə istifadə olunmamış və yaxud əlavə dəyər və gəlir gətirən istehsal və xidmət sektorunun inkişafına yönəldilməmişdir. Bir çox hallarda isə bu vəsaitlərdən mövcud və gündəlik problemlərin həlli üçün dövriyyə vəsaitləri kimi istifadə olunmuşdur. Digər tərəfdən, investisiyalann cəlbi üçün təşkil olunmuş XİZ-lərdə daha çox neqativ hallara yol verilmiş, bu kimi XİZ-lərin əksəriyyətində onun subyektləri tərəfindən əsas məqsəd kimi vergi və gömrük güzəştləri sistemindən istifadə etməsi olmuşdur. Eyni zamanda, Rusiya ərazisinin böyüklüyü, istehsal və kommersiya potensialının müxtəlifliyi, həmçinin

maliyyə və kredit resurslarının əsasən mərkəzdə və iri şəhərlərdə cəmlənməsi regionların investisiya fəallığı səviyyəsinə əsaslı təsir göstərir. Bu baxımdan Rusiyada xarici investisiyalann cəlbi prosesləri bu ölkənin mövcud potensialı ilə heç də uzlaşmır və ümumi ölkə üzrə əsaslı kapital qoyuluşunda xarici investisiyaların həcmi 3-4 %-dən çox olmamışdır, investisiya fəallığı əsasən iqtisadi, sosial, təbii-coğrafi amillərlə yanaşı, regionlara maliyyə resurslarının cəmlənməsi proseslərinin aktivliyi ilə birbaşa bağlıdır. Əgər regionda aparılan iqtisadi islahatlar davamlı və sabit xarakter daşımırsa, bu halda XİZ-lər kimi avtonom xeyli münbit investisiya mühitli zonalan investisiya fəallığının artırılmasına və investorların regiona gəlməsinə əlavə olaraq ciddi stimullar verə bilər. Rusiyada investisiyalann fəallığı və investisiya mühitinin əsas göstəriciləri baxımından bu ölkənin regionlarını 3 əsas qrupa bölmək olar. Bunlara mərkəz, Şimal-Qərbi və Uralı əhatə edən iri sənaye regionları, Sibir, Rusiyanın Şimalının Avropa hissəsi və Uralın bir hissəsini özündə cəmləşdirən xammal təyinatlı regionlar və, nəhayət, Volqayam və əsasən Şimali Qafqazı əhatə edən aqrar və depressiv regionlar daxildirlər. Amma təəssüf ki, hələ də Rusiyada XİZ institutundan sosial-iqtisadi problemlərin kompleks həllində fəal və uğurla istifadə olunan XİZ nümunələrinə rast gəlmirik. Düzdür, son illərdə Rusiyada elm və yüksək texnologiyalar təyinatlı XİZ- lərin-texnoparklarm fəaliyyətində nisbətən irəliləyişlər diqqəti cəlb etməyə bilməz, amma hər hansı bir XİZ-in Rusiyanın hansısa regionunun sosial-iqtisadi inkişafında önəmli yer tutması nümunəsi hazırda da müşahidə olunmur. Müqayisə üçün qonşu Çində son 10 illər ərzində məhz XİZ-lərin regionlarda məhsuldar fəaliyyəti nəticəsində təkcə rəqabət qabiliyyətli sənaye məhsullannın istehsalı ildə 30 % artımla müşahidə olunmuşdur. Çin XİZ-lərində investisiya mühitinin cəlbedici olması xarici investorlan bu ərazilərə çox aktiv formada investisiyaların gətirilməsinə sövq etmişdir. Ölkənin ixracında xarici kapitalla yaradılmış kompaniyalann payı 42 % təşkil etmişdir. Çinin 5 iri XİZ-lərindən olan Şençjen, Çju- xay, Şantou, Syamen və Xaynan zonalarında yatırılmış investisiyalann əsaslı bir hissəsi sosial infrastrukturun yaradılmasına və

sosial-iqtisadi problemlərin həllinə yönəldilmişdir. Maraqlıdır ki, bu zonalarda olan investisiya mühitinin olduqca əlverişli səbəbindən dünyada mövcud olan 500 iri transmilli korporasiyadan 300-ü Çinə investisiya resurslan yatınmşlar. Belə ki, Çində XİZ-lərdə yaradılan müştərək müəssisələrdə xarici kapitalın həcminin 25 %- dən az olmadığı təqdirdə, bu müəssisələr xarici investisiyalar haqqında Çin qanunu əsasında fəaliyyət göstərə bilərlər. Sosial-iqtisadi problemlərin əsas göstəricilərindən olan məşğulluq problemləri Çinin dünyada ən çox əhalisi olan ölkəsinə baxmayaraq, nisbətən uğurla həll edilmişdir. Bazar iqtisadiyyatı islahatlannın ilk illərində bu ölkədə 20 mln-dan çox əhali işsiz qalmışdır. Lakin ölkədə apanlan sabit iqtisadi islahatlar, xarici investisiyaların cəlb edilməsi üçün yaradılan əlverişli mühit, həmçinin XİZ institutundan bir çox regionlarda və milli iqtisadiyyat sahələrində uğurla istifadə edilməsi işsizlik problemlərinin həllinə əsaslı stimullar vermişdir. Çoxfunksiyalı və istehsal sahələrinin, xüsusilə, əməktutumlu istehsal sektorunun XİZ-lərdə sürətlə yaradılan geniş şəbəkəsi milyonlarla insanlann işlə təminatına imkan vennişdir. Apanlan sabit iqtisadi siyasətin, davamlı XİZ strategiyasının və bu kimi iqtisadi alətlərin ölkənin iqtisadi sisteminə məhsuldar tətbiqinin təşkil edilməsi belə XİZ-lərdə və onlann yerləşdiyi regionlarda işsizliyin səviyyəsinin ölkənin digər regionlarına nisbətən az olmasına imkan vennişdir. Məsələn, əgər son 5 il ərzində Çində işsizliyin səviyyəsi 4,5 - 5,0 % səviyyəsində olmuşdursa, Çinin əsas XİZ-lə- rində işsizliyin səviyyəsi 2,0-3,8 % səviyyəsində müşahidə olunmuşdur. Bundan əlavə, ölkə üzrə hər bir nəfərə düşən gəlirlərə nisbətən Çin XİZ-lərində bu göstərici 2,0-2,5 dəfə çoxdur. Regionla- nn sürətli inkişafına təsir edə biləcək ciddi nümunələrdən biri də Çində Pudunda yaradılan XİZ-ini göstəmıək olar. Bu XİZ Xuanpu çayının şərq sahili bo}^ 350 kv.km. ərazini əhatə edir və Şanxayın yaxınlığında yerləşir. Bu XİZ-də xarici investorlara istehsal və kommersiya sahələri ilə yanaşı, maliyyə təşkilatlarının, fond birjalarının, mağazalann, supenuarkctlərin yaradılmasına icazə verilmişdir. Regionda güclü infrastruktir şəbəkəsi qurulmuş, Nanpusk və Yanpusk körpüləri tikilmiş, Vayqaotsyaosk dəniz limanı istifa

dəyə verilmişdir. Elektrik enerjisi və su təchizatı ilə bağlı sabit istehsal və təchizat sistemi yaradılmışdır və sair. Göründüyü kimi, Çində regionlarda XİZ-lər yaradılarkən sosial-iqtisadi problemlərin həllinə kompleks sistemli yanaşma strateji prioritet kimi qəbul olunmuşdur. Regionalrda sosial-iqtisadi problemlərin həllinə xarici investisiyaların cəlb edilməsində ayrı-ayrı XİZ nümunələrinə baxdığımız Rusiya və Çində müştərək XİZ-lərin, xüsusilə, sərhəd-boyu ərazilərdə yaradılmasına böyük potensialın olmasına baxmayaraq, hələlik bu istiqamətdə real praktiki addımlar atılmamışdır. Fikrimizcə, Rusiyanın Uzaq Şərqlə sərhədboyu ərazilərində yerləşən regionlarında Çinin iştirakı ilə XİZ-lərin yaradılması və fəaliyyəti həmin ərazilərin əsaslı inkişafına, sosial-iqtisadi problemlərin müasir standartlar səviyyəsində həllinə ciddi töhfə verə bilərdi.

Əvvəldə qeyd etdiyimiz kimi, XİZ-lərdən səmərəli istifadə edilməsi və onların tətbiqi problemlərini öyrənərkən, bu kimi zonalann bir çox ölkələrdə tarixi fonnalaşması, mövcud vəziyyəti və perspektivləri barəsində müxtəlif elmi araşdınualara müraciət etmişdik. Bu ölkələrin içərisində çoxlarının əsaslı iqtisadi inkişaf prosesləri müstəqil dövlət fomıasmda sosializm sisteminin süqutundan sonra başlamışdır. Milli iqtisadi inkişaf prosesləri və milli maraqlara söykənmiş iqtisadi inkişaf modelinin fonnalaşması bütün hallarda çevik və məhsuldar alətlərin bu proseslərdə və modellərdə yer almasını şərtləndirir. Belə ölkələrdən biri də Vyetnamdır. Bu ölkə uzun illər ərzində sosializm sistemində iqtisadi inkişaf yolu keçmişdir və keçmiş SSRİ ilə sıx əlaqələri olmuşdur. Maraqlıdır ki, Vyetnamın iqtisadi struktur quruluşu müəyyən mənada Azərbaycanın iqtisadiyyatı ilə oxşarlıq təşkil edir. Burada da əsasən neft çıxarlır və bir çox iqtisadiyyat sahələri, o cümlədən kənd təsərrüfat sahələri mövcuddur. Uzun bir dövrdür ki, vyetnamlı gənclər Azərbaycana texniki sahələr üzrə, o cümlədən, əsasən neft-qaz sahəsi üzrə təhsil almağa gəlirlər. Bu ölkə keçən əsrin son 15-20 ilində özünün milli iqtisadi inkişaf modelini fonualaşdırarkən, regionda toplanmış tarixi iqtisadi təcrübələrdən yararlanmağa üstünlük vermişdir. Şübhəsiz, bu proseslərdə əsas diqqət regionda və dünyada davamlı iqtisadi inkişaf təminə görə sabit iqtisadi si-

yasətə malik Çinə və onun keçdiyi iqtisadi inkişaf təcrübəsinə yönəlmişdir. Vyetnamlı tədqiqatçı-alim X. V. Kxan 2009-cu ildə başa çatdırdığı “Vyetnamda sərbəst iqtisadi zonalann fonnalaşdınlma- sı: müasir vəziyyət, problemlər, perspektivlər” adlı elmi araşdırmasında bu ölkədə sərbəst iqtisadi zonaların (SİZ) keçdiyi inkişaf proseslərini, onların effektivliyinin sübut edən amillərin əsaslandırılmasını, bu sahədə mövcud vəziyyəti, problemləri və perspektivləri verə bilmişdir [111]. Vyetnamda bu kimi zonalar yaradılarkən, əlbəttə Yaponiya modelinə - Yaponiya təcrübəsinə də baxmaq olardı. Amma burada elmi araşdınnalar bu nəticələrə gəlməyə imkan vennişdir ki. Yapon texnoparklarınm və texnopolislərinin fəaliyyət səviyyəsi ilk dövrlərdə Vyetnam iqtisadiyyatı və Vyetnam reallığı üçün hələ o qədər də əlçatan deyildir. Bu baxımdan, Vyetnamda aparılan iqitsadi islahatlara və iqtisadi proseslərə nisbətən daha yaxın olan Çin və onun iqtisadi sistemi nisbətən əlverişli, həmçinin praktiki baxımdan real görünən və həyata keçirilən olduğundan XİZ-lərin yaradılmasında əsasən Çin modellərinə üstünlük verilmişdir. Əslində bu oxşarlığı biz özümüzün apardığımız müqayisələr nəticəsində müşahidə etdiyimizdən, vyetnamlı tədqiqatçının bir daha haqlı olduğu qənaətindəyik. Bununla belə, vyct- namlı alimin apardığı tədqiqatlardan belə nəticəyə gəlmək olar ki, XİZ-lərin yaradılması və onların tətbiqinin gerçəkləşdirilməsində ölkə iqtisadiyyatının çoxşaxəliliyi amili, ölkənin iqtisadi inkişaf modelinin diversifıkasiyasınm təkmilləşdirilməsi zərurəti, sosial- iqtisadi problemlərin kompleks həllinin vacibliyi, iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi və sairlər diqqətlə öyrənilməlidir. Ümumiyyətlə XİZ-lərin tətbiqi problemləri strateji məqsədlərin kompleks sistemini özündə əks etdirməli və onların real iqtisadi proseslərə adaptasiyasının mümkünlüyü maksimum araşdmlmalı, öyrənilməlidir. Bu halda tətbiq edilən XİZ-lərin praktiki fəaliyyətindən məhsuldar nəticələr gözləmək daha real görünür. Qeyd etmək lazımdır ki, Vyetnam iqtisadiyyastı son 10 il ərzində dinamik inkişaf dövrü keçə bilmişdir. Ölkədə ÜDM-ın həcmi ildə orta hesabla 60-65 mlrd, dollar səviyyəsinə, sənaye məhsulu 10 mlrd. dollar, kənd təsərrüfatı məhsulları 3,4 mlrd. dollar səviyyəsinə

çatmışdır. Maraqlıdır ki, istehlak və yaşayış səviyyəsi o qədər də yüksək olmayan ölkədə xidmət sektorunun həcmi ildə orta hesabla 8-9 mlrd, səviyyəsində olmuşdur. Ölkə ixracı ilbəil 15-20 % səviyyəsində artmış, ildə 40-50 mlrd, dollar təşkil etmişdir. Bu ölkədə işsizliyin səviyyəsi 5 %-dən bir az çox olmuşdur. Ölkə iqtisadiyyatında investisiya qoyuluşunda önəmli yerləri Çin, Almaniya, Fransa, ABŞ, Malayziya, Tayvan, Sinqapur, Koreya, Tayland, Bruney kimi ölkələr tutmuşdur. Bu ölkələrin investorlan hesabına ölkənin müxtəlif iqtisadiyyat sektorlarına 500-ə yaxın investisiya layihələri yerləşdirilmiş və yatırılmış investisiyaların ümumi həcmi 50 mlrd. ABŞ dollarına yaxın olmuşdur. Ölkədə iqtisadiyyat sahələrinə daha aktiv iqtisadi alətlərin gətirilməsinin perspektivlərinə güclü inamın olması, bu ölkədə 1991-ci ildə ixrac-sənaye zo- nalarrınm yaradılması və fəaliyyəti üzrə qanunun qəbul edilməsi ilə nəticələnmişdir. Burada əsas məqsəd - ərazi və regionların rolunun artırılması, “açıq iqtisadiyyatın” genişləndirilməsi, sahibkarlığın inkişafı, sərhədyanı ticarət və kommersiya fəallığı nəticəsində sosial-iqtisadi problemlərin aradan qaldırılmasında mühüm addımlann atılması olmuşdur. Vyetnamda ilk iqtisadi zona Xoşi- mində - Tantxuan XİZ-i 1991-ci ildə artıq fəaliyyətə başlamışdır. İlk 10 il ərzində bu kimi müxtəlif zonaların sayı 60-dan çox olmuşdur. Bu zonaların əksəriyyətində xammalın ilkin emalından hazır məhsul almaq proseslərinin kompleks təşkili diqqəti cəlb etmişdir. Vyetnam XİZ-lərinin yaradılmasında, şübhəsiz əsas fəallıq Şimal-Şərqi və Cənub-Şərqi Asiya ölkələrinə məxsus olmuşdur. Məsələn, yapon şirkətləri elektronika, mühərrikyığma və robotların hazırlanması kimi yüksək texnologiya tələb edən sahələrə investisiya qoymuşlarsa, Tayvan və Cənubi Koreya finnaları əsasən kənd təsərrüfatı məhsullarının emalı sahələrinə daha geniş önəm vermişlər. Avropa və Amerika ölkələri isə əsasən xammal sahələrinə - xam neft və kimya sahələrinə investisiya yatırmışlar. Biz bu misalları qeyd edərkən, gələcəkdə Azərbaycanda XİZ-lərin tətbiqi zamanı müxtəlif ölkələrin hansı sahələrdə daha məhsuldar iştirakı və güclü investisiya yatırılması perspektivlərinə də bir növ mülahizələr yürütmüş oluruq. Vyetnam XİZ-lərinin ərazisi orta hesabla

154 hektar sahəni əhatə etmiş və bu ölkənin 27 region və şəhərlərində XİZ-lər yaradılmışdır. XİZ-lərdən 13-ü şimali Vyetnamda, 13-ü Vyetnamın orta regionlarında, 40-ı isə ölkənin cənubunda təşkil olunmuşdur. Artıq 2000-ci illərin əvvəllərində təkcə cənubda yerləşən XİZ-lərdə xarici investorlar tərəfindən icra edilən layihələrin sayı 1378 olmuş və buraya yatırılan investisiya resursları 24 mlrd. ABŞ dollanna yaxın olmuşdur. Qeyd etmək lazımdır ki, bu dövrdə ölkə cənubundan ümumi ixracın 35 %-i XİZ-Iərin payına düşmüşdür. Vyetnam hökuməti ölkənin paytaxtı Hanoyun inkişafını sürətləndinnək üçün XİZ institutundan praktikada məhsuldar istifadə etməyə müvəffəq olmuşdur. Burada təşkil olunmuş XİZ-lərdə 500-ə yaxın müxtəlif investisiya layihələri gerçəkləşdirilmişdir. Paytaxtdan 30 km. məsafədə yerləşən Xoa Lak sənaye zonasında yeni və yüksək texnologiyalann kəşfi, işlənməsi, hazırlanması və tətbiqi üzrə elmi mərkəz yaradılmışdır. Maraqlıdır ki, bu elmi mərkəzə ölkənin bu problemlər üzrə mövcud iri institutları, elmi-tədqiqat müəssisələri və profil tədqiqatçı-alimlər fəal surətdə cəlb edilmiş və hətta onların bir çoxlan yaşamaq və işləmək üçün bu zonaya daimi köçürülmüşdür. Qeyd etmək lazımdır ki, praktikada elmi-texniki inkişafa əhəmiyyətli dərəcədə əlavə stimullar verə biləcək bu kimi XİZ-lərin (əlbəttə, onlan müxtəlif cür adlandırırlar: texnoparklar, texnopolislər, elmi klasterlər və sairlər), XİZ institutundan istifadə edən və edəcək ölkələrin necə yararlanması daim müxtəlif suallar doğurur. Amma bir tarixi həqiqət məlumdur ki, bütün hallarda XİZ institutundan elmi-texniki tərəqqinin sürətləndirilməsində fəal istifadə edən ölkələrdə effektivli nəticələr əldə edilmişdir. Bu dünya təcrübəsinə baxarkən, bu gün ölkəmizin paytaxtı Bakı şəhərinin mərkəzində yerləşən onlarla elmi-tədqiqat institutlarının praktiki fəaliyyətində əlavə stimullara əhəmiyyətli dərəcədə zərurətin olmasını görməmək mümkün deyildir. Digər əhəmiyyətli praktiki bir misal paytaxt şəhərlərinin mərkəzində yerləşən sənaye müəssisələrinin yükünün azaldılması problemidir. Bu problem əvvəllər inkişaf etmiş ölkələrin əksəriyyətinin tarixi iqitsadi inkişaf proseslərində yer almışdır. Hazırda bu kimi proseslər inkişaf etmiş ölkə statusu almaq istəyən ölkələrə daha

çox xarakterikdir. XİZ-lərdən effektivli bəhrələnən Vyetnam hökuməti onlardan paytaxt Hanoyun mərkəzində yerləşən sənaye müəssisələrinin köçürülməsində və bu sahələrdə çalışan yüksək ixtisaslı vətəndaşların işlə təminatı problemlərinin həll edilməsində nisbətən uğurla istifadə edə bilmişdir. Belə ki, Yaponiya, ABŞ və bir sıra Avropa İttifaqı və ərəb ölkələrindən olan investorların hesabına paytaxt Hanoyun ətrafında yaradılan XİZ-lərdə elektronika, maşınqayınna, məişət texnikası və informasiya texnologiyaları üzrə müasir istehsal sahələri fəaliyyət göstərirlər. Ölkə XİZ-lə- ri üzrə apanlan ardıcıl və davamlı dövlət iqtisadi siyasəti imkan vermişdir ki, praktikada bu kimi zonalar ölkənin iqtisadi inkişaf proseslərində önəmli yer tuta bilsin. Son 5 il ərzində sabit olaraq, bütövlükdə XİZ-lərdə 600-650 min nəfər insan öz məşğulluğunu təmin edə bilmişdir və ölkədə fəaliyyət göstərən 120-dən çox XİZ-in 80-ə yaxını artıq məhsuldar fəaliyyət səviyyəsinə çata bilmişdir. Buna misal olaraq, ölkə XİZ-lərinin bütövlükdə illik gəlirinin 20 mlrd. ABŞ dollarından çox olduğunu göstənnək olar. Ölkə XİZ-lərindən səmərəli istifadə edilməsinə nail olan və bu ölkənin iqtisadi inkişaf proseslərinə ciddi əlavə stimullar verən belə zonaların uğurlu fəaliyyətini qiymətləndirən Vyetnam hökuməti 2020- ci ilə kimi yeni perspektivli XtZ-lərin yaradılması və beynəlxalq XİZ-lərin təşkilində fəal iştirak etmək niyyətindədir. Artıq 2011-ci ilin əvvələrinə aparılmış hesablamalara görə bu ölkənin XİZ-lərin- də 1 mln. insan işləyir və ölkənin 53 əyalət və şəhərini əhatə edən 180-a yaxın XİZ fəaliyyət göstərir. Bununla belə Vyetnam 2015-ci ilədək daha 100 yeni müxtəlif tipli XİZ-lərin yaradılmasını nəzərdə tutmuşdur.

Əvvəllərdə, bir çox hallarda qeyd edildiyi kimi, XİZ-dən səmərəli istifadə edilməsində və tətbiqi proseslərində bu effektivli iqtisadi mexanizmin fəal gerçəkləşdirildiyi ərazilərdən biri də hər hansı bir ölkənin regionlarıdır. Belə ki, istər-istəməz milli subyektlərin inkişaf prioritetləri müəyyənləşdirilərkən regionların balans- laşdırılmış inkişafı proqramlan da nəzərə alınmalıdır. Bir çox inkişaf etmiş ölkələr uzun dövr ərzində ölkə ərazisinin müxtəlif regionlarının paytaxtla və digər şəhərələrlə inkişaf fərqlərinin əsaslı

şəkildə azaldılmasına nail ola bilmişlər. Qeyd etmək lazımdır ki, Azərbaycanda da son 10 il ərzində regionlann davamlı iqtisadi inkişafı məqsədilə islahatlar gücləndirilmiş, məqsədli dövlət proq-ramlan qəbul edilmiş, müxtəlif infrastruktur layihələri uğurla həyata keçirmişdir və s. Bunlarla belə, dünya təcrübəsində regionların iqtisadi inkişaf proseslərinin gücləndirilməsində, burada sahibkarlıq subyektlərinin inkişafına əlavə stimulların verilməsində, əhalinin ictimai və əmək fəallığının artırılmasında, məşğulluğun təminatında, yoxsulluğun səviyyəsinin azaldılmasında, əhalinin gəlirlərinin yüksəldirilməsində XİZ-dən fəal istifadə nümunələrinə rast gəlinir. ABŞ-da, Braziliyada, Çində, Cənubi Koreyada, Türkiyədə, bir sıra digər ölkələrdə bu istiqamətdə müsbət təcrübələr toplanmışdır və bunlann əksəriyyəti barədə iqtisadi ədəbiyyatlarda araşdırmaların nəticələri verilmişdir. Amma biz Azəbaycanda XİZ-in tətbiqi proseslərinin heç də asan olmayacağı, bu məsələnin kompleks yanaşmaq tələb edəcəyini nəzərə alaraq, Azərbaycanın iqtisadi sistemi və iqtisadi inkişaf proseslərinə nisbətən oxşar olan ölkələrdə XİZ-dən regionların inkişafı proselərində istifadə praktikasında əldə edilmiş müsbət nəticələrlə yanaşı, burada müşahidə olunmuş problemlərə, neqativ proseslərə, mühüm xüsusiyyətlərə daha çox yer ayırmağı məqsədəuyğun bilmişik. Məlumdur ki, regionlann inkişafı heç də təkcə Proqramların qəbulundan və infrastruktur obyektlərinin tikintisindən ibarət deyildir. Burada iqtsadi inkişaf proseslərinin davamlı olması məqsədilə, ənənəvi təsərrüfat-məşğulluq işləri ilə yanaşı, müasir iqtisadi inkişaf atributlarının geniş tətbiqinə əlverişli şərait yaradılmalıdır. Məsələn, kiçik və orta biznes subyektlərinin inkişafına dəstək, istehsal və emal sahələrinin geniş şəbəkəsinin qurulmasına mütərəqqi vergi münasibətləri, biznes-kommersiya mühitinin yaxşılaşdırılması, ən kiçik region təsərrüfat-kommersiya subyektlərinin xarici-iqtisadi əlaqələrin iştirakçılanna çevrilməsinə əlavə stimulların verilməsi kimi faktorlar bu ərazilərdə əhəmiyyətli səviyyədə iqtisadi inkişafa, sosial-iqtisadi problemlərin həllinə imkan verərdi. Şübhəsiz, dövlətin bu iqtisadi prioritetlərin hamısının mərkəzləşdirilmiş foriTiada maliyyələşdirilməsi və tədbirlərin həyata keçirilməsi çevri müm

kündür. Bu halda isə dünya təcrübəsində uğurla sınaqdan çıxmış məhsuldar iqtisadi alət kimi XİZ-dən praktiki istifadə özünü doğrultmaya bilməz.

XIZ-lər vasitəsilə regionlann iqtisadi potensiallarının gücləndirilməsi və onlann davamlı iqtisadi inkişafının təmin edilməsini araşdıran rusiyalı tədqiqatçı-alim L.Q.Leskova bu kimi zonaların tətbiqi vasitəsilə regionlarda vergi sisteminin boğuculuğunun azaldılması, təsərrüfat subyektlərinin gəlirlə idarə edilməsi üçün iqti- sadi-biznes mühitinin fomıalaşması, maliyyə resurslarından istehsalatların yaradılmasında daha səmərəli istifadə olunması, əlverişli investisiya zonasının təşkili və investorların cəlbini təmin edən güzəştlər sisteminin tətbiqi, ölkənin iqtisadi inkişaf proseslərində regionlann fəal və məhsuldar iştirakının təmin olunması kimi mühüm strateji vəzifələrin öhdəsindən gəlməyin prioritet istiqamətlərini vennişdir fllöj. Maraqlıdır ki, bu araşdırmaların əsas subyektləri MDB ölkələri, əsasən Rusiyadır. Belə ki, MDB-nin Rusiya, Ukrayna, Qazaxıstan, Özbəkistan, Belorus kimi ölkələrində regionların iqtisadi inkişaf səviyyələri xeyli fərqlənirlər. Bu məsələ olduqca aktuallağı ilə seçildiyindən və Azərbaycanda da dövlət iqtisadi siyasətinin əsas prioritetlərindən biri olduğundan xüsusi maraq kəsb edir. Məsələn, Rusiyada Moskva, Sankt-Peterburq, Sverdlovsk və Samara vilayətləri ilə Komi-Permyatskaya, Arin- skiy Buryatiya, Nenetsk muxtar dairə arasında bir çox iqtisadi potensial indikatorlan arasındakı fərqlərin səviyyəsi 50-250 dəfədən çox fərqlidir. İsveçrə və Almaniya kimi ölkələrdə isə bu kimi indikatorlar arasındakı fərq 1,5 dəfədən çox deyildir. Rusiyada 11 iqtisadi rayonun potensiallan qiymətləndirilərkən, məlum olmuşdur ki, Mərkəzi iqtisadi rayonun potensialı Şimal iqtisadi rayonundan 7,0 dəfə, Şimal-Qərbdən - 3,4 dəfə, Volqa-Vyatskidən - 5,6 dəfə, Mərkəzi-Qaratorpaqdan - 3,0 dəfə. Şimali Qafqazdan - 3,4 dəfə. Uraldan - 2,3 dəfə, Şərqi-Sibirdən - 2,4 dəfə və Uzaq Şərqdən - 4,2 dəfə çox olmuşdur. Şübhəsiz, bu fərqlər iri potensiala malik regionlarda əhalinin sıxlaşmasma, miqrasiya problemlərinin artmasına, federal subyektlər arasında iqtisadi inkişaf prosesləri səviyyəsinin əsaslı şəkildə fərqlənməsinə rəvac verir. Bu problemlə

rin nisbətən aradan qaldınlması üçün praktiki fəaliyyət proseslərində təklif olunan XİZ-dən istifadənin effektivliyi əlbəttə nəzərdən qaçmamalıdır.

Rusiya və Qazaxıstanda regionların iqtisadi inkişaf proseslərinin sürətləndirilməsində, xüsusilə ixrac təyinatlı istehsal sahələrinin yaradılması ilə, bu regionlann rəqabət qabiliyyətlərinin artırılması məqsədilə XİZ-dən istifadə edilməsi nümunələrindən bəzilərinə baxmaq maraqlı olardı. Qazaxıstanın cənubunda yaradılmış tekstil XİZ-i bu regionun iqtisadi-biznes simasını tam dəyişməyə imkan vennişdir və bu XİZ üzrə iqtisadi ədəbiyyatlarda araşdırmalar öz əksini tapmışdır. Biz Qazaxıstan regionlarından birində yerləşən XİZ-dən praktiki istifadənin maraqlı məqamlarına toxunmağa üstünlük verməyi məqsədəuyğun bildik. Məsələn, Lisakovsk şəhərində təşkil edilən XİZ-in fəaliyyəti diqqətimizi cəlb etmişdir. Belə ki, bu şəhərin taleyi iri sənaye müəssisələrindən, xüsusilə, burada yerləşən “Lisakovsk Dağ-Mədən Kombinatf’ndan asılı olmuşdur. Bu şəhərdə dənizə çıxış, iri aeroport və yaxud nəqliyyat marşmtları yoxdur. Mərkəzləşdirilmiş iqtisadi idarəetmə sistemi SSRİ-nin süqutu ilə tarixə qovuşduğundan, bir çox mərkəz əhəmiyyətli iri müəssisələr XX əsrin 90-cı illərindən başlayaraq ciddi problemlərlə üzləşməli oldular. Belə problemlərə mərkəzləşdirilmiş xammal bölgüsünün və satış sifarişlərinin olmaması səbəbindən xammalla təminatdakı çətinliklər, qiymət siyasətindəki qeyri-sabitlik, sifarişlərin xeyli azalması, dövriyyə vəsaitlərinin çatmaması, əsas fondların yenilənməsinə kapital qoyuluşunun da- yandınlması, kadr axıcılığı, ixtisarlar, investisiya resurslarının olmaması və sairlər daxil olmuşdur. Qeyd etmək lazımdır ki, bu kimi problemlərin əksəriyyətini Azərbaycanda yerləşən mərkəz (ittifaq) tabeli müəssisələr də yaşamışdır (Azərbaycan Boru-Prokat zavodu, Bakı Kondisionerlər zavodu, Sumqayıt Kompressorlar zavodu, Sumqayıt və Gəncədə yerləşən bir sıra iri kimya və alümini- mum müəssisələri və s.).

Qazaxıstanın Lisakovsk şəhərində XİZ-in yaradılması ideyası 1990-cı illərin əvvəlində ortaya çıxmışdır. Belə ki, bu şəhərdə olan əsas sənaye müəssisələri sürətlə böhran fazasına qədəm qoymuş

dular. Şübhəsiz, bu məqam şəhər rəhbərliyini və ölkə hökümətini ciddi narahat etməyə bilməzdi. Artıq Qazaxıstanda “Xüsusi iqtisadi zonalar” haqqında Qanun 1990-cı ildən qüvvədə idi. Bu amillər nəzərə alınmaqla Qazaxıstan Ali Sovetinin 30 iyun 1992-ci il Qə-ran ilə Lisakovsk şəhəri XİZ elan olunmuşdur. Burada XİZ-in yaradılmasında əsas məqsəd şəhərdə mövcud istehsal potensialının qorunması və yenidənqurulması istiqamətində kompleks tədbirlərin görülməsi, iri müəssisələrə alternativ şəbəkənin təşkili məqsədlə kiçik və orta biznes subyektlərinin inkişafına əlavə stimullar vemıək, iş yerlərinin azalmasının qarşısını almaq, sənaye məhsul-lannın çeşidini artınnaq və bu prioritet vəzifələrin maliyyələşdirilməsi üçün investisiyaların cəlbinə münbit şəraitin yaradılması olmuşdur. Maraqlıdır ki, artıq “Lisakovsk” XİZ-inin yaradılmasından keçən ilk 5-7 il ərzində bu şəhərdə emal və digər təsərrüfat subyektlərinin sənayedə ümumi payı 40 faizə yaxın artmışdır və şəhərin iri müəssisələrdən asılılığı əsaslı şəkildə azalmışdır. Lisakovsk XİZ-i yaradılarkən Qazaxıstan höküməti bu zonanın qarşısında 3 mərhələni əhatə edən strateji məqsədlər qoya bilmişdir və bunlann XİZ-in tətbiqi proseslərində əhəmiyyətli olduğunu nəzərə alaraq, həmin mərhələlərin qısa məzmununu qeyd etmək istərdik. 1993-1995-ci illəri əhatə edən I mərhələyə regionda istehsal və emal kompleksinin səmərəli sisteminin işlənib hazırlanması, XİZ- in qarşısında duran strateji məqsədlərin Lisakovsk şəhərinin sosial-iqtisadi inkişafı ilə uyğunlaşdırılınası, 1996-2003-ci illəri əhatə edən II mərhələyə istehsal sahələrinin yenidən qurulması, bərpası, istehsal güclərinin artırılması, 2003-2010-cu illəri əhatə edən 3-cü mərhələyə isə elmi-texniki yeniliklərin və innovasiyaların cəlb edilməsi yolu ilə müasir sənaye və iqtisadi potensialın fonnalaş- ması, Lisakovsk şəhərinin sosial-iqtisadi problemlərinin kompleks həllinin sürətləndirilməsi, şəhər əhalisinin yaşayış səviyyəsinin ar- tınlması nəzərdə tutulmuşdur. Bu mərhələrlərin icrası proseslərində 16-dan çox proqram tipli layihələr reallaşdırılmışdır. Bunlara dağ-mədən filizlərinin emalı üzrə istehsalların təşkili (solit, sirkon, boksit, sink, azurit və s.), 400-dən çox qida məhsullarının istehsal- emal müəssisələri, kimyəvi plastik məmulatlar istehsal edən mü

əssisələr, nəqliyyat və rabitə sferasının inkişafı, istehsal infrastrukturlarının yaradılması məqsədilə müasir Texnokoparkın salınması aiddirlər. “Lisakovsk” XİZ-ində vergi rejiminin əlverişli olması, bu zonanın inzibati idarəetmə strukturunun səmərəli fəliyyətinin təşkili və Qazaxıstan hökümətinin bu kimi zonalarla bağlı iqtisadi siyasətinin sabitliyi bu zonanın qarşısına qoyulan strateji vəzifələrin Rusiya və digər MDB ölkələrinin həmin dövrlərdə yaradılmış XİZ-nə nisbətən daha uğurla yerinə yetirilməsinə imkan vennişdir və nəticədə şəhərin sənaye-emal potensialı yeniləşmiş, moderniza- siya olunmuş, xidmət və istehlak səviyyəsi əhəmiyyətli dərəcədə artmış, şəhər əhalisinin yaşayış səviyyəsi yüksəlmişdir. XIZ-in keçmiş SSRİ respublikalarında tətbiqi proseslərinin tarixi inkişaf mərhələlərinə baxarkən, məhz 1990-cı illərin ortalarında Azərbaycanda bu kimi zonaların yaradılması diskussiyalarını və tədbirlərini də xatırlatmaq yerinə düşərdi. Belə ki, o vaxtlar Azərbaycanda Sumqayıt şəhərinin sənaye potensialının qorunub saxlanılması, yenidənqurulması və bu şəhərin sənaye-xidmət sektoruna investi- siyilann gətirilməsinin stimullaşdırılması məqsədilə Beynəlxalq təşkilatlann köməyi ilə **İlk Azərbaycan XİZ-nin** yaradılması üçün cəhdlər göstərilmişdir. Amma təəssüf ki, həmin dövrdə XİZ- lər üzrə qanunvericilik bazasının formalaşmaması, maliyyə resurslarının azlığı, XIZ kimi mürəkkəb iqtisadi vasitənin problemlərinin və dünya təcrübəsinin zəif öyrənilməsi, Sumqayıtda yaradılması nəzərdə tutulan XİZ-in prioritetlərinin və ərazisinin ciddi el- mi-iqtisadi əsaslandınİmaması bu kimi effektivli iqtisadi alətin tətbiqinə imkan vennəmişdir. Digər tərəfdən, Azərbaycanda ilk XİZ-in yaradılması ideyasının Sumqayıtda iflasa uğraması, sonradan uzun bir dövr ərzində bu kimi XİZ-in tətbiqinə ciddi addımların atılmasına mənfi təsir göstərmişdir.

XİZ-lərin təşkili və tətbiqi proseslərində, onlardan səmərəli istifadə edilməsində mühüm əhəmiyyət kəsb edən problemlərdən biri də - optimal və mükəmməl hüquqi qanunvericilik aktlarının işlənib hazırlanması və qəbul edilməsi, bunlarla bağlı ölkənin ərazisində fəaliyyət göstərəcək zonaların normativ qaydaların mükəmməl modelinin ortaya qoyulmasıdır. Çünki dünya

bir çox hallarda məhz qanunvericilik aktlannın qeyri-mükəmməl olması XİZ instrumentinin müvafiq iqtisadi sistemlərə uğurla daxil olmasına və möhkəmlənməsinə imkan vemıəmişdir. Bu baxımdan biz XİZ-lərin yaradılması və fəaliyyəti ilə bağlı qanunvericilik proseslərində müəyyən mürəkkəb mərhələlər keçmiş və bu sahədə təkmilləşdinnələr aparılmış, eyni zamanda Azərbaycanın iqtisadi inkişaf mərhələləri və iqtisadi tarix prosesləri ilə son 70-90 ildə nisbətən oxşarlığı olan Ukrayna təcrübəsi ilə tanışlığa daha geniş i'stünlük vennəyi məqsədəuyğun hesab etdik. Heç də sirr deyildir ' .i, Azərbaycanda qanunvericilik bazasının fonnalaşması və müəy- /ən qanunlann qəbul edilməsi üzrə MDB ölkələrinin, o cümlədən 'Ukraynanın təcrübəsinə isnad mövcuddur və bu quruma daxil olan ölkələrin əksəriyyəti ilə Azərbaycanın uzun müddətli əməkdaşlıq münasibətləri bağlayır. Ukraynada XİZ-lərin yaradılması və fəaliyyətinin ümumi prinsipləri haqqında qanun 1992-ci ildə 13 oktyabrda qəbul edilmiş, lakin bir sıra təkmilləşdirmənin vacibliyi ilə əlaqədar 2005-ci ilin mart ayının 25-də bu qanuna bir sıra dəyişikliklər və əlavələr edilmişdir. Qanuna görə XİZ-lər Ukrayna ərazisinin bir hissəsi olmaqla, bu ölkənin qanunvericiliyi ilə fəaliyyət göstərən xüsusi hüquqi-iqtisadi rejimə malik ərazidir. XİZ-lərin ərazisində milli və xarici fiziki və hüquqi şəxslərin iqtisadi fəaliyyətini tənzimləmək üçün gömrük, valyuta-maliyyə və vergi güzəştlərindən ibarət rejimlər güvvədədirlər [c.7,137]. Bu ölkədə XİZ-lərin yaradılmasının əsas məqsədlərinə xarici investisiyaların cəlb edilməsi, xarici investorlarla birlikdə sahibkarlıq fəaliyyətinin gücləndirilməsi, mal və xidmətlərin ixracının artırılması, Ukraynanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün bu zonalar vasitəsi ilə yeni texnologiyaların, təsəiTÜfatın bazar metodu ilə idarəedilməsinin optimal modellərinin gətirilməsi, bazar infrastrukturunun inkişafı, təbii və əmək ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi və sairlər daxildirlər. Ölkədə prioritet XİZ modelləri kimi sərbəst gömrük zonaları və limanları, ixrac və tranzit zonalar, gömrük anbarları, texnoloji parklar (texnopolislər), kompleks istehsal zonalan, turizm-rekreasiya, sığorta və bank təyinatlı zonalar götürülmüşdür. Qeyd etmək lazımdır ki, Ukraynada

bir sıra XİZ-lər artıq 10 ildən çoxdur ki, nisbətən uğurla fəaliyyət' göstərirlər. Praktiki baxımdan maraq doğuran bir sıra XİZ-lərin qanunvericilik bazalarının əsas xüsusiyyətlərinə baxaq. Məsələn 1990-cı ildə yaradılmış “Yavorov” XİZ-nin fəaliyyət müddəti 2020-ci ilin yanvarın 1-dək müəyyən edilmişdir. Bu zonanın yaradılmasında mühüm prioritet kimi investisiyaların cəlb edilməsi, Yavorov “Sirka” Dövlət Dağ-kimya müəssisəsinin istehsal gücünün azalması ilə əlaqədar əmək bazarlannda sərbəstləşən insanların işlə təminatı üçün yeni iş yerlərinin yaradılması, müasir istehsal sahələrinin təşkili və ekoloji problemlərin həllinin sürətlənd - rilməsi, regionda iqtisadi fəallığın və sahibkarlıq fəaliyyətini gücləndirilməsi, yeni texnologiyalann gətirilməsi, daxili istehlakıı. tələbatının ödənilməsi və ixrac edilməsi məqsədi ilə rəqabət qabiliyyətli məhsulların istehsalının təşkili götürülmüşdür. 2000-ci ildə yaradılmış “Reni” XİZ-nin ərazisi 94 hektardan çoxdur və bu zona 30 il müddətində fəaliyyət göstərəcəkdir. Bu XİZ-in yaradılmasında prioritet vəzifələr kimi xarici iqtisadi əlaqələrin və sahibkarlığın inkişafı, yeni texnologiyalann tətbiqi, liman kompleksinin potensialından istifadənin təmin edilməsi və onun infrastrukturunun inkişafı, müasir istehsal, nəqliyyat və bazar infrastrukturunun yaradılması götürülmüşdür. Zonanın rezidentləri üçün minimum investisiya layihələrinin həcmi 200 min ABŞ dollarıdır. 2000-ci ildə Odessa dəniz ticarət limanının ərazisində yaradılmış “Porto-Fran- ko” XİZ-inin fəaliyyət müddəti 25 il müəyyənləşdirilmiş və ərazisi 32 hektardan çoxdur. Bu XİZ-in ümumi perimetri 3 km. ərazini təşkil edir və bunun 660 metri sahil boyunda yerləşir. “Porto-Fran- ko” XİZ-nin yaradılmasında əsas məqsəd investisiyalann cəlbi, mövcud iş yerlərinin saxlanması və yenilərinin yaranması, xarici ticarət fəaliyyətinin və biznesin inkişafı, yeni texnologiyalann tətbiqi, liman kompleksinin potensilaindan səmərəli istifadənin təşkili və sairlərdir. Bu zonada rezidentlərin investisiya layihələrinin ümumi dəyəri 1 mln. ABŞ dollanndan az olmamalıdır. 2000-ci ilin iyul ayında yaradılmış “Nikolayev” XİZ-i 30 il müddətə fəaliyyət göstənnəklə, 740 hektar ərazini əhatə edir. Bu zonanın ərazisində “Qara dəniz Gəmiqayırma

du" ASC və "61 Komunar adına Gəmiqayımıa zavodu" dövlət müəssisəsi kimi iri müəssisələr yerləşirlər. Məhz bu baxımdan bu zonanın təşkili ilk növbədə həmin müəssisələrin istehsal potensialının saxlanması, iş yerlərinin qorunması, istehsal və xidmət proseslərinə müasir texnologiyaların gətirilməsi və tətbiqi proseslərinə xarici investisiyaların və xarici iqtisadi əməkdaşlıq proseslərinə investorlann cəlb edilməsinin stimullaşdırılması ilə bilavasitə bağlıdır. Qeyd etmək lazımdır ki, vaxtilə bu zonanın yaradiması qərarın əsaslandınimış olmasını sonrakı proseslər praktikada təsdiqləı .işdir. Belə ki, keçmiş SSRİ ölkələrinin əksəriyyətində analoji lil un komplekslərində ciddi çətinliklər və xidmətin əhəmiyyətli *i* '>əcədə azalması baş vermişdirsə, "Nikolayev" XİZ-nə daxil öıän liman və gəmiqayırma kompleksləri yenidənqumıa və model-'ləşdinnə tədbirləri sayəsində iflasa uğramaqdan yaxa qurtara bil-/mişlər və tədricən infrastruktur və xidmət sahələrinin modemləşdirilməsini təmin etmək mümkün olmuşdur. "Nikolayev" XİZ-də rezidentlərin investisiya layihələrinin minimum həcmi qida sənayesində və kənd təsərrüfatı məhsullarının emalı sənayesində 500 min ABŞ dolları, maşınqayınna və cihazqayırma sahələrində 1 mln. ABŞ dollan və, nəhayət, gəmiqayımıa sənayesi müəssisələrində 3 mln. ABŞ dolları səviyyəsində müəyyənləşdirilmişdir.

1998- ci ilin dekabrında yaradılmış "Donetsk" və "Azov" XİZ-nin 60 il müddətə fəaliyyət göstənnəsi nəzərdə tutulmuşdur. "Donetsk" XİZ-i Donetsk şəhərinin cənubunda 466 hektarlıq ərazidə yerləşir. "Azov" XİZ-i isə Donetsk vilayətinin sənaye şəhəri olan Mariupol şəhərinin cənubunda yerləşməklə 315 hektara yaxın ərazini əhatə edir. Bu zonaların hər birində 30 il müddətinə xüsusi investisiya rejimi qaydaları işlənib hazırlanmış və qəbul edilmişdir. "Donetsk" və "Azov" XİZ-lərinin əsas prioritet istiqaməıtlərinə dağ-mədən və digər sənaye sahələrinin stmkturunun təkmilləşdirilməsi və yeniləşdirilməsi, müasir texnologiyaların əsasında yeni istehsal sahələrinin yaradılması və xarici-iqtisadi əlaqələrin inkişafı, yüksək standartlara cavab verən məhsulların istehsalının təşkili və xidmətlərin göstərilməsi və, nəhayət, regionun təbii ehti- yatlanndan effektivli istifadə edilməsi aiddirlər. Daha bir XİZ -in

vestisiya fəaliyyətli xüsusi rejim fomıasmda Xarkov şəhərində 2000-ci ilin may ayında yaradılmışdır. Bu zonanın yaradılmasında əsas məqsəd Xarkov şəhərinin ərazisində prioritet iqtisadi fəaliyyət sahələrinin inkişafına investisiyaların cəlb edilməsi olmuşdur. Bu xüsusi investisiya rejimi 30 il müddətinə müəyyənləşdirilmişdir. Bu XİZ-də metallurgiya və metal emalı, maşın və avadanlıqların istehsalı, elektrik, elektron və nəqliyyat avadanlıqlarının istehsalı sahələrində investisiya layihələrinin minimum dəyəri - 3 r ıln. ABŞ dolları, elektrik enerjisi, qaz və su sferalarında 1 mln. ***i*** BŞ dolları, tikinti, kimya istehsalı, mebel, kağız və nəşriyyat sah b- rində 700 min ABŞ dollan və, nəhayət, qida, tekstil sənaye sah :ə- rində 500 min ABŞ dolları səviyyəsində müəyyənləşdirilmiş 'r Məlumdur ki, Knm avtonom Respublikasının hələ Sovetlər Birlr '• dövründə investisiya cəlbediciliyi şübhə doğurmurdu. Lakin 1990 cı illərin əvvəllərində SSRİ-nin süqutundan sonra bu ərazinin si-^ yasi arenaya çevrilməsi, Ukrayna və Rusiya arasında mübahisəli və ziddiyyətli müzakirə predmeti kimi xarakterizə edilməsi regionun sosial-iqtisadi inkişafına mənfi təsir gösətrmiş və investisiya riskini xeyli artırmışdır. Bu amilləri nəzərə alan Ukrayna hökuməti 2000-ci ilin dekabnnda Kjımda “Port Krım” XİZ-i yaratmaqla regionun prioritet inkişafına ciddi stimullar verə biləcək xüsusi investisiya fəaliyyəti rejimi mühitini fonnalaşdınnaq məqsədini qarşıya qoymuşdur. Bu XİZ-in yaradılmasında prioritet vəzifələr regiona - istehsal sahələrinə, turizm infrastrukturuna investisiya resurslarının gətirilməsinin sürətləndirilməsi, yeni texnologiyaların tətbiqinin stimullaşdınıması və yeni iş yerlərinin yaradılması daxildirlər. Zonanın fəaliyyət müddəti 30 illiyə və investisiya layihələrinin həcmi fəaliyyət sahələrindən asılı olaraq minimum 100 min ABŞ dollarından 1 mln. ABŞ dollannadək müəyyən edilmişdir. Qeyd etmək lazımdır ki, Ukrayna, ümumiyyətlə XİZ institutundan ölkənin müxtəlif regionlannm iqtisadi inkişaf prioritetlərinin reallaşdırılmasında fəallığı ilə seçilən az sayda keçmiş SSRİ respublikalanndan biri kimi fərqlənir. Məsələn, Luqansk vilayətinin prioritet inkişaf ərazilərində iqtisadi fəallığı

1999- cı ilin iyul ayında xüsusi investisiya rejimi yaradılmışdır. 30 il müddətində fəaliyyət göstərəcək bu ərazidə əsasən dağ-mədən və digər sənaye müəssisələrinin yeniləşdirilməsi, modern istehsal sahələrinin yaradılması, müasir texnologiyaların regiona gətirilməsi və sairlər nəzərdə tutulmuşdur, investisiya layihələrinin minimum həcmi isə 500 mindən 1 mln. ABŞ dollaradək təşkil edir. Digər bir maraqlı məqam isə Ukraynanın qərbində yerləşən turizm potensialından səmərəli istifadə edilməsi məqsədilə, 1999-cı ilin mart ayında yaradılmış "Truskavets Kurortpolis" turizm-rekreasiya tipli XİZ-in yaradılması ilə bağlıdır. 20 illik müddətə yaradılmış bu XİZ Lvov vilayətinin Truskavets şəhərinin ətrafında yerləşir. Bu XİZ-in yaradılmasından əsas stimullar regiona investisiya və innovasiya fəaliyyətinin gətirilməsi, təbii sağlamlıq resurslarının qorunması, saxlanılması və onlardan daha səmərəli istifadə edilməsi sahələrinə müasir təsərrüfat-xidmət münasibətlərinin tətbiq edilməsi, müalicə-sağlamlıq və turizm sahəsində iqtisadi islahatların gücləndirilməsi və bu istiqamətlər üzrə xidmətlərin daha yüksək standartlar səviyyəsində qaldırılması olmuşdur. Jitomir vilayətində 1999-cu ilin dekabr ayından fəaliyyət göstərən xüsusi rejimin əsas prioritetlərinə regionda yüksək keyfiyyətli mal və xidmətlərin həcminin artırılması, müasir istehsal, nəqliyyat və bazar infrastrukturlanmn yaradılması, yeni texnologiyaların tətbiqinin asanlaşdınlması, xarici iqtisadi əlaqələrin inkiaşafınm sürətləndirilməsi olmuşdur. Eyni rejimli iqtisadi fəaliyyət prioritetləri

2000- ci ilin aprel ayından Volın vilayətində də qüvvədədir. 2001-ci ilin mart ayında təsis edilmiş Zakarpatye XİZ-i 738 hektara yaxın ərazini əhatə edir və 30 il müddətinə fəaliyyət göstərcəkdir. Bu zonanın qarşısında duran prioritet vəzifələrə regiona investisiyala-nn gətirilməsi, xarici-iqtisadi əlaqələrin inkişafının sürətləndirilməsi, müasir infrastruktur şəbəkəsinin qurulması, yüksək texnologiyalar əsasında məhsulların istehsalı, mal və xidmətlərin təşkili daxildirlər. Qeyd etmək lazımdır ki, Ukraynanın bir sıra digər ərazilərində, o cümlədən Sumı vilayətinin Şostka şəhərində və Çcrni- qov vilayətində də investisiya fəaliyyəti üzrə xüsusi rejimlər qüvvədədirlər. Biz bilərəkdən Ukraynanın bir qrup

cud qəbul edilmiş investisiya rejimlərinin və onların prioritet iqtisadi inkişaf istiqamətinin əsas məqamlannı verdik. Bu onunla bağlıdır ki, SSRİ-nin süqutundan sonra bu quruma daxil olan res- publikalann əksəriyyətində iri müəssisələrin potensialından səmərəli istifadə edilməsi, zəruri hallarda prtofiİlərinin yeniləşdirilməsi, öz resurslannı başa vurmuş istehsal sahələrinin müasir texnologiyalar əsasında modernləşdirilməsi, müasir infrastruktur şəbəkəsinin yaradılması, innovasiya fünksiyalannın və yüksək texnologi- yalann real iqtisadi fəaliyyət sahələrinə tətbiqinin təşkili, prioritet ərazilərin və iqtisadiyyat sahələrinin inkişafının sürətləndirilməsi, uzun illər ərzində yığılmış sosial-iqtisadi problemlərin həllində fərqli iqtisadi mexanizmlərdən istifadə edilməsi problemləri mövcud idi. Qeyd etmək lazımdır ki, göstərilən problemlərin əksəriyyəti bu gün də bir çox MDB ölkələri üçün xarakterikdir. Azərbaycanda da göstərilən istiqamətlərin bir qrupu üzrə son 10-15 ildə xeyli pozitiv irəliləyişlər olsa da, hələ də mövcud potensialdan və perspektiv imkanlardan daha səmərəli istifadə olunmayan iqtisadiyyat sektorları, xüsusilə bir sıra sənaye sahələri mövcuddur. Bu sahələrin prioritet iqtisadi inkişaf istiqamətlərində fərqli iqtisadi rejimlərin, o cümlədən XİZ-lərin tətbiqi praktikasında Ukrayna təcrübəsi, bu təcrübənin müsbət və mənfi aspektləri praktiki baxımdan əhəmiyyətli ola bilər.

Dünya təcrübəsində XİZ-lərdən səmərəli sitifadə edilməsinin əsas kriteriyalarınm təhlili göstərir ki, bir qrup ölkələrdə XİZ-in bu ölkələrin iqtisadi sistemində yer tuta bilməməsinin səbəbi, bu kimi zonaların yaradılması və fəaliyyəti ilə bağlı qeyri-sabit iqtisadi rejimin olması və XİZ modellərinin tətbiqi zamanı buraxılmış səhflərlə bağlıdır. Bu baxımdan, XİZ-in hər bir ölkənin milli iqtisadiyyatının inkişaf prioritetlərinə müsbət təsir edəcəyi amilləri nəzərə almaqla, qeyd etmək lazımdır ki, bu kimi zonaların yaradılması qərarından tətbiqi proseslərinə kimi qanunvericilik bazası, iqtisadi rejimlərin hazırlanması, həyata keçirilməsi mərhələlərində sabit siyasi və iqtisadi siyasətlə yanaşı, bu proseslərin əsasında bu kimi XİZ-lərdən effektivli istifadə edilməsinin baza prioritetlərdən kənara çıxılmaması zəruridir.

## 2.3. Qloballaşma və iqtisadi transformasiyalar şəraitində XİZ-in tətbiqini şərtləndirən amillər

XX əsrin əvvəllərindən başlayaraq müasir dünya iqtisadiyyatının ən ciddi tendensiyaları belə qloballaşma elementlərinin kölgəsində qalmışdır. XİZ-lərin tətbiqi problemlərini öyrənərkən hazırkı dünya təsərrüfat proseslərinin bu kimi zonaların fəaliyyəti ilə bağlı qarşılıqlı münasibətlərinin demək olar ki, ən həlledici fazalan belə qloballaşma elementləri ilə əhatə olunmuşdur. Bu baxımdan qısa da olsa qloballaşmanın mahiyyətinin ən mühüm aspektlərinə, onun yaranmasını şərtləndirən əsas amillərə və bu problemin dünya iqtisadi proseslərinə, milli iqtisadi subyektlərin inkişafına, ümumiyyətlə təsərrüfat və ticarət proseslərinin qarşılıqlı kooperasiya və dünya bazan məkanında fəaliyyəti istiqamətlərinə edə biləcəyi təsirlərin baxılmasını məqsədəuyğun hesab etdik. Ümumiyyətlə, son illərdə nəinki dünya iqtisadiyyatın müxtəlif sahələri, elə həyatımızın və cəmiyyətin bütün sahələri, xüsusilə də dünya siyasəti tamamilə güclü transformasiyalara məruz qalmış və qloballaşma elementləri ilə zənginləşmişdir. Hətta bir çox hallarda siyasi qloballaşma elementləri bu və ya digər fonnada dünyanın müxtəlif regionlannda siyasi və iqtisadi güclərin dəyişdirilməsi ilə yanaşı, uzun dövr ərzində fonnalaşmış siyasi və iqtisadi rejimlərin çal- xalanmasma, dağılmasına, yeni siyasi və iqtisadi rejimlərin formalaşmasına səbəb olur. Bəlkə də "Ərəb baharı" adı ilə dünyanın həssas və neft resursları ilə zəngin bir qrup ölkələrinin siyasi re-jimlərindəki dəyişiklik, hərbi qarşıdurmalar, insan ölümləri, elə qloballaşan dünyanın ən ağır fəsadlan kimi qiymətləndirilə bilər. Hətta özünü demokratiyanın beşiyi hesab edən qabaqçıl Avropa ölkələrinin liderləri bir çox ölkələrin milli və tarixi faciələri proseslərində siyasi və iqtisadi dividentlər qazanmaqdan belə, əl çəkməmək iddiasında olduqlarını bütün dünyaya nümayiş etdirmişlər. Digər tərəfdən, qloballaşma elementlərinin əsasında nə qədər siyasi motivlər dayansa da, bunların əksəriyyəti iqtisadi maraqlarla bilavasitə bağlıdır. Məsələn, transmilli iri kompaniyalann hər hansı

bir milli subyektdə və regionda strateji planlarının və məqsədlərinin reallaşdırılması mümkün olmadıqda, bu kompaniya məxsus olduğu ölkənin siyasi gücü və özünün iqtisadi resursları vasitəsi ilə həmin yerlərdə möhkəmləmnək üçün bütün vasitələrdən istifadə etməsi dünya praktikasında uzun illər ərzində müşahidə olunmaqdadır. Bunlarla bərabər, son 20 il ərzində dünyada yeni dövlətlərin yaranması və beynəlxalq qurumların tərkibinin dəyişilməsi və yaxud genişlənməsi regional maraqlann transfonnasiyası, dünya maliyyə və iqtisadi sistemlərin çat vennəsi, bunlarla bağlı, maliyyə böhranının dərinləşməsi, əksər ölkələrdə iqtisadi tənəzzülün güclənməsi, son illərdə əsaslı iqtisadi artım tempinə malik ölkələrdə iqtisadi artımın zəifləməsi və sair bu kimi amillər dünya iqtisadi sistemində sabit və effektivli iqtisadi rejimi təmin edə biləcək mexanizmlərin işlənməsini şərtləndirir. Buna nail olmaqdan ötrü, ilk növbədə klassik və nisbətən 30-50 il bundan əvvəl formalaşmış iqtisadi nəzəriyyələrə müasir dövrün prioritetləri kontekstində və qloballaşmanın yaratdığı tamamilə fərqli dünya iqtisadi mühitinin prizmasından baxmaq zərurəti diqqəti cəlb edir. ıMəhz bu baxımdan XİZ-lərin tətbiqi ilə bağlı problemləri araşdırarkən, qloballaşma elementlərinin təsirini və iqtisadi transformasiyalar amilini nəzərə almağı da lazım bilmişik. Bir qrup rusiyalı alim bu problemlərin öyrənilməsinə müxtəlif elmi-flındamental prizmalardan baxmışdır. Məsələn, professor Y.M.Osipov qloballaşmanın hər şeзdn ümumləşdiyi və onun içərisində əridiyi bir məkan hesab edir. İqtisadi inqilablar qədim iqtisadi sivilizasiyadan başladığı kimi, müasir dövrün inqilabi xüsusiyyətlərini nəzərə alsaq, qlobal iqtisadiyyat ilə qurtara bilməz. Başqa sözlə, qlobal iqtisadiyyat və maliyyə prosesləri bütün elementlərini mobil bir səviyyəyə çatdınnışdır. Təsərrüfat prosesləri isə bu iqtisadi ierarxiyanın əsas təminatçısı kimi çıxış edir. Qloballaşmanın hərəkəti elə bir səviyyədədir ki, onun qarşısını almaq olduqca çətin görünür. Biz müasir dövrdə qlobal iqtisadiyyatın faktiki hər bir sahəyə təsirini nəzərə almasaq, bu bir bağışlanılmaz səhf olardı [1501. Professorun qloballaşma ilə bağlı və real praktiki proseslərlə uzlaşan nəticələrinə müasir dövrün iqtisadi inkiaşf tendensiyaları prizmasından baxsaq, qloballaş

ma elementinin nəinki iqtisadi sferaların hər birinə ciddi təsirini, həmçinin cəmiyyətin real yaşadığı həyatın bütün sferalannda bu təsirləri biz hiss edirik və getdikcə bu tendensiyaların daha da güclənməsi gözlənilir. Elə bil ki, iqtisadi prosesləri və real ictimai həyatı aparan daşıyıcı qüvvələr (detemiinantlar) insan iradəsindən asılı olmayaraq, hərəkətdədirlər və sanki ən optimal baxıla biləcək iqtisadi və ictimai münasibətlər öz əsas mexanizmlərinin nə qədər gücsüz olduğunu hər an real praktikada görə bilərlər. Məsələn, mütəmadi baş verən dünya iqtisadi və maliyyə böhranları, enerji və ərzaq təhlükəsizliyi problemləri və s.. Doğurdanmı insan gücü və zehni qloballaşmanın fəsadlan qarşısında acizdir? Fikrimizcə, bu məsələlərdə hələ uzun illər müzakirələr getsə belə həlledici amil kimi insan və insan zəkası bütün dövrlərdə öz üstün mövqeyini və gücünü qoruyub saxlamaq iqitdarındadır. Yəni qloballaşmanı bugünkü hüdudsuz bir səviyyəyə çatdıran insan onun əl-ayağını yığışdımıaq, başqa sözlə təsir dairəsini məhdudlaşdırmaq immunitetini də işləyib hazırlamaq gücündədir. Bu immunitetin əsasında isə milli iqtisadiyyatların səmərəli inkişaf tempini və insan cəmiyyətinin tələbatı səviyyəsinin real hüdudları çərçivəsi həddində istehsal və istehlak prinsiplərinin fonnalaşdınİması, bu məqsədlərə çatmaq üçün ən mütərəqqi, məhsuldar, işlək iqtisadi mexanizmlərin milli və dünya iqtisadi proseslərinə müasir koloritlərlə daxil edilməsi mühüm bir əhəmiyyət kəsb edir. Professor V.M.Kolontay qeyd edir ki, hazırda qlobal iqtisadiyyat barədə çox danışırlar. Əgər qlobal iqtisadiyyat dedikdə beynəlxalq ticarət və investisiyaların güclü artımı nəzərdə tutulursa, deməli müzakirə üçün geniş predmet vardır. Amma əgər qloballaşma elementləri dünya təsərrüfatının bütün sahələrinin dərinliklərinə daxil olursa və burada yeni qanunauyğunluqlar fonualaşdırırsa, çətin ki, bu məsələ barəsində mübahisə etmək mümkün olacaqdır [c. 11, 150]. V.M. Ko- lontay dünya təsərrüfat proseslərinin mərkəzi kimi ABŞ-ı göstərməklə, bu ölkənin digər aparıcı qərb ölkələri ilə birlikdə son 20-30 ildə yeni təsərrüfat inkişafı modelinə keçməsini və elmi-texniki inkişafını, tərəqqinin və qloballaşmanın açdığı inkişaf perspektivlərində digər dünya ölkələrinə nisbətən dünya iqtisadiyyatının əy

vəlki inkişaf mərhələlərində olduğu kimi, müasir dövrdə də daha çox bəhrələnmək istədiyini qeyd etmişdir. Digər rusiyalı alim A.İ.Neklessa qlobal transformasiyalann həcmini və coğrafiyasını göstərmək məqsədilə, qeyd etmişdir ki, Şərq-Qərb sosial-siyasi koordinatlannm güclü defomıasiyası ilə yanaşı, bu sistemə alternativ olan Şimal-Cənub sisteminin də bir o qədər transformasiyası qloballaşmanın neqativ təsir qüvvəsindən bu sistemlərin yan keçə bilməməsidir (c. 38, 150]. İ.e.d. V.Q. Belolipetskiy iqtisadi qloballaşmanın transsərhədlər çərçivəsində biznes subyektlərinin (elementlərinin) sərbəst hərəkəti nəticəsində formalaşan biznesə və onun nəticələrinə, bu proseslərdə iştirak edən sahibkarlann davranışının isə effektivli əlavə dəyər yaratma loqikasmın təsiri altında olmasına bənzətmişdir. İqtisadi qloballaşma dünya təsərrüfatının transformasiyasının məhsulu kimi yeni iqtisadi təsərrüfat qaydala- nmn formalaşması instrumenti, bu instrumentin məhsuldar qüvvələr və istehsal münasibətlərinin sintezindən yaranması kimi xarakterizə edir [c. 61, 150]. Təsadüfi deyildir ki, bu yeni iqtisadi instrumentin təsiri dünya iqtisadiyyatının sürətli inkişafına və təsərrüfat formalarının kapitallaşdırma artımının əsaslı şəkildə intensivləşməsinə gətirib çıxartmışdır. 1980-ci ildən başlayaraq sonrakı 10 il ərzində dünya bazarlannda kapitallaşma 2 trln. ABŞ dollarından 20 trln. ABŞ dollarmadək artmışdır. Yaxın perspektivdə bu kapitallaşma səviyyəsinin həcmi 200 trln. dollar proqnozlaşdmhr. Maraqlıdır ki, bu proseslərdə sahibkarlığın yeni keyfiyyət səviyyəsində iştirakı gözlənilir. Başqa sözlə, sahibkarlıq şəbəkələri, həm də transmilli kompaniyalar statusunda olmayan biznes və sahibkarlıq subyektləri yaxın perspektivdə dünya təsərrüfat münasibətlərinin əsas apancı subyektləri olacaqlar. Bu proqnoz ilk növbədə çevik və müasir iqtisadi mexanizmlərin daha mobil təsərrüfat subyektləri vasitəsi ilə həyata keçirilməsinin, real praktiki proseslərdə adaptasiyasının gerçəkləşməsinin üstün amilləri ilə izah olunur. Maraqlı bir mülahizə qloballaşma şəraitində təsərrüfat və kommersiya münasibətlərinin avtomatlaşdınıması - kompüterləş- dirilməsi və bu proseslərdə dünyada mövcud insan resurslanmn və əmək ehtiyatlannm məhsuldar yerləşdirilməsi probleminin də

ha da artıcağının neqativ nəticələrə gətirib çıxaracağıdır. İ.e.d, A.İ. Subettonun fikrincə, kompüter - monitar əsasda təşkil edilən və formalaşan dünya kapitalı, insanlardan azad olmaqla, böyük həcmdə işsizlər ordusu yaradır. Başqa sözlə, qlobal kapitalizmə insan resurslannm yalnız 20 %-i lazımdır Ic. **133, 150].** Göründüyü kimi, qloballaşma elementlərin dünya təsərrüfat sisteminin daha çox coğrafi məkanını öz təsiri altına aldıqca, sosial-iqtisadi fəsadlarının artacağını iddia edənlərin narahatçılığını anlamaq olar və bu problemlərin neqativ fəsadlarının azaldılması istiqamətində hər bir milli subyekt öz iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirməli, dünya təsərrüfat sistemi ilə qarşılıqlı kooperasiya və inteqrasiya münasibətlərində davamlı və kəsərli, praktiki baxımdan sosial-iqtisadi problemlərin həllinə daha tez təsir göstərə biləcək iqtisadi instrumentlərin işlənib hazırlanmasını və real iqtisadi sistemə tətbiqini təmin etməlidirlər. Əlbəttə, biz bütün bunlarla hər dəfə XİZ-in məhz belə bir sistemdə və iqtisadi proseslərdə uğurla yer alacağını sübut etmək iddiasında deyilik. Əslində bu istiqamətdə dünya təcrübəsində olan XİZ nümunələri və onların sosial- iqtisadi problemlərin həllində oynadıqları mühüm rol iqtisadi ədə-bi}^atlarda kifayət qədər yer almış və dünyanın müxtəlif ölkələrində bu gün də XİZ institutundan yetərincə bəhrələnirlər. Professor M.İ. Qelvanovskiy qloballaşmanın müqayisəli üstünlük mühitinin fonnalaşmasmda əsas aspektlərini araşdırarkən, bunlara iqtisadi, siyasi-hüquqi, elmi-texniki, sosial-mədəni, etno-demoqrafık və ekoloji aspektləri aid etmişdir **[c. 216, 150J.** Bu aspektlərin real ictimai və iqtisadi münasibətlərdə baş vennəsi proseslərini müqayisə etsək, görərik ki, onlann əksəriyyəti bu və ya digər fonnada XİZ institutunun qarşısında duran strateji vəzifələrlə üst- üstə düşür. Belə ki, XİZ-lər vasitəsilə iqtisadi fəaliyyətin genişləndirilməsi, elm və texnikanın ən son yeniliklərinin intensiv olaraq istehsal proseslərinə tətbiq edilməsi, ərazinin və regionun demoqrafik problemlərinin həll edilməsi, sosial-iqtisadi rifah halının yaxşılaşdınıması, ekoloji tarazlığın və balansın qorunması kimi mühüm iqtisadi və sosial, elmi və texniki münasibətlərin uğurla reallaşdırılması mümkünləşir. Təsadüfi deyildir ki, dünyada

qloballaşmanın əsas ocaqlan olan inkişaf etmiş ölkələrdə əsasən istehlak proseslərində və təbii resurslardan istifadədə yol verilmiş israfçılıq dünya səviyyəsində ciddi problemlərə və ətraf mühitin kəskin çirklənməsinə gətirib çıxanmşdır. Bu problemləri araşdıran rusiyalı tədqiqatçı-alim A.K.Popov qeyd edir ki, ABŞ-da həyatın bütün sahələrində parazitizm yayılmışdır. Planetin cəmisi 5 % əhalisini təşkil edən bu ölkədə dünya resurslarının 40 %-dən istifadə edilir və əvəzində isə ətraf mühitin dünya üzrə çirklənmə səviyyəsinin 33 %-i ABŞ-m payına düşür. Ölkənin daxili borcu isə artıq 3 trln. dollar səviyyəsindədir və xarici borcu isə 500 mlrd, dollardan çoxdur. Dünyada isə 1 mlrd, nəfərə yaxın insan ya tam iş həftəsinə malik deyildir və ya işsizlikdən əziyyət çəkir Ic. 352, 1501. Biz ABŞ-la bağlı misala müraciət etməyimiz heç də təsadüfdən yaranmayıb. Son dünya iqtisadi və maliyyə böhranının kökü də bu ölkənin maliyyə və maliyyə fondları sistemi ilə birbaşa bağlı olmuşdur. ABŞ höküməti özünün iqtisadi gücünü və dünya lideri statusunu qorumaq və möhkəmləndirmək üçün, sübhəsiz, çoxlu sayda yeni iqtisadi mexanizmlər və texniki imkanlar yaratmaq iqtidarındadır, çünki bu ölkədə kifayət qədər maliyyə resurslan və elmi-texniki potensial cəmləşib. Amma real həyatda qloballaşmadan ən çox əziyyət çəkən ölkələrin öz milli iqtisadi inkişaf modellərini zənginləşdirmək və iqtisadiyyat sahələrinin davamlı inkişafım təmin etmək üçün hələ uzun illər lazım gələcəkdir. Belə ki, nəzəri baxımdan ideal və balanlaşdırılmış görünə biləcək hər hansı bir iqtisadi inkişaf prioriteti ilk növbədə qloballaşma iqtisadiyyatının fəsadlarına davam gətirmək iqtidarında olmalıdır. Məsələn, bir qrup Avropa ölkələrinin son dünya maliyyə böhranından və iqtisadi tənəzzül proseslərindən sonra hələ də özlərinə gələ bilməməsi ciddi suallar doğurur. Bəs nə etməli, müasir dövrdə hansı iqtisadi mexanizmlərə və alternativ iqtisadi alətlərə üstünlük verilməlidir? Şübhəsiz, bu suala hər bir milli subyektin (ölkənin) tarixi əhəmiyyət kəsb edən strateji iqtisadi inkişaf konsepsiyasının əsasının mühüm prioritetləri prizmasından baxılmalıdır. Bu problemləri araşdıran rusiyalı tədqiqatçı-alim Q.V. Fadeyçeva müasir dövrdə iqtisadi seçimin reallaşdınıması mexanizminin 5 əsas fundamental

suallarına - nə istehsal etmək, necə istehsal etmək, nə qədər istehsal etmək, kim üçün istehsal etmək və mövcud təsərrüfat subyekti transfomıasiyalara adaptasiya ola bilənni? - suallarına cavab tapılmasını və makrosəviyyədə bu suallann praktiki iqtisadi proseslərdə həllinin gerçəkləşdirilməsini vacib hesab edir **[c. 376, 150].** Biz XİZ-lərin yaradılması və fəaliyyətinin əsas prioritetləri, prinsipləri, səciyyəvi xüsusiyyətləri, praktiki fəaliyyət reallıqlarını araşdırarkən, bu prinsiplərin hamısının XİZ elementlərində geniş yer almasını qeyd etmişik. Deməli XİZ-lər birbaşa və çoxsaylı dolayı vasitələrlə effektivli iqtisadi mexanizmlərinin işlək sistemini əhatə etməklə, fəaliyyət göstərdikləri ərazinin və regionun bütövlükdə milli iqtisadiyyatının rəqabət qabiliyyətinin əhəmiyyətli dərəcədə artımıaqla, qloballaşma elementlərinə qarşı müxtəlif funksiyalı alət kimi çıxış edirlər. Digər tərəfdən, XIZ-lər qloballaşma iqtisadiyyatının aparıcı qüvvəsi olan transmilli kompaniyaların milli iqtisadiyyatlara neqativ təsirini nisbətən zəiflətmək imkanına malikdir. Bu sahədə tədqiqatlar aparan rusiyalı alim N.X. Vafınanın fikrincə, transmilli istehsallar çox hallarda ümumi sosial, iqtisadi və təbii mühitin qorunması üzrə vahid vəzifələrə uyğun deyildir. Belə ki, transmilli kompaniyalar atmosferin, su mənbələrinin, yerin təkinin vəziyyətinə neqativ təsirlərini göstərir, bir qrup sosial problemlərin yaranmasına və, xüsusilə, işsizlik probleminin kəskinləşməsinə səbəb olub və s. Bütün bunlar müasir dövrdə transmilli istehsal sahələrinin öz praktiki fəaliyyətlərində cəmiyyətin iqtisadi maraqlanmn və dəyərlərinin nəzərə almasının vacibliyini şərtləndirir **[c. 481, 150].** Bu məsələdə təqiqatçı N.X.Vafma ilə razılaşmamaq olmaz, təkcə son dünya maliyyə və iqtisadi böhranı zamanı 30-50 mln-dək insan bu və ya digər fomıada işsizlik problemləri ilə üzləşmişdir. Dünya maliyyə böhranı proseslərində ən az təsir qüvvəsinə məruz qalmış ölkələrdən biri kimi, Azərbaycanda da kifayət qədər yeni iş yerlərinin yaradılmasına baxmayaraq, transmilli kompaniyalarla qarşılıqlı kooperasiya fonuasında əlaqəli fəaliyyət göstərən və ölkəmizdə əsasən hasilat sahəsində texniki xidmət işləri ilə məşğul olan bir çox kompaniya və şirkətlərdə də layihələrin vaxtının başa çatması və yaxud bu layihələr

üzrə iş həcminin azalması yüzlərlə yüksək ixtisaslı fəhlə və mühəndis kadrların əmək bazannm başqa sahələrinə inteqrasiyasına məcbur etmişdir. Məhz belə bir situasiyada və iqtisadi inkişaf prioritetlərinin çevik mexanizminin tələb olduğu bir şərautdə iqtisadiyyatın hər hansı bir sektorunun iqtisadi fəallığının artınıması, əmək tutumlu istehsal sahələrinin yaradılması proseslərində XİZ bir alternativ fərqli iqtisadi mexanizm istiqaməti kimi baxıla bilər. Bir qrup alimlərin fikrincə, artıq qloballaşma prosesləri istehsal münasibətlərinin və onunla bağlı çoxsaylı mürəkkəb strukturların ən əlçatmaz dərinliklərinə daxil olduğundan real iqtisadi proseslərdə və həyatda insan amilinin perspektivlərinə məhdudiyyətlər vemıəkdədir. Bu problemi qabardan rusiyalı tədqiqatçı-alim N.İ.Kuzmeçeva qeyd edir ki, qloballaşma bazar münasibətləri inkişafının "pik" zirvəsi kimi insanı nəinki təbii və sosial mühitdən ayırır, həmçinin onu özündən belə uzaqlaşdınr. Bu halda insan qlobal idarəetmə subyektlərinin iqtisadi məqsədlərinə çatmasında bir vasitəyə çevrilir, iqtisadi şəraitdə isə bu vasitə o vaxt iqtisadi əhəmiyyət kəsb edir ki, bu vasitədən istifadə nəticəsində gəlir əldə etmək mümkün olsun [c. 685, 150]. Düzdür, bu fikirlərlə nisbətən razılaşmaq olar, amma doğurdan da real həyatda qlobal iqtisadi mexanizmlərin təsir dairəsində olan istehsal və biznes subyektlərinin əksəriyyətində insan faktoru və ona münasibətlərdə ikili standartlara təsadüf edilir. Bu baxımdan transistehsal münasibətlərinin sonrakı erası kimi, daha mütərrəqi və cəmiyyətin qəbul edəcəyi iqtisadi-mənəvi dəyərlərə nisbətən yaxın bir iqtisadi mühit kimi proqnozlaşdırılan orta və nisbətən iri istehsal və iqtisadi subyektlərin inkişaf perspektivləri diqqəti cəlb edir. Belə bir iqtisadi mühitin və iqtisadi fəallığın məkanı kimi XİZ-lərin müxtəlif modifikasiyalannın da dünya iqtisadiyyatının yaxın perspektivdə proqnozlaşdırılan iqtisadi inkiaşf tendensiyalannda daha fəal yer alacağı gözlənilir.

Qloballaşma və iqtisadi transformasiyalar şəraitində XİZ-lərin tətbiqini şərtləndirən mühüm amillərin formalaşmasını araşdırarkən, biz növbəti dəfə zərurət kimi bu kimi zonalann daha uğurlu tətbiqini həyata keçirmiş Çin təcrübəsinə müraciət etməli olduq.

Beb ki, bu ölkənin iqtisadi sistemi son 40 il ərzində bir sıra iqtisadi deformasiyalara və yeniləşməyə məruz qalsa da, ölkənin iqtisadi sistemində qarışıq iqtisadi sistem elementləri bu gün də uğurla fəaliyyət göstərirlər. Unutmaq olmaz ki, dünya iqtisadiyyatında hələ iki güclü sistemin - kapitalizm və sosializm iqtisadi sistemlərinin uzunmüddətli rəqabət prosesləri tarixin yaxın yaddaşlannda həkk olunmuşdur. 1980-ci illərin ortalanndan başlayaraq, sosializm sisteminin əsas dayaq sütunlanndakı çatlar, sistemin aparıcı konstruksiyalanndakı defonnasiyalan və, bütövlükdə, sistem üzrə bütün sahələrdə başlayan transformasiyalar tezliklə iri həcmli bu iqtisadi-inzibati idarəetmə sisteminin sonunun yaxınlaşdığını bildirirdi. Həmin dövrlərdə bu iqtisadi sistemin ömrünün uzadılması immunitetlərinin bir-birinin ardınca təsirsiz hala düşməsi, sosializm iqtisadi sisteminə daxil olan ölkələr arasındakı qarşılıqlı zid- diyətlar və fikir aynhqlan tezliklə bu sistemin tədricən bazar iqtisadiyyatı sisteminə transformasiyasının başlayacağını bildirdiyindən, bir çox dövlətlər öz siyasətlərində bazar iqtisadiyyatı sisteminə transformasiyanın daha yaxın və effektivli iqtisadi mexanizmlərinin öyrənilməsinə diqqəti artınnışdılar. Şübhəsiz, belə bir dövrdə bütün dünyanın diqqəti planetin ən güclü insan resurslan- na və bol təbii resurslara malik Çində idi. Çin bu dövrlərdə özünün milli iqtisadiyyat prioritetlərinin sırasının diversifıkasiyasını dünyada analoqu olmayan bir sistemə salmaqla məşğul idi. Belə ki, bu ölkədə sosializm sisteminin ən üstün və mükəmməl idarəetmə elementləri, işlək iqtisadi mexanizmləri təkmilləşdirilərək, ölkənin iqtisadi sistemində möhkəmləndirilirdi. Bundan əlavə, Çin iqtisadiyyatının bazar iqtisadi münasibətlərinə transformasiyası tədricən, əsaslandınimış baza prinsipləri və prioritetləri nəzərə alınmaqla aparılırdı, iqtisadiyyatın bir çox sahələrində isə bu iki iqtisadi sistemin qarşılıqlı sintezindən formalaşdırılan elementlər fəal yer alırdı. Bütün bunların kompleks və yüksək məhsuldarlıqla həyata keçirilməsi üçün Çin höküməti ilk növbədə daha çevik iqtisadi mexanizm kimi XİZ-lərdən praktiki istifadəyə üstünlük vermişdir. Çində iqtisadi sistemin bazar iqtisadiyyatına transfonnasi- yasında XİZ-lərin bir instrument kimi rolunu araşdıran çinli tədqi

qatçı-alim Qo Şou-Ci bu proseslərdə XİZ-in spesifik xüsusiyyətlərini və rolunu verə bilmişdir [148J. 1980-ci illərin əvvəllərində Çinin iqtisadi sistemi sürətli islahatlar prosesinə məruz qalmışdır. Belə ki, Çində istehsal sahələri çox hallarda natural səviyyədən yuxarı qalxa bilməmişdir və bir çox iqtisadiyyat sahələrinin maddi-texniki bazası yox idi. Ölkədə məhsuldar istehsal qüvvələri və istehsal imkanlan, infrastruktur şəbəkəsi qurulmamışdır. Ayrı-ayn regionlar və iqtisadiyyat sahələri arasında kooperasiya və təsərrüfat əlaqələri primitiv xarakter daşıyırdı. Belə bir vəziyyətin qısa zaman kəsiyində dəyişdirilməsi, iri maliyyə resurslan və daimi kapital kanalları tələb edirdi. İnvestorların Çinə və onun az öyrənilmiş ərazi və regionlanna gəlməsi üçün böyük həcmdə işlərin aparılması lazım gəlirdi. Çin iqtisadiyyatının o zamankı ideoloqları və aparıcı simaları bütün bu mürəkkəb problemlərin həllinə imkan verən mühüm prioritet vəzifələrin öhdəsindən gələ biləcək fərqli iqtisadi mexanizm və dövlət iqtisadi instrumenti kimi XİZ-lərdən praktikada fəal istifadəyə üstünlük verirdilər. Belə ki, hələ 1980-ci illərin ortalanna olan dövrdə əsasən xarici investisiyalann ölkəyə gətirilməsi və müştərək müəssisələrin yaradılması yolu ilə emal müəssisələrin və əməktutumlu istehsal sahələrin yaradılmasına prioritet münasibətlər yer almışdır. 1990-cı illərin əvvəlinədək olan dövrdə isə əsas investisiya resurslan istehsal sahələrinin yaradılmasına və ixrac məhsullanmn çeşidinin artırılmasına yönəldilmişdir. Bu dövrdə Tayvandan daxil olan investisiyaların əksəriyyəti Çinin müxtəliuf regionlarına istiqamətləndirilmişdir. Nəhayət, 1990-cı illərin əwəllərindən başlayaraq, ölkədə transmilli dünya kompaniyalanmn geniş fəaliyyət göstənnəsi və investisiya yatınnalan üçün ölkə regionlannın, sərhədyanı və dənizkənan ərazilərin bir çoxlarinda açıq iqtisadiyyat prinsipləri siyasəti yürütməklə, müxtəlif modifıkasiyalı XİZ-lərin praktiki tətbiqinə geniş yer verilmişdir. Bu proseslərin dərinliyini bir neçə rəqəmlərlə xarakterizə etsək, görərik ki, 1979-1995-ci illərdə Çin iqtisadiyyatına yatınlan birbaşa daxili investisiyalann həcmi üzrə 259 minə yaxın kontraktlar bağlanmış və onların ümumi həcmi 396 mlrd. ABŞ dolları dəyərində olmuşdur.

Daxili Məhsul 5 dəfəyə yaxın artmışdır. Çin XİZ-lərinin ölkə iqtisadi sisteminin bazar iqtisadiyyatında transfomıasiyasmda istehsal təyinatlı zonaların mühüm rolu olmuşdur. Belə ki, müasir texnologiyaların və iri kapitalın manesiz XİZ-lər vasitəsi ilə hər hansı bir regiona (əraziyə) gətirilməsi burada texnika, elm tutumlu, istehsal sahələri şəbəkəsinin yaradılmasına original məhsullann istehsalına və ixrac təyinatlı mal və xidmətlərin çeşidinin artmasına imkan vemıişdir. Bundan əlavə, investisiya mühitinin yaxşılaşdınıması əraziyə iri kapitalın axınını sürətləndimıəklə, burada sahibkarlıq subyektlərinin və biznesin inkişafına, xarici iqtisadi əlaqələrin işti- rakçılannm sayının artmasına və inteqrasiya məkanının genişlənməsinə şərait yaratmış, istehsal strukturlannın və idarəetmə formaları təkmilləşdirilmiş, bütövlükdə regionda sənaye və istehsal sahələrinin yüksək templə inkişafına təkan vennişdir. Təsadüfi deyildir ki, 1980-ci illərdən başlayaraq, Çin XİZ-lərində sənaye məhsullan üzrə inkişaf tempi orta illik 28-30 % səviyyəsində olmuşdur. Çinin 5 iri XİZ-inə həmin dövrlərdə yatınlmış xarici in-vestisiyalann ümumi həcmi 111 mlrd, dollara yaxın olmuşdur. Əvvəllərdə qeyd edildiyi kimi, bu XİZ-lər sırasına Şençjen, Çjuxay, Şantou, Syamen və Xaynan daxildirlər. Çində islahatların həcmi genişləndikcə və xarakteri dəyişdikcə XİZ-lərin bu proseslərdə rolu da tranfomıasiyaya uğramaqdadır. Əgər islahatlann ilk dövründə XİZ-lər ölkə iqtisadiyyatının bazar iqtisadiyyatına keçid transformasiyasında işlək və effektivli elementləri kimi çixiş edirdisə, müasir qloballaşma dövründə daha mürəkkəb vəzifələrin və strateji prioritetlərin tətbiqi proseslərində ölkənin kəsərli iqtisadi mexanizmi və aləti kimi yer ala bilmişlər. Bunlar ilk növbədə yüksək texnologiyalann və innovatik iqtisadiyyatın qurulması ilə bağlıdır. Çin iqtisadiyyatının 20-30 illik XİZ-lə bağlı qarşılıqlı proseslərini təhlil edərkən, bu kimi zonaların həmin proseslərdə bir neçə dəfə transfonnasi yasını diqqətdən qaçırmaq olmaz. Biz qloballaşma şəraitində Çinin XİZ təcrübəsinə isnad etməyi ölkəmiz üçün məqsədəuyğun hesab etdiyimizdən, fikrimizcə, Azərbaycanda iqtisadi islahatlann nisbətən dərinləşdiyi və bir çox istiqamətlər üzrə rəqabət qabiliyyətli

iqtisadiyyat sahələrinin formalaşdığı, regionların sosial-iqtisadi inkişafının davamlı işlək mexanizminin müəyyənləşdiyi müasir dövrdə, ölkəmizdə XİZ modifıkasiyaların praktiki tətbiq proseslərində ən optimal modellərinin seçilməsi və iqtisadi inkişaf səviyyəsi nəzərə alınmaqla, onların tətbiqi problemləri öyrənilməli və elmi-iqtisadi əsaslarla qiymətləndirilməlidir. Əlbəttə, Azərbaycan iqtisadiyyatının regionda və dünyada rəqabət qabiliyyətinin artması, XİZ-dən praktiki istifadədə daha çox müasir iqtisadiyyat sahələrinin qurulmasında və onlarda innovatik funksiyala- nn tətbiqində istifadə edilməsi məqsədəuyğundur. Digər tərəfdən, bu şəraitdə XİZ-lər ölkəmizdə ayn-ayn iqtisadiyyat sahələrinin rəqabət qabiliyyətinin daha da artınıması və ixrac potensialının yüksəldilməsi istiqamətində tətbiq edilə bilər.

Dünya iqtisadiyyatının sürətlə qloballaşdığı bir şəraitdə XİZ-lərin ayn-ayn region və milli subyektlər arasında bu qloballaşmanın yaratdığı fəsadlardan az da olsa, qorunmaq immuniteti formalaşdınlması imkanlan da diqqəti cəlb edir. Məsələn, hər hansı bir iri transmilli kompaniyanın bir ölkənin milli istehsalçılannın inkişafı proseslərinə və onların beynəlxalq bazarlara çıxması imkanlarına güclü zərbə vurmasının qarşısının alınmasına XİZ sabit və fəal iqtisadi rejimi təmin etməklə, region və milli subyektin dünya iqtisadiyyatına uğurlu inteqrasiyasına, rəqabətqabiliyyətli mal və məhsullann dünya əmtəə bazarlarında davamlı tsiklinə nisbətən əlverişli şəraiti təmin etmək iqtidarındadır. XİZ-lərin və digər bu kateqoriyadan olan iqtisadi zonaların uzun dövr ərzində tədqiqatçılardan biri olan professor R.İ.Zimenkov dünyanın bir çox ölkələrində, xüsusilə təbii resurslarla zəngin olan inkişaf etməkdə olan milli subyektlərlə XİZ-lərin təşəkkül tapması və praktiki proseslərdə daha çox yer ala bilməməsi amillərinə xeyli diqqət yönəltmişdir. Professor qeyd edir ki, bir çox xarici kompaniyalar inkişaf etməkdə olan ölkələrin yerli resurslanndan geniş həcmdə istifadə etmək üçün iri emal sənaye sahələri qurublar və onlar bu işləri hələ XİZ-lərin fəal yaradılması proseslərinə başlanılmamışdan əvvəlki dövrlərdə etmişlər. Bu baxımdan, xarici və iri kapitalın təsiri altında olan yerli milli subyektlər və istehsal sahələri yeni iqtisadi

mühitin, o cümlədən, XİZ-in yaradılmasında o qədər də maraqlı görünmürlər [s. 20, 991. Professorun bu fikirlərində böyük həqiqət var və onlarla razılaşmamaq olmaz. Belə ki, transmilli kompaniyalar hər hansı bir milli subyektin zəngin təbii ehtiyatlanna və sərvətlərinə uzunmüddətli sazişlər və çoxlu güzəştlərlə müşayiət olunan iqtisadi hüquqi rejimlə nail olduğundan 10 illiklər boyu bu regionda özünün geniş hasilat və emal şəbəkəsini qurur, əslində ən iri monopoliya elementləri formasında iqtisadi mühiti idarə edir və regionda digər fonnath fəal iqtisadi fəallığın bərqarar olmasına maneçilik törədir. Başqa sözlə, belə bir şəraitdə fərqli iqtisadi mexanizmin tətbiqi prosesləri və modelləri o qədər da cəlbedici görünmür və yaxud onların tətbiqinə yerli hökümətlərin maraqlan olduqca azdır. Professorun digər bir araşdınuası ABŞ-da xarici ticarət zonalannın fəaliyyəti ilə bağlıdır və etiraf etməliyik ki, bunlar bizim diqqətimizi xeyli cəlb etmişdir. Bu problemə maraq onunla izah edilir ki, belə zonaların təşkili ABŞ-da 1950-ci illərdən başlasa da, hələ də bu kimi zonalara tələbat qalmaqdadır və yaxın perspektivdə bu ölkədə daha 40-50 belə zonanın yaradılması gözlənilir. Sual çıxır, necə olar ki, ABŞ kimi yüksək iqtisadi inkişaf etmiş bir ölkədə 60 ildən bir çox dövrdə eyni tipli iqtisadi mexanizmə tələbat bu gün də qalmaqdadır? Məsələ burasındadır ki, belə zonalar ölkənin məhdud bir hissəsini təşkil etməklə, xüsusi xarici iqtisadi fəaliyyəti təmin edirlər. Burada gömrük, büdcə- vergi və maliyyə rejimləri üzrə xüsusi normalar müəyyənləşdirilmişdir. Belə zonaların ərazisində əsasən mallar gətirilir, anbarlaş- dınlır, çeşidlənir və yenidən qablaşdırılır. Bunlarla bərabər, zonalarda məhsullann yenidən emalı, yığılması, bir neçə xarici komponentlərin və detallann əsasında yeni məhsul istehsalı sahəsinin yaradılması təşkil edilə bilər. Ümumiyyətlə, ABŞ-ın belə zonalan ümumi və xüsusiləşdirilmiş zonalara bölünürlər. Ümumi zonalar əsasən liman və aeroportlarda yerləşir. Hazırda ABŞ-da 80-ə yaxın belə zona fəaliyyət göstərir və bunlardan 30-a yaxının ümumiyyətlə okean və iri göllərə çıxışı yoxdur. Bu zonalarda əsas fəaliyyət ixrac əməliyyatlannın genişləndirilməsinə istiqamətlənmişdir. Xüsusiləşdirilmiş zonalar isə adətən hər hansı bir istehsal sahəsi

nin yaradılması və idxal əvəzedici məhsullann istehsalının təşkili və ilk növbədə, ixrac potensialının artınıması ilə bilavasitə bağlıdır. Bu ölkədəki ixtisaslaşdırılmış zonaların praktiki fəaliyyət prosesləri göstənnişdir ki, bu məqsədlərlə yaradılmış zonaların əksəriyyəti bunların qarşısına qoyulmuş strateji vəzifələrinin öhdəsindən gələ bilmiş və effektivli fəaliyyət göstənnəyə nail olmuşlar. Hazırda belə zonaların sayı ABŞ-da 270-ə yaxındır və yaxın perspektivdə 30-40 bu tip zonanın yaradılması proqnozlaşdırılır.

Qeyd etmək lazımdır ki, qloballaşma və iqtisadi transformasiyaların fəsadlarından qorunmaq istiqamətində XİZ-lərdən fərqli iqtisadi mexanizm kimi istifadə edilməsinin elmi və texniki əsaslan, elmi-iqtisadi aspektləri dərindən araşdırılmalı və öyrənilməlidir. Fikrimizcə, bu proseslərdə son 50 ilin ən mütərəqqi və yeni elm sahələrindən olan marketinqin roluna diqqətin artınıması zərurəti vardır. Belə ki, marketinqin iqtisadi inkişaf proseslərində, mal və xidmətlərin hərəkətinin genişləndirilməsində, optimal əmtəə bazarlannm fonnalaşdınlmasmda təsir imkanlan xeyli yüksəlmişdir. Eyni zamanda bu dövr ərzində marketinq strategiyaları və modifikasiyalan işlənib hazırlanmış və real praktiki iqtisadi proseslərdə gerçəkləşdirilmişdir. XİZ-lərin yaradılması və onlann praktiki proseslərində marketinqin mühüm rolunu və əhəmiyyətini nəzərə almaqla, bu effektivli iqtisadi strateji mexanizmin mahiyyətini araşdınnaq məqsədəuyğun olardı. Dünya şöhrətli alim F.Kotler qeyd edir ki, marketinq bizim hər birimizin gündəlik həyatında maraqlarımıza toxunur, bizim harda olmağımızdan asılı olmayaraq, marketinq münasib yaşayış səviyyəsini təmin edir. Marketinq istehlak və zəruri prosesləri vasitəçilik yolu ilə təmin edən bir insan fəaliyyəti kimi mühüm əhəmiyyət kəsb edir fllO]. İnsan və onun həyat tərzi ilə bağlı zəruri tələbat mallarının və xidmətlərinin müvafiq iqtisadi mühitdə fonu al aşması, təşkili və istehlakçılara çatdınıması proseslərinin bütün mərhələlərində marketinq fəal iqtisadi mexanizm kimi çıxış edir. Məsələn, müasir dövrdə elmi-texniki tərəqqinin sürətlənməsi ilə bağlı proseslərin təşkili problemlərinin sistemləşdirilməsi, baxılması, müvafiq strategiya- lann və konsepsiyanın işlənib hazırlanması, qarşıda duran vəzifə

lərin reallaşdırıması üçün istehsal və xidmət sahələrinin yaradılması və nəhayət, əldə edilmiş mal və xidmətlərin əmtəə bazarla- nnda rentabelli hərəkətinin təmin edilməsi kimi mürəkkəb tsiklin uğurla başa çatdırılması problemlərinin, həlli proseslərinin hər birində marketinq və onun elementləri işlək iqtisadi instrumentlər kimi cəfakeşcasma işləyir, fəaliyyət göstərir və iqtisadi proseslərin məhsuldarlıqla və gəlirlə başa çatmasına şərait yaradır. Digər mühüm bir amil, beynəlxalq ticarət sisteminin inteqrasiya imkanlan-nm daha da genişləndirilməsi, sadələşdirilməsi, effektivliyinin artırılması, milli iqtisadi maraqları təmin etməklə, beynəlmilləşmə proseslərindən ortaya çıxa biləcək neqativ təsirlərin məhdudlaşdı-nlmasmda marketinq mexanizmindən daha mütərəqqi modifıkasi-yalarla tətbiqin təmin edilməsi mühüm əhəmiyyət daşıyır. Belə ki, bir çox ölkələrdə müxtəlif malların istehsalı, həmçinin, onlann idxalı və ixracı ilə bağlı müəyyən spesifik qaydalar və qadağalar mövcudluğu praktikası müasir dövrdə də müşahidə edilməkdədir. Bu amillər nəzərə alınmaqla, XİZ-lərin prioritet sahələrinin müəyyənləşdirilməsi və proqnozlaşdırılması dövründə bu kimi zonalarda istehsal ediləcək məhsullann və göstərilicək xidmətlərin regionda, milli subyektin bütün ərazisində və beynəlxalq inteqrasiya məkanında qarşılaşa biləcəyi qeyri-standart situasiyaların, rəqabətin, inzibati müdaxilələrin və bir çox digər subyektiv, eyni zamanda praktiki amillərin təsirindən maksimum qorunmaq üçün əvvəlcədən bütün priorotetlər və strategiyalar, istehsal və xidmətlər istiqamətində fundamental marketinq tədqiqatlarının aparılmasını nəzərdən qaçırmaq olmaz.

## III FƏSİL. İNNOVASİYA İQTİSADİYYATININ GENİŞLƏNDİRİLMƏSİNDƏ XÜSUSİ İQTİSADİ ZONALARIN ƏHƏMİYYƏTİ

### 3.1. XİZ-in innovasiya fəaliyyətinin sürətləndirilməsinə təsiri

Son 10 ildə dünya iqtisadiyyatında baş vermiş əsaslı transformasiyalar bu iqtisadi sistemin müasir dövrün reallıqlan baxımdan təkmilləşdirilməsini və yeni kəsərli iqtisadi mexanizmlərlə zən- ginləşdirilməsini şərtləndirir. Dünyanın apancı iqtisadiyyatına malik ölkələrdə artıq milli iqtisadi sistemlərin və beynəlxalq iqtisadi əməkdaşlıq kanallannın dünya maliyyə və iqtisadi böhranlarına qarşı immunitetlik sərhədinin heç də etibarlı olmaması ciddi narahatlıq doğurur. Çox hallarda qiymətli kağızlar və qiymətli metallar, mürəkkəb sistemli aksiyalarla əməli>yatlara alüdə olan iqtisadi sistemlərdə real praktiki iqtisadi proseslərin effektivliyinin artınl- ması prioritetləri ikinci plana düşür və, fikrimizcə, müasir iqtisadi problemlərin real qiymətləndirilməməsi maliyyə və iqtisadi böhranların əsas səbəblərindən biridir. Şübhəsiz, bu proseslərdə milli iqtisadiyyatlann və bütövlükdə dünya iqtisadi sisteminin innovasi- yalaşdınlması, dünya təsərrüfat sisteminin müxtəlif sahələrinə innovasiya funksiyalarının tətbiqinin sürətləndirilməsi problemləri aktuallığı ilə diqqəti cəlb edir. Bir qrup ölkələrdə innovasiyalann sürətli inkişafı hələ dünya iqtisadiyyatında mütərəqqi ideyanın və iqtisadi mexanizmin gerçəkləşdirilməsinə dəlalət edə bilməz. Belə ki, həm Qərbi Avropa ölkələri, Asiya və Amerika qitəsinin apancı ölkələrində iqtisadiyyatın apancı sahələrində innovasiya flınksiya- lannın fəal şəkildə tətbiqinə baxmayaraq, bütövlükdə bu proseslərin uğurlu təşkili əksər dünya ölkələri üçün ciddi problem olaraq, qalmaqdadır.

Nobel mükafatı laureatı C.Stiqlits ticarətin ədalətlilik prinsiplərindən və onun iqtisadi inkişafa göstərə biləcəyi təsir amillərindən bəhs edərkən, bu qənaətə gəlmişdir ki, xarici investisiyalann cəlb edilməsinin ənənəvi iqtisadi instrumentləri arasında firma və

kompaniyalara dotasiyaların və zəmanətlərin verilməsi, vergilərdən azad olunması, infrastruktur layihələrinin təşkili və sairlər aiddirlər. Digər tərəfdən xarici investorların hər hansı bir ölkəyə daha fəal gəlməsi üçün həmin ölkədə güclü antikorrupsiya siyasəti və bu siyasətin praktiki təşkili yüksək səviyyədə olmalıdır. İntellektual mülkiyyət və innovasiya fəaliyyəti ilə bağlı problemlərə toxunan C.Stiqlits bildirir ki, innovasiya yönümlü fundamental kəşf və ixtiraların əksəriyyəti elmi-tədqiqat müəssisələrində, universitetər və institutlarda baş verir. Lakin bu mühüm kəşf və ixtiraların praktiki tətbiqi uzun illər ərzində baş tutmur 1138]. Və yaxud bu kimi kəşf və ixtiralann patent müddəti qurtarandan sonra, onların bazar qiyməti həcmində ixtira kimi dəyərləndirilməsi prosedurları işə düşür və dünya şöhrətli alim- tədqiqatçıya görə, bilik-ictimai varlıqdır və onun dəstəklənməsi üçün dövlət məsuliyyət daşımalıdır. Göründüyü kimi, həm investisiyaların cəlbi, həm də yüksək praktiki nəticələr verə biləcək ixtira və kəşflərin real iqtisadi fəaliyyətə daxil edilməsi, innovasiyalarm gerçəkləşdirilməsi kimi mühüm vəzifələrin əksəriyyətinin XİZ-lər vasitəsilə təşkili hər bir milli subyekt-dövlət üçün strateji məqsədlər sırasına daxil edilə bilər. Belə strateji məqsədlərə ilk növbədə innovasiya fimksiyala- nnm reallaşdırılması üçün münbit iqtisadi mühitin yaradılması zəruridir. Əlbəttə, bunun müxtəlif iqtisadi mexanizmlər vasitəsilə reallaşdırmaq mümkündür və bu barədə dünya təcrübəsi mövcuddur. Amma iqtisadi ədəbiyyatlarda ən çox təsadüf etdiyimiz mənbələrdə eimtutumlu innovasiyalann praktiki iqtisadi sahələrə tətbiqi proseslərində XİZ təyinatlı zonalardan istifadə daha geniş yer almışdır. Çinli tədqiqatçı-alimlər Pi Tsyanşen və Van Kay ABŞ-da yaradılmış və fəaliyyəti ilə bütün dünyanın diqqətini cəlb etmiş "Silikon vadisi" texnoparkının uğurlannın əsasında yerli hökümətin ağıllı və effektivliyinin, Universitet və elmi-tədqiqat institutla- nnm ən yaxşı mütəxəssilərindən təşkil edilmiş yaradıcı kollektivin, bankrot və böhranlar şəraitində burada fəaliyyət göstərən fəhlələrin əlverişli şərtlərlə digər müəssisələrə köçürməsi üçün işlək qanun olmasının, açıq istehsal strukturlu kompaniyalann belə zonalarda ixtisaslaşmasının üstünlüyünü, burada çalışan yaradıcı in-

sanlann yüksək əmək mədəniyyətinin, riskli investisiya sisteminə baxmayaraq, istehsalın bütün mərhələlərində maliyyə dəstəyinin təminatına zəmanətin, iri kapitalın cəlbi üçün fond bazarlanna çıxışla bağlı inkişaf etmiş iqtisadi sistemin olmasını xüsusi qeyd etmişlər fs.426-427, 1451. Professorlar T. A. İsmayılov və Q. S. Həmidov innovasiya fəaliyyətinin sürətləndirilməsinə dair problemləri araşdırarkən qeyd etmişlər ki, innovasiya iqtisadiyyatı elmi və texnoloji biliklərin ənənəvi maddi-istehsal sahələrinə transferi nəticəsində formalaşır və bu baxımdan innovasiya funksiyalarının təsirinə məruz qalan istehsal sahələri öz texnoloji simasını dəyişir, yeni texnologiyalara və biliklərə əsaslanan daha rəqabət qabiliyyətli iqtisadiyyat sahəsinə çevrilir [102]. Bu proseslərdə müvafiq innovasiya infrastrukturunun yaradılması mühüm əhəmiyyət kəsb edir. Dünyanın müxtəlif ölkələrində məhz innovasiya infrastrukturunun yaradılması və burada müasir texnologiyaların kəşfi, işlənməsi və tətbiqi proseslərinin həyata keçirilməsi məqsədilə iri kapital resurslarının cəlb edilməsi, fəal iqtisadi mühitin təşkili məqsədilə XİZ mexanizmindən istifadə olunması dünya təcrübəsində geniş yer almışdır.

Qeyd etmək lazımdır ki, XİZ-lərin tətbiqi ilə bağlı müxtəlif mənbəli iqtisadi ədəbiyyatlarla tanışlıq zamanı ən çox diqqətimizi cəlb edən məqamlardan biri, bu kimi zonaların yaradılması və fəaliyyəti prioritetlərinin texniki-innovasiya funksiyaları ilə üst-üstə düşməsi olmuşdur. Məsələ burasındadır ki, müasir XİZ-lərin əksəriyyəti innovatik iqtisadi alətlərin daha məhsuldar yerləşdiyi maliyyə-təsərrüfat zonası kimi daha çox əhəmiyyət kəsb edir. Digər tərəfdən müasir texnologiyaların, xüsusilə son 10 ildə nanotexnologiyalann tətbiqi proseslərinin daha mütəşəkkil və səmərəli təşkili üçün XİZ-lər əlverişli poliqon kimi ciddi mövqe qazana bilmişlər. Bu sahədə araşdınnalar aparan rusiyalı iqtisadçı-alim M.A.Kaniovskiy texniki-tətbiq tipli XİZ-lərdən innovasiya fəaliyyətinin təşkilati-iqtisadi mexanizminin əsas prioritetlərini verərkən, bunlara müasir texnologiyalann işlənməsi və tətbiqinin proqram təminatı çərçivəsində faydalı və təbii resursların kəşfi, hasilatı problemlərinin öyrənilməsi, idarəetmə sistemlərinin təkmilləşdirilməsi,

nanotexnologiyalann və biotexnologiyaların işlənməsi və tətbiqi, mikro və nano elektronikanın spesifik xüsusiyyətləirinin nəzərə alınması və digər mühüm innovasiya funksiyalarının kəşfi və tətbiqi proseslərinin öyrənilməsi və onların işlək mexanizminin istiqaməti kimi müəyyənləşdinnişdir 11061. Bəs nəyə görə hər bir problemin və prosesin təbii sonluğu kimi tətbiq mexanizmi ciddi nəzərə alınmalıdır? Bizim son 5 il ərzində apardığımız elmi araş- dımıalarda XIZ-lərin tətbiqinin ən mürəkkəb və uzun çəkən bir proses olduğu qənaətinə gəlməyimizin əsas səbəbi də tətbiq problemləri ilə bağlı olmuşdur. Bir çox elmi məqalələrimizdə bu məqamlara münasibət bildirərkən, keçmiş MDB ölkələrində XİZ-lə- rin tətbiqi proseslərinin ləng olması, bu sahədə işlək mexanizmin optimal modelinin müəyyənləşdirilməsində çətinliklərin mövcudluğu barədə mülahizələrimə isnad kimi müraciət edən M.A.Kani- ovskiyə qiyabi də olsa, minnətdar olmaqla, bu sahədə ciddi problemlərin müasir dövrdə də davam etdiyi qənaətindəyik [79]. Belə ki, MDB ölkələrində hələ də innovasiya və texniki-tətbiq təyinatlı effektivli XİZ-lərin tətbiqi üzrə uğurlu modellərin işlənib-hazırlanması və həyata keçirilməsi mexanizmləri olduqca zəifdir. Əslində inkişaf etmiş ölkələr və güclü iqtisadiyyat qurmaq iddiasında olan dövlətlərdə innovasiya fəaliyyəti funksiyalarının XİZ-lər vasitəsilə real iqtisadi sistemə daxil edilməsi istiqamətində çoxlu işlər aparılır. Yaxın 20 il ərzində innovasiya funksiyalannm milli iqtisadiyyatların və bütövlükdə dünya iqtisadiyyatının inkişafına daha güclü təsiri və 2020-2025-ci illərə kimi eimtutumlu məhsulların istehsalının ümumi istehsalda çəkisinin 70 %-ə kimi artacağı gözlənilir. Hazırda dünya iqtisadiyyatında aparıcı mövqeyə malik Çində və sürətlə inkişaf edən Hindistanda elmi-tədqiqat və kon- struktor-təcrübə işlərinin kompleks təşkili, həmçinin XİZ-lər vasitəsi ilə innovasiya funksiyalarının iqtisadiyyatın müxtəlif sahələrinə fəal tətbiqi göstərilən dövr ərzində bu ölkələrin dünya iqtisadiyyatında mövqelərinin daha əhəmiyyətli dərəcədə yüksəlməsinə imkan verəcəyi proqnozlaşdırılır. Böyük təbii resurslara malik olan Rusiyada isə yüksək texnologiyaların tətbiqi proseslərinin sürətləndirilməsi və bu ölkədə elm-texnika sahəsində olan poten

sialın real iqtisadi proseslərə daxil olmasının genişləndirilməsi təmin edilərsə, yaxın 10-15 il ərzində bu ölkədə eimtutmiu və yüksək rəqabət qabiliyyətli məhsullannm ixracının ildə 100 mlrd. ABŞ dollanna kimi artacağı ehtimalı vardır. Müqayisə üçün mak-rotexnologiyalar əsasında istehsal olunan eimtutumlu və rəqabət qabiliyyətli mal və xidmətlərin həcmi orta hesabla ildə ABŞ-da 710-720 mlrd, dollar, Almaniyada - 500 mlrd, və Yaponiyada - 400 mlrd, dollar səviyyəsindədir. Elm və yüksək texnologiyalar tutumlu innovasiyalann XİZ-lər vasitəsilə həyata keçirilməsi elm və istehsalatın ən uğurlu və məhsuldar inteqrasiyası hesab edilə bilər. Bu proseslər nəticəsində iqtisadiyyatın müxətlif sektorlarının eimtutumlu texnologiyalann və innovasiya funksiyalarının tətbiqi ilə yüksək inkişaf tempinin təmin edilməsi, istehsal və idarəetmə heyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, müasir innovasiya infrastrukturunun yaradılması mümkünləşir. Kiçik bir misal. Məlumdur ki, iri paytaxt şəhərlərində əhali və nəqliyyatın sıxlığı, istehsal müəssisələrinin geniş şəbəkəsinin fəaliyyəti və sair amillər bu kimi şəhərlərdə ciddi problemlər yaradır. Həm də belə şəhərlərdə yerləşən elmi-tədqiqat müəssisələrinin, xüsusilə texniki- tətbiq təyinatlı eimtutumlu müəssisələrin məhsuldar fəalİзo'əti xeyli məhdudlaşır. Bu baxımdan dünya təcrübəsində iri şəhərlərin kənarında XİZ-lər vasitəsi ilə innovasiya və müasir texnologiyaların tətbiqi zonalannın yaradılması və uğurlu fəaliyyəti diqqətdən kənarda qala bilməz. Bu baxımdan MDB ölkələri içərisində ilk dəfə Rusiyada Moskva ətrafında bu tip zonalann tətbiqini müsbət nümunə kimi qeyd etmək olar. Göstərmək istədiyimiz kiçik misal isə Moskva ətrafında yerləşən Dubna şəhəri ilə bağlıdır. Bu şəhərdə innovasiya və eimtutumlu texniki inkişaf tətbiqi zonasının yaradılması şəhər əhalisinin 30-35 min nəfər artacağına və burada yaxın 10-15 il ərzində 20 minə kimi yüksək əmək məhsuldarlığına malik daimi iş yerlərinin yaradılmasına imkan verəcəkdir. Maraqlı burasındadır ki, bu şəhərin daimi sakinlərlinə çevriləcək insanla- nn (elm adamlan və mütəxəssislərin) əksəriyyətinin paytaxt Moskvanın mərkəzi hissələrindən bu kiçik elm və innovasiya şəhərinə köçməsi başlamışdır və bu prosesin yaxın bir neçə ildə artacağı

gözlənilir. Rusiyada innovasiya funksiyalannm yaxın 10 ildə real olaraq iqtisadi sektorlara tətbiqi məqsədilə, bu ölkədə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə ayrılan vəsaitin əhəmiyyətli dərəcədə artırılması gözlənilir və hazırda bu rəqəm ölkənin ÜDM-nə nisbətən təxminən 1% səviyyəsindədir. Təsadüfi deyildir ki, bir çox ölkələr bu sahələrdə maliyyə mənbələrin artırılmasına hətta dövlətin strateji maliyyə resurslarını belə istiqamətləndirinnəkdən çəkinmirlər. Böyük Britaniya, Yaponiya, Hindistan, BƏƏ və İsraildə dövlət tərəfindən innovasiya kompaniyalanının dəstəyi məqsədilə vençur kapitalı əsasında maliyyələşmə mənbələrinin yaradılmasına üstünlük verilir. Hindistanda informasiya texnologiyara- lının yaradılması və tətbiqi üçün son 10 ildə geniş şəbəkəyə malik vençur fondlan təşkil edilmişdir. Böyük Britaniyada yüksək texnologiyaların işlənməsi və tətbiqi proseslərinin sürətləndirilməsi üçün regional vençur investisiyaları proqramlarının tətbiqinə üstünlük verilir və bu proqramlara tələb olunan vəsaitin 50 %-i dövlət tərəfindən ödənilir. Hindistan, İsrail və Cənubi Koreyada inno- vasiyalaraın tətbiqi şəbəkəsinin genişləndirilməsi məqsədilə biznes-inkubatorların yaradılması və fəaliyyəti və bu şəbəkənin tex- niki-tətbiq zonalarında genişləndirilməsi proseslərində XİZ-lərdən və digər dövlət imtiyazları olan iqtisadi mexanizmlərdən praktikada fəal istifadə olunur. Bu baxımdan hələ yaxın 10-15 il ərzində milli iqtisadiyyatlann innovasiyalaşdın İması, müasir texnologiya- lann kəşfi və tətbiqi proseslərində XİZ-lərin işlək bir mexanizm kimi iştirak etməsi proseslərinin sürətlənəcəyi gözlənilir. Fikrimiz- cə, göstərilən istiqamətlər üzrə Azərbaycanda real potensial vardır. Elm və yüksək texnologiyalı innovasiyalann artıq bir sıra iqtisadiyyat sektorlanna tətbiqi başlanılmışdır (hasilat, informasiya-kommunikasiya texnologiyaları və s.). Bunlarla belə, Azərbaycanda 10-a yaxın milli qeyri-neft sektorunun modernləşdirilməsi və innovasiyalaşdınnası proseslərinin əhəmiyyətli dərəcədə sürətləndirilməsinə zərurət vardır (metallurgiya, kimya və neftkimya, neftqaz və neftkimya maşınqayınnası, cihazqayırma, elektrotexnika və elektron məhsullar, tekstil, qida və s.). Şübhəsiz, bu baxımdan innovasiya funksiyalarının Azərbaycanın milli iqtisadi

minin müxtəlif sektorlarına tətbiqi proseslərində XİZ instrumentindən praktikada istifadə edilməsi məsələsi də aktuallığı ilə diqqəti cəlb edir.

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının ən mühüm problemlərindən biri onun innovasiyalaşdınıması və iqtisadi sahələrə yeni texnologiyalann gətirilməsinin sürətləndirilmısidir. Biz XİZ- ləri tətbiqi problemlərini öyrənərkən bu iki mühüm amilin dünyada iqtisadi tərəqqiyə və iqtisadi artıma göstərdiyi pozitiv təsirlər barədə çoxlu nümunələrə rast gəldik. Obyektivlik naminə qeyd etmək lazımdır ki, son illərdə Azərbaycanda da bu problemlərə diqqət ölkə rəhbərliyi səviyyəsində kompleks baxılmaqda və qərarlar verilməkdədir. Ölkə Prezidenti İlham Əliyev bildirmişdir ki, Azərbaycanın uğurlu iqtisadi islahatlar siyasəti bu gün imkan verir ki, əldə olunan gəlirləri biz humanitar sahələrə, təhsilə, səhiyyəyə, yeni texnologiyaların tətbiq olunmasına yönəldək. Uşaqlanmız bilikli olmalı, dünyada gedən prosesləri izləməli, yeni texnologiyalara sahib çıxmalıdır [s. 5, 54]. İqtisadi proseslərə innovasiyalann tətbiqi problemlərini öyrənən bir qrup azərbaycanlı alimlər qeyd edirlər ki, tətbiqi innovasiya fəaliyyətinin həyata keçirilməsi ilə əldə edilmiş yeni elmi biliklərin mövcud olan digər qabaqçıl elmi bilik, texnologiya və sairlərlə yekun innovasiya məhsulunda inteqrasiyanın fonualaşmasına yönəldilmişdir. Bu yekun innovasiya məhsulu daha yüksək texnoloji səviyyə, yeni istehlakçı keyfiyyətləri və ya xidmətəri ilə seçilməli və daha davamlı olmalıdır. Təcrübədə tətbiqi innovasiya fəaliyyəti qarşılıqlı surətdə əlaqəli kom- püterləşdirilmiş layihə-texnoloji, infonuasiya və istehsal-təşkilatı sistemlərin cəmindən ibarət olan innovasiya infrastrukturundan realizə olunur Is. 19, 54). Hönnətli alimlərimizin bu elmi qənaətlərinin mövcud praktiki elementlərinin əksəriyyətinin XİZ-lərin iqtisadi mühiti və fəaliyyət prinsipləri ilə üst-üstə düşdüyünü qeyd etməklə yanaşı, dünya təcrübəsində son 10-15 il ərzində innovatik ideya və iqtisadi mexanizmlərin reallaşdınlmasında bu kimi zonalardan geniş istifadə edilməsini də qeyd etmək lazımdır, innovasiya elementləri və infrastruktur imkanları iqtisadi fəaliyyət sahələrinin rəqabət qabiliyyətini artıraraq və çoxfunksiyalılığını təmin

edərək, ciddi iqtisadi artıma rəvac verir və iqtisadi dəyişikliklərə cəld adaptasiya oluna bilir. Bir çox postsovet respublikalannda innovatik mühitin yaradılmasında XİZ modelindən istifadə barədə nümunələr vardır və bunlara bizim təqdim olunan araşdınnalan-mızda da rast gəlmək mümkündür. Amma, təəssüf ki, hələ də postsovet respublikalannda innovatik məhsullannın xüsusi çəkisi çox cüzidir. Bununla belə, bu istiqamət bir çox respublikaların iqtisadi inkişafı prioritetlərində mühüm yer almışdır. Ədalət naminə qeyd etmək lazımdır ki, Azərbaycanda da son dövrlərdə innovasiyalarm iqtisadi sahələrə sürətli tətbiqi barədə tədbirlərin coğrafiyası genişlənməkdədir. Amma bu təyinatlı istehsal sahələrinin məhdudluğu və məhsul həcminin azlığı diqqətdən yayınmamalıdır **(Cədvəl 1).**

Cədvəl 1-dən göründüyü kimi, Azərbaycanda 2007-2010-cu illər ərzində əhəmiyyətli dəyişilmiş və ya yeni tətbiq olunmuş sənaye məhsullarının həcmi 5,3 dəfə artsa da, 2010-cu ildə bu rəqəm cəmisi 4,4 mln. manat təşkil etmişdir. Bu dövr ərzində Azərbaycanda təkmilləşdirilmiş innovasiya təyinatlı sənaye məhsullannın həcmi 5 dəfə artsa belə, bu rəqəm 2010-cu ildə cəmisi 2 mln. ABŞ dollan səviyyəsində olmuşdur.

Qeyd etmək lazımdır ki, ölkənin bir çox rəsmi qurumlan və iqtisadçı-ekspertləri, həmçinin bir qrup dünya mütəxəssisləri tərəfindən Azərbaycanda innovasiya zonalarının yaradılması perspektivlərinin güclü olması barədə fikirlər iqtisadi ədəbiyyatlarda və rəsmi mənbələrdə yer almışdır. Amma təəssüf ki, bu məsələlər hələ də müzakirə proseslərindən daha fəal praktiki mərhələyə keçə bilməmişdir. Düzdür, ölkəmizdə innovatik infrastrukturun qurulması prosesləri başlamışdır, ancaq bu tədbirlərin daha geniş miqyaslı və daha fəal iqtisadi mühitlə əhatə olunması istiqamətində xarici şirkətlərin, finna və kompaniyaların, yerli investorların və firmalann sağlam rəqabət şəraitində daha məhsuldar fəaliyyəti üçün innovasiya zonalarının, məsələn, texniki-tətbiq zonalarının, elmi-texniki parkların və sair bu təyinatlı XİZ-lərin yaradılması və fəaliyyətinin təşkili prosesləri hələlik Azərbaycanda baş tutmamışdır. Bunlann səbəblərini araşdıran Qasımov F.H. və Nəcəfov Z.M.

qeyd edirlər ki, elm və elmi-texniki fəaliyyət xidmətlər sahəsinə aiddir və ona bazarın tələbatı olmalıdır. Təəssüf ki, Azərbaycanın daxilində elmi xidmətlər və elmi (intellektual) məhsul bazarı yox dərəcəsindədir...

Cədvəl 1.

**Azərbaycan Respublikasında sənaye müəssisələrinin yenilik səviyyəsinə görə innovasiya məhsulunun həcmi** (min manat)

| | Əhəmiyyətli dəyişilmiş və ya yeni tətbiq olunmuş məhsul | | | | Təkmilləşdirilmiş məhsul | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2007 | 2008 | 2009 | 2010 | 2007 | 2008 | 2009 | 2010 |
| Sənaye, cəmi | 826,3 | 6842 | 730,9 | 4384 | 399,4 | 1715 | 68,8 | 2029 |
| Mədənçıxarma sənayesi | 208,5 | 4566 | | | | | | |
| Emal sənayesi | 617,8 | 2276 | 730,9 | 4384 | 399,4 | 1715 | 68,8 | 2029 |
| o cümlədən: | | | | | | | | |
| Toxuculuq sənayesi | - | - | - | - | - | - | - | 1717 |
| Kimya sənayesi | - | - | - | - | - | - | - | 311,4 |
| Metallurgiya sənayesi | - | - | - | - | - | - | - | - |
| Hazır metal məmulatlarının istehsalı | - | - | - | 1718 | - | - | - | - |
| Kompüter və digər elektron avadanlıqların istehsalı | 262,5 | 738,5 | 211,1 | - | - | 231,6 | 50,0 | - |
| Maşın və avadanlıqların istehsalı | 75,6 | 1495 | 110,6 | 1262 | 399,4 | 1484 | - | - |
| Mebellərin istehsalı | - | - | - | 22,7 | - | - | - | - |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 297,7 | 43,0 | 231,3 | 1311 | - | - | - | - |

**Mənbə: ARDSK-nin "Azərbaycanın sənayesi" - 2011 statistik məcmuəsi.**

Elmi nailiyyətlərin istehsalatda tətbiqi yolunda çətinliklər olduqca çoxdur. Istehsalatla elm arasında uçurum mövcuddur. Elmi ideyanı, işləməni istehsalatda tətbiq məqsədilə ilə innovasiya fəaliyyəti gücləndirilməlidir... Bu məqsədlərlə milli innovasiya sisteminin inkişafının tənzimlənməsi üçün innovasiya biznesinin inkişaf etdirilməsinin çərçivə şərtlərinin müəyyən edilməsi, iqtisadiyyatın innovasiya əsasında inkişaf strategiyasının işlənməsi, texnoloji inkişafın proqnozlaşdırılması və onun əsasında elmi-texnoloji prioritetlərin müəyyən edilməsi, innovasiyanın infrastrukturunun inkişafının dəstəklənməsi, innovasiya fəaliyyətinin birbaşa və dolayı stimullaşdırılması tədbirlərinin işlənməsi və həyata keçirilmə-

sinin təmin edilməsi zəruridir, [s. 204-205, 54].

Obyektivlik naminə bildirmək lazımdır ki, Azərbaycanda son dövrlərdə innovasiya yönümlü fəaliyyət sahələri istiqamətində ölkə səviyyəsində iri miqyaslı tədbirlər güclənməkdədir. Artıq Azərbaycanda aerokosmik sənaye sahəsinin yaradılması istiqamətində xeyli iş görülmüşdür və İnformasiya-Kommunikasiya Texnologi- yalan (İKT) sahəsi üzrə real işlərin həcmi genişlənməkdədir [6j. Azərbaycanda milli "Silikon vadi"sinin tikintisi üzrə işlərin apanl- ması və Azərbaycanın yüksək texnoloji məhsulların regional ixracatçısına çevrilməsi məqsədilə ciddi tədbirlər nəzərdə tutulmuşdur. Artıq Sumqayıtda və Bakıda sənaye-texnoloji parklarının genişləndirilməsi üzrə tədbirlər həyata keçirilir. Rəsmi mənbələrə görə, Azərbaycanda regional innovasiya zonasının yaradılması istiqamətində işlər sürətləndirilməkdədir. Bunu şərtləndirən əsas səbəblər sırasında qeyd edilir ki, dünya ölkələrində İKT sektorunun strukturunda infonnasiya texnologiyaları əhəmiyyətli çəkiyə malik olmasına və Azərbaycanda bu sahə üzrə gəlirlərin həcminin ilbəil artmasına baxmayaraq, infonnasiya texnologiyalannın sahəsinin İKT sektorunda xüsusi çəkisi cəmisi 7,7 % təşkil edir. Bu sahədə kompleks tədbirlərin görülməsi istiqamətində işlər apanlır. Bunu mövcud şərait və dünyada gedən yeni inkişaf meyləri tələb edir. Mütəxəssislərin proqnozlarına görə, dünya əmtəə dövriyyəsinin 40 %-ə qədəri bu zonalardan keçir, inkişaf etmiş ölkələrdən zəif inkişaf edən ölkələrədək dünyanın bir çox regionunda bu cür zonalar yaradılıb. Gələcək inkişafın qarantı texnoparkların və innovasiya zonalann yaradılması ilə sıx bağlıdır [158].

Məlumdur ki, son illərdə Azərbaycanda XİZ-lərin müxtəlif modifikasiyalanmn ölkənin iqtisadi sistemində tətbiqi problemləri ciddi diskussiyalara məruz qalmışdır. Bir çox opponentlər belə zonaların Azərbaycanın xeyli liberallaşmış iqtisadiyyat sektorlarına daxil olmasına qarşı çıxsalar da, fikrimizcə, innovasiya funksiyalarının reallaşdırılmasında və bütövlükdə ölkə iqtisadiyyatının innovasiya iqtisadiyyatına keçməsinin sürətləndirilməsində XİZ-lər effektivli və innovatik iqtisadi mexanizm kimi tələb olunan görünür.

## 3.2. Elmi-texniki yeniliklərin işlənməsi və reallaşdırılmasmda XİZ amili

Dünya iqtisadiyyatının intensiv inkişafında elm və texnikanın rolu bütün dövrlərdə aktuallığı ilə fərqlənmişdir. Müasir iqtisadi transfonnasiyalar və qloballaşma prosesləri fonunda elm və texnikanın rolu daha qabarıq artmaqdadır. Xüsusilə, bir neçə 10 ildir ki, elmi-texniki yeniliklərin işlənməsi və elfektivli formada reallaşdırılması problemləri daha çox diqqəti cəlb edir. Bu ilk növbədə onunla əlaqədardır ki, bir çox hallarda əldə edilmiş elmi-texniki yeniliklər, ixtira və kəşflər uzun illər ərzində real iqtisadi proseslərə yol tapa bilmir. Dünya ölkələrinin əksəriyyətində isə elmi-texniki yeniliklərin işlənməsi və iqtisadiyyatın müxtəlif sahələrində gerçəkləşdirilməsi məqsədilə ilə ya maliyyə resurslan çatmır, ya da ki, bunlann təşkili üçün infrastruktur imkanları məhduddur, elmi-texniki təyinatlı müəssisələrin potensialı zəifdir və sair. Bu amillər nəzərə alınmaqla, dünya təcrübəsində elmi-texniki yeniliklərin işlənməsi və reallaşdınimasında XİZ mexanizmindən fəal istifadə mövcuddur. Dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində mürəkkəb elm və texnika təyinatlı XİZ modelləri fəaliyyət göstərirlər. İnkişaf etməkdə olan ölkələrin, əsasən inkişaf etmiş sənaye ölkələrin bir çoxu da bu yolla gedərək, elmi-texniki yeniliklərin iqtisadi sistemlərə və iqtisadiyyat sahələrinə tətbiqində XİZ institutundan bəhrələnməyə nail olmuşlar.

Qeyd etmək lazımdır ki, elm və texnika təyinatlı mürəkkəb XİZ- lər təşkilati-iqtisadi çevik mexaniziTi kimi çıxış etməklə və özündə vergi, gömrük, həmçinin digər güzəştlərdən ibarət valıid sistemi birləşdinnəklə elm təyinatlı və elm tutumlu digər XİZ subyektlərinin inkişafına praktikada daha çox nailiyyətlər əldə etməyə və məhsuldarlıqla işləməyə əlavə stimullar verir. Əslində dövlət bütün dövrlərdə elm və texnikanın inkişafı, fundamental elmi-tədqiqat və tətbiq sahələrinin maddi-texniki bazasının gücləndirilməsi üçün vəsait ayınr, hətta bəzi ölkələrdə bu vəsaitlər milyardlarla dollar həcmində ölçülür. Amma XİZ-lər vasitəsi ilə elm və texnikanın son yeniliklərinin real tətbiqinin təşkili proseslərinə, dövlətin

infrastruktur obyektlərinə yatırdığı daxili investisiyalarla yanaşı, zonanın prioritet fəaliyyət istiqamətləri üzrə investorlann buraya gəlişi və yatıracağı investisiya resurslan qarşıda duran geniş həcmli elm tutumlu proritetləri və bu sahələr üzrə innovasiyalann real iqtisadi mexanizmlərinin hazırlanması və onlann həyata keçirilməsi prosesləri daha tez və effektivli baş tutur. Məsələn, Almaniyanın Karlsrue Texnoloji regionunda sənaye sahələrinin geniş şəbəkəsinin yaradılması və onlann elmi-tədqiqat işlərinin təşkili məqsədilə kiçik və orta təsərrüfat subyektlərinin iri şəbəkəsi təşkil olunmuşdur. Burada innovasiya elementlərinin güclü tətbiqi nəticəsində yeni texnologiyalann əldə edilməsi və onlann real istehsal proseslərinə tətbiqi üçün çoxlu sayda elmi-tədqiqat mərkəzləri, institutlar və müəssisələr fəaliyyət göstərirlər. Texnoloji regionda 360 min nəfərin 21 %-i və yaxud 76 min nəfəri eimtutumlu sahələrdə çalışırlar. Karlsruedə 14 texnologiyalan ötürən mərkəz təşkil olunmuşdur və regionda bu şəhərdə yerləşən texniki Universitetinin imkanlanndan da yetərincə istifadə olunur. Qeyd etmək lazımdır ki, Avropa İttifaqı ölkələrində maliyyə resurslannın və iqtisadi gücün kifayət qədər olması qənaəti baxımından yanaşsaq (Düzü bu qənaət son illərdə dünyada baş verən maliyyə böhgranı ilə bağlı müəyyən mülahizələrə yol açıb və hazırda artıq bir sıra Avropa ölkələrində borc problemləri, maliyyə sıxıntılan ciddi müzakirələrə, Avropa ölkələrinin bəzilərinin hətta mövcud iqtidar hökümətlərinin dəyişilməsinə - hakimiyyəti itinnəsinə səbəb olmuşdur), bəlkə də XİZ-lər vasitəsi ilə müəyyən güzəştlər sistemi tətbiq etməklə elmi parklann və texniki tətbiq zonalannın yaradılmasına ehtiyac qalmazdı. Amma, son 10 ilin belə bu sahələrlə bağlı iqtisadi inkişaf proseslərinə baxsaq, inkişaf etmiş Avropa ölkələrində elmi texnoparklann və texniki-tətbiq istiqamətli profil müəssisələrin (mərkəzlərin) əksəriyyəti müvafiq təyinatlı XİZ- lərdə fəaliyyət göstərirlər. Bu hal eyni ilə ABŞ və Yaponiyada da hələ bu gündə davam etməkdədir. Bütün bu tarixi prosesləri fundamental araşdıran, elm və texnikanın inkişafını öz ölkəsinin iqtisadi inkişaf prioritetlərinin önündə qoyan Çin də son illərdə elmi texnoparklar və texniki-tətbiq təyinatlı XİZ-lərin təşkilinə ciddi önəm vennəkdədir. Kiçik ölkə olan Tayvanın iqtisadi uğurlannda mühüm element kimi

elmi-sənaye parklannın səmərəli fəaliyyətlərini də nümunə kimi vennək mümkündür. Məsələn, 1980-cı ildə Tayvanda yüksək texnologiyalann inkişafı mərkəzi kimi yaradılan Sin-Çju elmi-sənaye parkı Yaponiya və ABŞ-da fəaliyyət göstərən’ analoji elmi-sənaye parklan ilə ciddi rəqabət apamıaq səviyyəsinə qədər inkişaf yolu keçmişdir. Bu parkda texnoloji işləmələrin və elmi kəşflərin son məhsula çevrilməsinə qədər bütün proseslərin reallaşdınıması təşkil olunmuşdur. Yüksək innovatik funksiyalann cəmləşdiyi və həyata keçirildiyi bu elmi-sənaye parkında 400-ə yaxın elm tutmiu müəssisələrdə və müvafiq istehsal-xidmət sahələrində 105 minə yaxın insan işləyir. Son 5-8 il ərzində Rusiya hökuməti də texnologiyalann işlənib hazirlanmasi və onlann real iqtisadi sahələrə tətbiqi məqsədilə, çoxlu sayda regional innovasiya mərkəzləri, infonuasiya-analitik mərkəzləri, innovasiya-sənaye kompleksləri, texnoparklan, texnologiyalann transfer mərkəzləri, innovasiya-texnoloji mərkəzləri və sair bu təyinatlı elm və innovasiya tutumlu müəssisələrin yaradılmasında ciddi təşkilati və maliyyə- dəstəyi göstərməkdədir. Fikrimizcə, bu mühüm strateji vəzifələrin bəzilərinin XİZ instrumenti vasitəsi ilə gerçəkləşdirilməsi istiqamətində Rusiya hökümətinin son illərdəki fəaliyyəti nəticələr verməkdədir. Bu baxımdan Azərbaycanda XİZ-lərin müasir tətbiq prioritetlərini müəyyənləşdirərkən ən innovatik və perspektivli XİZ modifıkasiyalanndan biri kimi elm tutumlu sahələrin diqqət mərkəzində saxlanılması olduqca vacibdir.

Biz XİZ-lərin iqtisadi sistemdə tətbiqi proseslərində onların 50-70 il bundan qabaq geri qalmış ərazilərin inkişafı, məşğulluğun təminatı, ticarətin genişləndirilməsi və sair əsasən sosial yönümlü problemlərin həllinə daha çox rast gəlinməsi barədə iqtisadi ədəbiyyatlarda çoxlu nümunələrlə tanış olmuşuq. Amma XİZ-lərin son 10-20 illik iqtisadi inkişaf və onlann tətbiqi proseslərində əsas diqqəti cəlb edən prioritetlərdən biri kimi bu zonalarda iqtisadiyyat sahələrinin elm və texniki təyinatlı innovatik inkişaf istiqamətinə yönəldilməsi və iqtisadiyyatın innovasiyalaşdırması proseslərinin dərinləşdirilməsi tendensiyalandır. Şübhəsiz, bu amillər dünya iqtisadiyyatının son dövrlərdə müasir texnologiyalardan daha geniş spektrdə istifadə etməsi və iqtisadiyyatın bütün sahələrində

müasir elmi-texniki nəticələri özündə birləşdirən innovasiya funksiyalarının tətbiqinin prioritetliyidir. Xüsusilə, nanostrukturların formalaşması, nanotexnologiyalann tətbiqinin genişlənməsi və, nəhayət, nanoməhsullann çeşidinin artınıması innovatik proseslərin daha geniş yayılmasına və bu proseslərin tətbiqini stimullaşdıran daha çevik iqtisadi mexanizmlərin işlənib hazırlanmasına, həyata keçirilməsinə zərurəti artınr. Bir çox ölkələrdə artıq bu istiqamətlərdə XİZ-lərin müxtəlif modifıkasiyalanndan istifadə praktikası geniş yer almaqdadır. Bəs nəyə görə hətta inkişaf etmiş ölkələrdə də innovatik layihələrin reallaşdırılmasında XİZ institutuna və onun tətbiqinə üstünlük verilir? Fikrimizcə, bu ilk növbədə həmin zonalarda innovatik funksiyalara və nanotexnologiyalann işlənməsi və tətbiqi proseslərində XİZ-lər vasitəsi ilə inzibati müdaxilələrin əhəmiyyətli dərəcədə azaldılması, adi halda başa gələn infrastruktur obyektlərinin və istehsalla bağlı maddi-texniki baza- lannın xərclərinin 6 %-dən 12 %-dək azalma perspektivləri inves- torlan bu sahələrə iri kapital yatırmağa stimullaşdınr. Bir qrup dünya ekspertlərinin fikrincə, dünya ölkələri elmi-texniki və innovasiya siyasətinin prioritetlərini müəyyənləşdirərkən, onlar xidmət və elmi-texniki sahələrdə mütləq yüksək ixtisaslı kadrlann hazırlanması, yüksək texnologiyalı iqtisadiyyat sahələrində onların işləmə səviyyəsinin təmin edilməsi, qloballaşma və transmilli kom- paniyalann təsiri elementlərinə adekvat immunitetə imkan verən iqtisadi inkişaf və innovasiya proseslərinin təmin edilməsi mütləq nəzərə alınmalıdır [159]. Rusiyalı alim A.N.Folomyev isə təsərrüfat sisteminin elmi-texniki yeniliklərin əsasında innovasiyalı inkişafını təmin etmək üçün və bu istiqamətdə effektivli strategiyaların fəaliyyət göstənnəsi və onlann hər hansı bir təsərrüfat sisteminə transformasiyası üçün yeni elmi biliklərin çoxsahəli kompleks inkişaf səviyyəsinə çatmaqda görür [1431.

Qeyd etmək lazımdır ki, dövlət tərəfindən elm və texnika təyinatlı innovasiya sisteminin fonnalaşdınıması proseslərində daha çevik və məhsuldar iqtisadi mexanizmlərə müraciətlər zamanı XİZ-lərdən istifadənin elmi-texniki və praktiki əsaslandırılması mühüm əhəmiyyət kəsb edir. Bir tərəfdən dövlət bu proseslərdə iş

lək və təsirli dövlət iqtisadi instrumentləri müəyyənləşdirməklə, iqtisadi siyasət yürütməklə yanaşı, digər tərəfdən bu proseslərin praktiki tətbiqini stimullaşdınuaq, innovasiya funksiyalarının real iqtisadi proseslərə yol açmasına, bu istiqamətdə rəqabət qabiliyyətli məhsullann yaranmasına və müəssisələrin fəaliyyətinə şərait yaratmış olur. İnnovasiyalann reallaşdırılması və onların tətbiqinin gerçəkləşdirilməsi sahəsində effektivli iqtisadi instrumentlər sırasında XİZ-lərin olmasını araşdıran və bir sıra nəticələrə gələn rusiyalı alim O.V.Muşayeva elmi-tədqiqat təyinatlı və texniki tətbiq tipli XİZ-lərin milli innovasiya sisteminin əsas elementlərindən biri hesab etmişdir {1231. Milli innovasiya sistemi dünya ölkələrində müxtəlif prioritetlərlə formalaşsa da, bu sistemin əsasında dayanan strateji istiqamətlərə elmi-texniki sahənin milli iqtisadiyyatın iqtisadi və sosial sferalanna fəal inteqrasiyasının təmin edilməsi, ölkə iqtisadiyyatının innovatik funksiyalarla zənginləşdirilməsi və iqtisadiyyatın müxtəlif sahələrinin praktiki tətbiq instrumentlərində innovasiya funksiyalanndan davamlı istifadə olunması dayanır. Digər rusiyalı alim O.Q.Qoliçenkoya görə, innovasiya iqtisadiyyatın və cəmiyyətin qarşılıqlı formalaşması və inkişafı üçün elm, sənaye və cəmiyyət arasında çoxsaylı mürəkkəb elementlərin məhsuldar praktiki tətbiqini təmin etməklə yanaşı, bu sahələrə elmin və müasirliyin ən mühüm nailiyyətlərini gətirməklə, milli iqtisadiyyatın inkişafına güclü təkan verir 196]. Başqa bir Rusiyalı tədqiqatçı-alim V.V.İvanov isə milli iqtisadiyyatların innovasiya sisteminin giper, makro və mezosəviyyələrində müxtəlif iqtisadi mexanizmlərin və detemıinantlann sıx qarşılıqlı təsirlərini verməklə, praktiki proseslərdə fundamental elmi-tədqiqat işlərinin və kəşflərin elm tutumlu müəssisələrdə və Universitetlərdə həyata keçirilməsi məqsədilə innovatik strukturların, mərkəzlərin, texnoparklann yaradılması prioritetlərini sistemləşdirmişdir 11001.

Son illərdə Azərbaycanda da elm və texnikanın inkişafı istiqamətində bu təyinatlı innovasiya zonalannm yaradılması, belə zonalarda innovatik məhsullann, həmçinin nanotexnologiyalann və nanokimya məhsullarının fəal olaraq, istehsal sahələrində tətbiqi məsələləri üzrə diskussiyalar xeyli güclənmişdir. Obyektiv olaraq.

bu prosesləri şərtləndirən əsas amillər sırasında elm və texnikanın müasir inkişaf səviyyəsi və bu sferada əldə edilmiş nəticələrin tex-liiki-tətbiq problemlərinin əhəmiyyətinin xeyli artması ilə bağlıdır. Çünki texniki və istehsal proseslərinin intensivləşdinİməsi sərhəd tanımır və zaman keçdikcə bu istiqamətdə yeni kəşflər işlənməkdə, hazırlanmaqda və tətbiq edilməkdədir. Bu sahədə nanotexnologi-yaların rolundan bəhz edən H.F. Mirələmov və Ç.İ. Məmmədov yazırlar: “Nanotcxnologinm ən böyük müvəffəqiyyətlərindən biri onun dəqiq maşmlann, cıhazlann və onların detallarının hazırlanması ilə bağlıdır” |s.202, 59]. Burada müəlliflərin fikri ilə tam razılaşmaq lazım gəlir. Belə ki, artıq son 10 ildə dünyanın müxtəlif ölkələrində nanotexnologiyalar əsasında çoxsaylı cihazların, məmulatların, elektron detalların, robotların, kiçik həcmli dəqiq ma- şınlann, hərbi-sənaye təyinatlı qurğulann, məişət cihazlarının və sairlərin kütləvi istehsalı, real istehsal sahələri və nanotexnologi- yalarm əsasında müəssisələrin fəaliyyəti barədə xeyli məlumatlar yer almışdır. Qeyd etmək lazımdır ki, Azərbaycanda da bu sferada güclü elmi-texniki və praktiki potensial mövcuddur. Əgər, son 20- 30 il ərzində Azərbaycanın fundamental texniki elm sahələrində əldə edilmiş nəticələrin, işlənmiş kəşfləri və ixtiraları bir yerə toplasaq, baxmayaraq ki, bunların əksəriyyəti tətbiq proseslərinə yol tapmadığından mənəvi və zaman baxımından köhnəlib, bütün bunların əsasında, fikrimcə, onlarla məhsuldar və gəlirli texniki istehsal sahələrinin, o cümlədən nanotexnologiyalar əsasında müəssisələrin yaradılması mümkün olardı. Nəzərə alsaq ki, Azərbaycan alimlərinin elmi-texniki potensialının gerçəkləşdirilməsi üçün daha münbit şərait yaradılacağı təqdirdə, ölkəmizdə nanotexnolo- giyalarm, o cümlədən nanokimya əsasında kiçik kimya təyinatlı mobil və məhsuldar istehsal sahələrinin geniş şəbəkəsinin təşkili reallaşardı. Əvvəldə qeyd edildiyi kimi, sevindirici haldır ki, 2011-ci ilin sonunda Azərbaycan Respublikasının Prezidenti ölkəmizin kimya və neftkimya kompleksinin potensialından daha səmərəli istifadə edilməsi, bu sahədə sahibkarlığın inkişafı və rəqabət qabiliyyətli kiçik kimya məhsullarının istehsalının genişləndirilməsi məqsədi ilə kimya-sənaye texnoparkının yaradılması üçün

ərazi ayrılması və müvafiq təşkilati işlərin görülməsi üçün Sərəncam vermişdir. Bütün bunlar olduqca təqdirəlayiqdir, amma nano-texnologiyalann imkanlan və tətbiq sahələri demək olar ki, sonsuzdur və bu istiqamətdə istənilən qədər yaradıcı mühit vardır. Bu baxımdan yaxın perspektivdə ölkəmizdə nanocihazqayırması xüsusi sənaye sahəsinin tam şəkildə fonnalaşdırılması proseslərinin intensivləşdirilməsi və bu məqsədlə elm və texnika, innovasiya təyinatlı XIZ modellərindən birinin tətbiqinə baxılması, bu zonaya ölkədə mövcud elmi-texniki və istehsal imkanları potensialının cəlb edilməsi aktuallığı ilə diqqəti cəlb edir.

Qeyd etmək lazımdır ki, elmi-texniki yeniliklərin işlənməsi və re- allaşdınlmasında XİZ-lərin təşkili heç də bu sahənin problemlərini tam həll etmək iqtidarında deyildir. XİZ kimi mürəkkəb elmi-texniki təyinatlı mühit və iqtisadi rejimin yaranma proseslərinə qədər ölkədə elm və texnika ilə bağlı mövcud problemlərin həllinin sürətləndirilməsi istiqamətində xeyli iş apanlmalıdır. Bu isə, şübhəsiz, elm və texnika sahəsinə çəkilən xərclərin artınimasını və bu sahəyə aynlan vəsaitlərdən səmərəli istifadəni şərtləndirir **(Cədvəl 2).**

**Cədvəl 2**

| s/s | Göstəricilər | 2001 | 2011 |
|---|---|---|---|
| **01** | **Elmi-tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sayı** | **137** | **145** |
| **02** | **Elmi-tədqiqat və işləmələri yerinə yetirən işçilərin sayı, nəfər** | **15809** | **17924** |
| | **o cümlədən: Tədqiqatçılar** | **10168** | **11037** |
| | **Tədqiqatçı-elmlər doktorları** | **678** | **843** |
| | **Tədqiqatçı-fəl.səfə doktorları** | **3328** | **3531** |
| **03** | **Dövlət büdcəsindən elmə çəkilən xərclər (mln. manat)** | **9,3** | **92,8** |
| **04** | **Tədqiqat və işləmələrə çəkilən daxili xərclər (mln. manat)** | **15,9** | **92,1** |
| **05** | **Elmə çəkilən xərclər ÜDM-a nisbətən faizlə** | **0,2** | **0,2** |
| **06** | **Elmə çəkilən xərclər Dövlət büdcəsinin xərclərinə nisbətən faizlə** | **1,2** | **0,8** |

**Qeyd: Cədvəl "Azərbaycanın statistik göstəriciləri"-2011-in əsasında hazırlanmışdır.**

Cədvəl 2-dən göründüyü kimi, son 10 il ərzində elmi-tədqiqat və işləmələri yerinə yetirən təşkilatların və işçilərin sayında artım vardır. 2001-2011-ci illərdə dövlət büdcəsindən elmə çekilən xərclər 10 dəfəyə yaxın artsa da, 2011-ci ildə bu rəqəm cəmisi 92,8 mln. manat təşkil etmişdir. Həmin dövr ərzində tədqiqat və elmi işləmələrə çəkilən xərclər isə 5,6 dəfə artaraq, 2011-ci ildə cəmisi 92,1 mln.manat olmuşdur. Göstərilən dövr ərzində Azərbaycanda elmə çəkilən xərclər ÜDM-a nisbətən 0,2 faiz, dövlət büdcəsinin xərclərinə nisbətən 2011-ci ildə 0,8 % təşkil etmişdir. Müqayisə üçün, elmi tədqiqatlara çəkilən xərclər ÜDM-a nisbətən Rusiyada 1,4 %, Ukraynada - 1,1 %, Belorusda - 0,5 %, Moldovada - 0,5 %, Gürcüstanda - 0,2 %, dünyanm inkişaf etmiş ölkələrində 2,4 % və bütövlükdə dünya üzrə 2,2 % təşkil edir. Digər tərəfdən, Azərbaycanda innovasiya resurslarına çəkilən xərclərin səviyyəsi də

**Cədvəl 3.**

**Azərbaycan Respublikasında innovasiyaların tiplərinə görə sənayedə**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | 52273 | 43875 | 49620 | 8020 | 4618 | 8139 |
| **Mədənçıxarma sənayesi** | 43892 | 245,0 | 97,6 | 592,3 | 397,5 | 4,8 |
| **Emal sənayesi** | 8573 | 1085 | 49493 | 7428 | 4102 | 8128 |
| o **cümlədən:** | | | | | | |
| **Qida məhsulları istehsalı** | 3422 | 486,2 | 11224 | 1850 | 93,7 | 690,6 |
| **Toxuculuq sənayesi** | - | - | - | 4482 | - | - |
| **Kimya sənayesi** | 38,8 | 38,8 | - | - | 1029 | 177,6 |
| **Poliqrafiya fəaliyyəti** | - | - | 30445 | - | ' | - |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürül-məsi və təchizatı** | 808,5 | 42545 | 29,8 | - | 119,1 | - |

**Qeyd: Cədvəl ARDSK-nin materialları əsasında hazırlanmışdır.**

Cədvəl 3-dən göründüyü kimi, Azərbaycanda bütün sənaye üzrə elm və texnika tutumlu innovasiyalara çəkilən xərclər 2005- ci ildə 52,3 mln. manat olmuşsa, bu rəqəm 2010-cu ildə cəmisi 8,1 mln.manat təşkil etmişdir. Məsələ burasındadır ki, 2005-ci ildə bu məqsədlərlə xərclənmiş 52,3 mln.manatm 43,9 mln.manatı mədənçıxanna sənayesi ilə bağlı olmuşdur. 2005-2010-cu illərdə emal sənayesinə elm və texnika təyinatlı innovasiyalar üçün çəkilən xərclərdə artım müşahidə olunmur, hətta bu göstərici 2010-cu ildə 2005-ci ilə nisbətən azalmışdır. Bütün bunlar göstərir ki, Azərbaycanda elmi-texniki tədqiqatların işlənməsi proseslərinin və bu məqsədlərlə innovatik elmi-texniki və sənaye sahələrinin, müəssisələrinin yaradılmasının sürətləndirilməsi üçün iri kapitalın, investisiya resurslarının cəlb edilməsi, elmi-tədqiqat müəssisələri, universitetlər və elmi-texniki təyinatlı innovatik təsərrüfat subyektlərinin potensiallarını bir yerə toplamaq iqtidannda olan sabit və fəal iqtisadi mühitin yaradılması problemləri qalmaqdadır. Fikrimizcə, bu problemlərin real iqtisadi proseslərdə gerçəkləşdirilməsi üçün praktiki baxımdan bir variant kimi XİZ-lərə müraciət olunması məqsədəuyğun olardı.

### 3.3. İnnovasiya funksiyalarının tətbiqində XİZ-dən istifadənin üstünlükləri

Dünya iqtisadi inkişaf proseslərində qloballaşmanın yaradığı neqativ iqtisadi transfonnasiyalara və böhran elementlərinə qarşı adekvat immunitetin və tutarlı iqtisadi rıçaqlann fomıalaşmasında innovasiya funksiyalan mühüm əhəmiyyət kəsb edir, innovatik iqtisadi islahatlar və milli iqtisadi sektorlann innovasiya iqtisadiyyatına keçidinin sürətləndirilməsi son 10 ildə xüsusilə diqqəti cəlb edir. Amma milli iqtisadi subyektlərin innovasiylaşdırılması prosesləri mürəkkəb olduğundan, bu vəzifələm yerinə yetirilməsi iqtisadi sistemlərdə daha effektivli və kəsərli iqtisadi vasitələrin tətbiqini şərtləndirir. Dünya təcrübəsində XİZ-lərin belə iqtisadi alətlərdən olması praktiki proseslərdə öz əksini tapmışdır. Belə ki, XİZ-lər innovatik ideyalann və funksiyaların işlək mexanizm daşıyıcısı kimi xüsusilə fərqlənirlər.

ləri sisteminin mövcudluğu, burada infrastruktur və maddi-texniki bazanın yaradılmasına əlavə stimullann olması, ixtira və kəşflərin səmərəli tətbiqi üçün süni müdaxilələrin minimumluğu, təşəbbüskarlıq, innovatik baxışların və ideyaların qısa zaman kəsiyində dəyərləndirilməsi (mükafatlandırılması) bu zonanı innovasiyalann tətbiqi və inkişafı baxımından daha çox əlverişli edir və s. Rusiyalı iqtisadçı-alim İ.V. Klim dünya və Rusiya iqtisadiyyatının innovatik inkişaf problemlərini və perspektivlərini araşdırarkən, bu proseslərdə XİZ-rin roluna xüsusi önəm venmişdir [112]. Belə ki, dünya XİZ-nin 33 %-ni təşkil edən texniki-tətbiq və 25 %-ni özündə cəmləşdirən sənaye-istehsal zonaları innovasiya funksiya- lannın ən məhsuldar və səmərəli tətbiqinə imkan verən ərazilər, təsərrüfat-kommersiya fəaliyyətini təşkil edən zonalar kimi qiymətləndirilir. Məlumdur ki, innovasiyalann fonnalaşması və tətbiqi çoxşaxəli proseslərdən keçir. İlk növbədə elmi-texniki yeniliklərin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, milli və xarici “nou-hau”lann sistemləşdirilməsi və tətbiqi perspektivlərinin öyrənilməsi, elmi-tədqiqat və konstruktor işlərinin real nəticələrinin istehsala tətbiqinə hazırlanması, elm və istehsal tutumlu layihələrin gerçəkləşdirilməsi proseslərinin əsasını müasir dövrdə innovasiya funksiyaları təşkil edir. Şübhəsiz, bu funksiyaların real tətbiqi çox hallarda geniş çeşiddə obyektiv və subyektiv amillərin təsirləri nəticəsində baş tutmur və iqtisadi sahələrin innovasiyalaşdırıl- ması prosesləri zəif gedir. Digər tərəfdən, milli iqtisadiyyatlann sürətli inkişafına və effektivli iqtisadi alətlərlə daha rəqabət qabiliyyətli olmasına mane olur. XİZ-lər isə geniş innovasiya funksiyalarının praktikada daha məhsuldar və qısa zaman kəsiyində tətbiqinə imkan verən real iqtisadi fəaliyyət zonasıdır. Belə demək mümkündürsə, XİZ-lərdə çoxlu sayda innovasiya elementləri tranzit və funksional fəaliyyət fonnasında öz tətbiq ünvanlarını tapır, nəticədə yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli məhsulların istehsalı şəbəkəsi genişlənir və müasir standartlar səviyyəsində xidmətin çeşidləri artır. XİZ-lər özündə birləşdirdiyi bir sıra mühüm iqtisadi amillərlə, məsələn, vergi və maliyyə rejimi, xarici iqtisadi fəaliyyət istiqamətləri, inzibati və infrastruktur resursları

ilə innovatik ideyalann praktiki proseslərində daha tez reallaşmasına əsaslı stimullar verə bilmək imkanına malikdir. Qeyd etmək lazımdır ki, innovasiya funksiyalannın daha çox tətbiq edildiyi XİZ-lərdə adətən burada fəaliyyət göstərən subyektlərin gəlirləri 30-40 % səviyyəsinə çatır. Bu isə dünya XİZ-lərində orta göstəricilərdən xeyli artıqdır. Əslində ixrac-istehsal təyinatlı XİZ-lərdə fəaliyyət sahələri genişləndikcə, istər-istəməz burada klaster elementləri özünü göstənnəyə başlayır. Belə ki, bir-birinin ardınca zəncirvari və qarşılıqlı kooperasiya fomıasında yaranan istehsal sahələri fəal olaraq, innovasiya funksiyalarının tətbiqini şərtləndirir və nəticədə burada rəqabət üstünlüyü elementləri güclənir. Biznes və sahibkarlıq subyektləri daha müasir və yeni innovatik axta- nşlar etməklə, yüksək texnologiyaların tətbiqini genişləndinnəklə, daha güclü gəlir gətirən rəqabət qabiliyyətli məhsulların istehsalını artınnaqla, öz potensial rəqibləri ilə mübahisədə üstünlük əldə etməyə çalışırlar. Məhz bu proseslərdə klaster elementli fəaliyyət növlərinin daha məhsuldar praktiki nəticələri XİZ-lərdə innovasi- yalann tətbiqi şəbəkəsinin investorlar üçün olduqca əlverişli olmasını şərtləndirir. Məsələ burasındadır ki, klasterlər ixtisaslaşmış və xüsusi istehsal və xidmət sahələrinə kompleks yanaşmanı təmin etmək iqtidanndadır. Amma klaster tipli istehsal-fəaliyyət müəssisələri XİZ-lər qədər iqtisadi imtiyazlara malik olmadığından və təkcə öz gücü hesabına məhsuldar innovasiya funksiyalannın tətbiqinin bir hissəsini reallaşdıra bilmədiyindən, praktiki tətbiq proseslərində klasterlərdə cəmlənmiş innovasiya ideyalarının müxtəlif fonnalarda XİZ-lərə əvvəldə qeyd edildiyi kimi, tranzit axınını şərtləndirir. Müxtəlif hesablamalara görə, dünyada artıq 1300- 1350-yə yaxın XİZ-lərdə klaster infrastrukturu elementləri praktikada tətbiqini tapmışdır. Bu tip qanşıq innovasiyanın inkişaf zona- lannın praktiki nəticələrini təsəvvür etmək üçün bir qrup misalla göstənnək olar ki, “Dubai Texnology and Media Free zone” XİZ- də 600-dən çox kompaniyanın, o cümlədən, dünyanın bir çox məşhur kompaniyalannm geniş fəaliyyəti reallaşmışdır. Tez-tez misal çəkdiyimiz Çin XİZ-lərindən Syanqan və Şençjen XIZ-lə- rində sənayenin yüksək artım tempi və yüksək texnologiyalann

məhsuldar tətbiqi şəbəkəsinin yaradılması çeşidli innovasiya modellərindən uğurlu istifadənin nəticəsində mümkün olmuşdur. Yaponiya, Cənubi Koreya, Malayziya, Sinqapur kimi ölkələrdə bu tipli XIZ-lərin prioritetliyi diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, innovasiya yönümlü və klaster elementləri ilə zəngin olan XİZ- lərdə əmək məhsuldarlığı və istehsalın intensivliyi digər dünya XİZ-nə nisbətdə bir neçə dəfə üstünlük təşkil edir. Adətən iqtisadi ədəbiyyatlarda və dünya praktikasında bu tipli XİZ-ləri amerikan və cənubikoreya modellərini - texnoparklar (qeyd etmək lazımdır ki, amerikan modelləri əsasən universitetlərin bazasında, cənubikoreya modelləri isə sənaye zonaları kimi fonnalaşdırılır), yaponi- ya modeli - texnopolislər, ərəb modelini isə ixtisaslaşdırılmış klaster zonalan adlandırırlar. XİZ-lərin innovasiya daşıyıcıları kimi daha geniş fundamental araşdınnalara ehtiyac olduğundan, biz əsasən praktiki baxımdan Azərbaycanda XİZ-lərin tətbiqi proseslərində qarşılaşa biləcəyimiz hallara daha çox oxşar ola biləcək misallara və dünya təcrübəsinə üstünlük vermişik. Məsələn, təkcə Şanxayın yaxınlığında yaradılan "Pudun" XİZ-də dünyanın ən güclü kompaniyalanndan olan "Nissan", "Volvo", "Volksvagen", "Mazda", "Honda" və sairlərinin komplektləşdirici və yığıcı istehsal sahələri geniş həcmdə ən yeni innovasiyalarm tətbiqi şəraitində fəaliyyət göstərirlər. Maraqlıdır ki, son illərdə qonşu Rusiyada da avtomobil sənayesinin yenidənqurulması üçün bu dünya təcrübəsindən istifadə etmək istiqamətində işlərin səviyyəsi intensivləş- dirilmişdir. Dünya innovasiya texnoloji XİZ-lərinin real nəticələrini təhlil edən Rusiya, "Dubna" innovasiya-texnoloji mərkəzi XİZ- nin yaradılması və fəaliyyətinin təşkili ilə bu sahədə prioritet vəzifələri reallaşdırmağa cəhd göstərməkdədir. Məsələ burasındadır ki, Rusiyanın innovasiya və texnoloji proseslər baxımından inkişaf səviyyəsi dünyanın ən öndə gedən ölkələrində 8-10 dəfə geri qalır. Və bu baxımdan qonşu Rusiyada innovasiya texnologiyalannm praktiki reallaşdıniması istiqamətində XİZ-dən istifadəyə üstünlük verilməsi son dövrlərdə prioritetliyi ilə diqqəti cəlb edir.

XİZ-lərin tətbiqi problemlərindən və onlann iqtisadi inkişaf proseslərinə təsirindən danışarkən, tanış olduğumuz iqtisadi ədə

biyyatlarda bir sıra məqamlar xüsusilə diqqətimizi cəlb etmişdir. Bunlara ilk növbədə innovasiya iqtisadiyyatı və innovatik iqtisadi prosesslərlə bağlı məsələlər aiddir. Biz əvvəldə az da olsa bu məqamlara toxunmuşduq. Bununla belə, problemin mühümlüyünü nəzərə alaraq, fikir və mülahizələri daha geniş spektrdə vennəyi məqsədəuyğun hesab etdik. Əlbəttə, innovasiya iqtisadiyyatı və innovatik iqtisadi proseslər anlayışları artıq bir çox ölkələrin, əsasən, inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf modellərinin əsasında yer almışdır, innovatik baxış və yanaşma geniş bir məhfumdur və biz bu məhfumun əsasən ayrı-ayrı iqtisadi regionların inkişaf proseslərində oynaya biləcəyi əhəmiyyətli rolu və bu proseslərdə innovatik funksiyaların XİZ-lərlə bağlılığı haqqında mülahizələrimizi bölüşəcəyik. Fikirimizcə, regionların iqtisadi inkişafında innovatik praqmatikliyin effektiv nəticələrini ümumi nəzəri əsaslandınnaqdansa, bu sahədə praktiki nəticələrə baxmaq daha məqsədəuyğun olardı. Bununla belə, bir sıra ölkələrdə tədqiqatçı alimlərin bu proseslərlə bağlı fikirləri də diqqətimizi cəlb etmişdir. Məsələn, rusiyalı tədqiqatçı-alim Y.A.Korolyev “Xüsusi iqtisadi zonalann bazasında regionların inkişafında innovasiyanın idarə fonnalarımn institusional təkmilləşdirilməsi” adlı elmi-tədqiqat işində innovasiya proseslərinin və innovatik funksiyalann müasir effektivli iqtisadi alət kimi ayrı-ayrı milli iqtisadiyyatların inkişaf proseslərinə əlavə stimullar verməsi fonnalannı və prioritetlərini araşdırmışdır [108]. Qeyd etmək lazımdır ki, innovasiya funksiyarınm bir effektivli iqtisadi instrument kimi təqdim edilməsi və prioritet kimi qəbul edilməsi hələ onun real həyata vəsiqə qazanması və iqtisadi sistemdə yer tutması demək deyildir. Bu funksiyalann real iqtisadi proseslərdə inkişafı və möhkəmlənməsi mürəkkəb mərhələlərdən keçir. XX əsrin 60-80-ci illərində ABŞ- da yüksək texnologiyaların kəşfi və mənimsənilməsi üçün elmi institutlar və universitetləri, bu sahə ilə bağlı olan digər təsərrüfat subyektlərini birləşdirən texnoparkların və bununla bağlı Texniki- Tətbiqi Zonalarının (TTZ) yaradılması son 50 ildə innovasiyalann real iqtisadi proseslərə tətbiqi sahəsində tarixi nailiyyətlərin əsasını qoymuşdur. ABŞ-ın bu kimi 150 texnoparkmda 140 min nəfər

dən çox insan çalışır və burada 45 min nəfər müxtəlif profildən olan alim-tədqiqatçılar, alim-ixtiraçılar fəaliyyət göstərirlər. Texni-ki-tətbiq təyinatlı innovasiya zonalarının effektivli fəaliyyətinin çox hallarda ən nümunəvisi kimi təqdim olunan Stendford Universitetində yaradılan "Silikon vadisi" texnoparkmda dünyada istehsal olunan hesablama texnikası və kompüterlərin 20 %-nin cəmlənməsi innovatik münasibətin bariz nümunəsi kimi dəyərləndirilə bilər. Bəs hansı halda praktiki tətbiq proselərində XİZ-lərlə innovatik funksiylan bir-birinə bağlayan münasibətləri nəzərə almaq zəruridir? Bu sualın ən optimal cavabı - XİZ-lərin layihələşdiril- məsi zamanı onlann qarşısında duran prioritet məqsəd və vəzifələrdə innovasiya funksiyalarının maksimum təsir edə biləcəyi amillərin nəzərə alınmasıdır. Bu zaman innovatik funksiyalar XİZ-lər vasitəsi ilə zonalarda yaradılacaq istehsal sahələrinə əsaslı təsir göstərə biləcək iqtisadi alətlər kimi çixiş etməklə yanaşı, belə zonalarda iqtisadi-maliyyə və digər sahələrə kompleks innovatik münasibəti bütövlükdə əlverişli biznes-sahibkar mühitinin, ədalətli və razılıqla qarşılanan sosial-iqtisadi sistemin, təşəbbüskar və adekvat cəmiyyətin, dinamik inkişaf edən iqtisadi regionun fonna- laşdımıasına ciddi stimullar verə bilər. Bu sahədə uğurlu və məhsuldar nəticələr təkcə ABŞ-la bitmir. Yaponiya, Cənubi Koreya, Çin və sair ölkələrdə fəaliyyət göstərən innovatik funksiyah XİZ- lər az deyildir. Bununla belə, bu sahədə biz nümunələr verərkən, Azərbaycanla keçmiş SSRİ dövründə eyni təsərrüfat sistemində əsas yer tutan və ölkəmizlə birlikdə oxşar formada XX əsrin 90-ci illərin əvvəlinə bazar iqtisadiyyatı islahatlarını həyata keçirən Rusiya ilə bağlı misallardan da vernıək istərdik. Belə ki, keçmiş SSRİ respublikalarının əksəriyyətində, o cümlədən Rusiyada XİZ- lərlə bağlı qanunvericilik bazası Azərbaycana nisbətən xeyli əvvəl fonualaşıb. XİZ-lərin yaradılması və fəaliyyəti təcrübəsi də bu ölkələrdə silsilə təsadlarla, qeyri-ardıcıl dövlət siyasəti, baza fəaliyyət rejimlərinin tez-tez dəyişməsi və əvvəllər də qeyd edildiyi kimi, bir sıra neqativ proseslərlə müşayiət olunub. Bu baxımdan Azərbaycanda XİZ-lərin praktiki tətbiqi proseslərində Rusiya və digər MDB ölkələrində bu sahə ilə bağlı praktiki təcrübənin xüsu

silə, buraxılmış səhflərin və neqativ proseslərin dərindən öyrənilməsinə və zəruri nəticələrin çıxarılmasına hər dəfə ehtiyac duyulur. Y. A. Korolyev Rusiyadakı XİZ-lərin daha geniş fəaliyyət səviyyəsinə çıxa bilməmələrini araşdırarkən qeyd etmişdir ki, bunun əsas səbəbləri sırasına XİZ-lərin yaradılması üçün olan normativ sənədlərin bu kimi zonaların effektivli fəaliyyətini təmin edəcək səviyyədə işlənib hazırlanmaması, vergi, gömrük və valyuta rejimlərinin kifayət qədər əlverişli olmaması, XİZ-lərin fəaliyyətinə kənar müdaxilələrin çoxluğu, bu kimi zonalara nəzarət edən orqanların bir-birini təkrar etməsi, və, nəhayət, XİZ-lərdə innovasiya iqtisadiyyatı atributlarının çoxşaxəli tətbiqinə kompleks yanaşmanın olmamasıdır [108]. Bunlarla belə, son 10 il ərzində Rusiyada XİZ-lər yaradılarkən, onlann innovatikliyi və bu XİZ-lərdə inno- vatik fıınksiyalann tətbiqi üçün münbit şəraitin yaradılması ten- densiyalan diqqəti cəlb edir. Məsələn, “Alabuqa” XİZ-də əsas prioritet vəzifələrdən biri - yüksək texnologiyalı sənaye məhsullan- nın istehsalının təşkili və bütün istehsal sahələrində innovasiya fıınksiyalannın geniş tətbiqinin təmin edilməsidir. 2006-2012-ci illərdə bu XİZ-də 18 minə yaxın iş yerinin yaradılması regionun məşğulluq problemlərinin həllində mühüm rol oynamışdır. Həmin dövr ərzində 90-a yaxın kompaniya və şirkətin bu zonada innova- tik fəaliyyəti nəzərdə tutulmuş və bu zonaya yatınlacaq investisi- yalann həcmi 1,6 mlrd, dollar təşkil edəcəkdir. “Alabuqa” XİZ-də fəaliyyət göstərən təsərrüfat subyektlərinin əsas prioritetliyi - yeni texnologiyalann və innovasiyalann istehsal sahələrində tətbiqinin effektivli təşkilidir. Baxmayaraq ki, bu XİZ-də müəyyən nəticələr əldə edilmişdir, bununla belə, ümumi nəticələr əsaslandınlmış gözlənilən iqtisadi effekt səviyyəsinə çata bilməmişdir. Bu onunla bağlıdır ki, hələ də Rusiyada investisiya risklərinin olması və XİZ-lər üzrə uğurlu praktiki təcrübənin az əldə edilməsi səbəbindən “Alabuqa” XİZ-də xarici investorlann, həmçinin yerli inves- torlann fəallığı zəifdir. Şübhəsiz, iki min hektar ərazisi olan “Alabuqa” XİZ-də daha məhsüldar nəticələr əldə etmək mümkündür. Buna baxmayaraq, Tatarstan höküməti (Rusiya Federasiyası) XİZ- lərin fəaliyyətində innovatik tendensiyalara ciddi önəm verməkdə

dir. Məsələn, “İdeya-innovasiya texnoparkf’nda innovatik menecmentin və konsaltinqin genişləndirilməsi nəzərdə tutulmuşdur. “Ximqrad” Texnopolisində 131 hektar ərazidə kiçik və orta innovatik yüksək texnologiyalar yönümlü kompaniyaların yaradılması və inkişafı, kimya və polimerlərin emalı üzrə innovasiya funksiya- lı məhsuldar istehsal sahələrinin inkişaf etdirilməsinə münbit şərait yaratmışdır. “Master” Kamsk sənaye parkında 107 min kv. metr sahədə istehsal korpusları yaradılmışdır və burada əsas istiqamət kiçik buznesin inkişafı və innovasiya menecmentinin formalaşmasıdır. “İdeya - Cənub-Şərq” innovasiya texnoparkmda ümumi ərazi 37,9 min kv.m.-dir. Burada kiçik və orta biznesin inkişafı müasir texnologiyalı istehsal sahələrinin yaradılması, konsaltinq və biznes planlanmn işlənib hazırlanması xidmətinin göstərilməsi şəbəkəsi təşkil edilmişdir. İnnovasiya texnologiyalannm real fəaliyyət sahəsinə tətbiqini genişləndimıək məqsədilə ümumi ərazisi 9,5 min kv.metr olan “Kazan Elmi-tədqiqat Aviasiya Texnologiyaları İnstitutu” İnnovasiya-Texnoloji Mərkəzi yaradılmış və burada innovasiya funksiyalannın tətbiqi ilə zəngin olan layihələr həyata keçirilməkdədir. “Kazan Dövlət Universitetinin innovasiya fəaliyyəti mərkəzi” Elmi-Texnoloji Parkında istehsalatlann avtomatlaş- dmlması, məhsulların sertifıkatlaşdınlması, layihələrin elmi-texniki ekspertizadan keçirilməsi, konstruksiya və geofiziki işlərin təşkili üzrə layihələr icra olunmaqdadır. Bundan əlavə, Kazan Dövlət Texniki Universitetində biznes-inkubator “Texnopark”ı yaradılmış və burada yeni fəaliyyətə başlayan fınnalara və ideyalara dəstək həyata keçirilir, ixrac təyinatlı məhsullann yaradılması üzrə innovasiya layihələri baxılır və iqtisadiyyatın müxtəlif sahələrində elm tutumlu yüksək texnologiyalann innovasiya fəaliyyətinin sti- mullaşdınlması təşkil olunur. “Prikamya Texnoparkı”nda kiçik biznes subyektlərinin innovasiya fəaliyyəti, Naberejniye Çelnı şəhərindəki biznes inkubatorda kiçik bizneslə məşğul olan sahibkarlara güzəştli kompleks xidmətlərin göstərilməsi və onlara biznesin inkişafı üçün maddi-texniki bazanın yaradılmasında əsaslı kömək edilməsi, “Sviyaqa” Biznes inkubatorda kiçik biznes subyektlərinə və fərdi sahibkarlara güzəştli kompleks xidmətlərin

diqqəti cəlb etməyə bilməz, Tatarstamn hökümət strukturlan bu kimi innovasiya yönümlü qurumlarda effektivli nəticələri nəzərə alaraq, bir sıra yeni bu tip qurumlann yaradılmasına bilavasitə təşəbbüs göstənuişlər. Məsələn, “Vostok” İnnovasiya-istehsal texno- parkı, Yelabuqa şəhərində biznes-inkubator, Almetyevsk şəhərində “İmpuls” Bələdiyyə biznes-inkubatoru, Çistopol şəhərində biznes-inkubatorlannm yaradılması və “Kamsk Polyanı” sənaye parkını (burada polimer məmulatların emalı nəzərdə tututlub), həmçinin Yüksək texnologiyalar sahəsində “Texnopark”m (burada yüksək texnologiyalı innovasiya sahələrinin və eimtutumlu yeni istehsal sahələrinin yaradılması) təşkili xüsusi maraq doğurur. Biz bilərəkdən Tatanstanda təşkil edilmiş və əsasən yüksək texnologiyalann tətbiqi ilə bağlı texnoparklar, biznes-inkubatorlar və istehsal subyektləri barədə məlumatlan geniş verdik. Əslində dərindən baxanda Tatarıstanın iqtisadiyyat sektorunun strukturu Azərbaycanın milli iqtisadiyyat strukturu ilə əsasən üst-üstə düşür. Burada neft istehsalı və neft emalı ilə yanaşı, kimya və neftkimya müəssisələrinin həmçinin avtomobil və maşınqayınua subyektlərinin geniş şəbəkəsi mövcuddur. Ölkənin Nijnekamsk, Naberejni Çelnı, Yelabuqa, Almetyevsk şəhərləri əsasən sənaye müəssisələri ilə zəngindir və burada qeyri-neft sektoru üzrə güclü istehsal potensialı mövcuddur. Kazan şəhərində isə eimtutumlu müəssisələrin, həmçinin elmi-tədqiqat müəssisələrinin geniş şəbəkəsi vardır. Bu amillərə müqayisə gözü ilə baxanda, Bakı şəhəri, həmçinin Sumqayıt, Gəncə, Minqəçəvir, Şirvan kimi şəhərlərimizdə olan elm və sənaye tutumlu möveud istehsal potensialından daha səmərəli istifadə edilməsi məsələləri, bu sahələrin yenidənqurulması və moderniza- siya edilməsi, yüksək texnologiyalardan ibarət istehsal sahələrinin və innovasiya ftınksiyalı müəssisələrin yaradılması, xarici investisiyaların cəlbinin genişləndirilməsi və yerli.sərmayədarlann kon- solidasiyasmın təşkili məqsədilə praktiki baxımdan Azərbaycan Respublikasının iqtisadi maraqlarına cavab verə bilən texnopark- larm, biznes-inkubatorların, sənaye parklarının, sənaye-ixrac zo- nalann və sair bu kimi effektivli XİZ fonnalarının tətbiqinə baxılması problemləri aktuallığı ilə diqqəti cəlb edir.

Qeyd etmək lazımdır ki, innovasiya funksiyalarının real iqtisadi proseslərə tətbiqi problemləri Azərbaycanla sıx əməkdaşlıq edən Qazaxıstanda da prioritetliyi ilə fərqlənir. Bu ölkədə yaxın vaxtlarda "İnformasiya-Texnologiyalan Park"ı XİZ-nin reallaşdı- nlması nəzərdə tutulmuşdur. Bu tədbirlər ölkədə "İnnovasiya təşəbbüsü-2020" istiqamətində aparılan innovatik iqtisadi prioritetlərin əsasında həyata keçirilir. Bu zonanın yaradılmasında əsas məqsəd dünya səviyyəli yüksək innovasiya potensialına malik kompaniyaların və investorların buraya cəlb edilməsidir. 163 hektar ərazidə yerləşəcək bu texnoloji parkda ən müasir texnologiya- lann işlənməsi, hazırlanması və real iqtisadi proseslərdə tətbiqinin həyata keçirilməsidir (160J. Qonşu İranda 2015-ciilədək nanotexnologiyalar sahəsində dünaynm ilk 10 ölkəsi sırasına düşmək strateji məqsədlərə daxil edilmişdir. Hazırda İran bu yeni texnologiyalar və xüsusilə nanotexnologiyalar üzrə regionda ilk cərgələrdə yerləşir. Ölkənin 15 Universitetində nanotexnologiyalar sahəsi üzrə magistr pilləsi və 5 Universitetində elmlər doktoru dərəcəsi üzrə mütəxəssislərin hazırlanması həyata keçirilir. Hazırda İranda nanotexnologiyalar üzrə 20 məhsuldar müəssisə və 50 yeni kompaniya fəaliyyət göstərirlər və onlarda istehsal olunan məhsullar milyardlarla dollar həcmindədir. Bu amillər Azərbaycanda innovasiyalar və nanotexnologiyaların real tətbiqi proseslərinin bir daha sürətləndirilməsini şərtləndirir [1611.

Son 5 il ərzində Azərbaycanda innovatika-innovasiya istiqamətli prioritetlər fonnalaşmaqdadır. Düzü, əslində bu istiqamət üzrə ölkəmizdə kompleks və sistemli konsepsiya və mükəmməl qanunvericilik bazası yoxdur. Bununla belə, ölkə rəhbərliyinin bu sahəyə ciddi dəstəyi nəticəsində Azərbaycanda innovasiya funksiyalarının iqtisadiyyat sahələrinə yol açması və inteqrasiyası sürətlənməkdədir [22 j. Z.M.Nəcəfov qeyd edir ki, innovasiya - cəmiyyətin inkişafında öz kəmiyyət və keyfiyyət göstəriciləri ilə üstünlük təşkil edən yeni, daha mütərrəqi dəyişikliyi əks etdirən ictimai iqtisadi kateqoriyadır. İnnovasiya fəaliyyəti dedikdə isə, innovasi- yalann yaradılması, istifadəsi və tətbiqi bazasında yeniliklərin, həmçinin ölkə, dünya elmi və texnikanın mövcud, mütərəqqi tex

nologiya, sistemlər və yaradılmış yeni texnikanın, avadanlığın, ictimai təcrübədə realizə olunmasına məqsədyönlü şəkildə yönəldilmiş xüsusi işçi kollektivinin fəaliyyəti başa düşülməlidir (s.9, 62). Nəzəri baxımdan çox mürəkkəb görünən bu problemlərin, şübhəsiz, praktikada gerçəkləşdirilməsi məsələləri də xeyli çətindir. Bu baxımdan innovasiya funksiyalannm ölkəmizin müxtəlif iqtisadiyyat sahələrində fəal tətbiqi üçün kompleks və sistemli tədbirlərə ehtiyac vardır. Son illərdə Azərbaycanda innovasiya siyasətinin gücləndirilməsi bu sahədə əsaslı irəliləyişlər əldə ediləcəyinə ümid yaradır. Amma hələlik Azərbaycanda innovasiyalann reallaşdırılması mühiti ürək açan səviyyədə deyildir və innovasiya funksiyalarının tətbiqində yeni iqtisadi mexanizmlərin təşkilinə, o cümlədən XİZ-lərin reallaşdın İmasına hələlik başlanılmayıb. Digər tərəfdən ölkənin sənaye sahələrində fəal innovasiya-iqtisadi mühitinin təşkilinə zərurət qalmaqdadır **(Cədvəl 4).**

Cədvəl 4-dən göründüyü kimi, 2008-2010-cu illərdə Azərbaycanda innovasiyalara mane olan əsas və ya həlledici amillər sırasında bu təyinatlı müəssisələrinin özlərinin pul vəsaitlərinin kifayət qədər olmaması, dövlət tərəfindən maliyyə yardımının gücləndirilməsinə zərurətin qalması, yeni innovasiya məhsullanna sifariş və ödənişlərin aşağı olması, innovasiya yeniliklərinin dəyərinin yüksək olması və risklərin çoxluğu, istehsal olunmuş innovasiya məhsullanna çəkilən xərclərin əvəzinin ödənilməsi müddətinin uzun çəkməsi əsas yer tutmuşdur.

**Cədvəl 4.**

**Azərbaycan Respublikasında sənaye müəssisələrində innovasiyalara mane**

| | **İnnovasiyalara mane olan amilləri aşağıdakı kimi dəyərləndirən müəssisələrin sayı** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **əsas və ya həlledici** | | | **əhəmiyyətli** | | | **az əhəmiyyətli** | | |
| | **2008** | **2009** | **2010** | **2008** | **2009** | **2010** | **2008** | **2009** | **2010** |
| **İqtisadi amillər** | | | | | | | | | |
| **öz pul vəsaitinin kifayət qədər olmaması** | **24** | **35** | **27** | **14** | **11** | **24** | **32** | **35** | **51** |
| **dövlət tərəfindən maliy>'Ə yardımının kifayət qədər olmaması** | **25** | **19** | **18** | **11** | **13** | **16** | **19** | **19** | **18** |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| təzə məhsullara ödəniş qabiliyyətli tələbatın aşağı olması | 6 | 38 | 5 | 16 | 7 | 22 | 37 | 38 | 35 |
| yeniliklərin dəyərinin yüksək olması | 8 | 45 | 9 | 23 | 9 | 25 | 40 | 45 | 34 |
| yüksək iqtisadi risk | 3 | 34 | 7 | 15 | 9 | 18 | 40 | 34 | 32 |
| təzə məhsullara çəkilən xərclərin əvəzinin ödənilməsi müddətinin uzun olması | 7 | 47 | 3 | 12 | 10 | 16 | 42 | 47 | 38 |
| İstehsal amilləri | | | | | | | | | |
| müəssisənin innovasiya potensialının aşağı olması | 8 | 18 | 19 | 17 | 18 | 19 | 27 | 18 | 24 |
| ixtisaslı işçilərin çatmaması | 3 | 27 | 2 | 9 | 9 | 10 | 38 | 27 | 26 |
| yeni texnologiyalar haqqında infonnasiyanın çatmaması | 8 | 24 | 2 | 19 | 15 | 15 | 26 | 24 | 19 |
| müəssisələr tərəfindən yeniliklərin qəbul edilməməsi | 4 | 29 | 10 | 10 | 10 | 12 | 36 | 29 | 23 |
| satış bazarları haqqında informasiyanın çatışmaması | 5 | 28 | 3 | 13 | 9 | 6 | 39 | 28 | 25 |
| digər müəssisələr və digər elmi təşkilatlar ilə kooperasiya üçün imkanların olmaması | 1 | 28 | 1 | 16 | 9 | 13 | 35 | 28 | 22 |
| Digər səbəblər | | | | | | | | | |
| daha əvvəlki innovasiyalar nəticəsində təzə məhsullara ehtiyacın olmaması | 2 | 35 | 3 | 3 | 4 | 9 | 47 | 35 | 45 |
| innovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və nonnativ hüquqi sənədlərin olmaması | 7 | 25 | 4 | 14 | 10 | 13 | 26 | 25 | 22 |
| innovasiya prosesi müddətinin qeyri müəyyən olması | 4 | 29 | 3 | 9 | 8 | 9 | 35 | 29 | 24 |
| innovasiya infastı*ukturunun( vasitəçilik, informasiya, hüquq, bank, və s. xidmətlərinin) inkişaf etməməsi | 7 | 23 | 6 | 14 | 12 | 12 | 35 | 23 | 20 |
| texnologiyalar bazarının inkişaf etməməsi | 5 | 24 | 5 | 16 | 12 | 10 | 36 | 24 | 30 |

**Mənbə: ARDSK-nin "Azərbavcanm sənavesi" - 2011 statistik məcmuəsi.**

İnnovasiyalan ləngidən istehsal amilinə isə ölkədə fəaliyyət göstərən sənaye müəssisələrinin innovasiya potensialının aşağı olması və bu sahə üzrə yüksək hazırlığh mütəxəssislərin çatışmaması, elmi-tədqiqat müəssisələri ilə sənaye müəssisələri arasında qarşılıqlı fəaliyyətin və kooperasiya əlaqələrinin zəifliyi, innovasiya fəaliyyətini tənzimləyən və bu sahəni stimullaşdıran qanunvericilik bazasının, güzəştlər sisteminin olmaması, innovasiya infrastrukturunun və texnologiyalar bazarının zəif inkişaf etməsi daxildirlər. Tədqiqatçı-alimlər F.H.Qasımov və Z.M.Nəcəfov Azərbaycanda innovasiya funksiyalarının rcallaşdmlması və innovasiya iqtisadiyyatının fomıalaşdırıİması üçün bu sahədə sistemli yanaşmanın, regional-innovasiya sistemlərinin yaradılmasını, fundamental elmlərin, ali təhsilin və yüksək texnologiyaya əsaslanan sənayenin inkişaf prioritetlərinin müəyyənləşdirilməsini, innovasiya fəaliyyətinin inkişafı üçün münbit şərait yaradan hüquqi bazanın fonnalaşdmlmasmı, texnologiyalann transfer mərkəzinin yaradılmasını, ölkədə innovasiya fəaliyyətinin inkişafı üçün elmi-texniki işlərin, informasiya resurslannın və infrastrukturunun fəaliyyətinin səməriliyinin artırılmasını, müasir texnologiyalar şəbəkəsinin tətbiqini, milli innovasiya konsepsiyasının yaradılmasını, zəruri imıovasiya fondlarının təşkilini, innovasiya layihələrinə kapital qoyuluşunun və istehsalın innovasion aktivliyinin yüksəldilməsini, elmi potensialın və yüksək texnologiyalar parkının inkişaf etdirilməsini mühüm elementlər və strateji vəzifələr sırasına aid etmişlər 154). Göründüyü kimi, Azərbaycanda innovasiya funksiyalannm reallaşdın İması üçün prioritet hesab edilən mühüm istiqamətlərin və strateji fəaliyyət sahələrinin əksəri}^əti bu və ya digər modifİ- kasiyah XİZ-lərin fəaliyyət istiqamətləri ilə tamamilə üst-üstə düşür. Bu baxımdan yaxın perspektivdə Azərbaycanda innovasiya funksiyalannm və nanotexnologiyalann real iqtisadi proseslərə tətbiqində XİZ-dən istifadənin aktuallığının daha da

# IV FƏSİL. AZƏRBAYCANININ DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYASI PROSESLƏRİ

## 4.1. Keçid iqtisadiyyatının sonu vo milli iqtisadiyyatın beynəlmilləşməsi proseslərində yeni iqtisadi alətlərdən istifadənin effektivliyi

Son 20-30 il ərzində dünya xəritəsində onlarca yeni müstəqil dövlətlərin fonnalaşması bu ölkələrin milli subyektlərinin iqtisadi inkişaf modellərinin işlənib hazırlanması və milli iqtisadiyyatlann beynəlxalq əmək bölgüsündə fəal iştirakını təmin edən işlək iqtisadi mexanizmlərin tətbiqini şərtləndirir. Bu qrup dövlətlərə, əsasən Balkan və Şərqi Avropanın postsosialist dövlətləri, dünyanın bir sıra digər postsosialist ölkələri və postsovet respublikaları daxildirlər. Şübhəsiz, bu ölkələrin hər birində iqtisadi islahatlann sürətlə aparılması və keçid iqtisadiyyatının uğurla başa çatdırılması üçün mütərəqqi iqtisadi mexanizmlərdən praktiki proseslərdə istifadə etmək zərurəti yaranmışdır. Bu ölkələrin təcrübəsində XİZ- lərin müxtəlif modellərindən istifadə edilməsi halları da diqqəti cəlb edir. XİZ-lər yeni iqtisadi alət kimi milli iqtisadiyyatın müxtəlif sahələrində sahibkarlıq və biznes strukturları ilə iri kapital və dövlət strukturları arasında fəal iqtisadi mexanizm kimi çıxış etməklə, yerləşdikləri ərazinin, regionun iqtisadiyyatını gücləndirməklə, bütövlükdə milli subyektin beynəlxalq inteqrasiya kanalla- nna çıxışını sürətləndirir və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artınimasına əsaslı töhfələr verir.

1990-cı illərin əvvəllərində keçmiş SSRİ ölkələrində hələ təzə-təzə dövlətçilik atributlan fonnalaşanda bir çoxlan belə düşünürdü ki, tezliklə bu ölkələrdə sürətli iqtisadi artıma və sıçrayışa nail olunacaq, sosial-iqtisadi problemlər həll olunacaqdır. Amma əslində həmin dövrdə demək olar ki, bütün müstəqil MDB ölkələri ciddi çətinliklərlə qarşılaşdılar. Bu problemləri araşdıran belaruslu alimlər Tkaçuk M.I. və Kireyeva E.F. qeyd edirlər ki, postsovet respublikalannm iqtisadi transfonnasiyası ağır keçmiş, başlanılan islahatlar və yeni iqtisadi siyasətlər ciddi problemlərlə üz-üzə gəl

mişlər. Bütün postsovet respublikalannda istehsalın səviyyəsi və məhsul istehsalının artımı aşağı düşmüş, ÜDM-in həcmi kəskin azalmışdır. Bunlann nəticəsində yüksək inflyasiya prosesləri baş vermiş, işsizlik artmış, əhalinin əksər hissəsi kasıblamışdır. Müxtəlif iqtisadiyyat sahələrinin idarə edilməsi metodlan köhnəldiyindən, onlann əksəriyyəti bazar münasibətlərinə uyğunlaşa bilməmişlər [s. 28, 140]. Müəlliflər qeyd edirlər ki, bir çox dünya ölkələri özlərinin iqtisadi inkişaf mərhələlərində analoji dövrləri və si- tuasiyalan yaşayarkən, iqtisadi fəallığın və sahibkarlığın gücləndirilməsi, investisiya mühitinin yaxşılaşdırılması və innovasiya infrastrukturunun yaradılmasında *XİZ* təyinatlı texnoparklardan, həmçinin biznes-inkubatorlardan fəal istifadə etmişlər. Amma təəssüf ki, bir qrup MDB ölkələrində bu proseslərə başlanılsa da, əldə edilən praktiki nəticələr ölkələrin iqtisadi gücünün artırılmasında hələlik ciddi təsir qüvvəsinə malik deyillər. Məsələn, Rusiya, Urkayna, Belarus və Qazaxıstan kimi respublikalarda texnoparkla- rm yaradılması proseslərinin genişlənməsinə, kiçik biznesin inkişafına, inkubatorlann və innovasiya strukturlannın yaradılmasına dair çoxlu sayda qərarlar və layihələrin mövcudluğuna baxmayaraq, praktiki proseslərdə onlann reallaşdın İması səviyyəsi xeyli aşağıdır. Bir çox respublikalarda isə sahibkarlığa kömək fondları yaradılmaqla, kiçik və orta biznesin problemlərinin həllinə səy gösətirlir (o cümlədən Azərbaycanda da). Bütün bunlar belə qənaətə gəlməyə imkan verir ki, bazar iqtisadiyyatı münasibətlərinin formalaşması və dərinləşməsi proseslərində göstərilən problemlərin kompleks həllinə nail olmağın və aparılan iqtisadi islahatlann, həmçinin struktur dəyişikliklərinin yaratdığı sosial-iqtisadi problemlərin neqativ təsirinin məhdudlaşdırılması məqsədi ilə daha ef- fektivli, çevik, tez yüksək iqtisadi gösətricilər əldə etməyə imkan verən və müəyyən dövr üçün sabit iqtisadi rejimə malik iqtisadi mühitə (iqtisadi rejimə), məsələn, XİZ rejiminə zərurəti şərtləndirir. Təsadüfi deyildir ki, iqtisadi islahatları və tam bazar iqtisadiyyatı münasibətlərinə keçid proseslərini uğurla başa vuran, bu proseslərdən sonra əsaslı iqtisadi artıma nail olan ölkələrin əksəriyyətində XİZ modellərindən praktikada istifadə edilmişdir və nəticə

lər də xüsusi əhəmiyyət kəsb etmişdir. XİZ-lərin tətbiqini zəruri edən əsas amillərdən biri də istehsal fondlarının yenilənməsi, ÜDM-un artım dinamikasında mühüm əhəmiyyət kəsb edən iqtisadiyyat sahələrinin inkiafına əsaslı kapital qoyuluşunun həcminin artınıması məsələləridir. Dünya təcrübəsində keçid iqtisadiyyatı mərhələlərini yaşamış ölkələrin bir çoxunda bu problemlərin həllində XİZ-lərdən praktiki proseslərdə uğurla istifadə edən ölkələrin sayı az deyildir. Cədvəl 5-də MDB ölkələrində ÜDM-m dinamikası verilmişdir.

**Cədvəl 5.**

**MDB ölkələrində Ümumi daxili məhsulun dinamikası (cari qiymətlərlə, milyard ABŞ dolları)**

| s/s | Ölkobr | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2000-2010-cu illərdə artım, dəfə |
|---|---|---|---|---|---|---|---|---|
| 01 | Azərbaycan | 5,3 | 13,2 | 33,1 | 48,9 | 44,3 | 51,8 | 9.8 |
| 02 | Ennonistan | 1.9 | 4,9 | 9.2 | 11,7 | 8,5 | 9,4 | 4,9 |
| 03 | Belarus | 11,4 | 30,2 | 45,2 | 60,4 | 49,0 | 54 | 4,7 |
| 04 | Qazaxıstan | 18,3 | 57,1 | 104,9 | 133,4 | 115,3 | 146,0 | 8,0 |
| 05 | Qırğız.ıstan | 1,4 | 2,5 | 3,8 | 5,1 | 4,7 | 4,6 | 3,3 |
| 06 | Moldova | 1,3 | 3,0 | 4.4 | 6,1 | 5,4 | 5,8 | 4,5 |
| 07 | Rusiya | 259.7 | 764,1 | 1300 | 1663 | 1225 | 1462 | 5,6 |
| 08 | Tacikistan | 1,0 | 2,3 | 3,7 | 5,2 | 5.0 | 5,6 | 5,6 |
| 09 | Türkmənistan | 5,0 | 17,2 | 24,0 | 19,5 | - | - | - |
| 10 | Özbəkisian | 13,7 | 14,3 | 22,3 | 28,6 | 32,8 | 9,0 | 0,7 |
| 11 | Ukrayna | 31.3 | 86.2 | 142.7 | 180.0 | 117,2 | 137.9 | 4,4 |

**Mənbə: "Azərbaycanın statistik göstəriciləri"-2011. Bakı 2011, 848 səh.**

Qeyd etmək lazımdır ki, son illərdə keçid iqtisadiyyatı proseslərini əsasən başa vunnaqda olan MDB ölkələrində ÜDM-m artım tempində azalma tendensiyalan yer almışdır. 2009-cu ildən başlayaraq, bu tendensiyalar daha da güclənməkdədir. Fərəhli haldır ki, 2000-2010-cu illərdə ÜDM-un artımına görə Azərbaycan MDB ölkələri içərisində birinci yerdədir və bu göstərici 9,8 dəfə təşkil etmişdir. Sonrakı yerləri Qazaxıstan - 8,0 dəfə, Rusiya - 5,6 dəfə, Belarus - 4,7 dəfə, Ukrayna - 4,4 dəfə və sair dövlətlər tutmuşlar. Bu ardıcıllığa fikir versək, ÜDM-un artımına görə ilk 3 yerdə neft-qaz, başqa sözlə, hasilat sahələri geniş potensiala malik olan ölkələr qərarlaşmışlar. Dünya maliyyə və iqtisadi böhranlan zamanı hasilat sahəsinin məhsullarından asılılığın azaldılması və makroiqtisadi sabitliyin qorunması məqsədilə, keçid iqtisadiyyatını başa vunnuş və ya başa vunnaqda olan MDB ölkələrində milli iqtisadiyyat sahələrinin müxtəlif sektorlanmn rəqabət qabiliyyətinin gücləndirilməai məqsədilə bu sahələrə investisiyaların gətirilməsi və iqtisadi fəallığın gücləndirilməsi üçün XİZ-lərdən səmərəli istifadəyə zərurət artmışdır. XİZ-lər ilk növbədə istehsal sahələrinin və əsas fondlann yenilənməsinə şərait yaratmaqla, bu sahələrə yönəldilmiş əsaslı kapital vəsaitlərinin həcmini artırmaqla, milli iqtisadiyyatın diversifikasiyalaşdırılmasmda və >öiksək standartlara cavab verən mal və xidmətlərin çeşidin artınimasında mühüm əlavə stimullar vermək iqtidanndadırlar. Cədvəl 6-da MDB ölkələrində əsas kapitala yönəldilmiş vəsaitlər verilmişdir.

**Cədval 6.**

**MDB ölkələrində əsas kapitala yönəldilmiş vəsaitlər (cari qiymətlərlə,**

| s/s | Ölkələr | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2000-2010- cu illərdə cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| 01 | Azərbaycan | 1,1 | 5,7 | 8,7 | 12.1 | 9,6 | 12.3 | 49,5 |
| 02 | Ermənistan | 0,2 | 1,0 | 2,0 | 2,8 | 1,6 | 1,6 | 9,2 |
| 03 | Belarus | 2,3 | 7,0 | 12,1 | 17,3 | 15,5 | 18,0 | 72,2 |
| 04 | Qazaxıstan | 4,2 | 18,2 | 27,7 | 35,0 | 35,1 | 32,4 | 152,6 |
| 05 | Qırğızıstan | 0,2 | 0,3 | 0,6 | 0,9 | 1,0 | 1,0 | 2 [illegible] |
| 06 | Moldova | 0,1 | 0,6 | 1,3 | 1,8 | 1,0 | 1,0 | 5,8 |
| 07 | Rusiya | 41,1 | 128 | 263 | 354 | 250 | 296 | 1332,1 |
| 08 | Tacikistan | 0,1 | 0,2 | 0,8 | 1,3 | 0,9 | 1,0 | 4,3 |
| 09 | Türkmənistan | 1,7 | 3,7 | 4,4 | 6,9 | 8,8 | 10,0 | 35,5 |
| 10 | Özbəkistan | 3,1 | 2.8 | 4,7 | 7,2 | 8,5 | 9,7 | 36.0 |
| 11 | Ukrayna | 4,3 | 18.2 | 37,3 | 44,3 | 19,5 | 19,0 | 142,6 |

**Mənbə: Cədvəl "Azərbaycanın statistik göstəriciləri"-2011. Bakı 2011, 848 səh.**

Cədvəl 6-nın təhlili göstərir ki, 2000-2010-cu illərdə MDB dövlətlərində əsas kapital qoyuluşlan Rusiya, Qazaxıstan, Ukrayna, Belorus və Azərbaycanın payına düşür. Bu ölkələrdə həmin dövr ərzində əsas kapitala yönəldilmiş vəsaitlər müvafiq olaraq 1332,1 mlrd. ABŞ dolları, 152, 6 mlrd, dolları, 142,6 mlrd, dolları, 72,2 mlrd, dolları və 49,5 mlrd, dollar təşkil etmişdir. Rusiya, Türkmənistan, Qazaxıstan və Azərbaycanda əsas kapitala yönəldil, miş vəsaitlərin əksəriyyəti hasilat sahələrinə istiqamətlənmişdir. Maraqlıdır ki, Qazaxıstan hasilat sahələrinin inkişafında klaster və innovasiya təyinatlı XIZ-lərin tətbiqinə nail olmuşdur. Bu proseslər Ukrayna və Rusiyada da müşahidə edilmişdir. Azərbaycan və Türkmənistanda isə hasilat sahələrinin xarici investorlar üçün

cəlbedici olması məqsədləri ilə bu dövlətlər tərəfindən xüsusi iqtisadi rejimlər müəyyənləşdirilmişdir. Göründüyü kimi, milli iqtisadiyyatların sürətli inkişafına əsaslı təsir edə biləcək iri kapital resurslarının cəlbi məqsədilə MDB dövlətlərində yeni iqtisadi alətlərdən, o cümlədən XİZ-lərdən səmərəli istifadənin səviyyəsi bu sahələrdə mövcud imkanlann çox cüzi hissəsini təşkil edir.

Azərbaycanda milli iqtisadiyyatın müxtəlif sektorlannm bazar iqtisadiyyatı münasibətlərinə keçidi proseslərində biznesin rolunu araşdıran bir qrup ölkə alimlərinin fikrincə, Azərbaycanın milli iqtisadiyyatının bazar prinsipləri əsasında fonualaşması həlli vacib problemlər sırasında biznesin təşkili və inkişaf etdirilməsini ön plana çəkir. Biznes istehlakçıların tələbatının ödənilməsi və mənfəət əldə edilməsi məqsədilə təşəbbüskar insanlar arasında qurulan işgüzar münasibətlərin məcmusudur. Biznes və onun mühüm istiqaməti olan sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının fonualaş- ması və inkişafı üçün zəruri şərtdir, əhalinin həyat səviyyəsinin yaxşılaşdınimasmda, sosial-iqtisadi problemlərin uğurlu həll edilməsində böyük rol oynayır [s.251, 24J. Müəlliflər qeyd edirlər ki, Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçid şəraitində müəssisələrin kiçik, orta və iri qruplar üzrə differensiallaşdınl- ması indiyə qədər tam həllini tapmayıb. Bunlarla belə, kiçik müəssisələr çevikliklə istehsalı dəyişməkdə olan yeni elmi-texniki tələblərin tətbiqini asanlaşdınr, iri müəssisələri kiçik seriyalı məhsullardan azad edərək, ixtisaslaşmanın dərinləşməsinə kömək göstərir, elmi-texniki tərəqqidə, innovasiyada kəşfiyyatçı rolunu oynayır, yeni informasiya texnologiyalannm tətbiqinə cəhd edir, in- hisarçılann çəkindiyi riskləri öz üzərinə götürür və kapitalın daha yüksək sürətlə dövriyyəsini təmin edir [s.253, 24]. Göründüyü kimi, kiçik müəssisələr şəbəkəsinin uğurlu fəaliyyəti nəticəsində milli iqtisadij^atm davamlı artımına təsir etməklə yanaşı, ölkənin istənilən ucqar bir regionunda belə, iqtisadi fəallığın canlandınl- masma, sahibkarlığın stimullaşdınlmasma, biznes mühitinin formalaşmasına nail olmaq olar. Amma bu şərtlə ki, belə bir mühiti təmin edə biləcək iqtisadi mexanizmlərin real praktiki tətbiqi mümkün olsun. Biz bir sıra hallarda dünyanın müxtəlif ölkələrinin

geri qalmış ərazilərinin və regionlarının reabilitasiyası, həmçinin depressiyadan çıxaniması proseslərində XİZ-lərdən istifadə barədə materiallar vermişdik və nümunələr gösətmıişdik. Bununla belə, iqtisadi ədəbiyyatlarda yer almış mənbələrə əsasən tanınmayan, heç bir infrastrukturu olmayan kiçik Çin kəndlərinin və ərazilərinin XIZ-lər vasitəsilə sürətlə inkişaf və tərəqqi edən şəhərə çevrilməsi misalları artıq bütün dünyada heyrət doğurmuşdur. Düzdür, müasir dövrdə Azərbaycanın regionları sürətlə inkişaf etməkdədir və dövlət bu sahədə əsaslı kapital qoyuluşuna vəsaitlər və investisiya resurslan artınnaqdadır. Amma, misal üçün, Xaç- mazın Nabran kəndində fəaliyyət göstərən çoxsaylı turizm-rekreasiya xidmət sahələrinin dünya standartlan səviyyəsinə qaldırılması və bu kəndin Xəzər dənizi sahili boyunca münbit ərazisində müasir turizm infrastrukturunun yaradılması məqsədilə burada turizm- rekreasiya XİZ-nin təşkili şübhə etmirəm ki, 10-15 il ərzində bu kəndi ən azı 30-40 min nəfərlik bir kurort şəhərinə çevirmək potensialına malik olardı. Əslində belə bir perspektivin olması üçün bu ərazidə hər cür təbii və coğrafi şərait, əmək ehtiyatlan və digər zəruri resurslar mövcuddur. Burada XİZ kimi fəal iqtisadi rejimin təşkili regionda sosial-iqtisadi problemlərin həllini sürətləndirməklə yanaşı, bütövlükdə Azərbaycanını şimal regionun ölkə iqtisadiyyatında xüsusi çəkisinin atmasına əlavə perspektivlər açmış olardı.

Qeyd etmək lazımdır ki, XİZ-lərlə bağlı müxtəlif tədqiqat işlərində və iqtisadi ədəbiyyatlarda bu kimi iqtisadi zonalann modifı- kasiyasından asılı olmayaraq, onların yaradılması və fəaliyyətində ən ali prioritetlər sırasına milli iqtisadiyyatlann inkişaf istiqamətləri daxildirlər. Ümumiyyətlə, milli iqtisadiyyatın inkişafı problemləri, onun strukturlarının inkişaf spesifiklikləri, bunlarla bağlı dövlət siyasətinin fonualaşması və bu siyasətin icrası proseslərində çevik, məhsuldar, təsirli, davamlı, çoxfunksiyalı və kompleks pozitiv nəticələr əldə edilməsinə imkan verən iqtisadi mexanizm- lərin (instrumentlərin) işlənib hazırlanması və milli iqtisadi sistemə daxil edilməsi problemləri bütün dövrlərdə daim diqqət mərkəzində olmuşdur və müasir dövrdə də aktuallığı bir qədər də art

mışdır. Milli iqtisadİ5^atın maddi-istehsal və məhsul məcmunun artması problemləri ölkədə sabit qiymət və inflyasiya siyasətinin, balanslaşdınimış xarici ticarət fəalij^ətinin və siyasətinin, sosial-iqtisadi problemlərin həlli məqsədilə iri həcmli kompleks tədbirlərin görülməsini, yüksək standartlar səviyyəsində mal və məhsulların istehsalının təşkili, bütövlükdə milli iqtisadiyyatın əhatə etdiyi regionlarda və iqtisadiyyat sektorlarında iqtisadi fəallığın təmin edilməsini şərtləndirir. Bu problemlərin tədqiqini araşdıran bir qrup rusiyalı tədqiqatçılar milli iqtisadiyyatın inkişaf problemləri, onun əsas makroiqtisadi instrumcntləri, bu sahədə həmçinin dövlət siyasətinin prioritet istiqamətləri, milli iqtisadiyyatın dirçəldilməsi, davamlı inkişafı, modernləşdirilməsi, beynəlmilləşməsi və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin edilməsi məqsədilə dünya təcmbəsində nisbətən uğurlu alınmış iqtisadi rıçaqlarm və indikatorların milli iqtisadiyyatlann inkişaf strategiyası (iqtisadi sistemi), milli iqtisadiyyatın inkişafının proqnozlaşdırılması və bu istiqamətdə perspektivlərin sistemləşdirilməsi üzrə bir sıra nəticələr əldə edə bilmişlər [1521. Bu nəticələrin əsasında milli iqtisadiyyatlann uğurlu inkişafı baxımdan davamlı iqtisadi artım və milli iqtisadiyyatının çoxşaxələndirilməsi dayanır. İqtisadi artım əsasən ölkədə müxtəlif amillərin təsiri altında, məsələn, maddi-sosial, təbii-iqlim, tarixi, elmi-texniki, iqtisadi, və nəhayət, siyasi amillərin nəticəsində zərurət kimi milli iqtisadiyyatın əsas inkişaf prioritetinə çevrilir. Digər tərəfdən, bu proseslər ölkədə qanunvericilik bazasının daim təkmilləşdirilməsini, milli iqtisadiyyatın müxtəlif sektorlarının inkişaf indikatorlannm və prioritetlərinin səviyyəsinin artırılmasını şərtləndirir. Şübhəsiz, bu proseslərdə praktiki baxımdan maddi-istehsal bazasının və şəbəkəsinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Belə ki, milli iqtisadiyyatın davamlı və sürətli inkişafında rəqabət qabiliyyətli istehsal sahələrinin ekstensiv və intensiv inkişaf tempini təmin etmək məqsədilə kompleks təşkilati, texniki-iqtisadi və sosial-iqtisadi problemlərin qarşılıqlı təsirinə və onlann praktiki gerçəkləşdirilməsinə baxılmalıdır. Bu proseslərdə ən mühüm amillər kimi ilk növbədə maliyyə mənbələrinin və kapital resurslarının əldə edilməsi problem

ləri, zəruri əmək ehtiyatları və yüksək ixtisaslı kadrların hazırlanması məsələləri və nəhayət, istehsal proseslərinin əsas maddi təminatçıları - materiallan olan xammal və yarımfabrikatlari - çoxlu sayda təbii xammal və materialların, enerjidaşıyıcıların təmin edilməsi prioritet sahələr hesab olunur. Qeyd etmək lazımdır ki, müasir dövrdə istehsal sahələrinin inkişafının intensivləşdirilməsi üçün innovasiya funksiyalarından və daha optimal idarəetmə modellərindən istifadəyə üstünlük verilməkdədir. Milli iqtisadiyyatın inkişafı ilə bağlı bu strateji istiqamətlərə diqqətlə yanaşanda görərik ki, bütün hallarda alternativ fərqli iqtisadi mexanizmlərin bu sistemdə yer almasına və əlavə stimul kimi çıxış etməsinə zərurət qalmaqdadır. Müəlliflərin fikrincə, çoxaspektli əməkdaşlıq və iqtisadi inkişaf proseslərində XİZ-lər öz müxtəlif modifikasiyaları ilə bu proseslərə əsaslı müsbət təsir göstərə bilərlər. Həm də maraqlıdır ki, XİZ-lərin tətbiqi proseslərində seçilmiş və prioritet qəbul edilmiş modelin milli iqtisadiyyatın spesifik inkişaf xüsusiyyətlərinə (mentalitetinə) diqqət yönəldilməsi nəzərdən qaçmamalıdır.

Keçid iqtisadiyyatlı ölkələrin əksəriyyəti bu proseslərin təşkilində makroiqtisadi sabitliyin qorunmasında inflyasiya problemləri ilə üzləşməli olmuşlar. Məlumdur ki, iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi əsasən inflyasiya proseslərinin nizamlanmasından sonra başlayır. Belə ki, inflyasiya baş verdikdə ölkə iqtisadiyyatına gətirilən investisiyalann produktiv sahələrə qoyulması yerinə, ən çox qısa müddətdə mənfəət gətirən sahələrə istiqamət- ləndirilməsinə yol açar və beləliklə, iqtisadiyyatda maliyyə qay- naqlannm bölgüsünün pozulmasına səbəb ola bilər. İnflyasiya ölkənin xarici ticarətini də pozar Is. 14-15, 58]. İnflyasiya ilə bağlı kompleks tədbirlər sırasında ən mühüm yerlərdən birini istehsal və onun strukturunun təkmilləşdirilməsi yer almışdır. Bu onunla bağlıdır ki, istehsal sahələrinin yaradılması, davamlı və sabit məhsulların istehsalı şəbəkəsinin qurulması, rəqabətqabiliyyətli və is- tehlak tələbatını yüksək səvij^ədə ödəməyə imkan verən mal və xidmətlərin daxili bazarda kifayət qədər təminatı, ixrac istiqamətində potensialın artması bütöblükdə regionda və milli iqtisadiyyatda makro-iqtisadi göstəricilərin sabitliyinə, maliyyə

maliyyə-pul sistemlərinin işlək mexanizminin fomıalaşmasına və dayanaqlı sistemə çevirməsinə imkan verir. Şübhəsiz, bu mürəkkəb proseslərin həyata keçirilməsi üçün ölkə iqtisadiyyatının strateji inkişaf prioritetləri sırasında praktiki proseslərdə verə biləcəyi effektivli nəticələri əldə etməyə imkan yaradan iqtisadi mexanizmlərin fəal tətbiqi nəzərdən yayınmamalıdır. Dünyanın bir çox ölkələrində bu məqsədlə istifadə edilən iqtisadi mexanizmlərin içərisində XİZ institutunun müxtəlif modifıkasiyalannı gönnək mümkündür. Ümumiyyətlə, XİZ-lərin praktiki-tətbiqi proseslərində inflyasiya və iqtisadi inkişafın qarşılıqlı aspektlərinin daim və işlək iqtisadi mexanizmlər vasitəsi ilə izlənməsinə zərurət bütün hallarda qalmaqdadır.

Son 20 il ərzində dünya iqtisadiyyatında keçid iqtisadiyyatlı ölkələrin sayının artması ilə əlaqədar olaraq, XİZ-in praktiki tətbiqi bu kimi zonaların fəaliyyəti və inkişafı proseslərində daha geniş tədqiqat obyekti kimi diqqəti cəlb etməkdədir. Bu ilk növbədə sosializm sisteminin süqutundan sonra yeni yaranmış və iqtisadi islahatlar apannağa məcbur olmuş onlarla dövlətlərin daha effektivli iqtisadi vasitələrə müraciət etmələrinin vacibliyi ilə izah oluna bilər. Digər tərəfdən, XİZ-in praktiki inkişaf proseslərinin fundamental öyrənilməsi, belə zonaların fəaliyyətinin nəticələrinin nisbətən uğurlu proqnozlaşdırılmasma və bu kimi zonalann milli subyektlərin iqtisadi sistemində möhkəmlənməsinə imkan verir. Belə ölkələrdən biri kimi Vyetnamın XİZ-dən bəhrələnməsi tarixinin ən fəal dövrləri son 20 ili əhatə edir. Bu ölkədəki XİZ-rə bizim tərəfimizdən geniş marağın səbəblərindən əsası kimi Vyetnamla Azərbaycan arasındakı bazar iqtisadiyyatı atributlarinin eyni tarixi formalaşması və buna kimi iqtisadi inkişaf sistemindəki oxşarlıq da götürülə bilər. Digər tərəfdən, Vyetnamın XİZ-dən praktiki pro- seslərdəki nisbətən uğurlu nəticələrinin öyrənilməsi və təcrübədə baxılması inkişaf etməkdə olan XİZ təcrübələrinə və modifıkasi- yalanna nisbətən daha sadə və praktiki baxımdan əhəmiyyətlidir. Bu ölkənin müasir iqtisadi sistemində XİZ-in rolunu araşdıran vyetnamlı tədqiqatçı-alim N.M.Xoanm fikrincə, 1980-ci illərin sonundan başlayaraq, bazar iqtisadiyyatı kursu götürmüş Vyetnamda

XİZ-in başlıca rolu bazar iqtisadiyyatına keçid proseslərinin sürətləndirilməsi aləti, ixrac-təyinatlı və idxaləvəzedici istehsal sahələrinin inkişafı üçün ekperimental meydança, istehsalın yeniləşdiril- məsi kursunun və tədricən açıq iqtisadiyyat prinsipinin praktikada təsdiqlənməsi siyasətinin güzgüsü kimi dəyərləndirmək olar [144J. XİZ-in tətbiqi və fəaliyyəti prosesləri mövcud iqtisadi prioritetlərə və iqtisadiyyatın müxtəlif uzunmüddətli özünü təsdiq etmiş ənənəvi sektorlarına alternativ yeni iqtisadi mexanizm (iqtisadi sahə) kimi fərqli effektivli müasir idarəetmə və kommersiya-istehsal münasibətlərinin uğurlu məcmu toplusu kimi diqqəti cəlb edir. Öz milli subyektlərinin dünya iqtisadiyyatında ön cərgədə olmasının bütün alternativ variantlannı fikirləşən və öyrənən ayn-ayrı siyasətçilərin belə XİZ-dən tarixi inkişaf proseslərində uğurlu istifadə edilməsinə önəm verməsi nümunələri vardır. Məsələn, 1930-cu illərin ortalannda ABŞ-ın dünya iqtisadiyyatında rolunun daha da gücləndirilməsi istiqamətlərində prioritetlərin müəyyənləşdirilmə- sində ölkə Prezidenti F.Ruzveltin təklifinə əsasən ABŞ-da xarici ticarət zonalarının geniş şəbəkəsinin yaradılması və onların fəaliyyətinin stimullaşdınıması qərara alınmışdır. Cənubi Koreyada elektron mal və məmulatların hazırlanması şəbəkəsinin (istehsal sahələrinin) qurulması və genişləndirilməsi məqsədilə, bu ölkənin Kumi şəhərində tətbiq edilmiş sənaye zonasının effektivli nəticələri də təqdirəlayiqdir. Bu profilli XİZ-dən Malayziyanın Pinanq adasında təşkil olunmuş XİZ və Hindistanda fəaliyyət göstərən “Santa-Kruz Elektronik İxrac İstehsal Zonası” da effektivli praktiki fəaliyyətləri ilə fərqli iqtisadi mexanizm kimi müxtəlif dövrlərdə öz ölkələrinin iqtisadi inkişaf proseslərinə layiqli töhfələr verə biliblər. Bu amillərinin tarixi əhəmiyyətinin dərindən araşdınıması və Vyetnamın müasir dövrdə XİZ-dən istifadə prioritetlərinin müəyyənləşdirilməsi zamanı bu ölkədə sənaye sonalarının prioritetliyi daha çox diqqəti cəlb etmişdir. Bu əsasən sənaye zonalan- nın fəaliyyəti hesabına yeni texnologiyaların daxil olması, investi- siyalann cəlbinin sürətləndirilməsi, məşğulluğun gücləndirilməsi, sənaye sahələrinin modernləşdirilməsi, ölkənin ixrac potensialının artınıması və depressiv rayonlann sosial-iqtisadi inkişafına əlavə

stimullann vennəsi imkanlannm artırılmasının mümkünlüyü ib izah olunur. Vyetnamda 1998-2000-ci illərdə qeydə alınan 39,2 mlrd. ABŞ dolları həcmində xarici investisiyaların 7,7 mlrd. ABŞ dolları və yaxud 19,7 %-i XİZ-in vasitəsilə bu ölkəyə daxil olmuşdur. 1997-2000-ci illərdə Vyetnamda XİZ-in yaradılması və fəaliyyətinə dövlət tərəfindən aynlan vəsaitin məbləği 1,5 mlrd. ABŞ dolları, xarici kapitalın həcmi isə 556 mln. ABŞ dollan təşkil etmişdir. XİZ-in fərqli iqtisadi mexanizm kimi Vyetnamın iqtisadi sistemində möhkəmlənməsi ölkənin xarici ticarət dövriyyəsinin sürətlə artmasına ciddi təsir göstərmişdir. Məsələn, 1990-2000-ci illərdə Vyetnamda xarici ticarət dövriyyəsi 4-5 dəfə artmışdır. Bu ölkənin əsas XİZ-nə Tan Txuan, Lin Çunq, Xayfan, Danonq, Kon- txo, Noyvay XİZ-ri daxildirlər. Onlann əraziləri 60 hektardan 300 hektaradək təşkil etmişdir. Bu zonalarda əsas xarici investor ölkələr Cənubi Koreya, Yaponiya, Sinqapur və Tayvandır. Vyetnam XİZ-in praktiki proseslərindəki uğurlann əsas səbəblərindən biri də, bu ölkədə tətbiq edilən XİZ modifikasiyalarmın regionda yerləşən digər ölkələrin - Çin, Malayziya, Tayland, Filippin kimi sürətlə inkişaf etməkdə olan ölkələrin XİZ təcrübələrinə isnad etməsi kimi dəyərləndirmək mümkündür. Qeyd etmək lazımdır ki, XİZ-lər Vyetnamın 61 şəhərinin demək olar ki, yansmda bu və ya digər modifıkasiyada fəaliyyət göstərirlər. XİZ-nin ölkənin sənaye sektorunda rolu əhəmiyyətli dərəcədə arta bilmişdir. Yaxın perspektivdə Vyetnamda XİZ-in müasir modifıkasiyah idarəetmə sistemlərinin praktiki tətbiqi və XİZ institutunun bütövlükdə təkmilləşdirilməsi gözlənilir. Bunlann XİZ-in ölkənin iqtisadı inkişaf proseslərində müasir dövrdə qarşıda duran daha mürəkkəb tarixi və strateji vəzifələrin yerinə yetirilməsində rolunun artınimasına əlavə stimullar verəcəyi proqnozlaşdınlır.

Azərbaycan Respublikasında keçid iqtisadiyyatı prosesləri əsasən başa çatsa da, bazar iqtisadiyyatı prinsiplərinin genişləndirilməsi məqsədilə Şərq, Cənub-Şərqi Asiya və bütövlükdə ərəb dünyası ölkələrinin təcrübələrinə müraciətlər diqqətdən yayınmamalıdır. Belə ki, müasir dövrdə Azərbaycanın bu regiondan olan bir çox ölkələrlə qarşılıqlı inteqrasiya prosesləri, texniki-iqtisadi

əməkdaşlıq istiqamətləri təqdirəlayiqdir. Bir çox ərəb ölkələri neft hasilatı ilə bərabər qeyri-neft sektoru iqtisadiyyat sahələrinin sürətli inkişafına nail olmuşlar. Bir qrup Şərq və Cənub-Şərqi Asiya ölkələri hazırda dünya iqtisadi proseslərində ciddi mövqeyə və rəqabətqabiliyyətinə malikdirlər. Maraqlıdır ki, bu ölkələrin iqtisadi inkişaf proseslərində önəmli yer tutan effektivli iqtisadi mexanizmlərdən biri də XİZ-lərdir. Biz çoxsaylı misallarla Çin XİZ-lərinin uğurlarından nümunələr vermişik, digər tərəfdən dünya təcrübəsində Birləşmiş Ərəb Əmirliyində - Dubayda fəaliyyət göstərən XİZ-lərin xarici investorlar üçün nə dərəcədə cəlbedici olması bütün dünyaya məlumdur. Bu amillər nəzərə alınmaqla, bazar iqtisadiyyatı proseslərini sürətləndirən və sosial-iqtisadi problemlərin həllində effektivli iqtisadi alətlərin tətbiqində maraqlı olan ölkələrdən (milli iqtisadiyyatlardan) yuxanda göstərilən regionların ölkələrinin XİZ təcrübələrinə müraciət etməsi elmi-iqtisadi baxımdan məqsədəuyğun hesab oluna bilər. Sudanlı iqtisadçı alim A.M.Axmed Yusef bu istiqamətdə araşdımıalannda Sudanın həmin ölkələrin təcrübəsindən istifadə etməsini şərtləndirən bir sıra nəticələr verə bilmişdir [85|. Məlum olduğu kimi, Sudan aqrar ölkədir və burada iqtisadi inkişaf prosesləri olduqca ləng gedir, həm də bu ölkənin cənubunda vətəndaş müharibəsi nəticəsində güclü hərbi xərclərə zərurət bütün dövrlərdə olmuşdur. Düzdür, hazırda bu ölkənin 2 yerə parçalanması prosesi demək olar ki, başa çatmışdır. Bununla belə, bizim əsas məqsədimiz bu ölkədəki siyasi sistemi öyrənmək olmadığından, burada ayn-ayrı XİZ-lərin praktikada verə biləcəyi effektiv nəticələrin ümumi mənzərəsini göstərmək olmuşdur. Məsələ burasındadır ki, bu ərazilərdə faydalı qa- zıntılann bolluğu (xrom, dəmir, mis və svinets-sink filizləri, qızıl, asbest, maqnit, marqanets, kaolin, gips, duz, neft və sairlər) rəqabət qabiliyyətli sənaye sahələrinin yaradılmasına imkan verir. Amma uzun bir dövr ərzində bu proseslərin təşkilində əsaslı praktiki nəticələr əldə olunmamışdır. Bunlan nəzərə alan əvvəlki Sudan hökuməti iki XİZ-in yaradılmasına qərar vermiş və bu zonalarda Şərq, Cənub-Şərqi asiya və ərəb dünyası öılkələrində toplanmış təcrübədən praktikada istifadəsinə zəmin yaratmışdır. Sudanda

XİZ-lərin təşkili ilk növbədə ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyasının stimullaşdınıması, məşğulluq problemin həlli, xarici ticarətin fəallaşdırılması, müasir texnologiyalann və investisiyalann cəlbinin təşkili, rəqabətqabiliyyətli, ixrac təyinatlı məhsullann istehsalı və idxal əvəzedici istehsal sahələrinin yaradılması ilə bilavasitə bağlıdır. Bu ölkələrdə XİZ-lərə ciddi marağın səbəblərindən biri də Afrika ölkələrində XİZ-lərin yaradılması üzrə real proseslərin son 20-30 il ərzində fəallaşmasmı da göstərmək olar. Bu proseslərdə Afrikanın 30-dan çox ölkəsi iştirak etsə də, XİZ-lər bu ölkələrin iqtisadi sistemlərində daha ciddi və önəmli yer tuta bilməmişlər. Bunun əsas səbəbi həmin ölkələrin əksəriyyətində maliyyə resurslannm zəifliyi və apanlan iqtisadi islahatlann sabitliyinin təmin edilməməsidir, iqtisadi ədəbiyyatlarda Çin, Malayziya, Tayvan, Cənubi Koreya, Sinqapur, Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələrdə XİZ-lərin öz ölkələrinin milli iqtisadi inkişaf proseslərinə əsaslı təsirləri barədə kifayət qədər materiallar verilmişdir. Bunlarla belə. Afrika ölkələri içərisində XİZ- lərdən məhsuldar nəticələr əldə etmiş XİZ subyektlərinə az rast gəlinir. Məhz Sudanın əsasən ərəb ölkələrində yaradılmış XİZ təcrübəsinə müraciəti də bundan irəli gəlir. Belə ki, Dubayda yaradılmış və fəaliyyət göstərən XİZ-lər milli iqtisadiyyat sahələrinin diversifıkasiyası və xarici investisiyalann cəlbinə göstərdiyi ciddi əlavə stimullar faydalı praktiki nümunə kimi daha çox diqqəti cəlb edir. İordaniyada “Aqaba” və “Zarqa” XİZ-ləri istehsal sahələrinin təşkilində və kommersiya fəaliyyətinin genişləndirilməsində effektivli nəticələr əldə edilməsinə imkan vermişdir. Suriyada Adra, Aleppo, Dəməşq, Tartus və Latakiya şəhərlərində təşkil edilən XİZ-lərdə ixrac təyinatlı istehsal sahələrinin yaradılması, idxal-ixrac əməliyyatlannm genişləndirilməsi və xarici investisiyalann cəlbinin həvəsləndirilməsi istiqamətləri üstünlük təşkil edir. Hətta o qədər çox ciddi iqtisadi inkişaf uğurları olmayan Tunisdə Bizert və Zarsis şəhərlərində təşkil edilən XİZ-lərdə kommersiya, idxal və ixrac fəaliyyətinin genişləndirilməsi üçün vergi və gömrük rüsumlarından azad edilmə kompleks güzəştlər sistemi mövcuddur. Mərakeşin Tanjere şəhərində fəaliyyət göstərən XİZ-də ticarət

əməliyyatlannm genişləndirilməsi prioritet istiqamət kimi götürülmüşdür. Misirdə Port-Səid, Aleksandriya, Naser siti və Suets şəhərlərində təşkil olunan XİZ-lərdə sənaye və istehlak mallann istehsalı şəbəkəsinin genişləndirilməsi, emal sahələrinin yaradılması, idxal və ixrac əməliyyatlannm artırılması və sair məsələlər öz prioritetliyi ilə seçilir. Misir XİZ-lərində ixracın ümumi həcmi illik orta hesabla 1,5 - 1,8 mlrd, dollar səviyyəsinə qədər artmışdır. Neft hasilatı ilə ciddi fərqlənən Bəhreyndə yaradılan "Mina Sul- man" və "Sitra İndustrial Estate" XİZ-lərində mallann idxalı, xammallann gətirilməsi və emalı prioritetliyi ilə diqqəti cəlb edir. "Mina Sulman" XİZ-də hətta 65 min ton yükü götürə bilən gəmilərin qəbulu belə mümkündür. Əlbəttə ən uğurlu nəticələrlə zəngin olan Cəbəl Ali XİZ-ni (Dubay) qeyd etməmək olmaz. Burada 100- ə yaxın ölkədən 2500-ə yaxın kompaniya fəaliyyət göstərir. Zonada əsas əməliyyat prosesləri ticarət və xidmət sahəsində baş verir. Bu isə təsadüfi deyildir. Belə ki, Dubay iqtisadiyyatının 80 %-i ticarətdən asılıdır. Bu baxımdan Sudanda xarici investorların cəlbinin genişləndirilməsi subyektləri kimi ilk növbədə ərəb dünyası ölkələrində yerləşən XİZ-lərin praktiki təcrübəsinin öyrənilməsi və bu ölkələrdə investisiyalann cəlbini, stimullaşdınlmasına baxılması müəyyən dərəcədə qanuna uyğunluğu ilə diqqəti cəlb edir.

Keçid iqtisadiyyatı prosesləri və ondan sonrakı iqtisadi inkişaf prioritetləri sürətləndikcə XİZ-lər öz praktiki tətbiq proseslərində milli subyektlərin çoxfunksiyalı tərkib sistemləri daşıyacıları kimi də diqqəti cəlb edir. Bu elementlər aktiv və cəlbedici detemıinant- lar kimi bir çox iqtisadi-kommersiya fəaliyyət sahələri üzrə işlək mexanizmlərin formalaşmasına, investorlann gəlməsi və investisiya resurslannın cəlb edilməsinin fəallaşdınlması və müxtəlif çeşidli inzibati-təsərrüfat modellərinin qısa müddət ərzində real sınaqdan çıxmasına əlavə stimullar verə bilir. XİZ-in təşkili bir ef- fektivli institusional amil kimi bu ərazilərdə yeniliyə, tərəqqiyə, sağlam rəqabət mühitinin formalaşmasına, istehsal və təsərrüfatçılıq ənənələrinin daha müasir standartlar səviyyəsində inkişafına geniş imkanlar yaradır və perspektivlər açır. Bir çox hallarda XİZ- in yaradılması və fəaliyyətinin opponentləri iqtisadi islahatlan və

liberallaşdımıa proseslərini keçmiş ölkələrdə bu kimi zonalann yaradılmasını məqsədəuyğun hesab etmirlər. Amma keçid iqtisadiyyatlı ölkələr öz milli iqtisadi inkişaf modellərinin tərkib hissələrini zənginləşdirərkən, XİZ-lərdən səmərəli istifadədə dünya təcrübəsini nəzərə almaqlan məqsədəuyğun hesab edilir. Belə ki, real olaraq, ən məhsuldar, elm tutumlu və innovatik XİZ-lər hazırda inkişaf etmiş ölkələrdə qalmaqdadır və bu ölkələrdə yenilərinin yaradılması davam etməkdədir. Məsələn, Fransa kimi inkişaf etmiş ölkədə XX əsrin son 10 illiyində 38 şəhərin və Korsika ərazisinin “sərbəst zonalar” elan edilməsi diqqətdən qaçmamalıdır. Bu zonalann yaradılmasından əsas məqsədlər kiçik və orta sahibkarlığın inkişafına əlavə stimulların verilməsi, yeni iş yerlərin açılmasının həvəsləndirilməsi, işsizliyin səviyyəsinin azaldılması və sairlər olmuşdur. Bu kimi misalları ABŞ, Yaponiya, Cənubi Koreya, Çin və digər ölkələrdə uğurla fəaliyyət göstərən və öz ölkələrinin milli iqtisadi sektorlannm aktiv elementlərindən (sistemdaşıyıcıla-rından) olan XIZ-in siyahışını xeyli uzatmaq mümkündür. Yaxın perspektivdə iri beynəlxalq XİZ-in yaradılması ilə bağlı nəhəng layihələrin reallaşdırılması perspektivləri də XİZ-in dünya təsərrüfat sistemində önəmli yer tutmasının gösətricisi kimi qiymətləndirilə bilər. Bununla belə, bi kimi XİZ-in milli iqtisadi sistemlərdə yer ala bilməsi və möhkəmlənməsi məsələləri praktiki baxımdan bütün ölkələr üçün heç də asan həll edilən vəzifə kimi görünmür. Dünyanın çoxsaylı ölkələrində hələ də XİZ-lər təşkil olunmayıb və yaxud uzun illər bunlann tətbiqi problemləri öyrənilməkdədir. Bu baxımdan ayrı-ayn ölkələrin XİZ-lərlə bağlı keçdiyi praktiki tətbiqi proseslər xüsusi maraq kəsb edir. Belə ki, yaxın perspektivdə Azərbaycanda da XİZ-in tətbiqinə başlanılacağı gözlənilir. Kambociyah tədqiqatçı-alim Do Nara XİZ-in milli iqtisadi sistemlərdə rolunu araşdırarkən öz ölkəsinin bu proseslərdə keçdiyi inkişaf mərhələlərini, mövcud potensial və problemləri verə bilmiş, bu XİZ-in Kambocada təşkili üzrə spesifik xüsusiyyətlərin təhlilini apamıış və bir sıra nəticələrə gəlmişdir [1241. Kamboca XX əsrin 50-Cİ-60-C1 illərindən başlayaraq sosializm təyinatlı iqtisadi inkişaf prosesləri dövrünü yaşamışdır. Bu tip iqtisadi siyasətin əsasın

da istehsal və texnologiyaların inkişafından çox, maddi resursların mərkəzdən bölgüsü prinsipi üstünlük təşkil etmişdir. Amma 1970-ci illərdən başlayaraq, bu ölkədə iqtisadiyyatın liberallaşdırılması, beynəlxalq iqtisadi-əməkdaşlıq, ticarətin sərbəstliyinin genişləndirilməsi, xarici investisiyaların cəlb edilməsi proseslərinin gücləndirilməsi tendensiyaları daha çox praktiki proseslərdə öz təsirini göstərmişdir. Bununla belə bu ölkədə daha aktiv iqtisadi islahatlar fazası son 20 ilə təsadüf edir. Ölkə aqrar statusdan sürətlə sənayeləşmə prosesini keçə bilmişdir. Əgər 1990-cı ilədək Kamboca ÜDM-də sənayenin ümumi çəkisi 15 % idisə, bu rəqəm 2000-ci illərin ortalannda 60-70 % səviyyəsində olmuşdur. Bu proseslərdə ölkənin sənaye sahələrinə təkcə 1990-1995-ci illərdə 2,3 mlrd. ABŞ dollan həcmində xarici investisiyalar yatınimış və 57 min yüksək əmək məhsuldarlığına malik daimi iş yerləri yaradılmışdır. İqitsadi islahatların sürətlənməsi ölkədə yeni iqtisadi mexanizmlərin işlənməsi və tətbiqini şərtləndirdiyindən Kamboca höküməti XİZ-ri milli iqtisadi sistemin effektivli alətlərinin biri kimi olması konsepsiyasını əsas götümıüşdür. Bu iqtisadi siyasətin əsasında XİZ-in vasitəsilə yüksək texnologiyalı və həmçinin əmək-elm tutumlu istehsal sahələrinin yaradılması, xarici ticarətin təşkili üzrə dünya təcrübəsinin toplanması, əmək ehtiyatlannın peşəkarlıq səviyyəsinin artırılması, ölkəyə investorların gəlməsi üçün stimullaşdırıcı investisiya mühitinin yaradılması və xarici investisiyalann cəlb edilməsinin sürətləndirilməsi, özəl sektorun və sahibkarlığın inkişafının mükafatlandırılması, əhalinin gəlirlərinin və yaşayış səviyyəsinin artırılması, xidmət sektorunun səviyyəsinin yüksəldilməsi və kurort-turist komplekslərinin yaradılması, yeni iş yerlərinin sabit artım dinamikasının təşkili, ölkənin dünya iqtisadiyyatına inteqrasiyasının tezləşdirihnəsi və milli iqtisadiyyatın regionda nüfuzunun qaldırılması yer almışlar. Bunlarla belə, Kambocada XİZ-rin praktiki tətbiqini çətinləşdirən amillərin olması da diqqətdən yayınmamalıdır. Bunlara ölkədə nəqliyyat və infrastrukturun potensialının zəifliyi, yüksək ixtisaslı kadrların və əmək ehtiyatlarının azlığı, enerjidaşıyıcıların qiymətlərinin bahalı- lığı, sahibkarlığın və biznesin inkişafında süni müdaxilələrin çox

luğu, ölkədə XİZ-in yaradılması və onların praktiki fəaliyyətinin təşkili üzrə elmi-iqtisadi və elmi-texniki kriteriyalar baxımdan fundamental işlənib hazırlanmış və təsdiq edilmiş XİZ konsepsiyasının, onlann fəaliyyəti üzrə normativ sənədlərin mükəmməl olmaması, regionun digər ölkələrində fəaliyyət göstərən XİZ-rə potensial investorların daha çox maraq göstənnəsini aid etmək olar. Məlumdur ki, bu regionda XİZ-rə investisiya yatmnaq istəyən iri investorlar əsasən Çin, Honkonq, Tayvan, Malayziya, Sinqapur və Vyetnam XİZ-nə üz tuturlar və buradakı XİZ-dəki fəaliyyətlərindən daha çox əlavə gəlir əldə edəcəklərinə əmindirlər və s. Hazırda Kambocada bir sıra XİZ-in yaradılması üçün əlverişli imkanlar mövcuddur. XİZ-in reallaşdınıması, praktiki tətbiqi proseslərinin təşkili imkanlarının perspektivləri sırasında Mekonq çayı və Ton- lesap gölü ətrafında kənd təsərrüfat və bitkiçiliyin intensiv inkişafı, emal sahələrinin yaradılması. Dənizkənarı zolaqda turizm və balıqçılığın inkişafı, Komponqçam əyalətində istehsal və emal sahələri şəbəkəsinin yaradılması və sair prioritet layihələr aktuallığı ilə diqqəti cəlb edir. Göründüyü kimi bu ölkədə XİZ-in tətbiqi üzrə proseslərdə ciddi tərəddüdlər, problemlər müvcuddur və bu baxımdan hələlik XİZ-in milli iqtisadi sistemdə yer alması, praktiki baxımdan adaptasiyası Azərbaycanda olduğu kimi yaxın perspektivin işidir.

Keçid iqtisadiyyatı proseslərini yaşayan və milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq istəyən dövlətlərdə XİZ-lərdən səmərəli istifadəni şərtləndirən əsas amillərdən biri kimi xarici investisiyalann milli iqtisadiyyat sektorlarına gətirilməsinin sürətləndirilməsi xüsusilə diqqəti cəlb edir. Milli iqtisadiyyat subyektləri XİZ kimi əlverişli və münbit biznes mühitinə malik olmaqla, xarici investisiyaların cəlbi üçün daha əlverişli məkan yaratmaqda birbaşa maraqlıdırlar. Bu baxımdan postsosialist və postsovet res- publikalannın əksəriyyəti xarici investisiyalann gətirilməsinin sürətləndirilməsində XİZ təcrübəsinə müraciət etmişlər. Belə ölkələrdən biri də keçmiş SSRİ-nin respublikalarından iqtisadi inkişaf- ca o qədər də güclü müvəfəqqiyyətləri olmayan Tacikistan Respublikasıdır. Tacik iqtisadçı-tədqiqatçı

üzrə apardığı araşdırmalannda ölkəyə xarici investisiyalann cəlb edilməsində XİZ-lərdən istifadənin əsas prioritet vəzifələri kimi istehsalın elmi-texniki səviyyəsinin yüksəldilməsi, ixracın genişləndirilməsi, iqtisadi inkişaf baxımından geri qalmış regionlann inkişafına əlavə stimullann verilməsi, məşğulluğun gücləndirilməsi və yoxsulluq səviyyəsinin azaldılması kimi göstənuişdir [147]. Bu ölkədə müstəqillik əldə etdikdən sonra uzun müddət milli konfliktlər, həmçinin iqtisadi islahatların apanlması üçün maliyyə vəsaitlərinin olmaması ölkədə yeni iqtisadi mexanizmlərin tətbiqinə imkan verməmişdir. Ölkədə bir sıra mineral xammallann iri ehtiyatlan olsa da, onlardan səmərəli istifadə üçün məhsuldar emal və istehsal komplekslərinin potensialı zəif olmuşdur. Bu amilləri nəzərə alan hökümət ilk növbədə qonşu ölkələrlə iqtisadi əməkdaşlığa, xüsusilə sərhədyanı zonalarda ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinə ciddi önəm vemrıişdir. Amma ölkəyə gələn xarici investorların sayı və xarici investisiyaların həcmi heç də ölkənin milli iqtisadiyyatının tələbləri ilə uzlaşmır. Ölkə iqtisadiyyatının il ərzində bir neçə milyard ABŞ dollan investisiya resurslanna ehtiyacı olduğu halda bu ölkəyə yatırılan investisiyalann faktiki həcmi bir neçə yüz mln. ABŞ dollarını keçməmişdir. Halbuki ölkənin bank sektorunun, qiymətli meltallann hasilatı və emalı, əlvan me- tallann hasilatı və emalı, tekstil məmulatların istehsalı, tikinti və digər mühüm iqtisadiyyat sahələrinə əsaslı həcmdə investisiya resurslarına ehtiyac hələ indi də qalmaqdadır. Bu amilləri nəzərə alan Tacikistan höküməti ölkədə iqtisadi islahatlann sürətləndirilməsi, sahibkarlıq fəaliyyətində risklərin azaldılması, infrastruktur obyektlərin maddi-texniki bazasının gücləndirilməsi, makroiqtisadi səviyyə üzrə mühüm iqtisadi indikatorlann sabit saxlanılması üçün tədbirləri genişləndinnəkdədir. Bu tədbirlərdən biri də XİZ kimi effektiv iqtisadi instrumentin ölkənin iqtisadi sisteminə adaptasiyasının təmin edilməsidir. Artıq 2004-cü ildə ölkədə XİZ-lər haqqında müvafiq qanun qəbul edilmişdir. Ölkə qanuna əsasən XİZ-lər ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsi, müasir texnologiyalann və idarəetmə

təcrübəsinin milli iqtisadi inkişaf proseslərinə tətbiqi, xarici investisiyalann cəlb edilməsi üçün münbit şəraitin yaradılması, müasir istehsal sahələrinin və sosial infrastrukturun qurulması, ölkənin istehlak bazarının tələblərinə uyğun yüksək keyfiyyətli məhsullann istehsalının təşkili, ixrac potensialının möhkəmləndirilməsi, əhalinin məşğulluğunun gücləndirilməsi və yaşayış səviyyəsinin artırılması proseslərinə əlavə stimullar vennəlidir. Bu ölkədə XİZ-lər hökümətin qərarı ilə yaradılır və sərbəst büdeəyə malikdir. Qanunla XİZ-lərdə xüsusi gömrük, maliyyə-valyuta və vergi rejimləri, rezident və qeyri-rezidentlərin bu zonalarına girişini və çıxışını asanlaşdıran qaydalar müəyyənləşdirir. Bununla belə, bu ölkədə XİZ-lərin qanunvericilik bazasının təhlili göstərir ki, bu sahədə təcrübənin azlığından qəbul edilmiş qanunda bir sıra məqamlar daha dərindən nəzərə alınsaydı, bu tip zonalardan onların praktiki tətbiqi zamanı daha məhsuldar nəticələr əldə etmək olardı. Belə ki, mövcüd qəbul edilmiş qanunda XİZ-lərin fəaliyyəti ilə bağlı bir çox prosedur qaydalan, rejimlər, dövlər orqanlannm bu zonalarla münasibətlərini nizamlayan normativ sənədlər təkmilləşdirmələr tələb edir. Ölkədə XİZ institutunun daha məhsuldar və geniş şəbəkədə tətbiqi üçün real modifikasiyalar az olduğundan, bu kimi zo- nalann tətbiqində hələlik ciddi problemlər qalmaqdadır. Digər tərəfdən, ölkə iqtisadiyyatının əsas sektorlan dünya təsərrüfat sisteminə əsaslı şəkildə inteqrasiya etmədiyindən, XIZ kimi yüksək açıq iqtisadiyyat rejiminə malik olan subyektin praktiki reallaşdır- ması bir sıra çətinliklərlə müşaiyət olunur. Ölkədə XİZ-lərin yaradılmasına və tətbiqinə siyasi iradənin olmasına baxmayaraq, burada maliyyə vəsaitlərinin çatışmamazhğı mövcuddur, halbuki məsələn, dünya təcrübəsində bir dollar xarici investisiyanın ölkəyə gətirilmisi üçün ölkə ərazisində 4 dollara yaxın vəsait tələb olunur. Bu vəsait ilk növbədə XİZ-lər üçün infrastrukturun qurulması, nəqliyyat şəbəkələrinin yaradılması, servis xidmətlərinin təşkili və inzibati xərclərlə bilavasitə bağlıdır. Məsələn, XİZ-lərdən dünyada ən çox eflfektivli nəticələr əldə etmiş Çində bu kimi zonalann yaradılmasına ölkənin özü tərəfindən sərf edilmiş 22 mlrd. ABŞ dol-

lari müqabilində bu zonalara cəlb edilmiş investisiyalar 4 mlrd. ABŞ dolları səviyyəsində olmuşdur. Digər tərəfdən, 1 kv. km ixrac istehsal zonasının nonnal şəraitdə yaradılması və fəaliyyəti üçün 40-45 mln. ABŞ dolları, gömrük-ticarət zonası üçün isə 10- 15 mln. ABŞ dolları tələb olunur. Bu baxımdan Tacikistanda daha çox vəsait tələb edən XİZ-lərin yaradılması qeyri-real görünür və ilk vaxtlarda bu ölkədə ticarət və turizm ilə bağlı XİZ-lərin yaradılması daha məqsədəuyğun hesab olunur. Ölkənin bir sıra beynəlxalq aeroportlarında sərbəst ticarət zonalarının, sərhədyanı ərazilərdə sərbəst gömrük zonalannm yaradılması və fəaliyyəti daha real imkanlarla diqqəti cəlb edir. Bu ölkədə olan XİZ-lə bağlı perspektivlərin gələcəkdə sərbəst istehsal və digər XİZ-lərin tətbiqinə daha geniş imkana malik olacağı gözlənilir. Bu baxımdan Azərbaycanda nəzərə alsaq ki, hətta ən mürəkkəb XİZ-lərin yaradılmasına belə ölkəmizin öz maliyyə vəsaiti yetərlidir və xarici investorlar tərəfindən ölkəmizə investisiyaların yatınlmasına tərəddüd tendensiyaları minimumdur, belə qənaətə gəlmək olar ki, ölkəmizdə XİZ-lərin yaradılması və tətbiqinin sürətləndirilməsi üçün olduqca geniş perspektivlər mövcuddur. Fikrimizcə, Azərbaycanda tətbiq olunacaq XİZ-lər əsasən qeyri-neft sektoru sahələrinə daxili sənnayədarların və xarici investorların cəlb edilməsində çox məhsuldar əlavə stimular verə bilmək imkanına malikdirlər **(Cədvəl 7).**

Cədvəl 7-dən göründüyü kimi, 2000-2010-cu illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyaların tərkibində əhəmiyyətli yeri maliyyə kreditləri və neft sənayesi ilə bağlı investisiya resurslan tutur jS]. Ölkədaxili investisiya resurslanmn əksəriyyəti isə infrastruktur obyektlərinin yaradılmasına yönəldilmişdir. Bu baxımdan Azərbaycanda qeyri-neft sektoru sahələrinin sürətli inkişafı məqsədilə xarici və daxili investisiyaların cəlbinin sürətləndirilməsi üçün XİZ modifıkasiyalannm tətbiqi zərurəti vardır. Xüsusilə, Azərbaycan mühüm beynəlxalq nəqliyyat marşrutlarında yerləşdiyindən, nisbətən sadə başa gələn və az maliyyə vəsaiti tələb edən sərhədyanı ticarət zonalarının, həmçinin ticarət

gömrük zonalannın yaradılmasını tezləşdinnək məqsədəuyğun hesab edilir. 2011-ci ili “Turizm ili” elan etmiş Azərbaycanın bir sıra regionlannda turizm XİZ-lərinin təşkili və fəaliyyəti üçün münbit şərait diqqəti cəlb edir [21].

**Cədvəl 7.**

**Azərbaycan Respublikasında iqtisadiyyata yönəldilən investisiyalar**

| s/s | Göstəricilər | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|
| 01 | **Bütün mənbələr üzrə investisiyalar** | | | | | | | |
| | **mln. manat** | **1289,8** | **6733,4** | **7415,6** | **10353,9** | **13328,0** | **10475,0** | **14118,9** |
| | **mln. ABŞ dolları** | **1441,4** | **7118,5** | **8300,4** | **12066,1** | **16222,0** | **13033,5** | **17591,5** |
| | **o cümlədən .xarici investisiyalar** | | | | | | | |
| | **mln. manat** | **829,5** | **4628,5** | **4514,2** | **5727,2** | **5625,3** | **4395,1** | **6619,7** |
| | **mln. ABŞ dolları** | **927,0** | **4893,2** | **5052,8** | **6674,4** | **6847,4** | **5468,6** | **8247,8** |
| | **Daxili investisiyalar** | | | | | | | |
| | **mln. manat** | **460,3** | **2104,5** | **2901,4** | **4626,7** | **7702,7** | **6079,9** | **7499,2** |
| | **mln. ABŞ dolları** | **514,4** | **2225,3** | **3247,6** | **5391,9** | **9374,6** | **7564,9** | **9343,7** |
| 02 | **Xarici investisiyaların tərkibi (mln.ABŞ dolları)** | | | | | | | |
| | **Maliyyə kreditləri** | **262,9** | **698,4** | **983,5** | **1576,6** | **2357,9** | **1438,3** | **3405,9** |
| | **Neft sənayesinə** | **546,1** | **3799,9** | **3422,3** | **4033,3** | **3350,7** | **2412,7** | **2955,3** |
| | **Neft bonusu** | **-** | **1,0** | **17,0** | **68,2** | **3,5** | **1,0** | **2,0** |
| | **Birgə müəssisələr və xarici fmnalar** | **118,0** | **230,5** | **368,4** | **439,1** | **494,1** | **624,4** | **659,6** |

**Qeyd: Cədvəl “Azərbaycanın statistik göstəriciləri”-2011-in əsasında hazırlanmışdır.**

Qeyd etmək lazımdır ki, ölkənin iqtisadi proseslərinin tənzimlənməsi və prioritetlərinin müəyyənləşdirilməsində, xüsusilə

sadi sistem dəyişikliyi zamanı, məsələn, sosisalizm iqtisadi sistemindən bazar münasibətləri mexanizminə keçid mərhələrində bir sıra strateji vəzifələrin yerinə yetirinimısi zərurət kimi ortaya çıxır [93]. Bu problemləri araşdıran professor T.A.Quliyev qeyd edir ki, dövlət ölkəni böhran vəziyyətindən çıxarmaq üçün bazar subyektləri ilə qarşılıqlı münasibətlərin qaydalarını müəyyənləşdinnəli, indikativ planlaşdınnanm və təşkilatı balanslaşdırma funksiyasını həyata keçinnəli, maliyyə-kredit və gömrük valyuta sistemlərini nizamlamalıdır [s.l58, 113]. Professora görə postsovet ölkələrində bu problemlər üzrə sistemli və kompleks iş təşkil edilməmişdir və bu proseslərdə fraqmentar xarakter mövcuddur. Hətta milli iqtisadiyyatın bazar iqtisadiyyatı münasibətlərinə keçməsini nizamlayan xüsusi əsasnamə və konstitusiya aktı belə yoxdur. Şübhəsiz, bu fikirlərdə xeyli həqiqət yer almışdır. Bazar iqtisadiyyatı proseslərində və əvvəlki iqtisadi mexanizmin transformasiyası zamanı cəmiyyətin iqtisadi sərbəstliyinin və bazar iqtisadi mexanizmlərinin formalaşması proseslərinin effektivliyinin səviyyəsinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Hətta insanların yeni iqtisadi münasibətlərə adaptasiyası və ixtisaslı kadrların müasir tələblər səviyyəsində hazırlanması prosesləri tamamilə prinsipial olaraq, yeni münasibətlər, baxışlar, müasir təhsil və novatorçu iqtisadi mühit tələb edir. T.A.Quliyev qeyd edir ki, müasir dövrdə işçi qüvvəsinin postsovet respublikalanmn iqtisadi inkişaf strategiyaları baxımından kadrlara olan tələbat prizmasından bölüşdürülməsi və yerləşdirilməsi prosersləründə kompleksslik çatışmır. Bu baxımdan postsovet ölkələrində ictimai həyatda iqtisadi gərginliklə yanaşı, sosial, mənəvi və psixoloji sıxıntılar da qalmaqdadır. Nəhayət, bu problemlərin XXI əsrdə həlli prioritetlərinin optimal istiqamətlərini vennək istəyən professorun fikrincə, iqtisadi resursların qloballaşma proseslərində optimal bölüşdürülməsinin vacibliyini, səmərəli idarəetmə qərarlarının işlənib hazırlanmasını, maksimum gəlir əldə edilməsi modellərinin, qlobal problemlərin streteji həlli

müəyyənləşdirilməsi, iqtisadi artımın və əməyin qeyri-müəyyən proseslərdə proqnozlaşdırılması, iqtisadi və maliyyə risklərinə tədricən adaptasiyası, sahibkarlıq fəaliyyətinə neqativ təsirlərin azaldılması, iqtisadi motivasiyalar üzrə alətlərin nəzarətinin təşkili mühüm əhəmiyyət kəsb edəcəkdir. Fikrimizcə, Azərbaycanın iqtisadi reallığında göstərilən problemlər və qeyd edilən prioritetlər kifayət qədər yer almışdın Dövlətimiz bu istiqamətlər üzrə geniş həcmli strateji vəzifələrin yerinə yetirilməsini öhdəsinə götürdüyündən, bu istiqamətdə daha fərqli iqtisadi mexanizmlərin ölkəmizin milli iqtisadi sisteminə daxil edilməsi perspektivləri də diqqəti cəlb edin Məsələn, XİZ-in hər hansı bir modifikasiyasınm praktikada tətbiqi qeyd edilən problemlər üzrə gərginliyin azaldılmasında əlavə stimul kimi çıxış etməklə, cəmiyyətdə vətəndaş fəallığına və iqtisadi fəaliyyətdə isə daha yüksək nəticələrin əldə edilməsinə imkan verərdi.

Azərbaycanın iqtisadi siyasətinin prioritetlərini müəyyənləşdirərkən, mühüm məsələlərdən biri iqtisadi təhlükəsizlik problemlərinə kompleks baxılması vacibliyi diqqəti cəlb edir. A.Əliyev qeyd edir ki, ölkənin rəqabət qabiliyyəti bir çox amillər əsasında 381 göstəricini 8 ümumi amildə birləşdirməklə müəyyən edilir: daxili iqtisadi potensial, xarici iqtisadi əlaqələr, dövlət tənzimlənməsi, maliyyə-kredit sistemi, infrastruktura, idarəetmə sistemi, elmi-texniki potensial və əmək ehtiyatlan [s.52, 45]. Bu amillərin hər birinin ölkənin iqtisadi inkiaşaf prioritetlərində mühüm əhəmiyyət kəsb etdiyi şübhə doğurmur, amma real praktiki proseslərdə bu strateji vəzifələrin hansı səviyyədə və nə dərəcədə məhsuldar iqtisadi mexanizmlərlə həyata keçiriləcəyi məsələləri də mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın iqtisadi təhlükəsizliyində mühüm göstəricilər olan UDM və dövlət büdcəsinin əsas parametləri Cədvəl 8-də verilmişdir (Cədvəl 8).

Cadvəl 8.

**Azərbaycan Respublikasında ÜDM və Dövlət büdcəsi üzrə bir sıra göstəricilərin dinamikası**

| s/s | Göstəricilər | 2000 | 2005 | 2010 |
|---|---|---|---|---|
| 01 | Ümumi daxili məhsul (mln. manal) | 4718,1 | 12522,5 | 41574,7 |
| 02 | Əhalinin hər nəfərinə düşən ÜDM (manal) | 593,2 | 1494,3 | 4653,3 |
| 03 | ÜDM-də qeyri-dövlət bölmələrinin payı, %-lə | 70,8 | 77,8 | 81,7 |
| 04 | ÜDM-un tərkibində məh.sul isteh.salmın payı, %-lə | 58,6 | 67,9 | 65,5 |
| 05 | ÜDM-un tərkibində xidmətlərin payı, %-lə | 35,8 | 25,1 | 28,5 |
| 06 | Dövlət büdcəsinin gəlirləri (mln. manal) | 714,6 | 2055,2 | 11403,3 |
| 07 | Dövlət büdcəsinin xərcləri (mln. manat) | 764,0 | 2140,7 | 11765,9 |

**Qeyd: Cədvəl "Azərbaycanın statistik göstəriciləri"-2011-in əsasında hazırlanmışdır.**

Cədvəl 8-dən göründüyü kimi, Azərbaycan keçid iqtisadiyyatı proseslərini başa vursa da, inkişaf etmiş ölkələr üçün əsas xarakterik olan ÜDM-m tərkibində xidmətlərin payı üzrə artım səviyyəsini təmin etmək üçün hələ xeyli iş aparılmalıdır. Bu baxımdan ölkəmizdə xidmət sektorunun effektivliyini artınlması və bu sahənin mal və xidmətlərinin çeşidinin genişləndirilməsi problemləri işlək mexanizmə malik yeni iqtisadi alətlərdən, o cümlədən, XİZ-lərdən fəal-praktiki istifadəni şərtləndirir. Belə ki, optimal XİZ variantla-nnın ölkənin iqtisadi sisteminə daxil edilməsi ilk növbədə Azərbaycanın iqtisadi təhlükəsizlik problemlərinin həlli variantlanmn diversifıkasiyasına geniş imkanlar aça bilərdi. Praktiki fəaliyyət proseslərində XİZ-lər nəinki ölkənin iqtisadi potensialının gerçək- ləşdirilməsinə, xarici iqtisadi əlaqələrin genişləndirilməsinə, dövlət tənzimlənməsi alətlərinin təkmilləşdirilməsinə, maliyyə-kredit sisteminin möhkəmlənməsinə, əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə, ölkə iqtisadiyyatına yeni idarəetmə sistemlərinin gətirilməsinə şərait yaradır, eyni zamanda elmi-texniki

real praktiki proseslərdə tətbiqinə zəruri olan investisiyalann cəlbinə və aktiv iqtisadi mühitin yaradılmasına imkan verir. Digər tərəfdən, belə aktiv iqtisadi mühitin fomıalaşması əvvəldə qeyd edildiyi kimi, əmək resurslarından və məhsuldar əmək qüvvələrindən səmərəli istifadəyə əlavə stimullar verir. Nəzərə almaq lazımdır ki, hazırda Azərbaycanın əhalisi 9 mln. nəfərdən çoxdur və bu əhalinin təxminən yarısı Abşeron iqtisadi regionunda cəmlənmişdir. Şübhəsiz, əhalinin demoqrafik və etno-demoqrafik dəyişikliyi ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinin müəyyənləşdirilməsində mühüm amil kimi nəzərə alınmalıdır. Bu problemləri araşdıran professor Ş.M. Muradov yazır: “Son vaxtlaradək respublikada əhalinin rayonlar arasında yenidən bölünməsi müxtəlif istiqamət və həcmdə baş vennişdir. Öz əhəmiyyətinə və həcminə görə əhalinin rayonlar arasında yerləşdirilməsində birinci yeri sənaye miqrasiyası tutmuşdur. Yəni ayrı-ayn rayonlarda sənayenin sürətli inkişafı ilə əlaqədar olaraq, iş qüvvəsinə olan tələbatı ödəmək məqsədilə kənd rayonlarından həmin rayonlara əhali köçürülmüşdür” [s.73, 60]. Professorun bu qənaətini bir az inkişaf etdirsək, belə bir nəticəyə gəlmək mümkündür ki, iri sənaye müəssisələrinin və mərkəzlərinin yaradılması ilə əhalinin miqrasiyası əmək miqrasiyası formasında intensivləşir və s. Bu qənaət bəlkə də balanslaşdı- rılmış inzibati-iqtisadi amiranəlik iqtisadi sistemində o qədər də neqativ nəticələrə gətirib çıxara bilməzdi. Amma bu sistem dağıldıqdan sonra, xüsusilə 1990-cı illərin əvvəlindən başlayaraq, Azərbaycanda iri sənaye müəssisələri bir-birinin ardınca dayanmağa başlayanda, ilk zərbələri ölkənin güclü və dinamik əmək ehtiyatları aldı. Və bu əmək ehtiyatlannm regionlardakı məhsuldar yerləşdirmə resursları qısa müddət ərzində əriməyə başladı. Əvəzində isə yeni infrastrukturun yaradılmaması, istehsal müəssisələrinin təşkil edilməməsi səbəbindən əmək qabiliyyətli insanlann əksəriyyəti mərkəzi şəhərlərə, o cümlədən, Bakı və Sumqayıta üz tutmuşdur. Cəmisi 200 minə qədər əhalinin yerləşdirilməsi infrastrukturuna malik Sumqayıt şəhərində qeyri-rəsmi mənbələr də nəzərə alınmaqla, 400 minə yaxın insan yaşayır. Digər tərəfdən, Bakı şəhərinin inzibatı, mədəni, humanitar və bir çox beynəlxalq

əhəmiyyətli ftınksiyalan yerinə yetirən, effektivli mexanizmə malik paytaxt şəhərinə çevrilməsi perspektivləri ilə bu şəhərdə cəmlənmiş iri əmək ehtiyatlanndan daha səmərəli istifadə edilməsi üçün sənaye sahələrinin inkişafı prirotetlərinə üstünlük verilməsi üst-üstə düşmür. Məhz bu baxımdan Bakı şəhərinin və eyni zamanda Sumqayıtın məhsuldar əmək qüvvələrinin, eyni zamanda elmi-texniki potensialının nisbətən ölkənin regionlanna doğru yerləşdirilməsi perspektivlərinə baxılması və bu proseslərdə klaster və kompleks təyinatlı XİZ modellərindən istifadəyə üstünlük verilməsi məqsədəuyğun hesab edilir. Qazaxıstan kimi güclü təbii ehtiyatlara, iqtisadi resurslara və maliyyə mənbələrinə malik olan bir ölkədə yeni paytaxt - Astananın, yaradılması və inkişafında XİZ modelindən uğurla istifadə edilməsini bu sahədə nümunə kimi göstərmək olar. Fikrimizcə, yaxın on illiklərdə bu məsələlər daha ciddi aktuallığı ilə seçiləcəkdir. Artıq Bakı şəhərində nə qədər müasir infrastruktur obyektləri və yolayncı qovşaqlar belə tikilirsə, yenə şəhərin müxtəlif yerlərində avtomobillərin hərəkəti sıxlığı, müəyyən problemlər həll edilməmiş qalmaqdadır. Digər tərəfdən də, minlərlə insanlar Bakı və Bakı ətrafı yerlərdə, Sumqayıtın kənarlannda zəruri infrastruktura malik olmayan fərdi evlərdə yaşayırlar. Başqa bir amil, Bakı şəhərinin mərkəzində onlarca ali təhsil ocaqlarının, elmi-tədqiqat müəssisələrinin, elm və texniki təyinatlı xüsusi müəssisələrin mövcudluğu, onlann daha yaradıcı, uyğunlaşdınimış müasir infrastruktura malik geniş ərazilərdə və fəal iqtisadi-yaradıcı məkanda fəaliyyət göstərməsi üçün şəhərdən kənara köçürülməsi məsələləri həll edilməmiş qalmaqdadır. Düşünürük ki, bütün bu problemlıərin nisbətən həll edilməsində Bakıdan 30-50 km. məsafələrdə profilllər üzrə 50-100 min nəfərlik insan resurslannm yaşayıb və işləyə biləcəyi şəhərlərin və ərazilərin fonnalaşdınlması proseslərinə başlanılmalıdır. Bu proseslərdə isə, şübhəsiz, XİZ modelləri də bir effektivli mexanizm kimi gərəkli ola bilər.

## 4.2. Azərbaycanın milli iqtisadiyyatının rəqabət qabiliyyətinin gücləndirilməsində XİZ-in tətbiqinin zəruriliyi.

Milli iqtisadiyyatların ayrı-ayrı sektorlannm rəqabət qabiliyyətinin artınlması hər bir ölkənin iqtisadi inkişaf prioritetlərindən biri kimi diqqəti cəlb edir. Azərbaycan neft-qaz ölkəsi kimi dünya iqtisadi proseslərində özünə kifayət qədər nüfuz qazana bilsə də, ölkənin digər iqtisadiyyat sahələrinin rəqabət qabiliyyətinin poten- siallannın da az olmaması diqqətdən qaçmamalıdır. Ölkə rəhbərliyi və hökümət bu sahədə strateji vəzifələri əsasən müəyyənləşdiriblər və artıq xeyli müddətdir ki, Azərbaycan qeyri-neft sektoru üzrə müasir iqtisadiyyat sektorlarının fonnalaşması, inkişafı prosesləri dövrünü yaşayır. Son 10 il ərzində ölkədə bir sıra müasir texnologiyalar əsasında sənaye müəssisələri və istehsal sahələri yaradılmışdır. Obyektivlik naminə qeyd etmək lazımdır ki, Azərbaycan höküməti ölkədə milli iqtisadiyyat sektorlannm müasir standartlar səviyyəsində inkişafı üçün zəruri infrastruktur obyektlərinin tikintisinə və istismara verilməsinə əsaslı maliyyə resursları ayınb və bu proseslər davam etməkdədir. Bunlarla belə, ölkədə bir çox pespektivli qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi və onlann rəqabət qabiliyyətinin artırılması istiqamətində mövcud problemlərin hələ tam aradan qaldırılmaması diqqətdən qaçmamalıdır. Dünya təcrübəsində bu kimi problemlərin həlli üçün müxtəlif iqtisadi vasitələrdən istifadə haqqında yetərincə nümunələr vardır. Biz XİZ-lərlə bağlı mənbələri araşdırarkən, şübhəsiz, bu sahə üzrə olan problemlər, onların həlli yollan və milli iqtisadiyyat sektorlannm rəqabət qabiliyyətinin artırılması üzrə praktiki vasitələr diqqətimizi daha çox cəlb etmişdir. Rusiyalı tədqiqatçı alim A.V.Şeqlov milli iqtisadi)^atlann rəqabət qabiliyyətinin artı- nlmasmda XİZ-lərdən bir eflfektivli alət kimi tətbiq edilməsi üzrə araşdırmalan ilə bu sahədə kifayət qədər potensialın olmasını göstərə bilmişdir [149]. Belə ki, əgər XİZ-lər ölkənin iqtisadi sisteminə, konkret olaraq, ayn-ayrı iqtisadiyyat sektorlanna uğurlu adaptasiya edə bilirsə, bu zonalarda təşkil edilmiş yüksək texnologiyalar əsaslı istehsal sahələrində rəqabət

məhsullar istehsal olunursa, deməli milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə əsaslı stimullar verməək mümkündür. XİZ-lər özündə müəyyən güzəştlər sistemini birləşdirməklə və əlverişli investisiya mühiti yaratmaqla, buraya yeni istehsal texnologiyalannm gətirilməsinə, innovasiya və eimtutumlu yüksək standartlara cavab verən mallann istehsalına və xidmətlərin təşkilinə imkan verir. ABŞ-da vaxtilə texnologiyaların mənimsənilməsi, yenilərinin işlənib hazırlamuası və onların praktiki tətbiqində XIZ-lərdən uğurlu istifadə məlumdur. Digər inkişaf etmiş ölkələrdə də milli iqtisadiyyat sektorlarının rəqabət qabiliyyətinin gücləndirilməsində XİZ-lər əhəmiyyətli rol oynamışlar. Cənubi Koreya, Sinqapur, Tayvan kimi ölkələrdə yüksək rəqabət qabiliyyətli və ixrac təyinatlı istehsal sahələrinin və iqtisadiyyat sektorlannm yaradılmasında XİZ-lər məhsuldar iqtisadi alət kimi özünü doğrultmuşdur. Milli iqtisadiyyatın sürətlə inkişaf etdirilməsi proseslərində Çin kimi nəhəng bir ölkə də XİZ alətindən yetərincə yararlanmağa səy göstərmiş və davam etməkdədir. Məsələn, 1998-ci ildə Çində "Yeni texnologiyaların inkişafı üzrə Pekin eksperimental zona"sı elmi istehsalat müəssisəsi yaradılmışdır. Burada əsas məqsəd elmi-sənaye təyinatlı kompleks fəaliyyət zonasının təşkili olmuşdur. Belə ki, bu zonanın ərazisində 50-yə yaxın ali təhsil müəssisəsi və 130 elmi-tədqiqat institutlan və laboratoriyalan fəaliyyət göstərirlər. Bu müəssisələrdə çalışan və daimi işlə təmin olunanlann sayı 100 min nəfərə yaxın olmuşdur. Aparılmış təhlillər belə nəticəyə gəlməyə imkan vennişdir ki, elmi-sənaye, texnoloji və innovasiya təyinatlı istehsal sahələrinin yaradılması geniş çeşiddə rəqabət qabiliyyətli məhsullann istehsalına imkan verməklə yanaşı, milli iqtisadiyyatın daha effektivli yeni artım mənbəyinə çevrilir. Son 10 il ərzində Çində yüksək texnologiyalar əsasında istehsal olunan rəqabət qabiliyyətli məhsullar orta hesabla ildə 100 mlrd.-la ABŞ dolları səviyyəsində təşkil etmişdir. Maraqlı burasındadır ki, məhz hazırda dünyada iqtisadi inkişaf baxımından və yüksək texnologiyaların tətbiqi sahəsində əhəmiyyətli nəticələr əldə etmiş ölkələr XİZ institutu vasitəsi elmi-sənaye parklanndan ilə daha çox istifadə edə bilmişlər. Məsələn, əgər son 10 il ərzində dünyada bu

kimi parklann sayı 500-ə yaxın olmuşdursa, onlardan 100-dən çoxu ABŞ-da, 62-i Almaniyada, 54-ü Çində, 43-ü Böyük Britaniyada, 32-si Fransada, 24-ü Yaponiyada, 12-si Cənubi Koreyada, 11-i Sinqapurda fəaliyyət göstəmıişlər. Əlbəttə, biz bu göstərilən ölkələrdən çoxlu nümunəvi misallar verə bilərdik. Amma, yenə, fıkri- mizcə, praktiki baxımdan və müqayisə nöqteyi nəzərindən bir sıra MDB ölkələrində XİZ-lərin milli iqtisadiyyat sahələrinin rəqabət qabiliyyətinin artırılması ilə bağlı həyata keçirilmiş tədbirlərə müraciət etmək daha məqsədəuyğun olardı. Məsələn, Rusiyada hələ 1990-cı ildə Tomsk Texnoparkı yaradılmışdır. Burada bir çox elm- tutumlu istiqamətlər üzrə innovasiya fəaliyytinin təşkili nəzərdə tutulmuşdur. 1991-ci ildə yaradılmış Zelenoqrad Texnoparkmda infonuasiya texnologiyalannm və telekommunikasiyaların işlənməsi və tətbiqi, radioelektron cihazlann istehsalı, rəqəmsal və in- teqral mikrosxemlərin yaradılması və sairlər nəzərdə tutulmuşdur. Ufada yaradılan “Başkortostan” Texnoparkı Ufa Dövlət Aviasiya Texniki Universitetinin bazasında yaradılmışdır. Burada əsas prioritet istqamət rəqabət qabiliyyətli innovasiya fəaliyyətinin təşkili və innovasiya müəssisələrinin yaradılması olmuşdur. Son 10 ildə isə Rusiyada daha müasir texnologiyaların kəşfi, işlənməsi və tətbiqi üzrə texnoparklann yaradılmasında bir sıra effektivli nəticələr əldə etməyə müvəffəq olmuşlar. Müasir texnologiyalann və inno- vasiyalann milli iqtisadiyyat sahələrinnə gətirilməsi və XİZ-lər vasitəsi ilə bu funksiyalann daha sürətli tətbiqi milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artınlmasma əsaslı təsir göstərmək imkanına malikdir. Moskvada yerləşən Dövlət Universiteti - Ali İqtisadiyyat Məktəbi tərəfindən Rusiyanın müxtəlif iqtisadiyyat sektor- lannda sənaye müəssisələrinə rəhbərlik edən 2700 direktorlar arasında apanimış sorğudan əldə edilmiş nəticələrə görə milli iqtisadiyyat sektorlanna, müəssisələrə, inkişaf etmiş ölkələrdən intensiv cəlb edilən müasir texnologiyalar və innovasiyalar bu subyektlərin rəqabət qabiliyyətinin əsaslı şəkildə artmasına imkan vermişdir. Məsələn, Rusiyada Leninqrad vilayətində 2002-ci ildə istismara verilmiş avtomobil müəssisəsi - “Ford” kompaniyasının fəaliyyəti nəticəsində bu sahədə rəqabət qabiliyyətli avtomobillərin istehsa-

İma əlavə stimullar vermişdir. Avtomobil bazannda yaranmış sağlam rəqabət, şübhəsiz, bu sahədə fəaliyyət göstərən müəssisələrin innovasiya funksiyalarından uğurlu istifadə etməsi nəticəsində mümkün olmuşdur. Məlum olduğu kimi, məhz XİZ-lər müasir texnologiyalann gətirilməsi və imıovasiya funksiyalannm tətbiq edilməsi üçün ən münasib iqtisadi-biznes və istehsal-investisiya mühitlərindən hesab olunur. Dünya iqtisadiyyatında rəqabətqabi-liyyətinin müəyyənləşdirilməsi üçün 400-ə yaxın göstəricidən istifadə olunur və təhlillər göstərir ki, bunlann əksəriyytinin XİZ-lər-də məhsuldar adaptasiyası üçün münbit şərait vardır. Fikrimizcə, hazırda dünyada ilk 50 rəqabət qabiliyyətli Ölkələrin sırasında keçmiş sovet respublikalarının möhkəmlənə bilməməsinin əsas səbəblərindən biri, bu respublikalarda müasir texnologiyalann kəşfi və işlənməsi, onlann real istehsal sahələrinə tətbiqi, innovasiya funksiyalı yüksək məhsuldarlığa malik müəssisələrin azlığı ilə bilavasitə bağlıdır. Azərbaycanda son illərdə XİZ-lərin yaradılması və tətbiqi müzakirələrinə gəlincə, İnformasiya-Kommunikasiya Texnologiyalan sahəsində bu kimi zonalann (texnoparklann) təşkili barədə fikirlər səslənmişdir. Əgər bu sahədə kompleks və sistemli yanaşma olarsa, Azərbaycanda yüksək texnologiyalann kəşfi, işlənməsi və tətbiqi ilə bağlı innovasiya müəssisələrinin yaradılması ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artınimasma əlavə stimullar verə bilərdi.

Bir qrup Asiya ölkələrinin və ərazilərinin XİZ-lər vasitəsilə sürətli iqtisadi inkişaf nümunələri müasir dövrdə MDB ölkələri, o cümlədən Azərbaycan üçün də olduqca aktual görünür. MDB ölkələrinin əksəriyyətində qeyd edildiyi kimi, iqtisadi islahatlann əsas fazalan başa çatdınimışdır, amma bu ölkələrdə iqtisadi islahatlann sistemli formada təşkili və bazar iqtisadiyyatı mexanizmlərinin formalaşdınıması səviyyəsi müxtəlifliyi ilə fərqlənir. Bir qrup Ölkələrdə maliyyə resurslanmn azlığı, iqtisadi sistemlərin optimal model səviyyəsinə çatmaması praktiki proseslərdə özünü göstərir. Professor A.İ.Belçuka görə, hələ heç bir MDB ölkəsində effektivli bazar mexanizmi sisteminin formalaşması prosesləri başa çatdınimamışdır. Hətta bəzi respublikalarda bazar mexanizmi

nin optimal modelinin hansı fonnada olacağı belə tam məlum deyildir. Belə ki, bu ölkələrin əksəriyyətində fond bazarı inkişaf etməyib, bank sistemləri zəifdir, əmlak münasibətləri qeyri-sabitdir, məhkəmə, vergi və büdcə sistemi işi qeyri effektivdir və s. MDB ölkələrinin əksəriyyətində əsaslı kapital qoyuluşlan həcminin az olması istehsalın strukturunun yaxşılaşdınlmasma və yüksək tex- nologiyalann geniş tətbiqinə imkan vermir. Bu ölkələrdə sosial-iqtisadi problemlərin həlli üçün korrupsiya və digər subyektiv hallarla mübarizə zəifdir, investisiya mühiti cəlbedici deyildir. Bazar iqtisadiyyatı münasibətlərində, xarici ticarət fəaliyyəti istiqamətində və istehsalın səviyyəsinin qaldınlmasında effektivli instument- lərdən zəif istifadə olunur **[s.742-744, 119).** Professor A.M.Ka- menskiy Qafqaz respublikalarının iqtisadi inkişaf potensiallannı araşdırarkən, Azərbaycanla bağlı verdiyi nəticələr diqqətimizi cəlb etmişdir. Professora görə, Azərbaycan bu regionun güclü iqtisadi imkana malik ən böyük ölkəsidir. Azərbaycan iqtisadi islahatlara gec başlasa da, ölkədə bu proseslər sürətlə apanlmış, istehsalın səviyyəsinin aşağı düşməsi dayandınlmış və maliyyə sabitliyi təmin edilmişdir. Əsasən neft hasilatı sahəsinə yönəldilsə də, bu respublika iri həcmdə xarici investisiyaların cəlbinə nail olmuşdur. Qarabağ konfliktinin Azərbaycan iqtisadiyyatına ciddi zərbə vurduğunu qeyd edən professor yaxın perspektivdə ölkədə istehsalın sturk- turunun təkmilləşdirilməsini ən mühüm vəzifələrdən biri kimi görür. Bu məsələlərdə professorla razılaşmamaq olmaz, Azərbaycanda istehsal sahələrinin diversifikasiyalaşdıniması və müasir istehsal sahələrinin yaradılması yalnız son 5-7 ildə əsasən intensivləşmişdir. Amma təəssüf ki, hələ də ölkə iqtisadiyyatı üçün ənənəvi və xarakterik olan bir çox istehsal sahələri üzrə modernləşdirmə və bu sahələrə yüksək texnologiyalann gətirilməsi proseslərinə başlanılmayıb. Elə götürək sadə bir misal, məişət cihazlanmn, o cümlədən, kondisionerlərin istehsalı üzrə ölkəmizdə olan mövcud potensialdan və ənənəvi istehsal sahələrindən səmərəli istifadə olunması problemlərini. Məlumdur ki, SSRİ dövründə Azərbaycan məişət kondisionerlərinin istehsalı üzrə ixtisaslaşmış respublika hesab edilirdi və Bakıda bu məqsədlə o dövrün yüksək texnolo

giyaları əsasında iri kondisioner zavodu fəaliyyət göstərirdi. Amma uzun müddətdir ki, nəinki məişət kondisionerləri üzrə, həmçinin digər məişət avadanlıqlarının buraxılması üçün müasir istehsal sahələrinin və modern müəssisələrin yaradılması prosesləri gecikdirilir. Ümumiyyətlə, MDB ölkələrində istehsalın strukturunun müasirləşdirilməsi, iqtisadi artımın təmin edilməsi və əldə edilmiş iqtisadi artım səviyyəsinin saxlanılması mexanizminin təkmilləşdirilməsi, iqtisadi fəallığın, novatorlığm, elmi və texniki yaradıcılıq mühitinin, innovatik münasibətlərin fonnalaşması və inkişafı üçün praktikada daha məhsuldar nəticələr verən effektivli iqtisadi mexaıiizmlərin kompleks tətbiqinə zərurət demək olar ki, bu quruma daxil olan ölkələrin hamısında qalmaqdadır. Bizim problem kimi baxdığımız XİZ-lərin tətbiqi sahəsində isə bir qrup misaldan başqa elə ciddi və məhsuldar bir subyekt kimi baxıla biləcək XİZ nümunəsinə praktikada az rast gəlinir. Bununla əlaqədar, fıkrimizcə, Rusiya başda olmaqla, bir qrup MDB ölkəsinin azad ticarət zonası yaratmaq deklarasiyası və Sazişinin uğurla baş tutacağı, region və həmin ölkələrin iqtisadi inkişafına əsaslı təsir edəcəyini gözləmək o qədər də real görünmür. Biz belə fikirləşirik ki, bu ölkələr əvvəlcə öz milli sərhədləri çərçivəsində XİZ institutunun müxtəlif modifıkasiyalannın mükəmməl praktiki adaptasiyasını keçməli, reaı iqtisadi proseslərdə bu iqtisadi mexanizmidən fayda götürməyin optimal modelini müəyyənləşdinnəli və yalnız bundan sonra regional və yaxud beynəlxalq müstəvidə ticarətin sərbəstləşdirilməsi, iqtisadiyyatın açıqlıq səviyyəsinin artınıması layihələrinə baxmaq məqsədəuyğun hesab edilir. Başqa sözlə, öz milli maraqları və milli subyektləri, milli əraziləri, milli prioritetləri, hətta mentalitetləri çərçivəsində XİZ institutunun optimal modifıkasiya- sının praktiki tətbiqini əldə edə bilməyən ölkənin bu sahədə beynəlxalq uğurlan inandırıcı görünmür. Nəzərə alsaq ki, Azərbaycanda hələ XİZ institutu ölkənin praktiki iqtisadi proseslərindən və iqtisadi sistem sınağından keçməyib, deməli ölkəmizin beynəlxalq XİZ layihələrinə və yaxud beynəlxaq (regional) azad ticarət zonalannm yaradılması kimi mürəkkəb proseslərə və inteqrasiya mexanizmlərinə qoşulması məqsədəuyğun hesab edilmir və yaxud

bu məsələlərdə olduqca ehtiyatlı davranışa zərurət vardır.

Qeyd etmək lazımdır ki, milli iqtisadiyyatlann rəqabətqabiliyyətinin gücləndirilməsində klaster tipli kompleks fəaliyyət sahələrinə xarakterik olan iqtisadi mühitin fonualaşmasmda XİZ-lər əlverişli mexanizm kimi çıxış etmək potensialına malikdir. Belə ki, dünya təsərrüüfat sistemində son 15-20 il ərzində klaster tipli kompleks fəaliyyət sahələrinin tətbiqi tədricən genişlənməkdədir. Hətta, bu dövr ərzində bazar iqtisadiyyatı islahatları prosesini aparan, xüsusilə, keçid iqtisadiyyatı proseslərini başa vuran ölkələrin bir qrupunda çoxfunksiyalı və innovasiya yönümlü klaster-hol- dinqlərin, klaster müəssisələrin yaradılması təcrübəsi müşahidə olunmaqdadır. Əslində bu tip kompleks yanaşma hər hansı milli iqtisadiyyat sektorunun problemlərinin elmi-texniki və elmi-iqti- sadi araşdırılmasına, bu problemlərin aradan qaldırılması üçün müasir texnologiyalann və proseslərin kəşfi, işlənməsi və tətbiqinə yüksək texnologiyalar əsasında məhsuldar istehsal güclərinin yaradılmasına, rəqabət qabiliyyətli və müasir standartlar səviyyəsində mal və xidmətlərin təşkilinə, nəzəri biliklərin və praktiki vəhdətin real iqtisadi və təsərrüfat proseslərində gerçəkləşdirilmə- sinə tutarlı stimullar vermək imkanına malikdir. Bizim qarşımızda klasterlə bağlı proseslərin nəzəri mahiyyətinin öyrənilməsi durmadığından, biz bu mütərrəqi iqtisadi vasitənin XİZ-lərlə bağlı birgə məhsuldar fəaliyyət formalannda və onlann iqtisadi sistemə adaptasiyasındakı səciyyəvi xüsusiyyətlərində müşahidə olunan praktiki fəaliyyət prosesləri barədə mülahizələrimizi bölüşəcəyik və bu istiqamətdə bir sıra araşdınnalann nəticələrinə baxacayıq. Bəs nəyə görə klasterlərlə bağlı XİZ-lərə müraciət etmək fikrinə düşdük? Məsələ burasındadır ki, son 10-15 ildə əvvəldə qeyd etdiyimiz kimi dünya ölkələrinin bir çoxunda, o cümlədən postsovet respublikalannda iqtisadiyyatın müxtəlif sahələrində, hətta hasilat sektorunda dövlət dəstəyi ilə müxtəlif klasterlərin yaradılmasına diqqət artmışdır. Məsələn, Şərqi Avropa ölkələrində sənaye və aq- rosektorda bu tip klasterlərə rast gəlmək mümkündür. MDB ölkələrində Rusiyada və Ukraynada həm sənaye sahələrində, həm də kənd təsərrüfatı və digər qeyri-neft sektoru sahələrində klasterlərin

sələn, Dubayda yaradılmış biotexnologilar parkında unikal klaster fonuasında bir neçə XİZ-in effektivli fəaliyyəti mümkün olmuşdur. 10-12 il bundan əvvəl Çinin Xaynan ərazisində təşkil edilən XİZ- in hesabına bura daxil olan geri qalmış ərazilərin sürətli inkişafına nail olumrıuş, dağ-mədən, kənd təsərrüfatı, nəqliyyat və yüksək texnologiyalann tətbiqi sahələrində əhəmiyyətli nəticələr əldə edilmişdir. Maraqlısı buradadır ki, hətta maliyyə imkanlan o qədər də güclü olmayan bir sıra keçmiş postsovet respublikaları da klaster və innovasiya təyinatlı XİZ-lərin yaradılmasında cəhdlər göstərirlər. Məsələn, Tacikistanın Xucant şəhərində təşkil olunan “Suqd” XİZ-də Dubay XİZ-lərində əldə edilmiş nəticələrdən və təcrübədən istifadə etməklə bu XİZ-in inkişaf prioritetlərinin müəyyənləşdirməsi istiqamətində iş apanrlar və yaxud Daxili Amazoniya ərazilərinin sənaye potensialının artınıması məqsədilə yaradılan “Manaus” XİZ-də klaster elementləri ilə zəngin olan 30-dan çox xammal və yanacaq-enerji sahələrini əhatə edən istehsal kompleksləri rəqabət qabiliyyətli məhsullann buraxılışına imkan venuişdir. Digər bir misal, ABŞ-da “Silikon Vadi”si elmi-texniki zonasında dünyada yüksək texnologiyalar əsasında istehsal olunan hesablama texnikası və kompüterlərin 20 %-i istehsal olunur. Bütövlükdə, ABŞ-da 90-na yaxın bu kimi zonalarda 200 min alimlər və fəhlələr çalışırlar. Yaponiyada təkcə “Tsikuba” iri texnopolisində yüksək innovasiyalı flınksiyalann tətbiqi nəticəsində geniş çeşiddə ən müasir standartlara cavab verən texniki vasitələrin, avadanlıqların, robotlann və digər mürəkkəb texnologiyalı məhsulların istehsalı reallaşdınimışdır. Bəs bu kimi geniş həcmli müvəffəqiyyətlərin əldə edilməsində klasterlərin daha çox hansı istiqamətlərdə təsirini ayrıca qeyd etmək mümkündür? Məsələ burasındadır ki, klasterlər öz fəaliyyət proseslərində yüzlərlə innovatik elementlərin qarşılıqlı kompozisiyasını qunuaqla çoxlu sayda mürəkkəb texnologiyalı məhsulların istehsalına imkan verir, əldə edilmiş elmi-texniki yeniliklərin və novator texnologiyaların XİZ-lər vasitəsi ilə real iqtisadi proseslərdə gerçəkləş- dirilməsinə əlverişli şərait yaratmaqla məhsuldar istehsal və biznes mühiti kimi çıxış edir. Digər tərəfdən, bir sıra əməktutmiu

XİZ-brdə klaster elementlərinin aktiv tətbiqi bu kimi zonalann məhsuldarlığına əlavə stimullar verə bilmişdir. Məsələn, tekstil və qida sənayesini götürək, Vaxtilə Çində insanlann daimi işlə təmin olunmasında və istehlak bazanmn tələbinin ödənilməsi üçün geniş istehsal şəbəkəsi yaradılan tekstil və qida sənayesi subyektlərinin inkişafında XİZ institutundan klaster tipli təsərrüfat subyektlərinin qarşılıqlı fəaliyyətlərindən aktiv istifadə etməklə, bu sahədə yüksək əmək məhsuldarlığına nail olunmuş, daxili istehlak tələbatı ödənilməklə, geniş çeşiddə rəqabət qabiliyyətli ixrac məhsullarının istehsalı mümkün olmuşdur. Digər tərəfdən, iri əmək tutumlu bu kimi XİZ-lər yerləşdiyi regionların sosial-iqtisadi problemlərin həllində və işsizliyin səviyyəsinin azaldılmasında ciddi rol oynaya bilmişdir. Rusiayh alım V.M.Kutin klasterləri xarakterizə edərkən və onlann Rusiya regionlarında təşkilinə toxunarkən, bu qənaətə gəlmişdir ki, klasterə eyni sosial-iqtisadi vəziyyətlə xarakterizə olunan regionların birliyi kimi də baxmaq olar. Fikrimizcə, bu yanaşmada müəyyən Rusiya gerçəkliyi və həqiqətləri yer almışdır. Belə ki, bu ölkədə oxşar problemlərlə və iqtisadi inkişaf baxımından geri qalmış regionlar və ərazilərdən misallar gətirmək belə də çətin deyildir. Bununla belə, klasterlərin XİZ-lər vasitəsi ilə real iqtisadi proseslərə transfonnasiyası və yaxud onlann bu zonalardan tranzit dövriyyəsi əldə edilən praktiki nəticənin transformasiyası kimi də baxıla bilər. Başqa sözlə, klasterlər XİZ-lərin güzəştlər sistemində çoxfunksiyalı elementlərə çevrilərək, innovatik alət rolunu oynayaraq, ən mütərrəqi ideya və layihələrin tətbiqi proseslərinə əsaslı stimullar verə bilirlər. Praktikada Rusiyanın XİZ-lə- rində klasterlərin fəaliyyət dairəsinin genişləndirilməsi proseslərində dövlət tərəfindən nizamlama istiqamətləri son illərdə genişlənməkdədir. Hətta bir neçə klaster tipli qruplann XİZ-lərin ərazisində kompleks inkişaf etmə modelinə bu istiqamətdə yeni iqtisadi mexanizm kimi qiymətləndinnə hallan da mövcuddur. Rusiyada 2005-ci ildə hökümətin qəbul etdiyi qərara əsasən bu ölkədə XİZ- lərin təşkili zamanı onlann klaster yönümlü funksiyalarla təmsil olunması, elmi-texniki istiqamətlərin geniş şəbəkəsi XİZ vasitəsi ilə elmi-tədqiqat işlərinin nəticələrinin

təşkilinə üstünlük verilmişdir. Qazaxıstanda isə hasilat sahələri üzrə, daha doğrusu faydalı qazıntılarla zəngin olan yataqlann işlənməsi və emal sahələrinin təşkili istiqamətində yaradılan klasterlərin fəaliyyətinə güclü dövlət dəstəyi mövcuddur. Bu kimi klasterlərdə bir qrup ali təhsil və elmi-tədqiqat müəssisələri, innovasiya yönümlü istehsal müəssisələri və kompaniyalar birgə fəaliyyət prioritetlərini müəyyənləşdirməklə yüksək standartlara cavab verən istehsal sahələrinin yaradılmasını, məhsulların buraxılmasını və xidmətlərin göstərilməsini təşkil edirlər. Müqayisə üçün qeyd etmək olar ki, Azərbaycanda da bunlara bənzər holdinqlər və kompaniyalar vardır ki, onlar da öz fəaliyyət dairələri və istehsal imkanlan baxımından innovasiya təyinatlı klasterlər kimi qiymətləndirilə bilər (“Azərsun”, “Gilan Holding” və s.). Bu kimi klas- terlərin ən mühüm üstünlüyü istehsal ediləcək məhsulun və göstəriləcək xidmətin bütün aspektlərinin dərindən öyrənilməsi və onla- nn praktiki fəaliyyətindən gözlənilən effektivli nəticələrin nəzərə alınmasıdır. Diqqətli yanaşmada göstərilən amilləri və praktiki fəaliyyət münasibətlərinin əksəriyyətinin XİZ-lərlə, xüsusilə, texni- ki-inkişaf və ixrac-istehsal təyinatlı zonalarla üst-üstə düşdüyünü görərik.

Rusiyalı iqtisadçı-alim Y.V.Bajenova XİZ-lərə klasterlı yanaşmanın dünya təcrübəsinin tətbiqi üzrə araşdırmalannda klaster xarakterli iqtisadi alətin funksional imkanlarını təhlil etmiş və onların XİZ-lərin yaradılmasında işlək mexanizm kimi tətbiqinin prioritet istiqamətlərini vemıişdir. Alimin fikrincə, klaster formalı XİZ-lərin qarşısında duran prioritet məqsədlərə iqtisadiyyat sahələrinin diversifikasiyası, iqtisadi artımın yüksək tempinin təmin edilməsi, klaster və XİZ subyektlərinin qarşılıqlı effektivli fəaliyyəti nəticəsində biznes mühitinin yaxşılaşdıniması və rəqabət qabiliyyətinin gücləndirilməsi, innovasiyalara çıxışın asanlaşdırılma- sı, yeni texnologiyaların və “nou-hau”larm işlənməsi və tətbiqinin sürətləndirilməsi, xüsusi xidmətlərin göstərilməsi və yüksək ixtisaslı kadrlann hazırlanmasının təşkili, elmi-texniki tərəqqiyə əlavə stimullann verilməsi, təsərrüfat və kommersiya subyektlərində xa- rici-iqtisadi əlaqələrin və bu sahə üzrə iştirakçıların dünya bazar-

lanna inteqrasiyasının genişləndirilməsi və, nəhayət, xarici investisiyaların cəlbi üçün real münbit şərait daxildirlər [86J. Hazırda iqtisadi inkişaf proseslərində önəmli yer tutmaq istəyən ölkələrdə elm-texniki yeniliklərin işlənməsi və tətbiqi, milli iqtisadiyyatın innovasiyalaşdırıİması kimi mühüm problemlərin həllində və ölkənin məhsuldar qüvvələrinin inkişaf səviyyəsinin qaldırılmasında klasterlərdən və onlann XİZ-lərlə qarşılıqlı fəaliyyət mexanizmlərindən səmərəli istifadə edilməsi tendensiyalan güclənməkdədir. Bunlar ilk növbədə XİZ-lərin klaster və daha real praktiki mexa- nizmlərə malik cffektivli iqtisadi instrument fonuasmda milli iqtisadiyyat sektorlanna dərin və fundamental müdaxilə etməsi, istehsal və emal sahələrinin yaradılması, istehsal və xidmət standartlarının dünya səviyyəsinə qaldınlması, mütərəqqi texnikanın və idarəetmə prinsiplərinin real iqtisadi proseslərə fəal tətbiqi, ixrac coğrafiyasının genişləndirilməsi, tranzit daşımalann artması, valyuta resurslarının effektivli hərəkətinin gücləndirilməsi, investisiya vəsaitlərinin əhəmiyyətli həcminin cəlb edilməsinə şəraitin yaradılması, əhalinin məşğulluq səviyyəsinin artınıması və yoxsulluğun səviyyəsinin azaldılması, dünya iqtisadi proseslərinə daha fəal inteqrasiyanın təmin edilməsi, istehsalın strukturunun təkmilləşdirilməsi və genişləndirilməsi, daha səmərəli istehsal mexanizmin formalaşması və sairlər daxildirlər. Dünya təcrübəsində bir çox XİZ- lərdə - klaster funksiyalarının aktiv tətbiq olunduğu zonalarda, məsələn, Çinin Şençjen, Xaynan, Şantou, Çjuxay və Ksiamen, İrlandiyanın Şennon, BƏƏ-nin Cəbəl Əli, Türkiyənin İzmir, Hindistanın Bumbey kimi XİZ-lərində xarici kapitalla yanaşı, yerli sər- mayəçilərin də fəal iştirakı mümkün olmuşdur. Bu onunla bağlıdır ki, klasterlər və XİZ-lər müəyyən mənada məqsəd və vəzifələrinə görə oxşardırlar. Klasterlərin yaradılması zamanı fiskal vergi və maliyyə güzəştləri, həmçinin gömrük və xarici ticarət güzəştləri nəzərdə tutulmasa da, qanunla onlann yerləşdiyi ərazilər məhdudlaşdırılmır və bu amil klasterlərin iqtisadi məqsədəuyğunluğundan birbaşa asılıdır. Bunlarla belə, bu kimi klasterlərin yaratdığı rəqabət qabiliyyətli mühit XİZ-lərlə qarşılıqlı fəaliyyət formasında məhsuldar iqtisadi nəticələrin əldə edilməsinə imkan verir. Mə

ciddi nəzərə alınmalıdır. Bunlarla əlaqədar, klaster yönümlü XİZ-lərdə kompleks gömrük və vergi güzəştləri sisteminin tətbiq edilməsi xüsusilə vacibdir. Digər tərəfdən, zəruri infrastruktur obyektlərinin qurulması və xarici investisiyaların cəlbini asanlaşdıran sair mühüm xüsusiyyətlərin nəzərə alınması vacibdir, Rusiyada “Dubna” XİZ-də artıq 70-ə yaxın yeni texnologiyaların işlənməsi və tətbiqi üzrə layihələr gerçəkləşdirilmişdir və bunların əksəriyyəti eimtutumlu məhsulların istehsalına imkan verir. Bu nəticələr praktikada innovasiya fəaliyyətinin və elmi-texniki yeniliklərin istehsalla əlaqələndirilməsinin XIZ-lər vasitəsi ilə reallaşdırılması- nm praktiki nümunəsi kimi də qiymətləndirilə bilər. Proqnozlara görə, 2025-ci ilə kimi Rusiyada texniki tətbiq tipli və klaster yönümlü XİZ-lərin məhsuldarlığı hesabına bu ölkənin dünya bazarında yüksək texnologiyalı malların istehsalı və xidməti üzrə payı 10-12% səviyyəsində fonnalaşa bilər. Bu sahə üzrə tədqiqat aparmış Rusiyalı alim P.V.Pavlova görə, XİZ-lər makro, mezo və mik- ro səviyyələrdə müxtəlif formalarda fəaliyyət göstərməklə, müasir texnologiyaların və infonuasiyalann məhsuldar uzlaşdırılması nəticəsində bu kimi zonalar Rusiyanın dünya bazanna inteqrasiyasına effektiv təsir göstərir. XİZ-lər mikrosəviyyədə rəqabət qabiliyyətli məhsullann istehsalı və müəssisələrin yaradılmasına imkan verir, sosial-iqtisadi problemlərin həllini sürətləndirir, sonra bu proseslər daha effektivli formada regional inkişaf coğrafiyasını genişləndirir və, nəhayət, makrosəviyyədə bütün Rusiyada iqtisadi inkişaf proseslərinə eiddi təsir göstərir. Dövlət bu kimi elmi istehsal təyinatlı və klaster tipli XİZ-lərin yaradılması və fəaliyyət strategiyasını müəyyənləşdirərkən, bu proseslərə kompleks və sistemli yanaşmanı təmin etmək Rusiyanın hökümət dairələrində yüksək texnologiyalı məhsullann və sahələrin stimullaşdınimasmda XİZ- lərin aktiv tətbiqi iqtisadi siyasətinin möhkəmlənməsinə önəmin artdığını göstərir. Məsələn, titan və onun emalı ilə bağlı sahələrin inkişafını təmin etmək üçün “Titan vadisi” XİZ-nin kompleks gömrük və vergi güzəştləri hesabına iri həemli investisiya resurslarının cəlb edilməsi, dünyada aviasiya sənayesinin inkişafına güclü təkan verəcəyi və onlarla aviasiya-tikinti kompaniyalarının

gəlirlə işləməyinə şərait yaradacağı proqnozlaşdırılır. Bu isə Rusiyanın dünya bazarında imicinin və rəqabət qabiliyyətinin əhəmiyyətli dərəcədə artmasına imkan verə bilərdi. Bu cür nəticələrin əldə edilməsinin əsasında isə XİZ-lər vasitəsi ilə istehsal və innovasiya klasterlərinin birgə fəaliyyəti durur. Təkcə “Boeing” (ABŞ) kompaniyasının bu XİZ-də titandan emal olunan yarımfabrikatların və detallann istehsalına 2036-cı ilədək 18 mlrd, dollar xərcləyəcəyi gözlənilir və sair. Bu zonada “Airbus” kimi və digər iri aviakompaniyalardan sifarişlərin artacağı ehtimalı yüksəkdir. Göründüyü kimi, dövlət dəstəyi alan innovasiya fəaliyyətli klasterlərin təşkili və onların XİZ-lərlə birgə fəaliyyət istiqamətləri yüksək məhsuldarlığa gətirib çıxara bilər və efifektivli nəticələrin əldə edilməsinə şərait yaradar. Fikrimizcə, Azərbaycanda bu tipli klasterlər və onların XİZ-lərlə bağlı birgə fəaliyyətini şərtləndirən ciddi amillər vardır. Belə ki, son illərdə Azərbaycan Respublikasının rəhbərliyi və hökuməti kosmik sənayenin, həmçinin hərbi sənaye kompleksinin müasir texnologiyalar əsasında inkişafında ciddi önəm verməkdədirlər. Xüsusilə, kosmik sənaye sahəsi xarici investorlar tərəfindən perspektivli investisiya məkanı kimi diqqəti cəlb edir. Bu baxımdan əsas vəzifələrdən biri kimi yüksək texnologiyalann işlənib hazırlanmasını və tətbiqini güclü stimullaşdıran gömrük və vergi rejimlərinin kompleks sisteminə malik olan innovasiya və klaster yönümlü XİZ modelinin Azərbaycanda reallaşdınıması proseslərinin sürətləndirilməsi aktuallığı ilə seçilir.

Dünya təsərrüfat sisteminin deformasiya proseslərinin sürətləndiyi və qloballaşma elementlərinin genişlədiyi şəraitdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artınıması problemləri milli iqtisadi təhlükəsizlik sisteminin əsas parametrlərindən biri kimi diqqəti cəlb edir. Milli iqtisadiyyatlann təhlükəsizliyi və iqtisadi təhlükəsizlik prioritetlərinin müəyyənləşdirilməsi problemlərini araşdıran A.M. Məhərrəmov qeyd edir ki, milli iqtisadi təhlükəsizliyin parametrlərinə milli iqtisadi təhlükəsizlik konsepsiyası, iqtisadi inkişaf üzrə dövlət Proqramı ilə dünya bazannda gedən dəyişikliklərin əlaqələndirilməsi, milli iqtisadi təhlükəsizlik baxımından

təkcə milli iqtisadiyyatla xarici bazar arasında ziddiyyətləri deyil, həm də müxtəlif ictimai qrup və siyasi platfomıalar arasında ziddiyyətin nəzərə alınması, iqtisadi proseslərin dövlət tərəfindən tənzimlənməsi, oliqarxların öz iradəsinin cəmiyyətə qəbul edilməsinin qarşısının alınması və bazar iqtisadiyyatı prinsiplərinin for- malaşdınlması zamanı dövlətin beynəlxalq arenada mövqeyinin itirilməsi hallarına yol verilməməsi kimi mühüm prioritetlər daxildir [s.42, 57]. İqtisadi təhlükəsizliyin strateji məqsədlərinin müəyyən olunması onun təmin olunması üzrə müvafiq tədbirlərin kon-kretləşməsi olmadan çətin olar. Bu tədbirlərə aktiv struktur və sosial siyasətin həyata keçirilməsi, dövlətin investisiya, maliyyə, pul-kredit və xarici iqtisadi sferada aktivliyinin artması, institusio-nal dəyişikliklərin davam etdirilməsi daxilidirlər. Firkimizcə, bu göstərilən strateji vəzifələrin yerinə yetirilməsində universal və daha praktiki iqtisadi mexanizmlərdən fəal istifadənin təşkili mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan müəllifin müvafiq tədbirlərin “konkretləşməsi olmadan” fikri ilə razılaşmamaq olmaz. Belə ki, real iqtisadi ideyaların və mexanizmlərin gerçəkləşdirilmədiyi təqdirdə onlann əhəmiyyətindən uzun-uzadı danışmağın əbəs olduğunu sübut etməyə ehtiyac yoxdur. Maraqlıdır ki, hətta siyasi rejimləri müasir dünya demokratik prinsiplərindən xeyli fərqlənən və nisbətən qapalı iqtisadi siyasətə malik olan qonşu İranda ölkənin milli təhlükəsizliyinin güeləndirilməsi və beynəlxalq arenaya çıxış imkanlannın genişləndirilməsi məqsədilə XİZ institutundan uğurlu istifadə dünya ekspertlərinin diqqətinin cəlb etməkdədir. İranda XİZ-lər 1993-cü ilin avqustunda qəbul olunmuş qanun əsasında nizamlanır və bu ölkədəki XİZ-lərm subyektləri 15 il ərzində vergilərdən azaddırlar. XİZ-lərdə ixrac edilən istehsal edilmiş məhsullar ya qismən və yaxud tamamən gəlir vergisindən azad edilə bilərlər. Bu zonaya gətirilən mallar isə gömrük rüsumlarından azaddırlar. Ölkədə 10-a yaxın müxətlif təyinatlı XİZ-lər fəaliyyət göstərirlər. İranda ən uğurlu XİZ kimi İran körfəzindəki Kesm adasındakı Kesm iqtisadi zonasını misal gösətnnək olar. Burada l50-ə yaxın ixrac təyinatlı rəqabət qabiliyyətli məhsullar istehsal olunur. Digər

uğurlu XİZ modeli kimi Kiş adasında fəaliyyət gösətərən XİZ-dir. Adada 50-yə yaxın otel və 20-dən çox iri ticarət mərkəzi fəaliyyət göstərir. Fransanın “Reno” şirkətinin burada iri avtomobil istehsal sahəsi vardır və s. İranda XİZ-lərə olan dövlət dəstəyinin və inamın əsasında belə zonaların siyasi motivasiyalardan uzaq əlverişli iqtisadi mühit olması qənaətinə gəlməyimizə də əsas verir. Əslində baxanda İran höküməti ilə bir çox inkişaf etmiş ölkələrin münasibətləri siyasi baxımdan çox gərgin səviyyədədir, amma bunlarla belə, bu ölkədə olan əsas investorlar sırasında Almaniya, Fransa, Böyük Britaniya, İtaliya, Yaponiya, İsveçrə, Cənubi Koreya kimi ölkələrin şirkət və kompaniyaları fəallığı ilə seçilirlər. Fikrimizcə, bu ölkələrin kompaniyalarının və şirkətlərinin İranın iqtisadi potensialına marağı ilk növbədə onların bu ölkədəki XİZ- lər vasitəsi ilə əlverişli iqtisadi şərtlərlə xammal və istehsal imkanlanna çıxmaq mexanizminin əlavə gəlirlə nəticələnməsi və bu fəaliyyətdən onlann yetərincə yararlanmasıdır. Məhz bu məqamlar XİZ institutunun - XİZ məkanının əlverişli iqtisadi və investisiya mühiti olması ilə yanaşı, müxtəlif siyasi ambisiyalara və milli maraqlara baxmayaraq, bu məkanda həmin kateqoriyadan olan ölkələrin investor - XİZ rezidentlərinin iqtisadi maraqlarının üst-üstə düşdüyü effektivli bir iqtisadi model kimi də xarakterizə etmək olar.

Qeyd etmək lazımdır ki, Azərbaycan müsətqillik əldə etdikdən sonra ölkənin iqtisadi potensialının yeni münasibətlərə, o cümlədən demokratik cəmiyyət və bazar iqtisadiyyatı münasibətlərinə uyğunlaşdırmaq və yeni prioritet sahələri müəyyənləşdinnək üçün keçmiş SSRİ-nin dövründən qalan problemlərin sistemləşdirilməsi və onlann həlli yollannın tapılması məsələləri iqtisadi islahatlann ilk dövrlərində mühüm əhəmiyyət kəsb etmişdir. Bu problemləri araşdıran azərbaycanlı tədqiqatçı-alim S.F.İsmaylov ölkəmizin sənaye sahələrinin, xüsusilə maşınqayırma və metallurgiya sahələrinin inzibatı amiranəlik dövründən qalan problemllərini araşdırarkən, bunlara sənaye sektorunun strukturunun balanslaşdınlmama- sını, istehsalın texniki səviyyəsinin aşağı olmasını, sənaye sektoru sahələrinin ərazicə yerləşməsində uyğunsuzluqların olmasını, bu

sektorda iri müəssisələrinin əsas pay təşkil etməsi və belə iri müəssisələrin yeni iqtisadi-bazar münasibətlərinə çətin adaptasiyası, əvvələdən mövcud olan təsərrüfat idarəetmə sisteminin dağılması və yeni modellərin praktiki proseslərdə hələlik möhkəmlənməmə- si, əvvəlki təsərrüfat əlaqələrinin kəsilməsi və zəifləməsi, işçilərin iqtisadi fəallığının aşağı səviyyədə olması, iqtisadi mühitin qeyri- fəallığı və sair amilləri aid etmişdir (s.13-15, 103J. Müəllif bu sənaye sahələrində olan müəssisələrin potensialının mövcudluğunu xarakterizə edən bir sıra fikirlərini vennişdir. Qeyd olunur ki, müasir metal əritmə istehsalat sahəsinin yaradılması qeyri-neft sektorunun və xüsusilə ağır sənayenin inkişafına imkan verərdi. Bu məsələnin reallaşacağı təqdirdə, ölkədə uzun bir dövr ərzində toplanmış və ehtiyatlan olan metal tullantılarının təkrar emala qaytarılması və yeni metal məmulatlarının alınmasına imkan verməklə yanaşı, bu məhsulların xeyli hissəsini Orta Asiya ölkələrinə, həmçinin İran, Gürcüstan və Qazaxıstana ixrac etməyə imkan verər. Azərbaycanda neftqaz və neftkimya maşınqayırması üzrə istehsal imkanlannm əsasən “Azneftkimyamaş” ASC-də toplanmasını, bu cəmiyyətin tərkibində 14 neftmaşınqayınTia zavodunun və 4 elmi- tədqiqat və layihə İnstitutlannın olması bu sahədə ciddi potensialdan xəbər verir. Qeyd edilən müəssisələrdə hələ iri miqyaslı yenidənqurma və modemizasiya işləri aparılmadan 100-ə yaxın çeşiddə qazma avadanlığı, dəzgahlar, nasos ştanqlan, fəvvarə armaturları, qazma boruları üçün kilitlər, dərinlik nasoslan, qazlift avadanlığı və sairlər istehsal olunurlar. Fikrimizcə, bu sənaye sahələrinin potensialından ölkəmizdə qeyri-effektivli istifadə edilir. Birincisi, uzun illərdir ki, bu sektora daxil olan zavodlann əksəriyyəti istehsal gücündən çox aşağı səviyyədə işləyirlər və yaxud tamamilə fəaliyyətsizdirlər, ikincisi, uzun dövrdir ki, bu müəssisələrin bir çoxunun Bakı şəhərindən kənara köçürüləcəyi söhbətləri səngimir, amma bu məsələlər üzrə açıq və vahid konsepsiya hələlik hazırlanmayıb və qəbul edilməyib. Üçüncüsü, son 10-15 il ərzində bir dənə də olsun güclü istehsal imkanlarına malik profil istehsal sahəsi də yaradılmayıb. Dördüncüsü, bu istehsal sahələrinin reabilitasiyası və modemizasiyası ilə bağlı fərqli iqtisadi mexanizmlər-

dən, o cümlədən, güzəştli iqtisadi zonaların və yaxud güzəştli iqtisadi rejimin tətbiq edilməsi variantlarına baxılmayıb. Və, nəhayət, Azərbaycanda bu sahədə yeni texnologiyaların gətirilməsi və rəqabət qabiliyyətli istehsal sahələrinin yaradılmasının gecikdirildiyi bir şərautdə neftkimya maşınqayınnası üzrə Qazaxıstanın Xəzər dənizi sektoruna yaxın ərazidə bu sahənin profillərindən ibarət istehsal kompleksinin yaradılması prosesi sürətlə təşkil edilməkdədir. Şübhəsiz, əgər yaxın perspektivdə Azərbaycan hökuməti bu sənaye sahələri üzrə kompleks tədbirləri gerçəkləşdirməcəyi təqdirdə, regionda bu sahədə olan ənənəvi rəqabət üstünlüyünü itirə bilər. Fikrimizcə, bu sahələrə eimtutumlu innovasiyalann və yüksək texnologiyaların gətirilməsi məqsədilə istehsal imkanlarını və elmi-tədqiqat potensialını özündə birləşdirəcək klaster təyinatlı texniki-istehsal və texniki-tətbiq funksiyalı XİZ variantının yaradılması və fəaliyyətinin təşkili məqsədəuyğun olardı.

Azərbaycanda bazar iqtisadiyyatının formalaşması proseslərində sənaye sahələrinin inkişafının intensivləşdirilməsi və onların xammal ehtiyatlarından səmərəli istifadə edilməsi problemləri müasir dövrün aktual məsələləri sırasına daxildir. Əlbəttə, biz heç də tərəfdan deyililik ki, ölkənin bütün sənaye sahələrinin potensial imkanlarından intensiv istifadə edilməsində XİZ modellərinin tətbiqinə baxılsın və bunu bir vəzifə kimi qarşımıza qoymamışıq. Amma dünya təcrübəsində bir çox ölkələr müxtəlif sənaye sahələrinin inkişafının sürətləndirilməsində XİZ-dən bəhrələnə bilmişlər. Müxtəlif iqtisadi ədəbiyyatlarda və mənbələrdə inkişaf etmiş ölkələrin və inkişaf etmiş yeni sənaye ölkələrinin keçdiyi son 30-50 illik iqtisadi proseslərdə ayrı-ayrı sənaye sahələrinin inkişafında XİZ-lərin tətbiqi barədə çoxlu materiallara rast gəlinir. Qeyd etmək lazımdır ki, müasir dövrdə bu proseslər belə kateqoriyadan olan ölkələrin əksəriyyətində davam etməkdədir. Amma son 10-20 il ərzində bir qrup postsosialist ölkələrinin də bu dünya təcrübəsindən praktiki iqtisadi proseslərdə bəhrələnməsi cəhdləri təqdirəlayiqdir (Polşa, Macarıstan, Vyetnam və s.). Azərbaycanda sənaye sektoru sahələrinin güclü təbii ehtiyatlarının və müəyyən dərəcədə istehsal potensialın

hədə daha intensiv iqtisadi inkişaf modellərinin tətbiqi reallaşa bilərdi. Bu problemləri araşdıran A.Y. Ələkbərov yazır: "İstehsal sahələrinin və vasitələrinin inkişafı ilə, xüsusilə, sənayenin texniki tərəqqisinin artımı istiqamətinin təmin edilməsi məqsədi ilə elə inkişaf və istehsal vasitələri müəyyənləşdinnək lazımdır ki, bunun nəticəsində əlavə olaraq, qara, əlvan, qiymətli metallardan məhsullar buraxmaq mümkün olsun. Bununla bərabər, oxşar təkrar emal imkanlanna malik sahələr kimi metallurgiya, kimya-metallurgiya, enerji resurslarından, həmçinin, sənaye tullantılarından istifadədə spesifik xüsusiyyətlər iqtisadi-ekoloji vəzifələrlə bir mexanizm kimi nəzərə alınmalıdır" [s.4, 70j. Müəllif qeyd edir ki, milli iqtisadiyyatın təsərrüfat mexanizmlərinin təkmilləşdirilməsi, yeni təsərrüfat münasibətləri şəraitində və bazar iqtisadiyyatına keçid münasibətində təsərrüfat mexanizminin daha da təkmilləşdi- rilməsini tələb edir və bu zaman belə məsələlər təbii resurslardan istifadənin səmərəliliyi, həmçinin ekoloji vəziyyətin yaxşılaşdırılması prizmasından baxılmalıdır. Amma, məsələ burasındadır ki, bütün bünlar iqtisadi fəaliyyətin təşkil ediləcəyi regiona (əraziyə) yeni iqtisadi mexanizmlərin, təsərrüfat formalarının, investisiya təşəbbüslərinin və müasir texnologiyalann gətirilməsi təmin edilmədən çətin ki, praktiki proseslərdə reallaşa bilsin. Biz bir çox misallarda dünya təcrübəsində və region ölkələrində belə prioritet vəzifələrin reallaşdırılmasında XİZ-lərin tətbiqi məsələrinə yer ayınnış və nümunələri vennişdik. Bir çox hallarda isə sənaye sahələrinin intensiv inkişafı, xammal və resurslann təkrar emalı im- kanlannm real qiymətləndirilməsi və onların müasir texnologiyalar əsasında istehsal prosesinə cəlb edilməsi məqsədilə texniki-is- tehsal, innovatik və yüksək texnologiyalar təyinatlı XİZ-lərin təşkilindən istifadə edilməsi praktikasını qeyd etmişdik. Amma, təəssüf ki, ölkə və dünya ekspertlərinin qənaətinə görə güclü təbii ehtiyatlara və təkrar emal xüsusiyyətlərinə malik sənaye resurslan olan Azərbaycanda bir çox sənaye sahələrinin yenidənqurulması proseslərində intensivlik çatışmır və bu proseslərdə hələlik o cümlədən XİZ modelinin tətbiqi prioritetləri müəyyənləşdirilməyib. Azərbaycanda elmi-texniki və iqtisadi inkişafın strateji istiqamət

lərini qeyd edən A.Y. Ələkbərov hesab edir ki, ölkənin müvafiq sənaye sahələrinin intensiv inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə istehsal proseslərinin bütün mərhələlərində və texnoloji tsiklərdə xammal itkilərinin qarşısının alınması üçün tullantısız və yaxud az tullantıh müasir texnologiyalann tətbiqi zərurəti vardır (s.l61, 701. Bu problemlərə toxunan müəllif, Azərbaycanda boru prokat, alüminium və bir sıra digər emal sahələrinin potensialından daha səmərəli istifadə edilməsinə diqqəti ar- tınnağı məqsədəuyğun hesab etmişdir. Müasir vəziyyət və göstərilən sahələrin təhlili imkan verir ki, müəllifin gəldiyi qənaətlə razılaşaq. Hazırda Azərbaycanda bu emal sahələrinin potensialından zəif istifadə edilməsi ölkə hökümətinin diqqət mərkəzində olsa da, real səmərəli və praktiki iqtisadi mexanizmlərin və təsərrüfat fəaliyyətinin effektivli təşkili hələlik təmin edilməmişdir. Fikrimizcə, bir çox ölkələrdə olduğu kimi bu saliələrin kompleks inkişafına təkan verə biləcək iqtisadi mühitin yaradılması məqsədilə, ya XİZ modelli təsərrüfat mexanizminin və yaxud müvafiq güzəştlər sisteminə malik iqtisadi rejiminin tətbiqinə ehtiyac vardır. Hər iki halda söhbət dotasiya və subsidiyalardan yox, əlverişli investisiya və biznes mühitinə malik iqtisadi fəaliyyət məkanın yaradılmasından gedir.

Müxtəlif elmi-tədqiqatlann nəticələri ilə tanışlıq, milli iqtisa- diyyatlann rəqabət qabiliyyətinin gücləndirilməsi və davamlı iqtisadi inkişafın təmin edilməsi üzrə aparılmış təhlillərin əsasında bu qənaətə gəlmək olar ki, Azərbaycan özünün milli iqtisadiyyatının rəqabətqabiliyyətinin gücləndirilməsi üçün yaxın perspektivdə daha effektivli iqtisadi mexanizmlərdən, o cümlədən XİZ-lərdən istifadəyə müraciət edə bilər. Bu onunla əlaqədardır ki, ölkənin hasilat sənayesi sürətlə inkişaf etdikcə, artan valyuta və maliyyə mənbələri hesabına qeyri-neft sektorunun müxtəlif sahələrində rə- qabətqabiliyyətli emal sahələrinin yaradılması və bu proseslərdə XIZ-lərin tətbiqinə əlverişli imkan vardır. Bunu həm də son illərdə ölkənin əsas makroiqtisadi göstəricilərinin artım tempinin saxlanılması və iqtisadi inkişafın davamlılığının təmin edilməsi şərtləndirir (Cədvəl 9).

Cədvəl 9.

**Azərbaycan Respublikasında bir sıra əsas sosial iqtisadi göstəricilərin dinamikası (əvvəlki ilə nisbətən faizlə)**

| s/s | Göstəricilər | İ L L Ə R | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | 1995 | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
| 01 | ÜDM | 88,2 | 111,1 | 126,4 | 134,5 | 125,0 | 110,8 | 109,3 | 105,0 |
| 02 | Sənaye istehsalı | 78,6 | 106,9 | 133,5 | 136,6 | 124,0 | 106,0 | 108,6 | 102,6 |
| 03 | Kənd təsərrüfatı məhsulu | 93 | 112,1 | 107,5 | 100,9 | 104,0 | 106,1 | 103,5 | 97,8 |
| 04 | Əsas kapitala investisiyalar | 82 | 102,6 | 116,6 | 115,2 | 123,8 | 131,8 | 81,6 | 121,2 |

**Qeyd: Cədvəl ARDSK-nin materialları əsasında hazırlanmışdır.**

Cədvəl 9-dan göründüyü kimi, artıq 2008-ci ildən başlayaraq, ölkədə ÜDM-ın artım tendensiyası düşməkdədir. Eyni hal 2010-cu ildə sənaye və kənd təsərrüfatı məhsullan istehsalı üzrə də müşahidə edilməkdədir. Azərbaycan Respublikasında ümumi sənaye istehsalının artım indeksləri Cədvəl 10-da verilmişdir.

**Cədvəl 10.**

**Azərbaycan Respublikasında ümumi sənaye istehsalının indeksləri, faizlə (1995- 100%)**

| Göstəricilər | I L L Ə R | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün sənave | 93 | 94 | 96 | 99 | 106 | III | 115 | 122 | 129 | 173 | 236 | 292 | 310 | 337 | 345 |
| Məclənçıxamıa sənavcsı | 98 | 97 | 121 | 145 | 147 | 156 | 159 | 162 | 165 | 234 | 339 | 437 | 460 | 518 | 524 |
| Emal sənayesi | 90 | 91 | 80 | 73 | 84 | 86 | 91 | 107 | 18 | 137 | 146 | 157 | 167 | 154 | 169 |

**Qeyd: Cədvəl "Azərbaycanın sənayesi" - 2011 statistik məcmuəsinin materialları əsasında hazırlanmışdır.**

Cədvəl 10-nun təhlili göstərir ki, 1995-2000-ci illərdə Azərbaycanda bütün sənaye sahələri 3,5 dəfə artdığı halda, bu rəqəm mədənçıxarma sənayesində 5,2 dəfə, emal sənayesində isə 1,7 dəfə təşkil etmişdir [7]. Göründüyü kimi, ölkədə emal sənayesi sahələrinin inkişafının sürətləndirilməsi və burada müxtəlif fərqli iqtisadi mexanizmlərin, həmçinin XİZ-lərin tətbiqinə baxılması məqsədəuyğun hesab edilir. Cədvəl 11-də Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının strukturu öz əksini tapmışdır.

**Cədvəl 11.**

**Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının strukturu**
**(2005-ci ilin müqayisəli qiymətlərilə ümumi yekuna nisbətən faizlə)**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| Bütün sənaye | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Mədənçıxarma sənayesi | 67.4 | 73,6 | 77,6 | 77,3 | 80,7 | 79,8 |
| Emal .sənayesi cəmi | 25,9 | 20,9 | 18,3 | 18,5 | 15,9 | 16,7 |
| o cümlədən: Qida məhsulları istehsalı | 2,4 | 1,8 | 1,6 | 1,5 | 1,4 | 1,4 |
| Toxuculuq sənayesi | 0,4 | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| Geyim istehsalı | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 0,1 | 0,1 | 0,1 | 0,2 | 0,1 | 0,1 |
| Neft məhsullarının isteh.salı | 9,9 | 7,7 | 6,8 | 6,9 | 5,8 | 6,0 |
| Kimya sənayesi | 2,4 | 2,0 | 1,1 | 1,3 | 0,8 | 1,0 |
| Tikinti materiallarının istch.sah | 1,6 | 1,2 | 1,3 | 1,1 | 0.9 | 0,7 |
| Metallurgiya sənayesi | 3,2 | 2,8 | 1,5 | 1,7 | 0,5 | 0,7 |

**Qeyd: Cədvəl ARDSK-nin "Azərbaycanın sənayesi" - 2011 statistik məcmuəsi əsasında hazırlanmışdır.**

Cədvəl 11 -ə əsasən qeyd etmək olar ki, Azərbaycanda ümumi sənaye istehsalının strukturunda emal sənayesinin payı 2005-ci ildəki 25,9 %-dən 2010-cu ildə 16,7 %-dək azalmışdır. 2010-cu ildə bir sıra mühüm sənaye sahələrinin ölkə üzrə sənaye istehsalında payı çox cüzi olmuşdur. Məsələn, bu göstəricilər kimya sənayesində 1 %. metallurgiya sənayesində - 0,7 %, toxuculuq sənayesində - 0,1 % və qida məhsulları istehsalında 1,4 % təşkil etmişdir. Bu

qeyd edilən sənaye sahələrinin rəqabətqabiliyyətlilik potensialından səmərəli istifadə edilməsində XİZ modellərinin tətbiqinə baxılması perspektivləri diqqəti cəlb edir. Cədvəl 12-də Azərbaycanda sənaye istehsalının ayn-ayrı sahələrinin 2005-ci ilə nisbətən artım indeksləri verilmişdir.

**Cod vəl 12.**

**Azərbaycan Respublikasında sənaye istehsalının ayrı-ayrı sahələrinin iqtisadi fəaliyyət növləri üzrə indeksləri (faizlə)**

| s/s | Göstoricilər | 2005- 100 | | | | |
|---|---|---|---|---|---|---|
| | | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
| | Bütün sənaye | 136,6 | 169,4 | 179,6 | 195,0 | 200,1 |
| 01 | M.ədənçıxamıa sənayesi | 144,7 | 186,8 | 196,7 | 221,3 | 224,0 |
| 02 | Emal sənayesi cəmi | 106,9 | 114,7 | 122,3 | 112,9 | 123,5 |
| | o cümlədən; | | | | | |
| | Qida məhsulları istehsalı | 102,3 | 106,4 | 108,1 | 110,9 | 113,5 |
| | İçki istehsalı | 125,0 | 155,3 | 147,4 | 129,0 | 142,9 |
| | Tütün məmulatlarının istehsalı | 91,9 | 69,8 | 53,8 | 47,6 | 45,4 |
| | Toxuculuq sənayesi | 76,7 | 54,2 | 40,9 | 29,4 | 27,7 |
| | Geyim istehsalı | 92,0 | 97,6 | 79,3 | 94,0 | 103,5 |
| | Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 80,1 | 125,0 | 93,9 | 99,1 | 117,5 |
| | Kağız və karton istehsalı | 149,3 | 156,9 | 179,2 | 365,0 | 406,1 |
| | Neft məhsullarının istehsalı | 102,4 | 110,3 | 119,7 | 107,0 | 116,4 |
| | Kimya sənayesi | 114,2 | 76,7 | 96,9 | 61,0 | 82,1 |
| | Tikinti materiallarının istehsalı | 102,1 | 129,7 | 117,2 | 98,3 | 89,4 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Metallurgiya sənayesi** | **115,0** | **75,8** | **87,8** | **29,8** | **43,0** |
| | Hazır metal **məmulatlarının istehsalı** | **85,9** | **163,5** | **235,1** | **123,2** | **115,2** |
| | **Kompüter və digər elektron avadanlıqlann istehsalı** | **64,9** | **59,9** | **26,7** | **23,3** | **27,9** |
| | **Elektrik avadanlıqlarının istehsalı** | **175,0** | **195,8** | **115,9** | **90,4** | **165,3** |
| | **Maşın və avadanlıqların istehsalı** | **158,0** | **247,7** | **264,0** | **223,6** | **421,3** |
| | **Mebellərin istehsalı** | **121,3** | **127,0** | **133,9** | **133,5** | **32,2** |

**Qeyd: Cədvəl ARDSK-nin "Azərbaycanın sənayesi" - 2011 statistik məcmuəsi əsasında hazırlanmışdır.**

Cədvəl 12-nin təhlilinə görə, ölkə üzrə 2010-cu ildə 2005-ci ilə nisbətən 2 dəfə artdığı halda bu göstərici mədənçıxarma sənayesi üzrə 2,2 dəfə və emal sənayesi üzrə isə cəmisi 1,2 dəfə olmuşdur. Mühüm sənaye sahələri üzrə, məsələn, qida məhsulları istehsalına görə artım cəmisi 13,5 **%,** hazır metal məmulatlann istehsalı üzrə 15,2 %, elektrik avadanlıqlann istehsalı - 65,3 **%,** maşın və avadanlıqlann istehsalı 4,2 dəfə olduğu halda kimya, metallurgiya və toxuculuq kimi mühüm sənaye sahələri üzrə məhsul istehsalı xeyli səviyyədə azalmışdır. Şübhəsiz, sənayenin müxtəlif sahələrində modemizasiya tədbirlərinin geçikdirilməsi bu sahələrin potensialını zəiflətmişdir. Həmçinin bu sənaye sahələrinin ye-nidənqurulmasmm daha çevik iqtisadi mexanizmlərlə əhatə edilməsinə zərurət vardır. Dünya təcrübəsində bu kimi problemlərin sənaye parklan, elmi-texniki təyinatlı və ixrac-istehsal statuslu XİZ-lər vasitəsilə həllində əsaslı irəliləyişlərin əldə edilməsi üzrə xeyli təcrübə vardır. Azərbaycanda bir sıra iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının əvvəlki ilə nisbətən artım dinamikası Cədvəl 13-də verilmişdir.

**Cədvəl 13.**

**Azərbaycan Respublikasında bir sıra iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının indeksləri**

**<u>(əvvəlki ilə nisbətən faizlə)</u>**

| s/s | Göstəricilər | İ L L Ə R | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
| | Bütün sənaye | 133,5 | 136,6 | 124,0 | 106,0 | 108,0 | 102,6 |
| 1. | Mədənçıxarma sənayesi | 141,5 | 144,7 | 129,1 | 105,3 | 112,5 | 101,2 |
| 2. | Emal sənayesi | 116,0 | 106,9 | 107,3 | 106,6 | 92,3 | 109,4 |
| | Qida məhsullarının istehsalı | 102,7 | 102,3 | 104,0 | 101,6 | 102,6 | 102,3 |
| | Toxuculuq sənayesi | 140,2 | 76,7 | 70,7 | 75,5 | 71,8 | 94,2 |
| | Neft məhsullarının istehsalı | 114,2 | 102,4 | 107,7 | 108,5 | 89,4 | 108,8 |
| | Kimya sənayesi | 101,9 | 114,2 | 67,2 | 126,3 | 63,0 | 134,6 |
| | Tikinti materiallarının istehsalı | 126,2 | 102,1 | 127,0 | 90,4 | 83,9 | 90,9 |
| | Metallurgiya sənayesi | 149,8 | 115,0 | 65,9 | 115,8 | 33,9 | 144,2 |
| | Geyim istehsalı | 210,2 | 92,0 | 106,1 | 81,3 | 118,6 | 110,1 |
| | Hazır metal məmulatlar | 100,1 | 85,9 | 190,3 | 143,8 | 52,4 | 93,5 |

**Qeyd: Cədvəl "Azərbaycanın sənayesi" - 2011 statistik məcmuəsinin materialları əsasında hazırlanmışdır.**

Cədvəl 13-dən göründüyü kimi, ölkə üzrə bütün sənayenin artım tempi 2008-ci ildən başlayaraq xeyli zəifləmişdir və 2010-cu ildə bu göstərici əvvəlki ilə nisbətən cəmisi 2,6 % təşkil etmişdir. Bir tərəfdən qeyd etmək lazım gəlir ki, bu azalma tendensiyası birbaşa neft hasilatının həcmi və qiyməti ilə bağlı olduğundan emal sənayesindəki 2010-cu ildə 9,4 %-lik artım bu sahənin potensialından daha səmərəli istifadəni şərtləndirir. Əvvəldə qeyd etdiyimiz kimi, bir sıra sənaye sahələrinin daha geniş həcmdə və sürətli inkişafını təmin etmək üçün XİZ təyinatlı sənaye parkların-

dan istifadəyə ölkəmizdə önəm verilməsi təqdirəlayiqdir və yaxın perspektivdə müxtəlif XİZ modifikasiyalandan sənayenin müxtəlif sahələrinin dirçəldilməsində və innovasiyalaşdırılmasmda səmərəli istifadə edilməsi imkanlan mövcuddur. Fikrimizcə, sənaye sahəsində modemizasiya tədbirlərinin gücləndirilməsi bu sektorun əsas makroiqtisadi göstəricilərinin artım tempinin təmin edilməsində mühüm rol oynaya bilər (Cədvəl 14).

**Cədvəl 14.**

**Azərbaycan Respublikasında sənaye sektoru üzrə əsas makroiqtisadi göstəricilər**

| s/s | Gö.storicilər | İ L L Ə R | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
| 01 | Əlavə dəyər, cari qiymətlərlə, mln. man. | 6190 | 10732 | 16871 | 23497 | 17490 | 21853 |
| 02 | Ümumi mənfəət, cari qiymətlərlə, mln.man | 5340 | 9763 | 15811 | 22258 | 16316 | 20367 |
| 03 | Xalis mənfəət, cari qiymətlərlə, mln.man | 4877 | 9259 | 15138 | 21451 | 15660 | 19558 |
| 04 | Muzdlu işçilərin orta illik sayı, min nəfər | 193,2 | 197,0 | 208,3 | 210,3 | 192,3 | 181,8 |
| 05 | Əsas fondlar (ilin axırına), mln.man | 19237 | 22584 | 28912 | 30703 | 35093 | 38932 |
| 06 | Əsas kapitala investisiyalar, m İn.man | 4176 | 4297 | 4591 | 4249 | 3225 | 4276 |

**Qeyd: Cədvəl DSK-nin "Azərbaycanın sənayesi" - 2011 statistik məcmuəsi əsasında hazırlanmışdır.**

Cədvəl 14-ün təhlili gösətiri ki, 2005-2010-cu illərdə ölkədə sənaye üzrə əldə edilən ümumi əlavə dəyər can qiymətlərlə 3,5 dəfə artmış və 2010-cu ildə cəmisi 21,9 mlrd, manat təşkil etmişdir. 2010-cu ilin yekununa görə isə ümumi mənfəət 2,4 mlrd, manat, xalis mənfəət 19,6 mlrd, manat, əsas fondlar 38,9 mlrd, manat və əsas kapitala yönəldilən investisiyalar cəmisi 4,3 mlrd, manat təşkil etmişdir. 2005-2010-cu illər ərzində əsas kapitala yönəldilən investisiyalann həcmində artım çox cüzidir. Təəssüf ki, bu dövr ərzində sənayedə muzdlu işçilərin orta illik sayı 2005-ci ildəki 193,2 min nəfərə qarşı 2010-cu ildə 181,8 min nəfər təşkil etmişdir. Bütövlükdə sənayenin Azərbaycan iqtisadiyyatında ümimi payı Cədvəl 15-də verilmişdir.

Cədvəl 15-dən göründüyü kimi, 2005-2010-cu illərdə ölkə iqtisadiyyatında sənayenin ümumi payı əlavə dəyər, ümumi mənfəət və xalis mənfəətdə bir neçə faiz də olsa artmışdır. Amma, təəssüf ki, əsas kapitala yönəldilən investisiyalarda sənayenin payı 2005- ci ildəki 72,4 % qarşı, 2008-2010-cu illərdə - 42-43 %-dən bir qədər çox olmuşdur. Bütün bunlar bir daha ölkənin müxtəlif sənaye sahələrinin rəqabətqabiliyyətinin gücləndirilməsi üçün daha effektivli iqtisadi mexanizmlərin tətbiqinin, müasir texnologiyaların və idarəetmə metodlannm bu sahələrə gətirilməsini şərtləndirir. Bu kimi tədbirlərin gecikməsi isə ölkə üzrə sənayedə mövcud əsas fondların aşınmasının güclənməsinə və yenilənməsinin zəifləməsinə səbəb ola bilər. Ölkədə əsas sənaye fondlannın mövcudluğu barədə məlumatlar Cədvəl 16-da verilmişdir.

Cədvəl 16-nın təhlilinə əsasən qeyd etmək lazımdır ki, 2010- cu ildə ölkənin bəzi emal sənayesinin istehsal fondlarının mövcudluğu dəyər nisbətində azalmışdır. Təəssüf ki, metallurgiya və kimya sənaye sahələri kimi rəqabətqabiliyyətli sektorların istehsal fondlarında yenilənmə proseslərinin ləngidilməsi ümumilikdə ölkə üzrə bu sahələrin əsas fondlarının azalmasına səbəb olmuşdur.

**Cədvəl 15.**
**Azərbaycan Respublikasının iqtisadiyyatında sənayenin payı (faizlə)**

| s/s | Göstəricibr | İ L L Ə R | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
| 01 | Əlavə dəyər | 49,4 | 57,2 | 59,5 | 58,5 | 49,1 | 52,5 |
| 02 | Ümumi mənfəət | 61,7 | 68,0 | 71,9 | 70,7 | 61,9 | 65,6 |
| 03 | Xalis mənfəət | 65,8 | 72,1 | 77,5 | 73,3 | 64,7 | 68,5 |
| 04 | İşçilərin orta illik sayı | 13,8 | 14,8 | 15,2 | 14,8 | 13,5 | 13,1 |
| 05 | Orta aylıq əmək haqqı ölkə üzrə orta aylıq əmək haqqı ilə müqayisədə | 159,3 | 175,6 | 160,3 | 155,2 | 138,4 | 136,3 |
| 06 | Əsas fondlar | 56,7 | 55,6 | 57,6 | 56,1 | 57,1 | 57,9 |
| 07 | Əsas kapitala investisiyalar | 72,4 | 68,9 | 61,5 | 42,7 | 41,7 | 43,2 |

**Mənbə: DSK-nin *'Azərbaycanın sənayesi" - 2011 statistik məcmuəsi.**

Düzdür, Gəncədə müasir alüminium istehsalı və metaləritmə kompleksinin istismara verilməsi üzrə işlər aparılır və gələcəkdə bu nəticələrin yaxşılacağı gözlənilir. Amma dünya təcrübəsində, əvvəllərdə qeyd etdiyimiz kimi, bir çox ölkələr, o cümlədən bir sıra postsosialist Şərqi Avropa dövlətləri və postsovet Baltikyanı respublikalan iri sənaye sahələrin reabilitasiyası və yenidənqurulmasma XİZ təyinatlı sənaye parklanndan və sənaye ixrac-istehsal

zonalarından uğurla istifadə etmişlər. Bu kimi nümunələr belə məhsuldar təcrübələrin Azərbaycannm müxtəlif sənaye sahələrində də tətbiqi imkanlan barədə düşünməyə vadar edir. Azərbaycanda əsas istehsal sənaye fondlannın onlann ümumi dəyərə nisbətən aşınması göstəriciləri Cədvəl 17-də öz əksini tapmışdır. Ölkədə sənaye üzrə əsas istehsal sənaye fondlannın aşınması 2010-cu ildə 34 % təşkil etmişdir və bu göstəricilər, o cümlədən mədənçıxarma sənayesi üzrə 29,7 %, emal sənayesi üzrə isə 56,9 % təşkil etmişdir. Ölkədə ciddi istehlak tələbləri kateqoriyasına aid olan geyim istehsalı sahəsində əsas fondlann aşınması 82,1 % səviyyəsindədir və təsadüfi deyildir ki, bu kateqoriyadan olan zəruri geyim vasitələrinin əksəri)^əti xarcdən daxil olur. Metal filizlərin hasilatı üzrə isə bu gösətrici 91,6 %-dir. Məhz bu sənaye sahəsində qonşu Qazaxıstanda əsas fondlann yenilənməsi, dağ-mədən müəssisələrinin maddi-texniki baxzasmın gücləndirilməsi, bu sahələrə müasir tex- nologiyalann gətirilməsi məqsədilə XİZ funksiyalı sənaye klaste- rinin tətbiqinə üstünlük verilmişdir. Azərbaycanda əsas istehsal sənaye fondlarının yenilənmə proseslərinin ləngliyi sənayenin müxtəlif sahələrində onlann ümumi dəyərinə nisbətən aşınması yüksək faiz təşkil edir (Cədvəl 17).

**Cədvəl 16.**

**Azərbaycan Respublikasında əsas sənaye istehsal fondlarının mövcudluğu**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| **Sənaye, cəmi** | **18225** | **21029** | **28467** | **30660** | **34789** | **37248** |
| o **cümlədən:** | | | | | | |
| **Mədənçıxanna sənayesi** | **13098** | **15652** | **22466** | **24154** | **25764** | **27854** |
| **Emal sənayesi** | **3128** | **3244** | **3498** | **3778** | **4141** | **4869** |
| o **cümlədən;** | | | | | | |
| **Qida məh.sullan istehsalı** | **371,7** | **441,0** | **499,4** | **589,0** | **607,9** | **779,9** |
| **Toxuculuq sənayesi** | **170,1** | **191,5** | **229,0** | **252,8** | **286,3** | **332,1** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **İçki istehsalı** | **164,4** | **214,3** | **191,2** | **215,4** | **238,3** | **343,1** |
| **Geyim istehsalı** | **33,7** | **34,0** | **36,9** | **32,7** | **32,2** | **65,5** |
| **Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı** | **20,9** | **21,4** | **28,9** | **27.2** | **31,7** | **27,0** |
| **Kimya sənayesi** | **486,7** | **493,6** | **506,9** | **489,3** | **550,9** | **473,4** |
| **• Tikinti materiallarının istehsalı** | **181,6** | **209,1** | **257,4** | **293,4** | **317,7** | **494,2** |
| **Metallurgiya sənayesi** | **240,3** | **230,6** | **277,1** | **279,3** | **297,2** | **280,2** |
| **Kompüter və digər elektron avadanlıqların istehsalı** | **93,4** | **92,0** | **80,5** | **116,3** | **168,6** | **258,1** |

**Qeyd: Cədvəl ARDSK-nin "Azərbaycanın sənayesi" - 2011 statistik məcmuəsi əsasında hazırlanmışdır.**

Cədvəl 17-nin təhlilinə əsaslansaq, Azərbaycanda bütövlükdə əsas istehsal sənaye fondlarının onların ümumi dəyərinə nisbətən aşınması emal sənayesi üzrə 2010-cu ildə 56,9 % təşkil etmişdir və bu rəqəm 2005-ci ildə 55,7 % olmuşdur. Şübhəsiz, ölkəmizdə mədənçıxarma sənayesinin əsas istehsal-sənaye fondlannın açınması faizinin həmin dövrdə azalması Azərbaycanda apanlan uğurlu Neft Strategiyasının nəticəsi kimi qiymətləndirilməlidir. Yaxın perspektivdə prioritet strateji məqsədlər sırasında mədənçıxarma sənayesi ilə yanaşı, emal sənayesinin əsas sənaye istehsal fondlarının yenilənməsinin sürətləndirilməsinə zərurət vardır (Cədvəl 18).

Cədvəl 18-ə əsasən qeyd etmək olar ki, əgər 2005-2007-ci illərdə ölkənin mədənçıxarma sənayesinin əsas sənaye istehsal fondları illər üzrə müvafiq olaraq, 20,4 %, 15,5 % və 15,2 % təşkil etmişdirsə, bu dövr ərzində emal sənayesində həmin gösətricilər müvafiq olaraq, cəmisi 3,4 %, 7,2 % və 7,4 % təşkil etmişdir. 2010-cu ildə isə bu göstəricilər mədənçıxarma sənayesi üzrə 7,9 % və emal sənayesi üzrə cəmisi 5,5 % olmuşdur. Göründüyü kimi, emal sənayesində əsas sənaye-istehsal fondlarının yenilənməsi prosesləri yetərincə deyildir, bu isə rəqabətqabiliyyətli sənaye-istehsal sahələrinin yaradılmasını gecikdirir, ixrac təyinatlı sənaye məhsullannm çeşidinin əhəmiyyətli səviyyədə artınimasına

imkan vermir və s. Bu amilləri nəzərə alaraq, biz əvvəllərdə qeyd etdiyimiz kimi, ixrac-istehsal təyinatlı sənaye parklannın və XIZ-lərin Azərbaycanın iqtisadi sistemində yer alması perspektivlərini bir daha qeyd etməklə, bu proseslərin yaxın dövrlərdə praktiki olaraq, reallaşdınimasını mümkün hesab edirik.

**Cədvəl 17.**

**Azərbaycan Respublikasında əsas istehsal - sənaye fondlarının onların**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| **Sənaye, c.əmi** | **39,7** | **37,5** | **34,7** | **34,3** | **32,9** | **34,0** |
| **Mədənçıxanna sənayesi** | **34,2** | **33,1** | **31,0** | **30,7** | **30,2** | **29,7** |
| o **cümlədən;** | | | | | | |
| **Xam neft və təbii qaz hasi-latı** | **33,3** | **32,3** | **30,2** | **29,9** | **29,6** | **29,0** |
| **Metal filizlərin hasilatı** | **80,6** | **80,8** | **87,4** | **87,0** | **68,8** | **91,6** |
| **Emal sənayesi** | **55,7** | **54,4** | **53,3** | **52,3** | **51,4** | **56,9** |
| o **cümlədən;** | | | | | | |
| **Qida məhsulları istehsalı** | **44,1** | **41,7** | **41,8** | **36,4** | **38,9** | **66,5** |
| **Toxuculuq sənayesi** | **56,3** | **54,3** | **48,6** | **46,5** | **47,2** | **49,3** |
| **Geyim istehsalı** | **49,2** | **58,1** | **60,8** | **51,3** | **49,9** | **82,1** |
| **Neft məhsullarının istehsalı** | **56,4** | **59,4** | **58,6** | **56,2** | **55,8** | **57,4** |
| **Kimya sənayesi** | **54,7** | **54,5** | **51,2** | **54,5** | **52,5** | **49,9** |
| **Metallurgiya sənayesi** | **68,4** | **66,9** | **59,9** | **64,2** | **65,8** | **65,0** |

**Qeyd: Cədvəl ARDSK-nin materialları əsasında hazırlanmışdır.**

Cədvəl 18.

**Azərbaycan Respublikasında əsas sənaye-istehsal fondlarının onların**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| Sənaye, cəmi | 15,5 | 13,2 | 13,8 | 9,3 | 10,4 | 7,9 |
| Mədənçıxanna sənayesi | 20,4 | 15,5 | 15,2 | 9,7 | 6,5 | 7,9 |
| Emal sənayesi | 3,4 | 7,2 | 7,4 | 5,5 | 6,6 | 5,5 |
| o cümlədən: | | | | | | |
| Yeyinti sənayesi | 2,4 | 18,7 | 5,1 | 4,4 | 3,4 | 2,6 |
| Tekstil sənayesi | 1,5 | 8,2 | 21,1 | 8,2 | 5,9 | 0,5 |
| Geyim istehsalı | 2,1 | 0,6 | 0,7 | 6,4 | 0,6 | 0,0 |
| Neft məhsullanmn istehsalı | 7,8 | 5,8 | 5,4 | 8,2 | 8,0 | 5,6 |
| Kimya sənayesi | 1,6 | 1,0 | 2,0 | 1,7 | 1,8 | 0,8 |
| Metallurgiya sənayesi | 0,5 | 4,3 | 19,4 | 0,8 | 0,4 | 0,4 |

**Qeyd: Cədvəl ARDSK-nin materialları əsasında hazırlanmışdır.**

Qeyd etmək lazımdır ki, Azərbaycan rəqabətqabiliyyətli sənaye sahələri ilə yanaşı güclü potensiala malik kənd təsərrüfatı sektoruna malikdir. Ölkəmizdə tarixən əkinçiliyə, torpağa bağlı olmuşlar. Azərbaycan bir çox kənd təsərrüfatı məhsullanmn istehsalına görə hələ keçmiş SSRİ-də lider mövqeyə yüksəlmişdi. Xüsusilə, üzümçülük, pambıqçılıq, meyvə və tərəvəz, bostan bitkiləri sahəsində ölkəmiz əhəmiyyətli nəticələr əldə edə bilmişdir. Lakin müasir dövrdə bu böyük potensiala malik iqtisadiyyat sahəsini yenidən qurmaq zərurəti yaranmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında 2003-cü ilin sonlann- dan başlayaraq, kənd təsərrüfatı sahələrinin əsaslı inkişafı üçün mühüm dövlət qərarlan və proqramlan işlənib-hazırlanmış, həyata keçirilməkdədir [s. 151-174, 3]. 2003-2010-cu illərdə Azərbaycan

Respublikasında kənd təsərrüfatı üzrə ümumi məhsulun dinamikası Cədvəl 19-da verilmişdir.

**Cədvəl 19.**

**Azərbaycan Respublikasında kənd təsərrüfatı üzrə ümumi məhsulun dinamikası**

(mln. manatla)

| Gö.storicibr | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|
| Bütün loson'üfat kateqoriyaları | 1386 | 1496,3 | 1752,1 | 1969,7 | 2765 | 3308,4 | 3805,1 | 3877,7 |
| o cümləcion: bitkiçilik | 807,5 | 875,5 | 988,2 | 1124.3 | 1726,4 | 2085 | 2106 | 1999,2 |
| Heyx'andarlıq | 578,5 | 620,8 | 743,9 | 845,4 | 1038,6 | 1223,4 | 1699,1 | 1878,5 |
| Kənd təsərrüfat müəssisələri | 41,6 | 63,2 | 68,9 | 63,6 | 119,6 | 186 | 229,3 | 192,6 |
| o cümlədən bitkiçilik | 10,3 | 13 | 14 | 15,9 | 23,2 | 41,1 | 70 | 60 |
| Heyvandarlıq | 31,3 | 50,2 | 54,9 | 47,7 | 96,4 | 144,9 | 159,3 | 132,6 |
| Fərdi sahibkarlar, ailə-kəndli və ev təsərrüfatlan | 1324,9 | 1413,4 | 1663,2 | 1906,1 | 2645,4 | 3122,4 | 3575,8 | 3689,1 |
| o cümlədən: bitkiçilik | 796,7 | 861,8 | 974,2 | 1108,4 | 1703,2 | 2043,9 | 2036 | 1939,2 |
| Heyv'andarlıq | 528,2 | 551,6 | 689 | 797,7 | 942,2 | 1078,5 | 1539,8 | 1745,9 |

Cədvəl 19-un təhlili gösətrir ki, ümumi məhsul artımı göstərilən dövr ərzində 2,8 dəfə təşkil etmişdir. Bitkiçilik üzrə artım 2,5 dəfə və heyvandarlıq üzrə isə ümumi məhsulun artımı 3,2 dəfə olmuşdur. Həmin dövr ərzində fərdi sahibkarlar, ailə, kəndli və ev

təsərrüfatlarında çalışanlar öz məşğulluq problemlərini həll etməklə yanaşı, ölkəmizin iqtisadi inkişafına əhəmiyyətli töhfələr verə bilmiş və təkcə 2010-cu il ərzində 3,7 mlrd, manat dəyərində məhsul istehsalına nail olunmuşdur [SJ. Bu təsərrüfatlarda 2003- 2010-cu illərdə bitkiçilik məhsullannm istehsalı üzrə 2,4 dəfə, heyvandarlıq üzrə isə 3,3 dəfə artım qeydə alınmışdır. Amma qeyd etmək lazım gəlir ki, bitkiçilik, xüsusilə, dənli bitkələr üzrə 2010- cu ildə azalma qeydə alınmışdır. Bunu nəzərə alaraq, biz 1985-ci ildən başlayarq, 2010-cu ilədək olan dövr üçün Azərbaycanda dənli və dənli bitkiçilik məhsulların istehsalı məhsullan barədə göstəricilərə diqqət yetirməyi məqsədəduyğun hesab etmişik **(Cədvəl 20).**

Cədvəl 20-dən göründüyü kimi, Azərbaycanda bütün təsərrüfat kateqoriyaları üzrə dənli və dənli bitkiçilik məhsullarının məhsuldarlığı 1985-1990-cı illərin səviyyəsindən son illərdə belə ciddi fərqlənməmişdir. İstehsalın səviyyəsi isə 2010-cu ildə 1985-ci ilə nisbətən 1,5 dəfə, 1990-cı ilə nisbətən 1,4 dəfə, 2000-ci ilə nisbətən 1,3 dəfə artmışdır. Ölkədə bütün təsərrüfat kateqoriyalan üzrə əkin sahələri 2010-cu ildə 1985-ci ilə nisbətən 1,6 dəfə, 1990-cı ilə nisbətən 1,7 dəfə, 2000-ci ilə nisbətən isə 1,3 dəfə çox olmuşdur. Nisbətən uzun bir dövrü əhatə edən nəticələrə baxanda, bu qənaətə gəlmək olar ki, ölkənin ərzaq və qida təhlükəsizliyində mühüm əhəmiyyət kəsb edən dənli və dənli bitkiçilik məhsullan- nın daha məhsuldar sortlar, texnologiyalar və müasir metodlar əsasında istehsalının və idarəedilməsinin təşkilinə zərurət vardır. Bu baxımdan ölkənin Aran zonasında bu sahədə yeni fərqli iqtisadi mexanizmlərin tətbiqi ilə, məsələn, XİZ-lərin təşkili və fəaliyyəti vasitəsi ilə iqtisadi fəallığı xeyli artınnaq olardı. Xüsusilə, mühüm kənd təsərrüfatı məhsulu olan taxıl və onun istehsalı ilə bağlı məsələlərin yeni texnologiyalar səviyyəsində baxılmasına ciddi zərurət vardır. Cədvəl 21 -də Azərbaycan Respublikasında taxıl əkininin sahəsi, ümumi yığım və məhsuldarlığının dinamikası verilmişdir.

Cədvəl 21-nin təhlilinə baxsaq, görərik ki, 2010-cu ildə ölkədə taxıl əkinin sahəsi cəmisi 968 min hektar olmuşdur. Bu göstərici

1913-cü ildə 832,9 min ha, 1950-ci ildə 737 min ha, 1970-ci ildə 621,5 min ha, 1990-cı ildə - 583,4 min ha, 2000-ci ildə - 648,2 min ha təşkil etmişdir. Göstərilən dövr ərzində Azərbaycanda bu mühüm məhsul üzrə ümumi yığımın artımı cəmisi 4,1 dəfə, məhsuldarlıq isə 3,6 dəfə olmuşdur. 2010-cu ildə isə məhsuldarlıq son illərdə ən zəif göstərici kimi yadda qalmışdır. Düzdür, kənd təsərrüfatı məhsullarının məhsuldarlığı bir çox amillərlə yanaşı, təbii amildən də asılıdır, amma fıkrimizcə, bu sahədə müasir texnologi- yalann ləng tətbiqi, dünya təcrübəsində özünü doğrultmuş iqtisadi mexanizmlərdən zəif istifadə, güclü maddi-texniki bazaya malik nisbətən iri fermer təsərrüfatlannm və aqrokomplekslərin azlığı, və, nəhayət, bu sahədə yeni iqtisadi vasitələrdən praktiki proseslərdə istifadənin zəifliyi az əhəmiyyət kəsb etmir. Əvvəldə qeyd etdiyimiz kimi, kənd təsərrüfatı məhsullannm müasir texnologiyalar əsasında istehsalının təşkili təyinatlı XİZ modellərindən birinin ölkəmizin praktiki iqtisadi proseslərində tətbiqinə baxılması, bu istiqamətdə əhəmiyyətli fəallığa səbəb olardı.

Məlum olduğu kimi, keçmiş SSRİ dövründə bu superdövlətin uçsuz-bucaqsız ərazilərində və regionlannda Azərbaycanda istehsal olunan kənd təsərrüfatı və aqroməhsullar üçün geniş satış bazarları mövcud olmuşdur. Məsələ burasındadır ki, bu bazarlarda son 20 il ərzində müxtəlif ölkələrdən kənd təsərrüfatı və aqroməh- sullannm gətirilməsi coğrafiyası genişlənsə də, ənənəvi məhsul növləri kimi Azərbaycan markalı məhsullara bu gün də kifayət qədər tələbat qalmaqdadır. Bu baxımdan müasir MDB dövlətləri ilə inteqrasiya proseslərində kənd təsərrüfatı və aqroməhsullann potensial bazarlannm mövcudluğu və bu imkanlardan istifadə edilməsi məsələləri diqqətdən yayınmamalıdır.

Cədvəl 20.

**Azərbaycan Respublikasında dənli və dənli bitkiçilik məhsullarının istehsalı və məhsuldarlığı**

| İllər | Bütün təsərrüfat kateqoriyaları | | | Kənd təsərrüfatı müəssisələri və sair təşkilatlar | | | Fərdi sahibkarlıq, ailə-kəndli və ev təsərrüfatları | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | istehsal, min ton | əkin sahəsi min ha | məhsuldarlıq, sent/ha | İstehsal, min ton | əkin sahəsi min ha | məhsuldarlıq, sent/ha | istehsal, min ton | əkin sahəsi min ha | məhsuldarlıq, sent/ha |
| 1985 | 1297,9 | 494 | 26,2 | 1281,6 | 488,9 | 26,7 | 16,3 | 5,1 | 31,8 |
| 1990 | 1413,6 | 583,4 | 24,2 | 1996,3 | 578,0 | 20,6 | 17,3 | 5,4 | 32,0 |
| 1995 | 921,4 | 609,4 | 15,1 | 888,3 | 589,0 | 13,0 | 33,1 | 19,9 | 16,6 |
| 1996 | 1018,3 | 639,4 | 16,3 | 864,1 | 555,1 | 12,9 | 154,2 | 84,3 | 18,6 |
| 1997 | 1127,1 | 659,6 | 17,4 | 760,2 | 472,4 | 6,0 | 366,9 | 182,2 | 19,8 |
| 1998 | 950,3 | 595,0 | 16,2 | 324,1 | 271,3 | 6,7 | 626,2 | 323,7 | 19,4 |
| 1999 | 1098,3 | 519,2 | 21,2 | 176,4 | 99,3 | 8,03 | 921,9 | 419,9 | 22,0 |
| 2000 | 1540,2 | 648,2 | 23,8 | 78,2 | 49,3 | 6,8 | 1462 | 598,9 | 24,4 |
| 2001 | 2016,1 | 760,7 | 26,5 | 71,2 | 39,3 | 12,9 | 1944,9 | 721,2 | 27,0 |
| 2002 | 2195,9 | 821,7 | 26,7 | 66,1 | 33,2 | 12,9 | 2199,8 | 788,3 | 27,0 |
| 2003 | 2057,8 | 776,3 | 26,6 | 50,2 | 26,7 | 15,2 | 2007,6 | 749,6 | 26,9 |
| 2004 | 2158,2 | 814,9 | 26,5 | 55,6 | 28,8 | 14,6 | 2102,6 | 786,1 | 26,7 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2005 | 2126,7 | 802.3 | 26.5 | 58,6 | 30,2 | 16,1 | 2068,1 | 772,1 | 26,8 |
| 2006 | 2078.9 | 784,7 | 26,5 | 49.5 | 26,3 | 14.5 | 2029,4 | 758,4 | 26.2 |
| 2007 | 2004.4 | 739.6 | 27,1 | 53,3 | 25.2 | 14.5 | 1951,1 | 714.4 | 27,3 |
| 2008 | 2498.3 | 897.0 | 27,9 | 86,5 | 35 | 14.3 | 2411,8 | 862 | 28.0 |
| 2009 | 2988,3 | 1125.5 | 26,6 | 202.3 | 90,3 | 17.7 | 2786,0 | 1035,2 | 26,9 |
| 2010 | 2000,5 | 968 | 20,7 | 122,3 | 71,1 | 11.5 | 1878.2 | 896,9 | 21,0 |

**Qeyd; Cədvəl ARDSK "Azərbaycanın kənd təsərrüfatı" 2011 statistik məcmuəsinin əsasında hazırlanmışdır**

**Cədvəl 21.**

**Azərbaycan Respublikasında taxıl əkin sahəsi, ümumi yığım və məhsuldarlığın dinamikası**

| İllər | əkin sahəsi in ha | ümumi yığım, min ton | məhsuldarlıq sent/ ha | İllər | əkin sahəsi min ha | ümumi yığım, min ton | məhsuldarlıq sent/ ha |
|---|---|---|---|---|---|---|---|
| 1913 | 832,9 | 485,9 | 5,8 | 1995 | 609,4 | 921,4 | 15,1 |
| 1928 | 869,4 | 829,9 | 9,5 | 2000 | 648,2 | 1540,2 | 23,8 |
| 1940 | 797 | 567,2 | 7,1 | 2005 | 802,3 | 2126,7 | 26,5 |
| 1950 | 737 | 522,9 | 7,1 | 2006 | 784,7 | 2078,9 | 26,5 |
| 1960 | 699,2 | 725,2 | 10,4 | 2007 | 739,6 | 2004,4 | 27,1 |
| 1970 | 621,5 | 723,4 | 11,6 | 2008 | 897 | 2498,3 | 27,9 |
| 1980 | 490,6 | 1136,5 | 23,2 | 2009 | 1125,5 | 2988,3 | 26,6 |
| 1985 | 494 | 1297,9 | 26,2 | 2010 | 968 | 2000,5 | 20,7 |
| 1990 | 583,4 | 1413,6 | 24,2 | 2011 | | | |

**Qeyd: Cədvəl ARDSK "Azərbaycanın kənd təsərrüfatı" 2011 statistik məcmuəsinin əsasında hazırlanmışdır**

Göstərilən istiqamətdə inteqrasiya proseslərərinin fəallaşdınlmasını şərtləndirən əsas amillərə toxunan professor S.V.Salahov qeyd edir ki, təkcə Rusiyada ərzaq bazarının həcmi ildə 60 mlrd. ABŞ dollan dəyərində qiymətləndirilir. Şübhəsiz, qida rasionlannda tərəvəz və meyvələrin xüsusi çəkisi az deyildir və getdikcə bu istehlak səviyyəsinin artacağı gözlənilir. Bu baxımdan aqrosənaye sahələrinin yenidənqurulması və modemizasiyası yerli məhsulların rəqabət qabiliyyətinin qaldırılmasına imkan verər. Digər bir amil kimi professor kənd təsərrüfatı istehsal sahəsində əmək məhsuldarlığının artınlmasında və bu sahədə maşın və texnikanın rolunu yüksəldilməsində görür, başqa sözlə, bu sahənin texniki cəhətədn yenidənqurulması investisiya siyasətinin mühüm prioritetlərindən biri olmalıdır. Hesablamala görə, MDB ölkələrində kənd təsərrüfatı sahəsinin əsas fondlannm yenilənməsinə 30 mlrd. ABŞ dollan səviyyəsində vəsait tələb olunur [s. 111-112, 118). Fikrimizcə, bu sahədə olan problemlərin həlli məqsədilə iqtisadi fəallığın və investisiya mühitinin yüksəldilməsi və yaxşılaşdınıması proseslərində XİZ-lərin bir qrup modellərindən istifadə edilməsi məqsədəuyğun görünür. Bi ilk növbədə onunla bağlıdır ki, XİZ-lər vasitəsilə hər hansı kənd təsərrüfatı regionuna və aqrosahəyə maşın və texnikanın, qabaqcıl idarəetmə metodlanmn, müasir texnologiyalann gətirilməsi proseslərini qısa müddət ərzində intensivləşdinnək mümkündür.

Qeyd etmək lazımdır ki, Azərbaycanda milli iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsinin problemlərinə baxarkən, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiya məsələləri xüsusilə transmilli kompaniyalarla əməkdaşlıq imkanlan ciddi nəzərə alınmalıdır. Belə ki, qloballaşma şəraitində ölkəmizin iqtisadı inkişaf prioritetlərinin reallaşdınlması və strateji iqtisadiyyat sahələrinin rəqabətqabiliyyətinin dünya iqtisadi proseslərinin təsirlərinə immunitetliyinin yetərincə olmasının təmin edilməsi ciddi problem kimi qalmaqdadır. XİZ-lərin Azərbaycanda tətbiqinin tezləşdirilməsini vacib hesab etməyən opponentlərin ortaya qoyduğu iddialar sırasında ölkədə iqtisadi sistemin əhəmiyyətli dərəcədə liberal olması, bununla bərabər qısa müddət ərzində bir çox transmilli

kompaniyalann və şirkətlərin (əslində iri investorlann) ölkəmizə həvəslə gəlməsi və investisiyalar yatırması ciddi vurğulanır. Əlbəttə, bu iddialar bu və ya digər formada Azərbaycanın iqtisadi inkişaf və beynəlxalq iqtisadi əməkdaşlıq prioritetlərində yer almışdır. Amma etiraf etmək lazımdır ki, bu iddialan doğuran əsas səbəblər ölkənin hasilat sənayesində xarici investorlann fəallığı ilə birbaşa bağlıdır. Xüsusilə, Xəzər dənizinin dərinliklərindən çıxan- lan neft və qaz resurslannm hasilatı və nəqlinə yatırılan investisi- yalann həcmi artıq 50-60 mlrd. ABŞ dollanndan çox təşkil edir. Ümumiyyətlə, ölkəyə yatarılan xarici investisiyalann 2/3 hissəsindən çoxu hasilat sahələri ilə birbaşa bağlıdır. Bütövlükdə, transmilli kompaniyalar dünya iqtisadiyyatın inkişafında mühüm rol oynayırlar. Müasir dövrdə dünyada transmilli kompaniyalar tərəfindən məhsul istehsalının həcmi 3,1 trln, ABŞ dolları səviyyəsindədir və bu kompaniyalann tabeliyində olan şirkət və istehsal sahələrində çalışanlann sayı 76 mln. nəfər səviyyəsindədir. Azərbaycanda transmilli kompaniyaların ciddi fəallığı 1994-cü ildə real- laşdınlan və icrasına başlanılan "Əsrin kontraktı" ilə bağlı olsa da, sonrakı dövrlərdə bu cür kompaniyaların fəallığı hiss edilməkdədir. Transmilli kompaniyaların dünya iqtisadiyyatında rolunu və ölkəmizlə bağlı təsiri məsələlərini araşdıran azərbaycanlı alimlərin fikrincə, belə kompaniyalann yaranmasına və genişlənməsinə təsir edən amillərin sırasına dünyada ayrı-ayn dövlətlərin malik olduqları təbii sərvətlər fərqi, mövcud maliyyə vəsaitləri və potensialları, dövlətlərdə mövcud yüksək texniki və texnologiyaların səviyyələri, ölkələrdə fəaliyyət göstərən yüksək ixtisaslı mütəxəssislərin olması, ayn-ayrı ölkələrin dünya ölkələri arasında mövcud olan iqtisadi və siyasi potensialları və onlam təsir dairələri, dünya ölkələri arasında beynəlxalq iqtisadi və siyasi təşkilatların rolu və təsiri, beynəlxalq nəqliyyat vasitələri və onlann potensial imkanlan, və, nəhayət, müxtəlif ölkələrdə mövcud olan transmilli korporasiyaların təşkilatı və xüsusi imkanlan aiddirlər [47]. Bizim məqsədimiz transmilli kompaniyaların spesifik xüsusiyyətləri və onlann fəaliyyət dairəsinə daxil olan xarakterlərin öyrənilməsi deyildir. Təhlillər göstərir ki, transmilli kompaniyaların dünyanın müxtəlif öl

kələrinə daşıdığı, yaydığı və genişləndirdiyi çoxsaylı qloballaşma, inteqrasiya, kooperasiya elementlərinin əksəriyyətini XİZ-lərin müxtəlif modifikasiyalarının məqsəd və vəzifələrinə, onlann fəaliyyət prioritetlərinə aid etmək mümkündür. Bu baxımdan fikrimizcə, XİZ institutunun Azərbaycanda bir neçə prioritet istiqamətdə tətbiqi problemlərinin həll edilməsi, xüsusilə, texniki-iqtisadi təyinatlı və müasir texnologiyalar əsasında istehsal sahələrinin yaradılmasının təşkili proseslərinə belə zonaların vasitəsilə şərait yaradılması ölkəmizdə yüksək məhsuldarlıqlı, innovatik funksiyalan özündə birləşdirən rəqabət qabiliyyətli məhsullar istehsal edən müəssisələr şəbəkəsinin qurulmasına imkan verərdi. Bu isə dünyada baş verən iqtisadi tənəzzüllərdən və böhranlardan, ölkə iqtisadiyyatının ayn-ayn sahələrinin qorunması və onlann rəqabətqabi- liyyətinin artmlması baxımından mühüm əhəmiyyət kəsb edir. Məsələn, Qazaxıstanda əvvəldə qeyd etdiyimiz kimi, bir sıra qeyri-neft hasilat sahələrində və emal təyinatlı iqtisadiyyat-sənaye sektorlannda XİZ-lərin təşkili özünü praktikada doğrultmuş və son illərdə baş verən dünya iqtisadi və maliyyə böhranının neqativ nəticələrinin minimuma endirilməsinə zəmin yaratmışdır. Amma Azərbaycanda bir müddət əvvəl, Sumqayıt sənaye mərkəzində modemizasiya edilmiş alüminium istehsalı sahəsində bu sahənin emal müəssisələrinin təşkil edilməməsi, beynəlxalq bazarda satış imkanlannm diversifikasiyalaşdınlmaması, bu sahənin istehsal və inkişafı proseslərinə alternativ iqtisadi mexanizmlərin cəlb edilməməsi, ölkə üçün çox mühüm strateji əhəmiyyət kəsb edən real iqtisadiyyat sahəsinin bir neçə ildir ki, iflic vəziyyətə düşməsinə, dayanmasına və min nəfərdən çox insanın uzun müddətli ödənişsiz məzuniyyətə göndərilməsinə səbəb

## 4.3. Azərbaycanın dünya iqtisadiyyatı məkanına inteqrasiyasında XİZ əlavə stimul kimi

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın ən mühüm strateji vəzifələrdən biri dünya iqtisadiyyatına uğurlu inteqrasiyasının

təmin edilməsidir. Bu istiqamətdə son 10-15 il ərzində tarixi işlər görülmüşdür. Azərbaycan artıq özünün milli maraqlarına cavab verən iqtisadi inkişaf modelinə malikdir və bu modelin daha da təkmilləşdiirilməsi üçün ehtiyatlar mövcuddur. Regionun ən güclü iqtisadiyyatına malik olan ölkəmiz regional və beynəlxalq layihələrin fəal iştirakçısıdır və bir çox hallarda isə təşəbbüsçüsüdür. Azərbaycan Avropanın enerji təhlükəsizliyi üzrə əsas tərəfdaşları sırasında yerinin möhkəmlətməkdədir və s.

Dünya təcrübəsi göstərir ki, hər hansı bir ölkənin beynəlxalq iqtisadi inteqrasiya məkanlannda davamlı və uğurlu yer tutması ölkə regionlarının sürətli inkişafından, rəqabət qabiliyyətli iqtisadiyyat sahələrinin yaradılmasından və sabit fəaliyyət göstərən bazar iqtisadiyyatı subyektlərindən bilavasitə asılıdır. XXI əsrin əvvəlindən başlayaraq, dünya ölkələri və regionlar arasında iqtisadi əməkdaşlıq və, xüsusilə, konkret regionların davamlı iqtisadi inkişafının təmin edilməsi üzrə fundamental araşdırmalar, effektivli modifıkasiyalann işlənib-hazırlanması və həyata keçirilməsi problemlərinə, bu sahədə olan perspektivlərə milli subyektlər və dövlətlər tərəfindən alim və mütəxəssislər də daxil olmaqla, diqqət artmaqdadır. Azərbaycanda da regionlann sürətli iqtisadi inkişafı, burada mövcud olan sosial-iqtisadi problemlərin kompleks həlli istiqamətində dövlətin sabit iqtisadi siyasəti və prioritetləri mövcuddur. Obyektivlik baxımından qeyd etmək lazımdır ki, Azərbaycanda bu istiqamətdə bir çox tədbirlərin praktikada reallaşdınlma- sı uğurla öz əksini tapmaqdadır. Amma regional iqtisadi prioritetlər mürəkkəb və kompleks amilləri özündə birləşdirdiyindən bu sahəyə daha geniş prizmadan diqqət göstərilməsinə və onlann iqtisadi inkişafının sürətlənməsinə daha effektivli mexanizmlərin tətbiqinə zərurət qalmaqdadır. Bu istiqamətdə mövcud problemlərə və perspektivlərə diqqət yetirən bir qrup rusiyalı alimlər regionların təbii resurs potensialı, demoqrafik əmək resurslan, iqtisadiyyat və onun strukturunun yenidənqurulması prizmasından əlverişli iqtisadi mühitin və iqtisadi əlaqələrin təşkilinə ciddi önəm vernıə- yi prioritet vəzifələr sırasına aid etmişlər 11361. Regional iqtisadiyyatın inkişafı və burada məhsuldar əmək qüvvələrinin tarazlığı

nın qorunması, təbii-ekoloji amillər nəzərə alınmaqla, regionun iqtisadi prioritetlərinin müəyyənləşdirilməsi, sosial-iqtisadi proseslərin kompleks həllinin təşkili, regionların iqtisadi inkişafı üzrə diqqətdə saxlanılması zəruri olan mühüm məsələlərdən hesab olunur. Bu baxımdan regionların iqtisadi inkişafının modelləşdirilməsi, burada müxtəlif təyinatlı təsərrüfat sahələrinin yerləşdirilməsi, xidmətlərin göstərilməsi, regionun spesifik sosial-iqtisadi inkişaf tendensiyalarına uyğun infrastruktur şəbəkəsinin yaradılması proseslərində XİZ-lərin rolundan praktiki istifadə diqqəti eəlb edir. Region iqtisadiyyatının çoxşaxələndirilməsi və onun digər iqtisadi məkanlara inteqrasiyasının sürətli təşkili də XİZ-lər vasitəsi ilə daha tez başa gəlir. Regionlarda ən mütərəqqi iqtisadi fəaliyyət sahələrinin qurulması, yeni ideya və layihələrin gerçəkləşdirilməsi, cəmiyyətin iqtisadi, siyasi, mədəni və psixoloji baxımdan fəallığının fərqli və müxtəlif fünksiyalı fonnalarda artırılması məqsədilə XİZ modifıkasiyalan praktikada tez adaptasiya olunan iqtisadi mexanizm kimi seçilirlər. Başqa bir mühüm amil - ölkələrin sərhədlərində yerləşən regionlarla bağlıdır. Dünya təcrübəsində sərhədyanı regionların və ərazilərin iqtisadi inkişaf fəallığının yüksəldilməsində XİZ təyinatlı iqtisadi zonalann təsir effektivliyi dairəsinin genişliyi praktiki nümunələrlə dünya ictimaiyətinə məlumdur və iqtisadi ədəbiyyatlarda bu barədə konkret misallar xeyli yer almışdır. Amma hələ də dünyanın bir çox ölkələri regionlann iqtisadi inkişaf proseslərində, o cümlədən, sərhədyanı zonalann və ərazilərin dirçəldilməsində XİZ institutlanndan istifadədə o qədər də fəal deyillər. Bunlarla belə, müasir dövrdə regional iqtisadi proseslərin dərinləşdiyi bir şəraitdə bu istiqamətlər üzrə lokal XİZ-lə- rə tələbat azalsa belə, yaxın perspektivlərdə daha iri miqyaslı regional XİZ modifikasiyalanna marağın artacağı gözlənilir.

Dünya iqtisadiyyatına inteqrasiya imkanlarının artınimasında əvvəldə qeyd edildiyi kimi, rəqabət qabiliyyətli bazar iqtisadiyyatı strukturunun qurulması, sənaye və emal müəssisələrinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında bazar iqtisadiyyatı strukturlarının fəaliyyəti barədə göstəricilər Cədvəl 33-də verilmişdir.

**Cədvəl 22.**

**Azərbaycan Respublikasında bazar iqtisadiyyatı strukturlarının fəaliyyəti**

| s/s | Göstəricibr | Kiçik müəssisələr | Xarici və müştərək müəssisələr | Birjalar |
|---|---|---|---|---|
| 0! | **Fəaliyyət göstərən müəssisələrin sayı, vahid** | | | |
| | **2000** | **24254** | **551** | **3** |
| | **2005** | **11982** | **796** | **5** |
| | **2010** | **14532** | **1091** | **6** |
| 02 | **İşləyənlərin siyahı sayı, nəfər** | | | |
| | **2000** | **99778** | **22145** | **34** |
| | **2005** | **73447** | **58413** | **68** |
| | **2010** | **93205** | **55936** | **48** |
| 03 | **Məhsulun (işlərin, xidmətlərin) həcmi, mln. manat** | | | |
| | **2000** | **434,4** | **1239,8** | **198,8** |
| | **2005** | **657,5** | **7081,4** | **1461,8** |
| | **2010** | **1776,9** | **24011,9** | **2941,0** |
| 04 | **Bir bazar iqtisadiyyatı strukturuna düşən məhsulun (işlərin, xidmətlərin) həcmi, min manat** | | | |
| | **2000** | **17,9** | **2250,1** | **66266,7** |
| | **2005** | **54,9** | **8896,2** | **292360,0** |
| | **2010** | **122,3** | **22009,1** | **490166,7** |

**Qeyd; Cədvəl "Azərbaycanın statistik göstəriciləri"-2011-in əsasında hazırlanmışdır.**

Cədvəl 22-nin təhlilinə əsasən ölkədə fəaliyyət göstərən kiçik müəssisələrin sayı 2010-cu ildə 2000-ci ilə nisbətən 1,7 dəfə azalsa da, həmin dövr ərzində xarici müştərək müəssisələrin sayı 2 dəfəyə yaxın, bu müəssisələrdə işləyənlərin sayı isə 2,5 dəfə artaraq, 2010-cu ildə 55,9 min nəfər təşkil etmişdir. Qeyd etmək lazımdır ki, ölkədə mal-məhsul istehsalının və xidmətlərin həcmində xarici müştərək müəssisələr 2010-cu ildə 24 mlrd, manatlıq məhsula malikdirlər. Kiçik müəssisələrin sayı isə cəmisi 14,5 min vahid olmuş və onlann məhsul istehsalı və xidmətlərin həcmində 1,8 mlrd,

natlıq payı vardır. Göründüyü kimi, ölkədə sahibkarlığın və regionlann inkişafi ilə bağlı böyük həcmli tədbirlər görülsə də, hələlik bazar iqtisadiyyatlı struktura malik kiçik, orta və nisbətən iri müəssisələrin fəaliyyətinin gücləndirilməsi, onlann ölkənin beynəlxalq iqtisadi inteqrasiya proseslərində fəal iştirakına öz töhfələrinin verməsi üçün daha fərqli və effektivli iqtisadi mexanizmlərin tətbiqinə zərurət vardır. Cədvəl 23-də Azərbaycan Respublikasında sənaye müəssisələrinin iqtisadi fəaliyyət növləri üzrə və işçilərin sayına görə qruplaşdırılması verilmişdir.

Cədvəl 23-dən göründüyü kimi, 2010-cu ildə Azərbaycanda cəmi 1909 emal müəssisəsi fəaliyyət göstərmiş və onlardan 1510 kiçik, 399 isə orta və iri müəssisə statusuna malik olmuşlar. Ölkə üzrə fəaliyyət göstərən kiçik müəssisələrin sayı 2010-cu ildə 14,5 min vahid olmasına baxmayaraq, onlardan cəmisinin 1510 ədədinin kiçik, 399-nun isə orta və iri müəssisə statusuna malik olması əlbəttə azdır. Bu baxımdan ölkədə rəqabət qabiliyyətli, bazar iqtisadiyyatı strukturuna və beynəlxalq inteqrasiya proseslərində iştirak etmək imkanına malik müəssisələrin yaradılmasına və fəaliyyətinə zərurət çoxdur və belə bir fəal iqtisadı mühitin formalaşmasında XİZ-lər effektivli iqtisadi mexanizm kimi çıxış edə bilərlər. Cədvəl 24-də isə Azərbaycanda fəaliyyət göstərən sənaye müəssisələrinin sayı verilmişdir.

**Cədvəl 23.**

**Azərbaycan Respublikasında sənaye müəssisələrinin iqtisadi fəaliyyət növləri üzrə və işçilərin sayına görə qruplaşdırılması (vahid, 2010-cu il)**

| s/s | Göstəricilər | Cəmi | o cümlədən | |
|---|---|---|---|---|
| | | | kiçik | orta və iri |
| | | 2650 | 1973 | 677 |
| 01 | Mədənçıxarma sənayesi | 311 | 247 | 64 |
| 02 | Emal sənayesi | 1909 | 1510 | 399 |
| 03 | Digərlər | 430 | 216 | 214 |

**Qeyd: Cədvəl ARDSK-nin "Azərbaycanın sənayesi" - 2011 statistik məcmuəsinin materialları əsasında hazırlanmışdır.**

Cədvəl 24.

**Azərbaycan Respublikasında fəaliyyət göstərən sənaye müəssisələrinin sayı, vahid**

| s/s | Göstəricilər | İ L L Ə R | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
| 01 | Bütün mülkiyyət növləri üzrə | 2621 | 2732 | 2825 | 2887 | 2794 | 2650 |
| | o cümlədən: Dövlət mülkiyyəti | 645 | 640 | 622 | 603 | 569 | 549 |
| | Qeyri-dövlət mülkiyyəti | 1976 | 2092 | 2303 | 2284 | 2225 | 2101 |
| | o cümlədən: xüsusi mülkiyyət | 1768 | 1859 | 1950 | 2039 | 1989 | 1883 |
| | birgə (qarışıq) mülkiyyət | 94 | 97 | 109 | 105 | 103 | 128 |
| | xarici mülkiyyət | 114 | 136 | 144 | 140 | 133 | 90 |
| 02 | Mədənçıxarma sənayesi | 243 | 299 | 343 | 340 | 314 | 311 |
| 03 | Emal sənayesi | 2010 | 2053 | 2122 | 2149 | 2103 | 1909 |
| 04 | Digərlər | 368 | 380 | 360 | 398 | 377 | 430 |

**Qeyd: Cədvəl ARDSK-nin "Azərbaycanın sənayesi" - 2011 statistik məcmuəsi əsasında hazırlanmışdır.**

Cədvəl 24-ün təhlilinə əsasən, 2005-2010-cu illər ərzində bütün mülkiyyət növləri üzrə sənaye müəssisələrinin sayı demək olar ki, artmamışdır. Əksinə emal sənayesində müəssisələrin

azalma tendensiyası qeydə alımnışdır. Cədvəl 25-də isə Azərbaycanda emal sənayesində fəaliyyət göstərən müəssisələrinin sayı öz əksini tapmışdır.

**Cədvəl 25.**

**Azərbaycan Respublikasında emal sənayesində fəaliyyət göstərən müəssisələrinin sayı, vahid**

| s/s | Göstəricilər | İ L L 0 R | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
| | Emal sənayesi cəmi | 2010 | 2053 | 2122 | 2149 | 2103 | 1909 |
| | o cümlədən; | | | | | | |
| ül | Qida məhsulları istehsalı | 534 | 492 | 499 | 472 | 416 | 409 |
| 02 | İçki istehsalı | 110 | 104 | 113 | 116 | 136 | 134 |
| 03 | Toxuculuq sənayesi | 94 | 98 | 97 | 101 | 114 | 85 |
| 04 | Geyim istehsalı | 93 | 98 | 93 | 99 | 95 | 90 |
| 05 | Dəri və dəri məmulatlarının, ayaqqabılann istehsalı | 29 | 30 | 26 | 25 | 25 | 21 |
| 06 | Ağac emalı və ağacdan məmulatlann istehsalı | 74 | 77 | 74 | 79 | 87 | 73 |
| 07 | Poliqrafiya fəaliyyəti | 179 | 188 | 200 | 200 | 200 | 156 |
| 08 | Neft məhsullarının istehsalı | 7 | 5 | 6 | 5 | 7 | 9 |
| 09 | Kimya sənayesi | 95 | 95 | 95 | 99 | 90 | 77 |
| 10 | Rezin və plastmas məmulatların istehsalı | 87 | 90 | 93 | 95 | 85 | 87 |
| II | Tikinti materiallannın istehsalı | 227 | 253 | 270 | 298 | 307 | 280 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **12** | **Metallurgiya sənayesi** | **34** | **36** | **37** | **42** | **42** | **30** |
| **13** | **Hazır metal məmulatlarının istehsalı** | **75** | **84** | **87** | **84** | **74** | **79** |
| **14** | **Mebellərin istehsalı** | **87** | **90** | **95** | **97** | **94** | **85** |
| **15** | **Kompüter və digər elektron avadanlıqların istehsalı** | **22** | **23** | **28** | **32** | **41** | **33** |
| **16** | **Elektrik avadanlıqlarının istehsalı** | **53** | **56** | **57** | **56** | **56** | **45** |
| **17** | **Maşın və avadanlıqların istehsalı** | **58** | **67** | **76** | **73** | **89** | **72** |

**Qeyd: Cədvəl ARDSK-nin "Azərbaycanın sənayesi" - 2011 statistik məcmuəsi əsasında hazırlanmışdır.**

Cədvəl 25-dən göründÜзm və əvvəldə qeyd edildiyi kimi 2005- 2010-cu illərdə emal sənayesində müəssisələrin sayı azalmışdır. Bu azalmalar əsasən qida məhsullannın istehsalı, toxuculuq, elektrik avadanlıqıannın istehsalı sahələrində müəssisələrinin sayının aşağı düşməsi ilə əlaqədardır. Bu faktlar ölkənin müxtəlif emal sənayesi sahələrində yeni texnologiyalann gətirilməsini, investisiyalarının cəlbinin sürətləndirilməsini, müasir standartlara cavab verən istehsal şəbəkəsinin yaradılmasını şərtləndirir və bu proslərdə XİZ-lər potensial effektivli iqtisadi mexanizm rolunu oynamaq imkanına malikdir.

Qeyd etmək lazımdır ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra ən mühüm beynəlxalq əhəmiyyətli strateji məsələlərdən biri də, dünya təsərrüfat sisteminə inteqrasiya formalamın optimal modellərinin müəyyənləşdirilməsi və onların milli iqtisadi sistemə tətbiqi problemləridir. Azərbaycanlı tədqiqatçı-alimlər A.M.Məhərrəmov və H.H.Aslanov qeyd edirlər ki, beynəlxalq iqtisadi inteqrasiya özünü əsas etiban ilə 4 formada göstərir: azad ticarət zonalan, gömrük birlikləri, ümumi bazar və iqtisadi birliklər. Azad iqtisadi zonalar yaradılarkən, üzvlər arasında ticarəti məhdudlaşdıran tarif və kvota kimi sədlər aradan qaldınlır və üzv

birliyi daxil olmayan ölkələrə qarşı fərqli tarif tətbiq edirlər...Gömrük birliyi azad ticarət zonasına nisbətən daha çox yayılmış bir iqtisadi inteqrasiya növüdür. Gömrük birliklərində digər dövlətlərə qarşı vahid gömrük tarifi tətbiq edildiyi halda, azad ticarət zonalannda hər ölkə öz tarifini qəbul edir. Ona görə də gömrük birlikləri daha qabaqçıl bir inteqrasiya növüdür. İnteqrasiyanın ümumi bazar mərhələsində üzv ölkələr arasında istehsal amillərinin hərəkətində tarif və qeyri-tarif məhdudİ5^ətləri ləğv edilir, birliyə daxil olmayan, üzvlərə qarşı vahid tarif siyasətləri tətbiq edilir, iqtisadi inteqrasiyanın son mərhələsi isə iqtisadi və ya valyuta birliyidir. iqtisadi və ya valyuta birliyi birliyə daxil olan iqtisadiyyatların tam şəkildə birləşdirilməsidir [s.225-227, 561. Sual olunur: biz nəyə görə bu 4 inteqrasiya mərhələsinin mahiyyətinin qısa da olsa müəlliflərin verdiyi kimi nəzərə çatdırmağı vacib hesab etdik? Məsələ burasındadır ki, XİZ-lərlə bağlı, xüsusilə onlann tətbiqi problemləri ilə bağlı araşdırmalarda bu inteqrasiya problemlərinin böyük hissəsinin müxtəlif konfiqurasiyanın XİZ modellərinin praktiki fəaliyyət proseslərində mövcudluğu diqqətimizi cəlb etdi. Başqa sözlə, hətta kiçik bir XİZ məkanında belə buradakı universal iqtisadi rejim və stimullaşdıncı iqtisadi güzəştlər sisteminin qarşılıqlı vəhdəti hesabına göstərilən inteqrasiya mərhələlərinin kiçik modelinin ardıcılıqla bu zonada reallaşdınidığını görə bilərik. Bütün bunlar bir daha optimal XİZ modellərinin real iqtisadi sistemə tətbiqi proseslərini sürətləndirməyi şərtləndirir.

Azərbaycanın iqtisadi inkişaf modelinin potensial imkanlannı və onun dünya iqtisadi sisteminə inteqrasiya perspektivlərini fundamental araşdıran bir qrup görkəmli azərbaycan alimləri, o cümlədən, akademik A.Nadirov qeyd edirlər ki, Azərbaycanı əhatə edən qonşulann heç də hamısı onun Avropa-Qafqaz-Asiya dəhlizində fəal iştirakını, bu yolla Avropa iqtisadi güc mərkəzinə və bütövlükdə dünya iqtisadiyyatına fəal inteqrasiyasını istəmir və müxtəlif yollarla görülən işlərə mane olmağa çalışırlar. Qədim İpək yolunun fəaliyyəti, orada Azərbaycanın iştirakı müstəqil Azərbaycan üçün daimi kapitaldır, daimi gəlir mənbəidir, daimi

“ipək yolu”nun həlledici mərkəzlərindən birinə çevrilmək imkanı vardır. Bu yolun Azərbaycan, Qərb və Şərq ölkələri üçün sosial-iqtisadi və siyasi əhəmiyyəti olduqca böyükdür. Bu yol vasitəsi ilə fonnalaşan iqtisadi əlaqələr inkişaf etdikcə, onun gücü də, səmərəsi də artacaq. Tarixin xalqımıza verdiyi bu şansdan səmərəli istifadə XXI əsrdə respublikamızın inkişaf strategiyasının ən priortet istiqamətlərindən biri sayılmalıdır [s. 212, 61]. Fikrimizcə, görkəmli azərbaycan alimlərinin bu elmi qənaətləri yaxın perspektivdə ölkəmizin strateji inkişaf proqramlarında və prioritetlərində geniş yer alacaq və buna şübhəmiz yoxdur. Amma, bu vaxta kimi “İpək yolu”nun ölkəmizdən keçən beynəlxalq nəqli)^at qovşaqlarında və sərhədyanı ərazilərində Azərbaycanın iqtisadi sisteminə uyğunlaşa biləcək XİZ modellərinin tətbiq edilməməsi, tarixi şanslardan tam səmərəli istifadə imkanlannı məhdudlaşdırır. Güman edirik ki, yaxın gələcəkdə bu istiqamətdə real praktiki proseslər fəallaşacaq və tarixi iqtisadi inteqrasiya marşrutlan üzrə effek- tivli və fərqli iqtisadi mexanizmin tətbiqi vasitəsi ilə ölkəmizin iqtisadi gücü və nüfuzu daha da artacaq, bunlarla bərabər, Azərbaycanın nəqliyyat sisteminin gücləndirilməsində və onun makro- göstəricilərinin əsaslı şəkildə yüksəldilməsinə əlavə perspektivlər yaranacaqdır [20].

Azərbaycan müstəqillik əldə etdikdən sonra, ölkəmizin xarici iqtisadi konsepsiyasının və milli iqtisadiyyatın xarici amillərlə sıx əlaqəliliyi və qarşılıqlı asılılığı baxımından prioritet inkişaf istiqamətlərinin işlənib hazırlanması problemləri mühümlüyü ilə diqqəti cəlb edir. Bu istiqamətlərdə araşdırmalar aparan professor A.Şə- kərəliyev xarici ticarət konsepsiyasının iki əsas inkişaf mərhələsinin- keçid dövrünün və real bazar dövrünün xarici ticarət konsep- siyalannm işlənib hazırlanmasını zəruri hesab edir. Milli iqtisadiyyatın xarici amillərlə əlaqəliliyi və asılılığı baxımından 3 inkişaf modelini - iqtisadi}^atın ixrac yönümünün yüksəldilməsini, idxalı əvəz edə biləcək istehsal sahələrinin inkişafını və iqtisadi inteqrasiya modelini fərqləndirir [s.42, 65]. Professor Azərbaycanda xarici ticarət konsepsiyasının strateji istiqamətlərinə ixracın dövlət hə- vəsləndirilməsi sisteminin təşkili, bazar subyektlərinin rəqabət

qabiliyyətinin yüksəldilməsi məqsədilə dövlət proqramlarının hazırlanması, daxili bazann milli mənafeələrə uyğun qorunmasını, ölkənin ixrac potensialının formalaşdırılması və inkişaf etdirilməsi, texnologiya tutumlu məhsulların ixracının artınıması, ixrac yönümlü istehsalın inkişafı və modemləşdirilməsində xarici investisiyalann aktiv surətdə cəlb edilməsi, mühüm məhsul növlərinin daxili tələbatı ödəmək səviyyəsində istehsalının təşkili və ölkənin iqtisadi asılılığının azaldılması kimi mühüm prioritetləri daxil etmişdir. Şübhəsiz, bu çox mürəkkəb strateji vəzifələrin yerinə yetirilməsində ölkənin milli iqtisadi sisteminin funksional iqtisadi mexanizmlərinin çevikliyi və kəsərliliyi, effektivliyi və səmərəliliyi mühüm əhəmiyyət kəsb edir. XİZ-in praktiki problemlərinin tədqiqi proseslərində bu kimi zonaların ixrac-istehsal təyinatlı bir çox modifıkasiyalarmın dünya təcrübəsində uğurla istifadə edilməsinə rast gəlmişik. Bu nümunələrin əksəriyyətində çox qısa bir müddət ərzində, yəni XİZ-lərin yaradılmasından hətta 2 il keçdikdə belə məhsuldar nəticələrin əldə edilməsinə nail olunmaq imkanı vardır. Bəs XİZ fenomeni nə ilə bağlıdır? Yaddan çıxarmaq lazım deyildir ki, hələ 150-200 il bundan əvvəlki dövrlərdən başlayaraq formalaşan və dünya alimləri tərəfindən qəbul olunan klassik ticarət nəzəriyyələrinin əksəriyyətinin əsasında ticarətin azadlığı və liberallaşdınlması durur. Sonralar ticarətin ən əsas predmetləri olan mal və məhsullann istehsal proseslərinin daha effektivli təşkil edildiyi iqtisadi mühitin əsasında da texniki və istehsal imkanları ilə yanaşı, iqtisadiyyatın azadlılığı, iqtisadi fəaliyyəti boğan mexa- nizmlərin yumşaldılması və daha məhsuldar iş mühitinə uyğun formalaşdmlmasi, bir sözlə, fəal ixrac məhsullanmn istehsalına imkan verən təsərrüfat subyektinin yaradılması prioritetləri daha çox praktiki proseslərdə öz təsdiqini tapa bilmişdir. Başqa sözlə, azad ticarət daha geniş coğrafiyanı əhatə etdiyi kimi, azad və maneəsiz istehsal prosesləri də həm daxili tələbatı ödəmək iqtidarında olan yüksək rəqabət qabiliyyətli mallann və məhsullann istehsalına imkan verər, həm də uğurla xarici ölkələrə ixrac oluna bilər. Amma, təəssüf ki, hələ də ölkəmizdə xarici ticarət fəaliyyətinin potensialından, xüsusilə qeyri-neft sektorundakı imkanlanndan is

tifadənin səviyyəsi onun real potensialından xeyli aşağadır. A.Şə-kərəliyev yazır: “Azərbaycan demək olar ki, dünyanın bütün qitələri ilə ticarət-iqtisadi əlaqələrə malikdir. Lakin istehsal olunan məhsullannm rəqabət qabiliyyətinin dünya bazarlannda aşağı olduğuna görə, respublika əsasən xammal ixrac edir. Son vaxtlarda dünya ölkələri arasında iqtisadi inteqrasiya güclənmişdir. Artıq hər bir ölkənin iqtisadiyyatının inkişafı milli sərhədlərdən çaxaraq, dünya iqtisadiyyatına qovuşur. Deməli elə etmək lazımdır ki, ölkə dünya əmək bölgüsündə hazır məhsulla daha çox təmsil olunsun. Sənaye cəhətdən inkişaf etmiş ölkələr dünya bazanna əsasən hazır məhsul, qabaqçıl mütərrəqi texnologiya, daha çox eimtutumlu məhsul çıxanr. Həmin texnologiyanı alan ölkələr isə tez bir zamanda onu tətbiq edərək, milli iqtisadiyyatın formalaşdınimasını və inkişafını sürətləndirirlər’’ [s.60, 651. Bu məsələlərdə A.Şəkər-əliyevin əldə etdiyi nəticələrin real praktiki proseslərdə effektivli təşkili ölkəmizin qeyri-neft sektorunun intensiv inkişafına güclü təsir göstərməklə yanaşı, ölkə iqtisadiyyatının artım tempinin neft-qaz hasilat sənayesinin asılılığından xeyli azalda bilərdi. Düzdür, son illərdə Azərbaycanda qeyri-neft sektoru sürətlə inkişaf etməkdədir və burada istehsalın həcmi artmaqdadır. Amma təəssüf ki, onlarla elm və texnologiyalar tutumlu istehsal sahələrinin modem- ləşdirilməsinin gecikdirilməsi səbəbindən ölkəmiz külli miqdarda ixractəyinatlı, rəqabət qabiliyyətli məhsul çeşidlərindən məhrum olmuşdur. Fikrimizcə, növbəti dəfə, əgər biz təklif etsək ki, ölkənin ixrac potensialının artırılması və xarici ticarətin diversifıkasi- yasmm sürətləndirilməsi məqsədilə ixrac-istehsal, rüsumsuz gömrük zonalan, gömrük-anbar təyinatlı XİZ variantlanndan istifadə etməyin zamanı və məqamı gəlib çatmışdır, yəgin ki, biz mülahizələrimizdə yanılmamış olanq. Kiçik bir misal, əvvəl də bildiyimiz kimi, vaxtilə Bakı şəhərində keçmiş SSRİ-nin ən iri, bəlkə də, yeganə məişət kondisionerləri müəssisəsi fəaliyyət göstərirdi, amma hazırda bu iri giqant-müəssisə tam dağılıb. Baxmayaraq ki, bu sahədə toplanmış praktiki təcrübə və elmi-texniki potensial mövcuddur və hələ də qalmaqdadır, amma ola bilər Azərbaycanda istehsal olunacaq hətta ən modern məişət kondisionerlərləri dünya

bazannda rəqabətə tab gətirməsin və ixrac imkanlan məhdud olsun və s. Bununla belə, fıkrimizcə, əgər alüminium xammalının və yaxud ilkin kimya xammallannın dərin emallarından sonra əldə edilməsi mümkün olan innovatik və nanotexnologiyalı elm tutumlu məhsullann istehsalının təşkili, burada alınacaq çoxçeşidli sənaye təyinatlı və yüksək tələbata malik ixracyönümlü məhsullann alınmasına imkan verər, ölkəmizin iqtisadi qüdrətini və gücünü artırar, əldə edilən ixrac təyinatlı məhsullar isə milli brendlər kimi dünya bazarlannda və beynəlxalq arenada Azərbaycanın iqtisadi imicini əhəmiyyətli dərəcədə artırmaqla yanaşı, onun dünya iqtisadi məkanına güclü inteqrasiyasına əlavə stimullar verə bilərdi.

# V FƏSİL. AZƏRBAYCANDA XÜSUSİ İQTİSADİ ZONALARIN TƏTBİQİ PROBLEMLƏRİ VƏ PRİORİTET İSTİQAMƏTLƏRİ

## 5.1. Azərbaycanda XİZ-in yaradılmasının elmi-nəzəri və praktiki aspektləri.

XİZ-lərin yaradılması prosesləri uzun və mürəkkəb mərhələlərdən keçir. Bu kimi zonaların praktiki təşkilinə gəlib çıxana kimi kompleks mühüm vəzifələrin yerinə yetirilməsi tələb olunur. Dünyada bu problemlərə dair uzun bir dövr ərzində elmi-nəzəri baxışlarda müxtəlif tendensiyalar fonnalaşmışdır. Bir çox alim və tədqiqatçılar hesab edirlər ki, XİZ özü aynca elm sahəsi olmasa da, onunla bağlı problemlərə nəzəri baxışda klassik və son 50 ildə formalaşmış iqtisadi nəzəriyyələrin bir çox elementləri və mühüm nəticiləri diqqəti cəlb edir. Biz bunlann bir qrupu barədə əvvəllərdə yer ayırmışdıq və yenidən elmi-nəzəri baxışlann araşdınlması- na geniş yer ayınnaq niyyətində deyilik. Ancaq son 30 il ərzində digər qrup alim və mütəxəssislərə görə, XİZ-lərin yaradılması dövlətin iqtisadiyyatla bağlı liberallaşdırma siyasətinin dərin olduğu bir şəraitdə o gədər də məqsədəuyğun deyildir. Başqa sözlə, ölkə iqtisadiyyatının açıqlıq dərəcəsi yüksək olduqca xüsusi güzəştlərə malik iqtisadi rejim statuslu XİZ-lərin yaradılmasına zərurət qalmır. Bizim araşdımıalanmızda bu fikirlərə münasibət dünya təcrübəsindən verilən nümunələrdə öz əksini tapmışdır. Belə ki, hətta müasir dövrdə ən mükəmməl liberal və açıq iqtisadi siyasətə malik dövlətlərdə XİZ-lərin bu və ya digər formalarından iqtisadi sistemin müxtəlif sektorlannda effektivli istifadə olunur. Bu baxımdan XİZ opponentlərinin elmi-nəzəri baxımdan bu kimi zonaların liberal və açıq iqtisadi siyasətə malik iqtisadi sistemlərdə yer almasının məqsədəuyğun olmaması iddialanna ən optimal cavabı, müasir dövrdə elmi-nəzəri baxışlann praktiki iqtisadi proseslərlə vəhdətindən doğan və effektivli iqtisadi mexanizm kimi tələb olunan XİZ-lərin dünyanın müxtəlif ölkələrində real tətbiqində axtarmaq daha düzgün olardı. Fikrimizcə, Azərbaycanda XİZ-lərin yaradılmasının elmi-nəzəri və praktiki aspektlərinin əsasında bu ki

mi zonaların ölkəmizin milli iqtisadi inkişaf modelində və iqtisadi inkişaf prioritetlərində praktiki baxımdan nə dərəcədə məqsədəuyğun olub-olmamasının elmi-fundamental və elmi-iqtisadi əsaslandırılması mühüm əhəmiyyət kəsb edəcəkdir. Başqa sözlə, XİZ-lə- rin Azərbaycanda praktiki aspektlərinin bu kimi zonaların tətbiqi üçün əsas götürülməklə, problemin bütün spesifik xüsusiyyətləri dərindən araşdırılmalı, dünya təcrübəsinin sintezindən formalaşan və ölkəmizin milli iqtisadi maraqlanna cavab cerən XİZ modellərinin praktiki reallaşdın İmasına baxılması məqsədəuyğun hesab edilir.

Milli iqtisadiyyatın bcynəlmilləşməsi və dünya iqtisadiyyatına uğurlu inteqrasiyası proseslərində “Açıq qapı” siyasətinin üstünlüklərini qeyd edən akademik Z.Səmədzadə hələ 2000-ci illərin əvvəllərində bildinnişdir ki, yaxın və uzaq gələcəkdə Azərbaycanın iqtisadi inkişaf strategiyası nəinki daxili, həm də xarici faktorlardan əhəmiyyətli dərəcədə asılı olacaqdır. Azərbaycan artıq indi dünya iqtisadiyyatında mövcud olan mənafe problemləri ilə üzləşir. Bir tərəfdən Azərbaycan öz milli mənafelərini qorumalıdır, digər tərəfdən bu mühüm müqəddəs vəzifə dünya inteqrasiyasının tələbləri ilə əlaqələndirilməlidir...Azərbaycan azad iqtisadiyyatın qurulması, ticarətin liberallaşması kimi müasir dövrün ən xarakterik proseslərindən kənarda qala bilməz. Bu kimi proseslərdə uğurlu nəticələr əldə etmiş Çinlə bağlı təəssüratlarını bölüşən akademik qeyd edir ki, dünya təcrübəsində çoxdan sübut olunmuşdur ki, bazar münasibətlərinin müvəffəqiyyətlə fonnalaşmasma, ölkə iqtisadiyyatının inkişafına təkan verən güclü faktorlardan biri azad iqtisadi zonaların yaradılması və fəaliyyətidir. Bu, Çin Xalq Respublikasında özünü daha qabanq sürətdə göstərib. Burada azad iqtisadi zonaların göstəriciləri bütün dünyanı heyran edir. Hörmətli akademikin bu fikirləri dünyanın bir çox məşhur alimlərinin və mütəxəssislərinin Çin XİZ-ləri üzrə apardıqları tədqiqat işlərində və iqtisadi ədəbiyyatlarda da xeyli yer almış mülahizələr ilə üst- üstə düşür. Bizim araşdınnalarda dəfələrlə qeyd edildiyi kimi, bu ölkənin XİZ-ləri müasir dövrdə də uğurlu və məhsuldar fəaliyyətlərini davam etdirməkdədir. Biz XİZ-lərin

müxtəlif mənbələrə isnad etdikcə və dünya təcrübəsindən nümunələr verdikcə, Çin XİZ-lərinin fəaliyyətinə və praktiki üstünlüklərinə yer ayırmışıq və s. Amma indiki halda bizim diqqətimizi ən çox cəlb edən akademik Z.Səmədzadənin Çin XİZ-ləri ilə bağlı onun sonsuz heyrətinə səbəb olmuş məqamlardır. Akademik yazır: "Şanxaydakı Pudonq azad iqtisadi zonası bizim problemə dair baxışlanmızı son dərəcədə zənginləşdirdi. Ağlımıza da gəlməzdi ki, əhalisinin sayı Azərbaycan və Gürcüstan əhalisinin birlikdə sayma bərabər olan Şanxay şəhərinin kiçik bir ərazisində qısa müddət ərzində dünyanı heyran edən, dünya iqtisadiyyatında öz dəst-xətti olan, böyük dövlətlər qədər, bəlkə də ondan daha artıq səviyyədə dünya ticarətində iştirak edən belə bir xüsusi iqtisadi zona yaradılmışdır. Biz Pudonqdan xoş təəssürat, böyük arzularla ayrıldıq". Əlbəttə, akademikin böyük arzulan içərisində fıkrimizcə, Pudonqdakı kimi effektivli və məhsuldar XİZ-lərin doğma Azərbaycanımızda da yaxın perspektivdə yaradılması və uğurlu fəaliyyəti yəqin ki vardır. Bu məqamlan düşünərkən, akademikin təəssüf hissi ilə Sumqayıt layihəsinin baş tutmamasma olan münasibəti praktiki baxımdan daha əhəmiyyətli və daha vacib olduğundan bu fikirləri olduğu kimi verməyi qərar aldıq: "...Respublikamızda xüsusi iqtisadi zonanın yaradılması hesabına iqtisadi və sosial tərəqqini xeyli yüksəltmək olar. Açığını deyim ki, bu işin vətənimizdə hələ də baş tutmadığını təəssüflə qeyd edirəm. İndi bunun səbəblərini tam təhlil etmək fikrində deyilik. Bu, ayrıca bir yazının mövzusudur. Sumqayıt layihəsinin baş tutmaması sübut etdi ki, hələ də çoxlan azad bazar münasibətlərinin tam mahiyyətini düzgün dərk etmirlər. Bəzi mütəxəssislərin - "Sumqayıtda azad iqtisadi zona yaradılarsa, bu, milli mənafelərə ziddir"- fikri ilə heç cür razılaşmaq olmaz. Onlar yaddan çıxanrlar ki, Azərbaycan son illərdə milli mənafe baxımından daha riskli layihələrə qoşulmuşdur və biz bu gün onlann real, müsbət nəticələrini görürük. Söhbət neft sektorlanna qoyulan milyardlarla ABŞ dollanndan gedir. Heç şübhə etmirəm ki, əgər AİZ məsələsinə bəzi idarəetmə strukturları düşünülmüş, ciddi şəkildə yanaşsaydılar, onlann əsassız iddialan olmasaydı, bəlkə də

işin xeyirinə müəyyən konsensusa gəlmər olardı...” [66]. Bu fikirlərin deyilməsindən 10 ildən bir az çox vaxt keçib, amma hələ də səslənilən bəzi məqamlar Azərbaycanın real iqtisadi proseslərində öz tətbiq sahələrini tapa bilməyib. Keçən dövr ərzində ölkə rəhbərliyinin siyasi iradəsi əsasında XİZ-lərin qanunvericilik bazasının formalaşması, bu kimi zonalann praktiki fəaliyyətinin təşkili üçün müvafiq normativlər və sənədlər toplusunun işlənib hazırlanması və qəbul edilməsi prosesləri başa çatdınimışdır. Amma yenə təəssüf hissi ilə qeyd etmək lazımdır ki, hələ də real olaraq, XİZ modellərindən hər hansı birinin Azərbaycanın iqisadi inkişaf sisteminə daxil edilməsi baş tutmayıb. Əlbəttə, bu proseslərdə ilk növbədə öz sahə və profil maraqlannı qoruyan rəsmi dövlət struk-turlannm üzərinə böyük vəzifələr düşür. Bizim təhlillərimizə əsasən ölkəmizin iqtisadi inkişaf siyasətinin əsas prioritetlərinin icrasının təşkilinə bilavasitə cavab verən müvafiq Nazirlikdə XİZ- lərlə bağlı uzun illərdir sənədlər işlənib hazırlanır, müzakirələr aparılır, dünya təcrübəsi öyrənilir, beynəlxalq təşkilatlarla və profil kompaniyalarla əlaqələr qurulur, müxtəlif konsepsiyalar və perspektivli layihələr üzərində geniş həcmli işlər apanlır və s. Amma hələ də reallıqda Azərbaycanda tam funksiyah və öz profilinə müvafiq (təyinat istiqamətləri və prioritetləri nəzərə alınmaqla) XİZ konfiqurasiyalanndan hansının praktikada baş tutacağı barədə rəsmi qərarlar mövcud deyildir. Düzdür, ölkə rəhbərliyinin birbaşa təşəbbüsü ilə müxtəlif iqtisadiyyat sahələrinin profilləri üzrə texnoparklann yaradılması prosesi başlanılmışdır və bunlar, şübhəsiz, təqdirəlayiqdir. Ancaq söhbət vahid XİZ konsepsiyasının reallaşdınimasından gedirsə, bu istiqamətdə praktiki nəticələrin əldə edilməsi üçün belə zonalann yaradılması və fəali}o^əti proseslərini təşkil etmək məqsədi ilə, bu sahədə dünya təcrübəsinə malik müvafiq operator-kompaniyanın (şirkətin) seçilməsi, onun əsasnaməsinin hazırlanması və ölkə qanunlanna müvafiq təsdiq edilməsi, həmçinin, Azərbaycanda XİZ-lərin yaradılması və fəaliyyəti üzrə dövlət siyasətini həyata keçirən spesifik qurumun təsis edilməsi problemləri hələ də qalmaqdadır. Fikrimizcə, XİZ institutunun Azərbaycanın iqtisadi sisteminə daxil edilməsinin gecikmə

sinin digər mühüm səbəblərindən bir də bu sahədə aparılan elmi-tədqiqat işlərinin, alim və mütəxəssislərin fikirlərinin (mülahizələrinin), elmi-tədqiqat işlərinin nəticələrinin sistemləşdirilməməsi və əsas məqamlarının real iqtisadi proseslərdə praktiki tətbiqinə baxılmamasıdır. Vaxtilə Sumqayıtda, əlbəttə, bütöv şəhər daxil olmaqla, iri bir əraziyə və geniş şəhər təsərrüfatı, sənaye, istehsal infrastrukturuna malik regionda iri bir XİZ-in yaradılması bəlkə də çox mürəkkəb prosesləri əhatə etdiyindən bu ideyanın reallaşdırılması mümkün olmamışdır. Əgər indi həmin dövrdə hansı XİZ və yaxud AİZ modelinin bu regionda praktiki tətbiqinə üstünlük verilməsi mülahizəsini bildinnəyimizi istəsək, bu obyektivlik baxımından qeyri-ciddi görünərdi. Amma bu regionda yerləşən müxtəlif sənaye sahələrinin maddi-texniki bazasından, istehsal və infrastruktur imkanlanndan, eyni zamanda bu sahələrdə toplanmış xeyli sayda yüksək ixtisaslı əmək ehtiyatlarından hələ də effektivli istifadə edilməsində problemlər qalmaqdadır.

Biz XİZ-lərin yaradılmasının elmi-nəzəri və praktiki aspektləri ilə bağlı problemlərin və onlann həyata keçirilməsi üzrə mexanizmlərin tədqiqatları zamanı Azərbaycanla oxşar iqtisadi inkişaf tarixinə malik olan ölkələrdə bu istiqamətdə problemin elmi-fundamental öyrənilməsi məsələlərinə baxdıq. Təəssüf ki, Azərbaycanda hələlik XİZ modeli praktikada reallaşdınimayıb və bu sahədə ölkəmizin elmi kitabxanalannda kifayət qədər materiallar əldə etmək mümkün olmamışdır. Məhz bu baxımdan zərurət kimi hər dəfə dünya təcrübəsinə və digər ölkələrdə XİZ- lərlə bağlı mövcud praktiki proseslərə müraciət etmək lazım gəlir. Məlum olmuşdur ki, MDB ölkələrində XİZ-lərin müxtəlif modifıkasiyalannm bu və ya digər formada milli subyektlərin inkişafına təsir formaları, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması rıçaqları, investisiyalann sürətli cəlb edilməsində pozitiv rolu ölkənin ixrac potensialının artırılmasında güclü stimullar vermək imkanlan və sair problemlərə aid 100- 120-yə yaxın namizədlik işləri və bir neçə doktor işləri üzrə tədqiqatlar apanimışdır. Bizim marağımıza səbəb olan regionlardan biri də Rusiyanın Rostov vilayətində yerləşən

Taqanroqda bir qrup alim tərəfindən bu problemin uzun illər ərzində davamlı tədqiqi olmuşdur. Təsadüfi deyildir ki, bu şəhərdən olan alimlər tərəfindən XİZ-lərin problemləri üzrə iqtisadiyyat elmləri doktoru almaq üçün 2 fundamental tədqiqat işi müvəffəqiyyətlə başa çatdınimışdır. Bunlar iqtisad elmləri doktorları A.M. Basenko və P.V. Pavlovdurlar. Nəyə görə bu məqama diqqət çəkməyimizin əsas səbəblərindən biri Taqanroq şəhərini Azərbaycanla bağlayan tarixi hadisələr və bu şəhərin Azərbaycanın Sumqayıt şəhəri ilə iqtisadi-sənaye strukturlan baxımından nisbətən oxşarlığıdır. Məlumdur ki, 11 dünya Müharibəsi dövründə azərbaycanlılardan ibarət məhşur fədakar döyüş diviziyası olan 416-cı diviziya məhz Taqanroq şəhərinin adı ilə bağlıdır. Bu şəhər də Sovet sistemi dövründə Sumqayıt şəhəri kimi iri sənaye strukturlanna və müəssisələrinə malik olub. Şəhərdə onlarca iqtisadiyyat sektorlarının müxtəlif sahələrini əhatə edən istehsal və emal müəssisələri fəaliyyət göstərir. Belə bir şəraitlə yaxından tanış olan və regiondakı iqtisadi inkişaf proseslərinin əksəriyyətini uzun illər ardıcıllıqla izləyən i.e.d. Pavlov P.V. XİZ-lərin güclü qloballaşma dövrünü yaşayan dünya təsərrüfat sisteminə, ayn-ayn milli iqtisadiyyatlarının və regionların inteqrasiya etməsində institusional rolunun işlək mexanizmlərinin müəyyənləşdirilməsi üzrə tədqiqatlar aparmışdır [130J. Nəzəri baxımdan dünya təcrübəsində dövlətlər XİZ instrumentinə və onunla bağlı müxtəlif modifikasiyalı XİZ insti- tutlanna xüsusi bir sistem kimi baxmaqla, bu zonalardan praktiki proseslərdə bu və ya digər strateji məqsədlərin həyata keçirilməsini təmin edirlər. Bütün hallarda bu institusional sistemə daxil olan XİZ alətinin əsas rıçaqları və detenninantları bu zonalarla bağlı qəbul edilmiş güzəştlər sistemidir. Real praktiki proseslərdə isə XİZ institutunun müxtəlif fonnalarda gerçəkləşdirilməsi 3 əsas strateji istiqamətlərdə baş verir. Bunlara iqtisadi sahədə əsasən xarici investisiyaların və iri kapitalın gətirilməsi mexanizminin təşkili, ixrac potensialının artırılması və idxal əvəzedici məhsulların istehsalı şəbəkəsinin yaradılması, regionda biznes və sahibkarlıq fəaliyyətinin, həmçinin xarici-iqtisadi fəaliyyətin müxtəlif fonna- lannın gücləndirilməsi, burada sağlam rəqabətin təmin edilməsi.

müasir idarəetmə strukturlanmn yaradılması və iqtisadİ3^atın müxtəlif sektorlannın fəallığını artırmaqla, regionun iqtisadi inteqrasiyasının sürətləndirilməsi, sosial-siyasi məqsədlərə əhalinin məşğulluğunun təmin edilməsi, işsizliyin və yoxsulluğun azaldılması, menecment mədəniyyətinin təbliği, yüksək ixtisaslı kadrların hazırlanması, sosial problemlərin kompleks həllinə əlavə stimullann verilməsi, elmi-texniki məqsədlərə isə müasir texnologiyalar əsasında yeni istehsal sahələrinin və modern müəssisələrin yaradılması, elmi-texniki yeniliklərin işlənməsi və əldə edilmiş nəticələrin istehsala tətbiqinin təşkili, elm tutumlu istehsal sahələrinin və müasir innovasiya müəssisələrinin real iqtisadi proseslərdə yer almasının təmin edilməsi və sairlər daxildirlər. Ümumiyyətlə son 10-15 illərin praktiki XİZ təcrübəsində elmi-texniki məqsədlər toplusuna daxil olan prioritetlər, xüsusilə innovasiya funksiyalarının və nanotexnologiyaların müasir istehsal və iqtisadiyyat sahələrinə tətbiqinin genişləndirilməsi zərurəti daha çox diqqət cəlb edir. XİZ-lərin praktiki tətbiqi proseslərində əsas iki prinsipial konsepsiya, yəni onların ərazi və funksional təyinatı üzrə yaradılması prioritetləri başlıca amillər kimi qəbul edilir. Dünya təsərrüfat sisteminə son 20 il ərzində yüksək sürətlə inteqrasiya etmək məqsədini reallaşdırmağa çalışan bir çox ölkələr praktikada XİZ- lərdən bu və ya digər fonuada fəal istifadəyə üstünlük vermişlər. Bu ölkələrdə XİZ-lərin yaradılmasından əsas məqsəd kimi daxili istehlak tələbatının-ərzaq və sənaye mallanna olan tələbatın ödənilməsi, ölkəyə valyuta vəsaitlərinin daxil olmasının artırılması və investisiyalann gətirilməsinin genişləndirilməsi, ölkənin müxtəlif regionlarında və iqtisadiyyat sektorlarında infrastruktur obyektləri şəbəkəsinin qurulması, bazar iqtisadiyyatı prinsiplərinin ölkə iqtisadiyyatının müxtəlif sahələrində dərindən fonmalaşmasında ən yeni idarəetmə metodlarının və mütərəqqi iqtisadi fəaliyyət növlərinin bu regionlara gətirilməsi, elm tutumlu və yüksək texnologiyalar istehsal sahələrin yaradılmasına milli iqtisadiyyatın adaptasiyası üçün mühüm proseslərin həyata keçirilməsi götürülür. Qeyd etmək lazımdır ki, sosializm sisteminin süqutundan sonra Mərkəzi və Şərqi Avropanın bir qrup ölkələrində

rıstan, Slovakiya, Bolqarıstan, Polşa və Rumıniya) XİZ institutunun qabaqçıl modifikasiyalannın uğurlu tətbiqi, bu ölkələrin bəzilərinin Avropanın güclü inteqrasiya məkanına və dünya təsərrüfat sisteminə qovoışmasma əlavə stimullar verə bilmişdir. Məsələn, böyük təbii ehtiyatları olmayan və sosializm sistemindən qalmış iri sənaye müəssisələrinin modemləşdirilməsinə valyuta vəsaitləri çatmayan Macarıstanda dövlət XtZ institutunun optimal iqtisadi siyasətini formlaşdınnaqla, praktikada bu kimi zonaların uğurlu modellərini tətbiq etməklə ölkənin sənaye potensialının reabilitasiyası və yenidən qurulması proseslərinə Qərbi Avropanın ən güclü investorlarını cəlb edə bilmişdir. 1990-2000-ci illər ərzində bu ölkədə iqtisadi islahatlar dərinləşdikcə, ölkə iqtisadiyyatının müxtəlif sektorlarında rəqabət qabiliyyətli istehsal sahələrinin yaradılması və ixrac təyinatlı məhsullann istehsalının artınıması proseslərində onlarla ixrac-istehsal təyinatlı XİZ-lər fəal institusional iqtisadi qurum kimi mühüm əhəmiyyət kəsb etmişlər. Göstərilən dövrün sonunda belə zonalann sayı 11 O-dan çox olmuş və burada işləyənlərin ümumi sayı 99,7 min nəfər təşkil etmişdir. Bu məhsuldar XİZ-lərdə həm daxili, həm də xarici investorlar üçün münbit şərait yaradıldığından Macarıstan XİZ-lərində minə yaxın müəssisə uğurla fəaliyyət göstərmiş və burada istehsalın orta illik həcmi 6 mlrd. ABŞ dollarına yaxın olmuşdur. Maraqlı burasındadır ki, həmin məhsullann 80 %-dən çoxu ixrac edilmişdir. Qeyd etmək lazımdır ki, ixrac-istehsal təyinatlı zonalann yaradılmasına bu ölkədə əsaslı vəsait fonnasmda 1,5 mlrd. ABŞ dolları xərclənmişdir [126]. Macanstanla yanaşı, digər bir postsosialist ölkəsi olan Polşada da XİZ institutundan bu ölkənin region və dünya təsərrüfat sistemlərinə qısa müddət ərzində inteqrasiya edilməsində fəal istifadə olunmuşdur [155]. Polşada ixrac-istehsal təyinatlı XİZ-lərə qoyulan investisiyalann ümumi həcmi 2,7 mlrd. ABŞ dolları təşkil etmiş və burada yaradılan iş yerlərinin sayı 40 min olmuşdur. Sabit iqtisadi siyasətə malik olan Çexiyada 60-dan çox sənaye parklan modifikasiyalı XİZ-lər yaradılmış və onlardan 46- sı Çexiya hökümətinin birbaşa köməyi ilə təşkil edilmişdir. Keçid iqtisadiyyatı proseslərini sürətlə başa vuraraq, Avropa standartları

na və dünya təsərrüfat siteminə nisbətən daha uğurlu inteqrasiya edən Slovakiyada 20-dən çox sənaye parklan yaradılmış və bu modifıkasiyalı XİZ-lərdə istehsal-ixrac prosesləri əhəmiyyətli dərəcədə stimullaşdınimışdır [156]. Biz bilərəkdən bu ölkələrin hər birindən misallarla XİZ institutundan praktikada faydalanmağın səviyyəsini daha əyani göstərməyə cəhd göstəririk. Bu onunla bağlıdır ki, əgər göstərilən postsosialist ölkələr qrupu XİZ institutundan öz ölkələrinin region və dünya təsərrüfat sisteminə sürətli inteqrasiyası üçün ekstensiv impuls kimi istifadə etməyə müvəffəq olmuşlarsa, bu vəziyyəti postsovet respublikalan ilə eyniləşdinuək qeyri-mümkündür. Bu bir daha XİZ-lərin institusional əsaslarının daha dərindən öyrənilməsi və onlann praktiki adaptasiya proseslərinin təhlilinin təşkili problemlərinin müasir dövrdə postsovet respublikalan, o cümlədən Azərbaycan qarşısında aktual problem olaraq qaldığını göstərir. Belə ki, postsovet respublikalan dünya təsərrüfat sisteminə inteqrasiya proseslərində XİZ institununun real iqtisadi sahələrə tətbiqi proseslərini tam əhatə edən və mükəmməl işlənib hazırlanmış qanunvericilik bazasına, güzəştlər sisteminə, həmçinin bu kimi zonalann davamlı inkişafını təmin edə biləcək vahid milli konsepsiyaya malik olmamışlar. Məsələn, Rusiyada 2005-ci ilədək olan 15 il dövrdə XİZ-lər haqqında mükəmməl qanunvericilik bazasının və işlək güzəştlər sistemi mexanizminin olmaması, bu ölkədə XİZ-lərin yaradılması və fəaliyyəti proseslərinin üzərinə neqativ enerjili uzun müddətli kölgə salmışdır. Bu baxımdan XİZ-lər Rusiyanın dünya təsərrüfat sisteminə daha çox- şaxəli inteqrasiya etməsində, hələlik çoxfunksiyalı və effektivli iqtisadi mexanizmə çevrilə bilməmişdir. Fikrimizcə, Azərbaycanda yaxın perspektivdə XİZ-lərin tətbiqi proseslərinin reallaşacağı təqdirdə, regionda postsovet və postsosialist respublikalannda əldə edilmiş pozitiv və neqativ XİZ təcrübələrinin müqayisəli fonnada dərindən öyrənilməsinə, xüsusilə, onların praktiki tətbiq mərhələlərində spesifik sitLiaisyalara ciddi önəm venuək lazım gələcəkdir. Biz əvvəldə Taqanroq şəhərinin Azərbaycanın Sumqayıt sənaye mərkəzi ilə oxşar cəhətlərinə diqqəti yönəltmişdik. RV. Pavlov bu şəhərdə XİZ-lərin yaradılması və fəaliyyəti problemlərini (pers

pektivlərini) araşdırarkən bu qənaətə gəlmişdir ki, Rostov vilayətinin çay limanlannda, məsələn, Rostov və Taqanroq limanlannda heç olmasa lokal sərbəst gömrük zonalannm yaradılması Rusiyanın bu cənub regionunun iqtisadi inkişafına, yerli, regional və federal büdcəyə daxil olan vəsaitlərin əsaslı artmasına, ilk növbədə Taqanroq şəhərində sənaye mərkəzinin reabilitasiyasına və yeni- ləşdirilməsinə, müasir infrastrukturun yaradılmasına ciddi təkan verə bilər. Müəllifin bu fikirləri ilə razılaşmamaq olmaz. Belə ki, Taqanroqda müxtəlif sənaye profilli 40-dan çox iri müəssisənin mövcudluğu və sənayenin müxtəlif sahələrində 100 mindən çox insanın işlədiyi böyük potensialdan xəbər verir. Şəhərdə yeni istehsal sahələrinin yaradılmasına, müasir texnologiyalann gətirilməsinə, iqtisadi fəallığının artırılmasına ciddi marağın olmasını da nəzərə almamaq olmaz. Bu şəhərdə XİZ-in yaradılması istiqamətində 1990-cı illərin əvvəlindən apanlan ardıcıl və davamlı tədqiqat işləri, araşdırmalar, elmi-iqtisadi əsaslandırmalar, yerli hökümət strukturlannm belə zonanın yaradılmasına marağının güclü olması, regional və federal strukturlarla zəruri tədbirlərin görülməsi, nəhayət, 1998-ci ilin fevral ayın 5-də Rusiya Prezidentinin Fənnanı ilə “Taqanroq avtomobil zavodu”nun sərbəst anbarı formasında XtZ modifıkasiyasının bu şəhərdə yaradılması qərara alınmışdır. Elə həmin ilin aprel ayında Rusiya höküməti ölkənin avtomobil sənayesi sahələrinin sürətli inkişafı və buraya yeni texnologiyalann gətirilməsi məqsədilə tədbirlər müəyyənləşdinniş və 1998-ci ilin dekabnnda bu zonanın sərbəst anbar statusu təsdiq edilmişdir. Burada ilk növbədə “Taqanroq kombayn zavodu”nun bazasında müasir avtomobil zavodunun reallaşdmlması nəzərdə tutulmuşdur və hazırda bu regionda dünyanın müxtəlif avtomobil kompaniyaları və investorları cəmlənmişdir. Bu şəhərdə XİZ mo- difikasiyalarının birinin tətbiqi proseslərinə baxarkən vaxtilə, yəni 1990-cı illərin ortalarında Sumqayıt şəhərində azad iqtisadi zonanın yaradılması prosesindəki buraxılmış çoxlu sayda səhfləri yada salmamaq olmur. Əlbəttə, həmin dövrdə Azərbaycanda XİZ-lərin qanunvericilik bazası yox idi və belə bir mürəkkəb XİZ modifika- siyasmm tətbiqi və reallaşdırılması proseslərinə maliyyə vəsaitlə

rinin ayniması çətin idi. Fikrimizcə, bu qənaətlərdə obyektivlik və həqiqət vardır, amma həmin dövrdə Sumqayıtda XİZ modellərindən hər hansı birinin tətbiqinin qeyri-müəyyən olması, hətta bu zonanın şəhərin bütün ərazisinə aid edilməsi ideyasının irəli sürülməsi, mütəxəssislər və hökümət rəsmiləri arasındakı çoxsaylı ziddiyətlar, qəbul edilmiş qərarlarda və görülən tədbirlərdə vahid iqtisadi konsepsiyanın və mexanizmin olmaması, həmin dövrdə bu sağlam ideyanın gerçəkləşdirilməsinə imkan verməmişdir. O dövrdən uzun illər keçməsinə baxamayaraq, hazırda belə Sumqayıt şəhərində və onun reabilitasiya olunmamış istehsal və sənaye sahələrində, xüsusilə, tekstil sahəsində XİZ modifikasiyalanndan birinin hələ də reallaşdmlmaması, əlbəttə, bu şəhərin sənaye potensialının daha sürətlə artırılmasında fərqli və effektivli iqtisadi me- xanizmlərdən istifadəni ləngitməkdədir. Burada da qeyd etmək yerinə düşərdi ki, ölkə rəhbərliyi və Azərbaycan hökümətı son 10 ildə Sumqayıt şəhərinin ölkənin sənaye mərkəzi olması statusunu prioritet götürməklə, şəhərdə müasir energetika qurğulannm istismara verilməsinə və bir sıra sənaye sahələrində modernləşdirilmiş müəssisələrin yaradılmasına ciddi önəm vermişdir. Hətta tam XİZ statusu olmayan, ancaq bu kimi zonalann bir çox elementlərini daşıyan texnoparklann yaradılması prosesi başlamışdır. Bütün bunlar təqdirəlayiqdir, lakin bunlarla belə dünya təcrübəsində davamlı sınaqlardan çıxmış və güclü iqtisadiyyatlara malik bir çox ölkələrin iqtisadi sistemində yer almış XİZ-lərin ölkəmizin mühüm sənaye mərkəzi kimi əhəmiyyət kəsb edən Sumqayıt şəhərində milli maraqlara uyğun modifikasiyalanndan birinin tətbiqinin həyata keçirilməsi, bu regionun iqtisadi inkişafına, sənaye məhsulları istehsalının artırılmasına, iqtisadi fəallığın və sağlam rəqabətin güclənməsinə, investisiya mühitinin əlverişli olmasına və cəlbediciliyinin artmasına, bu regionda fərqli iqtisadi mexanizmin tətbiqi hesabına xarici iqtisadi fəaliyyətin genişləndirilməsinə, regionun ixrac potensialının əhəmiyyətli dərəcədə yüksəldilməsinə imkan verə bilərdi.

XİZ-lərin pozitiv və arzu edilən iqtisadi nəticələrilə yanaşı, onlann fəaliyyəti dövründə praktiki proseslərdə ortaya çıxan neqa

tiv hallann və belə zonalann az effektivli olması problemlərinin də dərindən orənilməsi Azərbaycanda XİZ-lərin praktiki aspektlərinin mühüm elementlərindən biri kimi diqqəti cəlb edir. P.V.Pav- lov Rusiya XİZ-nin aşağı məhsuldarlıqla fəaliyyətinin əsas səbəblərindən biri kimi bu XİZ-lərin müxtəlif icra orqanları tərəfindən yaradılmasında və dəqiq prioritet vəzifələri özündə birləşdirən normativ sənədlərin olmamasında görür. Məsələn, Rusiya XİZ- dən "Altay", "Saxalin", "Yantar", "Naxodka" kimi zonalar hələ keçmiş Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR), "İnquşetiya" XİZ-i Rusiya Federasiyasının Hökuməti, "Kuzbas" və "Sadko" XİZ-ri RSFSR-in Ali Sovetinin Sərəncamı, Kalinin- qrad və Maqadan vilayətlərindəki XİZ-lər Rusiya Respublikasının Federal Qanunu və, nəhayət, "Şeremetyevo" və "Kabardino-Bal- kar" çay limanının Qərb terminalı XİZ-i isə Rusiya Prezidentinin Fərmanı ilə yaradılmışdır [130]. Rusiya XİZ-nin idarəedilməsi və onlann fəaliyyətinin praktiki problemlərini koordinasiya edən dövlət qurumu üzrə sabit siyasətin olmaması da, bu ölkədə XİZ-in uğurlu iqtisadi alətə çevrilməsində və milli iqtisadi sistemdə layiqli yer almasında mənfi təsir göstərmişdir. Məsələn, Rusiyada XİZ institutunun dövlət səviyyəsində koordinasiya edilməsi üçün 2006-cı ildə yaradılmış Xüsusi İqtisadi Zonalar üzrə Rusiyanın Federal Agentliyi bu sahədə az miqdarda təcrübə toplamamış ləğv edilmiş və 2009-cu ildə yeni qurum - Rusiyanın iqtisadi İnkişaf Nazirliyinin nəzdində XİZ üzrə idarə yaradılmışdır. Dövlət idarəetmə sistemində qısa müddət ərzində tələsik təkmilləşdirmələr və sabit iqtisadi siyasətin təmin edilməməsi, XİZ-in ölkənin iqtisadi inkişaf proseslərində daha effektivl rol oynamasına imkan venuə- mişdir. Bunlarla belə, Rusiya hököməti 2005-2011-ci illərdə XİZ- lərin effektivli alət kimi formalaşması istiqamətində aparılan tədbirləri sabitləşdirmək cəhdləri diqqəti cəlb edir. Hesablamalara görə, 2016-cı ilədək təkcə turizm sektorunda yaradılmış və yaradılacaq XİZ-lərin fəaliyyəti nəticəsində ildə 10 mln. nəfərə yaxın turistin cəlb edilməsi mümkün olacaqdır. Göründüyü kimi, Rusiyanın XİZ-lərin idarəedilməsi, gömrük və vergi güzəştləri üzrə dövlət siyasətinin, normativ sənədlərin, faktiki

qeyri-sabit olması bu ölkənin XİZ-lərinə, qonşu Çindəki müvəffəqiyyətləri təkrar etməyə imkan verməmişdir. Fikrimizcə, Azərbaycanda XİZ-in tətbiqi üzrə bütün prosedurlar və proseslər dünya təcrübəsinə, həmçinin Çin təcrübəsinə əsaslanarkən, onlann praktiki reallaşdmlmasmda Rusiyada yol verilmiş nöqsanlar və XİZ-in tətbiqi proseslərində baş vermiş neqativ faktlar nəzərə alınmaqla, öyrənilməlidir. XİZ-in Azərbaycanda tətbiqi prosesləri həyata keçirilərkən, dünya təcrübəsində, xüsusilə qonşu Rusiyada baş vermiş neqativ faktların nəzərə alınması, bu mütərəqqi iqtisadi vasitənin Azərbaycanda daha uğurla tətbiqinə imkan verər və gəcəkdə XİZ-lərin ölkəmizin milli iqtisadi sistemində layiqli yer tutmasına əlavə zəmin yaradardı.

Qeyd etmək lazımdır ki, XİZ instrumentinin dünya iqtisadi proseslərində müxtəlif formalannm çoxsaylı təyinatlar və vəzifələrin yerinə yetirilməsi istiqamətində tətbiqinə baxmayaraq, bu kimi zonalann praktikada ən mühüm prioritet vəzifələrindən biri - onların yaradıldığı ərazilərə və iqtisadiyyat sektorlanna investisiyaların cəlb edilməsidir. Bir qrup Azərbaycan və Ukrayna alimləri investisiyalann iqtisadiyyat sahələrinə cəlbi və onlann mahiyyətlərinin araşdınıması problemlərinə dair tədqiqat işlərində investisiyalann makrosəviyyədə əsas vəzifələrini istehsalın genişləndirilməsi siyasətinin həyata keçirilməsi və elmi-texniki tərəqqinin sürətləndirilməsində, ictimai istehsalın, istehsal və xammal sahələri üzrə struktur islahatlannm aparılmasında, məhsulların keyfiyyətinin artırılmasında, xarici ticarət əməliyyatlarının strukturunun yaxşılaşdınimasında, ölkənin iqtisadi gücünün yüksəldilməsində və sosial-ekoloji problemlərin həllində, mikroiqtisadi səviyyədə istehsal və təsərrüfat subyektlərinin (müəssisələrin) dinamik fəaliyyətinin təşkilində, mənəvi və fiziki cəhətdən köhnəlmiş əsas istehsal fondlannm yenişləşdirilməsində və istehsalın texniki səviyyəsinin artırılmasında, innovasiyalann texniki-istehsal proseslərinə tətbiqində görürlər [1171. Fonua və tiplərinə gəldikdə isə investisiyalar real, portfel, birbaşa, dolayı investisiyalara bölünürlər, müddətlərinə gəldikdə isə: 1 ilə kimi (qısa müddətli), 1-5 ilə (orta müddətli) və 5 ildən yuxan olan uzunmüddətli investisiyalara bö

lünürlər. İnvestorlar isə özəl və dövlət subyektləri olmaqla, investisiyalan qarışıq formada, xarici investisiya kimi, birgə müəssisələrin və daxili (xarici) investorların yatırdıqlan investisiya resursları ilə çıxış edirlər. İnvestisiya cəlbediciliyinin ən mühüm aspektlərinə bu resurslann cəlb ediləcəyi ölkədə və regionda qanunlann alilliyi, siyasi və iqtisadi prioritetlərin sabitliyi, sosial-iqtisadi, təş- kilati-hüquqi, mənəvi-psixoloji, ictimai-siyasi kimi mürəkkəb və strateji komponentlərin investorlar üçün bütün hallarda maraqlı və qarşılıqlı anlaşılan olmasıdır. Bu proseslərdə qarşılıqlı inam mühitinin yaradılması, xüsusilə XİZ-lərdə ölkə qanunları ilə təsdiq edilmiş iqtisadi rejimin və güzəştlər sisteminin olması praktiki proseslərdə sabit və fəal iqtisadi mühit yaratmaqla, qarşıya qoyulmuş strateji məqsədlərin həyata keçirilməsinə imkan verir, investisiya mühitinin cəlbedici olması regionun ümumi iqtisadi inkişafını şərtləndirir, investisiyaların real iqtisadi proseslərdə tətbiqini asanlaşdıran infrastrukturun yaradılmasına səbəb olur, regionda bazar iqtisadiyyatı və kommersiya münasibətlərinin fonualaşmasmı sürətləndirir, demoqrafik situasiyadakı gərginliyi azaldır və davamlı iqtisadi inkişaf mexanizmlərinin reallaşdınlmasma münbit şərait yaradır. Bu elementlərin qarşılıqlı fəaliyyəti və ölkə qanunlan ilə müdafiə olunması eyni zamanda investisiya risklərinin əhəmiyyətli səviyyədə azalmasına imkan verir. Praktikada çox vaxt, təəssüf ki, siyasi və iqtisadi qeyri-sabitlik dövrlərində ilk güclü zərbə alan subyektlərin - xarici investorların olması faktlan dünya iqtisadi inkişaf tarixində müxtəlif iqtisadi ədəbiyyatlarda xeyli yer almışdır. Burada qeyd edək ki, XİZ-lər üzrə investisiyalann cəlbini asanlaşdıran mühüm aspektlərin bu və ya digər formada risk altına düşməsi investorlara verə biləcəyi zərərlə yanaşı, bu iqtisadi mexanizmin perspektiv inkişaf prioritetlərinə, onlann yerləşdiyi regionun və bütövlükdə milli iqtisadiyyat subyektinin imicinə beynəlxalq aləmdə ciddi zərbə vunnuş olur. XIZ-lərdə investisiya layihələri hazırlanan zaman əvvəlcədən onların əsasını təşkil edən kommerisya, büdcə və iqtisadi parametrlər üzrə göstəricilər sisteminin işlənməsi, elmi- iqtisadi və elmi-texniki əsaslandırılması

reallaşdınlacağı nəzərdə tutulmuş dövrə real proqnozlaşdınlması xüsusi əhəmiyyət kəsb edir. Son 10 illiklərdə dünya iqtisadiyyatında investisiya resurslannm və iri kapitalın əhəmiyyətli hissəsi elmi-texniki və innovasiya fəaliyyətli sahələrə, o cümlədən XİZ təyinatlı innovatik iqtisadi zonalara və klasterlərə yönəldilməkdədir. Məsələn, ABŞ, Yaponiya və Cənubi Koreyanın, həmçinin, Almaniyanın uzun dövr ərzində bu istiqamətlərə investisiya resurslannı (son illərdə Çin də bu istiqamətdə öz iqtisadi fəallığını xeyli artırmışdır) yönəltmişlər və bu proseslər müasir dövrdə də davam etməkdədir. Ölkəmizin strateji tərəfdaşı olan Türkiyədə də, türkdilli dövlətlərin iqtisadiyyatlanna investisiyala- nn yatınimasmda, həmçinin XİZ modellərinin reallaşdınimasmda marağın artması diqqət cəlb edir. Eyni hal iri kapital resurslanna malik ərəb investorlanna da aid ola bilər. Çin isə dünyanın ən ucqar nöqtələrinə belə (Afrika ölkələrinə artıq Çinin maliyyə və investisiya ekspansiya prosesləri başlayıb) kapital yatırmaqda yeni və güclü investor ölkə kimi çıxış etməkdə tarixi iddialanm ortaya qoymuşdur. Bu ölkə öz sərhədləri yaxınlığında çoxfıınksiyalı regional inteqrasiya XİZ-lərinin yaradılması və fəaliyyətinin təşkilinə milyardlarla ABŞ dollan səviyyəsində ölçülən iri investisiya kapitalı yatınnaqdadır və‘ bu proseslərin davam ediləcəyini bəyan etmişdir. Fikrimizcə, Azərbaycanda XİZ-lərin tətbiqi proseslərinin başlanacağı halda ölkəmizdə son 15 il ərzində külli miqdarda investisiya vəsaitlərinin yatırılması və ölkəmizin beynəlxalq iqtisadi təşkilatlarda və dünya ölkələri arasında iqtisadi imicinin )diksək olması amili bu kimi zonalara xarici şirkət və kompaniyalann daha fəal gəlməsinə, XİZ-lərdə nəzərdə tutulan iqtisadi təsərrüfat, istehsal-innovasiya fəaliyyətlərinin sürətli inkişafına zəruri olan iri kapitalın, həm yerli, həm də xarici investorlar tərəfindən sürətlə yatmlmasma əlavə stimullar verəcəkdir. Bu amillər nəzərə alınmaqla, bir daha bu qənaətə gəlmək mümkündür ki, müasir dövrdə Azərbaycanda neft-qaz sektorunun sürətli inkişafı ilə bərabər, bir qrup dünya təsərrüfat sisteminə güclü inteqrasiya etmək potensialına malik iqtisadi sektorların inkişafının sürətləndirilmısinə XİZ modifikasiyalannm bir neçəsinin praktiki tətbiqinin zamanının və

tişdiyini qeyd etmək olar.

Azərbaycanda XİZ-lərin elmi-nəzəri baxışlannm öyrənilməsindən sonra, bu kimi zonalann praktiki reallaşdınnası proseslərində ölkə regionlannın mövcud iqtisadi potensialının araşdınıması, burada olan təbii və əmək ehtiyyatlanndan səmərəli istifadənin təşkili mühüm əhəmiyyət kəsb edir. Son 7-8 ildə Azərbaycanda regionların kompleks inkişafı və infrastrukturun maddi-texniki bazasının gücləndirilməsi prosesləri ölkəmizdə iqtisadi inkişaf strategiyasının mühüm prioritetləri sırasında yer almışdır, indi əksər kənd yollarının, rabitə, poçt və idman komplekslərinin səvi>^əsi dünya standartlan tələblərinə cavab verir [9J. Ölkənin regionlannda və kənd yerlərində emal müəssisələrinin istismara verilməsi, davamlı və layiqli iş şəraitinin təşkili, daimi iş yerlərinin yaradılması prioritetliyi ilə fərqlənir. Şübhəsiz, bu kimi proseslər əhalinin kənd yerlərindən şəhərə axınının qarşısını alır və demoqrafik problemlərin kəskinləşməsi proseslərini zəiflədir. BMT-nin İnkişaf Proqramı və Əhali Fondu qurumunun mütəxəssislərinə görə, regionlarda yeni iş yerlərinin açılması əhali arasında iqtisadi fəallığın və məşğulluğun artması ilə yanaşı, miqrasiyanın azalmasına da xeyli təsir göstərmişdir. Belə bir nəticə diqqəti cəlb edir ki, hətta Azərbaycandan gedənlərlə Azərbaycana gələnlərin fərqi son illərdə orta illik 3,4 dəfə azalmışdır. Bu əsasən regionlarda qeyri-dövlət müəssisələrinin və özəl strukturların inkişafı ilə bağlıdır. Son illərdə Azərbaycanda iqtisadiyyatın bütün sahələrində baş verən mütərrəqqi dəyişikliklər əhalinin əmək fəallığının və çevikliyinin artmasına və nəticə etibarı ilə əmək bazannın tənzimlənməsinə müsbət təsir göstərmişdir [s.27-28, lOf Bütün bunlarla belə, fikri- mizcə, Azərbaycanın regionlarında ənənəvi əkinçilik və bitkiçilik sahələrinin, heyvandarlığın, kənd təsərrüfatının digər spesifik sahələrinin və müasir texnologiyalar əsasında aqroemal infrastrukturunun, həmçinin innovatik müəssisələr şəbəkəsinin yaradılması üçün daha çevik, iri kapitalı gətirməyə imkan verən və investorları stimullaşdıran iqtisadi mühitə və iqtisadi mexanizmlərə zərurət qalmaqdadır. Dövlət kənd təsərrüfatı və

aqro sahələri nə qədər siyasi və iqtisadi baxımdan dəstəkləsə belə, ölkənin bütün region və ərazilərinə eyni vaxtda davamlı və güclü iqtisadi inkişaf proseslərinin təşkilinə tələb edilən iri investisiya resurslarını tam ayıra bilməz və dünyanın heç yerində belə bir praktika mövcud olmamışdır. Bu istiqamətdə daha məhsuldar nəticələrin əldə edilməsi, özəl iqtisadiyyat sektorlannm iqtisadi fəallığına və onlann regional, həmçinin beynəlxalq iqtisadi inteqrasiya məkanına asanlıqla çıxmasına şərait yaradan iqtisadi rejimlərin təşkili zərurəti qalmaqdadır. Əlbəttə, bu məqsədlər üçün müxtəlif modiifikasiyalı iqtisadi mexanizmlər işləyib hazırlamaq mümkündür. Məsələn, dövlət vəsaitləri hesabına bir regionda bütün tələb olunan infrastruktur obyektlərinin və emal müəssisələrinin geniş şəbəkəsinin yaradılmasına külli miqdarda maliyyə resursları sərf edilir, amma praktiki proseslərdə maliyyə- təsərrüfat fəaliyyətinin nəticələri və yaxud biznes və iqisadi fəaliyyət üçün maddi, həm də sosial məsuliyyətin səviyyəsi xeyli aşağı olması ilə fərqlənir. Başqa sözlə, bazar iqtisadiyyatı proseslərini keçməyən təsərrüfat fəaliyyəti sahələrindən və iqtisadi mühitdən daha yüksək iqtisadi artım motivasiyası gözləməyin perspektivləri xeyli azdır. Bu baxımdan oradakı əmlak və təsərrüfat münasibətləri, kredit və iri kapitalın idarəedilməsi prosesləri, xarici ticarət fəaliyyəti, istehsal münasibətləri, xidmətin səviyyəsi, bazar münasibətlərinə əsaslanmayıb, tələb və təkliflə nizamlanmayıb, həmçinin bu proseslər iqtisadi fəallıq, maneəsiz biznes mühiti, şəffaf maliyyə və bank əməliyyatları, mütərrəqi iqtisadi rejim mexanizmləri ilə təmin edilməyibsə, iqtisadi fəaliyyətin həm maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri baxımından, həm də sosial-iqtisadi problemlərin həlli baxımından məhsuldar olacağına inam azdır. XİZ-lərin tətbiqi proseslərinin mühüm aspektlərinin araşdırılması zamanı qeyd edilən belə bir iqtisadi mühitin tələblərinə onlann cavab verə bilməsi qənaətinə gəlməyimizin əsas səbəblərindən biri kimi, belə zonalann ərazisində azad iqtisadi münasibətlərin, fəal iqtisadi mühitin, sahibkarlar və biznes subyektləri üçün mütərrəqqi və stimullaşdıncı güzəştlər sisteminin mövcudluğu, inzibatı və digər süni baryerlərin azlığı və sair krite-

riyalardır. Digər tərəfdən Azərbaycanda bazar iqtisadiyyatı proseslərində demoqrafik potensialdan səmərəli istifadə edilməsi və əmək bazannın inkişafının təmin edilməsi mühüm sosial-iqtisadi prioritet kimi diqqəti cəlb edir. Bu problemləri öyrənən bir qrup alimlər Azərbayeanda əmək bazannda qadınlann işlə təminatı və onlann öz əmək potensialından səmərəli istifadə edilməsində bir qrup problemləri qeyd etmişlər [s.llO, 122]. Belə ki, ölkənin demək olar ki, bütün regionlannda, o cümlədən iri və orta şəhərlərdə və kənd yerlərində qadınlar arasında işsizlik kişilərə nisbətən daha çoxdur. Qadınlann əksəriyyəti müvafiq peşə təhsilləri almadığından əmək bazanna inteqrasiyada ciddi çətinlik çəkirlər. Bu məsələlərdə problemin vacibliyini qabardan alimlər və tədqiqatçılarla razılaşmamaq olmaz. Doğrudan da nəinki müvafiq təhsili, həmçinin peşə təhsili olmayan qadınlar, həm də ali və orta ixtisas təhsilli, eyni zamanda əmək bazannda tələb olunan peşələrə yiyələnən qadınlar belə müvafiq iş tapmaqda çətinlik çəkirlər. Heç də sirr deyildir ki, Bakı, Sumqayıt, Gəncə, Şəki, Mingəçəvir, Lənkəran, Şirvan kimi nisbətən iri şəhərlərdə minlərlə qadınlar bu gün müasir əmək bazan inteqrasiyası proseslərindən kənarda qalmaqdadırlar. Əlavə olaraq, bu kateqoriyadan olan qadınlara bir çox spesifik müvafiq ali və orta ixtisas təhsilli ixtisas sahiblərini də (məsələn, həkim, müəllim və s.) paytaxt Bakıdan və iri şəhərlərdən uzaq olan rayon yerlərinə işləməyə getmək motivasiyasının az olması, şübhəsiz, əmək bazarında problemlərin kökündə duran məsələlərdəndir. Bu kimi problemləri dünya praktikasında dövlətlər müxtəlif formalarda həll etməkdə maraqlı olmuşlar. Məsələn, bir çox inkişaf etmiş və yeni inkişaf etmiş sənaye ölkələrində elm və зmksək texnologiyalı iqtisadiyyat sahələrinin sürətli inkişafı ilə yanaşı, əməktutumlu sənaye sahələrinin də inkişafına xüsusi diqqət yetirilir. Bizim diqqətimizi cəlb edən əsas məqamlar isə, bu istiqamətdə, xüsusilə, tekstil və qida sənayesi sahələrinin inkişaf etdirilməsi proseslərində müxtəlif XİZ modellərinin uğurlu tətbiqi olmuşdur [30]. Bu proseslərdə həmin sənaye sahələrinin inkişafı ilə yanaşı, yerli əmək ehtiyatlanndan səmərəli istifadə, o cümlədən, qadınla- nn məşğulluğunun gücləndirilməsi prioritetləri diqqəti cəlb edir.

Praktiki baxımından qadın məşğulluğunun XİZ-lər vasitəsi ilə gücləndirilməsi və əlavə stimullaşdmlması Çin, Türkiyə, Meksika, Malayziya, Tayland, Vyetnam XİZ-lərində daha uğurlu və məhsuldar alınmışdır. Azərbaycanda XİZ-lərin praktiki təşkili proseslərində bu ölkələrdə toplanmış təcrübələrə müraciət etmək məqsədəuyğun hesab edilir.

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı münasibətlərinin dərinləşdiyi mühitdə əmək bazan həssas bir sahə kimi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda son illərdə əmək bazarının bazar iqtisadiyyatı şəraitində müasir tələblər səviyyəsində formalaşdırılması və əmək ehtiyatlanndan səmərəli istifadə istiqamətində xeyli iş görülmüşdür [46]. Bununla belə, XİZ modellərinin tətbiqi proseslərində bu kimi zonalann fəaliyyət göstərdiyi ərazilərdə (regionda) əmək ehtiyatlarından səmərəli istifadə və əmək bazarının tələblərinnə uyğun adekvat tədbirlərin görülməsi, işsizliyin səviyyəsinin azaldılması, əhalinin məşğulluğunun gücləndirilməsi məqsədi ilə kompleks tədbirlərinin həyata keçirilməsi perspektivləri də diqqəti cəlb edir. Azərbaycanda əmək bazannın formalaşması prosesləri keçmiş SSRİ-nin süqutundan sonra yeni formalaşma mühitinə məruz qalmışdır GA.Əzizova yazır: “Azərbaycanda əmək bazan dövlətin, sahibkarlığın və muzdlu fəhlələrin bir-birindən asılı olmayaraq verdiyi qərarlann təsiri altında nizamsız halda formalaşıb. Azərbaycanın əməkqabiliyyətli əhalisi bazar iqtisadi)^atı ölkələrində məlum olmayan bir qrup problemlərlə qarşılaşdılar. Bunlara dövlət iqtisadi sektorunda kəskin ixtisarların olması, real əmək haqqı səviyyəsinin aşağı düşməsi, işçi güvvəsinə tələbatın azalması, maliyyə resurslannm məhdudluğu daxildirlər” [s.36, 69]. Şübhəsiz, müəllifin bu qənaətində ciddi həqiqətlər olmuşdur və biz bu tarixi-iqtisadi proseslərin şahidiyik. Bir sıra iri kimya və neftkimya müəssisələrində həmin dövr üçün iqtisadi təsərrüfat proseslərinə şahidliyimizdə kütləvi ixtisarlar, iri istehsal sahələrinin bir-birinin ardınca fəalij^ətinin dayandınnası, yüksək ixtisaslı kadrlann axıcılığının nizamlanmasının qeyri-mümkünlüyü, dövriyyə vəsaitlərinin çatışmaması, istehsal-kooperasiya əlaqələrinin kəsilməsi, əmək haqqı problemlərinin artması, onların fiziki yeril

məsində çətinliklərin yaranması, istehsal gücünün aşağı düşməsinin nəticəsində işçilərin uzunmüddətli ödənişsiz məzuniyyətlərə göndərilməsi və sair sosial-iqtisadi problemlərin baş verməsini damnaq qeyri-mümkündür. Nəzərə almaq lazımdır ki, Azərbaycanda orta və iri sənaye müəssisələrinin əksəriyyəti bu problemlərdən yan qaça bilməmişdir və təəssüf ki, bütün bunlann nəticəsində ölkəmizin sənaye potensialı imkanlarından son 15-20 il ərzində daha səmərəli istifadə edilməsi mümkün olmamış və belə müəssisələrin çoxu artıq bu gün fəaliyyətsizdirlər. Biz qeyd etmişdik ki, bir çox dünya ölkələrində iqtisadi tənəzzül və islahatlar dövründə ayrı-ayrı sənaye sahələrinin yenidənqurulması, iri müəssisələrin reabilitasiyası və profilinin müasirləşdirilməsi proseslərində XİZ-lərdən fəal istifadə olunmuşdur. Onu da qeyd etmişdik ki, məhz 1990-cı illərin ortalarında Azərbaycanda da, konkret olaraq, Sumqayıt sənaye mərkəzində XİZ-in yaradılması və təşkili məsələləri ciddi müzakirə obyektinə çevrilmişdi. Lakin bizim bir çox hallarda vurğuladığımız səbəblərdən, iqtisadi ədəbiyyatlarda, ölkəmizin alim və mütəxəssislərimizin araşdınnalannda yer almış mülahizələrindən və nəticələrindən artıq bizə Azərbaycanda həmin dövrdə XİZ modelinin gerçəkləşdirilməsinin mümkün olmamasının əsas səbəbləri məlumdur. Bunlann özəyində XİZ-in yaradılmasının elmi-nəzəri baxışlannm dərindən öyrənilməməsi, qanunvericilik bazasının olmaması, vahid milli konsepsiyasının işlənib hazırlanmaması və həmin dövrdə XİZ-lərin praktikada real təşkili prosesləri üçün maliyyə resurslannın çatışmaması, həmçinin bu kimi zonalann praktiki prosesləri ilə bağlı problemlərin zəif araşdırılması dayanır. Əlbəttə, ölkəmizin müasir iqtisadi imkanlan və beynəlxalq arenada nüfuzu (imici) baxımından qeyd olunan problemlərin hazırkı şəraitdə
Azərbaycanda XİZ-lərin təşkilinə maneçilik edəcəyi qeyri-ciddi görünər. Artıq Azərbaycanda iqtisadi islahatlar xeyli dərinləşib, işgüzar və fəal, həmçinin davamlı, bazar iqtisadiyyatı mexanizmi formalaşıb, sabit bank və gömrük sistemi fəaliyyət göstərir, vergi mexanizmi təkmilləşdirilib, maliyyə-kredit sistemi dayanaqhlığı ilə fərqlənir, valyuta ehtiyatlanmız artır və s. Belə şəraitdə

ölkəmizin iqtisadi gücünün daha da artırılması, iqtisadi inkişaf prioritetlərinin çoxukladlılığmın təmin edilməsi məqsədilə, əlbəttə, Azərbaycanın milli iqtisadi sistemində XİZ modifıkasiyasmın real tətbiqi proseslərdə yer alması üçün bütün imkanlar mövcuddur [31; 32; 33; SO].

**5.2.** Azərbaycanda XİZ-in təşəkkülü və hüquqi bazanın formalaşması proseslərinin müasir vəziyyəti.

Dünya XİZ-lərinin təşəkkülü və hüquqi bazasının fomıalaşması proseslərinin təhlili göstərir ki, bu kimi zonaların yaradılması və fəaliyyətinin reallaşdın İmasında ən mürəkkəb və mükəmməl iş tələb edən proseslərdən biri qanunvericilik bazanın yaradılması, müvafiq normativ sənədlərin işlənib hazırlanması və ölkə üzrə XİZ-lərə aid mükəmməl qanunun qəbul edilməsidir. XİZ-lər haqqında hüquqi bazanın fonnalaşması və qanunvericilik aktlannm qəbul edilməsi proseslərində bir çox amillər, o cümlədən bu kimi zonalann ərazi və iqtisadi rejimlərinin spesifik xüsusiyyətlərinin əhatə edilməsi, idarəetmə və nəzarət fünksiyalannın müəyyənləşdirilməsi, gömrük, vergi prosedurlarının və yerli icra orqanlannın fəaliyyəti ilə bağlı məsələlərin öz əksini tapması, XİZ subyektlərinin hüquqlanmn, xüsusilə xarici investisiyalann qorunması və digər mühüm iqtisadi fəaliyyətlə bağlı prosedurlann nəzərə alınması mühüm əhəmiyyət kəsb edir [34]. Azərbaycanda XİZ-lərin hüquqi bazasının təşəkkül tapması istiqamətində işlər uzun bir dövrü əhatə etsə də, bu barədə əsas müddəalar öz əksini “Azərbaycan Respublikasının regionlannın sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004- 2008-ci illər)” yer almışdır. Məhz bu Proqramda ölkədə sahibkarlığın inkişafi və investisiya fəaliyyətinin genişləndirilməsi məqsədilə, həmçinin rəqabət qabiliyyətli məhsulann istehsalı və xidmətlərin göstərilməsi üzrə istehsal və xidmət şəbəkələrinin təşkili üçün XİZ- lərin yaradılması nəzərdə tutulmuşdur. Bununla belə, ölkədə XİZ- lərin təşəkkülü və hüquqi bazasının formalaşmasında Azərbaycan Respublikası Prezidentinin 6 mart 2007-ci il tarixli “Azərbaycan

Respublikasında xüsusi iqtisadi zonalann yaradılması haqqında" Fərmanı bu saliədə mühüm irəliləyişə səbəb olmuşdur. [İl).

Fərmanda ölkədə bu kimi zonalann ölkənin iqtisadi inkişaf proseslərində qarşıya qoyulmuş strateji Proqramlann və layihələrin həyata keçirilməsində əhəmiyyəti qeyd edilməklə yanaşı, həmin zonalann tətbiqi üzrə prioritet istiqamətlərin, güzəştli vergi və gömrük rejimlərinin işlənib hazırlanması və nonnativ sənədlərin qəbul edilməsi, bu kimi zonaların idarəetmə modellərinin müəyyənləşdirilməsi və təşkili üzrə digər məsələlərin həlli tapşırılmışdır. Qeyd etmək lazımdır ki, həmin Prezident Fənuanımn verilməsindən sonra, bu istiqamətdə geniş elmi diskussiyalar başlamış, bu sahə üzrə mütəxəssislər tərəfindən müxtəlif fikirlər söylənilmiş və XİZ-lər üzrə qanunvercilik bazasının formalaşması prosesləri xeyli intensivləşmişdir. Nəhayət, 2009-cu il aprel ayının 14-də "Xüsusi iqtisadi zonalar haqqında Azərbaycan Respublikasının Qanun"u qəbul edilmiş və həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə həmin ilin iyun ayının 3-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı verilmişdir 150;51]. Əvvəla qeyd edək ki, XİZ-lər haqqında Qanunun əsasında ölkə Konstitusiyasının müddəaları və digər normativ hüquqi aktlar, eyni zamanda Beynəlxal Konvensiyalar və Müqavilələr dayanır. Qanunun qəbul edilməsindən ən strateji məqsədlər kimi ölkəmizdə yüksək rəqabət qabiliyyətli məhsulların istehsalının təşkili üçün sahibkarlıq fəaliyyətinin inkişafının sürətləndirilməsi nəzərdə tutulmuşdur. XİZ-lər yaradılarkən, burada nəzərdə tutulan fəaliyyət sahələri ciddi şəkildə iqtisadi baxımdan əsaslandırılmalı, infrastruktur məsələləri nəzərə alınmalı, zona subyektlərinin sahibkarlıq fəaliyyətlərinin prioritet istiqamətləri və spesifik xüsusiyyətləri öz əksini tapmalıdır. Zonalann idarəedilməsi və inkişafı funksiyaları ilə müsabiqə nəticəsində seçilmiş operator-kompaniya və XİZ-in müdiriyyəti məşğul olmalıdırlar. Zonanın fəaliyyəti ilə bağlı ən mühüm amillərdən biri burada rezidentlərə qanunvericiklə nəzərdə tutulmuş güzəştli vergi rejimlərinin tətbiq edilməsidir [231. Qanunun 18.2. maddəsinə əsasən XİZ-lərin ərazisində sahibkarlıq fəaliyyəti göstərən,

rin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdikləri vəsaitin ümumi məbləğindən və satışdan kənar gəlirlərindən sadələşdirilmiş vergi formasında 0,5 % dərəcə ilə vergi hesablanılır və hər rübün sonunda növbəti 20 gündən gec olmayaraq, həmin məbləğin ödənilməsi təmin edilir. Bu kimi zonalara daxil olan idxal mallan üçün gömrük rüsumlan və vergilər tutulmur. Ölkədaxili XİZ-lər arasında idxal-ixrac əməliyyatlan üzrə vergilər nəzərdə tutulmamışdır. Qanunun 20.2. maddəsinə əsasən dövlət xüsusi iqtisadi zona yaradılarkən onun ərazisində müəyyənləşdirilmiş xüsusi hüquqi rejimin XİZ-in fəaliyyət göstərəcəyi bütün müddət ərzində qüvvədə qalacağına təminat verir. Qeyd etmək lazımdır ki, bu Qanunun tətbiqi ilə bağlı Prezident Fənnanmda XİZ-lərin ölkə Qanununa uyğun yaradılması və təşkili məsələləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, İqtisadi İnkişaf Nazirliyinə, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsinə tapşırılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 199 nömrəli Qərarı ilə «Xüsusi iqtisadi zonanın sərhədlərində gömrük nəzarətinin, gömrük məntəqələrinin fəaliyyətinin, mallann gömrük rəsmiləşdirilməsinin, nəqliyyat vasitələrinin və fiziki şəxslərin sərhəddən buraxılma rejiminin sadələşdirilmiş Qaydalan» təsdiq edilmişdir (52J. Həmin Qaydalann 7.1.2. maddəsinə əsasən xaricdən XİZ-lərə idxal olunmuş və XİZ-lərdən ölkə ərazisinə ixrac olunarkən mallar üçün gömrük rüsumlan və vergilər tutulmur. 7.1.3. maddəsinə görə isə, XİZ-də istehsal və ya emal olunmuş mallar Azərbaycan Respublikasının gömrük ərazisi xaricinə ixrac edilərkən gömrük rüsumlan tutulmur. Şərtlərə görə, Dövlət Gömrük Komitəsi XİZ ərazisində mal və nəqliyyat vasitələri ilə əlaqədar gömrük əməliyyatlannın keçirilməsi üçün postlar yaradır. Bu buraxılış məntəqələrinin yeri XİZ operatoru tərəfindən gömrük orqanlan ilə razılaşdıraraq, həyata keçirilir. Onu da xüsusi vurğalamaq lazım gəlir ki, Azərbaycan Respublikasının XİZ-lər haqqında müvafiq Qanunu keçmiş postsovet Respublikalan sırasında ən axınncı qəbul edilmiş hesab olunur. Bu baxımdan, fİkri- mizcə, Azərbaycanın XİZ-lər üzrə qanunvericilik bazasının daha yaxşı formalaşdınıması və optimal kriteriyalara nisbətən cavab

verən qanun layihəsinin qəbul edilməsinə yetərincə baza və vaxt olmuşdur. Nəhayət, Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 20 aprel tarixli Fənnanı ilə XİZ-in operatorunun seçilməsi üzrə müsabiqənin keçirilməsi qaydalan təsdiq olunmuşdur [53]. Qaydalara əsasən müsabiqənin təşkilatçısı qismində İqtisadi İnkişaf Nazirliyi çıxış edir və müsabiqənin keçirilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Müsabiqə Komissiyası təşkil olunur və onun maksimum müddəti 60 gündən artıq olmamalıdır. Müsabiqənin keçirilməsinə 30 gün qalmış müvafiq elan verilməli və müsabiqəyə sənədlər toplusunun alınması qaydalan, yeri və vaxtı, meyarlar və şərtlər bildirilməlidir. Müsabiqə qalibinin müəyyən olunması üzrə müvafiq sənədlər rəsmi protokolla sənədləşdirirlir və növbəti 10 iş günü ərzində səlahiyyətli orqan və müsabiqənin qalibi arasında XİZ-in idarəetmə Sazişi imzalanır. Göründüyü kimi, 2007-2010-cu illər ərzində ölkəmizdə artıq XİZ-lərin təşəkkülü və hüquqi bazasının fomıalaşması proseslərinin əsasən başa çatdığını qeyd etmək mümkündür. Qanunvericilik bazası ilə bağlı qəbul edilmiş sənədlər real iqtisadi proseslərdə adaptasiya keçmədiyindən, şübhəsiz, əlavə təkmilləşdirilmələrə zərurət yaranacaqdır. Amma hələlik ölkəmizdə XİZ-lərin real tətbiqinin baş tutması üçün geniş həcmli tədbirlərin görülməsinə zərurət qalmaqdadır.

Azərbaycanda XİZ-lərin təşəkkülü və hüquqi bazasının formalaşması proseslərinin mövcud vəziyyətini araşdırarkən, bu istiqamətdə bir sıra fikir və mülahizələr diqqətimizi cəlb etmiş və beynəlxalq təcrübə nümunələrinə diqqət ayırmışıq. XİZ-in necə adlandırılmasından və statuslarının müxtəlifliyindən asılı olmayaraq, bu kimi zonalann beynəlxalq-hüquqi və milli-hüquqi aspektlərinin dərindən öyrənilməsi problemləri daim zərurət olaraq qalmaqdadır. Belə ki, qanunvericilik bazalan mükəmməl olmadığı halda, beynəlxalq hüquq normalarının və milli hüquqi elementlərin uyğunsuzluğu baş verdikdə, XİZ-nin effektivli və təşkili fəaliyyəti üçün ciddi problemlər ortaya çıxa bilər. Təsadüfi deyildir ki, bir çox ölkələrdə XİZ-lər haqqında qanunlar qəbul edildikdən sonra uzun müddət ərzində bu kimi zonaların praktiki tətbiqi mümkün olma

mışdır. Bəzi hallarda isə bu kateqoriyadan olan Qanunlar işə düşməmiş təkmilləşdimıələrə ehtiyac yaranmışdır və s. Beynəlxalq-hüquqi və milli-hüquqi aspektlərin XİZ-lərin real fəaliyyət rejimlərinə təsiri problemlərini tədqiq edən rusiyalı alim A.X.Ketov bu amillərin dərindən öyrənimısinin vacibliyini dünyada XİZ-lərin praktiki fonnalaşdınıması və inkişafı proseslərindəki xüsusiyyətlərlə izah edir. Müəllifin fikrincə, XİZ-nin beynəlxalq və milli-hüquqi aspektlərinin dərindən öyrənilməsi və nəzərə alınması, bu kimi zonaların mərkəzləşdirilmiş iqtisadiyyatın bazar iqtisadiyyatı müstəvisinə keçirilməsində, sahibkarlıq subyektlərinin bürokratik dövlət prosedurlanndan asılılığının azaldılmasında, ticarətdə, xüsusilə, xarici ticarətdə monopolizmin azaldılmasında, istehlak bazarının tələblərinə cavab verən yüksək keyfiyyətli məhsulların istehsalının təşkilində, iqtisadiyyatın müxtəlif sahələrinin maddi-texniki bazasının möhkəmləndirilməsində və onların yeni texnika, müasir avadanlıqlarla təchiz olunmasında, milli subyektlərin dünya təsərrüfat sisteminə çıxmasımn sürətləndirilməsində rolu əhəmiyyətli dərəcədə artır 1107]. Bu baxımdan XİZ-də investisiya mühitinin və biznes şəraitinin əlverişli olması məqsədilə, milli qanunvericlik aktları, normativ sənədlərin qəbulu zamanı, mütləq beynəlxalq hüquqi aspektlər də nəzərdən qaçmamalıdır. XİZ yaradılarkən, şübhəsiz, bu kimi zonaların müəyyən iqtisadi, sosial və elmi-texniki aspektləri olur və bu amillərin praktikada daha məhsuldar gerçəkləşdirilməsi qəbul edilən Qanunlardan, normativ sənədlərdən birbaşa asılıdır. Burada bir məqamı da qeyd etmək lazımdır ki, iri kapitala malik inkişaf etmiş ölkələrdə XİZ-lər əsasən depressiv ərazilərdə infrastrukturun qurulması və inkişafı, elmi-texniki yenliklərinin praktiki həyata keçirilməsi məqsədilə yarandığı halda, inkişaf etməkdə olan ölkələrdə isə bu kimi zonalar əsasən xarici investisiyalann cəlb edilməsi, milli iqtisadiyyat sektorlanna yeni texnologiyalann gətirilməsi və müasir idarəetmə metodlarının tətbiqi məqsədilə təşkil olunur. Bir mühüm məsələni də xüsusilə qeyd etmək yerinə düşərdi. Belə ki, hər bir dövlət XİZ-in yaradılması ərəfəsində bu kimi zonaların təşkili və tətbiqi sahəsində milli maraqları nəzərə alan strateji

Konsepsiya qəbul edərsə, sonrakı proseslərdə belə zonaların praktiki reallaşdınıması daha səmərəli və effektivli nəticələrə gətirib çıxara bilər. Ümumiyyətlə, müxtəlif dövlətlərdə XİZ-in daha səmərəli idarə olunması, onlann beynəlxalq iqtisadi proseslərdə fəaliyyətinin tənzimlənməsini nizamlamaq üçün dövlət qurumları, korporasiyaları və kompaniya-lan təsis edilir. Məsələn ABŞ-da sərbəst zonaların idarə edilməsi üzrə İdarə (bu idarəyə ABŞ-ın Ticarət, Maliyyə və Müdafiə nazirliklərinin də nümayəndələri daxildirlər). Cənubi Koreyada Ticarət və Sənaye Nazirliyi, İrlandiyada Hökümət Şurası, Malayziyada regional idarəetmə strukturlan, Rusiyada İqtisadi İnkişaf Nazirliyinin nəzdində XİZ üzrə İdarə və sairləri göstənnək olar. XİZ-in və yaxud bu kimi digər modifıkasiyah iqtisadi zonaların idarə edilməsi orqanlannın və normativ sənədlərin kompleks nəzərə alınması hələ belə zonaların sürətlə iqtisadi sistemə daxil olmasına və fəa. liyyətinə zəmanət vennir. Bu amillərlə yanaşı, belə zonaların təşkili zamanı həmin zonaların qarşısında duran strateji vəzifələrin hüquqi-təsərrüfat aspektlərinin də ciddi nəzərə alınması vacibdir. XİZ-in hüquqi bazası fonnalaşdırılarkən kompleks yanaşma təmin edilməlidir ki, bu sahə üzrə qanun və normativ sənədlər bu zonalarda istehsalın yaradılması və inkişafı proseslərində effektivli nəticələrə, zonaların yerləşdiyi ərazilərin kompleks inkişafına, sosial-iqtisadi problemlərin həllinə, modernləşdirmə elementlərinin məhsuldar tətbiqinə, təşəbbüskarlığın və mütərəqqi ideyaların real proseslərdə stimullaşdmlmasına imkan versin və şərait yaratsın. Məsələn, Sinqapur və Honkonq XİZ-inin məlum müvəffəqiyyətlərinin əsas səbəblərindən bjri kimi bu zonalarda yüksək rəqabət qabiliyyətli və idxaləvəzləyici mal və məhsullann istehsalının prioritet kimi götürülməsi, bu proseslərlə bağlı hüquqi-nonnativ sənədlərin işlək mexanizminin real praktikada tətbiqinə nail olunması göstərilir. Eyni situasiyanı Cənubi Koreya və Tayvanda fəaliyyət göstərən XİZ-rə də aid etmək olar. Bu ölkələrdə zona təsərrüfat komplekslərinin sürətli inkişafı ümumilikdə öz ölkələrinin milli iqtisadiyyatlannm sürətlə dünya iqtisadiyyatına qovuşmasına, rəqabət qabiliyyətli ölkələr arasında ön cərgələrə çıxmasına imkan

vemıişdir. XİZ-in vergi və gömrük rejimlərinin hazırlanması zamanı hüquqi aspektlərin balanslaşdınıması mühüm əhəmiyyət daşıyır. Vergi rejimlərinin hüquqi bazası hazırlanarkən, burada kapitalın maneəsiz hərəkəti və gəlir gətirə bilməsi aspektləri, regionda mövcud vergi rejimləri ilə nisbətdə cəlbedici olması məqamları, investisiyalann cəlbinin asanlaşdırılması proseslərinin şəffaflığı və sadəliyi, sahibkarlığın və biznesin inkişafına əlavə stimullann verilməsinin mümkünlüyü, bürokratiyadan uzaq praktiki maliyyə və valyuta şəbəkəsi və sairlər diqqətdən yayınmamalıdır. XİZ-də gömrük rejiminin hüquqi aspektlərinin fonnalaşdırılmasmda isə, bu proseslərdə mal və xidmətlərin operativ, çevik hərəkətini təmin edən normativ sənədlər yer almalıdır. XİZ-in normativ hüquqi-bazasının əsas elementlərindən biri də investorlann bu zonalara gəlməsi və investisiyalann yatırılması prosedurlarının hüquqi bazasının olduqca mükəmməl olması ilə bağlıdır. Bu normativ sənədlərdə investisiyalann yatırıması, qorunması və kapitalın artınıması prosesləri üzrə hüquqi bazislər beynəlxalq Saziş və Konvensiyalara əsaslanmalı, bu kimi investisiyalann yatırılacağı ölkələrin qanunvericilik aktları ilə uzlaşdınımahdır. Hazırda dünya ölkələri arasında investisiyalann mükafatlandınıması (həvəsləndirilməsi) və onlann müdafiəsi üzrə üç yüzə yaxın iki tərəfli Sazişlər qüvvədədir. ABŞ, Almaniya Böyük Britaniya, İsveçrə və Niderland kimi ölkələrdə bu tip Sazişlərin digər ölkələrlə bağlanması real praktikada geniş yer almışdır. İnvestisiyalann çevik axınına müsbət təsir göstərən bu kimi Sazişlər adətən on ilədək, müstəsna hallarda isə iyirmi ilədək bağlanılır. Bundan əlavə xarici investisiyalann cəlbində ciddi maraqlan olan ölkələrin əksəriyyətində müxtəlif qanunlar qəbul edilməklə, bu ölkələrə kapitalın gətirilməsinə bir növ zəmanət venniş olurlar. Yeri gəlmişkən, Azərbaycanda da xarici investisiyaların qorunması üzrə müvafiq qanun hələ 1990-cı illərin əvvəllərindən qüvvədədir. Əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycanda XİZ-in tətbiqi reallaşdınımadığmdan, ölkəmizin bu sahədə dünya təcrübəsindən yararlanmaq imkanı hələlik qalmaqdadır. Belə ki, Azərbaycan XİZ-lərin qanunvericilik bazasını artıq for- malaşdınb, ancaq praktikada bu Qanunun işlək mexanizmi hə-

tutmayıb. Bu baxımdan, Azərbaycanın iqtisadi-inkişaf prioritetlərinə oxşarlığı ilə seçilən MDB ölkələrində XİZ-in beynəlxalq milli aspektlərinin bu ölkələrin qanunvericilik sənədlərində necə əks olunmasının və praktikada işləmək effektivliyinin daha dərindən öyrənilməsi zərurəti vardır [81]. MDB ölklələrinin əksəriyyətində XİZ-lər haqqında Qanunlar 1990-cı illərin əvvəllərində qəbul edilmişdir. Məsələn, Qazaxıstanda bu Qanun 1990-cı ilin 30 noya- bnnda qüvvəyə minmişdir. Bununla belə, bir çox beynəlxalq və milli hüquqi aspektləri nəzərə almaq məqsədi ilə, 1996-cı ilin 26 yanvarında Qazaxıstan Prezidentinin "Qazaxıstan Respublikasında xüsusi iqtisadi zonalar haqqında" Fərmanı verilmiş və bu Fərman Qanun gücünə malikdir. Fənnanda XİZ-in universal və effek- tivli fəaliyyəti üçün beynəlxalq və hüquqi normativlərə kompleks yanaşılmış və bu kimi zonalann praktiki fəalİ3^ətinin səmərəli təşkilinə əlavə stimullar verilmişdir. Qırğızıstanda "Qırğızıstan Respublikasında sərbəst iqtisadi zonalar haqqında" Qanun 1992-ci ilin 16 dekabnnda qəbul olumnuşdur. Bu Qanuna 1996-cı ildə bir sıra dəyişikliklər edilmişdir. Qanunla sərbəst zonalann praktiki fəaliyyətinin səmərəli təşkili üçün kompleks güzəştlər sisteminin formalaşdınıması Beynəlxalq hüquqi normativlərə söykənmişdir və bu amillər bir çox qırğız XİZ-də uğurlu nəticələr əldə edilməsinə imkan vermişdir. Özbəkistanda "Sərbəst zonalar haqqında" Qanun 1996-cı ilin 25 aprelində qəbul edilsə də, bu ölkədə XİZ-in fəaliyyəti praktikada geniş yer ala bilməmiş və hələ də bu istiqamətdə Özbəkistanın uğurlu XİZ modi Akasiyası seçə bilməməsi bu sahədə olan ciddi problemlərdən, həmçinin ölkənin iqtisadi inkişaf prioritetlərinin spesifikliyindən xəbər verir. Ukraynada XİZ haqqında müvafiq Qanun 1992-ci ilin 13 oktyabrında qəbul edilib və Ukraynanın Nazirlər Kabineti tərəfindən 1994-cü ilin 14 martında bu kimi zonalar barədə Konsepsiya qəbul olunub. Konsepsiyaya əsasən Ukraynada lokal XİZ-in yaradılmasına və yalnız sonradan tədricən çox funksiyalı iqtisadi zonaların təşkilinə üstünlük verilir. Qeyd etmək lazımdır ki, bu hüquqi-normativ sənədlərin qəbulundan sonrakı 5-7 il ərzində Ukraynada lokal XİZ-lər ölkənin bir çox regionlannın prioritet inkişaf proseslərinə ciddi müsbət sti

mullar verə bilmişdir. Lakin, sonralar Ukrayna hökümətinin XİZ- lə bağlı hüquqi-nonnativ sənədlərinin tez-tez dəyişdirilməsi və bu sahədə qeyri-sabit dövlət siyasətinin olması səbəbindən Ukraynada XİZ-lər məhsuldar iqtisadi mexanizm kimi bu ölkənin iqtisadi sistemində möhkəmlənə bilməmişdir. Bununla belə, Ukraynada XİZ-dən son illərdə daha effektivli istifadə istiqamətində müsbət addımlar atılmaqdadır və artıq bu proseslərin əsasında daha mükəmməl öyrənilmiş, beynəlxalq hüquqi nonnalar və təkmilləşdirilmiş milli hüquqi aspektlər dunnaqdadır. Moldovada sərbəst sahibkarlıq zonaları haqqında müvafiq Qanun 1993-cü ilin 25 mayında qəbul olunmuş və bir neçə il praktiki fəaliyyətdə effektli nəticələr əldə edilmişdir. Lakin, bu ölkədə də XİZ-lər üzrə sabit iqtisadi dövlət siyasətinin, milli konsepsiyanın olmaması, hüquqi və normativ sənədlərin qeyri-mükəmməlliyi iqtisadi zonalann iqtisadi sistemdə daha önəmli yer tutmasına imkan verməmişdir. Rusiyada da XİZ-in qanunvericilik aktlan qeyri-sabitliyi ilə fərqlənmişdir. Bu ölkə müstəqillik əldə etdikdən sonrakı ilk on illiyində XİZ-lər- lə bağlı bir neçə dəfə qanunvericilik bazasını fonnalaşdırsa da, bu kimi zonalann səmərəli təşkili ilə yadda qalmamışdır. Əksinə, Rusiyanın XIZ-də praktiki proseslərdəki neqativ halllar və digər amillər belə zonaların yaradılması və fəaliyyəti üzrə ən sağlam ideya və təşəbbüslərin üzərinə kölgə salmağa müvəffəq olmuşdur. Hələ Rusiya Prezidentinin 1992-ci ilin iyununda verilmiş “Rusiya Federasiyasının ərazisində sərbəst iqtisadi zonalann inkişaf tədbirləri barədə” Fəmıanının icrası prosesində bu ölkədə geniş ərazilərdə yaranmış iqtisadi zonalardakı neqativ proseslər ölkədə XİZ-in qanunvericilik bazasının təkmilləşdirilməsini tələb edirdi. Bu amillər nəzərə alınmaqla. Yeni Qanun 2 illik gərgin Parlament və ictimai diskussiyalanndan sonra 3-cü oxunuşda qəbul edilsə də, 1997-ci ildə Rusiya Prezidenti tərəfindən geri qaytanhb. Bu qanun layihəsi növbəti 1997-ci - 2000-ci illərdə də bir neçə dəfə baxıldıqdan sonra, 2-ci dəfə Rusiya Prezidenti tərəfindən geri qaytanhb və həmin ildə də Rusiya Dumasının gündəliyindən çıxanlıb. Həmin dövrlərdə Rusiyada XİZ-rə olan inamsızlığın ən başlıca səbəblərindən biri, bu kimi zonalarda qanunvericilik bazasının tək

milləşdirilməsinin təmin edilə bilinməməsi və bu zonaların praktiki fəaliyyətini tənzimləyən vergi, gömrük və maliyyə-valyuta rejimləri üzrə nonnativ sənədlərin qeyri-mükəmməl işlənib hazırlanması olmuşdur. Nəticədə, 1990-1995-ci illərdə Rusiya iqtisadi zonalan ölkədən valyuta axını üçün tranzit və vergilərdən yayınmaqdan ötrü iqtisadi vasitə kimi istifadə olunurdu. Hətta bu kimi zonalardan real dəyərindən aşağı qiymətlərlə xammal resurslannm ixracı gerçəkləşdirilirdi. Göründüyü kimi, qanunvericiliyin və onunla bağlı nonnativ sənədlərin qeyri-sabitliyi Rusiya kimi iri ölkədə uzun bir dövr ərzində XİZ-dən məhsuldar və prioritet istiqamətlər üzrə istifadə etməyə imkan verməmişdir. Bununla belə, Rusiyada iqtisadi islahatlar dərinləşdikcə, ölkəyə müasir innovasiya alətlərinin gətirilməsi, yeni texnologiyalann işlənməsi və tətbigi proseslərinin genişləndirilməsi tədbirləri çərçivəsində, həmçinin ayrı-ayn istehsal sahələrinin, ərazilərinin inkişafı istiqamətində XİZ institutuna zərurətin olduğunu nəzərə alaraq, Rusiya hökuməti və Parlamenti yenidən XİZ-in qanunvericilik bazasının təkmilləşdirilməsi problemlərinə daha müasir prizmadan baxmağa başladılar. Nəhayət, dünya təcrübəsinin dərindən öyrənilməsi, beynəlxalq hüquqi aspektlərin, xüsusilə, Beynəlxalq Sazişlər və Konven- siyalann mühüm aspektləri nəzərə alınmaqla, həmçinin Rusiyanın hazırkı iqtisadi prioritetləri əsas götürülməklə, Rusiyada nisbətən təkmilləşdirilmiş Yeni Qanunun hazırlanması və qəbul edilməsi mümkün olmuşdur. 22 iyul 2005-ci ildə qəbul edilmiş “Rusiya Federasiyasında xüsusi iqtisadi zonalar haqqında” Federal Qanuna 3 iyun 2006-ci ildə bir sıra dəyişikliklər edilmişdir. Bunlarla belə, bu Qanun Rusiyada XİZ-in nisbətən sabit inkişaf proseslərinin əsasını qoymağa imkan vennişdir. Qanunun qəbul edildiyi dövrdən bu vaxta kimi Rusiyada fəaliyyət göstərən sənaye-istehsal, texniki-tətbiq və turizm-rekreasiya XİZ-də artıq bir sıra effektivli nəticələrin əldə ediməsi qeydə alınmışdır. Xüsusilə, Rusiyada son illərdə yaradılan texniki-tətbiq zonalarının (texnoparklann) fəaliyyəti yerli investorlarla yanaşı, bir sıra xarici ölkə investorlannm maraq dairəsinə düşmüşdür. Qeyd etmək lazımdır ki, azərbaycanlı mütəxəssislər də Rusiyanın elmi-texniki XİZ-nə artıq maraq gös-

təmıəyə başlayıblar. Bir qrup Azərbaycanlı alim və mütəxəssislərin Rusiyadaki texnoparklarda fəaliyyət göstərmələri barədə informasiyalar məlumdur. Fikrimizcə, bu təyinatlı XİZ-in Azərbaycanda da yaxın perspektivdə təşkili reallaşa bilər və bu işlərin qanunvericilik bazasının artıq ölkəmizdə formallaşmasmın ilk fazası başa çatmış hesab oluna bilər [71;72;73;74;75;76;771. Belə ki, Azərbaycanda XİZ-lər haqqında müvafiq Qanun artıq mövcuddur, amma bu Qanunun praktiki adaptasiyası hələlik baş tutmadığından qəbul edilmiş Qanunun real iqtisadi proseslərdə nə dərəcədə effek- tivli işləməsini hələlik gözləmək lazım gəlir.

Azərbaycanda XİZ-lərin hüquqi bazasının formalaşması və onların tətbiqi ilə bağlı praktiki proseslər üzrə tədqiqatlar apararkən, diqqətimizi cəlb edən məqamlardan bir çoxu Sumqayıt sənaye mərkəzi və onun sənaye bazasında Azərbaycanda ilk dəfə XİZ modifikasiyasmm reallaşdınıması prosesləri olmuşdur. İ.e.d. Ç.M. Abbasov qeyd edir ki, hələ 1995-ci ildə BMT-nin sənaye iqtisadi inkişaf strukturlannm dəstəyi ilə Sumqayıtda XİZ-in yaradılması layihəsi hazırlanmışdır. Ilk vaxtlarda bu layihəyə çoxlu sayda ölkələr və iri kompaniyalar maraq göstərmişlər. Amma hələ də bu günə kimi Sumqayıtda XİZ-in olub-olmaması müzakirə obyekti olaraq, qalmaqdadır (s.34, 67]. Göründüyü kimi, bu sual təkcə Ç.M.Abbasovu yox, fikrimcə, çoxlanm düşündürməkdədir. Əvvəldə qeyd etdiyimiz kimi, biz həmin proseslərin şahidi və Sumqayıtın sənaye müəssisələri ilə birbaşa bağlılığı olanlar kimi, o dövrdə, şübhəsiz, XİZ kimi mürəkkəb və çox maliyyə tələb edən bir layihənin reallaşdınıması imkanlan az idi. Problemin həlli müvafiq XİZ qanunvericilik bazasının olmaması ilə bağlı bir az da çətin görünürdü. O dövrdə ölkədə hələ iqtisadi islahatlar təzə başlamışdı. Və iqtisadi sabitlik yenicə formalaşdığından investisiya riski ciddi qalmaqda idi. Azərbaycan torpaqlanmn 20 %-i işğal olunmuşdu və ölkəmizin iqtisadi təhlükəsizliyi üçün ciddi problemlər mövcud idi və s. Bəlkə də problemlərin sayını xeyli artırmaq olardı və XİZ-lərin praktikada baş tutmamasının səbəbini daha dərindən əsaslandırmaq mümkündür. Amma bir həqiqəti etiraf etmək lazımdır ki, XİZ-in tətbiqi proseslərində bu vaxta kimi

hələ də Azərbaycanda vahid milli konsepsiya və elmi ictimaiyətin }aımşaq dillə desək, konstruktiv-praktiki baxışları formalaşmayıb. Yalnız son illərdə ölkə rəhbərliyinin siyasi iradəsi və ölkənin iqtisadi inkişaf modelində mütərəqqi iqtisadi mexanizmlərin tətbiqini genişləndimıəsi istəyi nəticəsində, XİZ-lərin yaradılması və fəaliyyətinin hüquqi-normativ bazasının fonnalaşdınİması və onlann tətbiqi ilə bağlı proseslərin nomıativ sənədlərinin işlənib hazırlanması baş tutmuşdur. Yaxın perspektivdə strateji məqsəd kimi XİZ- lərin Azərbaycanda praktiki təşkili məsələləri həll

## 5.3. Azərbaycanda XİZ-in tətbiqinin əsas problemləri və prioritet istiqamətləri.

Dünyada beynəlxalq əmək bölgüsünün dərinləşməsi və qloballaşmanın fəsadları genişlənməkdədir. Ardıcıl iqtisadi islahatlan uğurla aparan Azərbaycan müasir dövrün iqtisadi və maliyyə çətinliklərinə tab gətirə bilən iqtisadi inkişaf modeli formalaşdırmağa nail olmuşdur. Amma heç də sirr deyil ki, ölkənin iqtisadi gücünün əsas dayaqlan hələlik hasilat sənayesi ilə bağlıdır. Azərbaycan artıq iri həcmli neft ixracatçısına çevrilib. İxracın 90-95 %-ni karbohidrogen ehtiyatlan təşkil edir və bu sahədən ölkəyə iri həcmli valyuta ehtiyatlan daxil olur. Xarici investisiyaların daha çox cəlb edildiyi neft-qaz sektoru sürətlə inkişaf edir. Bunu nəzərə alaraq və milli iqtisadiyyatın hərtərəfli inkişafını təmin etmək məqsədilə qeyri-neft sektorunun inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin prioritetinə çevrilmişdir. Bu zərurət həm də müasir dövrdə dünya iqtisadiyyatının qloballaşma elementlərinin güclənməsi və dünya maliyyə böhranının təsirinin 2008-ci ilin sonlarından başlayaraq, ciddi artması ilə daha da aktuallaşır. Əlbəttə, obyektivlik naminə qeyd etməliyik ki, dünya maliyyə böhranının təsirləri inkişaf etmiş ölkələrin iqtisadiyyatlarına və maliyyə-kredit sistemlərinə güclü təsir göstərsə də, son illərdə davamlı iqtisadi inkişaf modeli formalaşdıran Azərbaycan milli iqtisadiyyatı maliyyə böhranı ilə

bağlı problemlərin əksəriyyətindən yan keçə bilmişdir. Amma elə götürək inkişaf etmiş Avropa ölkələrini, konkret olaraq, Avropa Birliyi ölkələrində - Yunanıstanda, İtaliyada, İspaniya və Portuqaliyadakı maliyyə-borc problemləri heç bir milli iqtisadiyyatın və iqtisadi birliyin maliyyə və iqtisadi böhranlardan tam sığortalanmaq imkanına malik olmadığını əyani göstərir. Eyni zamanda qeyd etmək lazımdır ki, dünya maliyyə böhranı ilə bağlı olaraq, ölkəmizdə maliyyə mənbələrinin diversifikasiyalaşdınlması problemləri az da olsa özünü göstərmişdir. Bu neqativ təsirlər ÜDM-nm və ixracın həcminin azalmasında da qeydə alınmışdır. İxracın strukturunda mineral xammalların və neft məhsullarının əsas yer tutması maliyyə-iqtisadi böhranlar zamanı çətinliklərin yaratmayacağma gələcəkdə də zəmanət vernıək qeyri-mümkündür. Azərbaycan iqtisadiyyatının hələ də əsasən neft və qaz faktorundan asılılığının güclü olması, digər milli iqtisadiyyat sahələrinin, xüsusilə sənayenin müxtəlif sektorlannın rəqabətqabiliyyətinin aşağı olması və bunlarla bağlı ixrac məhsullannın çeşidinin məhdudluğu, ölkənin milli iqtisadi sistemində fərqli və effektivli iqtisadi mexanizmlərin tətbiqini şərtləndirir. Və bizim tərəfimizdən son 5 il ərzində davamlı olaraq, müxtəlif elmi nəşrlərdə, həmçinin konfranslarda qeyri-neft sektorunun sahələrinin modernizasiyası, yenidənqurulması və' bu sahələrə müasir texnologiyalann gətirilməsi məqsədilə XİZ institutundan istifadə edilməsinin nəzəri və praktiki üstünlükləri barəsində elmi məqalələr dərc edilmiş, çıxışlar və təqdimatlar təşkil olunmuş, həmçinin 2008-ci ildə bu problemlərə həsr edilmiş elmi monoqrafiya dərc edilmişdir **[35;36;37;78;82;38;39;40].**

Bir az qabağa gedərək, qeyd etmək mümkündür ki, ölkənin icra strukturlan bu istiqamətdə vəziyyəti dəyişmək üçün artıq Azərbaycanın sənaye mərkəzi olan Sumqayıtda texnoparklann yaradılmasına başlamışdır. Düzdür, bunlar tam funksiyah XİZ modelləri olmasa da, düşünürəm ki, yaxın perspektivdə Azərbaycanda XİZ-lərin əsaslı şəkildə tətbiqinə ciddi təkan verəcəkdir, lakin bütün bunlar maliyyə və iqtisadi böhran şəraitində olduqca azdır. Ölkənin maliyyə resurslannın

mənbələrinin çoxşaxələndirilməsi və iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi məqsədilə dünya təcrübəsində uğurla sınaqdan çıxmış XİZ modifıkasiyalarından praktikada effektivli iqtisadi mexanizm kimi istifadə edilməsinin vaxtının çatdığı qənaətindəyik. Fikrimizcə, bu prioritetlər ilk növbədə Azərbaycanın ixrac potensialının artırılmasında ciddi rol oynaya bləcək rəqabətqabiliyyətli sənaye və kənd təsərrüfatı məhsullarının istehsalının təşkilində əsas yer tutmalıdır. Qeyd etmək lazımdır ki, qeyri-neft sektorunun inkişaf etdirilməsi və bu istiqamətdə müvafiq dövlət tədbirlərinin gücləndirilməsi məqsədilə bir sıra mühüm dövlət proqramlan hazırlanmış və icra edilməkdədir. Son illər ərzində qeyri-neft sektorlannda infrastruktur layihələrinin həyata keçirilməsi və müəyyən güzəştlərin tətbiqi investisiya mühitinin yaxşılaşdırılmasına xidmət etmişdir. Lakin sektorun inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bura xarici və yerli investisiyalann cəlbi, ixrac məhsullannın çeşidinin, həcminin və rəqabətqabiliyyətinin yüksəldilməsi, sektorda məşğulluğun güeləndirilməsi öz aktuallığını artımıaqdadır. Digər tərəfdən isə dünya ölkələrinin təcrübəsi göstənnişdir ki, XIZ-lərin təşkili ixracın stimullaşdırılması, investisiyalann cəlbi, texnologiyalann idxalı, məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi və ümumilikdə sənaye sahələrinin inkişafı baxımından böyük əhəmiyyətə malikdir. Bu baxımdan Azərbaycanın qeyri-neft sektorlarının inkişafı istiqamətində XİZ institutundan istifadə məqsədəuyğun hesab edilir.

Biz əvvəllərdə verilən araşdınnalanmızda Azərbaycannm qeyri-neft sektoru sahələrinin potensialı və bu sahələrdə XİZ-lərin tətbiqini şərtləndirən bir çox prioritet istiqamətlərə xeyli yer ayırmışıq və yekunda bunların ümumi nəticələrini verəcəyik. İstərdik ki, ölkənin yeni inkişaf tempi toplamağa çox iddialı olan turizm- rekreasiya xidmətləri sahəsi barəsində bir az ətraflı baxaq. Bu məqsədlə turizm-rekreasiya xidmətlərinin səmərəli təşkili baxımından bir sıra tədqiqat işlərinə müraciət etmişik və araşdırmala- nn gedişində baxılan problemə münasibət bildirmişik. Son illərdə Azərbaycanda turizmin inkişafı ilə bağlı ardıcıl tədbirlər görül

məkdədir. Bu sahədə artıq Azərbaycanın strateji məqsədləri özündə birləşdirən dövlət siyasəti də formalaşıb. Ölkə rəhbərliyi turizm sahəsinin inkişaf problemlərinin həll edilməsi və bu sektorda xidmətlərin dünya standartlan səviyyəsinə qaldınıması istiqamətində birbaşa səylər göstərir, bir çox infrastruktur obyektlərinin yaradılmasının gedişi və turizm təyinatlı obyektlərin istismara verilməsi tədbirlərində şəxsən iştirak edir. Bundan əlavə, turizm sektorunun problemlərinə və perspektivlərinə sistemli yanaşmaq məqsədilə, ölkə Prezidenti tərəfindən 2011-ei il Azərbaycanda turizm ili elan olumnuşdur. Bu sadəcə bir məsələ deyildir. Hazırda Azərbaycanın füsunkar və cazibədar təbiət zonalannda, müxtəlif regionlannda çoxlu sayda turizm və idman- sağlamlıq kompleksləri fəaliyyət göstərirlər. Bunlarla bərabər, dünya standartları səviyyəsində otel kompleksləri, turizm-idman bazalan (məsələn “Şahdağ” qış turizm kompleksi və s.), müasir yol və kommunal xidmətləri infrastrukturlarının geniş şəbəkəsinin yaradılması üçün dövlət külli miqdarda vəsait xərcləyir və bu sahələrə daxili və xarici investorlann gəlməsini müxtəlif iqtisadi mexanizmlərlə stimullaşdınr. Belə mühüm amilləri nəzərə alaraq, biz XİZ-in praktiki tətbiqi ilə bağlı problemlərin və perspektivlərin araşdınıması dövründə Azərbaycanda turizm- rekreasiya sektorunun və xüsusilə, ekoloji turizmin inkişafı ilə bağlı məsələlərə də diqqət yetirməyi özümüzə borc bildik, iqtisadi ədəbiyyatlarda turizm-rekreasiya komplekslərinin və həmçinin bu təyinatlı XİZ-in dünya təcrübəsi və müxtəlif ölkələrdəki uğurlu fəaliyyəti barədə artıq 5-10 ildir ki, ardıcıllıqla müraciətlər artmaqdadır. Bir çox Avropa, Asiya ölkələrində bu istiqamətdə fundamental tədqiqatlara xüsusi önəm verilir. MDB ölkələrindən - Rusiya, Ukrayna respublikalannda da bu kimi xidmət sahəsinin perspektivlərinin müəyyənləşdirilməsi prioritetləri aktuallığı ilə seçilir. Hətta Rusiya və Ukrayna hökümətləri turizm-rekreasiya təyinatlı XİZ-in bir qrup şəbəkəsinin yaradılmasını təmin etmişlər və bu yeni iqtisadi mexanizmin təkmilləşdirilməsi problemləri diqqətlə izlənilməkdədir. Xəzər dənizi hövzəsində yerləşən Qa- zaxstan və Türkmənistan dövlətləri də dəniz sahili boyunca turizm

komplekslərinin geniş şəbəkəsinin yaradılması perspektivləri üzərində vəzifələr müəyyənləşdirmişlər. Məhz bu baxımdan turizm-rekreasiya komplekslərinin XİZ-lər vasitəsilə yaradılması və bu proseslərdə ekoloji turizmin əhəmiyyətinin əsaslandınıması, bu sahədəki tendensiyalann, potensialın, problem və perspektivlərin araşdınlmasına müraciət etmiş rusiyalı alim L.Y.Nikiforovanm tədqiqat işi diqqətimizi cəlb etmişdir [1271. Bu tədqiqat işində aktuallığı ilə seçilən problemlərdən ekoloji turizmin priotritetlərinə yanaşma xüsusi maraq doğunnuşdur. Müəllifin fikrincə, ekoloji turizm regionun ekoloji-iqtisadi inkişafının balanslaşdınlmış instrumenti kimi mühüm əhəmiyyət kəsb edir. Regionda ekoloji maarifləndirmənin güclənməsi, bu istiqamətdə kompleks tədbirlərin görülməsi, burada ekoloji durumu tarazlaşdınr, təbii, bioloji nemətlərin qorumuasını təmin edir, atmosferin çirklənməsinin qarşısını alır və s. Qeyd etmək lazımdır ki, ekologiyanın qorunması problemləri bütün hallarda cəmiyyətin narahat qaldığı mühüm məsələlərdəndir. Ekoloji turizm problemlərinə kompleks yanaşma nəticəsində ölkənin füsunkar ərazilərinin bazasında təşkil edilməsi planlaşdıran turizm-rekreasiya XİZ-rinin perspektivləri olduqca ümidvericiliyi ilə fərqlənirlər. Qeyd edilən mülahizələr, bu kimi regionlarda təbiətin verdiyi nemətlərin bu ərazilərin sosial-iqtisadi inkişafında cəmiyyətin maraqlı olması, dövlətin belə ərazilərin iqtisadi inkişafını gücləndirmək və zonaya turist axınını genişləndirmək üzrə konkret strateji məqsədlərinin mövcudluğu, həmçinin turizm-rekreasiya XİZ-nin yaradılmasında və effektivli fəaliyyətində ekoloji turizmin mühüm əhəmiyyət kəsb etməsi amilləri ilə izah olunur. Bir çox praktiki nümunələrdə turizm-rekreasiya XİZ- ri ekoloji turizm elementlərinin geniş tətbiqini şərtləndirən klaster tipli strukturlara malikdirlər. Müasir turizm sektorunun sürətli inkişafını şərtləndirən mühüm aspektlərə, həmçinin ölkənin imicinin dünya səviyyəsinə qaldınıması, milli dəyərlərlə və təbiət güşələri ilə dünyanın müxtəlif ölkələrindən gəlmiş turistlərin dərindən tanış olmalanna komfortlu şəraitin yaradılması və xidmətlərin göstərilməsi, mədəniyyət və qədim ənənələrin dünya ictimaiyyətinə çatdırılması və sairlər daxildirlər. Bunlarla belə, qeyd etdiyimiz

kimi, ekoloji turizm yalnız bir neçə illərdir ki, dünyanın nisbətən yeni turizm sahəsi kimi inkişafı sürətlənməkdədir və turizm sənayesində ekoloji turizmin payı hələlik 3-4 % təşkil edir. Ekoloji turizm ilə bağlı mal və xidmətlərin həcmi dünya üzrə orta hesabla ildə 55-58 mlrd. ABŞ dollan səviyyəsindədir. Ekoloji turizmin əsas prinsiplərinə və xüsusiyyətlərinə görə ayn-ayn ölkələrin müxtəlif təbii ərazilərinin bioloji müxtəlifliyinin qorunması, bu məqsədlərlə, regionda turizm-rekreasiya xidmətlərinin həcminin optimallaşdırılması, turizm-rekreasiya XİZ-nin fəaliyyət prinsiplərinin regionun və təbiətinin əsas kriteriyalanna uzlaşdın İması, biznes və sahibkarlığın təbii varlıq qarşısında sosial-vətəndaş məsuliyyətinin artınlması, turizm-rekreasiya xidmətləri ilə bağlı otellərin, kempinqlərin, digər infrastrukrtur və xidmət obyektlərinin tikintisi zamanı ekoloji baxımdan təmiz və zərərsiz materiallardan istifadə olunması, regionda ekoloji təmiz və orijinal-təbii yerli qida məhsullarına olan tələbatın ödənilməsi, ekoloji turizm subyektlərinin fəaliyyət göstərdikləri regionlann (ərazilərin) davamlı iqtisadi inkişaf səviyyəsinin qaldırılması tədbirlərinin işlənib hazırlanması, müxtəlif effektivli iqtisadi mexanizmlərdən, o cümlədən, XİZ-dən istifadə etməklə, kompleks strateji vəzifələrin reallaşdırılması, yerli insan resurslarından səmərəli idtifadə olunması, regionun iqtisadi fəallığının artırılması, turizm-rekreasiya xidmətlərinin səviyyəsinin daim qaldınıması məqsədilə fundamental araşdırmaların və mütəmadi monitorinqlərin təşkili, yerli etnoqrafiya və qədim nümunələrə hömıət və dəyər vennək prinsipi üzrə zəruri tədbirlərin görülməsi və maarifləndirmə, təbliğat işlərinin apanlması, ekoloji turizm-rekreasiya xidmətlərinin səviyyəsinin qaldınlma- smda bu sahədəki subyektlərin, rolunun artınlması, informasiyala- nn yerləşdirilməsi, məlumat kitabçalannm, bələdçi-bukletlərin turistlər arasında yayılması və sairlər daxildirlər. Ekoloji turizmin əsas ərazilərinə dövlət qoruqları, milli parklar, təbii parklar, botanika bağları, təbii landşlaftları və müalicə resurslan olan ərazilər aiddirlər. Dünyada ekoloji turizmin ən geniş maraq doğuran mar- şrutlan Avstraliya qitəsidir. Şimali və Cənubi Amerika, bir qrup qərbi Avropa ölkələri. Afrika və Cənub-Şərqi Asiyada da ekoloji

turizm subyektləri dünya turistlərini cəlb etməkdədir. MDB-nm Rusiya və Ukrayna respublikalarında da bu turizm sahəsinin inkişafı üçün münbit potensial diqqəti cəlb etməkdədir. Məsələn, Rusiyada Baykal regionu və Baykal gölü dünyanın ən perspektivli ekoloji turizm subyektlərindən biri hesab olunur. Burada mağara və dağ marşrutları, alpinizm, xizəksünnə, yaxtaçıhq, bahqtutma, botanika, fauna və mineral ekskursiyadan ibarət geniş çeşidli eko- loji-turizm xidmətlərinin mümkünlüyü regionda turizm-rekreasiya XİZ-nin yaradılmasını şərtləndirmişdir. Bu XİZ-in fəaliyyət müddəti 20 illik müəyyənləşdirilmişdir. Ekoloji turizm aspektləri nəzərə alınmaqla, təşkil edilən turizm-rekreasiya XİZ-i bu regiona yeni texnologiyaların, müasir xidmətlərin, iri kapitalın, mükəmməl idarəetmə formalarının gətirilməsini sürətləndinnəklə yanaşı, regionun sosial-iqtisadi problemlərinin həllində, iqtisadi və ictimai fəallığın artmasında əhəmiyyətli rol oynayır. Proqnozlara görə, ekoloji-turizm tələbləri səviyyəsində fəaliyyət göstərəcək turizm-rekreasiya XİZ-nin perspektivdə fəal turizm regionuna çevriləcəyi və növbəti 15-17 il ərzində buraya gələn turistlərin sayının orta illik iki mln. nəfərə çatacağı gözlənilir. Zonaya yatınacaq investisiyaların həcmi 1,3 - 1,4 mlrd. ABŞ dolları səviyyəsindədir. Turizmin sürətli inkişafı regionun iqtisadiyyatının perspektivdə - 10-15 il ərzində dəfələrlə artmasına imkan verəcəkdir. Bu proseslərdə 33-34 min nəfərin işlə təmin olunması mümkünləşəcək. Region büdcəsinə daxilolmalann artımı isə ildə 250 mln. ABŞ dolları səviyyəsində proqnozlaşdınhr. Əslində müqayisəli baxanda bu proqnoz göstəricilərinə o qədər təəccüblənmək lazım gəlmir. Artıq Ukraynanın qərb vilayətlərində ekoloj i-turizm elementlərinin artması və bunların turizm-rekreasiya XİZ-ri vasitəsilə gerçəkləşdirilməsi yaxşı nəticələr vennəkdədir. Kosta-Rika kimi zəif iqtisadi potensiala malik olan ölkə öz ərazisinin 30 %-ni qorunan təbiət zonası elan etməklə, ildə turizm xidmətindən 660-670 mln. ABŞ dolları əldə edə bilir. Afrikada - Keniyada milli parkın turizm potensialı bu ölkəyə ildə 470 mln. ABŞ dollarına qədər valyuta vəsaitləri cəlb etməyə imkan verir və s. Fikrimizcə, Azərbaycanda da ekoloji turizm

elementlərinin zənginliyi və ölkənin şimal, qərb və cənub regionlannda, həmçinin Naxçıvanda zəngin olması, yaxın perspektivdə praktiki proseslərdə bu sektorda fərqli iqtisadi mexanizmin və effektivli iqtisadi alətlərin tətbiqini şərtləndirir. Şübhəsiz, bu proseslərdə turizm-rekreasiya XİZ-nin yer ala bilməsi perspektivləri də diqqətdən yayınmamalıdır.

Qeyd etmək lazımdır ki, dünyanın bir çox ölkələrində təbii mənzərələrlə və mineral su resurslan ilə zəngin olan ərazilərin kompleks inkişafı ayn-ayrı dövlətlərin daim diqqət mərkəzində olmuşdur. Vaxtilə İtaliya və İspaniyada, Yunanıstan və Türkiyədə belə ərazilərin kompleks inkişaf etdirilməsi, xüsusilə, kurort və turizm zonalarının yaradılması həmin ərazilərin sürətli inkişafına ciddi stimullar verə bilmişdir. Lakin bu proseslərə komlpeks yanaşma, xüsusilə, son 10-15 il ərzində daha geniş vüsət almışdır. Bunlar kompleks formada turizm-rekreasiya zonalannm tətbiqi ilə mümkün olmuşdur. Bu dövrdə dünyanın bir çox ölkələrində, xüsusilə, Azərbaycan üçün ciddi regional inkişaf marağı daşıyan qonşu ölkələrdə (Rusiya, Gürcüstan və s.), həmçinin Xəzər dənizi hövzəsində eyni maraqlara malik olan ölkələrdə - Qazaxıstan və Türkmənistanda turizm-rekreasiya zonalarının yaradılması və fəaliyyət şəbəkələrinin genişləndirilməsi prosesləri gedir. Azərbaycan üçün mühüm əhəmiyyət daşıyan iqtisadiyyat sahələrindən biri olan turizm sektoru son illərdə sürətli inkişaf tempi yığmaqdadır. Bu baxımdan, regionda turizm-rekreasiya zonalannm tətbiqi ilə bağlı nümunələrə müraciət etməyimizi məqbul hesab edirik. Son 10-15 il ərzində Rusiya hökuməti öz cənub zonasında iqtisadi inkişafı sürətləndinnək məqsədilə bu tip zonaların yaradılması modellərinə üstünlük verməyə səy göstərir. Rusiyanın əsas cənub kurort şəhəri olan Soçinin bu sahədə mövcud potensiallan və geniş perspektivləri də diqqətdən yayınmamışdır. Nəzərə alsaq ki, 2014- cü ildə bu şəhərdə iri həcmli idman tədbiri hesab edilən qış Olimpiya oyunlan keçiriləcək və burada aparılan tikinti işlərinin, infrastruktur obyektlərinin yaradılmasının, mədəniyyət və turizm obyektlərinin yenidən qurulması və modemləşdirilməsinin real həcminin nə dərəcədə böyük olduğunu təsəvvür etmək çətin deyildir.

Bu baxımdan Rusiyalı iqtisadçı-alim RY.Veliçko Soçi kurort şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, şəhər təsərrüfatının yenidənqurulması, bütün sahələr üzrə infrastruktur obyektlərinin modernləşdirilməsi, regionun turizm-rekreasiya potensialından daha səmərəli istifadə edilməsi problemlərini araşdırarkən, bu istiqamətlərdə mühüm strateji prioritetlərin işlənib-hazırlanmasını, problemlərin sistemli təhlilinin apanlmasmm vacibliyini qeyd etmişdir. Müəllif Rusiyanın cənubuna hərbi-strateji və geo-siyasi forpost kimi baxmaqla yanaşı, bu əraziləri Rusiyanın iqtisadi maraqlannm ən strateji istiqamətlərdən biri kimi dəyərləndirmişdir (92J. Bu şəhərin kompleks inkişafı üzrə hələ 2000-ci illərinin ortalanndan başlayaraq, müxtərlif federal proqramlar təsdiq edilmiş və icradadır, onlardan bəziləri isə başa çatdırılmışdır. Məsələ burasındadır ki, bu şəhərin inkişafı bir neçə mühüm prioritetlərə kompleks yanaşmaqla həll edilməkdədir. Belə ki, şəhərdə kurort-sağlamlıq, idman və turizm-rekreasiya funksiyalanm özündə birləşdirən bir kompleks kimi inkişaf prioritetləri müəyyənləşdirilmiş və onlann həyata keçirilməsi prosesləri gedir. Bu tədbirlər çərçivəsində şəhərin əsas nəqliyyat obyektləri inffastrukturası tamamilə modemləşdirilərək dünya standartları səviyyəsinə qaldırılmalıdır. Görülən tədbirlər 2015-ci ilədək Soçinin regionda iqtisadi gücünün xeyli artmasına imkan verəcəkdir. Məsələn, Rusiyanın Krasnodar Ölkəsinin regional ümumi məhsulunda Soçi şəhərinin payı 2006-cı ilə nisbətən 2014- cü ildə 8,4 dəfə artacaqdır. Ən maraqlı proqnoz isə bu şəhərə gələn turistlərin xərcləcəyi pul vəsaitləri ilə bağlıdır. Belə ki, şəhərdə turizm-rekreasiya xidmətlərinin kompleks təşkili, xüsusilə burada XİZ elementlərinin aktiv tətbiqi nəticəsində turistlərə göstərilən xidmətlərin çeşidi və keyfiyyəti əhəmiyyətli dərəcədə artığından, hər bir turist 2006-ci ilə nisbətən 2014-cü ildə 14 dəfəyə yaxın çox pul vəsaiti xərcləyəcəklər. Bu kompleks tədbirlərin nəticəsində 2014-cü ilə kimi təkcə Soçi şəhərində 97 minə qədər insanın məşğulluq problemlərinin həll edilməsi mümkün olacaqdır. Soçinin turizm-rekreasiya kompleksi formasında inkişaf etdirilməsi strategiyasına turizm xidmətlərinin diver-

sifikasiyası, yəni bu xidmətlərin ilin hər hansı bir mövsümündən asılı olmayaraq, bütün il boyu göstərilməsi, “Krasnaya Polyana”da idmanın qış növlərinin inkişafı üçün dünya standartlarına uyğun infrastrukturun və bazalann yaradılması, yeni və müasir mühəndis kommunikasiyalarının tikilib istifadəyə verilməsi, aqrosənaye sahəsinin innovatik inkişafının təmin edilməsi və yüksək keyfiyyətli qida məhsullannm istehsalı, şəhərin və turizm-rekreasiya obyektlərinin fasiləsiz enerji, su və qaz ilə etibarlı təhcizatmın təmin edilməsi, regionda sosial və ekoloji problemlərin həllinin kompleks təşkili və sairlər nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, artıq bu kimi tədbirlərin maliyyələşdirilməsinə külli miqdarda dövlət vəsaitləri və investisiya resursları cəlb olunmaqdadır. Yaxın perspektivdə şəhər iqtisadiyyatının təxminən 70- 80 %-ni yalnız turizm və sanatoriya kurort xidmətlərinin təşkil edəcəyi proqnozlaşdınlır. Bu proseslərdə şəhər büdcəsinə daxil ol- malann 5 dəfəyədək, cəlb ediləcək investisiyalann dəfələrlə artımı gözlənilir. Müxtəlif proqnozlara görə, şəhər və onun ətrafında universal idman sağlamlıq komplekslərinin və innovatik turizm- rekreasiya xidmətlərinin genişlənməsi Soçi şəhərini kurort şəhəri kimi Qərbi Avropanın standartlan səviyyəsinə qaldırmağa və artıq 2012-ci ildə bu şəhərə gələn turist-rekreantlarmm sayımın orta illik sayının 3 mln. nəfər səviyyəsinə qalxmasına imkan verəcəkdir. Rusiya höküməti turizm-rekreasiya XİZ-lərinin yaradılması və fəaliyyəti zamanı sərbəst gömrük rejimindən istifadə etməklə, zonanın ərazisində rezidentlərin aktiv fəaliyyətini stimullaşdımıaq əzmindədir. Belə ki, bu zonalara xaricdən gətiriləcək mallar üçün gömrük rüsumlan və əlavə dəyər vergiləri ödənilməyəcək. Həmçinin zonanın ərazisindən Rusiyanın digər regionlarına çıxanlan mallar üçün gömrük rüsumlan yoxdur. Bundan əlavə, vergi güzəştləri rejimində bu zonada fəaliyyət göstərən rezidentlər üçün əmlak, torpaq və gəlirlər üzrə vergilərə görə güzəştlər müəyyənləşdirilmişdir. Qəbul edilən bu kimi qərarlar turizm-rekreasiya subyektlərinin xərclərinin təxminən 8 %-dək azaldılmasına imkan verir, nəticədə bu kimi zonalarda fəaliyyət cəlbedici olur və buraya investorların aktiv gəlişinə

şərait yaranır. Belə ki, göstərilən xidmətlərlə bağlı istehsal və kommersiya sahələrində əldə edilən gəlir və məhsuldarlıq faktiki artımla nəticələnir. Fikrimizcə, Azərbaycanda turizm-rekreasiya zonalarının yaradılması üçün əlverişli regionlar və potensial imkanlar mövcuddur. Bu işlərin aktivləşməsini şərtləndirən əsas amillərdən biri son illərdə Azərbaycanda turizm sektorunun prioritetliyinə ciddi önəm verilməsidir. Əslində Azərbaycan höküməti tərəfindən artıq bu potensial regionlann əksəriyyətində zəruri infrastruktur obyektlərinin geniş şəbəkəsi yaradılmış və bu işlər sürətlə davam etməkdədir. Ölkənin şimal, cənub və qərb zonalarında yerli investorlar tərəfindən fəal şəkildə turizm, idman sağlamlıq zonaları yaradılmaqdadır. Amma bunlann əksəriyyətində beynəlxalq standartlara cavab verən xidmət bazalan azdır və yaxud bu xidmətlərin əksəriyyəti mövsümi xarakter daşıyır. Azərbaycanda turizm-rekreasiya xidmətlərinin diversifıkasiyası və bu sektora daxil olan xidmət standartlarının mükəmməl formada işlənib hazırlanmasına zərurət qalmaqdadır. Bu baxımdan ölkədə bir neçə Pilot turizm-rekreasiya zonasının yaradılması və fəaliyyətinin təşkilini məqsədəuyğun hesab edirik. Belə zonalarda ən cüzi gömrük və vergi güzəştlərinin müəyyənləşdirilməsi, rezidentlərin fəallığı üçün şəraitin yaradılması, investisiyaların stimullaşdınıması, bu kimi zonalara dünya təcrübəsində turizm- rekreasiya xidmətləri sahəsində uğurlu nəticələr əldə etmiş şirkət və kompaniyalann Azərbaycana gəlməsinə səbəb ola bilər. Bu halda yerli və xarici investorlann bərabər hüquqlu, şəffaf şəraitdə, münbit investisiya və biznes məkanında birgə fəaliyyəti sağlam rəqabətin güclənməsinə, nəticədə turizm-rekreasiya xidmətlərinin səviyyəsinin əhəmiyyətli dərəcədə artmasına, göstərilən xidmətlərin zonada və zonadankənar alqı-satqı əməliyyatlannın həcminin xeyli yüksəlməsinə, bu isə regionun iqtisadiyyatının ciddi artmasına imkan verəcəkdir. Bu baxımdan turizm-rekreasiya XİZ-lərinin Azərbaycanda praktiki tətbiqi problemlərinin bir daha öyrənilməsi və bu kimi XIZ-lərin ölkədə reallaşdın İması perspektivlərindən istifadə edilməsinin vaxtının çatdığı və həmçinin bunun üçün əlverişli və effektivli imkanlann olduğu

qənaətindəyik.

Biz Azərbaycanda XİZ-in tətbiqi problemləri və perspektivlərini araşdırarkən bu proseslərdə ölkəmizin iqtisadi inkişaf prioritetləri və regionlanmn iqtisadi inkişaf istiqamətləri ilə bağlı məsələlərə də xüsusi diqqət yetirməyi məqsədəuyğun bildik. Belə ki, Azərbaycanda hələlik XİZ-lər tətbiqi proses dövrünü yaşamasa da, bu sahədə əsaslı irəliləyişlərin yaxın perspektivdə olacağına ümidlər çoxdur. Hazırda Azərbaycan Respublikasının rəhbərliyi və hökümət regionların inkişafına əsaslı önəm verirlər. Dövlət büdcəsi və digər dövlət fondları hesabına regionlarda infrastruktur şəbəkəsinin genişləndirilməsinə, sahibkarlığın stimullaşdırılmasına, bu regionların sosial-iqtisadi problemlərinin sistemli həllinə kömək məqsədilə böyük həcmli işlər aparılır. Amma fıkrimizcə, dövlət heç də bütün regional inkişaf problemlərinin hamısını təkbaşına reallaşdınnaq imkanına malik olsa belə, bu proseslərdə özəl strukturların, sahibkarların, biznesin və xarici investorlann fəal iştirakı qaçılmazdır. Çünki regional inkişaf problemləri bütün dövrlər üçün eyni qalmır, bu proseslər mürəkkəb xarakterli olduğundan onlann daimi öyrənilməsi, mövcud potensialın qiymətləndirilməsi, problemlərin sistemləşdirilməsi, perspektivlərin müəyyənləşdirilməsi və bunlara adekvat kompleks tədbirlərin görülməsi zərurəti qalmaqdadır. Bu baxımdan ilk növbədə qonşu ölkələrdə, regionlarda bu istiqamətdə aparılan tədbirlərin izlənilməsi, öyrənilməsi və perspektivlərin işlənib əsaslandınlması, onlann praktiki gerçəkləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi Rusiya hököməti əvvəldə qeyd etdiyimiz kimi, uzun illər ərzində So- çi şəhərinin qış idman növləri üzrə potensialından kompleks və uzunmüddətli effektivli istifadə istiqamətində araşdırmalar aparmış, tədbirlər müəyyənləşdinniş və burada bir çox iri həcmli infrastruktur layihələrinin icrası başa çatdınimışdır. Digər tərəfdən, qeyd edildiyi kimi, 2014-cü ildə Soçi şəhərində Qış Olimpiya Oyunlannm keçirilməsi isə bu tədbirlərin siyahısını əsaslı şəkildə genişləndirmiş və burada tarixi iqtisadi inkişaf prosesləri təşkil edilmişdir. Hazırda bu nəhəng idman tədbirinin əsas infrastruktur

bazalannm, stadion, meydança və dağ idman marşrutlannm əksəriyyəti istismar olunmaq imkanına malikdir və bu işlərin növbəti 1-2 ildə yekunlaşdırılması gözlənilir. Qeyd etmək lazımdır ki, burada dünyanın müxtəlif ölkələrindən investorlar cəmləşiblər. Lakin infrastruktur və idman qurğularının tikintisi tezliklə başa çatacaq, amma regionun potensialından məhsuldar istifadə edilməsi problemləri burada həmişəlik olacaqdır. Bu baxımdan bir qrup Rusiyalı alimlər Soçi şəhərinin yeni tikiləcək infrastruktur və idman obyektlərindən, həmçinin şəhərin kurort-sanatoriya, turizm imkanlanndan daha səmərəli istifadı edilməsi problemlərini araşdırmaqla müəyyən nəticələrə gəlmiş və perspektiv təkliflər verə bilmişdir. Bu ölkənin iqtisadçı-alimi D.V.Qerun Soçinin qış idmanı və turizm potensialından effektivli istifadə də turizm- rekreasiya XİZ-nin yaradılması və fəaliyyəti modelinə üstünlük verilməsini elmi-iqtisadi əsaslara məqsədəuyğun hesab etmişdir. Regionun turizm sektorunun fəaliyyətinin milli və regional iqtisadiyyata təsirlərini öyrənən tədqiqatçı-alimin fikrincə, bu sahənin potensialının real qiymətləndirilməsi və əldə edilmiş elmi- iqtisadi nəticələri turizm sektorunun inkişafi məqsədilə yaradılacaq XİZ-ə tətbiqi müqabilində əsaslı məhsuldar nəticələr əldə etməklə yanaşı, regional iqtisadi inkişaf proseslərinə əlavə ciddi stimul vermək mümkün olardı [951. Son 20-30 il ərzində dünyanın bir çox regionlarında turizmin inkişafı ilə bağlı sistemli tədbirlər görülmüşdür. Turizm bir qrup ölkələrin iqtisadiyyatında hətta həlledici iqtisadi amil kimi mühüm funksiyanı yerinə yetirir. Regionda turizmin inkişafı və bununla bağlı regiona çoxlu sayda turistlərin gəlməsi sosial-iqtisadi inkişaf proseslərinə ciddi təsir göstərir. Bu təsirin nəticəsində mal və xidmətlərin çeşidi genişlənir, keyfiyyət standartları yüksəlir, fiziki və hüquqi şəxslərin mülklərinin gəlirlik dərəcəsi və vergi bazalan artır. Ev və fermer təsərrüfatlannm inkişafına zərurət çoxalır və bu sahələrə investisiyaların yatırılması kiçik, orta, həmçinin iri biznesin sürətlə inkişaf etdirilməsinə zəmin yaradır. Çoxlu sayda xidmət müəssisələrinin fəaliyyət göstənnəsi isə region əhalisinin məşğulluğunun gücləndirilməsinə imkan verər və s. Əslində

turizm sektorunun güclü inkişafı onun yerləşdiyi regionun dünyada tanınmasına, dünya iqtisadi proseslərinə inteqrasiya etməsinə və bütövlükdə regionun rəqabət qabiliyyətinin artınlması- na imkan yaradır. Bu baxımdan Soçidə inkişaf etmiş kurort-sanatoriya infrastruktur bazası və xidmət təcrübəsi olduğundan, regionun turizm və kurort-sanatoriya xidmətləri üzrə ixtisaslaşması perspektivləri nisbətən cəlbedici görünür. Ümumiyyətlə, Rusiyada turizm-rekreasiya XİZ-nin fəaliyyətinin effektivliyi üçün bir qrup vergi güzəştləri nəzərdə tutulmuşdur. Belə ki, XİZ subyektləri əmlaka və torpağa görə vergidən 5 il azaddırlar və s. Rusiya höküməti ölkənin bir sıra regionlannda bu tip XİZ-in yaradılması və fəaliyyətinin təşkilində maraqlı olduğunu son 5 ildə daha ciddi tədbirlərlə nümayiş etdirməyə səy göstərir. Məsələn, Kalininqrad vilayətindəki “Kurşskaya kosa” turizm-rekreasiya XİZ-də bu vilayətin Zelenoqrad rayonunda yerləşən milli parkın turizm potensialından daha səmərəli istifadə olunması nəzərdə tutulub. Bu qoruq münbit iqlimdə yerləşməklə yanaşı, füsunkar təbiət güşələri, flora və faunalarla zəngindir, əlverişli çimərliyə malikdir və s. “Kurşskaya kosa” XİZ-in əsas prioritetləri regionda turist axınının gücləndirilməsi, bu regionun investisiya cəlbediciliyinin artırılması və regionun rəqabət qabiliyyətinin yüksəldilməsidir. Bu XİZ-in prioritet istiqamətlərinin reallaşdınıması məqsədilə, infrastrukturun yaradılması, yenilənməsi və nəzərdə tutulan layihələrin gerçəkləşdirilməsi üçün 2016-cı ilədək 400 mln. ABŞ dollanna yaxın vəsaitin xərclənəcəyi gözlənilir və vəsaitlərin 70 %-nə qədəri XİZ rezientlərinin zonaya yatırdığı investisiyalardan ibarət olacaqdır. Görülən tədbirlər ildə bu turizm zonasına 60-65 min nəfərin gəlməsinə imkan verəcəkdir. Digər maraqlı turizm XİZ layihələrindən biri kimi, Rusiyanın Krasnodar regionunda reallaşdınıması istiqamətində iş aparılan “Yeni Anapa” (“Hosaa Anana”) turizm-rekreasiya XİZ-idir. Bu zona ilin 280 günü günəş şüalarının təsiri altındadır və orta illik temperatur +12Vdır. Zona “Anapa” aeroportundan 25 km məsafədə yerləşir. Bu zonanın təşkilindən əsas vəzifələr sırasına, regionda turizmin inkişafına əlavə şərait yaratmaq, turizm xidmətinin səviyyəsini qaldımıaq və

regionun investisiya mühitinin yaxşılaşdırılması, əhalinin məşğulluğunun gücləndirilməsi və Krasnodar ölkəsinin iqtisadi potensialının artınıması daxildirlər. Burada 35 min nəfərə yaxın insanın işlə təminatı və turizm obyektlərinə ildə təxminən 350-370 min turistin gəlməsi gözlənilir. “Yeni Anapa” XIZ-inin ümumi investisiya həcmi təxminən 2 mlrd. ABŞ dollan məbləğində qiymətləndirilir və bu məbləğin 80 %-ni XİZ-lərə cəlb ediləcək rezidentlər yatıracaqlar. Rusiyanın digər bir cənub regionunda - Stavropol ölkəsində təşkil edilən “Qrant Spa Yutsa” turizm-rekreasiya XİZ-i Yutsa şəhərinin 843 hektar ərazisində təşkil olunub. Bu XİZ-in əsas prioritetlərinə turizmin dinamik inkişafının təmin edilməsi, mineral su mənbələrində yerləşən çoxsaylı kurort-sanatoriyalann və turizm müəssisələrinin göstərdikləri xidmətin səviyyəsinin artırılması, regionun sosial- iqtisadi problemlərinin həll edilməsi, xüsusilə işsizliyin azaldılması, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsidir. Bu zona Pyatiqorsk şəhərindən 10 km və Mineralnıye Vodı aeroportundan 35 km məsafədə yerləşir. Zonaya cəlb ediləcək investisiyalann ümumi məbləği 800 mln. ABŞ dollanna yaxın olacağı və bu məbləğin 87-88 faizinin investorlar tərəfindən zonanın inkişafına yatıracaqları gözlənilir. Digər bir cəlbedici region olan Altay ölkəsində də turizm-rekreasiya XİZ-nin təşkili Rusiya höküməti tərəfdən gerçəkləşdirilməkdədir. “Biryuzovaya katun” («BHpK)30Ba5i KaTyHb») adlandınlan bu XİZ Katun şayının sol sahilində yerləşir və 3326 hektar əraziyə malikdir. Bu XİZ-in təşkilindən əsas istiqamətlər regionda turizmin inkişafina yeni stimullann verilməsi, investisiya mühitinin yaxşılaşdmlması, xidmət sektorunun gücləndirilməsi və əlavə iş yerlərinin yaradılması və sairlərdən ibarətdir, ildə bu XİZ-ə gələcək turistlərin sayının 115-120 min nəfər olacağı gözlənilir. Zonanın yaradılması və fəaliyyətinin təşkili layihələrinə ümumilikdə 760 mln. ABŞ dollanna yaxın investisiya resurslannın xərcləmnəsi nəzərdə tututlmuşdur və bu məbləğin 56 %-nə qədəri XİZ- subyektləri olan rezidentlər tərəfindən yatınlacaqdır. Altay ölkəsində təşkili reallaşdıran digər turizm-rekreasiya XİZ-i kimi “Altay vadisi” (“AjTTaHCKtW .aojiHHa”) diqqəti

cəlb edir. Burada çoxlu sayda idman-sağlamlıq və turizm obyektlərinin istismara verilməsi regionun inkişafina əsaslı təsir göstərəcəkdir. Zonaya yatmlacaq investisiyalann ümumi məbləği 720 mln. ABŞ dollan səviyyəsində qiymətləndirilir və bu məbləğin 56 faizə qədərinin rezidentlər tərəfindən daxil olacağı gözlənilir. 2016-cı ilədək bu zonaya gələn turistlərin illik axınının təxminən 90- 100 min nəfər təşkil edəcəyi proqnozlaşdırılır. Bu kimi zonalann fəaliyyətinin genişləndirilməsi nəticəsində, həmin zonalann yerləşdiyi regionlann iqtisadi güclərinin artmasına ciddi təsir göstənuəsi proqnozlaşdınlır. Məsələn, 2010-2017-ci illərdə “Yeni Anapa” XİZ-də ildə göstərilən xidmətlərin həcminin 7,0 mln. ABŞ dollanndan 635 mln.dollaradək artımı, “Qrant Spa Yutsa” XİZ-də 3,3 mln. ABŞ dollanndan 332 mln.dollaradək, “Biryuzovaya Katun” XİZ-də 1,1 mln. ABŞ dollanndan 116 mln. dollaradək, “Altay vadisi” XİZ-də 1,1 mln. ABŞ dollanndan 104 mln. dollaradək və, nəhayət, “Kurşskaya Kosa” XİZ-də 1,2 mln. ABŞ dollanndan 123 mln. dollaradək vəsait yalnız turistlərin bu zonalarda və zonadankənar region ərazilərində xərcləyəcəyi vəsaitlər hesabına artacağı imkanlan diqqəti cəlb edir. Bundan əlavə, turist axınının bu regionlara artması digər fəaliyyət sahələrinin, o cümlədən xarici-ticarət əməliyyatlannm genişləndirilməsinə, sahibkarlıq subyektlərinin xarici bazarlara çıxışının asanlaşdınimasına, mədəniyyət və ünsiyyət, həmçinin işgüzarlıq mühitinin formalaşmasına, regionun dünya təsərrüfat sisteminin inteqrasiya elementlərinə çıxışına əlavə stimullann verilməsinə, qədim xalq sənətkarlığının və əl işlərinin şəbəkəsinin genişləndirilməsi hesabına özünəməşğulluğun gücləndirilməsinə müsbət təsir göstərə bilər. Bu baxımdan turizm- rekreasiya XİZ-nin Azərbaycanda da optimal modifikasiyasının işlənib hazırlanması və tətbiqi problemləri və perspektivləri diqqətdən ya)nnmamahdır. Belə ki, ölkədə turizm ilə bağlı ardıcıl olaraq, bir neçə ildir ki, ciddi tədbirlər görülsə də, hələlik bu sahənin real potensialının üzə çıxan İması və praktiki proseslərdə gerçəkləşdirilməsi tədbirlərinin intensivləşdirilməsinə ciddi ehtiyac vardır. Cədvəl 26-da Azərbaycanda dövlət sanatoriyalan, istirahət və turizm müəssisələrinin göstəriciləri verilmişdir.

Cədvəl 26.

**Azərbaycan Respublikasında dövlət sanatoriyaları, istirahət və turizm**

| s\s | Göstəricilər | 2001 | 2006 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|
| i | Sanatoriyalar və istirahət müəssisələrinin sayı | 88 | 84 | 75 | 75 | 75 | 75 |
| | onlarda çarpayıların sayı | 14477 | 13905 | 12140 | 11277 | 11659 | 12215 |
| 2 | Sanatoriyalar və müalicə pansionatlarınm sayı | 44 | 40 | 32 | 33 | 33 | 33 |
| | onlarda çarpayıların sayı | 10956 | 10198 | 8315 | 8377 | 8393 | 8368 |
| 3 | Turist bazalarının və digər istirahət müəssisələrinin sayı | 27 | 27 | 26 | 25 | 25 | 25 |
| | onlarda yerlərin sayı | 2364 | 2523 | 2505 | 1723 | 2171 | 2204 |

**Mənbə: "Azərbaycanda səhiyyə, sosial təminat və ətraf mühit" - 2011 statistik məcmuə**

Cədvəl 26-ya nəzər salsaq, görərik ki, 2001-2011-ci illərdə ölkədə dövlət statuslu sanatoriyalar və istirahət müəssisələrin sayı azalmışdır. Burada mövcud çarpayıların sayında da azalma müşahidə edilmişdir və eyni zamanda turist bazalann sayında dəyişiklik olmamışdır. Bu təbiidir, çünki turizmin perspektiv inkişafı bazar iqtisadiyyatlı strukturlarla bilavasitə bağlıdır və buraya ilk növbədə özəl kompaniyaların və investorlann cəlbi üçün işlər aparılmalıdır [12]. Cədvəl 27-də 2005-2010-cu illərdə Azərbaycan Respublikasında turizm müəssisələrin bir sıra əsas göstəriciləri yer almışdır.

Cədvəl 27-yə əsasən baxılan dövr ərzində turizm təyinatlı müəssisələrin sayı 1,6 dəfə artaraq, 126 vahid təşkil etmişdir. Bu müəssisələrdə turizm fəaliyyəti ilə çalışan işçilərin sayı 2010-cu ildə 1159 nəfər olmuşdur. Turizm fəaliyyətindən əldə edilən gəlirlər 2010-cu ildə 14,8 mln. manat təşkil etmişdir. Ölkədə rəsmi olaraq, yerləşdirilmiş turistlərin sayı 2010-cu ildə 69,9 min nəfər təşkil et

mişdir ki, bunlardan da cəmisi 10,3 min nəfəri turist bazalarında qeydə alınmışdır. Qonaq evlərində və mehmanxanalarda isə 53,5 min nəfər turist yerləşdirilmişdir [13].

**Cədvəl 27.**

**Azərbaycan Respublikasında turizm müəssisələrinin bir sıra əsas göstəriciləri**

| s/s | Göstəricilər | 2005 | 2010 |
|---|---|---|---|
| 01 | Müəssisələrin sayı | 81 | 126 |
| 02 | Turizm fəaliyyəti ilə məşğul olan işçilərin sayı, nəfər | 564 | 1159 |
| 03 | Turizm fəaliyyətindən gəlir, min manat | 4035,3 | 14755,5 |
| 04 | Turizm fəaliyyətinə çəkilən xərclər, min manat | 3884,0 | 13805,7 |
| 05 | Əhaliyə satılmış turizm yollayışlarımn sayı, ədəd | 16444 | 34121 |
| | o cümlədən | | |
| | Ölkə daxilində səyahət üçün Azərbaycan vətəndaşlarına, ədəd | 2681 | 3385 |
| | Ölkədən kənarda səyahət üçün Azərbaycan . vətəndaşlarına, ədəd | 12211 | 27030 |
| 06 | Yerləşdirilmiş turistlərin sayı | 40008 | 69923 |
| | o cümlədən: Qonaq evlərində, mehmanxanalarda | 33058 | 53468 |
| | Turist bazalarında | 4958 | 10349 |

**Qeyd: Cədvəl ARDSK-nın məlumatları əsasında hazırlamışdır.**

Bu iki cədvəldə əksini tapmış turizm üzrə xidmətlər və bu sahənin imkanları barəsində göstəricilərin ölkədə bu sahənin mövcud fəaliyyət imkanlan müqabilində xeyli az olduğu görünür. Ola bilər bu sahədə hələlik statistika məlumatlannm obyektiv toplanması problemləri vardır, çünki əgər ölkənin müxtəlif regionlannda fəaliyyət göstərən turizm-istirahət mərkəzlərin sayma və coğrafiyasına adi gözlə baxıldıqda belə rəsmi statistik rəqəmlərin ölkədə bu sahədəki real mövcud vəziyyəti əks etdirmədiyi barədə

məyə sövq edər. Fikrimizcə, bu problemlər turizmin yeni iqtisadiyyat sektoru kimi formalaşdığından tədricən aradan qalxacaqdır və bu istiqamətdə ölkə rəhbərliyinin sahənin güclü inkişafı ilə bağlı qəbul etdiyi mühüm qərarlar və strateji prioritetlər ciddi önəm daşıyacaqdır. Belə ki, artıq Azərbaycan hökuməti ölkənin Şimal bölgəsində qış idman kompleksi layihəsini gerçəkləşdirir və infrastruktur şəbəkəsi istismara verilir və s. Bununla belə, ölkənin şimala doğru Xəzər dənizi sahillərində. Qərb və Cənub bölgələrində turizm-rekreasiya XİZ-nin tətbiqi istiqamətində güclü potensialın və perspektivlərin mövcudluğu diqqəti cəlb edir. Fikrimizcə, bu tip iqtisadi zonalardan hələlik bir və ikisinin praktiki tətbiqinin gerçəkləşdirilməsi üçün artıq Azərbaycanda siyasi və iqtisadi sabitlik, maliyyə resurslan mövcuddur. Azərbaycanda turizm sektorunun ölkənin prioritet qeyri-neft sektoru sahələrindən biri kimi qəbul edilməsi, bu sahədə artıq çoxlu sayda tədbirlərin həyata keçirildiyi bir şəraitdə konkret olaraq turizm-rekreasiya XİZ-nin yaradılması və tətbiqi daha effektivli nətiеələrin əldə edilməsinə, bu sahəyə dövlət vəsaiti, yerli investorlann kapitallan ilə yanaşı, iri xarici kapitala malik investorlann da cəlb edilməsinə təkan verərdi.

Qeyd etmək lazımdır ki, ölkəmiz dünya təsərrüfat sisteminə daha geniş inteqrasiya etdikcə, mühüm iqtisadi inkişaf prioritetləri və beynəlxalq əmək bölgüsündə əsas inteqrasiya istiqamətləri üzrə ixtisaslaşması problemləri xüsusi önəm daşıyır. 2009-cu ilədək olan dövrdə ardıcıl bir neçə il ərzində dünya bazannda neftin qiymətinin sürətlə qalxması və Azərbaycanın maliyyə imkanlarının xeyli artması fonunda ölkəmizin qeyri-neft sektoru üzrə prioritet istiqamətlərinin modelləşdirilməsi və inkişafı problemləri alimlər və mütəxəssislər arasında ciddi diskussiya predmetinə çevrilmişdir. Təəssüf ki, bir çox alimlər və tədqiqatçılar hasilat sahəsinin artan uğurları və maliyyə resurslarının yüksəldiyi bir şəraitdə qeyri-neft sektoru sahələrinin fundamental və obyektiv təhlili problemlərinə daha dərindən yanaşmaqda qətiyyətli mövqe tuta bilməmişlər. Biz özümüz də etiraf etməliyik ki, Azərbaycanda yüksək potensiala malik qeyri-neft sektorunun inkişaf prioritetləri barədə təklif və

kimi prioritet vəzifələrin konseptual əsaslannm elmi ictimaiyyətin və mütəxəssislərin müzakirəsinə vemıəkdə daha çox fəallığa ehtiyac vardır. Ölkə Prezidentinin son illərdə elmi prioritetlərə üstünlük verməsi, elm adamlannm və sahə mütəxəssislərini daha məhsuldar və praktiki baxımdan əhəmiyyətli olan strateji-iqtisadi konsepsiyalann işlənib hazırlanmasım şərtləndirir. Təsadüfi deyildir ki, ölkə rəhbərliyi son illərdə fundamental elmi-tədqiqat işlərinin maliyyələşdirilməsinə ayrılan vəsaitləri artırmaqdadır və bu məqsədlərlə bir sıra mühüm tədbirlər reallaşdırılmışdır. Elmi-tədqiqat müəssisələrinin yerləşdiyi binaların təmir edilməsi, bu sahədə maddi-texniki bazanın gücləndirilməsi, elmi işçilərin və elm adamlarının əmək haqqlannm ilbəil artırılması, Elmin İnkişaf Fondunun yaradılması, elmi qrantların ayniması və sairlər həyata keçirilmişdir [14J. Bu baxımdan Azərbaycan alimlərinin ölkənin iqtisadi inkişaf prioritetlərinin müəyyənləşdirilməsində və iqtisadi inkişaf konsepsiyasının təkmilləşdirilməsi üzrə əldə etdiyi nəticələr, fikir və mülahizələr mühüm əhəmiyyət kəsb edir. Azərbaycan iqtisadiyyatının beynəlxalq iqtisadi proseslərdə inteqrasiya imkan-lannı araşdıran və beynəlxalq əmək bölgüsündə rolunu xarakterizə edən i.e.d. GƏ.Gənciyev qeyd edir ki. Respublikamıza gəlincə, fıkrimizcə, onun müqayisəli üstünlüklərə malik olduğu sahələri dirçəltmək üçün yaxın perspektivdə həmin sahələrdə idxalın əvəzlənməsi modelinin tətbiq etməklə bərabər, müvafiq sahələrinin əmtəələrinin dünya bazarında reallaşdınimasını tətbiq etmək məqsədilə, ixracyönlü modelin ixracın stimullaşdiırılmasına, xarici in- vestisiyalann cəlb olunmasına şərait yaradan iqtisadi alətlərdən və nçaqlardan da aktiv surətdə istifadə olunmalıdır [s. 33, 48J. Müəllif praktiki misal kimi Asiyanın yeni sənaye ölkələrinin ixracyönlü modelini və Latın Amerikası ölkələrinin isə idxalın əvəzlənməsi modellərini nümunə kimi vemıişdir. Məlum olduğu kimi, Cənubi-Şərqi Asiya ölkələrindən fərqli olaraq. Latın Amerikasının yeni sənaye ölkələri, zəngin təbii resurslara malikdirlər. Bu baxımdan onlann əsasən təbii ehtiyatlardan səmərəli istifadə edilməsi sahəsində yeni emal müəssisələrinin və istehsal sahələrinin yaradılması istəyi anlaşılandır. Asiya

ölkələrində isə rəqabətqabiliyyətli ixrac məhsullanna üstünlük verməsi nəticəsində, xarici ticarət dövriyyəsinin bu ölkələrin iqtisadiyyatında əhəmiyyəti xeyli artmışdır. Və bunun nəticəsində bir qrup Asiya ölkələrinin ümumdünya ixracında xüsusi çəkisi fərqlənmişdir (Cənubi Koreya, Tayvan, Sinqapur, Honkonq və s.). Bu müqayisələrin əsas məqamları bizim üçün ona görə maraq doğunnuşdur ki, həm Asiya, həm də Latın Amerika ölkələri ixrac və idxal əvəzedici istiqamətlərdə istehsal və emal müəssisələrinin yaradılması proseslərində XİZ institutundan praktikada müvəffəqiyyətlə istifadə etməyə nail olmuşlar. Müxtəlif ixtisaslaşmalara gəldikdə isə, Sinqapurda maşınqayırma və elektron sənayesi, Honkonqda elektronika, yüngül və yeyinti sahələri, Cənubi Koreyada maşınqayınua, gəmiqayınua və avtomobilqayınua sahələri, Tayvanda elektronika və yüngül sənaye sahələri, Malayziyada yüngül sənaye və yarımfabrikatlar, Meksikada kimya, metallurgiya, maşınqayırma və elektrotexnika, Braziliyada gəmiqa- yınna, təyyarəqayırma, metallurgiya, şəkər qamışı və kofe, Argentinada qara metallurgiya, yüngül sənaye, kənd təsərrüfat məhsulla- n və sairlər təşkil etmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycanda da müxtəlif emal sahələri üzrə rəqabətqabiliyyətli və ixrac təyinatlı məhsullann çeşidinin artınimasında geniş perspektivlər mövcuddur. GƏ.Gənciyev qeyd edir ki, xammalın və aralıq məhsullann emal səviyyəsinin yüksəlməsinə istiqamətləndirilmiş dəyişikliklərin beynəlxalq əmək bölgüsündə Azərbaycan qarşısında təkcə neft sənayesində nə dərəcədə geniş, indiyə kimi həqiqətən də istifadə edilmiş imkanlar açdığını təsəvvür etmək üçün sadəcə bunlara diqqət yetirək: əgər ölkəmiz ilkin xammal formasında cəmi 4-6 növ neft məhsulları ixrac edirsə, həmin məhsullar idxalçı ölkələrdə 100-dən çox müxtəlif növ əmtəəyə çevrilərək Respublikamıza ixrac edilir. Anoloji problem kənd təsərrüfatında da mövcuddur Is. 76, 481. Müəllif ixracın stimullaşdırıması üçün ölkəmizin iqtisadi prioritetlərinin praktiki reallaşdırılmasında bir qrup elementlərə - emal sənayesinə aid ixracatın stimullaşdırılmasma, ixrac müəssisələrinin və istehsal sahələrinin əsas fondlarının möhkəmləndirilməsi üçün idxal olunan avadanlıqların və texnikanın

gömrük rüsumlanndan azad edilməsi, elmi-tədqiqat institutlanmn əldə etdikləri elmi nəticələrin aktiv şəkildə ixracyönlü sahələrə ötürülməsinin təmin edilməsini və sairləri daxil etmişdir. Bunları nəzərə alaraq, XIZ-lərin tətbiqinin prioritet istiqamətlərini müəyyənləşdirmək məqsədilə, Azərbaycanda xarici ticarətlə bağlı fəaliyyətə və onun göstəricilərinə nəzər salaq. Cədvəl 28-də Azərbaycan Respublikasının xarici ticarət əlaqələrində əsas tərəfdaşlar verilmişdir.

**Cədvəl 28.**

**Azərbaycan Respublikasının xarici ticarət əlaqələrində əsas tərəfdaşların xüsusi çəkisi (faizlə)**

| Ölkələr | İdxal | | | | Ölkələr | İxrac | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2006 | | 2010 | | | 2006 | | 2010 | |
| | Xüsusi çəkisi %-lə | Yeri | Xüsusi çəkisi "Zola | Yeri | | Xüsusi çəkisi %-lə | Yeri | Xüsusi çəkisi %-lə | Yeri |
| Rusiya | 22,4 | 1 | 17,3 | 1 | İtaliya | 44,7 | 1 | 33,0 | 1 |
| Türkiyə | 7,3 | 4 | 11,7 | 2 | Fransa | 5,5 | 4 | 8,7 | 2 |
| Almaniya | 7,7 | 3 | 9,2 | 3 | İsrail | 10,7 | 2 | 8,2 | 3 |
| Çin | 4,2 | 7 | 8,9 | 4 | ABŞ | 1,4 | 11 | 7,6 | 4 |
| Ukrayna | 6,0 | 6 | 7,1 | 5 | Ukrayna | 0,6 | 16 | 4,2 | 5 |
| Böyük Britaniya | 8,6 | 2 | 4,6 | 6 | Xorx'atiya | 0,1 | 42 | 3,7 | 6 |
| Qazaxıstan | 2,4 | II | 4,4 | 7 | İndoneziya | 0,0 | 80 | 3,7 | 7 |
| ABŞ | 3,8 | 8 | 3,1 | 8 | Rusiya | 5,4 | 5 | 3,6 | 8 |
| Sinqapur | 0,1 | 43 | 2,6 | 9 | Malayziya | 0,0 | 95 | 3,5 | 9 |
| Braziliya | 1,6 | 15 | 2,4 | 10 | Sinqapur | 0,5 | 18 | 2,4 | 10 |

**Qeyd: Cədvəl ARDSK-nin "Azərbaycanın xarici ticarəti"-2011 statistik məcmuəsi əsasında hazırlanmışdır.**

Cədvəl 28-in təhlilinə əsasən ölkənin ixrac tərəfdaşlan içərisində ilk 3 yeri karbohidrogen ehtiyatlarının ixracı ilə bağlı ölkələr tutur. Əsasən qeyri-neft məhsullannm ixracı üzrə tərəfdaş olan Rusiyanın payı isə 3,6%-dir və nəzərə almaq lazımdır ki, uzun illərdir ki, Rusiya Azərbaycanın idxalında ilk yerdədir, 2010-cu ilin nəticələrə görə bu ölkənin Azərbaycanın idxalında payı 17,3% təşkil etmişdir. Cədvəl 29-da Azərbaycan Respublikasında xarici ticarət əlaqələrinin dinamikası verilmişdir.

**Cədvəl 29.**

**Azərbaycan Respublikasında xarici ticarət əlaqələrinin dinamikası (min. ABŞ dolları)**

| İllər | Ticarət dövriyyəsi | O cümlədən: | | İllər | 1'icarət dövriyyəsi | O cüml.ədən: | |
|---|---|---|---|---|---|---|---|
| | | İdxal | İxrac | | | İdxal | İxrac |
| 1991 | 4002.2 | 1881,2 | 2121,0 | 2001 | 3745,3 | 1431,1 | 2314,2 |
| 1992 | 2423,8 | 939,8 | 1484,0 | 2002 | 3832.9 | 1665,5 | 2167,4 |
| 1993 | 1353,5 | 628,8 | 724,7 | 2003 | 5216,6 | 2626,2 | 2590,4 |
| 1994 | 1430,6 | 777,9 | 652,7 | 2004 | 7131,4 | 3515,9 | 3615,5 |
| 1995 | 1304,9 | 667.7 | 637,2 | 2005 | 8558,4 | 4211,2 | 4347.2 |
| 1996 | 1591,9 | 960,6 | 631,3 | 2006 | 11638,9 | 5266,7 | 6372,2 |
| 1997 | 1575,7 | 794,4 | 781,3 | 2007 | 11771,7 | 5713,5 | 6058,2 |
| 1998 | 1682,6 | 1076,5 | 606,1 | 2008 | 54926,0 | 7170,0 | 47756,0 |
| 1999 | 1965,6 | 1035,9 | 929.7 | 2009 | 20824,5 | 6123,1 | 14701,4 |
| 2000 | 2917,3 | 1172,1 | 1745,2 | 2010 | 27960,8 | 6600,6 | 21360,2 |

**Qeyd: Cədvəl AR DSK-nin "Azərbaycanın xarici ticarəti"-2011 statistik məcmuəsi əsasında hazırlanmışdır.**

Cədvəl 29-dən göründüyü kimi, 2008-2010-cu illərdə ölkə ixracının dinamikası birbaşa olaraq, karbohidrogen ehtiyatlarının həcmi və dünya qiymətlərinin təsiri altında dəyişmişdir. Bu dövr ərzində isə idxalda elə bir əhəmiyyətli dəyişiklik baş vennəmişdir. Cədvəl 30-da Azərbaycan Respublikasında idxal və ixracın strukturu öz əksini tapmışdır.

Cədvəl 30-un təhlilinə baxsaq, görərik ki, ölkənin qeyri-neft sektorunun mühüm növləri üzrə məhsullannm dəyəri olduqca aşağıdır. Məsələn, güclü infrastruktur imkanlanna və rəqabət qabiliyyətlilik potensialına malik olan kimya sənayesi üzrə ixracın dəyəri 2006-cı ildə 193 mln. ABŞ dollan olmuşdursa, bu rəqəm 2010-cu ildə cəmisi 47,9 mln. ABŞ dolları təşkil etmişdir. Maraqlıdır ki, elə həmin ildə ölkəyə kənardan 437,9 mln. ABŞ dollan dəyərində kimya sənaye məhsulları idxal edilmişdir. Başqa bir misal, güclü bitkiçilik potensialına və ənənələrinə malik olan ölkəmizdə 2010-cu ildə cəmisi 227,6 mln. ABŞ dolları dəyərində bitki mənşəli məhsullar ixrac edildiyi halda, 437,4 mln. ABŞ dollan həcmində həmin məhsullann idxalı həyata keçirilmişdir. Bundan əlavə, 2010-cu ildə ölkədən cəmisi 214,2 mln. ABŞ dollan həcmində hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün kimi məhsullar ixrac edilmişdirsə, bu qrup mallar üzrə idxalın həcmi 616,4 mln. ABŞ dolları təşkil etmişdir. Cədvəl 31- də isə Azərbaycanın xarici ticarət dövriyyəsində idxal və ixracın quruluşu faizlə verilmişdir.

Cədvəl 31 -dən göründüyü kimi ölkə üzrə mineral məhsulların ixracı 2006-cı ildə 84,6% olduğu halda, bu rəqəm 2010-cu ildə 94,2% olmuşdur. Kimya məhsullannm ixracda payı 2006-cı ildəki 2,1%-dən 2010-cu ildə 0,6 %-ə qədər düşmüşdür və sair. Ölkəyə daxil olan malların idxalında yeyinti məhsullarının xüsusi çəkisi artmış, maşınlar və nəqliyyat avadanlıqlannın idxal səviyyəsi isə aşağı düşmüşdür. Materialın növünə görə təsnifləşdirən sənaye mallan üzrə idxalın həcmi 2006-cı ildə 17,2% təşkil etdiyi halda, 2010-cu ildə bu rəqəm 20,6% olmuşdur. Digər tərəfdən ölkə ixracında kimya məhsullannm həcminin əhəmİз^ətli dərəcədə azalması müqabilində, bu kateqoriyadan olan məhsulların səviyyəsi ölkə idxalında 2010-cu ildə 8,9% təşkil etmişdir [15J.

Cədvəl 30.

**Azərbaycan Respublikasında idxal və ixracın strukturu (mln. ABŞ dolları)**

| | Mal qrupları | İdxal | | ixrac | |
|---|---|---|---|---|---|
| | | 2006 | 2010 | 2006 | 2010 |
| | Cəmi: | 5266,7 | 6600,6 | 6372,2 | 21360,2 |
| 01 | Diri heyvanlar və hcy\ an mənşəli məhsullar | 41,2 | 86,2 | 0,65 | 0,67 |
| 02 | Bitki mənşəli məhsullar | 201,7 | 437,4 | 156,3 | 227,6 |
| 03 | Heyvan və bitki mənşəli piylər və yağlar | 40.6 | 93,7 | 63,4 | 128,9 |
| 04 | Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün | 273,2 | 616,4 | 101,7 | 214,2 |
| 05 | Mineral məhsullar | 779,8 | 208,2 | 5392,7 | 20119,9 |
| 06 | Kimya sənaye məhsulları | 249,2 | 437,9 | 193,0 | 47.9 |
| 07 | Plastik kütlələr, kauçuk, rezin və s. məmulatlar | 134,5 | 225,5 | 100,6 | 84,7 |
| 08 | Emal olunmamış gön, aşılanmış dəri, təbii xəz və məmulatlar | 1,9 | 2,7 | 3,4 | 11,8 |
| 09 | Oduncaq, mantar məmulatları | 53,2 | 165,0 | 1,3 | 1,0 |
| 10 | Oduncaq kağız və kanon (məmulatları) | 80,5 | 127,0 | 2,6 | 4,0 |
| 11 | Toxuculuq materialları və məmulatları | 64,2 | 61,0 | 60,9 | 42,8 |
| 12 | Ayaqqabı, baş geyimləri, çətirlər, çəliklər və s. | 16,1 | 7,1 | 0,16 | 0,03 |
| 13 | Daş, gips, sement, keramik və şüşədən məmulatlar | 80,6 | 201,7 | 1,1 | 1,4 |
| 14 | Mirvari, qiymətli daşlar və metallar (məmulatlar) | 4,5 | 13,7 | 0,006 | 82,7 |
| 15 | Az qiymətli metallar (məmulatlar) | 615,6 | 925,2 | 149,6 | 121,2 |
| 16 | Maşınlar, mexanizmlər. elektrotexniki avadanlıqlar | 1546,4 | 1903,2 | 37.1 | 38.6 |
| 17 | Quru nəqliyyat vasitələri (üzən nəqliyyat vasitələri) | 877,8 | 796,9 | 87,8 | 181,1 |
| 18 | Optik, fotoqrafik, tibbi alətl.ər, saat və s. | 115,7 | 174,7 | 4,6 | 7,0 |
| 19 | Müxtəlif sənaye malları | 86,7 | 94,2 | 5,8 | 4,6 |
| 20 | İncəsənət əsərləri və antikvariat | 0,18 | 0,10 | 0,09 | 0,34 |

**Qeyd: Cədvəl AR DSK-nin "Azərbaycanın xarici ticarəti"-2011 statistik məcmuəsi əsasında hazırlanmışdır.**

**Cədvəl 31.**

**Azərbaycan Respublikasında Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə idxal və ixracın quruluşu (ümumi həcmdə xüsusi çəkisi, faizlə)**

| s/s | Məhsul bölmələri | İdxal | | İxrac | |
|---|---|---|---|---|---|
| | | 2006 | 2010 | 2006 | 2010 |
| | Cəmi: (o cümlədən) | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| 1 | Yeyinti məhsulları və diri heyvanlar | 7,6 | 13,1 | 3,6 | 1,9 |
| 2 | içkilər və tütün | 2.1 | 4,0 | 0,6 | 0,1 |
| 3 | Qeyri-ər/aq xammalı (yanacaqdan başqa) | 2,9 | 2,7 | 3,2 | 0,1 |
| 4 | Mineral yanacaq, sürtkü yağlan, analoji materiallar | 11,6 | 1.1 | 84,6 | 94,2 |
| 5 | Heyvan və bitki mənşəli yağlar, piylər | 0,7 | 1,3 | 0,8 | 0,7 |
| 6 | Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məh.sullar | 5,8 | 8,9 | 2,1 | 0,6 |
| 7 | Osasən materialın nö\ünə görə təsnifləşdirilən sənaye malları | 17,2 | 21,6 | 2,8 | 0,8 |
| 8 | Maşınlar və nəqliyyat avadanlıqları | 46,2 | 40,6 | 1,9 | 1,0 |
| 9 | Müxtəlif sənaye məmulatları | 5,8 | 6,6 | 0,4 | 0,2 |
| 10 | Digər kateqoriyalara daxil edilməyən mallar | 0,1 | 0,1 | - | 0,4 |

**statistik məcmuəsi əsasında hazırlanmışdır.**

Bu faktlar onu göstərir ki, Azərbaycanın qeyri-neft sektoru sahələrinin rəqabət qabiliyyətinin qaldırılması, müxtəlif ixrac təyinatlı məhsullann istehsalının yeni standartlar səviyyəsində qurulması və idxaləvəzedici istehsal şəbəkəsinin yaradılması problemlərinin həlli ölkənin iqtisadi sistemində innovasiyalarla və müasir texnologiyalarla zəngin olan yeni iqtisadi mexanizmlərin tətbiqini tələb edir. Cədvəl 32-də Azərbaycan Respublikasında bir qrup mühüm sənaye məhsullarının istehsalının həcmi verilmişdir.

**Cədvəl 32.**

**Azərbaycan Respublikasında bir qrup mühüm sənaye məhsullarının istehsalı**

| | | 1990 | 1995 | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 01 | Neft hasilatı, mln.ton | 12,5 | 9,2 | 14,0 | 22,2 | 32,3 | 42,6 | 44,5 | 50,4 | 50,8 |
| 02 | Qaz hasilatı, mlrd.m3 | 9,9 | 6,6 | 5,6 | 5,7 | 9,1 | 16,8 | 23,4 | 23,6 | 26,3 |
| 03 | Ot, min ton | 61,1 | - | 108,9 | 130,7 | 133,8 | 144,0 | 155,2 | 237,1 | 246,6 |
| 04 | Kəro yağı, min ton | 3,8 | • | 12,8 | 14,2 | 14,3 | 14,4 | 14,1 | 20,7 | 20,9 |
| 05 | Pendir və kəsmik, min ton | - | - | - | 33,5 | 33,8 | 34,2 | 41,8 | 42,5 | 43,3 |
| 06 | Un, min ton | - | - | - | 1374 | 1402 | 1423 | 1319 | 1320 | 1320 |
| 07 | Bitki yağlan, min ton | 40,7 | - | - | 64,1 | 40,4 | 68,4 | 77,9 | 70,9 | 88,7 |
| 08 | Qənnadi məmulatları, min ton | 105,6 | - | - | 42,9 | 44,1 | 45,7 | 43,3 | 40,0 | 43,5 |
| 09 | Təbii çay, min ton | - | - | - | 7,5 | 7,7 | 7,9 | 7,1 | 10,7 | 10,9 |
| 10 | Şəkər və şəkər tozu, min ton | - | - | - | 3,6 | 216,3 | 305.5 | 271,9 | 316,3 | 335,5 |
| II | Avtomobil benzini, min ton | • | - | - | 906,2 | 1043 | 1129 | 1320 | 1235 | 1249 |
| 12 | Sulfat turşusu, min ton | 603,1 | 24,0 | 25,0 | 18,8 | 21,2 | 25,3 | 40,7 | 12,8 | 10,9 |
| 13 | Kaustik soda, (maye), min ton | 159,7 | 36,4 | 25,3 | 26,4 | 39,2 | 19,9 | 22,5 | 7.8 | 7,1 |
| 14 | İzopropil spirti, min ton | - | - | 18,4 | 20,7 | 24,2 | 16,6 | 27,7 | 10,0 | 10,5 |
| 15 | Etilen, min ton | - | - | 40,1 | 54,7 | 72,6 | - | - | - | 55,0 |
| 16 | Polictilen, min ton | - | - | 32,3 | 53,0 | 70,4 | 47,2 | 65,1 | 42,2 | 53,7 |
| 17 | Propilen, min ton | 49.4 | 18,<br>8 | 18,5 | 29,2 | 38,5 | 26,6 | 35,5 | 23,0 | 28,6 |
| 18 | Sintetik yuyucu vasitələr, min ton | - | - | - | 6,0 | 3,6 | 5,9 | 5,2 | 6,8 | 1,0 |
| 19 | Lak-boya məmulatlan, min ton | - | - | - | 3,5 | 1,7 | 1,7 | 2,6 | 2,8 | 2,2 |
| 20 | Polimer örtüklər. | - | - | 1.4 | 1,5 | 0,9 | 0,8 | 0,3 | 0.3 | 0,5 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **min ton** | | | | | | | | | |
| 21 | **Sement, min ton** | **990,0** | **195,9** | **223,1** | **1538** | **1622** | **1691** | **1596** | **1286** | **1279** |
| 22 | **Polad tökmə, min ton** | **27,1** | **2,4** | **43** | **286,1** | **335,3** | **468,0** | **278,1** | **150,3** | **306,5** |
| 23 | **Məişət kondisionerləri, min ədəd** | **309,0** | **64,0** | **2,0** | **M** | **1,6** | **0,8** | **6,2** | **1,9** | **2,2** |
| 24 | **Məişət soyuducuları, min ədəd** | **330,0** | **25,0** | **0,7** | **13,4** | **15,1** | **8,9** | **9,2** | **4,6** | **3,6** |

**Qeyd: Cədvəl ARDSK-nin materialları əsasında hazırlanmışdır.**

Cədvəl 32-nin təhlilinə əsasən son illərdə dünya maliyyə böhranı və iqtisadi tənəzzülə baxmayaraq, aydın gönnək mümkündür ki, Azərbaycanda neft və qaz hasilatı sabit xarakter daşıyır və təsadüfi deyildir ki, məhz bu sahələrin hesabına və neft-qaz ixracından əldə edilən vəsaitlərin hesabına ölkəmiz mühüm iqtisadi islahatları dərinləşdirə bilmiş, bir sıra qeyri-neft sektoru sahələrinin prioritet inkişaf istiqamətlərində əsaslı irəliləyişlərin təməli qoyulmuşdur [16]. Bununla belə, bir sıra ənənəvi məhsullar üzrə mövcud potensialdan zəif istifadə diqqəti cəlb edir. Biz kimya məhsul- lannın ixrac potensialının xeyli zəiflədiyini qeyd etmişdik. Amma gündəlik istehlakda ciddi tələbat olan sintetik yuyucu vasitələrin ölkəmizdə ənənəvi istehsal sahələrinin olmasına baxmayaraq, hələ də reabilitasiya olunmaması və bu istiqamətdə müasir texnologiyalar əsasında yeni innovatik istehsal sahələrinin yaradılmaması təəssüf doğurur. Bundan əlavə kənd təsərrüfatı və qida sənayesinin müxtəlif sahələrində fəal istifadə olunan polimer örtüklərin istehsalının xeyli aşağı düşməsi müşahidə olunmaqdadır. Təbii çay kimi strateji məhsulun əkin sahələrinin və həcminin genişləndirilməsi tədbirlərinə də zərurət diqqəti cəlb edir. Ümumiyyətlə qeyri- neft sektoru sahələrinin, o cümlədən sənayenin və kənd təsərrüfatı sahələrinin prioritet istiqamətlərin mövcud potensiallannın əksəriyyəti bu sahələrdə yeni iqtisadi mexanizmə malik XİZ modellərinin tətbiqinə imkan vermək iqtidanndadır və, şübhəsiz, bu perspektiv istiqamətlərin fundamental elmi-iqtisadi əsaslandınrIması və əvvəllərdə qeyd etdiyimiz kimi, ölkənin iqtisadi sisteminə uyğunlaşa biləcək modellərin müəyyənləşdirilməsi

yət kəsb edir.

Azərbaycanda XİZ-lərin tətbiqinin prioritet istiqamətləri barəsində araşdınnalar zamanı pozitiv mülahizə kimi, Ə.GGənciyevin Sumqayıtda ixrac-istehsal zonasının yaradılması ilə bağlı fikirləri diqqətimizi cəlb etmişdir. Müəllifin fikrincə, İslam Əməkdaşlıq Təşkilatı ölkələri ilə əməkdaşlıq əsasında Sumqayıtda ixrac-istehsal zonasının yaradılması məqsədəuyğun olardı. Sumqayıt şəhərinin böyük sənaye potensialı belə azad iqtisadi zonanın təşkili və effektiv fəaliyyət göstərməsinə çox əlverişli şərait yaradır. Şəhərin sənaye gücü və formalaşdmlacaq ixrac-istehsal zonasının səmərəliliyinə əmin olmaq üçün Sumqayıtda onlarla neftkimya və üzvi kimya məhsulları sahələri, boru prokat və alüminium istehsal sahələri, kompressor zavodu, aşqarlar, şüşə, dəmir-beton məmulatları, polimer tikinti materiallan, polietilen və superfosfat istehsal sahələr üzrə zavodlar, qənnadı, toxuculuq fabrikləri və sair iri potensiala malik sənaye müəssisələrinin yerləşdiyini gösətnnək yəqin ki, kifayətdir [s. 171, 48]. Müəllifin bu fikirlərində böyük perspektivlərin olması barədə artıq 15 ildən çoxdur ki, ölkəmizdə ciddi diskussiyalar getməkdədir. Bizim də bu sənaye şəhərində və onun istehsal sahələri ilə bağlı son 10 ildə səslənən təkliflərimiz müxtəlif elmi ədəbiyyatlarda və nəşrlərdə yer almışdır 141;42;43|.

Bir mühüm amili də qeyd etmək lazımdır ki, gösətrilən istiqamətlər üzrə ölkə rəhbərliyi tərəfindən daimi olaraq, müxtəlif tədbirlərin müəyyənləşdirilməsi və maliyyələşdirilməsi həyata keçirilmişdir. Şübhəsiz, Azərbaycan dövləti bu sənaye mərkəzinin mühüm prioritet sahələrinin inkişafında ciddi maraqlıdır. Amma tək dövlət resurslan hesabına müasir bazar iqtisadiyyatı şəraitində bu iri vəzifələrin yükünü daşımaq o qədər də məqsədəuyğun deyildir. Onsuz da, uzun illərdir Azərbaycan höküməti Sumqayıt şəhərində yerləşən kimya və metallurgiya müəssisələrinin profillərinin qorunub saxlanması, onlann maddi-texniki bazasının yeniləşdirilməsi tədbirlərinə iri məbləğdə maliyyə yardımları etmişdir. Və, digər tərəfdən, bu gün də həmin sahələrə verilən enerjidaşıyıcılar və xammallann qiymətlərində (tariflərində) güzəştlər sistemi mövcuddur. Başqa sözlə, bu sahələr dolayı vasitələrlə də olsa, dövlət

dən subsidiya və dotasiyalar alırlar. Fikrimizcə, əgər son 10-15 il ərzində ciddi müzakirə obyektinə çevrilmiş iqtisadi zona modellərindən birinin Sumqayıt şəhərinin iri sənaye sahələrinin modemi- zasiyası problemlərinin həlli məqsədilə tətbiqi həyata keirilsəydi, bu həmin sahənin yeniləşdirilməsi və sürətli inkişafını təmin edərdi, burada ixrac təyinatlı, rəqabət qabiliyyətli məhsulların istehsalını və həcmini genişləndimıəklə, ölkəmizin iqtisadi gücünü daha da artırardı [64;74;83;1541. Amma təəssüf hissi ilə qeyd etmək lazım gəlir ki, hazırda Sumqayıtda hələ də bir çox sənaye-istehsal sahələrinin reabilitasiyası və modemizasiyası proseslərinə başlanılmayıb və yaxud bu proseslər çox ləng apanhr.

Biz XİZ-lərin tətbiqi prioritetlərini araşdırarkən, müasir dövrdə bu kimi mütərəqqi iqtisadi zonaların bir çox ölkələrdə maliyyə mənbələrinin diversifıkasiyası problemlərinin həllində effektivli iqtisadi mexanizm kimi istifadə edilməsi barədə nümunələrlə qarşılaşdıq. Bu zərurət hər bir milli iqtisadi subyektin büdcə gəlirlərinin artınlması istiqamətində çoxşaxəli və sabit maliyyə mənbələrinin yaradılması və fəaliyyət göstərməsi ilə bilavasitə bağlıdır. Bir qrup azərbaycanlı alimlər müasir dövrdə maliyyə bazarlannm dövlət tərəfindən tənzimlənməsi və maliyyə bazannm səmərəli fəaliyyət göstərməsi problemlərini araşdırarkən, bu qənaətə gəlmişlər ki, dövlətin fınans bazarında tənzimləyici kimi çıxış etməsinin özəl səbəblərindən bir də inhisarçılığm qarşısının alınması və sağlam rəqabət mühitinin yaradılmasıdır [25]. Finans bazannda inhisarçılıq əsasən maliyyə vasitəçilərinin inhisarçı mövqe tutmasıdır. Hansısa maliyyə vasitəçisinin inhisar mövqeyə malik olması bütün maliyyə proseslərinin onun diktəsi altında həyata keçməsinə, bu da nəticə etibarı ilə fınans bazarının səmərəli fəaliyyət göstərməməsinə gətirib çaxanr [s.37-38, 4]. Müəlliflər qeyd edirlər ki, islahatlann aparılması şəraitində maliyyə bazarlannm bütün seqmentlərinin inkişafı və təkmilləşdirilməsi məsələsi mühüm yer tutur. Fikrimizcə, Azərbaycanda son 10 il ərzində nisbətən sabit bank-kredit və maliyyə-valyuta sistemi formalaşmasına baxmayaraq, maliyyə bazannm təkmilləşdirilməsi, modernləşdirilməsi, bu sahədə daha effektivli mexanizmlərin işlənib hazırlanması baxı-

mindan maliyyə bazarının diversifikasiyalaşdırılmasına şərait yarada biləcək iqtisadi mühitə zərurət vardır. Belə mühit kimi hətta Avropanın iqtisadi cəhətdən inkişaf etmiş və yaşayış səviyyəsi xeyli yüksək olan ölkələrdə, xüsusilə, ada ölkələrdə XİZ variantlarından maliyyə-bank və sığorta sferalarının fəallaşdırılması məqsədilə istifadə olunur. Hazırda Azərbaycan investisiyaların cəlbindən investor ölkəyə çevrilməkdədir. Ölkəmizin maliyyə resursları artmaqdadır və regionda iri kapitalın fonnalaşması imkanları diqqəti cəlb edir. Belə bir şəraitdə Azərbaycan lokal maliyyə, maliyyə məsləhətləri, bank və sığorta təyinatlı XİZ-lərdən birinin tətbiqi vasitəsilə regionda güclü maliyyə xidmətlərinin bazarını fonnalaşdınnaq imkanına malikdir. Və nəticədə, bu sahə üzrə xidmətlərin və əməliyytltarm həcminin genişləndirilməsi hesabına ölkə iqtisadiyyatının gücünü xeyli artınnaq olardı.

Qeyd etmək lazımdır ki, XİZ-lərin dünya təcrübəsində tətbiqinin prioritet məqsədlərindən biri də milli subyektlərin makroiqtisadi sabitliyinin təmin edilməsi üçün əlavə stimullann əldə edilməsidir. Məlumdur ki, hər bir ölkə iqtisadi islahatlar apararkən və xüsusilə sosial yönümlü problemlərin həllini tezləşdirmək istəyərkən, iri həcmdə maliyyə resurslarından istifadə etməyə məcbur olur və bu amillər inflyasiya proseslərinə rəvac verir, inflyasiya proseslərinə çoxaspektli problem kimi baxan və bu istiqamətdə araşdınnalar aparan professor T.Quliyev Azərbaycanda milli iqtisadiyyatın inkişafı ilə bağlı maraqlı fikirlər söyləmişdir. Professor qeyd edir ki, milli iqtisadiyyata, milli məhsullara etinasızlıq, idxal məhsullarına üstünlük vermə, milli məhsulun rəqabətqabiliyyəti- nin aşağı olması və bunun nəticəsində eyni cinsli məhsulların xaricdən yüksək qiymətə idxal olunması baş verir. Əksər iqtisadçılar bunu inflyasiyanın xarici amili adlandırırlar. Professora görə, Azərbaycan özünün müstəqilliyinin ilk dövrlərində yüngül və yeyinti sənayelərinin inkiaşfma başlamalı idi. Çünki həmin dövrlərdə ölkəyə hər il 700-800 mln. dollarlıq ərzaq məhsulları gəlirdi. Belə çıxır ki, yalnız bu yolla respublikamızda 3 ildə 2 mlrd, dollardan artıq valyuta xarici bazarlara gedirdi. Xatırladaq ki, ağır sənayenin inkişafına üstünlük verən V.İ.Lenin

siyyət Rusiyada əvvəlcə yüngül sənayenin inkişafının önəmli olduğunu dəfələrlə bildirmişdir. Lakin buna xarici təhlükənin mane olduğunu və ağır sənayenin inkişaf etdirilməsinin zəruri olduğunu qeyd etmişdir. Düzdür, bizim də Qarabağ problemimiz vardır. Lakin konserv, şiriniyyat, toxuculuq və digər sahələrin inkişafına biganə qalmaq heç də bu problemlə bağlı olmamışdır. Çox təəssüf ki, bunu etmək əvəzinə müstəqilliyinin ilk illərində bir sıra ağır sənaye müəssisələrində olduğu kimi, yüngül və yeyinti sənaye kombinatlan və müəssisələri dəyər-dəyməzinə özəlləşdirildikdən sonra, həmin müəssislərin alınmasına sərf edilən xərci ödəmək məqsədilə oradakı avadanlıqlann bir hissəsi sökülüb satıldı, digər hissəsi isə metal yığmtısı kimi istifadə edildi [55]. Hönnətli professorun bu fikirlərini tam olaraq verməyimizin əsas səbəblərindən biri Azərbaycanda göstərilən sənaye sahələrinin hələ də müasirləşdirilməməsi və rəqabət qabiliyyətli istehsal müəssisələrinin azlığıdır. Düzdür, ölkə rəhbərliyinin birbaşa səyləri və daimi diqqəti nəticəcində yeyinti və qida sənayesi üzrə bir sıra orta və nisbətən iri istehsal müəssisələri yaradılmışdır. Bu müəssisələrdə bir qrup kənd təsərrüfatı, ərzaq və qida məhsullarının ixracı da ilbəil artmaqdadır. Digər tərəfdən, ölkəmizin ərzaq, qida və yeyinti məhsullanna olan tələbatının əhəmiyyətli hissəsi də artıq milli istehsalçılar tərəfindən ödənilməkdədir və getdikcə bu sahələrə daha mütərəqqi texnologiyaların gətirilməsi gözlənilir. Bunlarla belə, Azərbaycanda qədim ənənələrə malik olan toxuculuq sənayesinin iflic vəziyyətdən çıxanlması üçün kompleks tədbirlər həyata keçirilməyib və bu istiqamətdə strateji hədəflər geniş ictimaiyyətə məlum deyildir. Bakı və Sumqayıtda, eyni zamanda respublikanın iri şəhər və rayonlarında 50-yə yaxın toxuculuq və bütövlükdə tekstil təyinatlı iri, orta və kiçik müəssisələrin fəaliyyətinin bərpası mümkün olmamış, bu müəssisələrdə modemizasiya tədbirləri üzrə invsestisiyalann cəlbi təşkil edilməmiş, mövcud istehsal potensialları itirilmiş və yeniləri yaradılmamış və, nəticədə, bu gündə ölkə əhalisinin bu sahələr üzrə tələbatı olan tekstil və toxuculuq məmulatlan- nm əksər hissəsi xaricdən idxal edilir. Biz bu barədə son 5 il ərzində Bakı və Sumqayıtda keçirilən sosial-iqtisadi inkişaf mövzusun

da konfrans və dəyirmi masalarda, müxtəlif müzakirələrdə, elmi nəşrlərdə tekstil sənayesində mövcud potensialdan, bu sahədə olan elmi-texniki imkanlardan və əmək ehtiyatlanndan səmərəli istifadə edilməsinin zərurliyini qabartmışıq [441. Bu barədə səslənən təkliflərin əksəriyyəti konfrans materiallan vasitəsi ilə və ölkəmizin apancı elmi-iqtisadi jumallannda dərc edilməklə, ölkə ictimaiyyətinə, mütəxəssislərə çatdırılmışdır. Digər tərəfdən, xüsusilə Abşeron istisadi rayonunda tekstil sənayesinin reabilitasiyasının və modemizasiyasınm gecikdirilməsi on minlərlə - əksəriyyəti qadın və qızlarımız olan vətəndaşlarımızın daimi və sabit iş yerləri ilə təmin edilməsi imkanından məhrum edir. Biz nəyə görə bu sahədəki problemlərə bu qədər diqqət yönəltməyi məqsədəuyğun hesab edirik? Bu onunla əlaqədardır ki, XİZ-in tətbiqi ilə nəzərdən keçirdiyimiz iqtisadi ədəbiyyatlarının əksəriyyətində və bu kimi zonalardan uğurla istifadə edən ölkələrin bir çoxlannda tekstil sənayesinin geniş istehsal və emal sahələri əmək tutumlu olduğundan regionun və ərazinin sosial-iqtisadi problemlərinin həllində əhəmiyyətli rol oynayır. Başqa sözlə, geniş çeşiddə milli tekstil mallannm və məmulatlann istehsalı bir tərəfdən daxili tələbatı ödəməklə yanaşı, digər tərəfdən regionda iqtisadi-təsərrüfat fəallığının artmasına ciddi təsir göstənnək iqtidanndadır. Uzun illər bir sıra iri istehsal sahələrində - Sumqayıtın kimya və neft-kimya müəssisələrində iqtisadiyyat və maliyyə sahəsində iş təcrübəmizə əsasən bu kimi müəssisələrin yerləşdikləri ərazinin (şəhərin) sosial-iqtisadi həyatında oynadığı əhəmiyyətli rolla yaxşı tanışıq. Davamlı iş yerləri və istehsal sahələri, həm də cəmiyyətin sosial-iqtisadi problemlərinin ictimai müzakirəsinin və sosial adaptasiyasının ən optimal poliqonları kimi də çıxış edə bilər. Burada kollektivçilik, əmək və istehsal münasibətlərinə yaradıcı münasibət, yeni texnologiyalann tətbiqinə daha geniş imkanlann artması perspektivləri, effektiv idarəetmə formalarının praktiki adaptasiyasının sınaqdan çıxarılması imkanları, müxtəlif fərqli və məhsuldar iqtisadi mexanizmlərin bu və ya digər formada gerçəkləşdirilməsi, insan və texnikanın vəhdətindən yaranan ixtiraların, səmərələşdirici təkliflərin ortaya çıxmasına mühitin fonualaşması elementləri, nə

hayət, insanların öz əmək və intellekt potensialını real iqtisadi»istehsal proseslərinə transfer edə bilməsi şansının əldə etməsi və sair bu kimi sosial-iqtisadi problemlərin və tələblərin reallaşdırılması şəraiti müasir iqtisadi inkişaf proseslərinin daha da dərinləşdirilməsinə və ölkəmizin iqtisadi gücünün artmasına imkan verərdi. Düzdür, biz fikirləşmirik ki, bütün bu qeyd etdiklərimiz mütləq XİZ vasitəsilə həyata keçirilməlidir. Ola bilərdi ki, sahibkarlıq və biznes subyektlərinin bu sahəyə marağının ciddi şəkildə artınlma- sı üçün digər iqtisadi mexanizmlərdən də istifadəyə üstünlük verilsin və bu məqsədlərlə prioritet layihələrinin maliyyələşdirilməsinə güzəştli kredit resursları ayrılsın və sair. Amma son illərin daimi müşahidəsi bizə bu qənaətə gəlməyə imkan verir ki, Azərbaycanda tekstil sənayesinə özəl sahibkarlıq və biznes strukturları arasında nə qədər ciddi maraq olsa da, bu istiqamətdə real layihələrin gerçəkləşdirilməsi üzrə qəbul edilmiş investisiya layihələri olduqca azdır. Bu ilk növbədə Azərbaycanın istehlak bazannda bir sıra ölkələrdən, məsələn, Çin və Türkiyədən külli miqdarda ucuz qiymətlərlə tekstil məmulatlannın və mallann gəlməsi ilə əlaqədardır. Digər tərəfdən, fıkrimizcə, yerli investorlar-sahibkarlıq və biznes subyektləri ciddi rəqabət amilindən çəkinərək, bu sahələrə iri kapital yatırmağa tələsmirlər. Məlumdur ki, ölkədə yerli investorların əsas kapitalları daha çox qısa zaman kəsiyində gəlir gətirən və kapital artıran sahələrə, məsələn, tikinti və ticarət, xidmət sahələrinə yönəldilir. Hətta son illərdə ölkəmizin müvafiq hökümət strukturlan tərəfindən regional və sahibkarlıq layihələrinin maliyyələşdirilməsinə güzəştli kredit resurslarının və torpaq sahələrinin ayırmasına baxmayaraq, tekstil təyinatlı orta və iri müəssisələrin tikintisi tək-tük faktlarla yekunlaşır. Məhz bu baxımdan, şübhəsiz, tekstil sənayesinin Azərbaycanda dirçəldilməsi üçün və bu sahəyə iri investorların, xarici profil şirkət və kompaniyaların gətirilməsi məqsədilə daha fərqli və cəlbedici investisiya mühiti yaratmaqla işlək iqtisadi mexanizmlərinin ölkəmizin iqtisadi sisteminə praktiki adaptasiyası istiqamətində fundamental işlərin apa- nlması və tədbirlərin görülməsi zəruridir. Dünya təcrübəsində bu sahənin uzun bir dövrə davamlı və sürətli inkişafını təmin edəcək

iqtisadi mexanizm kimi XİZ-lərdən istifadə edilməsində bir sıra maraqlı təcrübə nümunələri toplanmışdır. Çin, Tükriyə kimi ölkələrin XİZ-Iərində tekstil təyinatlı iqtisadi zonalara daha çox rast gəlmək mümkündür. Son illərdə region qonşumuz olan Qazaxıstanda da bu mühüm iqtisadiyyat sektorunun inkişafı ilə bağlı XİZ modelinin tətbiqi gerçəkləşdirilmişdir. Fikrimizcə, Azərbaycanda tekstil təyinatlı XİZ-in tətbiqi reallaşarsa, bu XIZ modifıkasiyası- nın Azərbyacanda uğur qazanacağı ehtimalı daha çoxdur. Məsələn, Bakı və Sumqayıtın yaxın perspektivdə az qala meqapolis fonna- sına qovuşacağı proqnozlaşdırılır. Qənaətimizə görə, Sumqayıtın əvvəllər fəaliyyət göstərən bir neçə tekstil və toxueuluq müəssisələrinin yerləşdiyi ərazilərdə və yaxud Bakı-Quba magistral yolu boyunca digər bir müvafiq ərazidə tekstil və toxuculuq sənayesi sahələrinin müasir infrastrukturu yaradılmaqla, istehsal-ixrac təyinatlı XİZ modifıkasiyasınm tətbiqi regionun iqtisadiyyatına və iqtisadi fəallığının artmasına əhəmiyyətli təsir göstərə bilərdi, ilkin mülahizələrə və araşdınnalara görə, əgər belə bir XİZ modeli reallaşdırılarsa, regiona XİZ subyekti kimi dünyanın onlarca ölkəsindən iri tekstil fınnalannın və kompaniyaların gəlməsi proqnozlaş- dınlır. Xüsusilə, Çin, Türkiyə, Malayziya, İtaliya və sair ölkələrdən profil şirkət və kompaniyalann XİZ rezidentləri formasında regiona gəlməsi ehtimalı yüksəkdir. Tekstil təyinatlı bu XİZ-də yüzlərlə geyim növləri, toxuculuq məmulatları, hətta məişət, sənaye və hərbi təyinatlı tekstil məmulatlarının istehsalını reallaşdırmaq mümkün olardı. Fəaliyyətə başlacağı təqdirdə bu təyinatlı XİZ-ə digər ölkələrdən, həmçinin yerli investorlardan da iri kapital yatırmaq təkliflərinin artacağı gözlənilir. Belə bir XİZ layihəsinin reallaşdınıması üçün Azərbaycanda artıq münbit iqtisadi mühitin yetişdiyi və maliyyə rcsurslannm kifayət etməsi amillərini də nəzər alsaq, bu istiqamətdə praktiki tədbirlərin gerçəkləşdirilməsi üçün ciddi bir maneənin olmadığı qənaətindəyik. Ən sadə hesablamala görə tekstil təyinatlı XİZ-in fəaliyyətə başladığı dövrdən 5-7 il sonra burada 15 mindən çox insanın işlə təminatına şərait yarana bilər və bu XİZ-in fəaliyyəti nəticəsində regionun iqtisadi gücü xeyli artardı. Digər bir məqam isə - tekstil və toxuculuq profilli iş

tehsal sahələrinin geniş şəbəkəsinin yaradılması, bu sahəyə iri kapitalın və müasir texnologiyaların gətirilməsi istər-istəməz ölkəmizdə yeni bir müasir fəaliyyət sahəsinin - moda və dizayn sənayesinin sürətlə daha geniş həcmdə fonnalaşmasma və inkişafına ciddi təkan verərdi. Artıq bu gün Bakı və Sumqayıtda yüzlərlə kiçik və orta modalar evi. dizayn şirkətləri və sairlər fəaliyyət göstəririlər. Xüsusi güzəştlər sisteminə malik və bir çox bürokratiyadan, süni müdaxilələrdən qorunmaq mexanizmi olan XİZ kimi effek- tivli iqtisadi mühitdə bu istiqamət üzrə şirkət və kompaniyaların daha məhsuldar fəaliyyəti onların qısa zamanda XİZ subyektinə çevinnəsini şərtləndirir. Digər tərəfdən, Azərbaycan və onun paytaxtı Bakı son illərdə dünya səviyyəli iri tədbirlərin, o cümlədən sərgilərin keçirilməsində xeyli praktiki təcrübə toplaya bilmişdir və nüfuz qazanmışdır. Fikrimizcə, reallaşdınıması nəzərdə tutulan tekstil təyinatlı XİZ-in ərazisində moda və dizayn infrastrukturunun qurulması, sərgi salonlarının yaradılması və müxtəlif istiqamətlər üzrə tekstil məmulatlannın sərgisinin və moda festivallan- nm keçirilməsi ilə bu sahənin inkişafında əlavə perspektivlər əldə etmək mümkündür. Xüsusilə, bir çox Avropa dizayn və moda kompaniyalannın regionda öz biznes coğrafiyasını genişləndirilməsi maraqlan ilə belə bir XİZ-in inkişaf perspektivləri üst üstə düşə bilərdi. Növbəti bir ciddi amil isə bu XİZ-in Azərbaycanın iqtisadi sisteminə qısa müddətdə adaptasiya etmək perspektivlərinin güclü olmasıdır.

Qeyd etmək lazımdır ki, regional siyasət və idarəetmənin təkmilləşdirilməsi prosesləri Azərbaycanda son 10-15 il ərzində nisbətən uğurlu inkişaf etməkdədir. Professor Ə.Nuriyev qeyd edir ki, Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin apardığı regional siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrdə uğurla davam və inkişaf etdirilir [63]. Azərbaycanda bir sıra iri regional dövlət Proqramlarının yerinə yetirilməsi və icrasının davam etdirilməsi ölkənin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını göstərir [17; 18; 19). Bu mərhələdə sosial-iqtisadi inkişafın yüksək sürətlə davam etdirilməsi bir sıra başqa tədbirlərlə yanaşı, regional siyasət və idarəetmə də müasir dövrün

tələbləri baxımından bir sıra dəyişikliklər edilməsi vəzifəsini qarşıya qoyur. Azərbaycan iqtisad elminin regional siyasətinin araşdırılmasında səmərəli əməyi və elmi nəticələri olmuş professorun bu fikirləri diqqəti cəlb etməyə bilməz. Əlbəttə, regional siyasət üzrə müasir dövrdə ölkə rəhbərliyi geniş həcmdə tədbirlər həyata keçirir, sosial-iqtisadi problemlərin həllini sürətləndirir, iri infrastruktur və emal müəssisələri yaradır, regional sahibkarlığın inkişafına əlavə stimular və güzəştlər verir və bunlarla belə, regionlann sosial-iqtisadi problemlərinin kompleks həllinə daha güclü əlavə təsirlər göstərə biləcək iqtisadi mexanizmlərin tətbiqi də məhsuldar nəticələr verə bilərdi. Professor Ə.Nuriyev dünyanın əksər ölkələrində bu məqsədlə tətbiq edilən xüsusi regionlann (zonalann) təşkilini məqsədəuyğun hesab etmişdir. Belə ki, xüsusi regionlar müəyyən vəzifələrin yerinə yetirilməsi üçün kompleks güzəştlər sisteminə malik olmaqla, hər hansı bir müddətə təsis edilirlər. Çox hallarda XİZ-də tənzimlənən bütün təşkilatı və iqtisadi metodlardan da istifadə olunur. Professora görə, xüsusi zonalar çox müxtəlifdir, onlann qarşısında duran vəzifələr, ayrı-ayrı növlərinə görə verilən güzəştlər və istifadə olunan tənzimləmə vasitələri kompleksiik cəhətdən bir-birindən xeyli fərqlənir. Elmi ədəbiyyatda onlar, azad iqtisadi zonalar, xüsusi iqtisadi zonalar və bunların daxili tərkib hissələri formasında verilir. Bu araşdırmalarda ABŞ-da reallaşdınımış “Tenessi çayı vadisinin kompleks inkişaf Proqramf’nın nəticələri ilə tanışlıq, XİZ-in müxtəlif modifikasiyah fəaliyyətindən və onlann bir-birindən fərqlənməsindən asılı olmayaraq, bu kimi zonalann praktiki tətbiq proseslərinin uğurlu təşkili təqdirində məhsuldar nəticələrin əldə edilməsinə imkan verir. Məlum olmuşdur ki, ABŞ dövlətinin birbaşa dəstəyi nəticəsində bu ərazidə görülmüş tədbirlər nəticəsində regionun iqtisadiyyatının strukturu əsaslı şəkildə dəyişmişdir. Belə ki, Tenessi vadisi geri qalmış kənd təsərrüfatı regionundan inkişaf etmiş sənaye-kənd təsərrüfatı regionuna çevrilmişdir. Şübhəsiz, real iqtisadi proseslərdə geri qalmış ərazilərin reabilitasiyası və sürətli inkişafı üçün heç də əksər hallarda dövlət dəstəyi və maliyyələşdirilməsi hesabına təşkili mümkün olmur. Bu halda AİZ-dən və yaxud XİZ-dən prak

tiki istifadənin fəallığının artınlması zərurəti diqqəti cəlb edir. Müasir dövrdə bu kimi zonalar bir çox ölkələrdə iqtisadi inkişaf proseslərinə çox ciddi əlavə stimullar verir. Lakin bu zonalann uğurlu nəticələr əldə edilməsi üçün ilk növbədə həmin zonaların praktiki tətbiqi problemləri dərindən öyi'ənilməli və elmi-texniki tərəfdən yetərincə əsaslandırılmalıdır. Bu proseslərdə qanunvericilik bazasının mükəmməl formalaşdırılması, zonaların yaradılması haqda qərann qəbul edilməsi, zonanın idarəetmə orqanlanmn praktiki fəaliyyətinin fonna və nonnativ sənədlər toplusunun işlənib hazırlanması, qəbul edilməsi və müəyyənləşdirilməsidir.

XİZ-lərin tətbiqi prioritetlərinin müəyyənləşdirilməsi zamanı dünya təcrübəsində bir çox ölkələrdə paytaxt şəhərlərinin yüklənməsinin və sıxlığının qarşısının alınması və yaxud bu problemlərin qismən azaldılması məqsədilə fəal istifadə nümunələri diqqəti cəlb edir. Belə ki, bu kimi zonalann praktiki tətbiqi ilə bağlı müxtəlif iqtisadi ədəbiyyatlarla və dünya təcrübəsindəki nümunələrlə tanışlığımız zamanı ən çox diqqəti cəlb edən məqamlardan biri də iri şəhərlərdə və onların ətrafında yaranmış yeni yaşayış massivləri hesabına və yaxud onlara bitişməkdə olan digər kiçik şəhərlərin hesabına formalaşan meqapolislərin müasir qloballaşma şəraitində iqtisadi fəallığının təmin edilməsi, demoqrafik proseslərin nizamlanması, burada cəmlənmiş əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, şəhər təsərrüfatının və strateji obyektlərin optimal idarəedilməsi, xidmət sahələrinin effektivliyinin artınlması, şəhərdə əhali sıxlığının və nəqliyyatın hərəkətində yaranan problemlərin nisbətən nizamlanması məsələləri olmuşdur. Təsadüfü deyildir ki, hazırda dünya ölkələri iri meqapolislərin idarəedilməsinin ən optimal modellərini belə işləyib hazırlamaqda və həyata keçirilməsində ciddi çətinliklərlə üzləşmişlər. Əgər XX əsrin ortalannda dünya əhalisinin cəmisi 30 %-i şəhərlərdə yaşayırdısa, artıq bu rəqəm XXI əsrin əvvəllərində 50 %-ə yaxın olmuş və BMT-nin ekspertlərinə görə 2030-cu ildə bu rəqəm 60 % səviyyəsinə çatacaqdır [s.4, 120]. Əgər 1950-ci ildə dünyada meqapolis statuslu, yəni əhalisi 10 mln. nəfərdən çox cəmisi 2 şəhər (Nyu-York və Tokio) var idisə, hazırda belə şəhərlərin sayı 20-yə yaxındır. Dünya me-

qapolislərinin ön cərgələrində Tokio, Nyu-York, Los-Anceles, Çikaqo, Paris, Osako-kobe gedirlər. Bu meqapolislərin iqtisadi gücünü təsəvvür etmək üçün qeyd edək ki, Nyu-Yorkun iqtisadiyyatı təxminən Kanada və İspaniyanın iqtisadiyyatının birgə məcmusuna bərabərdir. Proqnozlara görə, 2020-ci ilədək Dehli, Mexiko, San-Paulo, Dəkkə, Caharta, Laqos, Mumbay şəhərlərində əhalinin sayı 20 mln. nəfərdən çox olacaqdır və sair. Biz nəyə görə bu faktlara diqqətimizi bu qədər cəlb edirik? Adətən insanlar belə iri və səsli-küylü şəhərlərdə nə qədər maddi və iqtisadi sərvətlərə nail olsalar da, şübhəsiz, iri əhali resurslarının bir yerə toplaşdığı məkanda qloballaşma elementləri sürətlə öz təsir qüvvələrini genişləndirir. Belə şəhərlər ölkənin digər regionları arasında ciddi fərqlər yaratmaqla, sosial-iqtisadi problemlərin böyük bir qrupunu kəskinləşdirir. Digər tərəfdən, belə iri şəhərlərin ölkə paytaxtı və inzibatı mərkəz funksiyasını daşıması da əlavə ciddi çətinliklərin meydana çıxmasına səbəb olur. Başqa bir amil, iri şəhərlər və meqapolislər terror qruplarının və təşkiltlarmm ən çox hədəflədiyi məkanlardır. Bəs nə etməli? Bəlkə bu problemlərin həlli prioritetləri hələlik bizim üçün o qədər də aktual deyildir? Amma əslində bu suallara cavab axtararkən, elə təkcə postsovet respublikalarında iri şəhərlərin idarə edilməsindəki çətinliklərə nəzər salmaq kifayətdir. Moskvanın idarəedilməsi ilə bağlı problemlər, xüsusilə demoqrafik və miqrasiya proseslərinin yaratdığı neqativ fəsadlar hamıya məlumdur. Amma elə nümunələr vardır ki, iri şəhərlərin, xüsusilə paytaxt şəhərlərinin problemlərini azaltmaq məqsədilə ef- fektivli mexanizmlərdən biri kimi XİZ institutuna müraciət olunub. Biz araşdırmalanmızda Qazaxıstanın hazırkı paytaxtı Astananın adını çəkmişik. Qeyd etmək yerinə düşərdi ki, bu müasir paytaxt şəhərinin fomıalaşmasında və iri kapitalın buraya cəlb edilməsində XİZ modelinin tətbiqi mühüm əhəmiyyət kəsb etmişdir. Bunlarla belə, dünya praktikasında iri şəhərlərin əhali sıxlığını və elmi-iqtisadi fəaliyyət sahələrinin əlverişli təşkilinin vacibliyini nəzərə alaraq, bu problemlərin həlli istiqamətində meqapolislərdən və iri şəhərlərdən təxminən 30-50 km məsafələrdən başlayaraq, sənaye-istehsal şəhərciklərinin, universitet-tələbə şəhərciklərinin

salınması, innovasiya və müasir texnologiyalann işlənib hazırlanması və tətbiqinin kompleks-klaster formasında baxılması məqsədilə iqtisadi zonaların təşkili, ticarət və kommersiya, anbar və gömrük, ixrac-istehsal təyinatlı XİZ-lərin yaradılması və sair variantlara dünya təcrübəsində xeyli rast gəlmək mümkündür. Məhz belə tədbirlərin nəticəsində iri şəhərlərin nisbətən yüklənməsinin qarşısı alınır və sosial-iqtisadi problemlərin həlli imkanlan genişlənir. Fikrimizcə, göstərilən bütün bu problemlər və çətinliklər hazırda ölkəmizin paytaxtı Bakı şəhəri üçün də xarakterikdir. Təkcə Bakı və Bakı ətrafında uzun bir dövr ərzində plansız və nizamlanmayan ərazilərdə salınmış fərdi yaşayış massivləri hazırda Bakının inkişafının strateji planlaşdınimasında çox ciddi problemlərin yaratdığının şahidiyik. Digər tərəfdən, Azərbaycan əhalisinin əmək qabiliyyətli hissəsinin əksəriyyətinin Bakı və Bakı ətrafı regionda cəmlənməsi, yerləşməsi, əmək bazannda gərginlik yaratmaqla bərabər, sosial-iqtisadi problemlərinin artmasına da səbəb olur. Nəzərə alsaq ki, artıq Azərbaycanda XİZ institutunun praktiki tətbiqinə münasib vaxtın çatdığı və kifayət qədər maliyyə imkanlan var, deməli, Bakı şəhərinin həm əhali sıxlığı baxımından yüklənməsi, həm də digər təsirlərin, məsələn, infrastruktur, xidmət, nəqliyyat imkanlarından optimal istifadənin təşkili məqsədilə XİZ modellərinin bir neçəsinin Bakı şəhərinin 30-50 kilometrliyində tətbiqini məqsədəuyğun hesab edirik. Amma bu XİZ modelləri seçilərkən, dərindən təhlillər və elmi-iqtisadi əsaslandırmalar apanl-malıdır ki, belə zonaların tətbiqi zamanı Bakı şəhərinin mərkəz hissələrindən bu cür zonalara həm insanların, həm də biznes və sahibkarlıq subyektlərinin axını güclü iqtisadi və sosial stimullar əsasında baş verə bilsin.

Müasir dövrdə Azərbaycanda iqtisadi islahatların nisbətən dərinləşdiyi bir şəraitdə ölkəmiz kifayət qədər beynəlxalq iqtisadi əməkdaşlıq elementləri ilə əhatə olunmuş güclü maliyyə resursları kanalları əldə etmiş, iqtisadi artım baxımından sabit tendensiyaya malikdir. Bu amillər Azərbaycanda daha məhsuldar və innovatik iqtisadi mexanizmlərin tətbiqinə imkan verir. Digər tərəfdən, dünya təcrübəsində iqtisadi inkişaf mərhələlərini sürətləndirmək istə

yən ölkələrin əksəriyyətində bu proseslərdə çoxfunksiyalı müxtəlif iqtisadı alətlərin ölkənin iqtisadi sistemində yer alması problemləri və məsələləri bütün dövrlərdə dövlət iqtisadi siyasətinin ən prioritet istiqamətlərindən biri kimi yadda qalmışdır. Milli iqtisadiyyatın inkişaf tempinin artırılmasında və onun əsas fəaliyyət sahələrinin diversifıkasiyalaşdınlmasında əlverişli iqtisadi mexanizm kimi XİZ modifıkasiyasından son 5 ildə istifadə edilməsi və bu mexanizmin Azərbaycanın iqtisadi sisteminə daxil edilməsi üzrə ölkə rəhbərliyi və hökümətin bir sıra mühüm qərarlar qəbul etməsi, müvafiq qanunun qəbul edilməsi ilə yanaşı elmi ictimaiyyət və mütəxəssislər arasında geniş diskussiyalar yer almaqdadır. Düzdür, elmi diskussiyalann və debatlann çoxluğunu xüsusi qeyd etmək mümkün deyildir və əslində baxanda Azərbaycanda XİZ-lə- rin tədqiqi problemləri, onlann yaradılması və fəaliyyəti ilə bağlı tətbiqi prosesləri hələ də kifayət qədər araşdınimayıb və fundamental elmi-tədqiqat işlərinin sayı olduqca azdır. Əvvəldə vurğu- ladığımız kimi, hətta bir qrup alimlər və mütəxəssislər ölkə iqtisadiyyatının xeyli dərəcədə liberal olduğunu və Azərbaycanın beynəlxalq inteqrasiya coğrafiyasının genişliyini, investisiyalann ya- tınlması üçün əlverişli məkan olduğunu bildirməklə, ölkənin iqtisadi sistemində XIZ kimi mexanizmlərə zərurətin heç də olmadığını iddia edirlər və yaxud bu məsələnin prioritetliyinə üstünlük vennirlər. Amma fıkrimizcə, Azərbaycan dünya iqtisadi proseslərində nə qədər çox inteqrasiya etsə belə, ölkənin iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi və bu modelə yeni effektivli iqtisadi mexanizmlərin tətbiqi bütün dövrlərdə aktual olaraq qalacaqdır. Hazırda Azərbaycan 2020-ci ilədək olan dövrdə özünün ən strateji prioritetlərini müəyyənləşdinnək, siyasi və ictimai inkişafla bərabər, iqtisadi sıçrayış əldə etmək əzmindədir. Bu baxımdan ölkənin iqtisadi inkişafının sürətləndirilməsində və bu istiqamətdə yeni mexanizmlərin tətbiqinin genişləndirilməsində XİZ institutunun rolu da nəzərdən qaçmamalıdır. Bu fikirlər müasir dövrdə Azərbaycan iqtisadiyyatının problemlərinin tədqiqində, iqtisadi inkişaf perspektivlərinin işlənib hazırlanmasında məhsuldar fəaliyyət göstərən bir qrup alim və mütəxəssislərin fikirlərində öz ək

sini tapmışdır. Akademik Z.Səmədzadə qeyd etmişdir ki, XİZ-rin fəaliyyəti ölkənin iqtisadi təhlükəsizliyi ilə bilavasitə bağlıdır. Bir çoxlan belə hesab edirlər ki, XİZ-lərin müəyyən məhdud ərazidə yaradılması ölkələrin milli marağına cavab verir...İnanırıq ki, XİZ-lər iqtisadiyyatımızın strukturca yeniləşməsinə əhəmiyyətli dərəcədə kömək edəcək, o cümlədən qeyri-neft sektorunun inkişafına, habelə xarici ticarət əlaqələrinin genişlənməsinə, respublikanın rəqabət qabiliyyətinin səviyyəsinin yüksəlməsinə, onun Dünya Ticarət Təşkilatına daxil olması üçün hazırlığına və digər məsələlərin həllinə təkan verəcəkdir (491. Bu kimi zonalar dünyanın müxtəlif ölkələrinin iqtisadi inkişaflarının və sosial-iqtisadi problemlərin həllinin sürətləndirilməsində mühüm rol oynamış və hətta inkişaf etmiş ölkələrdə belə XİZ institutunun müxtəlif fonnalarmdan müasir dövrdə də geniş istifadə olunur. Praktiki proseslərdə belə zonaların təşkili və fəaliyyətinin nizamlanması bir çox problemlərin həllini şərtləndirir. Ümumiyyətlə, XİZ-lərin təşkili və praktiki tətbiqi proseslərinə sistemli yanaşmaq mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Z.Səmədzadənin gəldiyi qənaətlə razılaşmamaq olmaz: XİZ-lərin yaradılması olduqca mürəkkəb, bir neçə mərhələdən ibarət prosesdir, ilkin mərhələdə ixtisaslı ekspertlərin iştirakı ilə zonanın yaradılmasının məqsədəuyğunluğu diqqətlə araş- dınlır, daha sonra onun sahə strukturu, habelə bir sıra digər parametrləri müəз^ən edilir. Bu nəticələrə əsasən, XİZ-lərin layihə- ləşdirilməsi və rəsmiləşdirilməsi üçün müvafiq sənədlər hazırlanır. Yalnız bundan sonra zonanın fəaliyyəti, yəni infrastrukturun, əsas elementlərin, sahibkarlıq fəaliyyəti şərtlərinin formalaşdınimasına başlanılır.

Azərbaycanda XİZ-lərin tətbiqi modellərini müəyyənləşdirərkən, ilk növbədə burada fəaliyyət göstərərcək iqtisadi rejimin hüquqi normativ bazalarının ölkəmizin hazırkı müasir iqtisadi inkişaf prioritetləri ilə uzlaşdırılması məsələləri, bu kimi zonaların qarşısında duran strateji məqsədlərin yerunə yetirilməsi üçün pozitiv güzəştlər sisteminin qəbul edilməsi aktuallığı ilə çox ciddi yanaşma tələb edən problemlər kompleksi kimi diqqəti cəlb edir. Professor A.Musayev qeyd edir ki, hər bir

ya digər regionu XİZ-rini yaradarkən, öz güzəşt yığımlarını müəyyən edir. Bu zaman təcrübə göstərir ki, XİZ-də yaradılan güzəştlər sistemi kifayət qədər individualdır və həmin dövlətin və ya regionun ərazisində həyata keçirilən proqram və layihələrlə sıx bağlıdır 149]. XİZ-rin yaradılma məqsədi - onlan təşkil edən dövlətlərin sosial-iqtisadi inkişaf səviyyəsindən, onlann strateji və inkişaf prioritetlərindən bilavasitə asılıdır. Professorun fikrincə, XİZ-də tətbiq edilən vergi güzəştlərinə gəldikdə onlar müxtəlif ola bilər. Bu müxtəliflik zonanın növü ilə deyil, daha çox həmin zonanın yerləşdiyi dövlətdə mövcud olan iqtisadi mühit və prioritetlər, həmin dövlətin bu zonanı yaratmaqla nail olmağa çalışdığı məqsədlərlə bağlıdır. Azərbaycanın vergi oqranlannda dövlət siyasətinin fonnalaşmasında mühüm xidmətləri olmuş professorun bu fikirlərinin davamı olaraq qeyd etmək lazımdır ki, Azərbaycanda XİZ- lərin tətbiqi üzrə vergi rejimi, şübhəsiz, ölkəmizin iqtisadi inkişaf prioritetlərinə və regionda gedən iqtisadi proseslərə adekvat olmaqla bərabər, ilk növbədə XİZ-lər yaradılarkən onlann qarşısında qoyulan strateji məqsədlərin yerinə yetirilməsində tətbiq edilən vergi güzəştləri instrumentləri çevik və diferrensional olmalı, ölkənin mövcud vergi rejimindən əlverişliyi ilə fərqlənməli və bütövlükdə, ölkədə və regionda baş verən iqtisadi proseslərin daha da fəallaşmasma əlavə stimullar vennəlidir. Uzun illər Azərbaycan hökümətində məsul vəzifələrdə işləmiş i.e.d. O. Haqverdiyev XİZ-lərin tətbiqi zamanı xüsusi olaraq, müvafiq qanun layihəsində XİZ-nn idarəçiliyi, burada əməyin təhlükəsizliyinin təşkili məsələsi, güzəştlər sisteminin mahiyyətinin dəqiq şəkildə müvafiq qanun layihəsində öz əksini tapmasını vurğulamışdır [49]. Daha sonra alim qeyd edir ki, XİZ-lər haqqında siyasi qərarın qəbul edilməsi prosesi ilə yanaşı, sonrakı mərhələlərdə əsas diqqət bu istiqamətdə konkret addımlann atılmasına yönəldilməli, müvafiq qanunvericilik bazası formalaşdırılmalı, dünya təcrübəsində mövcud olan modellər dərindən öyrənilməlidir. Son illərdə Azərbaycanda XİZ-lərin qanunvericilik bazası artıq fonnalaşdırılıb, eyni zamanda vergi və gömrük güzəştləri üzrə sistemlər müəyyənləşdirilib, həmçinin digər nonnativ sənədlər toplusu işlənib hazırlanıb

və sair. Amma hömıətli və zəngin iş təcrübəsinə malik alimin narahatlığına səbəb olan problemlərin bir hissəsinin hələlik həll edilməmiş vəziyyətdə olması qənaətindəyik. Fikrimizcə, görülən işlər və qanunvericilik bazası praktiki adaptasiyadan keçmədiyindən, Azərbaycan ərazisində və iqtisadi proseslərində real olaraq, ger- çəkləşdirilmədiyindən hələlik ölkəmizdə XIZ-lərin təşkili və fəaliyyəti ilə bağlı məsələlərin dərindən öyrənilməsinə ehtiyac qalmaqdadır. Xüsusilə, XİZ-lərin tətbiqi proseslərini əhatə edən və ehtimal olunan problemlərin mühüm aspektlərinin müasir iqtisadi reallıqlar prizmasından baxılması zəruridir. XİZ-lərin tətbiqi proseslərində ən mühüm amillərdən biri də optimal gömrük rejiminin və gömrük prosedurlarının müəyyənləşdirilməsidir. Son illərdə Azərbaycanda ixrac potensialının və bununla bağlı əməliyyatlann artması gömrük orqanlarının səmərəli işinin təşkilini bir daha şərtləndirir və perspektivdə XİZ-lərin tətbiqi ilə ixrac potensialının daha əhəmiyyətli səviyyədə artırılması imkanları diqqəti cəlb edir. Azərbaycan gömrük rəsmilərinin fikrincə, XİZ-lərin tətbiqi, inves- tisiyalann ölkə iqtisadiyyatına fəal cəlb olunmasına və bu sahədə beynəlxalq iqtisadi əməkdaşlığın inkişafına, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının müdafiəsinə, Azərbaycan Respublikasının dövlət sərhədləri daxilində milli qanunvericiliyə uyğun olaraq, hüquqi və fiziki şəxslərə xüsusi güzəştli rejim tətbiq etməklə yaradılmış məhdud inzibati və gömrük ərazisi kimi fəaliyyət göstərəcək zonalar ölkəmizin iqtisadi cəhətdən daha da qüdrətlənməsi və inkişafında mühüm əhəmiyyət kəsb edəcəkdir [49]. Qeyd etmək lazımdır ki, XİZ-lərin Azərbaycanda tətbiqi problemlərinin modelləşdirilməsi mütəxəssis və alimlər qrupunun daha geniş elmi diskussiyalarından hələlik keçməmişdir. Bu ilk növbədə onunla bağlıdır ki, ölkəmizdə XİZ-lərin praktiki tətbiqinə başlanılması nümunəsi hələlik yoxdur və hökümət strukturlarında hər hansı bir XİZ modelinin tətbiqi üzrə dövlət səviyyəsində qəbul edilmiş icra sənədi mövcud deyildir. Digər tərəfdən, XİZ-lərin Azərbaycanda praktiki tətbiqinin hələlik reallaşdınlma- ması, bu kimi zonalann geniş və elmi diskussiyalannm apanlma- sına marağı nisbətən azaltması amilini də nəzərdən qaçırtmaq ol-

maz. Bunlarla belə, bir qrup azərbaycan alimləri Azərbaycanda XİZ modelinin tətbiqini şərtləndirən müxtəlif müasir iqtisadiyyat prioritetlərinə diqqət yönəltməyin vacibliyini qeyd edirlər. Azərbaycan sənayesində müasir standartlar əsasında, yeni texnika və texnologiyalar cəlb etməklə, XİZ-lər vasitəsilə yeni texnikalar, yeni texnologiyalar və yeni innovasiyalar gətirilməsi layihələri üzrə güzəştlər edilməsinin vacibliyini vurğulayan professor M.Atakişiyevə görə, bu layihələrin Azərbaycan şəraitində yerinə yetirilməsində xarici investorların cəlb edilməsinə xüsusi güzəştlər etməli və şərait yaradılmalıdır. Ancaq bu yolla biz öz iqtisadiyyatımızın və XIZ-rımızın inkişafını təmin edə bilərik...Gərək biz xarici istehsal və idarəetmə təcrübəsini, yeni texnologiyalan Azərbaycana cəlb edək. Dünya standartlanna cavab verən keyfiyyətli məhsullar istehsal edək. Sovet dövründə Azərbaycan böyük sənaye mərkəzi olub. Bizim maşınqayırma sənayemiz və neft maşınqayınnası sənayemizin indiki vəziyyəti bu sahənin məhsullarını xarici ölkələrə çıxaraıaq imkanı vermir. Ona görə də XİZ-lər haqqında əsasnamələr hazırlanarkən bu məsələyə xüsusi diqqət yetirilməlidir 1491. Professor R.Həsənov isə qeyd edir ki, azad iqtisadi zona ilk növbədə bir məktəb olmalıdır, bunu öyrənməliyik. Birinci məqsəd budur, ikinci bir məqsəd. Biz həmişə deyirik ki, qeyri-neft sektorunu inkişaf etdirilməliyik. Amma hansı yolla? Kənd təsərrüfatının inkişafı birinci, bərpa olunmaz resursların səmərəli istifadəsi ikinci fak- tordır. Gəlin Dubay nümunəsinə baxaq. Dubay da ən inkişaf edən zonalardan biridir. Hansı prinsiplərlə Dubay zonası inkişaf edir? Ən vacib prinsip - tranzitlikdir. O zona tranzit iqtisadi zonaya çevrilib. Bu tranzitlik faktorunun əsasında bütün zonaların resurs- lan fonnalaşır. Azərbaycanda da tranzitlik prinsipi çox güclüdür və imkanlan genişdir. Mən hesab edirəm ki, azad zonanın yaradılmasında ikinci faktor məhz bu tranzitlik faktoru olmalıdır. Təbii ki, bu məqsədlərin hamısının realizəsi nəticə etiban ilə qeyri-neft sektorunun sürətli inkişafını təmin edə bilər. Qeyd edim ki, Azərbaycanda iqitisadi islahatların apaniması problemlərinin, fəal tədqiqatçılardan biri olan R.Həsənovun fikirləri ilə razılaşmamaq ol

maz. Əslində artıq Azərbaycan hökuməti faktiki olaraq, tranzitlik amilindən yararlanır və bu istiqamətdə olan fəaliyyətdən ölkəmiz əlavə valyuta resursları və siyasi dividentlər əldə etməkdədir. Belə ki, Azərbaycan bir çox Asiya ölkələrindən Avropaya mal və məh- sullann ixracında, xüsusilə karbohidrogen xammal və məhsullann Avropaya daşınmasında tranzit ölkə kimi güclü regional və beynəlxalq iqtisadi əməkdaşlıq layihələrinin təşəbbüskarı və iştirakçısıdır. Bunlarla bərabər, Azərbaycanda Bakıdan çox da uzaq olmayan bir ərazidə - Ələtdə Xəzər dənizinin sahilində beynəlxalq ticarət limanının tikilməsi üzrə tədbirlərin icrasına start verilmişdir. Qeyd etmək lazımdır ki,bu limanın XİZ statusunda olub-olmamasından asılı olmayaraq, dünyanın bir çox ölkələrində - dəniz və çayların əlverişli hissələrində - limanlarında XİZ-rin təşkilinə bütün dövrlərdə ciddi maraq olmuşdur və bu istiqamət hazırda da aktuallığı ilə seçilir [94]. Amma fıkrimizcə, Ələtdə hətta bu limanın tam güeü ilə istismara verilməsi belə Azərbaycanın tranzit ölkə potensialından daha geniş istifadəni təmin etmək iqtidarında olmayacaqdır. Belə ki, regionda tranzitlilik faktorundan daha məhsuldar istifadə edilməsi perspektivləri onlarca iqtisadi gücü və imkanları artmaqda olan ölkələrin və bir qrup iri transmilli kompani- yalann maraq dairəsindədir. Tədqiqatçı alimlər R.Balayev və E.Balayevanın qənaətlərinə görə, Azərbaycanda XİZ-lərin tətbiqi proseslərində müasir dövr üçün belə zonalann coğrafiyasını və məqsədlər spektrinin genişləndirilməsi xarakterikdir. Bu proses həmin zonalarda investisiya mühitinin liberallaşdırılmasının hüquqi müstəvidə həyata keçirilməsi üzrə təsirli cəhdlərlə müşayiət olunur. Belə ki, zonalann idarəedilməsi üzrə inzibati şura maliyyə resurslannın yaranması və istifadəsi, onlann tənzimlənməsi qaydalarını daha da detallaşdırır, inkişafın investisiya aspektlərinə güzəştlər artınhr. Bu alimlərə görə, XİZ-lərin yaradılması məsələlərinin müzakirəsi nə qədər intensiv və səmərəli olarsa, zamanın öhdəsinə buraxılacaq suallar bir o qədər az olar 149]. Fikrimizcə, bu mülahizə və ehtimallar hazırda Azərbaycanda və onun XİZ-lərlə bağlı iqtisadi siyasətində büruzə vennəkdədir. Başqa sözlə, XİZ- lərin praktiki tətbiqinin Azərbaycanda geçikməsi şəraitində belə

mütərəqqi iqtisadi zonanın ölkənin iqtisadi sistemində yer almasına optimist və daha fundamental elmi əsaslandırmalarla yanaşanların arasında da bir qrup cavabsız sualların meydana çıxılmasma rəvac vermişdir. Bu sualların əsasında ən çox cavab axtarılanlarından biri - XİZ institutunun hansı modelinin harada, nə vaxt və hansı prioritetlərlə tətbiq ediləcəyi məsələsidir? Digər sual isə, bu vaxta kimi Azərbaycanda XİZ institutunun tətbiq edilməməsi və onun praktiki təsirinin real iqtisadi proseslərdə əksini tapmaması belə mütərəqqi və işlək iqtisadi mexanizmin ölkədə tətbiqini əngəlləməsi və bu iqtisadi mexanizmin ölkənin iqtisadi sisteminə (modelinə) daxil olmasına imkan vennəməsidir. Bunlarla bərabər, Azərbaycan XİZ-lərlə bağlı regional və beynəlxalq layihələrdə fəal iştirak etmək prioritetlərində tərəddüdlüdür. Professor V.Nov- ruzov hesab edir ki, XİZ-lər şəraitində sahibkarlıq fəaliyyətinin aparılması üçün xüsusi rejim tətbiq edilməsi investorların marağının artınıması, güzəştli vergi və gömrük rejiminin, uçot və sənəd- ləşdinnənin sadələşdirilmiş qaydalarının tətbiqinin həyata keçirdiyi bir halda, maliyyə şəffaflığının təhlükə altına alan amillərin təsirini minimuma endinnək olar [491. Professorun bu sahədəki XİZ-lərin tətbiqi ilə bağlı ortaya çıxa biləcək neqativ halların baş verə bilməsi üzrə narahatçılığını başa düşmək olar. Belə ki, dünya təcrübəsində bir çox ölkələrdə XİZ institutu öz tətbiq proseslərinə başladıqdan sonra ilkin prioritet məqsəd və təyinatlarından tədricən yayınaraq, müxtəlif firma və kompaniyalar - XİZ rezidentləri üçün vergilərdən yayınmaq və digər güzəştlərdən maksimum bəhrələnmək funksiyasını yerinə yetirmişdir. MDB ölkələri olan Rusiya və Ukraynada XİZ-lərin praktiki tətbiqi proseslərində ortaya çıxan neqativ fəsadlar barədə məlumatlara iqtisadi ədəbiyyatlarda və təhlillərdə tez-tez rast gəlmək mümkündür. Biz qeyd etmişdik ki, XİZ-lərin tətbiqi prioritetləri Azərbaycanda ilk növbədə qeyri- neft sektoru sahələrinin, o cümlədən kənd təsərrüfatının prioritet inkişaf istiqamətləri ilə bağlı olmalıdır. Professor S.Salahovun fikrincə, qeyri-neft sektorunun sürətli inkişafının prioritetliyi yeni iqtisadi texnologiyalann tətbiqini ön plana çıxarır. XIZ-1 ərdən həmin sektorun mühüm sahəsi kimi kənd təsərrüfatının inkişafı ər

zaq təhlükəsizliyi aspektinə diqqəti artırmağı tələb edir. Belə ki, XİZ-lərin bu və ya digər formada yaradılması və tənzimlənməsi milli iqtisadi təhlükəsizliklə bilavasitə bağlı olan məsələdir, iqtisadi təhlükəsizliyin mühüm aspekti kimi ərzaq təhlükəsizliyinin gündəliyə çıxması da qanunauyğun haldır...Aqrar sahənin ixrac potensialının reallaşdmlması, idxalı əvəzləmə və inteqrasiya proseslərinin səmərəli tənzimlənməsi qabaqlayıcı tədbirlər kimi əhəmiyyətli nəticələr verə bilər [49]. Professor daha sonra aqrar sənayenin inkişaf strategiyası kimi bu sahəyə intensiv aqrotexnologi- yalann gətirilməsinin genişləndirilməsində XİZ-lərin rolunun daha ətraflı araşdırılmasını vacib sayır. Şübhəsiz, bu fikirləri nəzərə almamaq olmaz. Müasir dövrdə Azərbaycanda kənd təsərrüfatının prioritetliyi dövlət səviyyəsində ən yüksək formatda proteksionizm elementləri ilə zəngindir. Dövlət nəyin ki, kənd təsərrüfatının və aqrar sahənin davamlı inkişafı üçün müvafiq qanunvericilik bazasını təkmilləşdirir, torpaq islahatlanm dərinləşdirir, müasir infrastruktur obyektəlinin geniş şəbəkəsini qurur, kənd rayonlannm abadlaşdın İması üçün zəruri tədbirlər görür, bu regionlarda sahibkarlığın və fenner təsərrüfatlanmn sürətli inkişafına dəstək verir, həmçinin bir çox fəaliyyət sahələri üzrə dotasiyalar və subsidiyalar, lizinq yolu ilə texniki vasitələr, maşın mexanizmlər və damazlıq heyvanlar ayınr. Əlbəttə, bütün bunlar böyük bir sistem kimi hazırda Azərbaycanda kənd təsərrüfatı və aqrosahənin davamlı inkişafına ciddi zəmin yaratmış və qeyd etmək lazımdır ki, artıq əksər kənd təsərrüfatı və ərzaq məhsulları üzrə ölkəmiz özünün daxili tələbatını ödəmək iqtidarındadır. Amma ölkənin yüksək standartlar səviyyəsində ərzaq və qida məhsullan ilə təmin edilməsi, həmçinin bu sahədə ixrac potensialının artmiması baxımından Azərbaycanda kənd təsərrüfatı və aqrotəyinatlı ərazilərdə (regionlarda) istifadə olunmayan ehtiyat mənbələri xeyli çoxdur [271. Biz bu gün də ölkədə dənli bitkilərin, xüsusilə, ərzaq buğdasının ən müasir və reproduktiv sortlarmın yetişdirilməsi, yerli iqlim şəraitinə uyğunlaşdınması, əkin və biçin problemləri, bu kimi mühüm məhsulun optimal saxlanılması və ehtiyatının yaradılması problemlərinin həllində sağlam rəqabət mühitinin təmin edilməsi, bü

mühütə müvafiq sahədə tarixi təcrübəyə və iri kapital resurslarına malik kompaniyalann-investorlann gətirilməsinə nail ola bilməmişik. Azərbaycanda ayrı-ayrı iş adamlarının və maliyyə resurslarına malik fermer təsərrüfatlarının iri torpaq sahələrində əkinçiliklə və bitkiçiliklə məşğul olması nümunələri getdikcə genişlənməkdədir. Ancaq onların istifadəsində olan torpaq resurslarından müasir texnologiyalar əsasında daha məhsuldar nəticələrin əldə edilməsi yetərincə deyildir. Bu istiqamətdə olan işlərin əksəriyyətinə mövsümi və müvəqqəti yanaşma prinsipi də mövcud iqtisadi proseslərdə yer almışdır. Nəzərə alsaq ki, nisbətən bir az geniş maliyyə və torpaq resurslarına malik iri fenuer təsərrüfatlan və aqroqu- rumlar, istər-istıməz monopolizm elementlərinin genişlənməsinə rəvac verirlər və, nəticədə, regionda iqtisadi fəallığın səviyyəsi öz sürət tempini toplaya bilmir. Fikrimizcə, bu amillər əsas götürülməklə, əkinçilik və bitkiçilik təyinatlı XİZ modellərindən Azərbaycanda kənd təsərrüfatının texnoloji səviyyəsinin qaldınlmasın- da və onun intensiv inkişafının təmin olunmasında fərqli iqtisadi mexanizm kimi istifadə edilməsinə baxılması məqamı yetişmişdir.

Azərbaycanda XİZ-lərin tətbiqinə mane olan əsas problemlərin təhlili göstərir ki, müasir dövrdə bu problemləri doğuran mühüm amillərin əksəriyyətinin aradan qaldırılması imkanları mövcuddur. Bu məqsədlərlə, ilk növbədə XİZ institutunun ölkənin iqtisadi sisteminə daxil olmasını ləngidən problemlərin düzgün müəyyənləşdirilməsi və sistemləşdirilməsinə zərurət vardır. Bu problemlərə, əsasən ayrı-ayn iqtisadiyyat sahələrinin maraqlannm daha fəal iqtisadi mühitdən üstün tutulması, ölkənin iqtisadiyyat və xidmət sahələrində inhisarçılıq meyllərinin mövcudluğu, bir qrup iri holding və kompaniyalann ölkə iqtisadiyyatında mühüm mövqe və əhəmiyyətli yer tutması, innovasiya funksiyalannm tətbiqi üzrə elmi-iqtisadi təşəbbüslərinin və maarifləndirmənin zəifliyi, ölkənin elmi-tədqiqat müəssisələrində mövcud potensialdan zəif istifadə elmə və elmi-tədqiqat sahələrinə aynlan vəsaitlərin azlığı, müasir texnologiyalar və nanotexnologiyalar üzrə mütəxəssislərin hazırlanması və onların elmi-praktiki yaradıcılığının (fəaliyyətinin) təşkilinin kompleks baxılmaması, bazar iqtisadiyyatı struktur-

larinin maddi-texniki bazasının zəifliyi və bu sahədə xarici investisiyaların cəlb edilməsi, fəal iqtisadi mexanizmlərin təşkili məqsədilə xarici investorlann iştirakı ilə birgə fəali)^ət istiqamətində apanimış beynəlxalq iqtisadi əməkdaşlıq tədbirlərinin gücləndirilməsinin vacibliyi, ölkənin müvafiq Nazirliklərinin və Dövlət strukturlarının XİZ-lərin yaradılması ilə bağlı konkret təklifləri üzrə apanlan işlərin və görülən tədbirlərin axıra çatdınimaması və sairlər daxildirlər. Bunlarla belə, XİZ-lərin tətbiqini ləngidən ciddi problemlərdən biri də, bu istiqamətdə elm adamlarının, mütəxəssislərin və dövlət qurumları rəsmilərinin birgə müzakirələri, səyləri, araşdırmaları nəticəsində Azərbaycannm milli maraqlanın və prioritet iqtisadi inkişaf istiqamətlərini özündə əks etdirən mühüm amillər nəzərə alınmaqla, ölkədə XİZ modellərinin yaradılması və fəaliyyəti üzrə milli konsepsiyasının hələlik formalaşdınlmaması və qəbul edilməməsidir.

XİZ-lərin ölkəmizin real iqtisadi proseslərinə tətbiqinin prioritet istiqamətlərinə gəlincə isə, bu araşdınnalann nəticələri kimi, bir sıra mühüm iqtisadiyyat sahələrinin mövcud potensiallan və perspektivləri barədə məlumatlar, elmi-iqtisadi əsaslandırmalar, təhlillər və təkliflər verilmişdir. Qeyd etmək lazımdır ki, bütün bunlar dünya təcrübəsində XİZ-lərdə əldə edilmiş müvafiq nəticələr əsasında və bu kimi zonaların ölkəmizin iqtisadi sisteminə daxilolma imkanlan perspektivdən baxılmaqla, öz əksini tapmışdır. Bunlarla belə, təqdim edilən tədqiqat işində qarşımızda duran mühüm vəzifə kimi XİZ-lərin tətbiqi problemlərinin dərindən araşdı- nlması proseslərində əldə edilmiş nəticələrə əsasən Azərbaycanın iqtisadi sisteminə adaptasiya olunmasını mümkün hesab etdiyimiz XİZ modellərini və onların priortet tətbiq sahələrini bu işin nəticə hissəsində vermişik.

# NƏTİCƏLƏR

XİZ-lərin tətbiqi problemlərinin ümumiləşdirilməsi, qiymətləndirilməsi və müvafiq nəticələrin çıxarılması məqamı yetişdiyindən, bu istiqamətlər üzrə fikir və mülahizələrin, təklif və prioritet istiqamətlərin aydın və başadüşülən olması məqsədilə, konkret sual və cavab fonnasını seçməyə üstünlük verməyi məqsədəuyğun hesab etdik. Təqdim edilən tədqiqat işində XİZ-lərin elmi-nəzəri əsaslan, konseptual mahiyyəti, bu kimi zonaların təşkilinin metodoloji aspektləri, onlann dünya iqtisadiyyatında rolu və milli iqti- sadiyyatlann inkişafında təsiri amilləri, XİZ-lərin dünya təcrübəsindən nümunələr geniş yer aldığından, onlann təkrarlanmasına ehtiyac duymadığımızdan, bu zonaların real tətbiqi problemləri ilə bağlı spesifik xüsusiyyətlərinə və onların gerçəkləşdirilməsi ilə əlaqədar tələb olunan praktiki mərhələlərə dair məqsədəuyğun hesab etdiyimiz ardıcıllıqla toxunmaq istərdik.

Birincisi, XİZ-lərin nəzəri əsaslarından və onlara dair elmi baxışlardan bu kimi zonalar haqqında hansı qənaətə gəlmək olar? Fikrimizcə, nəzəri və praktiki baxımdan, həmçinin bu kimi zonalara dair müxtəlif elmi baxışlann və yanaşmalann, eyni zamanda XİZ mütəxəssislərinin söylədikləri fikirlərdən bu qənaətə gəlmək olar ki, XİZ fəlsəfəsinin və onun mahiyyətinin əsasında fərqli iqtisadi mexanizm və iqtisadi rejim, ətalətə düçar olunmuş iqtisadiyyat sahələrinin fəallığının artınıması, milli iqtisadi inkişaf proseslərinə yeni nəfəsin verilməsi, məhsuldar iqtisadi fəaliyyət üçün tələb olunan kapitalın, investisiya resurslannın cəlb edilməsinin asanlaşdınlması və dövlətin müəyyən edilmiş bir müddətə təsdiq etdiyi güzəştlər sistemi ilə (vergi, gömrük, torpaq, əmlak, infrastruktur və sairlər üzrə) qarşıda duran iqtisadi prioritetlərin, sosial- iqtisadi problemlərin həllinə imkan verən və milli subyektin digər ərazilərində fəaliyyət göstərən iqtisadiyyat sahələri ilə müqayisədə daha yüksək gəlir əldə etmək iqtidarında olan əlverişli iqtisadi mühitin mövcudluğu və onun bu əraziyə gələn rezidentlər üçün

cəlbediciliyi mühüm məna kəsb edirlər;

İkincisi, dünya iqtisadiyyatında XİZ-lərin müxtəlif tiplərinin və modellərinin fundamental öyrənilməsi hansı səviyyədədir və bu istiqamətdə Azərbaycanda əlavə nələri etmək lazımdır? Qeyd etmək lazımdır ki, XİZ-lərin müxtəlif modifıkasiyalannın dünya təcrübəsi və onlarla bağlı praktiki proseslərin öyrənilməsi istiqamətində ölkədə fundamental elmi-tədqiqat işlərinin sayı az olsa da, son illərdə bu kimi zonaların qanunvericilik bazasının formalaşdı-nlması proseslərində dünya təcrübəsi heç də pis ö>rənilməmişdir və əldə edilmiş nəticələrlə Azərbaycanda ilk XİZ-in tətbiqi proseslərinə başlamağı mümkün hesab edirik;

Üçüncüsü, əgər Azərbaycanda ilk XİZ-in tətbiqi proseslərinə başlamaq məqsədəuyğun hesab edilirsə, bu sahə üzrə qanunvericilik bazasının və qəbul edilmiş qanunların icrası üzrə nonnativ sənədlərin mövcud vəziyyəti hansı səviyyədədir? Biz əvvəllərdə bu barədə xeyli təhlillər və qeydlər vermişik və bu qənaətə gəlmək olar ki, Azərbaycanda XİZ-lərin yaradılması və fəaliyyəti üzrə qanunvericilik bazası artıq formalaşıb, eyni zamanda qəbul edilmiş Qanun, həmçinin bu Qanunun icrası ilə bağlı normativ sənədlər və prosedurlarla bağlı dünya təcrübəsində XİZ-lərin pozitiv və neqativ məqamları nəzərə alınmaqla hazırlandığından bu kimi zonala- nn real tətbiqi proseslərinin uğurlu olacağına inam çoxdur;

Dördüncüsü, əsas məqamlardan biri kimi XİZ-lərin Azərbaycanın müasir iqtisadi inkişaf prioritetlərində yer alıb və yaxud almaması sualına cavab tapmaqdır. Bu barədə ölkə rəhbərliyinin siyasi iradəsi, qəbul etdiyi qərarlar məlumdur. Hazırda əsas vəzifə kimi XİZ modellərindən hansının seçilməsi və ölkənin milli maraqlarına cavab verən şərtlərlə hansı iqtisadiyyat sahəsində tətbiqinin müəyyənləşdirilməsidir? Tədqiqatlar zamanı, həmçinin müxtəlif elmi araşdınnalarda, ölkə alimlərinin və mütəxəssislərinin fikirlərində bu məsələyə dair müxtəlif variantlar və modellər səslənmişdir. Lakin, təəssüf ki, hələ də Azərbaycanın ilk XİZ-lərinin konkret modelləri və onların tətbiq ediləcəyi prioritet istiqamətlər rəsmi olaraq müəyyənləşdirilməyib və bu istiqamətdə ölkədə milli

maraqlara cavab verən milli konsepsiyanın qəbuluna ehtiyac vardır;

Beşincisi, XİZ kimi mürəkkəb və çoxşaxəli iqtisadi mexanizminin nizamlamnası, idarəedilməsi və bu sahədə dövlət siyasətinin fomıalaşdınlması, reallaşdırılması proseslərinin icrası ilə məşğul olan quruma zərurət vanm? Fikrimizcə, XİZ kimi mürəkkəb iqtisadi funksiyaların kompleks formada həyata keçirilməsini təmin etmək iqtidarında olan iqtisadi mühitin və beynəlxalq inteqrasiya vasitəsinin real iqtisadi proseslərdə tətbiqinin təşkili, bu kimi zonaların yaradılması və fəaliyyəti məsələlərinin koordinasiyası, ölkənin ayn-ayn Nazirliklərinin və milli iqtisadiyyat sahələrinin icra orqanlarının sahə maraqlanndan asılı olmayaraq, milli maraqlara cavab verən və milli iqtisadiyyatın inkişafına, iqtisadi artım proseslərinə əlavə təsir göstərnıək imkanları olan XİZ-lər üzrə dövlət siyasətinin fomıalaşdınlması və həyata keçirilməsi məqsədilə xüsusi dövlət qurumunun yaradılmasının təmin edilməsinə ehtiyac vardır. Bu zəmrət onunla bağlıdır ki, XIZ-lərin yaradılması və fəaliyyəti prosesləri bir sıra mərhələlərdən keçir, ardıcıl və davamlı koordinasiya işlərinə daim tələbat vardır, ölkənin müxtəlif icra strukturları arasında iş aparılmalıdır, biznes və sahibkarlıq mühiti öyrənilməlidir, XİZ-lərin əsas məqsədləri və vəzifələri el-mi-iqtisadi əsaslandınimalıdır, potensial XİZ rezidentləri - subyektləri ilə effektivli əlaqələr qurulmalıdır, investisiya və iri kapital kanallan araşdırılmalı və investorlarla iş təşkil olunmalıdır, yerli icra orqanları və müxtəlif qurumlarla bu kimi zonalann təşkili və fəaliyyəti problemləri, ortaya çıxan suallar operativ baxılmalı, zəruri qərarlar qəbul edilməli, tədbirlər görülməlidir, belə zonalann yaradılması zamanı qarşıya qoyulmuş məqsəd və vəzifələri, icra prosesləri təşkil edilməli, dövlətin bu kimi XİZ-lərin fəaliyyəti üzrə qəbul etdiyi qərarların icrası və qanunvericilik aktlarının qorunması nəzarətdə saxlanılmalıdır və sair. Bir çox ölkələrdə, XİZ- lərin fəaliyyətinin koordinasiyası üzrə Nazirliklər, Assosiyasiyalar və yaxud dövlət tərəfindən müəyyən səlahiyyətlər almış Korporasiyalar (Kompaniyalar) fəaliyyət göstərirlər. Bəzi ölkələrdə bu işləri Dövlət Agentlikləri həyata keçirirlər. Hazırda Azərbaycanda

XİZ-lərin yaradılması və fəaliyyəti ilə bağlı əsas səlahiyyət sahibi kimi İqtisadi İnkişaf Nazirliyi müəyyən edilmişdir. Başqa sözlə, XİZ-lərin yaradılması və fəaliyyəti ilə bağlı iqtisadi əsaslandırmalar, təkliflər, bu Nazirlik tərəfindən həyata keçirilir və bu kimi zo- nalann potensial rezidentləri ilə danışıqlar aparılır. Bunlan nəzərə alaraq, XİZ institutunun yaradılması və fəaliyyəti proseslərini daha təşkilatlanmış fomıada nizamlamaq üçün Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin nəzdində müvafiq səlahiyyətlərə malik İdarənin (Departamentin) və yaxud Agentliyin yaradılmasına baxılması bir variant kimi təklif edilir. Fikrimizcə, daha optimal görünən digər variant kimi, Azərbaycan Respublikası Prezidentinin yanında və yaxud Azərbaycan Respublikası Nazirlər Kabinetinin strukturu kimi "Xüsusi İqtisadi Zonalar üzrə Dövlət Agcntliyi"nin (İdarəsinin) yaradılması daha məqsədəuyğun olardı. XİZ-lərin idarəedilməsi və koordinasiyası üzrə xüsusi dövlət qurumunun təsis edilməsi, şübhəsiz, bu kimi zonaların yaradılması və fəaliyyəti proseslərini sürətləndirməklə yanaşı, XİZ-lərin ölkəmizin iqtisadi sistemində yer tutmasına və bunlarla bağlı praktiki problemlərin həllinə əsaslı şəkildə köməkli göstərərdi;

Altıncısı, nəhayət, Azərbaycanda XİZ-lərin modelləşdirilməsi və praktiki tətbiqinin prioritet istiqamətləri necə olmalıdır sualına cavab tapmaq lazımdır. Başqa sözlə, ölkəmizdə hansı XİZ variantlarından istifadə edilməli və onlann prioritet tətbiq sahələri hansı iqtisadiyyat sahələri olmalıdırlar? Aparmış tədqiqat işləri və ölkəmizin iqtisadi inkişaf prioritetləri, həmçinin potensial olaraq, Azərbaycanın milli XİZ konsepsiyasına daxil olmaq perspektivləri olan və ölkəmizin iqtisadi sistemində tətbiqi təklif edilən XİZ modelləri və onların prioritet tətbiq istiqamətləri Şəkil 3-də




**Şəkil 3. Azərbaycanda XİZrin prioritet modelləri və tətbiqi sahələrinin sxemi**

Şəkil 3-dən göründüyü kimi, Azərbaycanda XİZ-lərin yaradılması və tətbiqi perspektivləri əsasən ölkənin qeyri-neft sektoru sahələri ilə bağlıdır. Xüsusi önəm verilən prioritet sahələr kimi tek- stil sənayesi və turizm-rekreasiya kompleksləri daha çox

cəlb edir. Elm və innovasiya təyinatlı zonaların praktiki reallaşdı- nlması ölkə iqtisadiyyatının innovasiya iqtisadiyyatına keçməsini sürətləndirməklə bərabər, yüksək standartlara cavab verən elmtu- tumlu məhsullann istehsalı üzrə müəssisələrin təşkilinə imkan verərdi. İxrac-istehsal zonaları və texnoparklardan fəal istifadə edilməsi Azərbaycanın ixrac potensialını artırmaqla yanaşı, dünya ba- zannda hər cür rəqabətə tab gətirmək iqtidannda olan məhsullann istehsalına şərait yaradardı. Bir sözlə, təklif edilən XİZ modellərinin ölkəmizin iqtisadi sisteminə daxil olması, müxtəlif iqtisadiyyat sektorlarının fəaliyyətini gücləndimıəklə yanaşı, bütövlükdə ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasına və beynəlxalq inteqrasiya imkanlanmn genişləndirilməsinə əlavə stimullar verəcəyi gözlənilir.

# ISTIFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Bakı, "Azəməşr", 1-36-cı kitablar.
2. Əliyev İlham. İnkişaf məqsədimizdir. Bakı, "Azəməşr", 1-7-ci kitablar.
3. Əliyev İlham-8 il hakimiyyətdə. Elmi-praktiki konfransın materialları. Bakı, 2011, 308 s.
4. Abbasov Ə., Məmmədov Z., Rzayev R., Həmişəyeva Ş. "Bank işi və elektron bankçılıq". Bakı, "Qanun" nəşriyyatı, 2003, 452 s.
5. "Azərbaycanın statistik göstəriciləri"-2011. Bakı. 848 s.
6. Azərbaycanda İnfonnasiya Cəmiyyəti. İnfonuasiya və Kommunikasiya Texnologiyaları. Statistik Məcmuə. Bakı, 2010, 152 s.
7. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı. 2011, 280 s.
8. Azərbaycanın Kənd Təsərrüfatı. Statistik məcmuə. Bakı, 2011, 618 s.
9. Azərbaycanda Telekommunikasiya və Poçt. Statistik Məcmuə. Bakı. 2011, 188 s.
10. Azərbaycanda əhalinin iqtisadi fəallığının müayinəsi: müayinənin keçirilməsinin metodologiyası və əmək bazannda vəziyyətin təhlili. Bakı - 2008. 320 s.
11. Azərbaycan Respublikasında xüsusi iqtisadi zonalann yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 6 mart 2007-ci il tarixli Fərmanı.
12. Azərbaycanda səhiyyə, sosial təminat və ətraf mühit. Statistik məcmuə. Bakı, 2011,284 s.
13. Azərbaycanda turizm. Statistik məcmuə. Bakı. 201 1, 188 s.

14. Azərbaycan Rüspublikası Prezidentin yanında Elmin İnkişaf Fondunun rəsmi saytı www.elmfondu.az.
15. Azərbaycanın Xarici Ticarəti. Statistik məcmuə. Bakı, 2011. 264 s.
16. Azərbaycanın Enerji Balansı. Statistik Məcmuə. Bakı, 2011, 192 s.
17. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı, 2009, 184 s.
18. Azərbaycanın regionları 2011. Statistik məcmuə. Bakı, 2011 - 770 s.
19. "Regionların sosial-iqtisadi inkişafı". Statistik məcmuə. Bakı, oktyabr -2011.- 496 s.
20. Azərbaycanın Nəqliyyatı. Statistik məcmuə. Bakı, 2011, 140 s.
21. Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı.
22. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan).
23. Azərbaycan Respublikasının Vergi Məcəlləsi (www.taxes.gov.az).
24. Ataşov B., Novruzov N., İbrahimov E. Müəssisələrin maliyyəsi. Bakı, 2009, "Kooperasiya" nəşriyyatı, 336 s.
25. Bayramov Ə. İnhisarizm. Bakı, «Elm» 2002, 389 s.
26. Eoman Butler. «Adam Smit - iqtisadiyyatın əlifbası». Bakı, «Azad Düşüncələr» Assosasiyası, «Elm» Nəşriyyatı - 2008.
27. Əhmədov G.Ə. "Kənd təsərrüfatında innovasiyaların tətbiqi istiqamətləri". Bakı, "Elm", 2010. - 484 s.
28. Əlləzov Q.S. İqtisad elminin nəzəri-metodoloji əsaslarının tarixi inkişafı (Monoqrafiya). Bakı; 2009. 328 s.

29. Əliyev Ş.T. Xüsusi iqtisadi zonalann təşkili problemləri və inkişaf perspektivləri. Bakı: «Elm» Nəşriyyatı - 2008, 252 s.
30. Əliyev Ş.T. Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişafında xüsusi iqtisadi zonalar amili. "İqtisadi inkişaf'jurnalı, X" 3. Bakı-2007, s. 39-44.
31. Əliyev Ş.T. Azərbaycanın iqtisadi inkişaf proseslərində yeni iqtisadi vasitələrin tətbiqi perspektivləri. "Məruzələr", AMEA,X2İ. Bakı-2009, s. 135-144.
32. Əliyev Ş.T. Azərbaycanın dünya təsərrüfat sisteminə inteqrasiya proseslərində xüsusi iqtisadi zonalann əhəmiyyəti və onların təşkili məsələləri. "İqtisadiyyat və həyat "jumah, X2 5Bakı-2008, s. 36-41.
33. Əliyev Ş.T. Azərbaycanda xüsusi iqtisadi zonalann gerçəkləşdirilməsində Sumqayıt sənaye-istehsal kompleksi amili. "Audit" jurnalı, Xo4. Bakı-2011, s.46-55.
34. Əliyev Ş.T. Azərbaycanda iqtisadi inkişaf proseslərində xüsusi iqtisadi zonaların yaradılması və onlann tətbiqində qanunvericilik məsələləri. "İqtisadiyyat və həyat" jurnalı, Xe ll,Bakı-2008, s. 33-38.
35. Əliyev Ş.T. Azərbaycanın dünya təsərrüfat sisteminə inteqrasiya proseslərində xüsusi iqtisadi zonalann əhəmiyyəti və onların təşkili məsələləri. «İqtisadiyyat və həyat» jurnalı, Xo5, Bakı-2008, s.36-41.
36. Əliyev Ş.T. Azərbaycanda kimya və neftkimya sektorunun potensialından səmərəli istifadə edilməsində xüsusi iqtisadi zonalar amili. «İqtisadiyyat və həyat» jurnalı, X®?, Bakı-2008, s. 22-26.
37. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların yeni iqtisadi instrument kimi tətbiqi problemləri və onlann modelləşdirilməsi. "Məruzələr"AMEA, Xo3, Bakı, 2008, s.144-151.

38. Əliyev Ş.T. «Sumqayıt sənaye mərkəzində elmi-texniki potensialın qiymətləndirilməsi və səmərəli istifadə edilməsi məsələləri)), «Məruzələr)), AMEA, Bakı, >fo 5, 2009, s.l36-146.
39. Əliyev Ş.T. “Azərbaycanda sənaye sahələrinin gücləndirilməsi məsələləri)). - «Məruzələr)) AMEA, JVg 6, Bakı-2009, s.139-149.
40. Əliyev Ş.T. «Azərbaycan Respublikasında kimya və neftkimya kompleksinin mövcud iri gücə malik qurğulanndan istifadə məsələləri)), «Xəbərlər)), AMEA, JVo2, Bakı - 2009, s.
37-45.
41. Əliyev Ş.T. «Sumqayıt kimya və neftkimya kompleksinin potensialından istifadə edilməsində səmərəlilik və maliyyə mənbələrinin gücləndirilməsi məsələləri)). «Maliyyə və uçot)) jurnalı, JNfoS Bakı-2009, s.25-35.
42. Əliyev Ş.T. Sumqayıt sənaye mərkəzinin innovasiya iqtisadiyyatına keçid məsələləri. «Sosial-iqtisadi tərəqqi, inkişaf və naili}o'ətlər)) mövzusunda Sumqayıt şəhərinin 60 illiyinə həsr edilmiş konfransın materiallan. Sumqayıt, 15 may 2009, s.63-67.
43. Əliyev Ş.T Sumqayıt sənaye mərkəzində kimya və neftkimya kompleksinin inkişaf konsepsiyası məsələləri, «Iqtisadiyyat və həyat)), ***Nnl,*** Bakı, 2009, c.31-34.
44. Əliyev Ş.T. Xüsusi iqtisadi zonalann əmək ehtiyatlarından səmərəli istifadə edilməsində tətbiqinin strateji aspektləri. «Əmək və sosial problemlər)) jurnalı, Xs 1(6) 2010, Bakı, 2010, s.46-52.
45. Əliyev A. “Azərbaycanın iqtisadi siyasəti”. Bakı, “Qanun”, 2003, 324 s.
46. Əmək bazan. Statistik məcmuə. Bakı. 2011, 194 s.

47. Gənciyev G.Ə., Ələkbərov Ə.R., Məmmədova-Gənciyeva L.G. ‘Transmilli korporasiyalar” Bakı, “Elm”, 2007, 192 s.
48. Gənciyev G.Ə. “Beynəlxalq iqtisadi münasibətlər: müasir vəziyyət və inkişaf problemləri”. Bakı, “Elm”- 2005, 260 s.
49. Xüsusi iqtisadi zonalar: fonnalaşma və inkişaf aspektləri mövzusunda elmi-praktiki konfransın materiallan. Bakı, 2007. 112 s.
50. Xüsusi iqtisadi zonalar haqqında Azərbaycan Respublikasının Qanunu (14 aprel 2009-cu il).
51. Xüsusi iqtisadi zonalar haqqında» AR Qanununun tətbiq edilməsi haqqında AR Prezidentinin 3 iyun 2009-cu il tarixli Fərmanı.
52. Xüsusi iqtisadi zonanın sərhədlərində gömrük nəzarətinin, gömrük məntəqələrinin fəaliyyətinin, mallann gömrük rəs-miləşdirilməsinin, nəqliyyat vasitələrinin və fiziki şəxslərin sərhəddən buraxılma rejiminin sadələşdirilmiş Qaydalannm təsdiq edilməsi barədə AR Nazirlər Kabinetinin 25 dekabr 2009-cu il tarixli 199 nömrəli qərarı.
53. Xüsusi iqtisadi zonalann operatorunun seçilməsi üzrə müsabiqənin keçirilməsi Qaydaları. AR Prezidentinin 2010-cu il 20 aprel tarixli Fərmanı.
54. Qasımov F.H., Nəcəfov Z.M. “İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri”. Bakı: “Elm”, 2009, 416 s.
55. Quliyev T.. İnflyasiyanın anatomiyası. Bakı, 2006.
56. Məhərrəmov A.M., Aslanov H.H.. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı, 2008. - 400 s.
57. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Bakı Universiteti nəşriyyatı, 2009, 373 s.
58. Məmmədov Z., İbrahimov Z. Pul. Kredit. Banklar. Bakı, “[illegible]” 2009, s. 330

59. Mirələmov H.F., Məmmədov Ç.İ. Nanotexnologiya və nanokimyanın əsasları, Bakı, 2008. 294 s.
60. Muradov Ş.M. Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etno-demoqrafik dəyişikliklər (1897-2007-ci illər). Bakı: "Elm", 2008. – 240 s.
61. Nadirov A., Muradov Ş., Ələsgərov A., Nuriyev Ə., Hüseynov T. "Azərbaycan iqtisadiyyatı". Bakı, "Elm", 2003, 344 s.
62. Nəcəfov Z.M. Milli innovasiya sistemlərinin əsasları. Bakı, "Elm", 2006, 180 s.
63. Nuriyev Ə.X. "Regional siyasət və idarəetmənin əsasları". Bakı – "Elm və təhsil" – 2011, 514 s.
64. Salahov M.S., Əliyev Ş.T. Sumqayıt şəhərində sənaye kompleksinin potensialından səmərəli istifadə edilməsi perspektivləri, "Məruzələr", № 5, AMEA, Bakı, 2008, s.119-127.
65. Şəkərəliyev A. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı, 2009, 416 s.
66. Səmədzadə Z.Ə. "Dünya iqtisadiyyatı. Çin "iqtisadi möcüzəsi". Bakı, Gənclik, 2001. – 324 s.
67. Аббасов Ч.М. Экономика Азербайджана на путях глобализации: предпосылки и последствия. Баку, «Элм», 2007, 384 с.
68. Авдокушин Е.Ф. Международные экономические отношения. Москва. Юристъ, 2004.
69. Азизова Г.А. Рынок труда Азербайджана. Баку, «Элм», 2005, 303 с.
70. Алекберов А.Я. Экономические и правовые проблемы использования вторичных ресурсов в условиях рынка. М.: Изд-во «Союз», 2002. – 380 с.
71. Алиев Ш.Т. Влияние специальных экономических зон на

повышение инновационной конкурентоспособности экономики Азербайджана. Материалы II Всероссийской научно-практической конференции «Актуальные проблемы экономической науки и хозяйственной практики в современных условиях». 07 июля 2010, г. Москва, с. 7-10.

72. Алиев Ш.Т. «Важность применения специальных экономических зон в расширении инновационных процессов». Материалы международной конференции «Инноватика - 2010», 21-24 марта 2010, Ульяновск, (Россия), с.171-172.
73. Алиев Ш.Т. «Роль специальных экономических зон в активизации инновационной деятельности». Материалы Международной научно-практической конференции «Экономика и управление: инновационные пути развития», Саратов, 25 мая - 10 июня 2010, с.23-26.
74. Алиев Ш.Т. «Роль технопарков и особых экономических зон в развитии инновационной деятельности в Азербайджанской Республике». Материалы Всероссийской научно-практической конференции «Управление организацией в условиях кризиса» 5 - 7 октября 2009 г. Нижний Новгород, с.54-55.
75. Алиев Ш.Т. Роль инноваций и специальных экономических зон по преобразованию крупных промышленных комплексов в современных условиях, Материалы II Международной заочной научно-практической конференции «Актуальные вопросы технических, экономических и гуманитарных наук», Россия, г. Георгиевск, 15 — 17 декабря 2009 г., с. 67 – 71.

76. Алиев Ш.Т. «Роль инноваций в развитии предпринимательства и ускорении применения специальных экономических зон в Азербайджане». Материалы конференции «Инновации в современном мире: проблемы и перспективы». Центр прикладных научных исследований, Волгоград, Россия, 18 сентября 2009, с. 76-80.
77. Алиев Ш.Т. «Вектор специальных экономических зон в инноватизации», Журнал «Инновационная деятельность», г. Саратов, 2010, № 4 (13), с. 7-11.
78. Алиев Ш.Т. Важность применения новых экономических инструментов в экономических процессах Азербайджана, "Национальные интересы: приоритеты и безопасность ", № 12. Москва, 2009, с. 80 – 84.
79. Алиев Ш.Т. Важность управления процессом создания и функционирования особых экономических зон в странах СНГ. Журнал «Менеджмент в России и за рубежом », Москва, № 3-2009, с. 69-72.
80. Алиев Ш.Т. Специальные экономические зоны: приоритеты и проблемы использования в условиях глобализации. Баку, «Элм», 2010. 140 с.
81. Алиев Ш.Т. «Проблемы законодательства в процессе создания и функционирования особых экономических зон в постсоветских республиках» Материалы научно-практической конференции «Актуальные проблемы экономики и совершенствования правового регулирования экономики». Международная академия финансовых технологий. г. Пятигорск (Россия), 5-6 марта 2009, с.102-108.
82. Алиев Ш.Т. «Вопросы конкурентоспособности и клас-

терного развития экономики Азербайджана в региональном аспекте». Журнал "Региональная экономика: теория и практика", № 7, Москва, 2010, с. 82 – 88.

83. Алиев Ш.Т. Вопросы развития химической промышленности Азербайджанской Республики, «Химическая промышленность России сегодня», № 8, г. Москва, 2010, с.5-9.

84. Андрианов В.Д. «Россия: экономический и инвестиционный потенциал». Москва, ОАО «Экономика». – 1999. –467 с.

85. Ахмед Юсеф А. М. Свободные экономические зоны в странах Восточной, Юго-Восточной Азии, арабского мира: возможности использования их опыта в Судане. Дис…канд.экон.наук. Российский Университет дружбы народов. Москва – 2003. 178 с.

86. Баженова Ю. В. Мировой опыт применения кластерного подхода в развитии свободных экономических зон и российские перспективы. Дис…канд.экон.наук. Дипломатическая Академия Министерства Иностранных дел Российской Федерации. Москва – 2009, 156 с.

87. Басенко А. М. Функции свободных экономических зон в механизме интеграции национальной экономики в системе мирохозяйственных связей. Дисс…д-ра экон. наук. Ростовский Государственный Экономический Университет. 2002. 342 с.

88. Босчаева З.Н. Управление экономическим ростом. Российская социально-экономическая мысль. Изд-во «Экономика», Москва, 2004- 316 с.

89. Брынцев А. Н. Формирование инвестиционного климата в промышленности в условиях свободной экономичес-

кой зоны. Дисс…д-ра экон. наук. Академия Народного Хозяйства при Правительстве Российской Федерации. Москва, 2004. 322 с.

90. Внешнеэкономическая деятельность предприятия. Москва. Международная. Отношения, 2001. – 544 с.
91. Венхуа Ло. «Инвестиционная привлекательность свободной экономической зоны как условие эффективного социально-экономического развития региона». Дис… канд.соц.наук. Московский Государственный Университет им. М.В.Ломоносова. – 2007, Москва, 162 с.
92. Величко П. Ю. «Научное обоснование комплексного использования приемов рейдерного маркетинга в градостроительных программах туристско-рекреационной особой экономической зоны на территории курорта Сочи», Сочи, 2007, 148 с.
93. Гаджиев Ш.Г. Азербайджан к мировому сообществу: стратегия экономического развития. Киев. – 2000. 503 с.
94. Гайнутдинов Н.А., Иванов Ю.Б., Меламед И.И. Особые экономические зоны как инструмент развития морских портов Российской Федерации. Москва, 2008. – 256 с.
95. Герун Д. В. «Создание особых экономических зон туристско-рекреационного типа как фактор регионального экономического развития». Дисс…канд. экон. наук. Сочинский Научно-Исследовательский Центр Российской Академии Наук. Сочи – 2009 – 166 с.
96. Голиченко О.Г. Национальная инновационная система России: состояние и пути развития. Москва, «Наука», 2006.
97. Грачев Ю.Н. Внешнеэкономическая деятельность. Организация и техника внешнеторговых операций. Москва,

ЗАО «Бизнес-школа» «Интел-Синтез», 2001. – 592 с.

98. Захарова Н.В. Экономика стран Европейского Союза. Изд-во "Гардарики". Москва. 2008. – 205 с.
99. Зименков Р.И. Свободные экономические зоны. Изд-во ЮНИТИ-ДАНА, Москва, 2005. – 223 с.
100. Иванов В.В. Национальные инновационные системы. Теория и практика формирования. Москва. 2004.
101. Игошин Н.В. «Инвестиции. Организация, управление и финансирование». Москва. – 2000.
102. Исмаилов Т.А. и Гамидов Г.С.. Инновационная экономика- стратегическое направление развития России в XXI веке. Журнал «Инновации», № 1. Москва. 2003.
103. Исмаилов С.Ф. Реформирование и развитие промышленных предприятий в условиях переходной экономики. Баку: «Элм», 2006. – 340 с.
104. История мировой экономики. (Под ред. Г.Б.Поляка, А.Н.Марковой). Изд-во ЮНИТИ-ДАНА. Москва. 2008. - 671 с.
105. Кантонистова Е.А. «Организационно-экономические механизмы государственного регулирования развития особых экономических зон в России». Дисс… канд. экон. наук. Государстенный Университет Управления (Россия). Москва. 2008. 212 с.
106. Каниовский М.А. Огранизационно-экономический механизм инновационной деятельности в особых экономических зонах технико-внедренческого типа. Дис…канд. экон. наук. ГОУ ВПО «Московский Государственный Университет Приборостроения и информатики». Москва, 2009, 166 с.

107. Кетов А. Х. «Режим свободной экономической з международно-правовые и национально-прав аспекты». Дисс…канд. экон. наук. Российский Уні ситет Дружбы Народов. Москва, 2001, 188 с.
108. Королев Ю.А. «Совершенствование институционалі форм управления инновационным развитием регион базе особой экономической зоны». Дисс. на соиск ученой степени кандидата экономических наук, Ка: 2010, 180 с.
109. Комаров В.В. Зоны свободной торговли: краткий сло Изд-во «Финансы и статистика». Москва. – 2004. 16(
110. Котлер Ф. Основы маркетинга. Пер. с англ. Москва. дом «Вильямс», 2008 – 656 с.
111. Кхань Х.В. Формирование свободных экономиче зон во Вьетнаме: современное состояние, пробл перспективы. Дисс...кан. экон. наук. Россий Академии Наук Институт Экономики РАН, Моск 2009. – 140 с.
112. Клим И. В. Роль особых экономических зон в инн ционном развитии мировой и российской эконом Дис…канд. экон. наук. Всероссийская Акад Внешней Торговли. Москва – 2010. – 172 с.
113. Кулиев Т.А. Регулируемая рыночная экономика. I 2000. – 452 с.
114. Левицкий К. В. Свободные экономические зоны инструмент стимулирования экономической активн (на примере Калининградской области). Дисс… к экон. наук. Финансовая Академия при Правитель Российской Федерации. Москва, 2005, 182 с.
115. Леонидов Б.А. Роль СЭЗ в привлечении иностран

капитала в России. Журнал «Внешняя торговля», № 5-6, Москва, 2000 г.

116. Лескова Л.Г. «Формирование особых экономических зон как фактор динамичного развития регионов». Дис…канд. экон. наук. Российская Академия Государственной службы при Президенте Российской Федерации. Москва – 2000 г., 168 с.
117. Лютый И.А., Кулиев Р.А. Инвестиционная деятельность. Баку, 2009. 400 с.
118. Материалы Первого Азербайджано-Российского Экономического Форума «Азербайджано-Российские торгово-экономические отношения: тенденции и перспективы их развития». Баку, «Нурлан», 2004. – 294 с.
119. Мировая экономика. Под.ред.А.С.Булатова. Москва. «Экономист», 2008. – 860 с.
120. Мегаполисы в условиях глобализации. Сб. обзоров и рефератов / РАН. ИНИОН. Центр научн.-информ. исслед. глобал. и регион. пробл. Отд. глобал. пробл. – М., 2008. – 178 с.
121. Международные экономические отношения: (В.Е.Рыбалкин и др.): под ред. В.Е. Рыбалкина. Изд-во ЮНИТИ-ДАНА, Москва – 2009. – 623 с.
122. Мурадов Ш.М., Гёзалова А.К., Эфендиев Р.Дж. Глобализация, демографическое развитие и трудовая активность населения в Азербайджане. Баку: “Элм”, 2007, 264 с.
123. Мушаева О.В. «Особые экономические зоны как инструмент развития экономики по инновационному пути». Дисс…канд. экон. наук. Российская Академия Государственной Службы при Президенте Российской

Федерации. Москва – 2009, 192 с.
124. Нара Д. Свободные зоны как территориальная экономическая подсистема национальной экономики: проблемы формирования и функционирования. Дис…канд. экон. наук. Ивановская Государственная Текстильная Академия (Россия), 2005. – 138 с.
125. Национальная экономика. Под. общей ред. акад. РАЕН. В.А.Шульги. Изд-во Российской Экономической Академии. Москва. 2002. - 592 с.
126. Неклюдова В.А. Венгрия: свободные экономические зоны как средства привлечения иностранных инвестиций и развития экономики. Журнал «Внешнеэкономический бюллетень». № 6. Москва. 2001.
127. Никифорова Л.Ю. Роль экономического туризма при создании туристско-рекреационной особой экономической зоны. Дисс…канд.экон.наук. Российская Академия наук Институт проблем региональной экономики. Санкт-Петербург – 2009. – 172 с.
128. Новичков А.В. Экономическая теория (Политическая экономия). Москва, Изд-во «Дашков и К°», 2005 – 1008 с.
129. Осипов В.С. «Специальные экономические зоны как механизм совершенствование деятельности государственного сектора экономики». Дисс…канд.экон.наук. Всероссийская Государственная Налоговая Академия Министерства Финансов Российской Федерации. Москва, 2007. – 186 с.
130. Павлов П.В. Особые экономические зоны как институциональные инструменты включения России в глобализирующееся мировое хозяйство. Дисс…д-ра экон. наук. Таганрог (Россия). 2006. 360 с.

131. Панорама экономической мысли конца XX столетия. Под. ред. Д.Гринэуэя, М. Блини, И.Стюарта: В 2-х т..Пер.с англ.под ред. В.С.Автономова и С.А.Афонцева. Санкт-Петербург, Экономическая Школа, 2002, Т. 1. XVI + 668 с.

132. Присекина К.А. «Стратегической управление компанией в условиях промышленно-производственной особой экономической зоной». ГОУ ВПО «Российская Экономическая Академия имени Г.В. Плеханова». Дисс…канд. экон. наук. Москва – 2009. – 166 с.

133. Питти Герра П. К. «Принципы развития промышленности развивающихся стран в свободных экономических зонах». Санкт-Петербургский Государственный Политехнический Университет. 2006, 196 с.

134. Пушкин А.В. Особые экономические зоны в России: правовое регулирование/ А.В. Пушкин, И.Г. Богданов. – Москва.: Альпина Бизнес Букс, 2009. – 228 с.

135. Ревякин Е.В. Приоритеты экономической политики России в Калининградской области/ Мировая экономика и международные отношения. – Москва 2002. - № 12. – с. 68-75.

136. Региональная экономика. Т.Г.Морозова, М.П.Победина, Г.Б. Поляк и другие. Изд-во ЮНИТИ-ДАНА. Москва. – 2003. 519 с.

137. Специальные экономические зоны и территории. Новый порядок. – Харьков: Центр «Консульт», 2005. – 152 с.

138. Стиглиц Дж. Ю. «Справедливая торговля для всех. Как торговля может содействовать развитию» (Джозеф Ю.Стиглиц, Эндрю Чарлтон; пер.с англ.)– Москва.: Издательство «Весь Мир», 2007. – 280 с.

139. Сяопин Д. Основные вопросы современново Китая. Изд-во «Литература», 1988. 256 с.
140. Ткачук М.И., Киреева Е.Ф. Основы финансового менеджмента. Мн.: Интерпресссервис, Экоперспектива, 2002. – 416 с.
141. Тоффлер Э. Третья волна. / Пер. с анг. Москва, АСТ, 2002.
142. Тяньмин Г. «Особые экономические зоны в мировом хозяйстве (сравнительный анализ их функционирования в Китае и России)». Дисс…канд. экон. наук. Московский государственный институт международных отношений – 2010, 186 с.
143. Фоломьев А.М. Обоснование инновационного типа воспроизводства. Журнал «Экономист», № 8. Москва – 2005.
144. Хоа Н. М.. Свободные экономические зоны и их роль в современной экономике Вьетнама. Дисс…канд. экон. наук. Пятигорск (Россия) – 2002, 172 с.
145. Цяньшэн П., Ван К. – Опыт китайских зон технико-экономического развития / Пер. с кит. – СПб. : Изд-во С.-Петерб. ун-та, 2006. – 487 с.
146. Швыдак Н. «Правовое регулирование хозяйственной деятельности в свободных экономических зонах». // Право и экономика. - №1. – 2001. –81 с.
147. Шоидарвозова М. С. «Свободные экономически зоны как форма привлечения иностранных инвестиций в экономику Республики Таджикистан». Дис… канд. экон. наук. Институт Гуманитарных наук Академии Наук Республики Таджикистан, Хорок – 2005. 152 с.
148. Шоу-Джи Г. Свободные экономические зоны как инструмент рыночной трансформации экономической системы (на материалах КНР). Дисс…канд. экон. наук.

Российский Государсртвенный Педагогический Университет им.А.И.Герцена. Санкт-Петербург – 1998. 164 с.

149. Щеглов А.В. «Специальные экономические зоны как инструмент повышения конкурентоспособности национальной экономики». Дис…канд. экон. наук. Московский Государственный Университет им. М. В. Ломоносова, 2003, 212 с.

150. Экономическая теория на пороге XXI века. Глобальная экономика/ под. ред. Ю.М.Осипова, С.Н. Бобурина, В.Г.Белопитского, Е.С.Зотовой. – Изд-во «Юрист», Москва – 2003. 992 с.

151. Юйсю С. Свободные экономические зоны и их виляние на национальную экономику и внешнеэкономические связи. Дис... канд.экон.наук. Москва. РГБ, 2003.

152. Юсупов К.Н., Янгиров А.В., Таймасов А.Р.. Национальная экономика. Изд-во КНОРУС. Москва. 2008 - 288 с.

153. Adam Smith. Wealth of Nations. Translater/Editor Edwin Cannan. Methuen & co. Ltd. (http://www.econlib.org/library/Smith/smWNCover.html).

154. Aliyev Sh. T. The Importance of Sumgait Industrial Center in the Economic Development of Azerbaijan, Conference// International Scientific Bulletin "Perspectives of Innovations, Economics and Business", Prague, Czech Republic, September 2009, p.34-35.

155. Aliyev Sh.T. The Perspectives of Enforcement of the Special Economic Zones Role in Acceleration of Extension of the Social-Economic Problems in Azerbaijan in the Context of the Experience of Poland, X International Scientific Conference of Economics – E-society in Central and Eastern Europe, Nalenchov, May 11-13, 2009, p. 409-412.

156. Aliyev Sh.T. «The World Experience Factor in the Formation of Special Economic Zones in Azerbaijan Republic». 3rd Central European Conference in Regional Science.TU Kosice, Slovakia, October 7th-9th, 2009, p. 59 – 64.
157. The World Bank, World Development Indicator. 2001.
158. Elektron resurs: 2011-ci il Azərbaycanın İKT sektoru üçün uğurlu il hesab oluna bilər. http://ictnews.az.
159. Електронные ресурсы: OECD Science Techonology and Industry Outlook. 2004. www.oecdcentre.hse.ru/bulletin.html).
160. Електронные ресурсы: http://profinance.kz/2011-06/17/print:page,1,sz-park-informacionny-tenologi-planiruet-zaverit.html.
161. Електронные ресурсы: http://news-ru.trend.az/print.shtml?newsid=1508891&lang=ru

# X Ü L A S Ə

Monoqrafiyada dünya iqtisadi proseslərində effektivli iqtisadi mexanizm kimi bir çox ölkələrin iqtisadi sistemində yer almış Xüsusi iqtisadi zonaların tətbiqi problemləri araşdırılmışdır. Müəllif bu məqsədlə XİZ-lərin elmi-nəzəri əsaslarını, onların mahiyyətini, elmi-metodoloji cəhətlərini, bu kimi zonalann təşkili və idarəedilməsinin spesifik xüsusiyyətlərini, XİZ-lərin tipləri və fonnalan, onlann dünya iqtisadiyyatında və beynəlxalq iqtisadi münasibətlər sistemində rolunu təhlil etmişdir. Təhlillər zamanı XİZ-lərin inkişaf etmiş ölkələrdə təşkili və fəaliyyəti xüsusiyyətlərinə, belə zonalann iqtisadi inkişaf proseslərinə verdiyi əlavə pozitiv stimullara və investisiya mühitinin yaxşılaşdırılmasında işlək iqtisadi mexanizm kimi fəal iqtisadi mühitin yaratmasına daha çox yer ayrılmışdır.

Son 30-40 il ərzində Asiya ölkələrində, xüsusilə, Çində XİZ-lərdən uğurlu istifadə və bununla bağlı bu kimi zonalann fəaliyyətlərinin nəticələri, onların ayn-ayn ərazilərin, regionlann və milli iqtisadiyyatlann sürətli inkişafına təsiri üzrə araşdırmalar elmi-praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir. Monoqrafiyada bunlarla bağlı materiallar geniş yer almış və əldə edilmiş elmi nəticələr əsasında XİZ-lərdən səmərəli istifadənin mühüm aspektləri barəsində elmi fikirlər və mülahizələr irəli sürülmüşdür.

Müəllif Azərbaycanda XİZ-lərin təşəkkülü, onlann qanunvericilik bazasının formalaşdırılması və bunlarla bağlı problemlərin əsas mahiyyətini açıqlamağa səy göstərmişdir. Apanimış elmi tədqiqatlar və təhlillərin sistemləşdirilməsi nəticəsində Azərbaycanda XİZ-lərin spesifik modellərinin və onlann tətbiq edilməsi üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi məqsədi ilə müvafiq təkliflər verilmişdir.

Monoqrafiya elmi işçilər və XİZ-lərin təşkili üzrə praktiki proseslərlə məşğul olan mütəxəssislər üçün faydalı olmaqla yanaşı, bu kimi zonaların praktiki tətbiqi problemlərin həlli üzrə qəbul edilən dövlət Proqramlannın və Qərarlannın hazırlanmasında istifadə oluna bilər.

# РЕЗЮМЕ

В монографии исследована роль специальных экономических зон (СЭЗ) как эффективного экономического механизма в мировых экономических процессах в экономических системах ряда стран. С этой целью автором анализированы научно-теоритические основы СЭЗ, их значимость, методологические аспекты, специфические характеристики, организация и управление подобными зонами. В ходе анализа СЭЗ большое внимание уделено особенностям зон эффективного влияния на процессы экономического развития и приданию дополнительных стимулов для улучшения инвестиционного климата и формирования активной экономической среды.

За последние 30-40 лет азиатские страны, особенно Китай, добились рационального использования СЭЗ для практического решения стратегических экономических задач. С помощью подобных зон удалось обеспечить ускоренное развитие отдельных регионов и отстающих отраслей национальной экономики. Автором приведен целый ряд примеров из мировой практики, которые свидетельствуют о продуктивной роли СЭЗ в ускорении экономического развития отдельных стран.

В монографии особое внимание уделено процессам формирования законодательной базы СЭЗ в Азербайджане. Обоснована целесообразность и эффективность использования СЭЗ как продуктивного экономического инструмента в экономической системе страны. В результате проведенных исследований даны приоритетные модели и основные направления внедрения оптимальных форм СЭЗ в разные потенциальные отрасли национальной экономики Азербайджана.

Монография может быть полезна научным работникам и специалистам организации и функционирования СЭЗ, в то же время, полученные научно-практические материалы данной монографии могут использоваться в подготовке и принятии соответствующих государственных программ и постановлений практического внедрения СЭЗ.

# SÜMMARY

The monograph examines the role of special economic zones (SEZ) as an effective economic mechanism in global economic processes in the economic systems of several countries. To this end the author analyzed scientifically-theoretical foundation of SEZ, their relevance, methodological aspects, specific characteristics, organization and management of such areas. During the analysis of SEZ the great emphasis was placed on features of zones on the positive impact on economic development and giving additional incentives to improve the investment climate and the fonnation of active economic environment.

During the last 30-40 years Asian countries, cspecially China, have made effective use of SEZ for the practical solution of strategic economic goals. With the help of such zones it became possible to ensure the accelerated development of individual regions and lagging sectors of national economy. The author provides a number of examples of the world practiee which indicate the productive role of SEZ in accelerating economic development of individual countries.

In the monograph the main consideration was given to the processes of fonnation of the legislation base of SEZ in Azerbaijan. Expediency and efficiency of sez as a productive economic instrument in the economic system of the country is substantiated. In the result of made analysis were given the priority models and main direetions of introduction of optimal fonns of SEZ in different potential industry of the national economy Azerbaijan.

Monograph can be useful to rescarehers and specialists of organization and funetioning of the SEZ, and at the same time, the scientific and practical materials of the given monograph can be used in the preparation and adoption of the relevant State programmes and regulations implementation of SEZ.

ŞƏFA ƏLIYEV

# XÜSUSI IQTISADI ZONALARIN TƏTBİQİ PROBLEMLƏRİ

Formatı; 60x90 1/16. Ofset çapı. Həcmi 22.5

Sifariş 240. Tiraj 500

Satış üçün nəzərdə tutulmamışdır

T«VFar 447 75 04. ?•!.: 447 75 05

mətbəəsində çap olunub